**MƏHƏMMƏD HADİ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab “**Məhəmməd Hadi**. Seçilmiş əsərləri. İki clddə. I cild”
(Bakı, Elm, 1978) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edənlər: **Əliheydər Hüseynov**
**Əziz Mirəhmədov**
**Əbülfəzl Hüseyni**

İzah və qeydlərin müəllifi: **Əziz Mirəhmədov**

Lüğətin müəllifi: **İslam Qəribli**

**894.3611 - dc 21**
**AZE**
**Məhəmməd Hadi. Seçilmiş əsərləri.** Bakı, “Şərq-Qərb”, 2005, 464 səh.

XX əsr Azərbaycan klassiklərindən, dünya romantizminin orijinal simalarından olan Məhəmməd Hadi (1879-1920) ədəbiyyatımız tarixində şərəfli yer tutur. O, milli romantizmin ideya-estetik prinsiplərini zəngin bədii yaradıcılıq təcrübəsində və ədəbi-tənqidi əsərlərində əsaslandırmışdır.

Hadi türk, Şərq və Avropa ədəbiyyatlarını, fəlsəfəsini dərindən mənimsəmiş və bütün bu təsirləri şeirlərində yaradıcı şəkildə əks etdirmişdir. Əfsuslar olsun ki, dövrün bəzi başqa Azərbaycan və Türkiyə şairləri kimi M.Hadinin də dilindəki mürəkkəb ifadələr, ərəb-fars tərkibləri oxucunun bu böyük şairi lazımınca qavramasına, dərk etməsinə müəyyən çətinliklər törədir.

Əli bəy Hüseynzadənin “Füyuzat” jurnalının müəlliflərindən olan müqtədir şair keşməkeşli və faciəvi sonluqla bitən bir ömür yaşamışdır.

Seçilmiş əsərlərindən ibarət olan bu kitabında Hadinin öz romantik təbiətindən gələn bir güclə daim işığa çağıran şeirləri, qiymətli sənət nümunələri olan poemaları, eləcə də yüksək bəşəri duyğular aşılayan və müəllifin yaradıcılıq idealları ilə səsləşən iqtibas və tərcümələri toplanmışdır.

**ISBN 9952-418-64-4**

© “ŞƏRQ-QƏRB”, 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ÖN SÖZ

XX əsr Azərbaycan şerində romantizm cərəyanının ən qüdrətli nümayəndələrindən biri Məhəmməd Hadidir. Keşməkeşli və faciəvi sonluqla bitən bir ömür sürmüş Hadi türk, Şərq və Avropa ədəbiyyatlarını, fəlsəfəsini dərindən mənimsəmiş və bütün bu təsirləri şeirlərində yaradıcı şəkildə əks etdirərək, orijinal şair kimi ədəbiyyat tariximizdə özünə layiqli yer tutmuşdur.

Məhəmməd Hadi (Əbdüssəlimzadə Ağaməhəmməd Hacı Əbdülsəlim oğlu Hadi Şirvani) 1879-cu ildə Şamaxıda anadan olmuşdur. Atasız-anasız, məşəqqətli uşaqlıq həyatı keçirən Hadi əvvəlcə nənəsi Teyyibə xanımın, onun vəfatından sonra isə yaxın qohumu Mustafa Lütfinin (Şamaxının tanınmış aydını, Həştərxanda çıxan "Bürhani-tərəqqi" qəzetinin redaktoru olub) himayəsində böyümüş, ondan ərəb dilini öyrənmiş, daha sonra Şamaxıda mədrəsədə altı il o vaxtkı elmlərdən (tarix, ədəbiyyat, hüquq və şəriət fənnindən) dərs oxumuş, müntəzəm şəxsi mütaliə yolu ilə klassik Şərq bədii-fəlsəfi fikrinə aşina olmuşdur.

Çox çəkmir ki, məhəllə məktəbi, mədrəsədə empirik-ruhani təhsil romantik ilhamlı, açıq fikirli gəncin hələ cilovsuz xəyal dünyasına, sərbəst, fitri şair ruhuna və ilhamına dar gəlir ("Qabiliyyət pərimə zəxm vurub ustadım", yaxud "Çirаği-huşimi söndürdü kəmşüur ustad..."), daha geniş dünyaya çıxmaq, təhsilini Şərq elm mərkəzlərində davam elətdirmək arzuları isə kasıblıq ucundan daşa dəyib çilik-çilik olur:

Oxumaqçün nə qədər dadü fəğan etdimsə,
Olmadı zərrə əsərbəxş bu istimdadım.
Dağa dersən eşidir, sonra verir əks-səda,
Daşa dönmüşlərə əks eyləmədi fəryadım.

Sevdiyi gözəlin varlı taciri kasıb şairə tərcih etməsi və rəqibə ərə getməsi Hadinin gözəllik və həyat eşqinin digər qolunu və qanadını da sındırır, onsuz belə fəryadlı, qasırğalı ruhunu yenidən dalğalandırır. İlk oxu daşa dəyən şair bundan sonra heç kəsə könül vermir və ömrünün sonuna qədər evlənmir:

Xürama gəlmədi hurim görüb məram alayım,
Vüsali-yardan artıq mən olmuşam məyus,
Üyuni-cazibəsi baxmadı mənə, əfsus,
Şu sahiranə baxışdan doyunca kam alayım.

Lakin Hadinin könül verdiyi və ömrünün sonuna qədər "məyus olmadığı" bir "vüsali yar" həsrəti, əbədi nakam qaldığı, fəqət yolundan heç vaxt dönmədiyi bir vüsal intizarı da var idi. Bəs o, nə idi?

Bilirsinizmi nədir mənсə nüxbeyi-amal?
Könüldəki əməlim millətin səadətidir...
Ey Vətən! Ey pəriyi-vicdanım!
...Səni sevmək deyilmi imanım?

Hələ ilk gəncliyindən ("Bir əməlim" şeri) etiraf etdiyi bu nisgilin ünvanı və imzası şairin kamal və müdriklik dövründə daha dəqiq, daha əyani (relyefli) milli müəyyənlik kəsb edir:

İmzasını qoymuş miləl övraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində...

Lakin əvvəl-axır ruhundakı fırtına və üstəlik, ayağının altındakı – Şamaxıdakı zəlzələ (1902) ona səbəb olur ki, şair Şirvanı tərk etsin. O, evi-eşiyi dağılmış, əzizlərini itirmiş halda qohum-qonşu və qohum-qardaşla birlikdə Kürdəmirə gəlir.

İlk yazısı 1905-ci ildə "Həyat" (24 iyun, sayı 35) qəzetində çıxır: "Bəyani-həqiqət". Erkən qələm təcrübələrində ("Həyat"da çıxan "Lövhi-məkatib"də, Həştərxanda nəşr olunan "Bürhani-tərəqqi"dəki mənzumələrdə) əsas mövzu – məktəb, maarifdir. Xüsusən, məşhur birinci rus inqilabı (1905-1907-ci illər) və onunla başlayan daha sonrakı hadisələr ərəfəsində o, dalbadal silsilə şeirlər yazaraq, milli, mədəni, inqilabi oyanışı "əhrarənə nəğmələrlə" tərənnüm edir: "Təraneyi-qəmpərvərənə", "Nəğməyi-əhrarənə", "Düşizeyi-Hürriyyətə", "Təraneyi-əhrarənə", "Amali-vicdan", "Təraneyi-vətənpərəstanə". Ruhundakı fırtına əhrarlı misralara dönmək və təşnə könüllərə səpələnmək üçün ən yaxşı meydanı o vaxtkı mətbuatda – "Həyat"ın, "İrşad"ın və xüsusilə "Füyuzat"ın (1905-1907) səhifələrində tapır. Əli bəy Hüseynzadə onu dərgidə işləmək üçün Həştərxandan Bakıya dəvət edir (1906).

Növbəti illərdə Hadi digər mütərəqqi milli ruhlu qəzetlərin əksərində ("Təzə həyat", "Həqiqət", "İttifaq", "Tərəqqi", "Səda"...) və dövrün vətənsevər ziyalısını ürəkdən narahat edən əksər mövzularda (milli keçmiş, əxlaq, etika, mədəniyyət, din, dil, etiqad, fəlsəfə, tarix, ictimai fikir, klassik Şərq və Qərb elmi və ədəbi-bədii irsi kimi problemlər, özü də ən çeşidli, fərqli üsul, forma və janrlarda icmal, oçerk, rəy...) əsərlər çap etdirir.

Orijinal yaradıcılıqla yanaşı, Şərqdə klassik irsdən – Xəyyamdan, Nizamidən, Sədidən, Hafiz Şirazidən, Cəlaləddin Rumidən zamanı üçün xüsusilə aktual və faydalı saydığı əsərləri (yaxud, əsərlərdən parçaları) ana dilinə çevirir.

1908-ci ilin Türkiyə inqilabına böyük marağı və onun ideallarına inamı Hadinin İstanbul səfəri ilə nəticələnir (1910). Burada "Tənin" qəzetində tərcüməçi işləyir, həmçinin, "Rübab", "Şahbal", "Məhtab", "Hilal" kimi qəzet və dərgilərlə də əməkdaşlıq edir.

“İttihad və tərəqqi” firqəsinə, “Gənc türklər” hərəkatına inamın sarsılması, real türk gerçəkliyinə dəyib parçalanan romantik xəyallar ona səbəb olur ki, şairin Türkiyədən yazdığı şeirlər də qatı müxalifət mövqeyindən səslənir. Hadini açıq siyasi çıxışlar şəkli alan etirazlarına görə Salonikə sürgün edirlər (1913). Şair böyük ümidlə can atdığı İstanbul səfərindən xəstə və pərişan bir halda Bakıya qayıdır (1914), “İqbal” redaksiyasında işə düzəlir. Lakin dinc həyat çox sürmür. Dünya müharibəsi başlayan kimi Bakı müsəlman diviziyasının tərkibində Hadi də Avropaya yola düşür, qaynar nöqtələrdə (Karpatlarda, Polşada, Qalisə, Lemberq və Stanislavada) olur. Bir sıra şeirləri, “İnsanların tarixi faciələri”, yaxud “Əlvahi-intibah” poeması (1918-1919) məhz cəbhə və səngər günlərinin məhsuludur. Türkiyə inqilabından sonra Rusiyada Fevral (1917) burjua inqilabının qələbəsi haqda xəbər Hadi romantikasında yeni bədii yüksəlişə qida verir. O, bu inqilabı çarizmin devrildiyi və imperiya xalqlarının azadlığa çıxdığı “Hürriyyət inqilabı” kimi doğru dərk edir və alqışlayır (“Hürriyyət şənliyi və ülvi mənzərələr” məqaləsi, “Sovqat” qəzeti, 1917).

1918-ci ildə Bakıda qanlı mart hadisələri, erməni-rus tərkibli və rəhbərli bədnam “Bakı kommunası”, şəhərdə kütləvi müsəlman qırğınına gətirib çıxaran bolşevik-daşnak qəsdi və bütün bunlarla bağlı növbəti “dünya kədəri”ndən sonra Hadi şerində üçüncü intibah, üçüncü milli azadlıq romantikası dövrü başlayır: Şərqdə ilk Cümhuriyyətin Azərbaycanda bərqərar olmasını (ADR dövrü) şair bədii alqışlar və “Əhrarlı təranələr”lə qarşılayır (“Azərbaycan hökuməti” novzadinə”, “Şühədayi-Hürriyyətimizin ərvahinə ithaf”, “Zəfəri-nəhayiyə doğru”, “Əsgərlərimizə, könüllülərimizə”, “Məfkureyi-aliyəmiz” şeirləri). Ənənəvi hərb, cəngavərlik ruhunda yazılan “Əsgərlərimizə, könüllülərimizə” şerinin döyüş ahəngi, cəngi və marş ritmi inandırırdı ki, öz hücum və mübarizə rübabını şair cümhuriyyətin qələbəsinə salamat və zədəsiz gətirib çıxartmışdır:

Payimali-düşmən olsunmu çəmənzari-vətən?!
Yurdumuz sizdən bu gün çox ali hümmət gözləyir.
Hifz üçün əğyar əlindən dilbəri-hürriyyəti,
Müstəqil olmuş vətən əzmü mətanət gözləyir.
Qoymayın olsun xəzan gülzari-istiqlalımız,
Sizdən istiqlalımız parlaq təravət gözləyir.
Millətin heysiyyətin yüksəldin, ey qeyrətvəran,
Millətim sizdən böyük şanü şərafət gözləyir.
Şanlı ölmək ölməməkdir, anlayın bu hikməti,
Pürşərəf kim can verərsə ani rəhmət gözləyir.
Millətim istər yürəkdən çox şərəfli bir həyat,
Anlasın, etsin bunu idrak əhli-kainat!

(*“Azərbaycan” qəzeti, 1919, 21 aprel, sayı 162*)

Cəngi əhvalı, səfərbər edən şəhidlik və qəhrəmanlıq ruhu şairin eyni adda yazdığı ikinci şeirdə daha ali bədii-fəlsəfi apofeoz təşkil edir:

Qorxutmamalı bizləri yollardakı əngəl,
Məfkurəyə doğru yürü, qoş, durma, çapuq gəl.
Millət tikəcək naminə, ölsən dəxi, heykəl,
Qoyma toxuna yurduna naməhrəm olan əl.
Bizlərdə bu gün olmalı bir məqsədi-əkməl,
Bir məqsədi-əkməl və bir ümmidi-mübəddəl,
Amalınıza doğru şitaban olalım, gəl!

İstərsən əgər yurduna hürriyyəti-nazan,
Düşmənləri ehraq üçün ol atəşi-suzan,
Tənviri-vətən etməyə ol nuri-füruzan,
Dillərdə bu gün olmalı bir əzmi-xüruşan,
Lərzidəqədəm olmamalı azimi-meydan,
Ehyayi-vətən üçün, əvət, verməli yüz can,
Amalımıza doğru şitaban olalım, gəl,
Millətlə vətən rahinə qurban olalım, gəl!

(*"Qardaş sevgisi"*)

Hadi təkcə Cümhuriyyətin amalına – "Məfkureyi-aliyəmizə" iki şeir həsr etmişdi. Bakıda mart qırğını da ən ağrılı şəhid ağrısını, növhəsini (özü də hadisədən onca gün sonra) martın 31-də "Azərbaycan" qəzetində, Hadidə tapmışdı.

Utopik qardaşlıq çağırışına, birtərəfli "beynəlmiləllik idilliyası"na, ayıq, oyaq əks-səda da o zamankı ədəbi-bədii fikirdə yenə Hadi şerindən eşidilir.

Eyni istiqlal ovqatı Hadinin bu vaxta qədər yasaqda qalan digər iki cümhuriyyət dövrü şerində – "Zəfəri-nəhiayiyə doğru" və "Əsgərlərimizə, könüllülərimizə" mənzumələrində də davam edir.

"Aydınlıq bir gecədə təfəkkür dəqiqələri", "Kor soqqur", 'Baharın ilhamları və ictimai rəmzlər", "Hərarətli şeir və yaxud qızdırmalı halımda saçmalarım" kimi ehtiraslı, klassik fəlsəfi lirika da Hadi şerində Cümhuriyyət dövrünün ovqatı və məhsuludur.

Cümhuriyyətin məhvi Hadinin də şerinin ovqatında, özünün ruhunda və səhhətində növbəti dəfə əks olunur, bu dəfə artıq son, ölümlə nəticələnən böhran şəklində tragik ifadəsini tapır.

Gəncədə vəfat edən şair (1920, may) burada da dəfn edilir.

Hadi – iyirminci yüzil Azərbaycan poeziyasında yeni romantizmin böyük nümayəndəsidir.

Keçmiş imperiya ərazisində ilk böyük rus inqilabının dalğasında üzə çıxan sosial azadıq hərəkatı və milli İntibah dalğası öz qoşa qanadlı və qoşa

zirvəli təzahürünün realist-bədii qanadını Sabirin şerində tapırsa, romantik qanadını Hadidə tapır. “Gördüyüm nikü-bədi eyləyim izhar, yazım, Bədi bəd, əyrini əyri, düzü həmvar yazım” – əgər Sabir öz realist şeir təlimini belə ifadə edirdisə, Hadinin poeziya bəyanatı tamam başqa idi:

Nədir bilirmisiniz şeir? Nurdən məstur,
Xəyal gülşəninin nuridir bu zadeyi-nur.

“Amali-vicdan” şerində o, bu bəyanatı bir qədər də açıqlayır, bütöv estetik proqram səviyyəsinə qaldırırdı:

Edər mürği-dilim pərvaz füshətgahi-lahutə,
Nəzərdə gərçi cövləngahi-nasut aşiyanımdır.
Deyil süflayə mayil, etilapərvazdır ruhim,
Onunçun şeri-ülvi cilvəarayi-bənanımdır.
Xəyalım hürr, can sərbəst, fikrim laübalidir,
Məni azad edən sultani-əqli-nüktədanımdır.
Cahanda bərhəyat olduqca bitməz təbi-fəyyazım,
Məni intaq edən bir qüvveyi-möcüzbəyanımdır.

Şairin “uçsaydım” – dediyi “o müəlla cahanlar”, cismən də “Yüksəlmək istədiyi asimanlar”, könlünün quşunun isə artıq çoxdan yuvadan uçduğu, “pərvaz etdiyi füshətgahi-lahutə” məhz ağlın cahanı, maarifin asimanı idi. Bu “cahan” gerçək cahandan ona görə ali və ülvi idi ki, onun səma idilliyasında yer vəhşətləri, istibdad zülmü və cəhalət girdabı, “ərbabi-vəhşətlər” və nadan sürüləri, boynu epoletli məmurlar və əmmaməli jandarmlar, nə də cəbr, zor və bıçaq stixiyası yox idi.

Milli, bəşəri və fərdi “mən” deyəndə dünyanı nəzərdə tutan, bütünlükdə xalq, bütünlükdə millət adından danışan romantik şair siyasi və iqtisadi cinahlara, dini, irqi və milli sərhədlərə parçalanmayan aləmi təkcə uzaqda, zirvədə, asimanda xəyala gətirə bilirdi.

Öz bədii, publisist, elmi-fəlsəfi yazılarında Hadi əslində real gerçəkliyi də, cəmiyyətin özünü də ictimai cinahlara və silklərə, siniflərə və tayfalara, ümumiyyətlə heç bir sosial-siyasi intriqa qütblərinə, məhdud-subyektiv təmənna və mənafe təbəqələrinə parçalamır, dövrünün milli azadlıq hərəkatını ümumxalq oyanışı, ümummilli intibah kimi tərənnüm edirdi: nəinki bütün milləti, hətta etnik, irqi, sinfi mənsubiyyətdən asılı olmayaraq, bütün müsəlmanları vəhdətə – “İttihad”a çağırırdı. Hadi poeziyasını məhz vulqar sinfi və qatı bolşevikvari mizan-süzgəc, qapan-tərəzi hesabı ilə “sayğaca salan” və təftiş edən, saxta “sosialist realizmi” yarlıqlarında öz ifadəsini tapmış standart qiymətlərdən təmizlənəndə görürük ki, elə məhz bu cəhət şairin dünyagörüşündə “məhdudluq”, “ideya ziddiyyəti”, “mürtəcelik”, “irtica ünsürləri” deyildi,

humanizmin bədii miqyası, ənənə gücü və bəşəriliyi idi. Əbədi, əzəli, ümumbəşəri meyar və mizanlar güzgüsündə Hadi poeziyası özünün bütün bədii-fəlsəfi qövsü-qüzehi ilə, daha qabarıq, daha möhtəşəm görünür. Bu poeziyada bütünlükdə istibdad, əski dini-feodal həyat tərzi özü eybəcərdir, müstəbidin, nadanın, tüfeylinin, caninin... milli mənsubiyyəti, irqi, sinfi çeşidi isə Hadi üçün maraqsızdır:

Qaldıq əlində bir sürü ərbabi-vəhşətin,
Olduq əsiri pənceyi-qəhrü müsibətin...
Hər kəs gərək bərabər ola hər hüquqdə,
Ehsanidir bu ərz bizə dəsti-qüdrətin.

(*"Dad istibaddan"*)

Yaxud:

Azadə gərək şəxs, süxən, fikr ilə xamə,
Hər kəs gələ hürriyyət ilə şövqə, xüramə.

Başqa sözlə, Əlibəy Hüseynzadənin ("Füyuzat" ədəbi məktəbinin) romantik-maarifçi ideya xətti bu şeirlərdə də əsas fəlsəfi leytmotivi təşkil edirdi. Kimdir müqəssir? Ruhaninin də, bəyin də, kəndlinin də, əsnafın da nadanı, cahili, vəhşisidir – müqəssir. Xalqın faciəsinin, bütün fərdi və ictimai bəlaların səbəbi və rəhni yalnız odur. Bu bəlaların hamısından xilas olmağın yolu – nicatı isə yalnız maarifdədir, Şərqə əskidən xas olan "daxili-əxlaqi təkamül", ənənəvi "fərdi mənəvi mükəmməllik" idealındadır. Lakin, min heyf, min təəssüf ki, xalq çoxdan bu ideallardan uzaq düşüb. Odur ki, istibdadın da, zülmün də, müsavatın və hürriyyətin yoxluğunun da səbəbini – cəhaləti faş etmək lazımdır:

Cəhalətdir əsası zülmü cövri-xanimansuzun,
Maarif olsa, zülmün məhv olur, əlbəttə bünyani.

Yaxud:

Nə sitedadi-ülviyyət, nə də ürfanımız vardır,
Fikirsiz, xeyirsiz yüz min sürü nadanımız vardır...
Deriz məqsudumuzdur kəbeyi-ülyayi-hürriyyət,
Fədayi-rahi-hürriyyət nə bir qurbanımız vardır...

(*"Nəyimiz var"*)

Nəinki daxili zülmün və sinfi bərabərsizliyin, hətta yada baş əyməyin də, müstəmləkə köləliyinin də səbəbi – milli, dini, mənəvi, mədəni, elmi cəhalətdir:

Bizim bu cəhlimizdən istifadə qıldı qərbiyyun,
Biz olduq naxələf övlad, çıxdı dəst sərvətdən.
Ərazimiz, vətənimiz, mülkümüz mal oldu əğyarə,
Bütün məhrum qaldıq malü cahü şanü şövkətdən.
Biz etdik bizlərə, yox kimsədə təqsir vallahi,
Düçari-zillət olmağımız deyildir başqa millətdən.

(*"Facieyi-həyatımızdan bir pərdə"*)

Əlbəttə, "inqilab"a, "cəbr"ə, "bıçaq"a xitablar bu poeziyanın özündə də var. Lakin burada da söhbət yenə maarif inqilabından və şair, filosof, loğman "bıçağından" gedir; "xəstə bədənləri sağalda bilmək məqsədi ilə kəsən", yaran almasrəng bıçaqlardan gedir, "övham və xürafat mərəzi ilə xəstələnən fikirləri, dimağları təşrih eliyən də inqilab bıçağıdır". Bu bıçağın nə Nikolayın edam çarmıxı ilə, nə Robespyerin almas gilyotini ilə, nə də bolşevikin boz terror buldozeri və qırmızı "proletar" baltası ilə heç bir əlaqəsi yox idi (Belə bir "əlaqəni" bu vaxta qədər ancaq və ancaq "qırmızı ədəbiyyatşünaslıq" axtarır və zorla, inadla "tapmağa" çalışırdı). "Bu inqilab bıçağı" yazıçıların qara mürəkkəb axıdan "parlaq qələmləridir" (Hadi. "İnqilab fikri, yaxud müsəlmanların düşünməsi lazım gələn həqiqətlər" məqaləsi, 1914). Şair məhz bu ali, bəşəri, vicdani ideal uğrunda bütün türk dünyasını Qələmdə birləşib vəhdətdə mübarizə etməyə çağırır:

"Qan qardaşı, can qardaşı, şan qardaşıyız biz!"

(*Tofiq Fikrət*)

Öylə illərdir ki, gəlmişdir mürüvvət günləri,
Hüsni-şəfqət günləri, mehrü məhəbbət günləri.
Qaynasın canlardakı xuni-həmiyyətlər bu gün,
Boylə icab eyləyir namusla qeyrət günləri.
Qəlblər təsirlənsin ahdan, fəryaddan,
Çünki doğmuşdur, görün, şəfqətlə riqqət günləri.
Milli duyğuyla döyünsün, titrəsin dillər bu gün,
Odlu duyğu istəyir sizdən bu şəfqət günləri.
Milli duyğu, milli vicdan milli himmətlər dilər
Türkün oğlundan bu gün milli üxüvvət günləri.

(*"Qardaş sevgisi"*)

Hadi dünyagörüşünün və fəlsəfəsinin su içdiyi ideya çeşmələri öz başlanğıcını milli nihilizm və bolşevizm təbliğ edən konyunktur mətbuatdan – "Qudok"dan və "Qoç-Dəvət"dən, "Kavkazski raboçi listok"dan yox... Xəyyamdan, Füzulidən və Sənaidən, Cəlaləddin Rumidən, Sədi və Hafizdən, Volter və Hüqodan, Namiq Kamaldan, Tofiq və Əbdülhəq Hamiddən alırdı.

“Firdovsi-ilhamat” (1908), “Eşqi-möhtəşəm” yaxud “Əflatun sevgisi” (1914), “Şükufeyi-Hikmət” (1914), “Əlvahi-intibah” (1918) M.Hadinin Azərbaycanda sovet hakimiyyəti qurulana qədər çap olunmuş əsas kitablarıdır. Bunlarda şairin ən müxtəlif mövzularda (İran inqilabından, Balkan müharibəsindən tutmuş rus Dumasına qədər) və çeşidli janrlarda (qəsidə, qəzəl, məsnəvi, rübai, qitə, poema, hekayə, mənsur şeir, oçerk, məqalə, rəy, xatirə, məktub, reportaj) yüzlərlə şeri, yetmişə yaxın məqaləsi, bir hekayəsi (“Səadəti-zailə”), bir elmi oçerki (“Budda kimdir?”) bir yerdə cəm olunub oxucuya çatdırılmışdır. Bütünlükdə onların hamısının ruhunda, pafosunda kədər tərənnümdən, ittiham kədərdən güclü idi. Belə ki, bu romantikada az qala satira və Sabir səviyyəsində tənqid, ittiham və ifşa pafosu var idi. Təsadüfi deyil ki, hətta bəzi romantik ifşalarını Hadi Molla əmiyə xitab kimi səslənən rədiflə və nəqəratla qurtarırdı:

Zənn etmə bizi qabili-ülviyyət, a Molla!
Hala deyilik layiqi-hürriyyət, a Molla!

(*“Molla Nəsrəddin”ə*)

“Molla Nəsrəddin” özü realist ictimai satiralarında romantik Hadiyə dəfələrlə əsaslanmış, Sabir isə Hadinin “Rəhgüzari-mətbuatda”, “İstiqbalımız parlaqdır”, “Ümüdi-vüsali-canan, yaxud qəm yemə” (Hafizdən tərcümə) əsərlərinə nəzirə-parodiyalar yazmışdı (“Ey dilbəranə tərzdə...”, “İstiqbalımız lağlağıdır”, “Qəm yemə”). 1905-ci il hadisələrinə, Bakıda yerli müsəlmanlara qarşı bolşevik-daşnak qəsdinə hər iki şairin münasibəti, hər ikisinin barmaqla göstərib, dəqiq işarə etdikləri qatil çarizm (!) eyni idi.

Həmçinin, Arazın o tayındakı dostlara və düşmənlərə münasibətində də Hadi və Sabir heç nə ilə fərqlənmirdi: Təbriz inqilabının, Səttarxan hərəkatının müştərək bədii sənədləri onların şeirləri idi. “Bariqeyi-zəfər parlayır, istiqbal bizimdir” (1909) şerilə “Səttarxan” şerini eyni romantik alqış, eyni təbrik və əhsən nidası birləşdirirdi. “Təraneyi-zəfər”, “Bir iranlının lisanından” (Seyid Əşrəf Gilani), həmçinin “Bir sərgüzəşti-xunin” (Katull Mendes) poeması kimi hərarətli tərcümə və iqtibasların da ideya pafosu Şərqdə sosial və milli azadlıq hərəkatına Hadinin böyük marağından xəbər verirdi.

Özünün “Məfkureyi-aliyə”sini, şəhidlik və hürriyyət himnini Hadi bütünlükdə (bölünməmiş!) Azərbaycan və vahid türk dünyası miqyasında ifadə və elan edirdi:

Qaldır səmayi-şövkətə nəcmi-məalini,
Göstər bu ərzin əhlinə cahü cəlalini!
İsbat qıl həyatını əqvami-aləmə,
Bəxş eylə bir həyati-novin Şərqi-əzəmə.
Ey türk dövləti, ey bəxti-növcavan!

Olsun da qibtəbəxşi-miləl hər siyasətin,
Şayani-afərin ola bilsin fərasətin.
Ədayi-namüradə sübut et ləyaqətin,
Bilsin nədir ləyaqəti bu canlı millətin!..
Qoş nura, qoş ziyaya, qoş ürfana, hikmətə,
Bir şahrahi-bariqədar aç bu millətə.
Millət bu yolda xitvələr açsın da qayəyə,
Çıxsın təkamül eyləyərək ülvi payəyə.
Türk aləmində parlasın ənvari-intibah,
Gülsün həyatımızda da əzmari-intibah.

(*"Məfkureyi-aliyəmiz"*)

Hadinin təsirləndiyi, nəzirələr yazdığı və tərcümə etdiyi nümunələr sırasında birinci yeri – qardaş Türkiyədə milli intibahın, inqilab ideyasının və azadlıq ruhunun təbil çalanları və carçıları, "fikri hürr, vicdanı hürr" şairlər – böyük osmanlı maarifçiləri və romantikləri tutur (Şairin "Nasıl yüksəlməli?", "Ulduzlar", "Faciəyi-həyatımızdan", "İranın hürriyyət qəhrəmanlarına", "Canlı şəkillər", "Ümməhati-həyat", "Bir iştikayi-möhriq" və s. kimi şeirlərini xatırlamaq kifayətdir).

Onlardan təkcə birinə – xüsusi məhəbbətlə sevdiyi Tofiq Fikrətə o, özünün "Şükufeyi-hikmət" kitabını ("Böyük Tofiq Fikrətə kiçik töhfə" ithafı ilə) və ayrıca dörd şerini həsr etmişdi: "Bir iştikayi-möhriq", "Tofiq Fikrətə", "Xəluqun pədəri" və "Fikrət!". Tofiq Fikrətin milli intibaha və mənəvi azadlığa çağırış idealları Hadinin üsyankar romantikasına daxilən yaxın və doğma idi:

Ey inqilab şairi, nəğmənlə inlədin!
"Dünya dəyişdi, əski dimağı atın!" – dedin...
"Əski düşüncə, əski həyatı atın!" – dedin,
"Zülmət, ölüm doğan bu yeri parlatın!" – dedin.

Tofiq Fikrət kimi Hadinin də xəlqiyyəti – bəşər, milliyyəti – türk, zehniyyəti – islam və irfan olub; türk xalqlarından hər biri Hadini də öz doğma şairi və oğlu hesab edə bilər:

Yaşa, ey ittifaqi-millətəfruz!
Yerə bat, ey nifaqi-xanimansuz!

Nə sünnü-şiə var Quranımızda,
Üxüvvət ləfzi var fürqanımızda.

Elə ona görə də Hadi bütün yaradıcılığı boyu bütün türklərin şairi olan Tofiq Fikrətlə yanaşı Abdulla Cövdətə, Mahmud Əkrəm Rəcaizadəyə, Əbdülhəq Hamidə dəfələrlə xitab edir, onlardan misra, beyt, bənd, sitat gətirir, onlara ayrıca şeirlər həsr edir.

Onları, böyük türk poeziya münəvvərlərini birləşdirən ən böyük bayraq isə eyni bir "məfkureyi-aliyə"dir:

Məfkurəmiz yolunda nə lazımsa etməli,
Məqsudə doğru əzmi-xüruşanə getməli.
Çıxsın dilərsə qarşımıza hər məzarımız,
Qorxmaz məzardan bu dili-əzmkarımız.
Guş eyləsin bu fikrimi əqvami-kainat.
Amali-zülcəlalımız iştə gözəl həyat!
Vicdani-millətə yazılıbdır bu ayəmiz,
Ən şanlı, ən şərəfli həyat iştə qayəmiz.

(*"Məfkureyi-aliyəmiz"*)

Bu ideyaların həm keçmişi, həm də gələcəkdə diriliyi üçün (hürriyyət üçün!) tökülən qanlara, bütün dövrlərin böyük şəhidlərinə borcluyuq:

Sizin məzarınız iştə qülubi-millətdir,
Bu sözlərim ürəyimdən qopan həqiqətdir.
Sizi unutmayacaq şanlı millətim əsla,
Əmin olun buna, ey ziynəti-cahani-fəna.
Sizinlə buldu bu millət şərəfli istiqlal,
Sizinlə buldu bu millət həyati-püriqbal.
Bu gün də etmədə əhli-vətən sizi yad,
Salamlayır sizi iştə bu milləti-azad.

(*Şuhədayi-hürriyyətimizin*
*ərvahına ithaf*)

"Beşikdən məzaradək bəşərin əhvalı" (1909) epik mənzuməsində böyük türk romantiklərilə yanaşı, böyük fransız maarifçilərinə, xüsusən, Jan Jak Russoya da açıq-aşkar yaxınlıq hiss olunur.

Məhəmməd Hadi Monteskyö, Volter və Russo ilə məhz osmanlıcaya tərcümələr vasitəsilə tanış olmuşdu. (Bütünlükdə Azərbaycan romantiklərini Qərb və dünya romantizminə qovuşduran körpü rolunu türk romantik ədəbiyyatı öz öhdəsinə götürmüşdür).

Əslində, burada təsirlənmədən yox (baxmayaraq ki, Hadinin açıq-aşkar iqtibas şeirləri də var), bədii səsləşmədən söhbət gedə bilər. Ümumiyyətlə, XIX-XX yüzillərin böyük Türk romantizmini Əbdülhəq Hamid, Namiq Kamal, Mahmud Əkrəm, Tofiq Fikrət, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq, Divanbəyoğlu... demək olar ki, birlikdə yaratmışlar. Məhz onların bir sənətkar, ideoloq və mütəfəkkir xidmətindən (hünərindən!) dünya romantizminin Qərbdən və Rusiyadan (M.Y.Lermontovdan) sonra ikinci klassik intibahı Asiya-İslam, Şərq dalğası yaranmışdır. Həm fəlsəfə və kədər, həm də xitab, üsyan və poeziya kimi ro-

mantizm Bayrondan və Şillerdən sonra yeni zirvəyə Namiq Kamalın və Tofiq Fikrətin, Məhəmməd Hadinin və Hüseyn Cavidin simasında yüksəlmişdir:

Ürək al qanə dönmüş, Hadiya, hüzni-ümumidən,
Bu hüznü bəxş edən kimdir dilü vicdanə, bilməm ki?!

(*"Təraneyi-qəmpərvərənə"*)

Lakin bu "hüzni-ümumi" həm də məlum "dünya kədəri"ndən, onun Nəsimi, Füzuli və Bayron təzahüründən fərqlənirdi. Qlobal Eşq burada "vətən sevgisi", qlobal "tale" – millət və xalq üçün şəxsi nigarançılıq çaları kəsb edirdi:

Vətən seylabi-istibdaddan viran olub yeksər...
Vətən əhrar üçün bir guşeyi-zindan olub yeksər...

Yaxud:

Mən ölmədən əvvəl vətənim oldu məzarım,
Ərbabi-zəka düşmənidir indi diyarım...

Yaxud:

Ey Nuh! Açıb da çeşmini pak et qubardan,
Sən qoyduğun kimi dururuq, bax məzardan!

Göründüyü kimi, burada artıq "iki cahan" haqqında Nəsimi, "iki dünya" haqqında Füzuli (ürfan, təsəvvüf!) təlimi yoxdur, "iki məzar" haqqında Hadi konsepsiyası vardır və bu iki məzarın ikisi də torpaq, ikisi də Vətəndir:

Əməl yolunda əgər ayrılarsa can təndən,
Bu ayrılıq özü fikrimcə, eyni-vüslətdir.

(*"Təkamüli-məkusə"*)

Özü də məhz konkret, milli Azərbaycan mənasında "Vətən" anlayışı Hadi poeziyasında həmişə və hər yerdə əsas mübtədanı təşkil edir.

"Ah, kimsəsiz vətən", "Vətən" "Müxatibim Şirvandır", "Vətənin nidası", "Faciəyi-həyatımızdan bir pərdə", "Tövsiyeyi-mürğ". "İranın hürriyyət qəhrəmanlarına"... hamısı iyirminci yüzilin əvvəlində Azərbaycanın real ictimai gerçəkliyindən ayrı-ayrı canlı, diri səhnələrdir – "əlvahi-Azərbaycan"dır. O qədər canlı və diri ki, onları romantik kainatın intəhasız arzu, xəyal ərazisindən ayırmaq və ən dünyəvi, xalis bir realist ədəbiyyatın tənqidi, satirik ərazisi olan "Veyilabad", "Danabaş", "İtqapanlı", "Dəccalabad", "Xoruzlu"... kəndləri ilə müqayisə etmək olar. Onlar hamısı artıq böyük bir tənqidi-realist ədəbi-məktəbin ("Molla Nəsrəddin"çilərin) çağdaşı olan romantik ədə-

biyyatın kəndləri və şəhərləridir. Həm "Füyuzat", həm də "Molla Nəsrəddin" bu dövrdə eyni bir sosial-milli gerçəklikdə dinc yanaşı mövcud ola bildikləri kimi, "Ah kimsəsiz Vətən" də bu bədii ərazidə "Aləmi-müsavatdan məktublar"la yanaşı yaşaya bilirdi. (Necə ki, romantik hərarət və ehtiras Sabirdə də natural satira ilə eyni stixiyada "bioloji ahəng" və estetik müvazinət tapa bilirdi):

Ey zindələr məzarı olan aşiyan, ah...
Afaqın üzrə durmada bir pərdeyi-siyah.
Məsdud qıldı bizlərə şəhrahi-intibah,
Qalma zülmdə, ağıl et sübhi-inşirah.
Ey cənnəti-maarifi viran olan Vətən,
Ey zülmətin dəruninə qəltan olan Vətən.

İstər vətən, istərsə də cahan miqyasında gələcəyi, sabahı, taleyi Hadinin harada axtarmasını, şairin dinini, təriqətini və utopiyasını, xüsusilə qabarıq, əyani şəkildə göstərən əsər onun "Aləmi-müsavatdan məktublar"ıdır (1908). Bu "müsavat aləmi" ilə ürfan və təsəvvüf aləmi arasında yox, Yəsəvidən Füzuliyə və Cavidə qədərki ilahi ruhlar səltənəti arasında yox, mistik "o dünya" idilliyası arasında yox, məhz Nizaminin "Xəmsə"sindəki ideal cəmiyyət utopiyası arasında birbaşa səsləşmə var. Heç olmasa bu beytləri müqayisə edək: "Yox burda hökumət, nə də hakim, nə də məhkum" (Hadi) və "Bizdə bərabərdir hamının varı, Bərabər bölərik bütün malları" (Nizami).

"İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" (1918) və "Aləmi-müsavatdan məktublar" (1908) Hadi yaradıcılığında və iyirminci yüzil Azərbaycan ədəbiyyatında iki bədii-fəlsəfi şedevr olub, ilk baxışda iki müəllifin iki müxtəlif zamanda və məkanda yazıya aldığı iki müxtəlif ovqata və etirafa bənzəyir.

Bəşər tarixində ya keçmiş, ya da gələcək barədə yazdığı şah əsərilə tarixə düşən dahilər vardır. Ulu keçmişə, yaxud uzaq gələcəyə xitab və monoloq olan əsərlər yazması onları (iztirabı, yoxsa ümmidi? – seçən şairləri) bir-birindən ayırır. "Gördüm" yazan Füzuli də ("Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm"), "Görmədim" yazan Vaqif də ("Mən cahan mülkündə mütləq doğru halət görmədim"), "Zamanın bağları qırılıb" – deyən Şekspir də ("Saxtalıq hökm verir qəlbə, ağla, kamala", 66-cı sonet) və "Cahanın bağrı qovrulur" – deyən Cavid də ("Öylə bir əsr içindəyəm ki, cahan Zülmü-vəhşətlə qovrulub-yanıyor") keçmişin ibrətini poeziyanın hikmətinə çevirən şairlərdir. Ən uzaq gələcəyin "ideal cəmiyyətini" əvvəldən görən və göstərənlər (Nizami və Şəhriyar, Kampanella və Akvinski...) isə tarixə və poeziyaya sabahı və istiqbalı xəbər verən peyğəmbərlər kimi daxil olmuşlar. Əbədiyyətə iki şah əsərlə daxil olan – həm "Əlvahi-intibah", həm də "Aləmi-

müsavat” yazan şairlərə isə dünya poeziyasında çox az tay tapmaq olar. Yalnız Hadi ruhunun və şerinin möhtəşəm, təzadlı, polifonik dünyası öz çoxsəsli, simfonik ovqatında iki zidd xitabı, iki əks monoloqu – hərbi və sülhü, ittihamı və alqışı – belə təbiiliklə birləşdirə bilərdi:

Həyatın səsləri guşumda həp fəryad şəklində...
Cahan başdan-başa meydani-matəmzad şəklində,
Fərəhlər həbs olunmuş, hüznlər azad şəklində,
Müsibətlər, bəlalar, qüssələr abad şəklində...

(*“Əlvahi-intibah”*)

Yaxud:

Şu “maziyyun”ə baxdım, həpsini matəmdə gördüm mən,
Şu “haliyyun”ə baxdım, ağlayırlar, qəmdə gördüm mən,
Şu “atiyyun”ə baxdım, örtülü aləmdə gördüm mən...

Yəni bir tərəfdən, bu vaxta qədərki bütün keçmiş (“maziyyun”) “Bir sərgüzəşti-xunin” deməkdir, digər tərəfdən isə:

Küsmüşmü bu yerdən, əcəba dideyi-qəmnak,
Üzlərdə səadət gülüyor, qəlb fərəhnak...
Təbim kibi səhnində çiçəklər gülüşürlər,
Fikrim kibi quşlar uçuşurlar, ötüşürlər...
Bir qəhqəhə, bir zümzümə, əlhani-xüruşan,
Ənvaci-məsərrət oluyor ruhda cuşan.

(*“Aləmi-müsavatdan”*)

Bu iki səsin biri keçmişdən, biri gələcəkdən, ikisi birlikdə isə Məhəmməd Hadinin poeziyasından gəlir. Dövrün bütünlükdə romantik şerinin qövsüqüzehini təkcə Hadiyə, təkcə bu iki şerə qulaq açıb eşitmək, görmək, dinləmək olar...

***Yaşar Qarayev***
*2002*

# *Lirika*

# 1906

## NƏĞMEYİ-ƏHRARANƏ

Göründü mətləi-ümmidimizdən bari-hürriyyət,
Təbəssümrizi-istiğnaydır rüxsari-hürriyyət.

Əsarət zülməti məstur edirkən vəchi-afaqi,
Üfüqdən doğdu nagəh şəmsi-pərtövbari-hürriyyət.

Mücəssəm bir xəyalət, ya həqiqətsənmi sən cana?
İnanmaq istəməm ənzarə, ey didari-hürriyyət!

Niqabi sal üzündən, ərzi-ruyi-ibtisam eylə,
Görənlər söyləsinlər dilbəri-səhhari-hürriyyət!

Nə gülşən növnihalı, hansı cənnət hurizadisən?
Görənlər hüsnünü məftundur, ey dildari-hürriyyət.

Nə dilsəyyad ahusən! Xuram etdikdə, üşşaqın –
"Ənəlhəqq* nəğməsin söylər, olur bərdar hürriyyət.

Nə huri-dilrübasən kim, görən nurun təcəllasın
Edər pərvaneyi-canın fədayi-nari-hürriyyət.

Sən azad eylədin qəmdidə hürriyyətpərəstanı,
Sənə ləbrizi şükrandır bütün əhrar, hürriyyət!

Əsarət bərqi-xurşidi-ziyadarınla məhv oldu,
Meyi-eşqinlə olmuş qəlblər sərşar, hürriyyət!

Nəsimin ehtizaz etdikcə gülşənzari-əfkarə,
Həqiqət gülləri yer-yer olur bidar, hürriyyət!

Əcəbmi şə'şəatından tənəffür etsə cahillər?
Gələr ə'mayə naxoş şöleyi-ənvari-hürriyyət.

Səbükməğzan həp ülviyyətindən kəmşüurandır,
Onunçün eyləyirlər qədrini inkar, hürriyyət!

Bu ol firdövsi-mə'nadır ki, solmaz rəngi-əzharı,
Lətafətbəxşdir daim güli-gülzari-hürriyyət.

Kamalın* bu kəlamilə xitam et nəğməni, Hadi:
"Nə əfsunkar imişsən, ah, ey didari-hürriyyət!".

## MƏKTƏB

Məktəb nə demək? Xadimi-qüdsiyyəti-millət,
Məktəb nə demək? Baisi-ülviyyətü şövkət,
Məktəb nə demək? Cilvəgəhi-nuri-həqiqət,
Məktəb nə demək? Rəhbəri-irşadü səadət.
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

* * *

Məktəb nə demək? Hey'əti-milliyyəyə candır.
Məktəb nə demək? Ruhü dili-mürdədilandır.
Ariflərə həmvarə bu söz virdi-zəbandır:
Əlməktəbü, əlməktəbü, ey millət, amandır.
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

* * *

Məktəb nə demək? Əncüməni-əhli-səfadır,
Məktəb nə demək? Bariqeyi-fikrə səmadır.
Neyyirləri həp şə'şəəbəxşayi-dühadır,
Pərvərdeyi-ağuşi olanlar üdəbadır.
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

* * *

Məktəblə bulur təsfiyə ayineyi-vicdan,
Məktəblə edər kəsbi-şərəf zadeyi-insan,
Məktəblə görər tərbiyə həp gülşəni-ürfan,
Təzkar edək ixvanımıza şu sözü hər an:
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

## MƏKTƏB ŞƏRQİSİ

Məktəb nə demək? Şəm'i-şəbistani-cəhalət,
Məktəb nə demək? Gülşəni-ürfan, kəmalət,
Məktəb nə demək? Ümmətə bir babi-inayət,
Eylər qələmim sizlərə həqqilə vəsayət:

Darülədəbin bilməliyiz qədrini, millət,
Göstərməli ikmalına olduqca həmiyyət.

Məktəb nə demək? Rəhbəri-övladi-vətəndir,
İrşadına məzhər bulunan əhli-fətəndir,
Məktəb düri-adabü kəmalatə ədəndir,
Atidəki söz bizlər üçün zibi-dəhəndir:

Darülədəbin bilməliyiz qədrini, millət,
Göstərməli ikmalına olduqca həmiyyət.

Məktəb nə demək? Ruh, dilə feyzrəsandır,
Gəhvareyi-canpərvəri-rövşənnəfəsandır,
Aşiqləri darülədəbin növhəvəsandır,
Bu söz bizə hər şamü səhər zikri-lisandır:

Darülədəbin bilməliyiz qədrini, millət.
Göstərməli ikmalına olduqca həmiyyət.

Məktəblə qılar növ'i-bəşər dəf'i-bəlaya,
Məktəblə çıxar zahirə əsrari-xəfaya,

Məktəblə yaşar rahətü məs'ud rəaya,
Eylər qələmim şu sözü təkrar vəsaya:

Darülədəbin bilməliyiz qədrini, millət,
Göstərməli ikmalına olduqca həmiyyət.

Azmışlar üçün elmü ədəb nuri-səhərdir,
Cəhl ilə kor olmuşlar üçün köhl bəsərdir,

İnsana şərəfbəxş fəqət elmü hünərdir.
Biməʼrifət adəm canı yox xüşk şəcərdir.

Darülədəbin bilməliyiz qədrini, millət,
Göstərməli ikmalına olduqca həmiyyət.

## BİRİNCİ Q[OSUDARSTVENNAYA] DUMANIN İNʼİQADI MÜNASİBƏTİLƏ SÖYLƏNMİŞDİR

Olub əfradi-millətdən bu gün təşkil bir məclis,
Nə dadlı meyvəpərvərdir görün bustani-hürriyyət,
Tələb qılmaqda hər bir üzv ümumin ehtiyacatın,
Qurulmuş paytəxt içrə bu gün divani-hürriyyət.
Vücudə gəlmək üçün məʼdələt, həqqin, müsavatın
Gərək əvvəlcə olsun ən geniş meydani-hürriyyət.
Ədalət zahir olmaz ləmʼəpaş olmazsa afaqə,
Zühuri-ədlə lazımdır xuri-tabani-hürriyyət.
Hüquq isbatinə lazımdır olsun fikrlər azad –
Ki, hasil eyləsin vicdanlar itminani-hürriyyət.
Gədanın baydən, bayın gədadən olmasın fərqi,
Hamı övladi-insandır deyir hər an hürriyyət.
Kimi təxti-səadətdə, kimi qalsın səfalətdə,
Buna razı deyildir, şübhəsiz, vicdani-hürriyyət.
Buna qarşı cahan olsa cəbinsayi-übudiyyət,
Deyil cayi-təəccüb, ey olan heyrani-hürriyyət.
Çalışmaqlıq gərək hər kəs bu yolda qədrü səyincə,
Edər kəsbi-mətanət səʼy ilə bünyani-hürriyyət.

Vətən övladı qəmpərvər, vətən viranəzar olmuş,
Xərababad bir mülkü edər imran hürriyyət.
Bu ədvari-maarifdə bütün millətdən əfzuntər –
Gərək biz milləti-islam olaq cuyani-hürriyyət.
Neçin kim, binəsibiz biz hüquqi-adəmiyyətdən,
Həqi-məşruimizçin olmalı qurbani-hürriyyət.
Bu ol əsri-təməddündür əsasü rükni həqqiyyət:
Müsavat, ədalət, bir dəxi ünvani-hürriyyət.
Basıldı ləşkəri-bidad, məqhur oldu istibdad,
Livayi-nüsrətin dikdi bu gün sultani-hürriyyət.
Bəşarət, əyyühəl-ixvan, tiği-ədlpərvərlə –
Edib pakizə şəhrin zülmdən xaqani-hürriyyət.
Kimi hürri-əmir olsun, kimi əbdi-əsir olsun –
Bunu cayiz görər zənn eyləməm divani-hürriyyət.
Ucaldıb rayəti-ədli, de ayati-müsavati,
Elə eyvani-zülmü xak ilə yeksan, hürriyyət!
Bizə səndən yetər imdad, sənsən rəhbəri-irşad,
Sənə hər dəmdə vacibdir qılaq şükran, hürriyyət.
Bu rahi-pürxətərdə ey bəsa əhrari-qəmpərvər –
Edib ibrazi-qeyrətlə özün qurbani-hürriyyət.
Həqiqət hürr olanlar sə’y edər nəf’i-rəayayə,
Keçib ən sevgili candan verərlər can, hürriyyət.

## İNSAN NƏ İLƏ MÜKƏRRƏM OLUR?

Olursa mə’rifətpərvər – məlaikdən mükərrəmdir.
Yaşarsa aləmi-vəhşətdə – heyvandan da kəmtərdir.

Dəyanət elminə kəsbi-qənaət eyləyən bədbəxt
Sənayepərvəran indində naqisdir, mühəqqərdir.

Otuz il elmi-ədyanə həyatın həsr edən “alim”
Həyat ərbabına düşmən olub mövtayə rəhbərdir.

Fünuni-sən’ət ilə can verirlər cismi-biruhə,
Fəqihi-mürdədil can almaq elmində hünərvərdir.

Otursan məclisi-vəzində ləzzətyab olmaqçın,
Görürsən kim, dilində nəzrü fitrə virdü əzbərdir.

Olubdur filisufanın əlində masiva təsxir,
Bizim əllamə sehr elmində Harutə bərabərdir.

Ədibi-ruhpərvərlər olublar tərcümanülvəhy,
Bizim fəhhamə, əlhəq, lafzənlikdə süxənvərdir.

Nəzərəndazi-diqqət olsanız adəm görər filhal,
Bu bədbəxtandan xeyr olmamaq gündən də əzhərdir.

Ayıl, biçarə millət, iktisabi-elmü sən’ət qıl,
Sənaye əhli ülviyyati-alül’alə məzhərdir.

Sənaye şahrahın teyy edən əqvami-məs’udə
Tərəqqiyyati-fövqəl’adə ilə kampərvərdir.

Fünuni-nəf’bəxşalə qılıblar aləmi mə’mur,
Bizim elmi-əsəfbəxşa dirəxti-xüşkü bibərdir.

Və “kərrəmna bəni-Adəm...”* nişanın hifz üçün, Hadi,
Maarif kəsbi qılmaq bizlərə əmri-peyəmbərdir.

## BİZ NƏ HALDAYIQ?

Əcanib qıldı hər bir karın itmam,
Biz isək əski tacdır, əski həmmam.

Nələr icad edir ərbabi-sən’ət,
Sənayelə qılır təhsili-sərvət.

Tutub sən’ətlə dünyanı əcanib,
Fəqət biz qalmışıq məhrum, xaib.

Əfəndim söyləyir-minbərdə hər an:
“Bizə lazım deyildir elmi-əbdan.

Deyir: – "Üqba gərək, dünya fənadır,
Cahan islamə zindani-bəladır".

Siz etdiz bizlərə dünyanı zindan,
Yıxılsın xanəniz, ey kəmşüuran!

Sənaye rahını kəsdiz həmişə,
Dediz lazım deyil islamə pişə.

Sənaye nolduğundan bixəbərsiz,
Həqiqət meyvəsiz, bərsiz şəcərsiz.

Ağac bomboş olursa kəmbəhadır,
Kəsib yandırmağa ancaq səzadır.

## LÖVHEYİ-TƏSVİRİ-MAARİF

Vətən övladı! Ha qeyrət qılın təhsili-ürfani,
Qalan mə'naydır ancaq, bu nəqş, əlbət, olur fani.
Maariflə olur nail bəşər hər dürlü amalə.
Maariflə edər ehrazi-şövkət növ'i-insani.
Maarif bir həqiqətdir, silər mir'ati-idrakı,
Maarif bir ziyadır kim, qılar tənvir vicdani.
Maarif vaqif eylər şəxsi-əsrari-xəfayayə,
Maarif kəşf edər insanə mə'nizari-imkani.
Maarifsiz olardı sirri-xilqət cümlə əfsanə,
Maarif kəşf qıldı aləmə əsrari-pünhani.
Maarifsiz cahanda qabil olmaz bəxtiyar olmaq,
Maarif bir səadətdir edər məs'ud insani.
Kəmali-şövqlə talib olaq kəsbi-kəmalatə,
Beşikdən qəbrədək təhsil edək adabu irfani*,
Əgər Çin ölkəsində olsa cuyəndə olaq elmi*,
Qılıb kəsbi-fəzail, edəlim tövsi'i-ruhani.
Ülumə talib olmaq fərzdir mərdanü nisvanə,
Edib mə'mur elmə bizləri məhbubi-yəzdani.
Yetər qəflət, yetər zillət, yetər bu xabi-bipayan,

Deyil yatmaq zamanı, sübh açılmış, dəhr nurani.
Cəhalətpərvəranın xoşca bir tənzir edək halın,
Düçari-möhnət olmuşdur gərək ruhani, cismani.
Olurmu elmpərvərlə bərabər cəhlpərvər? Heç!
Deyil dürri-ziyadarə müadil səngi-zülmani.
Buyurmuş fəxri-aləm*: “Elm bir nuri-ilahidir”,
Cəhalət isə bir zülmət, edər gümrah insani.
Demiş ol fəxri-kövneyn: “Aləmi seyri-sülukimdə –
Cəhalət əhlini gördüm düçari-qəhri-rəbbani”.
Maarif müflisi dünyadə, üqbadə siyəhrudur –
Ki: “əlfəqrü səvadül vəch”* ...cəhlin oldu bürhani
Oturma cuşeyi-qəflətdə, təhsili-fünun eylə,
Maarif “kənzi-layəfn”, qəni eylər fəqirani.
Cəhalət bir mərəzdir, yox əlacı elmdən başqa,
Cəhalət şum bir bayquş, qılar viran imrani.
Cəhalət əhli nabina, ülum ərbabi binadır,
Cəhalətpərvəran zülmət, maarif əhli-nurani.
Qılar elmü ədəblə kəsbi-vüs’ət ne’məti-adəm,
Olur rizqi kimi dar cahilin həmyani-əz’ani.
Demiş fəxri-rüsül: “Rəbbim, mənim əfzun qıl elmim”,
Şu bəhri-elmə bax, istər düri-şəhvari-ürfani.
Cənabi-Xızrda çün var idi elmi-lədünniyyat.
Ona şagird oldu dinlə, gör Musayi-imrani
Xızrvəş sən də olmaq istər isən arifi-mə’na,
Maarif çeşməsindən iç doyunca abi-heyvani.
Əzəl nazil olan surə rəsulüllahə “içrə...”dir –
Ki: “iqrə bismi rəbbik”* ...eyləyir təzyin Qur’ani.
Buyurmuş həzrəti-heydər: “Pədərsiz kəs yetim olmaz.
Yetim ol kimsədir, əlhəq ki, yoxdur elmü ürfani”.
Hədisi-qüdsdə vardır: Təbiət kənzi-məxfidir,
Bunu kəşf etməyə olsun gərək insanın ürfani.
Maarif olmasaydı, kənzi-məxfi kəşf olunmazdı,
Qalardı hər kəs avarə, tutardı rahi-xüsrani.
Dilərsən agəh olmaq gər bu tilsimgahi-nasutə,
Nəfəs olduqca təndə, qeyrət et, kəsb eylə ürfani.
Maarif bir nigari-dilpəsəndü şivəpərvərdir,
Gələndə cilvəyə məftun edər cənnətdə hurani.

Maariflə qılıbdır əhli-aləm kəsbi-ünsiyyət,
Maarif eyləmiş heyvandan təmyiz insani.
Maarifsiz bu aləm bir xərababadi-vəhşətdir,
Maariflə təməddün eyləmişdir aləmi-fani.
Maarif sayəsində kəşf olundu bunca sən’ətlər,
Maariflə tərəqqi eyləmişdir qövmi-nəsrani*.
Dağılmaz küfrlə bir mülk, zülm ilə olur viran,
Budur: viran edibdir zülm darülmülki-İrani.
Cəhalətdir əsası zülmü cövri-xanimansuzun,
Maarif olsa, zülmün məhv olur, əlbəttə, bünyani.
Bədayegahi-sün’ün bilmək istərsən rümuzatın,
Bu yolda ittixaz et kəndinə rəhbər “Dəbistan”i*.
Dəbistan olmasa aləm deyilmi saheyi-vəhşət?
Dəbistan ilə vəhşətdən çıxıbdır növ’i-insani.
Sizə neypareyi-atəşfəşanım söyləyir hər an:
Deyil yatmaq zamanı, sübh açılmış, dəhr nurani.
Ülumun sizlərə qüdsiyyətin söylər xülusanə –
Məhəmməd Hadiyi-Əbdüssəlimzadə Şirvani.

## MAARİFƏ DAİR

Şükufəzari-ədəb nəfhəbəxşi-vicdandır,
Ədəb çiçəklərinə gülstan – dəbistandır.
Təqdir qılın, əhli-vətən, işbu məqali,
Ta kim, olalım zivəri-övrəngi-təali.
Baziçə zamanı deyil, ədvari-ədəbdir,
Dövri-mədəniyyətdir, edək kəsbi-məali.
Rüxsarənüma dilbəri-dilpərvəri-ürfan,
Afaqi tutub şə’şəeyi-hüsnü cəmali.
Par-par yanıyor şəmsi cahantabi-kəmalat,
Əxa eyləyəlim biz dəxi zərrati-kəmali.
Hər millət edib elmlə ehrazi-məratib,
Bu sayədə təhsil qılıb sərvətü mali.
Hər qovm maariflə bilir kəndi hüququn,
Əlbəttə, hüquq əhli bulur cahü cəlali.
Zənciri-əsarətdə yaşar əhli-cəhalət,

Məhkumların gün kimi bəsbəlli zəvali.
Elm ilə dərağuş olunur şahidi-nüsrət,
Elm ilə zəfərpərvər olub avropali.
Biz də düzülək silsileyi-əhli-ülumə –
Öyrənmək ilə elm, hünər, fənn, məali.
Təşkil edəlim "əncüməni-elmü maarif",
Tə'sis qılaq "Darfünün", "Məktəbi-ali!"
Məktəb nə demək? Bəhri-füyuzati-məani,
Məktəb nə demək? Mə'dəni-almas, ləali.
Məktəb nə demək? Bir ülvi bürci-səadət,
Məktəbdir edən bədri-ziyadar hilali.
Məktəbdir olan mətlə'i-ənvari-təali.
Söylər sizə Hadi: oxuyun, milləti-islam!
Xaməm də bu yerdə ediyor xətm məqali.

## QƏLƏMƏ

Əla, ey bülbüli-ürfan, vətən bağında fəryad et,
Qon övraqi-fününi, nəğmeyi-milliyyə inşad et.
Cəhalətlə vətən bir leyli-zülmətnak edir təşkil,
Zəbani-nurpaşinlə rəhi-ürfanə irşad et.
Qələm şükrfəşani-mərifətdir, guşi-huş istər,
Dilərsən həzzyab olmaq şu nəshin dinlə, dəryad et:
Əgər aqilsən, olma hirslə dildadeyi-sərvət,
Rizayi-həqqi istərsən, ibadullahə imdad et.
Həmiyyət düşkünü olma, güşad et xani-ehsanın,
Dili-ərbabi-hacatı kərəmkaranə dilşad et.
Yapış axizlərin dəstindən, ey sərməsti-istiğna!
Demə əhli-ğinayəm, baziyi-dövrani dəryad et.
Əgər istərsən adın zibi-tarixi-cahan olsun,
Dirəxti-sayədar ol, meyvə ver, ən şanlı bir ad et.
Xəzanə üz qoyan növrəstəgani-baği-islamə –
Nəzər sal, tərbiyətbəxş ol, əlindən cəhlin azad et.
Əgər amalın iqbali-vətəndir, ürma boş lafi,
Həzizi-məskənətdən milləti balayə is'ad et.
Müavin olmaq ilə zalimə ağlatma məzlumu,
Səzayi-rəhmət olmaq istər isən, tərki-bidad et.
Xuda Qur'anda "qövmüz-zalimin"ə məl'ənətxandır,

Dilərsən məğfərət həqdən, ədalətpərvər ol, dad et.
Könül sındırma, ev yıxma, əziyyət vermə məxluqə,
Yıxılmış xanəni mə’mur, sınmış könlü abad et.
Dilərsən müstəfid olmaq hüquqi-adəmiyyətdən,
Ziyayi-elmi dərdəst eylə, nəfsin elmə mö’tad et.
Əgər məqsudin isə kəsbi-hissiyyati-ruhani,
Bu pəndi-hissəbəxşi qəlblə təzkar, övrad et.

## AMALİ-TƏRƏQQİ

Həqiqi arizumuz intizami-hali-millətdir,
Məsaimiz bütün məsrufi-istikmali-millətdir,
Əsasi-fikrimiz tə’mini-istiqbali-millətdir,
Ürəkdə bəslənən amalımız iqbali-millətdir,
Yeganə nöqteyi-mətlub istiqlali-millətdir.

* * *

Olubdur dağdari-qəm vətən nari-cəhalətdən,
Sönüb, nuri-maarif tündbadi-cəhlü qəflətdən,
Yox asari-səadət, dop-dolu xari-şəqavətdən,
Vətən gülzarı xar olmuş yədi-ərbabi-şərrətdən,
Bizim məqsudimiz islahi-hali adəmiyyətdir.

* * *

Vətənpiraydir bir qönçeyi-növxizi-ruhani,
Soluq baği-həyatə tabbəxş olmaqda ürfani,
Füyuzatilə ehya etmək istər baği-vicdani,
Nəsimi etmədə təhziz hissiyyati-insani,
Rəvayihbəxşü bəhcətzayi-gülşənzari-millətdir.

* * *

Cahanə gəlmədən məqsud təhsili-məanidir,
Məani baisi-neyli-həyati-cavidanidir,
Məani şəhrə-insaniyyətə üssül-məbanidir,
Məanipərvər olmaq bizcə əqsayi-əmanidir.
Ən istəkli əməlmiz irtiqayi-mülki-millətdir.

* * *

Həqiqət sayəsində kəsbi-qüdsiyyət qılar millət,
Həqiqətlə edər növ'i bəşər təhsili-hürriyyət,
Həqiqətlə olur bağı-vətən gülzari-əmniyyət,
Həqiqət zahir olsa, parlayar ənvari-ülviyyət,
Həqiqətbin olanlar vasili-fövzü hidayətdir.

## QIZLAR BAĞÇASI

İştə bir aliheyi-hüsnü cəmal,
İştə bir malikeyi-fəzlü kəmal.

İştə bir düxtəri-pakizəxisal,
Şəmsi-rəxşəndeyi-afaqi-cəlal.

Hər səhər çantası dərdəsti-ədəb,
Nöqteyi-məqsədidir darülədəb.

Əməli, fikri bütün kəsbi-kəmal,
Nə müqəddəs əməlü fikrü xəyal!

Anlamış elmdir əsbabi-nicat,
Elmdir baisi-neyli-dərəcat.

İşbu mə'sumeyi-fərxəndəxisal
Çalışır ki, edə ehrazi-kəmal.

Qoşuyor məktəbə bir nur kimi,
Gediyor cənnətə bir hur kimi.

Zahiri zivərə yoxdur həvəsi,
Zivəri-batinə çoxdur həvəsi.

Elmdir hilyeyi-insaniyyət,
Elmdir zinəti-islamiyyət.

Elmdir aləmə ən şanlı şərəf,
Milləti-cahilə olmazmı tələf?

Elmdir məs’ədətəfzayi-həyat,
Sən də qıl elmlə təzyini-sifat.

A çocuq! Ey şərəfənduzi-kəmal!
Ey mələksiyrət, a lahutixisal!

Oxu, ey bülbüli-növxani-çəmən!
Sənin ilə edəcək fəxr vətən.

Şimdidən tərbiyə qıl bağı-dili,
Bitsin ol bağçada ürfan güli.

Nə gözəl söyləyib ol “məzhəri-elm”:
Tərbiyətbəxşi-maarif “dəri-elm”*:

“Zinəti-zahirəni sanma cəmal,
Zinəti-batinədir əsl cəmal”.

Zinəti-candır ədəb, fəzl, kəmal,
Adəmin zirvəridir yaxşı xisal.

Qəlb mir’ati-mücəlla kimidir,
Fikr bir abi-müsəffa kimidir.

Ləkədar olsa əgər lövhi-xəyal,
Saflәndirmək onu əmri-məhal.

Seyqəli-ruhdur adabü fünun,
Edəlim təsfiyeyi-lövhi-dərun.

## AMALİ-İSTİQBAL

Həmvarə bahar ol bizə, ey gülşəni-amal,
Aləm sənin ilə oluyor naili-amal.
Sənsən bizə hər dəmdə əməlbəxşi-səadət,
Minlər yaşa, ey şiveyi-ənvari-hidayət.
Tə’lim ediyorsan bizə mə’nayi-həyati,
Zülmətgədeyi-yə’sə saçırsan ləmə’ati.
Ümmidinə ümmidlə ümmid edəriz biz.

Sənsən bizə həm dəmdə əməlbəxşi-səadət,
Məqsudi-əvalimsən, əya şiveyi-fitrət!
Amal qılıb aləmi ülviyyətə məzhər,
Amali-təfəyyüzlə olur şəxs hünərvər*.
Vabəstədir ancaq əmələ şövkəti-millət,
Millət edər ümmidlə kəsbi-mədəniyyət.
Ümmid olmazsa, bu cahani-ələmavər –
Bir faciəza lövheyi-qəmpərvərə bənzər.
Ümmid ediyor adəmi varəsteyi-möhnət,
Ümmidsiz adəm görəməz ruyi-məsərrət.
İnsanlığı insandan alır yə'slə hirman,
Bir valiyi-vəhşətdə qoyar adəmi xüsran.
Ümmidi-təalilə olur kəsbi-təkamül,
Ümmid ilə insan ediyor teyyi-mərahil.
Amal ilə dərdəst olur əsbabi-məali,
Biz də olalım millət, əməlcuyi-təali!
Dərguş qılın tövsiyeyi-əqlpəsəndi.
Ümmidlə yazdım sizə atidəki "bənd"i*:
Ümmid ilədir binayi-aləm,
Ümmid mühəndisi-cahandır.
Zövqavəri-fikr, qəlbü candır.
Ümmid ilədir bəqayi-adəm.

## TƏRANEYİ-QƏMPƏRVƏRANƏ

Cahanə gəlmədən məqsəd nədir insanə, bilməm ki?
Həqiqətmi bu xilqət, yoxsa bir əfsanə, bilməm ki?

Mən idrak etmədim dünyayə gəlməkdən nədir hikmət,
Yaratmaqdan nədir hikmət bizi sübhanə, bilməm ki?

Mücəssəm bir xəyalə bənzəyir timsalı imkanın,
Neçin dildadeyişövqüz xəyalistanə, bilməm ki?

Kitabi-kainatın sirri heyrətbəxşi-im'andır,
Bu sirri kəşfə yoxdur yol neçin im'anə, bilməm ki?

Bütün zərrati-aləm məzhəri-əsrari-qüdrətdir,
Bunun həllində acizdir neçin fərzanə, bilməm ki?

Düşündükcə fəcayegahi-dəhrin hali-dilsuzun,
Neçin aşiq olur dərdü ələm vicdanə, bilməm ki?

Bu zülmabadi-giytidə fəqət bir namı var ədlin,
Olurmu ədl ilə* mə'mur bu viranə, bilməm ki?

Sitəmpərvərlərin çoxdur müinü yari aləmdə,
Neçin rəhm eyləyən yox hali-məzlumanə, bilməm ki?*

Neçin fəxr eyləsin əhrarə zülm etməklə istibdad?
İlahi, tabəkey bu zülmi-qəddaranə, bilməm ki?

Cünunpərvərlərin fikri olub alimpəsəndanə,
Neçin mə'yubdur rə'yi-fəlatunanə, bilməm ki?

Olubdur müstəbiddan calisi-övrəngi-istiğna,
Neçin zillət nəsib olmuşdur əhraranə, bilməm ki?

Ziyavü zülməti təmyizə yoxmu dideyi-idrak,
Niyə nuri-həqiqət çıxmayır meydanə, bilməm ki?

Olub arayişi-baği-səadət cəhlpərvərlər,
Neçin arif yaşar dünyadə bədbəxtanə, bilməm ki?

Həzaran bülbülan baği-fənadə naləpərvərdir,
Nə məcbur eyləmişdir bunları əfğanə, bilməm ki?

Ürək al qanə dönmüş, Hadiya, hüzni-ümumidən,
Bu hüznü bəxş edən kimdir dilü vicdanə, bilməm ki?

Nəsibi xuni-dildir bu fəna mülkündə əhrarın.
Əcayib bir müəmmamı bu tilsimxanə, bilməm ki?

## MƏNAZİRİ-TƏBİƏT

Baxılsa eyni-həqbin ilə aləm Turi-Sinadır,
Giyahi-mövcəzən ahəngi-lahutilə guyadır.
Şəcərlərdən, vərəqlərdən gəlir gülbangi-ya Musa!
Lisani-xilqəti dərguş edər ol kəs ki, şinvadır.
Təcəllabəxşi-kuhsari-cahandır nuri-atəşrəng,
Çiçəklər, qönçələr, güllər təcəlligahi-mə'nadır.
Cahan mir'ati-hüsni-dilfiribi-dilbəri-hikmət,
Gəhi zülmət olur, gəh qəlbi-arif tək mücəlladır.
Büluri-kainatə in'ikas etdikcə hürriyyət,
Təcəddüdpərvəranə rənglərlə çöhrəpiradır.
Cahan büllurasa rəngi-gunaguni cəzb eylər,
Həqiqət bir, təcəlla latənahi, gör nə imadır!
Nələr parlar, həqiqət, şəmsi-aləmtabi-hüsnündən –
Ki, hər bir zərrəsi heyrətrəsi-idraki-danadır.
Nələr eylər təzahür lövhi-məhfuzi-təbiətdən –
Ki, hər bir nöqtəsi gəncineyi-sirri-xəfayadır.
Nələr peyda olur seyli-xüruşani-həqiqətdən –
Ki, hər bir qətrəsi ümmani-bipayani-mə'nadır.
Nə müdhiş mövcələr təşkil edir bu bəhri-dəhşətnak –
Ki, hər bir mövcü hövləngiz, yə'samiz, qəmzadır.
Həqiqi abid olsa, bir ibadətxanədir aləm –
Ki, hər bir kövkəbi Hadiyi ərşi-rəbbi-ə'ladır.

## KİTABİ-HƏYAT

Bir nişangahi-fəlakətdir sərasər xakdan,
Tiri-cansuzi-bəlayayə nişandır xakiyan.
Gördüyün əncümmüdür pirayəbəxşi-asiman?
Tiri-möhnətdən dəlinmiş, göz-göz olmuş, kün-fəkan,
Dəsti-cəlladi-qəzadən zəxmdar olmuş cahan.

Şol fəzadə seyr edən sanma səhaibparədir,
Ahi-şivəngahi-candır, dərddən min parədir,
Qəlbi-qəmpərvərdi-əhraran kimi avarədir.

Hadiya, hüzni-ümumi çəkmədən dil yarədir,
Yox məsərrətdən əsər, möhnətşüar olmuş cahan.

Sanma barandır yağan matəmgəhi-ünsiyyətə,
Halımız tə'sirbəxşi-qəm olub qüdsiyyətə,
İştə ağlar qüdsiyan əhvali-insaniyyətə,
Bizdə asari-mürüvvət hissi yox cinsiyyətə,
Bir sürü cəllad əlindən əşkbar olmuş cahan.

Teyri-sərvistani-qüdsüz, olmuşuz zibi-qəfəs,
İstəriz azad olaq zindani-qəmdən bir nəfəs,
Qiyməti-hürriyyəti təqdir edir əhrar, bəs –
Zülmə, istibdadə insaniyyət eylərmi həvəs?
Ah kim, dəsti-sitəmlə təngü tar olmuş cahan!

Zibi-zindani-səfalətdir tərəqqipərvəran,
Zivəri-baği-səadətdir dənaətgüstəran,
Dari-zülm olmuş cahan, yoxdur ədalətdən nişan,
Təlxi-abi-cövr ilə aludədir nasutiyan,
Tabdari-mə'dələt olmazmı gülzari-cahan?

Ey həqiqət, zəhrin ilə təlxdir vicdanımız,
Tiri-möhnətbarına san kim, hədəfdir canımız,
Bəhcətabad olmadı bir an dili-viranımız,
Rəhgüzari-qəm deyilmi bu xəyalistanımız?
Rəhrövi-mülki-fənayə rəhgüzar olmuş cahan.

Boylə söylər "Məntiqüt-teyr"i* bilən guyani-raz:
Şol gözlər quşlar deyil bica yerə şivəntəraz,
Hər kəs öz alamına bir şivə ilə növhəsaz,
Sevgili quşlar, qılın dəsti-cəfadən ehtiraz,
Bir bölük səyyaddən bizarü zar olmuş cahan.

Nəğmərizi-ibtihac ikən çəməndə bülbülan,
Ərzi-rüxsari-lətafət eyləyirkən qönçəgan,
Tündbad əscək olur gülşən vərəqrizi-xəzan,
Laneyi-həsrətdə qərqi-hüzn olur gülpərvəran,
Bir müğilangahi-möhnətdir çəmənzari-cahan.

Sahəpirayi-çəmən olmuş ərusani-bəhar,
Gülmüdür? Yox, hər biri bir çöhreyi-huriüzar,
İştə qılmışdır fələk təslimi-ağuşi-məzar,
Madəri-namehribandır ruzgari-kəcmədar,
Ey bəsa ahuyə şiri-canşikar olmuş cahan.

Bir vücudu eyləyir bir arifi-hikmətnümun,
Calisi-təxti-maarif, zivəri-ərşi-fünun,
Dəsti-səyyadi-əcəldə axır eylər sərnigun,
Kəşfi-əsrari-cahanda aciz olmuş arifun,
Həddi-əqli-muşikafə sığmaz əsrari-cahan.

Qəmfəza bir mənzərə təşkil qılmış kainat,
Sərnüma olmaqda hər dəm qəmli-qəmli faciat,
Təlx bir mə'na ilə ləbrizdir cami-həyat,
Saheyi-vəhşət deyilmi kainati-hadisat?
Cəngi-fitriyyi-bəşərçin karzar olmuş cahan.

Xameyi-möhnətnəvisim qəlbi-səngi mum edər,
Şe'ri-cansuzum fərəhpərvərləri məhmum edər,
Qəm nədir dərk etməyən qafilləri məğmum edər,
Bu məsaibgahi-dəhrin nolduğun mə'lum edər.
Möhnətü yə'sü ələmlə dilfikar olmuş cahan.

Ey qələm, bəsdir əritdin qəlbi-riqqətpərvəri,
İştə təsvir eylədin bir lövheyi-yə'savəri,
Neyləyək, övraqi-möhnətdir həyatın dəftəri.
Məktəbi-qəmdə şu dərs olmuş lisanım əzbəri:
Tiri-atəşbari-qəmdən dağdar olmuş cahan.

## BƏDAYEYİ-TƏBİƏT

Ərzi-rüxi-bəhcət ediyor lövhi-təbiət,
Feyzavəri-vicdan oluyor sanki həqiqət.
Bir kuhi-sərəfraz oluyor zivəri-ənzar,
Baxdıqca fərəhyabi-hüzuz olmada əbsar.
Payində şu kuhun axıyor nəhri-səfadar,
Nurdan yazılan xətt kimi sahədə parlar.

Zibi-ləbi-cu, rayihəbəxşa gülü lalə.
Növbarə kimi, bə'zi erib həddi-kəmalə.
Baxdıqca gülə, laləyə, şol qönçeyi-alə,
Bu gül, bu çiçəklər salıyor yari xəyalə.
Qarşımda bir orman ediyor ərzi-lətafət.
Guşi-dilə gəlməkdədir ahəngi-təbiət.
Mə'şuqeyi-dil mənzəreyi-nəş'əfəzası,
Vəcdavəri-can məşcəreyi-didərübası.
Güllər gülüyor, quşlar oxur, feyz saçır bad,
Ol sevgili quşlar ediyor naləvü fəryad.
Möhnətzədələr hər biri bir dürlü nəvadə,
San şivən edirlər bu çəmənzari-fənadə.
Səyyadi-sitəmpərvərə nifrin ediyorlar.
Cəlladi-cəfagüstərə təl'in ediyorlar.
Zülm əhli xərab eylədi gülzari-vücudi,
Eyvah, sitəm məhv elədi baği-şühudi.
İştə axıyor hüznlü bir səslə bulaqlar,
Dərxatir edib tişəni şaxlar üçün ağlar.
Əvvəlcə məsərrətli könül yə'slə doldu,
Gülzari-fəna qönçəsivəş çöhrəsi soldu.
Aya bu nasıl mənzəreyi-faciəzadır,
Hər "pərdə"si, hər "fəsli" səzavari-bükadır?
Hər zərrədə məşhud olur asari-fəlakət,
Bir cövhəri-qəmdənmi doğub tifli-təbiət?

## HİSSİYYATİ-MADƏRANƏ

İştə növzadın edib zibi-kənar,
Gah öpər, oxşar onu, gəh qoxular.

Madər öpdükcə bu məhparəsini,
İylədikcə rüxi-canparəsini,

Oynayır tərzi-lətifanə ilə,
Dadlı bir şiveyi-tiflanə ilə.

Anası olduğuca busərüba
Xəndələr saçmada tifli-rə'na.

Gah öpərkən oluyor giryəfəşan,
Madəri-müşfiq olur pürxələcan.

Tifli-naziktəridir qönçeyi-tər,
Üzünə gözləri san jalə səpər.

Şu səmavi gözü yağdırmada ab,
Gülşəni-ruyinə bəxş etmədə tab.

Duruyor oxşamağa zadəsini,
Sevgili, nazlı xudadadəsini.

Üzünü, gözlərini silmədədir,
Yenidən nazlı çocuq gülmədədir.

Nə şirin, dadlı həqiqətdir bu,
Hissbəxşayi-təbiətdir bu.

Nə gözəl mənzəreyi-şəfqətza,
Nə lətafətli, nə ruhani səfa.

Əvət, övladı ana sevməlidir,
Ən gözəl tərbiyəni verməlidir.

Safü şəffafdır övraqi-dili,
Nazənin bərgi gözəl bəsləməli.

Baxmasaz yaxşı çigərparələrə,
Yazıq olmazmı şu biçarələrə?

Tifl ayinə kimi əksnüma,
Necə baxsan olacaq çöhrənüma.

Biədəb bəsləməyin tiflanı,
Mə'rifətpərvər edin sibyanı.

Saflandır, ana, zehnü huşun,
Məhdi-adab oluyor ağuşun.

Oluyorsun ana fərzanələrə,
Sən sədəfsən düri-şəhdanələrə,

Şirbəxşəndeyi-övladi-zəman,
Ədəbamuzi-ümumi-insan.

Millətin nisfini təşkil qılan –
Siz deyilsizmi, a nisvani-cahan?

Bədənin nisfi məriz olsa əgər,
Göstərərmi bu bədən fəzlü hünər?

Cismi-ifliczədə bir xüşki-dirəxt,
Verəməz meyveyi-insaniyyət.

Qabili-feyzi-təcəlli olamaz,
Naili-məqsədi-ali olamaz.

Nə zaman kəsbi-ülum etsə nisa,
Cismi-millət tapacaq onda şəfa.

Elmlə ruha müdavat olunur.
Elmlə kəsbi-füyuzat olunur.

Elmdir şəmsi-səbahi-əzəli,
Elm tənvir edər afaqi-dili.

## EL FƏRYADI

Hürriyyət ilə millət edər kəsbi-məali,
Hürriyyət ilə mülkün olur qiyməti ali,
Avropalı hürriyyət ilə tapdı kəmali,
Əlbəttə, əsarətlə olur məhv əhali,
Hürriyyətü sərbəstlik imrani-vətəndir.

Azadə gərək şəxs, süxən, fikrlə xamə,
Hər kəs gələ hürriyyət ilə şövqə, xüramə,
Ta kim, ola insan qədəməndaz məramə,
Sərbəstlik ilə olunur mülk idamə,
Gər qalsa qüyudatdə, viran vətəndir.

Hər kəs həqi-məşruinə sahib gərək olsun,
Qayətdə ədalətli qəvanin qoyulsun,
Ən faidəli qaidələr cari olunsun,
Mizani-ədalət və müsavat qurulsun,
Mizani-ədalət demək imrani-vətəndir.

Fasid olub əlhəqq vətənin abü həvası,
Hürriyyət ilə qabil olur üssi-əsası,
Bişübhə pozulmuş bunun əvvəlki binası,
Meydanə qoyulsa yeni qanuni-əsasi,
Qanuni-əsasi isə dərmani-vətəndir.

Sövq etmək üçün milləti şəhrahi-fününə,
Minlərcə əhali olub ağişteyi-xunə,
Diqqətli nəzər qıl, bunu həml etmə cününə,
Boş laf uran kəslərə olsun bu nümunə,
Bunlar şühədayi-rəhi-canani-vətəndir.

Zülm atəşi hər yanə saçır dudeyi-zülmət,
Biçarə vətən sanki olub məhşəri-şərrət,
Səhrayi-bəladə gəzir avarə rəiyyət,
Övladını bəslərmi belə madəri-şəfqət?
Bu zillətə, bu möhnətə giryan vətəndir.

## İSMƏT,
## y a x u d
## ƏFİF OLAN ZATLARIN XƏSAİLİ

Kimsəyə qılmaz təməllüq həqpərəstan nan üçün,
Çaki-ismət eyləməz alicənaban nan üçün,
Abi-nayabi-ifafı tökməz insan nan üçün,
Tərki-məslək eyləməz ərbabi-ürfan nan üçün.

Babi-ərbabi-qinadə durma, ey qeyrətpərəst,
Eyləmiş səhbayi-istiğna onu məxmurü məst,
Hali-riqqətbəxşinə rəhm etməz ol sağərbədəst,
Olsun ər tənnuri-qəmdə qəlbsuzan nan üçün.

Kəsri-şə'ni-adəmiyyət qılmaz iffətpərvəran,
Dünbəcünbani-riya olmaz həqiqətgüstəran,
Qeydi-minnətdə yaşarmı hürr olan rövşəndilan?
Rubəhə etməz təbəsbüs şiri-mərdan nan üçün.

Dürri-yektayi-həyanı satmayın nanparəyə,
Gövhəri qoymaz bərabər, lə'li səngi-xarəyə,
Nan bir xərmöhrə, ismət oxşar almazparəyə,
Verməz əldən cövhəri çövhərşünasan nan üçün.

Zəhri-cansuzanədən kəmtərmi nani-imtinan,
Atəşi-Nəmruddən* kəskin rüxi-xissətvəran,
Nişi-əqrəbdən daha bədtər lisani-nakəsan,
Bunlara etməz rica ülvinihadan nan üçün.

İzzlə getməz məzarə ən böyük bir şandır,
Xəlqə minnətdarlıqdan mövt pək şayandır!
Məncə əhraranə ölmək mucibi-qüfrandır,
İstəməm çəksin cəhənnəm ruhü vicdan nan üçün!

Nəfsi-paki abirusuzluq salar tə'sirdən,
Abi olmaz isə kəskinlik gedər şəmşirdən,
Ərzi-hacət etsə, getməzmi bəsalət şirdən?
Eyləməz məhvi-bəsalət ölsə şiran nan üçün.

Şahbazi-e'tilapərvaz olurmu fəzləxar?
Enməz alçaq yerlərə şahini-ülviyyətşikar,
Olmaz ənqa dəsti-zağə didəduzi-intizar,
Qafi-himmətdən düşərmi əhli-vicdan nan üçün.

Şe'ri-rə'nasında söylər arifi-Rumi Ziya*,
Olma gər insan isən üftadeyi-zərqü riya,
Lə'n ola ol malə kim, kəsbində alətdir həya,
Etməz insaniyyətin insan qurban nan üçün.

## TÖVSİYYEYİ-MÜRĞ

Xitab eylər bizə bir mürğ, der: insanlar, insanlar!
Nədir tutmuş cahanı naləvü əfğanlar, insanlar?!
Neçin gülzari-insaniyyəti eylərsiniz ehraq?
Nəyə lazım cahan bağında bu niranlar, insanlar?!
Yanan kim, yandıran kim, nar olan kim, kül olan kimdir?
Bütün ixvanınızdır sineyi-suzanlar, insanlar!
Silinmiş lövhi-dildən sanki ixvaniyyət asarı,
Görünməz hissi-şəfqət sizdə, ey ixvanlar, insanlar!
Atılmış guşeyi-nisyanə nəssi-"təhkümu bil'ədl"*,
Ədalətdən uzaqdır bu əbəs üdvanlar, insanlar!
Cahanı təngna eylərsiniz vicdanı-cahil tək,
Nüfuz etməz cahana pərtövi-ürfanlar, insanlar!
Yezidin dəsti tək qanla müləmmə'dir vətən ruyi,
Səzadır ağlasa qan, çeşmi-əşkəfşanlar, insanlar!
Cahanı titrədir ahü ənini qəlbi-məzlumun,
Sizə tə'sirsizmi aləmi-lərzanlar, insanlar?
Bu əlhanım nədəndir sizlərə bəxş etməyir tə'sir?
Təhəccür etdimi yoxsa dilü vicdanlar, insanlar?!
Könüllərdən olub nabud hər bir hissi-lahuti,
Əsərbəxşa deyildir kimsəyə əlhanlar, insanlar!
Nasıl razı olur səfki-dimayə hissi-ixvani?
Bu fe'lə qarşı lə'nətxandır heyvanlar, insanlar!
Sevərmi həzrəti-bari bu zülmi-xanimansuzi,
Fəramuş oldumu həqdən gələn fərmanlar, insanlar?!
Baxın çeşmi-həqiqətlə, cahaan bir qətlgah olmuş,
Cəhalət eydinə kəsməkdəsiz qurbanlar, insanlar!

# 1907

## TƏBRİKİ-EYDİ-ƏZHA

Bəşarət, əyyühəl-ixvan, bu gün bir eydi-zişandır,
Könüllər, ruhlər nəvvari-ülviyyətlə rəxşandır,
Məhəbbət nuru parlar, çöhreyi-millət dirəxşandır,
Bu gün asari-şəfqət kainatə pərtövəfşandır,
Müqəddəsdir, mübarəkdir, böyükdür, ruzi-pürşandır.
Bu gündə seyyidül-kövneyn* islamə səlam eylər,
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

Bu gün beyti-müəzzəm nöqteyi-icma'i-ümmətdir.
Məali-həccdən məqsəd nədir? Şurayi-millətdir.
Buyurmuş seyyidi-aləm: cəmaət feyzü rəhmətdir,
Bu gün islamiyan ləbrizi-şəhdabi-məsərrətdir,
Bu gündə seyyidül-kövneyn islamə səlam eylər,
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

Bu gün qurban kəsir eşq əhli meydani-məhəbbətdə,
Durub səfbəsteyi-hörmət cəmaət babi-izzətdə,
Açıb dəsti-təmənna, gözləri rəhmü inayətdə,
Yağar barani-rəhmət olsa istehqaq ümmətdə,
"Durur ehkami-nüsrət ittihadi-qəlbi-millətdə".
Bu gündə seyyidül-kövneyn islamə səlam eylər,
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

Səlahi-hali-millət bəsteyi-həblül-üxüvvətdir,
Əsasi-şövkətü izzət vifaqi-paki-ümmətdir,
Vifaq ərbabı ən məs'ud, ən sətvətli millətdir,

Nifaqü büğz insaniyyətə layiqmi xislətdir?
Binayi-şər'imiz ədlü müsavatü məvəddətdir.
Bu gündə seyyidül-kövneyn islamə səlam eylər,
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

Edin nuri-təməddünlə münəvvər qəlbü vicdani,
Qılın nəşri-maariflə müzəyyən baği-imkani,
Vətən övladi etsin iqtibasi-feyzi-ruhani,
Cəhalət dərdinin yox mə'rifətdən qeyri dərmani,
Maarif eyləyir ayineyi-idrakı nurani,
Bu gündə seyyidül-kövneyn islamə səlam eylər,
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

Mədari-fəxri-islam Bu Əlilər*, Fəxr Razilər*,
Edən "Ehya ülumiddin"i Mövlana Qəzalilər*,
Cahanə naşirül-ənvar Rumilər*, Sənailər*,
Fəzayi-feyzə bəhcətbəxş Sə'dilər*, Bəhailər*,
Maarif bağının məsuludur iştə bu dahilər.
Bu gündə seyyidül-kövneyn islamə səlam eylər,
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

Bu dahilər edib tə'lif min asari-ürfani,
Rəhi-ürfanə bunlar eyləmiş irşad dövrani,
Edək dərxatir ol əsri-maarifhəsri-zişani,
O parlaq dövrdə keçmiş idik əmsalü əqrani,
Üxüvvət ilə ehraz eyləmişdik rütbəvü şani.
Bu gündə seyyidül-kövneyn islamə səlam eylər
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

Bu gün səhrayi-qəmdə qəlbi-aşiq tək pərişanız,
Yox əldə mayə, bazari-cahanda əhli-xüsranız,
Yetib həmrahlar mətlubə, biz qəflətdə puyanız,
Bu gün şayani-ehsan bir ovuc ərbabi-üsyanız,
Açıl, ey babi-rəhmət! Müstəhəqqi-feyzi-qüfranız.
Bu gündə seyyidül-kövneyn islamə səlam eylər,
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

Dəyanətpərvəran həbli-xudayə e'tisam eylər,
Mühübbi-mülkü millət ittifaqə ehtimam eylər,
Vifaq olduqda əbnayi-vətən ehrazi-nam eylər,
Üxüvvət ilə hər kəs iktisabi-ehtişam eylər,
Şu miskiyyül-xitam ilə qələm xətmi-kəlam eylər.
Bu gündə seyyüdül-kövneyn islamə səlam eylər.
Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər.

*8 zilhiccə* (*24 yanvar*)

## TƏRANEYİ-MİLLİ

Çirağì-müzlimi-ümmid işıqlanmazmı, yanmazmı?
Siyəhru bəxtimiz ğədrü cəfasından utanmazmı?
Məzari-cəhldə xabideyi-qəflət oyanmazmı?
Maarif qönçəsilə gülşəni-ümmət donanmazmı?
Usandı xamələr təhrirdən, millət usanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

Girib biganələr ehramə oldu məzhəri-ne'mət,
Hicaz əhli hələ məxmurü məsti-badeyi-qəflət,
Buna qabilmi insan olmasın dəmbəsteyi-heyrət?
Müqəddəs həqqin istirdadə sə'y etməkdə hər millət,
Hüququn anlayıb da bu səfalətdən usanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

Rəhi-millətdə himmətpərvəran ibzali-mal eylər,
Həmiyyətlə vətən təhsili-ikmalü cəmal eylər,
Həmiyyət olsa, övladi-vətən kəsbi-kəmal eylər,
Ricalın himməti-mərdanəsi qəl'i-cibal eylər*,
Dənaətdən, xəsasətdən, ləamətdən usanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

Əsasi-şər'imiz cövdət, həmiyyət, sə'yü qeyrətdir,
İlahi, bəxtiyar olsun o kəs kim, əhli-himmətdir,
Vücudi aləmi-islam üçün fəxrü-şərafətdir,
Buyurmuş fəxri-aləm əsxiya əshabi-cənnətdir.

Hədisi-Mustafayə qəlbü vicdanlar inanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

Ümumun rahətin dərpiş qılmaq şani-insandır,
Ümuri-xeyrə ehsan etmək ən məqbul ehsandır,
Təavün baisi-hürriyyəti-əbdi-əsirandır,
Edən kəsbi-təməddün qibtəbəxşi-əhli imkandır,
Olub huşyar bilməm novmi-səkrətdən usanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

Həmiyyətpərvərani-aləm oldu vasili-amal,
Həmiyyət ilə etmişdir miləl tə'mini-istiqbal,
Nə yerdə himmət olsa, ol yerə məftundur iqbal,
Edər himmətlə millət iktisabi-şani-alülal.
Həvayi-nəfsə uymuş bihəmiyyətlər usanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

Ziyanə uğradı sərsmayeyi-ömri-giranmayə,
Və "zəllə sə'yühüm"* bürhandır isbati-də'vayə,
Təalipərvəran şəhpərgüşadır ərşi-mə'nayə,
Olur infaq ilə insan nail birrü təqvayə,
Olub da nişvəyabi-cudi' xissətdən usanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

Kərəmkaran edər sərfi-məsan nəf'i-ümmətdə,
Səzadırmı sən izzətlə yaşa, məxluq zillətdə?
Təhəmmül etməz insaniyyət, olsun xəlq zəhmətdə,
Olur məhzuz vicdan görsə xəlqi əmnü rahətdə,
Həya etməzmi nəfsin bəsləyənlər, bir utanmazmı?
Açıldı sübhü sadiq, xabdən millət oyanmazmı?

İrişdi hümmət ilə milləti-məs'udə məqsudə,
Keçirdik ömri-qiymətdarı biz bihudə-bihudə,
Biz olduq əhli-xüsran, həmsəfərlər yetdilər sudə,
Bu gün bizlərdən istikrah edir əqvami-mövcudə,
Dözərmi nifrətə, bilməm, həqarətdən usanmazmı,
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

Həyatın mə'niyi-əslisi şəfqətdir, məhəbbətdir.
Cahanə gəlmədən mətlub xəlqüllahə xidmətdir,
İbadə xidmət etmək ən müqəddəs bir ibadətdir,
Şu ati beyti-naçizim kəlami-xatəmiyyətdir:
Olub bidar, bilməm, bu əsarətdən usanmazmı?
Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?

*7 zilhiccə* (*22 yanvar*)

## BÜLBÜL

Məftuni-şükufəzar bülbül,
Xanəndeyi-xüldzar bülbül,
Pirayeyi-laneyi-məani,
Bəhcətgəhi-eşq tərcümani.

Oturmuş gülşəni-amaldə irşad edər bülbül,
Oxur əlhani-ürfan, nəğmələr inşad edər bülbül,
Müəssir ləhcələrlə könlü oxşar, şad edər bülbül,
Şaqır, cəh-cəh vurar, ibrazi-iste'dad edər bülbül,
Əməlzarində bir ümmid üçün fəryad edər bülbül.

Əməlzari-fənada sanki doğmuş sübhi-amali,
Edər nəşri-ziya afaqə nəcmi-bəxtü iqbali,
Uçar sərbəst gülşəndə açılmış şəhpərü bali,
Əsarətpərvəranə qibtəbəxş olmaqda əhvali,
Şu hürriyyət baharında nələr dəryad edər bülbül!

Solub övraqi-bərraqi səfa qalmazsa sünbüldə,
Bitəndə xarü xəslər cilvəgahi-qönçəvü güldə,
Olanda xeyməzən zağan tərənnümgahi-bülbüldə,
Bu hissiyyati-riqqətza olur surətnüma dildə,
Cahanı titrədir, fəryadi-istimdad edər bülbül.

Nə dəm ağazi-pərvaz etsə şəhbazi-cəfamö'tad,
Olursa xətvəndazi-çəmən səyyadi-istibdad,

Olur cəm'iyyəti-mürğan yədi-bidad ilə bərbad,
Şu ülfətgahi-əmniyyət kəsilmiş şimdi zülmabad,
Dəmadəm nifrəti-övladi-istibdad edər bülbül.

Məzalim bəzmgahi-işrətində zövqyab olsun,
Nə qəm, yansın, yaxılsın, zülm görmüşlər kəbab olsun!
Dilərsə seyli-istibdad ilə aləm xərab olsun!
Şu işrətgahin, ey zalim, düçari-inqilab olsun!
Cəfadən, zülmdən gülşəndə ahü dad edər bülbül.

Nə yerdə eyləsə dərdəst sazin mütribi-bidad,
Qaçar huri-ədalət, rəqs edər ifriti-istibdad,
Şu yerdə ərzi-didar eyləməz dildari-iste'dad,
Edər hürriyyət ilə kəsbi-rövnəq təb'ü iste'dad,
Boşansa həbsdən, ehrazi-iste'dad edər bülbül.

Nəsimi-sübhi-hürriyyət vəzan olduqda əfkarə,
Səmərbəxşayi-feyz olmazmı fikri-bikr əhrarə?
Verilməz isə abi-tərbiyət əzharü əşcarə,
Edərmi kəsbi-iste'dad gülşən barü əsmarə?
"Edək təhsili-hürriyyət" sözün övrad edər bülbül.

Bahari-feyzə irməzmi xəzanistanımız, bilməm?!
Səbahi-vəslə yetməzmi şəbi-hicranımız, bilməm?!
Təcəlla eyləməzmi dilbəri-vicdanımız, bilməm?!
Rəvayihbəxş olmazmı güli-ürfanımız, bilməm?!
Çiçəklər ərzi-əndam eyləsə, fəryad edər bülbül.

*17 zilhiccə* (*2 fevral*)

## VƏTƏNİN NİDASI

Bəsdir, yetər artıq, dur, oğul, dur, daha yatma!
Namusu, həyanı, ədəbi uyquya satma!
Ey sevgili övlad, ayıl, Allahı sevərsən,
Gün doğdu, hamı durdu, yatan bircə özünsən.

Yoldaşlarına, sil gözünü, yaxşı bax, oğlum,
Onlar yetib istəklərinə, sən uzaq, oğlum.
Başdan papağın, ya başını qapdıracaqdır –
Ol yol gedən adəm ki, yol üstü yatacaqdır.

## FƏZAİLİ-İNSANİYYƏ

İnsan o zatdır ki, vəzaifşünas ola,
Nəxli-əməl misali səmərbəxşi-nas ola.
Fəyyaz ola günəş kimi gülzari-fitrətə,
Pərtövfəşani-feyz ola biği-şəhadətə.
Bir abi-saf tək çəməni xəndəzar edə,
Amalımız şükufələrin təbdar edə.
Meydan qəhrəmanı, hüquqaşina gərək,
Nuri-həqiqət ilə dili rövşəna gərək.
İfa edər vəzifəşünasan xidmətin,
Məs'udü bəxtiyar qılar mülki-millətin.
Şayani-e'tibar olur ol zati-alişan,
Nəcmi-muradımız olar onda ziyafəşan.
Bir gözdə, bir nəzərdə tutulsun gərək miləl,
Ta meyvəbəxşi-aləm ola şaxeyi-əməl.
Dünya vətən, bütün bəşər ixvani-tiyndir,
Əqvamı bir görər o ki, əhli-yəqindir.
Bir cənnəti-üxüvvət edin bağı-aləmi,
Hifz eyləyin kəraməti-əbnayi-Adəmi.
Dəfn eyləyin məzari-ədəmdə ədavəti,
Ehya edin cahanda nami-məhəbbəti.
Daxil olanda səhneyi-Şurayi-ümmətə,
Təslim edin hər işləri dəsti-ədalətə.
Dərpiş edib vəzaifi-övladi-milləti,
Məmnun edin düçari-qəm olmuş cəmaəti.
Sizlər həkimi-dərdşünasi-ənamsız,
Bir şanlı qəhrəmani-zəvil' ehtişamsız.

## SAQİYƏ BİR NİYAZİ-RİCAMƏNDANƏ

Saqi, ələ al cami-səfabəxşi-rəvani,
Lütf eylə dəmadəm bizə ol ruhi-rəvani.
Sun bizlərə ol badəni kim, əqlrübadır,
Huşyar olan adəm çəkəməz bari-girani.
Səhbayi-dili-arifi ləbrizi-şərab et,
Ta ərzi-cəmal eyləyə əsrari-nihani.
Ol mey ki, onu nuş ediyor zümreyi-əhrar,
Şayani-məlamət görəməz kimsə cavani.
Azad olayım dersən əgər dəsti-bəladən,
Dərk etmə şüunati-xirədsuzi-cahani.
Yüz min həsəd ol cahili-gümkərdəşüurə –
Bilməz qəmi möhnətkədeyi-kövnü məkani.
Qabilmidir aqil ola tabavəri-möhnət?!
Əql olsa cavan, pir qılar şanlı cavani.
Bilmək nə demək? Salibi-asayişi-candır.
Bilmək edər, əlbəttə, qəmabad cinani.
Rahətmi yaşar mə’rifətənduzi-məali,
Eylərmi təbəssüm rüxi-ərbabi-məani?
Ol dil ki, edib hüzni-ümumi ilə ülfət, –
Zənn etmə görər bir daha rüxsari-məsərrət.

*20 zilhiccə* (*5 fevral*)

## PƏRİYİ-VİCDAN

Düxtəri-napakdamən sanmayın hürriyyəti,
Hər kəs olmaz rahyabi-hicləgahi-vüsləti.

Oylə bir huriyi-ismətdir şu yari-işvədar
Şövqməndani-vüsalə boylə istiğna satar.

Ey behişti-e’tilanın huriyi-canpərvəri,
Zinəti-dar oldu eşqin ilə əhrarın səri.

Pərdədə saxlanma, çıx, ey sevgili dildarımız,
Xəndəzari-bəhcət olsun könlümüz, rüxsarımız.

Zəxmdari-hüzndür dil tiri-istibdaddən.
Sənsən, ey hürriyyət, ancaq bizləri azad edən!

Qayeyi-ümmid insaniyyətin iqbalıdır,
Cümlə qövmü millətin əmniyyəti-əhvalıdır.

Cami-pürzəhri-əcəl Hadini bihuş etmədən,
Sineyi-leyli-ədəm cismin dərağuş etmədən,

Girməz idi həsrət ilə mədfənə, görsəydi, ah,
Milləti-məzlumədə asari-feyzü intibah!

*10 məhərrəm* (*7 mart*)

## ARZUYİ-DİL

Olmarızmı həqqi-insaniyyədən biz zövqyab?
Yoxsa dünyadə nəsibi-millət olmuşdur əzab?
Kimsəyə olmur əsərbəxşa fəğanü dadımız,
Aləmi yandırmayır, bilməm, neçin fəryadımız?
Sanma atəşdir ki, rövzənlərdən olmuş şö'lədar,
Ahi-cangahi-fəqirandır könüllərdən çıxar.
Ah!.. əmniyyətlə olmazmı vətən cənnətmisal,
Etmərizmi yari-ümmidi dərağuşi-vüsal?
İştə atəşzarə dönmüşdür vətən bidaddən,
Dağdari-hüznü qəmdir qəhri-istibdaddən!
Qeyrə şəkkər, bizlər üçün zəhr səhbayi-həyat,
Duzəx olmuşdur bizə, san kim, behişti-kainat.
Ey nəzərgahi-əməl, ey şö'leyi-iqbalımız,
Sizlərə vabəstədir tə'mini-istiqbalımız!
Gözləriz sizdən bu gündə ən böyük bir iqtidar,
Eyləyin ibrazi-qeyrət, millət olsun bəxtiyar!
İn'iqad etməkdədir "şurayi-hürriyyətnişan",
İştə meydani-hünərdir, bəkləyir bir qəhrəman.
Siz də əhrarənə əzmi-ərseyi-meydan edin,
Pişi-ənzari-cahanda e'tilayi-şan edin.
Eyləyin çeşmi-ümumiyyətdə isbati-həyat,

Bizləri zənn etməsin mövtayız əhli-kainat.
Qayeyi-amalımızdır: millət olsun sübhü şam –
Zümreyi-əhrar ilə sağərbədəsti-ehtişam.
Mövceyi-nurü ziya saçsın cahana yuhimiz,*
Nəş'əyabi-kövsəri-hürriyyət olsun ruhimiz.
Çöhreyi-amal olanda xəndərizi-ibtisam,
Eylər əqvamü üməm ehraz namü ehtiram.
İstəriz bir səslə sizlərdən, ey ərbabi-fətən,
Tam hürriyyət ki, məs'ud olsun övladi-vətən!
İstəriz rəhyab ola qeydi-əsarətdən miləl,
Naili-hürriyyət olmaq bizcə əqsayi-əməl.
Sizdən ümmid eyləriz "əfvi-ümum"un çarrəsin,
Madəri-qəmdidə görsün çöhreyi-canparəsin,
Qönçeyi-elmü ədəblə xüldzar olsun vətən,
Zibi-ədlü dad ilə pirayədar olsun vətən*.
Sizlərə təslim olunmuş xidməti təqdir edin,
Bir "vətən", bir "milləti"i lövhi-dilə təhrir edin.
Xeyri-məxluqi qılın dərpişi-çeşmi-e'tibar,
Bəxtiyar olsun cəmaət, məmləkət darülqərar.
Sanma şəxsiyyətpərəstan eylər ehrazi-zəfər,
Adəm oldur kim, sala nəf'i-ümumiyə nəzər.
Mərd lazımdır ki, hifz etsin hüquqi-milləti,
Məzhəri-təqdir olsun məsləki-qüdsiyyəti,
Hübbi-şəxsiyyət, yəqin kim, salibi-tövfiq olur.
Şol dua ilə sizi alqışlayır ixvani-din,
Sizlərə tövfiqbəxş olsun ilahül-aləmin!
Niyyəti-xalis ilə meydanə girsək, Hadiya,
Bəxtimiz nəcmi olur zinətfəzayi-e'tila.

## SEVGİLİ ŞAGİRDLƏRİMİZƏ ƏRMƏĞAN

Dəbistan bir baharistan, onun əzhari ürfandır,
Dəbistan bir nihalistan, onun əsmari ürfandır.
Dəbistan qönçəzari-bülbülani-eşqpərvərdir,
Şu bağı-dilgüşanın bari-qiymətdari ürfandır.
Baxılsa çeşmi-imanla, bütün kaşaneyi-aləm

Xərababad bir xanə, onun me'mari ürfandır.
Dəmiryollar, balonlar, bunca asari-tərəqqibəxş,
Bu imrani-cahanın mənşəi-asari ürfandır.
Bütün əsrari-məchulə parıldar sübhi-məktəbdən,
Dəbistan bir günəş, ənvari-pərtövbari ürfandır.
Dəbistan bir qəfəs, şagirdlərdir, bülbüli-lahut,
Dəbistan – lərz... onun mə'nayi-mə'nidari ürfandır.

## BİR ƏMƏLİM

Təbəssüm eyləmədi xüldzari-amalım,
Cahanda qismətim olmuşmudur hümumü qümum?
Düçari-hüznü qəm etdi məni bu talei-şum,
Güli-muradım açılmazmı gülsün iqbalım?

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Xürama gəlmədi hurim görüb məram alayım,
Vüsali-yardən artıq mən olmuşam mə'yus,
Üyuni-cazibəsi baxmadı mənə, əfsus,
Şu sahiranə baxışdan doyunca kam alayım.

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Gəzər büraqi-xəyalım fəzayi-lahutu,
Cahani-nurdə suzan olur pərü bali,
Şu nazənin behişti-xəyaldən ali,
Edərmi dərk həqiqət bu əql nasutu?

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Əməl çiçəklərim oldu düçari-cövri-xəzan,
Çirağı-huşimi söndürdü kəmşüur ustad...

Riyazi-fikrimi yandırdı badi-istibdad*,
Xərifi-zülmdən olduqda tündbad vəzan,

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Şu bəxti-qarə məni bəslədi əsarətdə,
Gözüm yolunda, açılmaz bəhari-hürriyyət,
Tülu' etmədi hala nəhari-hürriyyət,
Qürub qıldı həyatım ləyali-zülmətdə.

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Açılmadan soluyor növşükufeyi-əməlim,
Bu bağban cəfadanmı xoşlanır əcəba?
Nədir şu sirri-xəfa? Kimsə bilmiyor, əsəfa,
Baxar, susar, bilməz dağdari-yə'si-dilim.

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Bədizari-sürurə ürəkdə yox rəğbət,
Qəmin müsafiri-xani-dilimdə mehmandır,
Xəyali-yarlə vicdan beyti-əhzandır,
Ümid Yusifi məhbəsdə... Ah, hürriyyət!..

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Şəbi-zülamdə ahımla şö'ləbar oldum,
Dəhəndə nəğmeyi-dilsuz, sinə purnəvəhat.
Nə bir ənis, nə yaran görünməyir, heyhat!..
Şu kimsəsizliyimə baxdım əşkbar oldum.

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Sovurdu badi-fəlakət şu nazənin gülümü...
Düçari-sərsəri-qəhr oldu cilvəzari-nəbat,
Xəzanzəd oldu baharında qönçəzari-həyat,
Şu qəmli mənzərə kəsdi nəvayi-bülbülümü.

Xəyal etmə budur baisi-məlali-dilim,
Məni mükəddər edən var könüldə bir əməlim.

Bilirsinizmi nədir məncə nüxbeyi-amal?
Könüldəki əməlim millətin səadətidir.
Bu, arzularımın müntəhayi-qayətidir.
Edərmi millətim ehrazi-şani-alülal?

Ey vətən! Ey pəriyi-vicdanım!
Kəsmə bizdən nigahi-şəfqətini,
Eylə ilqa dilə məhəbbətini,
Səni sevmək deyilmi imanım?

Dili məhzun edən bu halətdir,
Qıldım izhar iştə həsrətimi,
İstərəm bəxtiyar millətimi.
Qəlbdə bəslənən bu niyyətdir.

*20 səfər* (*3 aprel*)

## LÖVHEYİ-BAHAR

*Kitabi-təbiətdən bir vərəq*

Xürrəm olur bahar görəndə xüramini,
Gülməzmi qönçələr görələr ibtisamini?

Xüramə gəl, a sevgilim, nihali-sərvzari gör,
Çıx, ərzi-ibtisam qıl, bahari-feyzbari gör,
Gəzib çəməndə, bülbülüm, güli-şükufəzari gör,
Şu növşükufə güllərin üzündə əksi-yari gör,

Şükufələrdə bərq uran ziyayi-ibtisamə bax,
Əsəndə nəfheyi-səba, çəməndə bir xüramə bax,
Nəsim önündə səfbəsəf səlami-ehtiramə bax,
Nəzərfiribi-nazirun şu cilveyi-qəramə bax:
Bu cilvəgahi-hüsndə cəmali-gül'üzarı gör.

Parıldayır gümüş kimi çəməndə cuyi-mövcədar,
Axar dəruni-bağdə, qılar riyazı tabdar,
Bulaqlar əşkrizi-qəm, təranəsazdır həzar,
Bu lövheyi-həyatdan al aqil isən e'tibar:
Rümuzi-sün'ü anlamış, nəşaidi-həzarı gör.

Çiçəklərin vərəqləri kitabi-e'tibardir,
Vərəqlər üzrə sətrlər xütuti-dəsti-yardir,
Bu lövhəzari-mə'rifət dəlili-kirdgardir,
Baxılsa çeşmi-huş ilə cahan ki, vəhyzardir,
Hicabi-əqli çak edib cahanda vəhyzarı gör.

Əşi'ərizi-feyzdir səmadə şəmsi-xavəri,
Nəsimi-ruhbəxş edir çəməndə zində gülləri,
Bu mənzəri-nəzərrüba oyandırır könülləri,
Fərəhfəzayi-ruhdir yaşıl-yaşıl çiçəkləri,
Behiştdən nişan verir, fənadə xüldzarı gör,

Təfərrüc ilə seyr qıl bədayeyi-təbiəti,
Cahan ki, bir cəridədir əgər bilinsə qiyməti,
Keçir gözündən, ey gözüm, cərideyi-həqiqəti,
Bu təb'gahi-sün'də çıxan kitabi-hikməti
Nigahi-intibahə al, sərairi-nigarı gör!

## ŞİRVAN XATİRATI
## RÖVŞƏNAYİ-LEYLDƏ BİR XƏRABƏZARIN MƏNZƏRƏSİ

Mehtab bir şəb idi, hava müşkbar idi,
Afaqə nur axardı, səma ləm'əzar idi.

Azadeyi-küdurət idi səhni-asiman,
Dahilərin xəyalı kimi tabdar idi.

Tabişgəhi-həqiqət olan lövhi-kainat,
Mir'ati-şə'ni-aliheyi-ruzgar idi.

Safiyyəti-fəzayə axanlar sanardı kim,
Ayinədir fəza, qəmər əksi-nigar idi.

Bir tərzi-nəşvəzadə məsabihi-xəndəriz...
Bilsən, ziyaları nə qədər dilşikar idi!

Bənzərdi asiman sədəfi-dürrpərvərə,
Səyyarələr içində düri-şahvar idi.

Dəryayi-bihüdud idi çərxi-zümürrüdin,
Könlüm misalı mövczənü biqərar idi.

Bəhri-zümürrüdində bu fəvvareyi-ziya,
Yə'ni ki, mah aləmə pərtövnisar idi.

Ə'maqi-ruhdən gəliyordu həzin səda,
İlhami-qeybə qarşı dilim guşdar idi.

Cəbrili-ruh, rəfrəfi-qüdsaşiyanənin –
Tutmuş zimamın, əzmgəhi bəzmi-yar idi.

Fikrim sarındı rəfrəfi-lahütmənzərə,
Pərvaz qıldı məhşəri-əsrarpərvərə.

Seyr eylədim bu aləmi-balayi-vəhdəti,
Zibi-nigahi-ibrətim əsrari-yar idi.

Gəzdi, dolaşdı rəfrəfi-ruhim cahanları,
Məşhud olan sərair ilə nəş'ədar idi.

Birdən-birə göründü gözə bir xərabəzar,
Görsən nə qəmli mənzərələr aşkar idi!

Kaşanələr yıxılmış idi, xanələr xərab,
Sükkanının dərunu kimi tar-mar idi.

Əhli-vətən qünudeyi-xabi-giran həp,
San mürdəgani-cəhlə vətən bir məzar idi.

Səs yox, sükutə dalmış idi növmpərvəran,
Asari-ruh yox, vətənim səngzar idi.

Bir qaç səfil xanədə vardı sönük ziya,
Bu külbələr ləbaləb əhli-qumar idi.

Əks eyləyən qulağa sədayi-kilab ilə –
Avazi-nifrətavəri-əhli-xumar idi.

Bəngilərin, bu bir sürü ərbabi-qəflətin
Hali-səfalətilə gözüm giryəbar idi.

Gönlümdən atəşi-qəm olurdu şərarəpaş,
Ağzımdakı bu şe'rlər atəşnisar idi:

Bir gülşəni-maarif idin, ah ey vətən!
Nuri-fəzilət ilə ləyalın nəhar idi.

Şairlərin, o sevgili rəhbərlərin sənin –
Xaqani* idi, Seyyidü* Bixud*, Bahar* idi.

Zinətfəzayi-məhdi-ədəb, əhli-mə'rifət –
Kim, hər biri ədibi-fəzailşüar idi.

Bülbül yerində indi oturmuş idi zəğan,
Bülbüllərin məzarda söylər: "vətən, vətən!.."

## FACİEYİ-HƏYATIMIZDAN BİR PƏRDƏ

Məzaci-xəlq olmuş münhərif mizani-səhhətdən,
Təcavüz eyləmişdir hali-ümmət istiqamətdən.
Kəmali-şiddət ilə zülm edir icrayi-əhkamin,
Könüllər eyləmiş təcrid ayati-ədalətdən.
Açıb övladi-millət bir-birinə pənceyi-qəhrin,
Sönüb müşkati-rəhmət sərsəri-qəhrü ədavətdən.
Çavanani-vətən qurbani-şəmşiri-cəhalətdir,
Yıxılmış heykəli-islam, ey əfsus, qəflətdən!
Dəmi-şübbani-millətlə vətən səhrası xunalud,
Dönüb bir laneyi-bumə vətən ərbabi-şərrətdən.
Bitənlər sanma al güldür, çiçəkdir səhni-gülşəndə,
Vətən üşkufəzar olmuş dəmi-mə'sumi-millətdən.
Yıxıldı xanimanlar, yandı canlar, bəsdir, ey bidad!
Dağılmaz sanma xanən aqibət əşki-müsibətdən.
Çocuqlar kimsəsiz, madərlər əşkəfşani-həsrətdir,
Cigərlər dağdari-yə'sdir alamü möhnətdən.
Mükəddər olmayırmı ahdən mir'ati-vicdanın,
Təcərrüd eyləmişmi yoxsa hissiyyati-şəfqətdən?
Fənalıqmı göründü, xeyr işdən qıldınız əğraz,
Nədir məqsud, bilməm, müfsidətdən, büğzü şərrətdən?
Nəzərgahi-ümumdə olmuşuz şayani-istehza,
Usan bir, əl çək, ey zalım, şu namərdanə xislətdən!
Təməddünpərvəran indində aldıq "vəhşi" ünvanın,
Utan, ey zövq alan səfki-dəmadən, fe'li-vəhşətdən!
Bu əf'ali-şəniən güldürür rüxsari-ə'dani.
Əhibba sərbezanuyi-təhəyyürdür xəcalətdən.
Hüququn nolduğun idrakə halə əqlimiz qasir,
Onunçün olmuşuz saqit hüquqi-adəmiyyətdən.
Ədəb yox, mərifət yox, tərbiyət yox, cümləmiz nadan,
Bununla qabil olmaz rahyab olmaq əsarətdən.
Bizim bu cəhlimizdən istifadə qıldı qərbiyyun,
Biz olduq naxələf övlad, çıxdı dəst sərvətdən.
Ərazimiz, vətənmiz, mülkümüz mal oldu əğyarə,
Bütün məhrum qaldıq malü cahü şanü şövkətdən.
Biz etdik bizlərə, yox kimsədə təqsir, vallahi,

Düçari-zillət olmağmız deyildir başqa millətdən.
Bu məşhur məsəldir: “Gər köpəklər eyləsə qövğa,
Bunu gördükdə eylər istifadə yolçu fürsətdən”.
Kilabi-nəfs iştə bizləri sövq etdi qövğayə,
Şudur ki, pahrovlar müstəfid oldu bu halətdən.
Biz etdik qilü qalı, qövmlər kəsb etdi əmvalı,
Vətən qurtarmayır hala yədi-fəqrü səfalətdən.
Bu beşgünlük həyatı fikrimiz tək etmişiz müzlim,
Usan, ey düşməni-ənvar, vəhşətgahi-zülmətdən!
Səbükməğzani-millət eylədi pamal islamı,
Həzər, yüz min həzər olsun səbükməğzani-millətdən!
Sədayi-“Ərrəhil” iyqaz qıldı cümlə əqvamı*,
Ayıl, ey milləti-məzlumə, bu xabi-bətalətdən!
Cahan bir vadiyi-düzdan, həramilər mühəyyadır,
Bu səhradə yatanlar kəssin ümmidin səlamətdən.
Əgər nuri-hüda istərsən, iştə vadiyi-eymən,
Qədəməndazi-Tur ol, feyz al nuri-hidayətdən,
Əgər zülmatə qane olsa idi həzrəti-Musa*,
Haçan rəhyab olurdu durduğu səhrayi-vəhşətdən?
Əsayi-sə’y ilə tabişgəhi-ənvarə iqdam et,
Münəvvər eylə fikrin pərtövi-nuri-həqiqətdən.
Dirəxti-elmdən qıl iqtibasi-feyzi-hürriyyət,
Gəlib azad qıl əqvamı Fir’oni-əsarətdən.
De: “Rəbb işrəh li sədri”*, qoy qədəm meydanə mərdanə,
Xilas et qövmünü bu bari-taqətsuzə xidmətdən.
Bax iştə qibtiyan övrəngpirayi-təalidir,
Düşüb dami-zəbungiranə sibtilər rəzalətdən.
Biz ol nəsli-nəcibi-milləti-islamiyanız kim,
Qədəm basdıqda meydanə cahan titrərdi dəhşətdən.
Açıb guşi-dəruni dinlə nitqin bir fədakarın*,
Durub bəhrin kənarində nə söylərdi həmiyyətdən:
“İlahi olmasaydı, iştə bu ümmani-bipayan,
Və yaxud keçsə idim işbu bəhri-pürməhabətdən,
Edər ismi-cəlalın nəşri-darülmülk nasutə,
Qılardım kainatı bəhrəmənd feyzi-vəhdətdən”.
Cahanda parlayan asar həp məhsuli-himmətdir,
Olub məhzuz aləm meyveyi-bustani-himmətdən.

Həmiyyət bir dirəxti-meyvədari-məs'ədətdir kim,
Nə yerdə kölgə salsa, qurtarır insani zillətdən.
Bu gün əqvami-məs'udə bu meydani-rəqabətdə
Qılıb kəsbi-mənafe kənzi-layəfnayi-qüdrətdən.

*27 rəbiül-əvvəl* (*11 may*)

## AMALİ-VİCDAN

Nihali-eşqi-əbnayi-bəşər xatirnişanımdır,
Məhəbbət meyvəsi məhsuli-nəxlistani-canımdır.

Zülami-büğzdən pakizədir misbahi-vicdanım,
Buna bürhani-sadiq fikrəti-pərtövfəşanımdır.

Qaralsın ol könül kim, boşdur ənvari-üxüvvətdən,
Bu cümlə daima təzkarü övradi-lisanımdır.

Bütün övladi-adəm hasili-baği-təbiətdir,
Onunçun növxahi-nəqşi-əlvahi-nihanımdır.

Ürək ərzində bəslənmiş əməl hübbi-ümumidir,
Güvah istərmisən? İştə kəlamım tərcümanımdır.

Könül istər ki, olsun dəhr sülhabadi-ünsiyyət,
Məni sövq eyləyən bu fikri-alişanımdır.

Bəşər ixvani-tinət, həm vətəndir aləmi-imkan,
Bu hissiyyati-qüdsiyyə səfabəxşi-rəvanımdır.

Mühibbi-lanə olmaq şivəsin bülbüldən öyrəndim,
Məvəddət gülləri xəndan olan yerlər cinanımdır.

Əgər zülmətpəsəndan hərbcuyi-ixtilaf olsa,
Nə qəm, əhli-vifaqəm, tiği-rəxşanım zəbanımdır.

Bəyənməm xəlq ətvarın, əcəb müşkilpəsənd oldum,
Həqiqət çünki əksəndazi-mir'ati-cünanımdır.

Edər mürği-dilim pərvaz fəshətgahi-lahutə,
Nəzərdə gərçi cövlangahi-nasut aşiyanımdır.

Deyil süflayə mail, e’tilapərvəzdır ruhum,
Onunçun şe’ri-ülvi cilvəarayi-bənanımdır.

Xəyalım hürr, can sərbəst, fikrim laübalidir,
Məni azad edən sultani-əqli-nüktədanımdır.

Cahanda bərhəyat olduqca bitməz təb’i-fəyyazım,
Məni intaq edən bir qüvveyi-mö’cüzbəyanımdır.

Zülali-fikri-səyyalım mühiti-latənahidir,
Məni dilsir edən mənbə füyuzi-laməkanımdır.

Mən ol mərdi-süxəndanəm ki, sönməz məğzi-nəvvarım,
Mənim feyz aldığım aləm vərayi-xakidanımdır.

Bəharistani-ömründə tərrənnümsaz olur bülbül,
Həzari-naləkarəm, bağı-aləm gülsitanımdır.

*8 rəbiül-axir* (*22 may*)

## TƏXƏTTÜRİ-MAZİ

Bir zaman, ah ki, bir tair idim azadə,
Əcəba, kim məni saldı bu xərababadə?

Pürsürur idi könül, qüssə nədir bilməz idim,
Nəş’ədari-meyi-hürriyyət idim mənadə.

Pərküşayi-məlokut olmada mürği-dilü can,
Seyri-xüld eylər idim cilvəgəhi-baladə.

Hürr uçurkən məni seyd eylədi şəhbazi-qəza,
İndi dərqeydi-cəfayəm qəfəsi-dünyadə.

Qəm nədir bilməyərək hürr yaşardım, heyhat,
Düşməmiş olsa idim saheyi-qəhrabadə!

Batar ümmani-xüruşandə zövrəqçeyi-ömr,
Baxaram hər tərəfə, yox yetişən imdadə.

Bəsləyib bir gülü min nazlə gülzari-fəna,
Doymadan xəndəsinə tərk ediyor həp badə.

Ələmi-layətənahinin əlindən, Hadi,
Yeri vardır nə qədər gəlsən əgər fəryadə.

*20 may 1325*

## ULDUZLARA

Ey aləmi münəvvər edən cürmi-afitab,
Müşkati-şö'lədar, şəbəfruzi-mahitab,

Kövkəblər! Ey fəzadə məsabihi-xəndədar,
Pirayəsaz qə'ri-səmavati-biqərar.

Uçsaydım, ah, mən o müəlla cahanlara!
Yüksəlmək ən böyük əməlim asimanlara.

Artıq xilas olur da əlindən fəlakətin,
Görməm vücuhi-dəhşətini ərzi-vəhşətin

Mən də sizin kimi olub azadəsər o dəm,
Eylərdi tərk bəlkə məni pənceyi-ələm.

Nifrət edər könül bu gün ətvari-adəmə,
Döndərdilər əvalimi bir dari-matəmə.

Kövkəblər! Ey səmani-müzəyyən qılan nücum,
Etmişmidir o yerlərə də seyli-qəm hücum?..

Sizlərdə də bəşər kimi qəddar varmıdır?
Qan tökməyə həris, sitəmkar varmıdır?

Azadəsər deyilmisiniz qilü qaldən?
Ləzzətlənirsinizmi bəşər tək qitaldən?

Siz də bizim kimi əcəba ibtiladəmi?
Meydani-hərbdə gecə-gündüz vəcadəmi?

Zənnim budur ki, sizdə də xunkar yox deyil,
Can almağa şərirü cəfakar yox deyil.

Bu iş uzaqmı? Qabili-iskan denir sizə,
Bədbəxt ərzimiz kimi imkan denir sizə.

Əxtərlər! Ey ziyaları titrək sitarələr,
Baziçə eyləmişmidir sizi də pənceyi-qədər?

Zərrati-kainat bədayenümundur,
Hər zərrəsi dəlaili-rəbbül-şüundur.

Asari-həqqə biz kimi yox sizdə iştibah,
Tə'lifdir cahan, müəllifinin namıdır ilah.

Afaqə həp baxılsa ki, darülfünundur,
Zibi-üyun edər o ki hikmətnümundur.

* * *

Cahan sərasər meydani-cəngi-fitrətdir,
Mükəvvinat bütün saheyi-rəqabətdir.

Cahan mübarizə səhrasıdır həqiqətdə,
Vədiədir bu həqiqət məvadi-xilqətdə.

Həmişə acizi qalib zəlilü zar edəcək,
Qəvi zəifi zəbunü səfilü xar edəcək.

Cidalgahi-fənadə yazıq fəqirlərə,
Yazıq, günah şu məhkum olan əsirlərə.

Müəmmər olduğuca növhəzar fitrətdə,
Səfalət ilə yaşar təhti-bari-zillətdə.

Qəmin əlindən, ilahi, ürək dönüb qanə,
Qanadım olsa da, uçsam vərayi-imkanə!

*20 may*

## MOLLA NƏSRƏDDİNƏ

Zənn etmə bizi qabili-ülviyyət, a Molla,
Hala deyiliz layiqi-hürriyyət, a Molla,
Xasiyyət olub millətə əbdiyyət, a Molla,
Bizlərdə geri getməyə var niyyət, a Molla,
Məhkumluq olubdur bizə mahiyyət, a Molla.
Hürriyyətə var bizdə böyük nifrət, a Molla.

Zənn eyləmə, dostum, bizi ərbabi-həyatız,
Zülmətkədeyi-cəhldə əshabi-məmatız,
Şətrəncdir aləm, belə san, biz şəhi-matız,
Gümgəştələriz, vadiyi-zillətdə üsatız.
Biz istəməriz feyzü kəmalat, a Molla!
Kafi bizə övham, xürafat, a Molla!

Biz şəbpərəyiz istəməriz nuri-hidayət,
Çirkin gəliyor bizlərə huri-mədəniyyət.
Sanma yaxışır millətə dibayi-həqiqət,
Əbdanımıza biçmədi xəyyati-təbiət.
Haq sözlərini dərci-sütun etmə, a Molla.
Aqil bulun, izhari-cünun etmə, a Molla.

Alati-tərəb, dinlə, nə təqrir ediyorlar:
Gizlin içiniz badeyi, təkfir ediyorlar.
Bər vermədi ta indiyədək şaxeyi-övham,

Batil bu xəyalat da ki, iksir ediyorlar.
Bədbəxtiyi-millətdən ol agah, a Molla,
Əski sudur, əski dibək, ey vah, a Molla.

Aləm ola gər xitvəbərəndazi-səadət,
Əbnayi-zaman qılsa bütün kəsbi-şərafət,
Bizlərdə sönüb atəşi-hissi-bəşəriyyət,
Gündən-günə millət eləyir maziyə ric'ət.
Madam ki, zağan bizə rəhbərdir, a Molla,
Ümmidimizin şaxəsi bibərdir, a Molla.

Şayəd gələcək olsa yədi-qüdrətimizdən,
Hürriyyəti imha edəriz fikri-bəşərdən,
Tabəndədir afaqə ziya sübhi-hünərdən,
Bilməm niyə nifrət edəriz nuri-səhərdən?
Biz düşməni-xurşidi-ziyadariz, a Molla,
Xabideyi-ağuşi-şəbi-tariz, a Molla.

Nisvan nədir, həqqi-müsavat nədir ya?
Aya görüyorsunmu yatıb aləmi-rö'ya?
Pürnəş'əmisən, ay kişi, divanəmisən ya?
Get əqlinə yazdır duadan, zaddan, a Molla.
Biçarə, yazıq, layiqi-şəfqətsən, a Molla,
Vallahi səzavari-nəsihətsən, a Molla.

Nisviyyəti insanlığa şayanmı sanırsan?*
Nisvanı da insan deyə insanmı sanırsan?
Heyvanı da insan ilə yeksanmı sanırsan?
Xatunlara azadəliyi şanmı sanırsan?
Nisvan sözün at guşeyi-nisyanə, a Molla,
Bu işləri ver bir para nadanə, a Molla.

Qul olmaq olubdur bizə pirayəvü ziynət,
Biz istəmiriz ədlü müsavatü üxüvvət,
Millətlə bərabər doğub əfkari-əsarət,
Əhrarlığa eyləmədik kəsbi-ləyaqət,
Hürriyyəti sil lövheyi-fikrətdən, a Molla!
Bunlara danış vadiyi-zülmətdən, a Molla!

## BÜKAYİ-TƏBİƏT

Bəxti-namərdanəmizdən ruzgar ağlar bizə,
Oylə bədbəxtiz ki, bəxti-nabəkar ağlar bizə,
Ətfi-çeşmi-intibah etdikcə yar ağlar bizə,
Hər səhər gülşəndə dad eylər, həzar ağlar bizə,
Qönçələr, güllər, çiçəklər, mürğzar ağlar bizə.

Didəmə məşhud olur aləm bütün darül-məlal,
Olmasınmı həqqimiz məhzumi-ərbabiz-zəlal.
Ətfi-ənzari-həqiqət eylə, ey sahibkəmal,
. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Payimal olmuş hilali-şərmsar ağlar bizə.

. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Kürreyi-ərzə bütün oldu əcanib hökmran,
Qalx, ey naim, açılmışdır səbahi-imtəhan!
Qanə dönmüşdür bu gündə qəlbi-millətpərvəran,
Qəbri-pakində rəsuli-kirdgar ağlar bizə.

Ümməti-mə’sumə etmiş xabi-cəhlə inhimak,
Bir nəfəs olsun belə qəflətdən etməz infikak,
Boylə getsə hal, əlbəttə, təbiidir həlak,
Şahrahi-intibahə qılmaz isək insilak,
Çeşmi-istiqbali-millət zar-zar ağlar bizə.

Bir xərababadi-qəmdir sanki gülzari-vətən,
Qəlbi-qəmpərvərdəmiz ləbrizi-alamü mihən,
Vərteyi-zillətdə məhkumi-fənadır mərdü zən,
Seyli-cuşani-fəlakət hər tərəfdən mövczən,
Dalğalar, girdablər, mövci-bəhar ağlar bizə.

Qabili-itfa deyilkən nuru islamiyyətin,
Söndü əfvahi-nifaq ilə ziyası vəhdətin,
Şimdi yalnız nami qalmış bizdə insaniyyətin,
Ümməti-mərhumədə yox ruhu mövcudiyyətin,
Oylə mövtayız ki, əshabi-məzar ağlar bizə.

Olmayır məşhud hala bizdə asari-nədəm,
Qaliba vurmaqdayız bihudə dəmlər dəmbədəm,
Olmadıq rahi-nicatə xitvəəndazi-qədəm,
Kəştiyi-islam olub mə’ruzi-girdabi-ədəm,
Əl’əman, ey naxuda, xəlqi-bəhar ağlar bizə.

Eylə isğa pəndi-atiyi, əya əhli-kərəm,
Söyləmişdir Müslihəddin*, ol ədibi-möhtərəm:
“Dər təriqət dəm nəmibayəd qədəm bayəd qədər”*.
Eylər insaniyyəti məs’ud ərbabi-qələm,
Bunlar olmaz isə bəxti-dağdar ağlar bizə.

İzzəti-nəfs ilə ölmək bir məziyyətdir bizə!
Ömr sürmək min səfalətlə əziyyətdir bizə!
Şanlı ölmək, şanlı ölmək – şanü şöhrətdir bizə!
Bərhəyat olmaq əsarətlə xəsarətdir bizə!
Gər ölürsək şirasa, Zülfiqar* ağlar bizə.

*30 may*

## NƏVAYİ-RİNDANƏ

Fədakaranə çıx meydana, əhraranə cuş eylə,
Sipəhsalar olub təftişi-əhvali-cüyuş eylə.

Bu taqi-şö’lədari-rif’əti ehraz lazımsa,
Livayi-fəthü kəşfi heydərasa zibi-duş eylə.

Edir pürvəlvələ təbli-rəqabət səhni-imkanı,
Təzəlzülbəxşi-hissiyyat olan avazı guş eylə.

Müsəmməmsə xəyalında əgər amali-istiqbal,
Atıl meydana şiranə, mühibanə xüruş eylə.

Açıqdır bəzmi-ünsə ünsi-meynuşani-hürriyyət,
Şərəfyabi-düxul ol, badeyi-ürfanı nuş eylə.

Şitaban ol da işrətgahi-nuşanuşi-rindanə,
Əbayi-zərqi payəndazi-piri-meyfüruş eylə.

Nə gördün mənşəi-vəsvas olan günci-mədarisdə?
Qılıb tərki-vəsavis, guş ilhami-süruş eylə.

Nədir kəsbin əmaimpuş olan əhli-təğafüldən,
Təəssüb xirqəsin yax, kisveyi-insafı puş eylə.

Təsəvvüfdən, təəbbüddən nədir əqsayi-amalın?
Təriqi-əzmini, zahid, təriqətgahi-huş eylə.

Burax bu qiylü qali-biməali, əhli-mə'na ol,
Çiraqi-həqqi rövşən qıl, xürafatı xəmuş eylə.

Əgər mə'mulun isə kəsbi-hissiyyati-hürriyyət,
Fədakarani-həqqin pəndi-rə'nasın niyuş eylə*,

Dilərsən feyzdar olmaq ülul-əlbabdən, Hadi,
Açıb mə'na qulağın, zahiri guşi füruş eylə!

*12 iyun*

## AXŞAM TƏNƏZZÖHLƏRİ

Baharın abü həvasından istifadə üçün,
Müseyrələrdə xüramidədir əhali bütün.

Nəsimi-ətri-şəmim əsmədə xəfif-xəfif,
Saçar məşamə füyuzatını lətif-lətif.

Bəhari-şə'şəabarın həvayi-səfvətini,
Duyardı seyr qılan didələr təravətini.

Gəzir nəzakət ilə mərdü zən, siğarü kibar,
Çoluq-çocuq qoşuyor hər tərəfdə misli-həzar.

Kimi qonuşmadadır yari-qəmküsari ilə,
Kimi düşünmədədir qəlbi-qüssədari ilə.

Kimi qünudeyi-fikrət, qəriqi-bəhri-xəyal,
Kimi rübudeyi-səbrü vəsiləcuyi-vüsal.

Həyatdən kimi olmuş cərihədari-ələm,
Zəbuni-dəsti-məsaib, əsiri-pənceyi-qəm.

Kimi tükənməz ələmlər ələddəvam əzər,
Kimi mənim kimi laqeydü laübali gəzər.

Kimi cəlisi-nişimən, ənisi-hurliqa,
Baxanda xatirə gəlməkdə xüldzari-bəqa.

Təbəq-təbəq kimi tutmuş əlində qönçeyi-tər,
"Gözəl çiçək, güli-növdür..." – mədihələr söylər.

"Gözəl çiçək, alınız" cümləsilə guyandır,
Şu güllər iştə səfabəxşi-baği-vicdandır.

* * *

Şu qönçə dəstələri zibbəxşi-saneyi-hur,
O şanlı yerdə olur xəndəriz zövqü sürur.

Dəmətlər olmada pirayəbəxşi-dəsti-məhan,
Dəmətlər olmadadır busədari-güldəhənan.

Dəmətlər olmada avizə zülfi-zibadə,
Bir atəşin topa bənzər ləyali-leyladə.

Budur nümuneyi-darülqərari-hürriyyət.
Tərənnüm eylə, oxu, ey həzari-hürriyyət!

Şu səmtdən oluyor musiqi təranənəvaz,
Simaxi-müstəmiinə olur təninəndaz.

Edincə əhviyəsin gah-gah musiqi pəst,
Gəlirdi guşimə guya tərənnümati-ələst.

Nəvayi-musiqə etməkdə dilləri təhziz,
Nişat, şövq, şətarətlə ruhlar ləbriz.

Gəlincə naləyə birdən dəhani-musiqar,
Dəruni-musiqədə san ötər həzari-bəhar.

Bir, iki, üç çocuq əldə cəridələr tutuyor,
Onu bitirmək üçün hər tərəf gəzir, qoşuyor.

Çocuqlar olmada yer-yer qədəmnəhadi-xüram,
Deməkdə hər birisi: iştə "ruznameyi-şam!"*

Alır, oxurdu əcanib kəmali-ləzzət ilə,
Yanında dinlər idi həmdəmi məhəbbət ilə.

Görünməyirdi fəqət bir cərideyi-islam.
Bu hal qəfləti-islamı göstərirdi təmam.

Böyük, kiçik hamı dildadeyi-kəmalət idi,
Bütün əhaliyi-islam qəriqi-qəflət idi.

Gəzərdi sərsəriyanə, səfilü avarə,
Bütün əsiri-əyadiyi-nəfsi-əmmarə.

Bu halə qarşı təhəssürlə giryəbar oldum,
Tutuşdu odlara könlüm, püriztirar oldum.

* * *

Oturmuş idi şu bir yanda düxtərani-səğir,
Kitabı zinəti-ağuşi-istifadə edir.

Ələddəvam səhaiflə iştiğaldə həp,
Qəriqi-bəhri-xəyal idi, sərbəduşi-ədəb,

Çəkib səhifələri pişgahi-əzhanə,
Bu mənzərə veriyordu hüzuz insanə.

Nə mənzərə, nə məlahətli bir həqiqətdir!
Bu görnüş iştə lətafətnümayi-cənnətdir.

Buna nə gözlə baxır çeşmi-millət, ey əfsus,
Şu məktəbi-mədəniyyətdən almıyormu dürus?

*16 iyun*

## DAD İSTİBDADDAN!

Qaldıq əlində bir sürü ərbabi-vəhşətin,
Olduq əsiri pənceyi-qəhrü müsibətin!

Hər səmtdən atılmadadır tiri-cangüdaz,
Yoxdur* önün alan bu xədəngi-fəlakətin!..

"Layəs'əl"in* məalına meydan olub vətən,
Keyfi idarələrdə* nə karı ədalətin?!

Hər yerdə eyləyir sitəm icra hökmünü,
İştə budur nizami kilabi-dənaətin!

Hər kəs nə bilsə etsin, əvət... kimsə dinməsin,
Məmnu'dur denilməsi sidqin, həqiqətin.

Ehraq olundu zülm ilə nazəndə şəhrlər,
Yaxmaqdadır cahanları ahi cəmaətin.

Bari-girani-zəhmətə yox səbri qulların,
Yarəb, nədir bu rütbə təhəmmüldə hikmətin?

Qan ağlayır əhali, könüllər cərihədar,
Gülməzmi, ey xuda, yenə rüxsari-rəhmətin?

Hər kimsə öz mənafeyi-şəxsiyyəsin arar,
Əshabi-fəqr* olmada qurbanı zillətin.

Minlərcə binəva quru yerlərdə can verir,
Beş-on ləim nail dəryayi-ne'mətin.

Hər kəs gərək bərabər ola hər hüquqda,
Ehsanıdır bu ərz bizə dəsti-qüdrətin.

Mənsux olunsa qaideyi-keyfəmayəşa,
Tərtil edilsə ayəsi şurayi-ümmətin,

Kəsbi-səadət eyləriz, azadi-qəm olub,
Məs'udluqla ömr edər əfradı millətin.

Qət'i-ümid etməyərək kuşiş eyləyin,
Eylər cibalı qəl' hümməti-ərbabi-qeyrətin.

Həmdəsti-ittifaq olunuz, ey rəfiqlər!
Birlikdə fəth olur sizə babi səadətin.

Xabi-nifaq saldı bizi bu səfalətə,
Məhkum qıldı cümləmizi qeydi-möhnətə.

## HƏSBHAL, YAXUD BİZİM HADİNİN İZTİRABI

Hadi – nədir o?
Mürəttib – Gəncədən bir kimsə göndəribdi sizə.
Hadi – nə?
Mürəttib – E'tiraz ediyorlar keçənki şerinizə.
Hadi – Bu gün lisanə, yarın dinə e'tiraz olunur,
Sanırmısız ki, bu şeylərdə bir fikir bulunur?
Bular ki, can sıxacaq şey, xəyali incildir,
Bularla uğraşa bilməz mənim kimi şair.
Mən oylə başə düşürdüm ki, indi dünyadə
Hüzur varsa, gərəkdir cahani-xülyadə.
Bu yanda məst qəzəllərlə Hafizi-Şiraz,
Olur piyaləkəşü şuxpərvərü dəmsaz.
Qulamlar tərəbəfzayü rəqspərvərdir,
Piyalələri üfüqi-fikrə nurgüstərdir...
O yanda Sə'di vəquranə çöhrəsilə baxar,
Bu yanda nayü dəfü çəng kainatı yıxar!
O yanda Sə'di vəquranə çöhrəsilə baxar,
Yıxar ğəlağili eyvansərayi-İrani.
Şərab dolduraraq, müğbəçə xüram edərək,
Dönər mənim yana nagah ibtisam edərək...
Sərimdə nəşveyi-səhba, gözümdə nuri-cəmal,

Onun xüramini təqlidə başlaram dərhal:
“Gəzər büraqi-xəyalim fəzayi-lahuti,
Cahani-nurdə suzan olur pərü bali”...
Görürmüsüz ki, şu bir ləhzədə şu bir beyti –
Cahani-mə’rifətə eylədim hədiyyə... vəli
Buraxmayır ki, məni mütləq indi bir qəzetə,
Ya e’tiraz edəcəkdir bizim “Fyüzat”ə –
Və ya ki, Şuşədə bir sərsəmin xurafati
Səhifələr ilə məşğul edər “Füyuzat”i!*
Və ya ki, mətbəədən tazə-tazə təshihat
Məzarlər açılırmış kimi cüyufi-həyat...
Daha nələr gələcəkdir, nələr, nələr, eyvah!
Həyat üçün bu bəlalər əkilməyir billah!..
Həyatdan məni tənfir edən bu halətdir,
Məfai’lün, fə’ilatün... təhi əziyyətdir!
Quş ovlayır kimi mən arxasınca qafiyənin
Peyində tairi-pərran nəğmeyi-vəznin
Dəqiqələrlə deyil, bəlkə ah günlərcə...
Dəqiqələrlə, günlərlə, ah, gün və gecə
Qoşar, qoşar da, nəhayət, şikəstə tabü təvan –
Düşər də, ağlaram! Əş’ar olur bütün bu fəğan!..
Fəqət bu hali gəl anlat şu hey’əti-cəhlə!
Mühərrirəm – deyə çıxmış şu bir yığın cəhələ!..
Bu yanda bir “dekadan” zülməti-xəyalilə*
Nazirəsaz olur əlvahi-qəsvəti-leylə!
Boyar nükatü məzamini... rəng-rəng əfkar...
Zavallının bu da zə’mincə şe’r olur... Daha var:
O yanda bir dəli doktor vücudi-islami* –
Mərizə bənzədir!.. Ən doğrusu bu övhami –
Edər təşəxxüs önündə!.. Bu halə külməlidir!..
Əvət! Fəqət bunu tənqid edən də bir dəlidir!
Əgər gedərsə bu işlər nizamsız, başsız,
Dersiz bu mətbəəyə biz də bir “xudahafiz!..”

## GÖZLƏRİN

Qıldı, ey ahu, məni vəhşi qəzali gözlərin,
Etdi səhragərdi-cənnət laübali gözlərin.

Xanəbərduş eylədin zülfün kimi aşüftəni,
Qıldı dil cəm'iyyətin məhv ol bəlalı gözlərin.

Taleim bənzərkən, ey afət, səbahi-hüsnünə,
Eylədi halın kimi Şami Bilalı gözlərin,

Çeşmi-əfsunpərvərində vardır iste'dadi-cəzb,
Dilrübadır, dilrüba, əfsunla mali gözlərin.

Etsə də tənzir, xovfum yox, məni şami-fəraq,
Daima təbşir edir sübhi-visalı gözlərin.

Dideyi-səhharının vardır iki xasiyyəti,
Gah səlbü gah cəlb eylər məlalı gözlərin.

Bunca kim, əhli-niyazə nazü istiğna satar,
Ədlgahi-həqdə verməzmi sualı gözlərin?

Abidi-məscidnişini eylədin sağərbədəst,
Eyləyir təhmil üşşaqə vəbalı gözlərin.

Məncə məchul idi hala rəmzi-"vəscüd, vəqtərib"*,
Bəndənə mə'lum qıldı bu məalı gözlərin.

Anlamazdım mən nədir dərd içrə əfvaci-xəyal,
Eylədi rövşən, həqiqət, bu xəyalı gözlərin.

Hər zaman qılsam nəzər ayineyi-nəzzarənə,
Pişi-çeşmə ərz edər ol məhcəmalı gözlərin.

Dideyi-xunbarımı gördükdə xab eylər fərar,
Sübhü ərz etməkdə, mahim, ol ləyali gözlərin.

İnqilab ərbabı görsün çöhreyi-gülrəngini,
Onlara ifham edər tərzi-qitalı gözlərin.

İnqilabiyyun olur həp zövqyabi-inqilab,
Onlara bəxş etdimi zövqi-cidalı gözlərin,

Sanma eylər xovf Hadi tiği-istibdaddən,
Çoxdan etmiş qətl onu, yarim, qitali gözlərin.

## BİR AŞİQİ-HÜRRİYYƏTİN EHTİSASATİ-RUHİYYƏSİNİ TƏSVİR VƏ İRAƏ EDƏN BİR LÖVHƏDİR

Süyuli-qəm ediyor qəlbimi xərab mənim,
Cahanda sanki nəsibimdir iktirab mənim
Rəmidə olmada məndən şu huri-kəpkixüram,
Bu seydgəhdə şikarim olur qürab mənim.
O rütbə qət'i-ümidəm ki, abi-vəslindən –
Bütün cahan görünür didəmə sərab mənim.
Saçın kimi günüm oldu siyah qürbətdə,
Cavanlığım gülünü tökdü iğtirab mənim.
Tükəndi səbrim, ilahi, yox ehtimali-vüsal,
Əritdi cismimi nirani-iztirab mənim.
O rütbə təşnələbi-sağəri-vüsaləm kim,
Ətəşmi dəf' edəməz kasələrlə ab mənim.
Fəraqının səmi qılmış məzaqimi təsmim,
Gəlir dimağıma şəhdab zəhrab mənim.
Bu dağdarinə bax, mərhəmət qıl, ey qəddar,
Rəvamı qismətim olsun bu piçü tab mənim?
Tələmmüati-cəmalın görünməyən dəmlər
Nigahıma kəsilir zülmət afitab mənim
Dilərsə könlüm əgər bir çiçək, o gülfəmdən,
Gəlir qulağıma qəhr ilə bir xitab mənim.
Edərsəm, ah, əgər arizuyi-vüslətini,
Ümidimə verilir rədd ilə cavab mənim

Bu yanda tə'neyi-əğyar, o yanda nazi-nigar
Dili-həzinimə verməkdədir əzab mənim.
Səvab işləyəcəkmi şu yar bilməm ki?
Məzarədək çəkəcəkmi dilim iqab mənim?
Bəlakeş aşiqinə satma bunca istiğna,
Bu nazın etmədədir könlümü kəbab mənim.
Nə hüznlər, nə ələmlər, nə qəmlər, ey afət!
Təhəssüratımı yazsam olur kitab mənim.
Xilas olmağa, Hadi, yədi-bəlayadən
Dəvayi-dərdi-dilimdir şərabi-nab mənim.

## ƏLVİDA,
## YAXUD ACI BİR İQRAR

Ah, bədməstü xərabız cümləmiz bir camdən,
Min günəş doğsa, oyandırmaz şəbi-övhamdən.
Dinləyin iqrarımı, yaran, dili-nakamdən:
Qət'i-ümmid eylədik biz doğrusu islamdən.

* * *

Ah, yox bir hal əməlbəxşayi-istiqbal ola!
Yox iki qardaş belə islamdə yekbal ola!
Qorxuram bu ixtilafın ardı izmihlal ola!..
Qət'i-ümmid eylədik biz doğrusu islamdən.

* * *

İntibah etsin deyə islam fəryad eyləriz,
Min nəva, min növheyi-dilsuz inşad eyləriz,
Zənn edərdik ümməti-islamı irşad eyləriz,
Qət'i-ümmid eylədik biz doğrusu islamdən.

* * *

Çünki elmü dinü dəhrə iltifatın yox sənin,
Yox deməkdir, yox deməkdir, yox həyatın, yox sənin!
Eyyühəl-islam, ümmidi-nicatın yox sənin,
Qət'i-ümmid eylədik biz doğrusu islamdən.

* * *

Nuri-ürfanla gərək tənvir qəlbü qalibi,
"Ütlübül elmə vəlov bis-Sin..." buyurmuşdur nəbi,
Rəxnədar etdik cəhalətlə əsasi-məzhəbi,
Qət'i-ümmid eylədik biz doğrusu islamdən.

* * *

Başqa bir vadidə puyandır Firəngistan bu gün,
Onları təhqiri, heyfa, sanmışız iman bu gün!
Bu gedişlə onlarındır atiyi-imran bu gün,
Qət'i-ümmid eylədik biz doğrusu islamdən.

* * *

Düşməni-ənvar olur ol çeşm kim, binurdur,
Nəzreyi-xəffaşdə, əlbət, günəş mənfurdur,
Didə görməz, guş eşitməz, fikrimiz məsturdur,
Qət'i-ümmid eylədik biz doğrusu islamdən.

* * *

Daşlara tə'sir edərdi naleyi-cangahımız,
Olmadı tə'sirbəxşi-əhli-islam ahımız,
Nifrət etmiş sanki bizdən, Hadiya, Allahımız,
Qət'i-ümmid eylədik biz doğrusu islamdən.

## NƏYİMİZ VAR?

Nə iste'dadi-ülviyyət, nə də ürfanımız vardır,
Dəyərsiz, xeyirsiz yüz min sürü nadanımız vardır.

Deyil inkarı qabil, pək bəidiz adəmiyyətdən,
Çox azdır bizdə insan, çox da, çox heyvanımız vardır!

Bu iblisanə işlər kim, görürsən qılma istiğrab,
Əvamünnas söylər ki, "bizim şeytanımız vardır".

Nə kəsb etdik, bəradər, göstərin, bazari-sevdadə?
Bəsirətlə baxarsaq, pək böyük xüsranımız vardır.

Bütün əfradımız laf vurmada insafü vicdandan,
Fəqət, heyhat!.. Nə insafü nə vicdanımız vardır.

Maarif əhlini təkfirə hər an hazırız, lakin –
Səzayi-xəndə bu, nə küfrü nə imanımız vardır.

Yədi-cühhalə olduq, ah, gərdəndadeyi-təslim,
Xəzəflə dürrü vəznə əldə nə mizanımız vardır.

Deriz məqsudumuzdur Kə'beyi-ülyayi-hürriyyət,
Fədayi-rahi-hürriyyət, nə bir qurbanımız vardır.

Könül istər ki, könlüncə bu yolda əsbran olsun,
Bu çövlangahi-vase'də nə bir meydanımız vardır.

Olurmu lal xamə düşməsək biz qəbri-nisyanə,
Sükut eylərmiyiz madam tən ilə canımız vardır?

Biz ol tutiləriz kim, şəkkəristani-maarifdə
Bəqayi-nam üçün asarımız, dastanımız vardır.

## MÜCAHİDİ-MİLLƏT HƏSƏNBƏYİN RUHUNA İTHAF

Tiri-bəlayə sinəsüpərdir düha'lər,
Mə'ruzi-tə'neyi-hüməqadır zəka'lər.
Gördünmü bir dühanı ki, olduqca bərhəyat –
Ənzari-xəlqdə ola şayani-iltifat?
İştə bu sirri-mübhəmidir kim, təbiətin –
Ömründə qədri olmayır əhli-ləyaqətin.
Olduqca bərhəyat düçari-məlam olur,
Mehdi-məzarə girdimi, məhbubi-amm olur!
Əqlilə iftixar edən, ey zadeyi-bəşər!

Nurü zülami fərqə neçün sizdə yox nəzər?
Mə'muliniz nədir şu quru ehtiramdən?
İnsanə varmı faidə bir xüşk namdən?
Tiği-lisanla könlünə min yarə vurdunuz,
Bazuyi-ictihadini tə'n ilə qırdınız.
Ey düşməni-ziyayi-həqiqət olan zəvat,
Əfvahınızla söndü bütün şöleyi-həyat.
Danişvəranə iştə budur hörməti-əvam:
Öldükdə göstərir ona tə'zimü ehtiram.

Ey toxmpaşi-məzrəeyi-elmü mə'rifət!
Oldun qəriqi-mövceyi-ənvari-məğfirət.
Bir heykəli-mücəssəm idin, ey vücudi-pak,
Şol məsləki-bülənd ilə oldun dəfini-xak.
Ə'layi-şani-qövm idi əqsayi-məqsədin,
Ləbrizi-rəhmət olsun o pakizə mərqədin!
Fə'al bir "Əkinçi"* idin, ey ədib sən,
İslahi-kəştzar idi mətlubin, ey Həsən.

Bağı-fənadə toxmi-bəqa əkmisən, düha!
İfayi-xidmət etmisən, ey piri-canfəda!
Nəşri-maarifə nə böyük xidmət eylədin,
Tövsi'i-saheyi-ədəbə qeyrət eylədin.
Cəhd eylədin izaləyə afati-milləti,
Əfsus, görmədin ki, mükafati-xidməti!
Ey məş'əli-təyəqqüzü iqad edən ədib,
Tarix namın ilə edər iktisabi-zib.

Aldın şu nuri qoynuna, ey sayeyi-ədəm,
Vurdun qülubi-ümmətə min zəxmi-pür'ələm.
Qıldı üful dəhrdən ol nuri-intibah,
Xaki-siyah içində doğub şimdi bir səbah.
Ey tirə xak içində təvəttün edən həvam!
Sizlər də eyləyin şu gözəl pirə ehtiram.
Tiği-təhəssür ilə dili zəxmdardır,
Rəncidə qılmayın onu, pək ixtiyardır.
Cismin qocaltdı görmək üçün gənc ümmətin,

Girdi məzarə görmədi məs'ud millətin.
Tabavəri-təhəmmül olub çox müsibətə,
Tabü təvanı qalmayıb artıq əziyyətə.
Azürdə etdi xəlq onu, siz şəfqət eyləyin,
Cismi-nəzarinə baxınız, hörmət eyləyin!
Ol zat kim, qünudeyi-xaki-məzardır,
"Va ümməta!.." sədası ilə naləkardır.
Ey tirə xak içində təvəttün edən həvam,
Sizlər də eyləyin şu gözəl pirə ehtiram!
Çeşmanına toxunmayın, ol intizardır,
Amalının hüsuluna həp didədardır.
Fikrin kimi münəvvər ola mərqədin sənin,
Millətdən özgə olmadı bir məqsədin sənin.

Ey pir, çıx hüzuri-cənabi-peyəmbərə,
Bizlərdən et şikayət o Hadiyi-əkbərə,
Bir nitqi-atəşinlə de: Ey fəxri-kainat,
İslamiyanə bağlı durur cadeyi-nicat.
Ol din kim, çəkəndə süyufi-bəsaləti,
Təsxir edərdi hökmünə ən şanlı dövləti,
Ol din ki, fəthpərvərü şərəfəfzayi-nam idi,
Hər yerdə haizi-zəfərü ehtişam idi,
Ol din kim, naşir idi nuri-vəhdəti,
Yüksəldiyordu dəhrə livayi-məhabəti,
Əğyar əlində millətin iştə zəbundur,
Şol rayəti-zəfər necə gör sərnigundur!
"İqrə..." əsası üzrə qonulmuş o dini-pak,
Zilzali-cəhl ilə bu gün olmaqda lərzənak.

## DÜNYA SAHEYİ-QƏMDİR

Gülşəni-aləmdə bir gül varmı bixar olmasın?
Hansı bülbüldür cəfayi-xardən zar olmasın?

Gördünüzmü bir çiçək bağı-fənadə solmasın?
Hansı bir nəxli-əməl vardır ki, bibar olmasın?

Göstərin bir Yusifi* məhsudi-ixvan olmadı,
Hansı bir Yə'qubdur* məhcuri-didar olmasın?

Atdılar nari-bəlayə həzrəti-İbrahimi*,
Varmı bir Yəhya şəhidi-tiği-qəddar olmasın?

Hansı Musa görmədi zülmü sitəm fir'ondan*,
Varmı bir İsayi*-canbəxşa ki, bərdar olmasın?

Hansı peyğəmbər olubdur çəkməsin yüz min əza,
Varmı bir Əhməd* düçari-tə'ni-əşrar olmasın?

Ey bəsa Sokrat* kim, nuş etdi zəhrabi-məmat,
Hansı hikmətpərvərandır dəhrdə xar olmasın?

Hansı Bəstamidir ol kim, xəlq təkfir etmədi,
Varmı bir Mənsur* kim, zibi-səri-dar olmasın?

Hansı aşiqdir cahanda naili-didari-yar,
Varmı bir pərvanə məhvi-şö'leyi-nar olmasın?

Vermədi Fərhadə çərxi-bivəfa Şirinini,
Hadiya, kimdir fəna mülkündə xunbar olmasın?

# 1908

## KİMDƏN KİMƏ ŞİKAYƏT EDƏLİM

İnləyir bari-qəm altında vətən, imdad yox,
Kisveyi-matəm bürünmüş cümlə, bir dilşad yox.

Olmuş övladi-vətən puyəndeyi-rahi-zəlal,
Bunları irşad üçün bir şö'leyi-irşad yox.

Bir taqım biçarələr mə'ruzi-tiri-intiqad,
"Müntəqidlər" nolduğun tənqidə bir nəqqad yox!..

Milləti-məğdurəyə hər işdə min irad var,
Əhli-iradə neçün, bilməm ki, bir irad yox?!

İrqi-millətdə təfəssüd eyləmiş xun, ey "həkim!"
Etməyə ixraci-dəm cərrah yox, fəssad yox!

Xəstənin nəbzin tutub dərdaşina olmaq gərək,
Yoxsa fəryadın həbadır, meyveyi-fəryad yox.

Gərçi millətdə mühəqqəqdir vücudi illətin,
Səndə təşxisi-mərəz etməkdə iste'dad yox.

Fəxri-ustadanə ilə, ey olan sərşari-kibr,
Cəhl ustadsın, ürfan üçün ustad yox!

Milləti-məzlumədə var qabiliyyət cövhəri,
Heyf, onu parlandıran bizlərdə iste'dad yox.

Gördüyün əhli-qələm xüddami-istibdaddır,
Həqqə təslim olmağa millətdə istib'ad yox.

Danələr nəşvü nüma bulmuş bu sünbülzardə,
Neyləyək, bu zər'gahi biçməyə həssad yox.

Tərki-əğraz etməyi hər şəxs eylər tövsiyə,
Tərki-əğraz eyləyən, ey vah, bir əfrad yox.

## ƏDİBİ-ŞƏHİR HƏSƏN BƏYİN RUHUNA İTHAF

Bu gündə qədrşünasan qəriqi-möhnətdir,
Bu gündə çeşmi-ədəb əşkrizi-həsrətdir.

Bu gündə qırxı tamam oldu ol ədibin kim,
Demək olurdu ona qəhrəmani-hümmətdir.

Bu xabgahi-əbəddə yatan vücudi-əziz
Qəriqi-lücceyi-qüfran, qərini-rəhmətdir.

İtirdik, ah, əcəb bir vücudi-fəyyazi!
Demək olurdu mücəssəm o bir həmiyyətdir.

"Həsən, Həsən!" – deyə dillər bu gündə növhəsəra,
Həsən! O piri-müqəddəs, ədibi-ümmətdir.

Fərağı-xatir ilə yat məzari-pakində,
İlələbəd sənə millət rəhini-minnətdir.

Bu gün vətəndə nümüvv eyləyən nihali-kəmal,
Sən əkdiyin o gözəl daneyi-həqiqətdir.

Cahanda məzrəələr danəpərvər olduqca,
Cahaniyanə adın mayeyi-şərafətdir.

# RƏHGÜZARİ-MƏTBUATDA BİR ŞÜKUFEYİ-MƏARİF

Sabahleyin odamdan çıxıb mətbəəyə gedirdim. Kitab çantasını ziynəti-duşi-şətarət edən bir xristian balasına rast gəldim. Bu sevimli tifli-növxanın bir ədayi-məlakanə, bir vəz'i-vicdanpəsəndanə, bir tərzidilfiribanə ilə gülşəni-ətfal olan məktəbə gedişi həqiqətən nəzəri-diqqətimi cəlb etdi. Hənuz 8-9 yaşında bulunan bu gülqönçeyi-ürfanın könlümə ilqa etdiyi hissiyyati-mə'sumaneyi-kudəkanəsi şe'r olaraq dodaqlarımdan tökülməyə başladı:

Ey iktisabi-elmə şitaban olan çocuq,
Ey talibi-şükufeyi-ürfan olan çocuq,
Bir tərzi-dilrübadə xüraman olan çocuq,
Ağuşi-məktəbü ədəbə can atan çocuq,

Ey kainati-izzətə sultan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Kəndi çocuq, ruhdə bir intibaha, bax!
Salik bulunduğu o gözəl şahrahə bax,
Ruyində parlayan ləməati-fəlahə bax,
Bax, bax, o dideyi-ülüviyyətpənahə bax.

Ey kainati-izzətə sultan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Dildadeyi-xüraminəm, ey kəpki-cilvədar,
Xətvəndə qaldı gözlərim, ey mürği-xüldzar,
Şövqü şətarətin vələhəfzayü cəzbədar,
Ey qönçeyi-məali, a rəşkavəri-bəhar!

Ey kainati-izzətə sultan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Bax, bax, xüramına, nə əcəb dilfiribdir,
Mə'sum bir çocuq nə əsilü nəcibdir,

Sanki şükufəzarə uçur əndəlibdir,
Ey nuri-çeşmü can, ədəb insanə zibdir.

Ey kainati-izzətə sultan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Məktəb yerindi, şüğlün, işin iktisabdır,
Kəsbin fünuni-aliyə, elmül-hesabdır,
Fikrin ziyalı, şö'şəəli afitabdır,
İslam çocuqları, a quzum, dilxərabdır.

Me'mari-elm ilə dili imran olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Ey zadeyi-ədəb! Həsəd olsun bu halinə!
Vermiş müəllimin nə təravət nihalinə,
Məczubdir dilim şu münəvvər xəyalinə,
Baxdıqca bəxtiyar deyirəm yolü balinə,

Ey kainati-izzətə sultan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Yavrum, quzum! Ülumilədir qiyməti-bəşər,
Təhsili-mə'rifətlə olur rüf'əti-bəşər,
Qabilmi elmsiz ola hürriyyəti-bəşər?
Vabəsteyi-kəmaldir ülviyyəti-bəşər.

Ey kainati-izzətə sultan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Olsun həsəd şu madərə kim, elmə yardır,
Ənvari-mərifətlə dili şö'lədardır,
Gül bəsləmək üçün qucağı növbəhardır,
İslam xanımları niyə zülmətşüardır?

Ey kainati-izzətə sultan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Bizlərdə yox ki, kəşfi-kəmalət xanımlara,
Olmuş həlal pərdeyi-qəflət xanımlara,
Hürriyyətü hüquq “zəlalət” xanımlara,
Pirayədir qüyudü əsarət xanımlara.

Ey kainati-izzətə sultan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Əvvəl müəllimə çocuğa olsa madəri,
Övlad olurmu tihi-cəhalətdə sərsəri?
Olsun gərək də validə canparə rəhbəri,
Yox dinləyən, fəsanə bilirlər bu sözləri.

Sən dinlə, ey nümuneyi-ürfan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

Nisvan sözü alındımı kilki-kitabətə,
Bir daşdı sanki bu düşüyor rə’si-millətə!
Olsun tüfu, tüfu, bu cühulanə qeyrətə!
Layiqmidir, quzum, belə millət siyadətə?

Sən söylə, qorxma, sahibi-vicdan olan çocuq,
Ey cənnəti-səadətə rizvan olan çocuq!

## TƏSVİRİ-BƏDAYE

Bu sün’gah nədir? Zadeyi-təbiətdir –
Ki, hər səni’əsi heyrətfəzayi-fikrətdir.
Bu asimani-məkövkəb kitabi-qüdrətdir –
Ki, hər səhifəsi tarixi-sərmədiyyətdir.

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə’şə’ dəfini-zülmətdir.

Nədir bu əncümi-rəxşan fəzayi-minadə?
Nədir bu mövci-xüruşan sütuhi-dəryadə?
Nədir həqiqəti-cuşan cəhani-xülyadə?
Nədir bu fikri-pərişan dili-qəməfzadə?

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə'şə' dəfini-zülmətdir.

Nədir bu cəvvi-vələhza ki, yoxdur ib'adi?
Nə üzrə rəkz qılınmış bu dəhr bünyadi?
Derəm təsəvvürə aldıqda bu qəmabadi:
Bu kainatü həyatın kim olmuş ustadi?

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə'şə' dəfini-zülmətdir.

Nə məqsəd ilə yaranmış cidalgahi-həyat?
Nədir həyat ilə də'va edən cünudi-məmat?
Nədir imarəti tə'qib edən bu təxribat?
Gəlir xəyalə bu sirri edəndə tədqiqat:

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə'şə' dəfini-zülmətdir.

Nədir rəvabitü eşqü məhəbbət əşyadə?
Nədir bu nəzmi-mükəmməl həzizü baladə?
Nədir o mənbəyi-pərtöv səmayi-xəzradə?
Nədir bu nuri-həqiqət zülami-mə'nadə?

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə'şə' dəfini-zülmətdir.

Nədir bu fikri-təcəddüd üquli-adəmdə?
Nədir bu namütənahi təğəyyür aləmdə?
Birər libas geyir kainat hər dəmdə,
O dilrübayi-təməddün bu gün təbəssümdə.

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə'şə' dəfini-zülmətdir.

Nədir hüviyyəti-fikrətdə iştiyaqi-cidal?
Nədən vücudə gəlib xəlqdə məraqi-qital?
Nədir həyatü məmat, nədir fəraqü vüsal?
Bəşər bilirmi bu sirri, zəhi xəyali-məhal!

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə’şə dəfini-zülmətdir.

Nədir bu buyi-lətafət behişti-rə’nadə?
Nədir o şiveyi-ismət güli-fərəhzadə?
Nədir təraneyi-riqqət həzari-şeydadə?
Nədir şükufələrə qəsdi bu təmənnadə?

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə’şə’ dəfini-zülmətdir.

Səhabələr töküyor bağzarə əmtarı,
Bu giryə güldürüyor gülşən içrə əzharı,
Nəsim oynadıyor bərxi-səbzü əşcarı,
Nasıl ki, oynadır aşiq üzari-dildarı.

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə’şə’ dəfini-zülmətdir.

Səmadə quşlar olur pərgüşayi-hürriyyət,
Nə dadlıdar o fəzayi-səfayi-hürriyyət,
Yaşa, yaşa, yaşa, ey dilrübayi-hürriyyət!
Bəşərdə yox hələ zövqi-həvayi-hürriyyət.

Bütün sərairi-həsti səzayi-heyrətdir,
Bu sayəzari-müşə’şə’ dəfini-zülmətdir.

## NƏVƏHATİ-HƏYAT

Cahan didəmdə durmuş bir zülamabad halında,
Edir isbat mövcudiyyətin fəryad halında.

Riyahi-zülm ilə fərsudələnmiş baği-əmniyyət,
Uçar ruhum quşu baği-fənayə bad halında.

Çəkildi həcləgahi-ismətə nazəndə hürriyyət –
Görəndə cilvəgahi-hüsnün istibdad halında.

Olub məsləkfüruşan aləti-əzvaqi-istibdad.
Bu alçaqlar görür bu halı iste'dad halında.

Nasıl fərq eyləsin biçarə millət nurü zülmatı,
Zəlalət cilvələnmişdir bu gün irşad halında.

Hanı hürriyyətü ədlü müsavat, ey riyapərvər?
Müsəmmadan xəbər yox, qaldı bunlar ad halında.

Vətən meydanı olmuş saheyi-baziçeyi-tiflan,
Çəkilmiş mərdi-meydan inzivayə dad halında.

Bu vəhşətgahdə əyləncəyiz dəsti-cəhalətdə,
Nasıl istərsə oylə oynadır nərrad halında.

Nəyə nəsbi-nigah etsəm, təzəllümlər, təəllümlər –
Səvaiqpaşdır dünyaya istimdad halında.

Kimə ağuşi-şəfqət açdı bu namehriban madər?
Bu matəmzarı kim seyr eylədi dilşad halında?

Təfərrüc eylə sərvistanı, gör şol sərvi-azadi,
Məzarından çıxıb azadəgan azad halında.

Bu mövcudat həp məhsuludur bir cövhəri-fərdin,
Neçin etmiş təşəkkül kainat əfrad halında?

## ŞƏRAREYİ-RUH

Tükəndi ömri-qiymətdarımız bidad altında!
Qarardı nuri-iste'dad istibdad altında!

Hüquqi-milləti imha edən zənn etmə hükkami,
Cəhalətdir ki, itfa eyləmiş mişkati-islami,
Cəhalətdir ki, jəngalud edib mir'ati-islami,
Cəhalətdir ki, atəşzar edib cənnati-islami
Cəhalətdir ki, bərbad etdi tə'sisati-islami.

Tükəndi ömri-qiymətdarımız bidad altında!
Qarardı nuri-iste'dad istibdad altında!

Qaraldan atəşi-əfkarı sindani-cəhalətdir,
Büküldən qəddi-iste'dadı zindani-cəhalətdir,
Qılan təsxir Çini-elmi xaqani-cəhalətdir,
Edən İrani viran iştə imrani-cəhalətdir.
Behiştasa vətən övrəngi-şeytani-cəhalətdir.

Tükəndi ömri-qiymətdarımız bidad altında!
Qərardı nuri-iste'dad istibdad altında!
Həyatın bağını ehraq edən nirani-qəflətdir,
Təməddün hurini məstur edən övhamü vəhşətdir,
Maarif şəmsi çıxmaz, məşriqül-ənvar zülmətdir,

Vifaqın riştəsin qət' eyləyən seyfi-ədavətdir.
Ədavət, zülmətü vəhşət həp övladi-cəhalətdir.

Tükəndi ömri-qiymətdarımız bidad altında!
Qarardı nuri-iste'dad istibdad altında!

"Fəğan! Sultani-qəflət verməyir İranə hürriyyət",
Bu lafi dinləsə, gəlməzmi ya xəndanə hürriyyət?
Deyil napakdamən qız baxa hər yanə hürriyyət,
Gözəldir, pakdır, iffətlidir fərdanə hürriyyət,
Tənəzzül etməyir ən ali bir vicdanə hürriyyət.

Tükəndi ömri-qiymətdarımız bidad altında!
Qarardı nuri-iste'dad istibdad altında!

Verilməz huri-zürriyyət, bu sözlər cümlə bicandır,
Bu fəttani-cəhanın mehri yüz minlərcə qurbandır,
Fədakaranə aşiq lafə gəlməz, böylə fəttandır,
Keçər candan o kəs kim, talibi-rüxsari-canandır,
Bizim də karımız boş-boş, səmərsiz ahü əfğandır.

Tükəndi ömri-qiymətdarımız bidad altında!
Qarardı nuri-iste'dad istibdad altında!

Əgər şayani-hürriyyət olursa zadeyi-insan,
Əsarət zülmünün gərdunəsin çəkmək deyil asan.
Ağır yük çəkməyə məhkum edilmiş cahilü nadan,
Təbiidir, ölüncə zəhmət altında yaşar heyvan,
Bu füshətgahi-sərbəsti kəsilmişdir bizə zindan,

Tükəndi ömri-qiymətdarımız bidad altında!
Qarardı nuri-iste'dad istibdad altında!

Əzizim, iştika etməkdəsən alimnümalərdən,
İmami-Cüm'ə*, Şeyx Fəzlü* əshabi-cəfalərdən,
Əsadən, xirqədən, təsbihdən, tiftik əbalərdən,
Bir az da bəhs qıl əmrazi-cəhlə mübtəlalərdən,
Zülamabadi-övham içrə dalmış biziyalərdən,

Tükəndi ömri-qiymətdarımız bidad altında!
Qarardı nuri-iste'dad istibdad altında!

Şu İran kim, qucağı məhdi-ərbabi-zəka idi,
Nücumi-elm ilə pirayələnmiş bir səma idi –
Ki, hər bir məşriqində min günəş pərtövfəza idi,
Hanı Sə'diyü Firdovsi? Birər bunlar düha idi,
Səmavati-ədəb, təl'ətgəhi-nurü ziya idi.

Bu gün gümgəştədir İran Zülamabad altında!
Vətən dəhşətnümundur cəhli-istibdad altında!

Təəssüf!.. Şeyx Fəzlüllahə İran aşiyan olmuş,
Təməddün dilbəri fərtutə, vəhşət növcəvan olmuş,
Maarif cənnəti solmuş, vərəqrizi-xəzan olmuş,
Xəmuşabadi-nisyanda bu bülbüllər nihan olmuş,
Zəğənlər, bumlər baği-vətəndə növhəxan olmuş.

Bu gün övladi-millət inləyir bidad altında!
Gəl ey nazəndə tale, gör bizi fəryad altında!

Mən ol avarə mürğəm zəxmdar olmuş pərü balım,
Düşər ağuşi-xakə zəxmli cismimlə amalım,
Neçin xülmət kəsilmiş fikri-millət misli iqbalım?

Mənə küsdünmü, bilməm, ey vətən, ey dilbəri-balım?
Məzarımda açan gül şərh edər əxlafə əhvalım:

Birər girdik məzarə pənceyi-bidad altında!
Tükəndi ömrümüz ahü fəğanü dad altında!

Bu ol ərzi-ədalətdir ki, əmniyyətnişan olmuş,
Bunun əndamına ruhi-ədalət sanki can olmuş,
Əvət, bu mülk mə'muri-yədi-Nuşirəvan olmuş,
Təəssüf! İndi zülm ilə müşari-bilbənan olmuş,

Bu gün zülmət kəsilmişdir vətən bidad altında!
Qərardı nuri-hürriyyət, bax, istibdad altında!

Yazıq olsun sənə, ey mətləi-əhrar olan İran!
Sitəm dəstilə misbahi-fəlahi tar olan İran,
Sürurabadi-istiqlalı matəmzar olan İran,
Olub nazəndə övladın nasıl gör tar-mar İran!

Bu gündə inləyirlər pənceyi-bidad altında!
Gəl, ey nazəndə tale, gör bizi fəryad altında!

Biz ol biçarə ahuyuz ki, min səyyadımız vardır.
Bu vəhşətgahdə, bax kim, nə çox cəlladımız vardır,
Nə səmtə ətfi-çeşm etsək, nə bir imdadımız vardır,
Nə fəryad etməyə avazi-istimdadımız vardır.

Usandıq bunca fəryadü fəğanü dad altında!
Vətən amadeyi-ifnaydır bidad altında!

Nədir bu xabi-müdhiş kim, tutub əqvami-islami?
Deyil puşidə, parlaqdır bunun dəhşətli əncami,
Təbiətdə yazılmış böylə qövmin hökmi-e'dami,
Gedərsə böylə islamiyyətin ancaq qalır nami,

Ayıl, ey xabə dalmış, yatma istibdad altında!
Vətən ifnayə getmək üzrədir bidad altında!

Ey islam oğlu islam! Sən də adəmsən, ayıl bir an,
Yetişdi nöqteyi-ümmidə səndən başqa həmrahan,
Məzaristani-qəflətdən atıl meydanə, göstər can,
Hücum etməkdədir düşmən, difa'i-nəfsə hazırlan,

Ayıl, ey xabə dalmış, yatma istibdad altında!
Vətən ifnayə getmək istəyir bidad altında!

Fədakarani-aləm gör nasıl təhsili-şan etmiş,
Birin meydani-qovğadə ədu tirə nişan etmiş,
Bu millət qəhrəmani nəfsdə mövtün əyan etmiş,
"Vətən! Ah, ey vətən!" əlfazi ilə tərki-can etmiş.

Ayıl, ey xabə dalmış, ölmə istibdad altında!
Ölürsən öl yenə bir şanlı, ali ad altında!

## MƏLƏKİM, NƏDİR O?

Nuri-vəfamıdır nigəhindən uçan ziya?*
Gözlər könül açılmaq üçün gül dodağını.

Gülşən pərisi açmağa əndami-ibtisam,
İstər nəsimdən duya bilsin sorağını.

Mürği-məhəbbətim uçuyor baği-qəlbinə,
Ey gülnəhal, göstər ona gül budağını.

Tiflanə tərz ilə gəlir ağuşi-nazinə –
Tifli-dilim, aç ona, gəlsin, qucağını.

Ol gördüyün qaramı düşüb qəlbi-laləyə?
Qəlbim kimiydi bəsləmədə lalə dağını.

Düşsə nigahı çöhrənə tüffahi-əhmərin,
Məhcub olur görəndə bu əhmər yanağını.

Yusifləri əsiri-çəh etməkçin, ey sənəm,
Aç, aç, əyan qıl o zənəxli buxağını!

Gizlətmə zülfünü, qıl onu ziynəti-üzar,
Tök ruyi-qönçərənginə rövnəqlə bağını.

Mahiyi-dil ki aşiqidir dami-hüsnünün,
Ümmani-eşqdən, gözəlim, çəkmə ağını,

Ey kainati-ruhuma sultan olan pəri!
Yandır biladi-qəlbimi, pozma dimağını.

Nuri-xəyalın ilə həqiqət dilimdədir,
Könülümdən əksik etmə xəyalət çirağını.

Ey mütribi-hərəmgəhi-lahut, dəmbədəm –
Çal sazi-dilnəvazını, göndər bəlağını.

Gözdən iraq Hadini, qəlbindən etmə dur,
Bir lütfin ilə oxşa, a hurum, irağını!

Ərbabi-zilalın əməli cümlə həbadır,
Bu mənzərə, əlhəq ki, səzavari-bükadır.

Türklər nə gözəl məsəl demişlər:
"Dünyanı ümid ilə yemişlər".

## TƏRANEYİ-VƏTƏNPƏRƏSTANƏ

Vətən seylabi-istibdaddən viran olub yeksər,
Vətən övladı qürbət içrə sərgərdan olub yeksər,
Vətən əhrar üçün bir guşeyi-zindan olub yeksər,
Vətən gülşənsərası bir müğilistan olub yeksər,
Vətən bülbülləri sər ziri-pər, nalan olub yeksər,
Vətən bir dəşti-hövləngizü ğulistan olub yeksər.

* * *

Olarkən Məğribü Məşriq təcəlligahi-hürriyyət,
Vəsət əhli, səbəb nolmuş, edə ikrahi-hürriyyət?
Təcəlla eyləməz çərxi-vəsətdə mahi-hürriyyət,
Bular Fir'oni-istibdad üçün Haman* olub yeksər,
Fəsadü məl'ənətdə taliyi-şeytan olub yeksər.

* * *

Vətəndə rəhmdil yox, qatili-səffaklər çoxdur,
Tapılmaz gərçi Gavə*, ah... kim, Zöhhaklər* çoxdur!
Zəkidir gərçi millət, sahibi-idraklər çoxdur,
Nə hasil, Şeyx Fəzlüllah tək napaklər çoxdur,
Vücudu qədri məkrü hiyləvü tüğyan olub yeksər,
Xəyalı məhvi-mülkü milləti-İran olub yeksər.

* * *

Təməddündən əsər yox, zillətü vəhşət firavandır,
Qəsavət gün-gün artar, qəhtiyi-insafü vicdandır,
Cəfa yox, zülm çoxdur, nari-istibdad suzandır,
Bu təzyiqatdən əhrarü məzluman cigərqandır,
Vətən əhli cəfavü cövrdən nalan olub yeksər,
Mücəssəm bir ənini-naləvü əfğan olub yeksər.

* * *

Oyan, ey milləti-mərhumə, vəqti-sə'yü qeyrətdir,
Əsarət rəxnələnmiş, sə'y edin, fürsət qənimətdir,
Edin tə'mini-istiqbal madam əldə fürsətdir,
Əgər mətlubunuz ehyayi-dinü mülkü millətdir,
Bugün şah ilə millət misli-cismü can olub yeksəp,
Qərəz əhli zəlilü naili-xizlan olub yeksər.

* * *

Əgər dövlət riayət qılmasa, millət olur fani,
Şərakət qılmasa millət əgər, dövlət olur fani,

Bular gər ittifaq etsə, qəmü möhnət olur fani,
Vətən xoşbəxt, millət şad, həm zillət olur fani,
Görürsən kim, vətən mə’murü abadan olub yeksər,
Müğilistan dönüb bir rövzeyi-rizvan olub yeksər.

* * *

İlahi! Dövləti-məşrutəni sən payidar eylə,
Müsavat ilə hürriyyət əsasın üstüvar eylə,
Ədalət təxti üzrə şahi-adil bərqərar eylə,
Vətən xainlərin məxzulü xarü şərmisar eylə,
Necə kim, daima xain işi xüsran olub yeksər,
Cəzadə müstəhəqqi-həfreyi-niran olub yeksər.

## AH, KİMSƏSİZ VƏTƏN![1]

Ey atəşi-cəhalətə büryan olan vətən!
Pirayeyi-ülumdən üryan olan vətən!
Ey dideyi-təhəssürü giryan olan vətən!
Baxdıqca əhlinə ürəyi qan olan vətən!*
Ey kövsəri-maarifə ətşan olan vətən!

Ey səhneyi-fəcaye’ü ey məhşəri-əza!
Ey məzhəri-vəqaye’ü meydani-Kərbəla!*
Xaməm deyir şu növhəni hər dəmdə bərməla:
Zilzali-qəflət ilə pərişan olan vətən!
Tufani-zillət ilə xüruşan olan vətən!

Hər zərrən, ey vətən, mənə matəmnümaydır,
Hər bir evin laneyi-şivənfəzaydır,
Ol dudlər ki, haili-ruyi-səmaydır,
Girmiş səhab şəklinə ahü nəvaydır.
Ey sübhü şam adəti əfqan olan vətən!
Ey möhnətü səfalətə qurban olan vətən!

---

[1] Müxatəbim Şirvandır.

Qılmış üful nəyyiri-iqbalü şövkətin,
Olmuş nikun heykəli-iclalü izzətin,
Gündən-günə ziyadələşir hali-vəhşətin,
Vəhşətləmi təxəmmür edilmiş hüviyyətin?
Dərrəndəgani-vəhşətə meydan olan vətən!
Baziçəgahi-zümreyi-tiflan olan vətən!

Məxrubə mənzərən ki, nəzərdə əyandurur,
Hər mənzərən ki, canı yaxan bir fəqandurur,
Viranə evlərin sənə ağlar lisandurur,
Bunlar zavallı halına həp tərcümandurur.
Ey laneyi-səadəti viran olan vətən!
Üssi-əsası xaklə yeksan olan vətən!

Ey zindələr məzarı olan aşiyan, ah!..
Afaqın üzrə durmada bir pərdeyi-siyah,
Məsdud qaldı bizlərə şəhrahi-intibah,
Qalma zülamdə, açıl, ey sübhi-inşirah.
Ey zülmətin dəruninə qəltan olan vətən!
Ey cənnəti-maarifi viran olan vətən!

Gəldim təsadüfən yetişib ehtizarına,
Tökdüm sirişki-alimi solmuş üzarına,
Yanmaqda, madərim, ürəyim hali-zarına,
Şimdi geriyə fatihəxanəm məzarına,
Ey zibbəxşi-guşeyi-nisyan olan vətən!
Ey vüsləti rəsideyi-hicran olan vətən!

Növxəndə güllərin niyə aya həzindir?
Bülbüllərin şikəstəpər, üzlətgüzindir,
Əshabi-cəhl cümlə səadətqərindir
Ərbabi-mə'rifət hamu sərbərzəmindir,
Ey tündbadi-cəhl ilə lərzan olan vətən!
Ey qönçəzari-bəhcəti rizan olan vətən!

Gəldim qucağına əməyim şiri-şəfqətin,
Biganə gəldimi sənə övladi-qürbətin?

İştə budurmu zadənə ənzari-rə’fətin?
Ey validəm, tükəndimi artıq məhəbbətin?
Ey zadeyi-kəmalinə niran olan vətən!
Ey cənnəti-məhəbbəti viran olan vətən!

Ey fitrətə müariz olan əhli-iştibah,
Siz sönsəniz sönüz, sönəməz nuri-intibah!
Afaqi-kainatdan doğuyor şö’leyi-səbah,
Gül, ey cəmali-həqq ki, gülsün rüxi-fəlah!
Sən də bir az ağla, a viran olan vətən!
Könlüm misali əhli pərişan olan vətən!

## EY MÜTRİBEYİ-DÖVRİ-TƏMƏDDÜN

Çal nəğmeyi-hürriyyətini, guş edəlim, çal!
Sun badeyi-canpərvərini, nuş edəlim, çal!
Huri-əməli biz də dərağuş edəlim, çal!
Keçmişləri mətrukü fəramuş edəlim, çal!

Çal, halımıza aləmi heyran edəlim, çal!
Bu hal ilə müstəqbəli şadan edəlim, çal!

Ey aləmi məftun qılan dilbəri-vicdan!
Sövdazədələr eşqin ilə olmada suzan!
Sən eylə təcəlla, ola zülmat girizan,
Şö’lənlə olur məş’əleyi-ruh füruzan,

Çal əhviyəni, dilləri cuşan edəlim, çal!
Nurunla dili-müzlimi rəxşan edəlim, çal!

Ey cilveyi-fəyyazeyi-fəyyaztəbiət!
Ey şiveyi-rəqqasə və ey nuri-həqiqət!
Çıx, ərzi-cəmal eylə ki, gülsün bəşəriyyət,
Biz də tapalım nəş’eyi-vəslinlə səadət,

Çal, nəğmən ilə gülləri xəndam edəlim, çal!
Hicranzədə bülbülləri guyan edəlim, çal!

Olduqca vəzan bəhri-dilə ənfüsi-canan,
Eylər dilimi mövceyi-ilham ilə cuşan,
Zənn eyləyirəm kəndimi ümmani-xüruşan,
Düşməklik üçün sahilə dürdaneyi-ürfan,

Çal, aləmi müstəğrəqi-ürfan edəlim, çal!
Afaqi kəmalat ilə taban edəlim, çal!

Təbrik edəriz sə'yini əhrari-zəmanın,
Biz də görərizmiş üzünü huri-cinanın,
Əhsən, nə gözəl bəhcəti var tazə cahanın!
Duymaqlıq üçün zövqünü dünyayi-cəvanın,

Çal, ləhceyi-Davudini im'an edəlim, çal!
Pirani də, şəbbani də rəqsan edəlim, çal!

Bir nəzreyi-lütfünlə, əya huri-füsunkar,
Minlərcə həqiqət olar aləmdə nümudar,
Dünya kəsilər cənnəti-hürriyyəti-əfkar,
Kəşf eylə ilahi rüxünü, seyr edə əhrar,

Çal, dilləri, vicdanları rə'şan edəlim, çal!
Alamı sürurunla pərişan edəlim, çal!

Hürriyyət ilə kəsb edəlim-feyzi-məali,
Biz də olalım paybərəndazi-təali,
Düşdükcə dilə şə'şə'eyi-hüsnü cəmali,
Alqışlayalım həzrəti-Midhətlə* Kəmali,

Qəbrində Süavilər* xəndan edəlim, çal!
Ərvahi-şəhidani də rəqsan edəlim, çal!

Atidəki əlhani edək biz dəxi təkrar:
Ey həsrəti-hürriyyət ilə can verən əhrar!
Haqqın yoluna oldunuz ən şanlı fədakar,
Şimdi olunuz aləmi-nasutə nigəhdar.

Ey mütribə, çal gözləri vəlhan edəlim, çal!
Dünyaları aşüftəvü heyran edəlim, çal!

Ey bədrəqəvü rəhbəri şəhrahi-həyatın!
Vabəstə deyilmi sənə müftahi nicatın?
Tənvir ediyor səhni-cəhani ləməatın,
Gəldikcə derəm guşimə hərdəm nəğəmatın:

Çal, dilləri balalərə pərran edəlim, çal!
İnsanları amalə şitaban edəlim, çal!

Meyvəndir, əya nəxli-məali və səmərdar,
Bağı-mədəniyyətdə təcəlla edən asar,
Sayən düşən iqlim oluyor qərqeyi-ənvar,
Sən nerdə təbəssüm eləsən, ağlamaz ənzar.

Çal sazını, ağlar gözü xəndan edəlim, çal!
Hürriyyətə düşmənləri giryan edəlim, çal!

## ŞİKVAYİ-AŞİQANƏ, YAXUD ƏLHANİ-PƏRİŞAN

1

Ey atəşi-eşqi məni hər dəmdə yaxan yar!
Aya bu bürudət nerədən oldu şərərbar?

Bir bilsə idim rahət edərdi dilü ruhum,
Netdi səni, ey sevdiciyim, nifrətə icbar?

Tərk eyləyib işrətgəhi-yarani-səfanı,
Olmaqdasan arayişi-cəm’iyyəti-əğyar.

Bizdən kəsərək rabiteyi-mehrü vəfani,
Qoydun, gözəlim, gözəlim, gözləri həsrətkeşi-didar.

Məhbubi-qülub oldumu ən sevmədiyinlər?
Ən sevdiyini nifrətə kim qıldı səzavar?

Dəfn oldumu ərzi-ədəmə tifli-məhəbbət?
Ey əqli çocuq! Doğru sözü eyləmə inkar.

Biqədr elədin qiymətini gövhəri-eşqin,
Mehrin kimi, ünsiyyəti də xar elədin, xar!

Tökdün üzünün ismətini düxtəri-eşqin,
Şayistəmi hər div ola həmməclisi-əbkar?

Biganələri məhrəmi-razi-həram etdin,
Şimdi sənə biganə gəlir məhrəmi-əsrar.

Mən bilməz idim dürri-məhəbbət satılarmış,
Satdın, mələkim! Səhvini kəndin də qıl iqrar.

Zənn eylər idim mən səni naqabili-iğva.
Məshur kim etdi səni, ey didəsi səhhar?

2

Oldunmu bu gün silsiləcünbani-əsarət?
Çeşmində mühəqqir görünür zümreyi-əhrar.

Ey zatını pamali-həqarət edən adəm!
Zənn etmə olur hörmətə şayan riyakar.

Halın edəcək olsa nigahında təcəssüm,
Bir xilqəti-mənfurə olur onda pədidar.

İnsan ona derlər ola bir məsləkə salik,
Denilsə səzadır buna ən şanlı fədakar.

Bilsən sənə bir dərsdir əcrami-səmavi,
Kövkəblərə bax, hər biri bir nöqtədə dəvvar.

Bir saniyə gər eyləsə təbdili-mərakiz,
Düşməzmi fəzayi-ədəmə əncümi-nəvvar?

İbqai-vücud etməyə bir nöqtə gərəkdir,
Şol nöqtədə sabit duraraq olmalı səyyar.

Məslək də vücudi-bəşərin mərkəzi-seyri,
Təbdil edəməz məsləkini hürr olan əbrar.

Öz məsləkini həq bilən ərbabi-fəzail –
Olmuş da nasıl aləmə gör naşiri-ənvar!

Həllac "ənəlhəq" dedi, həq, həq dedi, əlhəq*,
Həqqiyyətinə eylədi mahiyyətin isar.

Aya bu deyildirmi həyati-əbədiyyə –
Ehyayi-kəmalat üçün insan ola bərdar?

3

Zülmətdən əgər olsa idi nur girizan,
Olmazdı cahan bərqi-həqiqətlə ziyadar.

Takey olayım sətreyi-övhamə qünudə
Sönsünmü bu üzdən əcəba şö'leyi-əfkar?

Yansınmı cəhalətlə bu nazəndə çiçəklər,
Bihudəmi cənnati-təbiətdəki ənhar?

Dilsiri-füyuz eyləyəlim təşnələbanı,
Olsun vətənin gülşəni bəhcətrəsi-ənzar.

Əshabi-cəhalətlə nədir fərqi-bəhaim?
İnsan ona derlər ola ürfanə həvəskar.

Hər bir əsərin mucidi ürfanü fünundur,
Məhsuli-hünərdir bütün aləmdəki açar.

Cəhl əhli bu gündən belə məhkumi-ədəmdir,
Bu halə baxıb olmalıyız biz dəxi huşyar.

Ovlanmayalım, ovlayalım feyzi-zəfərlə,
Biz də olalım seydgəhi-dəhrə hökümdar.

Takey olalım ribqəpəzirayi-əsarət?
Hürriyyət ilə oldu miləl vasili-dildar.

Nəfx olmadadır, dinləsəniz Suri-sirafil*,
Ey qəbri-cəhalətdə yatan, ol dəxi bidar!

Qalxıb da tamaşa elə hövlün ərəsatın,
Əshabi-zilalə denilir: "İdxülü finnar..."*

Hər kəs əməlin çəkməyə mizani-ədalət –
İştə qurulub, gəl baxalım əldə nəyin var?

Xalislə dəğəl vəzn olunur səhni-fənadə,
Gəlməkdədir əfvaclə əbrar və əşrar.

Şayani-behişt olmada ərbabi-maarif,
Şayisteyi-niran oluyor hizbi-siyəhkar.

Ərbabi-təməddün edir ehrazi-məratib,
Əsfəllərə layiq görülür vəhşiyi-xunxar.

Hürriyyətə, ülviyyətə, qüdsiyyətə, millət!
Amali-səadətlə olaq biz dəxi təyyar.

## İSTİQBALIMIZ PARLAQDIR

Açar firdovsi-hürriyyət, füyuzabad olar aləm,
Gülər sübhi-həqiqət, mə'dələtmö'tad olar aləm,
Şüaati-müsavat ilə səhni-dad olar aləm,
Kəməndi-eşqi-insaniyyətə münqad olar aləm,

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Səhabi-zülmü qəhr uçduqda parlar nuri-hürriyyət,
Qaçanda divi-istibdad oynar huri-hürriyyət,
Gedər qəmlər, gələr dəmlər, çalar sənturi-hürriyyət,
Cahanı surgah eylər, dili məsrur hürriyyət,

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Oxur, təhsil ilə ehrazi-hürriyyət qılar insan,
Hüquqi-pakın anlar, təxti-nəfsində olar soltan,
Təbəssümlər tökər elmü maarif, cəhl olar giryan,
Həyatın mə'niyi-əslisi ərzi-ruy edər şol an.

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Təcəlla eyləyən dəm aləmə hüsni-dilarami,
Görən nəsbi-nigah eylər, olar məftuni-əndami.
Edər mənsux ayati-həyati, hökmi-e'dami,
Bu ol səyyaddır məhkumu azad eyləyər dami,

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Əvət, biz görmədik əzvaqini gülzari-əkvanın,
Cahanda dərmədik əzharın azadiyi-vicdanın,
Təhəssürlə atıldıq qə'rinə ümmani-nisyanın,
Dönər bir gün behiştə sahəsi meydani-imkanın.

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Ey ol vəqti görən məs'ud, unutma bizləri, yad et,
Bu yolda həsrət ilə can verən əhbabi te'dad et,

Məzarım üzrə gəl, dur, qəmli-qəmli ağla, fəryad et,
Oxu bu şe'ri qəbrimdə, ələttəkrar övrad et:

Dur, ey zindani-nisyanda yatan, azad olub aləm,
Sürurabadi-hürriyyət gəlib, dilşad olub aləm!

Biz iman əhli ikən, xalq layiq gördü təkfirə,
Köküs gərdik, dayandıq tiri-taqətsuzi-təhqirə,
Vuruldu payi-hürriyyətvəran əğlalü zəncirə,
Görər müstəqbəl evladı bizi şayan təqdirə.

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Həqiqət ruyu gülməkçin fədayi-rahi olduq biz,
Əziyyət qıldı cahillər, səadətxahi olduq biz,
Vücudi-kainatın ruhbəxş ərvahi olduq biz,
Bu leyli-müzlimi tənvir edən misbahi olduq biz,

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Qurur əşcari-məl'unə, olar pakizə məşcərlər,
Dönər bir "bəzmi-feyzafeyzi-şura"yə bütün yerlər*,
Oxur bülbül, gülər qönçə, dili oxşar bu mənzərlər,
Cəmahirül-tüyur iştə bu şe'ri yer-yer əzbərlər:

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Xiyami-qəlbdən parlar, edər mahiyyətin isbat,
Təbiət cənnətində bəslənən hurati-məqsurat,
Bu gün məhrəm deyildir onlara ərbabi-mövhumat,
Cəhənnəm əhlinə layiqmidir pərvərdeyi-cənnat?

Behiştabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Çıxar səhni-təmaşayə o gün rəqqasi-hürriyyət,
Gülər, oynar, oxur, alqışlanar yer-yerdən ol afət,
Tamaşagərlərin ruhun edər məclubi-ülviyyət,
Tamaşagahi-nasutun o gün nami olar cənnət,

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

Səmavati-həyatın, ey zəkayi[1]-aləmarasi,
"Füyuzat"ınladır "Firdovsi-ilhamat"ın ehyasi,
Açar, sən nur verdikcə onun övraqi-rə'nasi,
Açıl, ey babi-cənnət, ta gülə ümmid hurasi,

Sürurabadi-hürriyyət gələr, dilşad olar aləm,
Bu istibdad əlindən qurtarar, azad olar aləm!

O dəm ki, ibtisam eylər əməl, xəndan olar Hadi,
Mənim zərrati-cismim qəbrdə rəqsan olar, Hadi,
Qübar olmuş gözüm ağlar, dilim suzan olar, Hadi,
Lisanım cismlənsə, böyləcə guyan olar, Hadi:

Dur, ey ağuşi-nisyanda yatan, azad olub aləm,
Sürurabadi-hürriyyət gəlib, dilşad olub aləm!

## HƏQİQİ BİR XƏYAL,
## YAXUD BİR LÖVHEYİ-CƏMAL

Ey kainati-fikrətimin şəmsparəsi,
Bilməm üful qıldımı bəxtim sitarəsi?

Eşqin cəhənnəmi yaxıyor xüldi-ruhumu,
Yandırmayırmı könlünü ahim şərarəsi?

Rəhm eylə, ağlayır ürəyim bir çocuq kimi,
Güldür, yetimdir, sənə qalmış idarəsi.

---

[1] *Zəka* – günəş mə'nasındadır.

Ruhum qədər səmalərə pərvaz edən mələk!
Ümmani-zülmünün niyə yoxdur kənarəsi?

Cövrünlə, dilbərim, dilim olmuş cərihədar,
Mühlik cərihədir dilimin eşq yarəsi.

Məndən əgər fəraqi-müəbbədsə niyyətin,
Ersin xitamə səfheyi-ömrün şümarəsi.

Bikəslərə nəzarət edər sayədarlər,
Miskininə budurmu o yarın nəzarəsi?

Gözdən düşürmə bəndəni, ey hökmdari-hüsn!
Aldatmasın səni bu vəcahət əmarəsi.

Məğrur hüsni-ani bu meydani-hüsndə –
Çox görmüşəm piyadə qalıb şəhsüvarəsi.

Qıldım sənə hədiyyə bu cami-məhəbbəti,
Ənguri-təb'imin budur iştə üsarəsi.

Hər dəmdə nəğmələr töküyor, nəğməsaz olur –
Gülqönçeyi-həqiqətə fikrim həzarəsi.

Vəslin səbahi çıxmasa ruzum ləyaldır,
Aram edən xəyalımı ancaq xəyaldır.

## BİZ HƏQİQƏTƏ GÜLÜRÜK, HƏQİQƏT BİZƏ AĞLAYIR

Həqiqəti görürüz biz xəyal şəklində,
Hidayəti oxuruz həp zəlal şəklində.

Süturi-nur ilə məstur ikən kitabi-həyat,
Üyuni-ümmətə çarpar zilal şəklində.

Miləl gözündə mələkçöhrədir bənati-həyat,
Bizə nasıl görünür pirəzal şəklində!..

Bu gülşən içrə çıxar sədhəzar mənbeyi-nur,
Nigahımızda kəsilmiş ləyal şəklində.

Əlində sağəri-şadi, qolunda huri-əməl,
Məsərrət əhlinə bax infial şəklində!

Hüzuzbəxşi-üməmdir bu nəşvəgahi-sürur,
Kəsildi bizlərə darülməlal şəklində.

Səlibi-şə'şə'əpaşi-zəfər görəndə derəm:
Zəvali-milləti seyr et hilal şəklində.

Zülamü vəhşətə məğruq olub da qaldıq, ah,
Şu çöhreyi-mədəniyyətdə xal şəklində.

Süxənvəran oxuyur atəşin təranələri,
Bizi bu bağdə kim qoydu lal şəklində?

Yetişdi, dəydi səmərlər şümusi-hikmətlə,
Bizi "müəllimimiz" qoydu kal şəklində!..

Bax ol "pəisə" ki, minbərnişini-nəxvətdir!
Görür nəvaqisin əmma kəmal şəklində.

"Yəqulü qalə və qilə və fihi qəvlanə*,
Bütün məvaizi bir qilü qal şəklində.

Nədir o calibi-vəhşət şu "əngərül-əsvat"?..*
Siyah fikrdir onlar məqal şəklində.

Kimin dilərsə behiştə, kimin cəhimə atar,
Nasıl görür özünü zülcəlal şəklində.

Nə gəlsə ağzına söylər bilamüvazinə həp,
Bütün cəmaəti bilmiş xəyal şəklində.

## LƏYALİ-VÜSAL, YAXUD KEÇƏN GECƏ

Bu şəb o dilbər ilə bağzari-ülfətdə –
Gözəl-gözəl qonuşurduq, nə dadlı söhbət idi!

Onunla olmada həmduşi-inşirahü nişat,
Bütün müsahibəmiz eşq idi, məhəbbət idi.

Mən eyləyirdim ona kəşf sureyi-eşqi,
O da zəminə baxar, guşdari-diqqət idi.

Müəllimanə kəlamım müəssir olmalı kim –
Ki, gah-gah təbəssümnisari-iffət idi.

Xəyalə daldığını hiss edirdi vicdanım,
Əvət, düşünmüş idi sözlərim həqiqət idi.

Üzündə bərq uruyordu həzin-həzin xəndə,
O hüzni-xəndənüma ləm'eyi-məsərrət idi.

Fəda o çöhrəyə kim, mövcədari-iffətdir,
Fəda o gözlərə kim, xəndərizi-ismət idi.

## EY PƏRİYİ-İSTİĞNA!

Hicrin misalı canımı yandırdı vüslətin,
Hirani-eşqdirmi behişti təbiətin?

Ehraq edir də eşqin, ey afət, dərunimi,
Baxdıqca halıma acıyor çeşmi şəfqətin!

Ey müstəbid! Zülmdə çıx, çıx əlalərə,
Bir gün udar da qə'ri səni əsfəliyyətin!

Biçarənəm də lütfünü bəklər bu gözlərim,
Olsun inayətin mənə, olsun inayətin!

Ey xislətilə ruhumu məczub edən mələk,
Nerdə o şiymeyi-ülüviyyət-məziyyətin?

Qıldım mutaliə nigəhi-ziməalını,
Gördüm yazıldığın mənə qarşı küdurətin.

Zənn eyləməzdim a... səni naqabili-vəfa,
Aya dəyişdimi o lətafətli xislətin?

Həqqində söylənənlərə ya münfəilmisən?
İştə bu da nümunəsidir naqisiyyətin!

Bilməm nədir gözündə o şiranə həmlələr,
Könlüm zəbunu oldu şu aşuyi-vəhşətin.

Dürri-məhəbbəti əgər almaq xəyalı var,
Sənduqeyi-vəfadədir, al, al əmanətin!

Ərşi-dilim məqərri ilahi vəfaydır,
Qabil deyil fənayə ilahi məvəddətin.

Pirayəbəxşi-məhdi-dilimdir iləbəbəd –
Ağuşi-sinəm içrəki tifli-məhəbbətin.

Aramsız çocuq məni narahət eyləyir,
Aç, aç, qucağına gəlir, olsun mürüvvətin!

Ərzi-dilim ki, mədfəni olmuş xəyalinin,
Qəlbimdə həyydir, mələkim, bil həqiqətin!

Cismimdə sən! Ruhdə sən! Fikrətimdə sən
Ayineyi-vücuduma əks etdi fitrətin.

## İRANIN HÜRRİYYƏT QƏHRƏMANLARINA

Fəcri-zəfərdə gülüyor intibah,
Tiği-fütuhat ilədir inşirah.
İştə əməl, iştə səbahül-nücah,
Həqqü həqiqət sizə olsun pənah,
"Arş irəli, arş, bizimdir fəlah,
Arş, igidlər, vətən imdadinə!"*

Səhni-vətən səhneyi-bidaddır,
Guşə gələn naləvü fəryaddır,
Əhli-vətən layiqi-imdaddır,
Dəhrdə ancaq yaşayan addır.
"Arş irəli, arş, bizimdir fəlah,
Arş, igidlər, vətən imdadinə!"

Etməlidir sə'ylə ehrazi-şan,
Tiğinizi görməli pərtövfəşan,
Nüsrətə mənkuh oluyor məhvəşan,
Hərb günü olmalı heydərnişan!
"Arş irəli, arş, bizimdir fəlah,
Arş, igidlər, vətən imdadinə!"

Kərbübəladə sizə ruhi-Hüseyn,
Əkbərü Əbbas şəhadətgüzin,
Yetmiş iki hürr, deyirlər yəqin:
Sizlərə hürriyyətimizdir müin.
"Arş irəli, arş, bizimdir fəlah,
Arş, igidlər, vətən imdadinə!"

Qəlbi-vətəndə yatan Abbas Ağa*,
Ziri-ləhəddən sizə eylər nida:
Xidməti-milliyyəyi qıldım əda,
Mən vətəni-pak üçün oldum fəda.
"Arş irəli, arş, bizimdir fəlah,
Arş, igidlər, vətən imdadinə!"

Kəsbi-ləyaqət üçün ülviyyətə –
Olmalı qurban rəhi-hürriyyətə,
Fəthü zəfər bağlıdurur qeyrətə,
Qeyrətə, mərdanəliyə, himmətə,
“Arş irəli, arş, bizimdir fəlah,
Arş, igidlər, vətən imdadinə!”

Ərzi-Nəcəfdən dəhəni-Mürtəza –
Sizləri alqışlayır, eylər səda:
Sovləti-şiranənizə mərhəba!
Nüsrət edir tiğinizi pişva!
“Arş irəli, arş, bizimdir fəlah,
Arş, igidlər, vətən imdadinə!”

Qibtəyə şayan görülür halınız,
Övdət edir izzətü iclalınız,
Ərzi-cəmal eyləyir amalınız,
Şanlı yerişlə gəlir iqbalınız.
“Arş irəli, arş, bizimdir fəlah,
Arş, igidlər, vətən imdadinə!”

## TƏSVİRİ-MƏHƏBBƏT, YAXUD VƏRƏQİ-EŞQÜ MƏVƏDDƏT

Könlüm cəhimi-eşq, zəbanim zəbanədir,
Şe’rim odur ki, qəlbi yaxar, müriqanədir.

Məndən sual qılma şüunati-aləmi,
Bir aşiqəm, nəşidələrim aşiqanədir*.

Övraqi-fikrimə yazılan min-min ayələr –
Ayati-eşqdir, gözəlim, hadiyanədir.

Hər sübhü şam ruha gəlir sanihati-eşq,
Bilsən nə sanihat, nasıl şairanədir!

San kim, nəsimdir, əsiyor kuyi-yardən,
Ruhumda eşq güllərin oxşar təranədir*.

Hiss eylərəm şu dəmdə ki, yarim dilimdədir,
Bax sanihati-eşqə nasıl dilbəranədir!

Ümmidlər kimi güli-şe’rim gülür mənə,
Eylər təranə, təb’im o dəm bülbülanədir.

Açdıqca ağzını uçuyor şe’r qönçəsi,
Bülbül fəmində gül, quş özü valehanədir.

Bülbül niyazpərvərü gül fəmgüşayi-naz,
Mə’şuqlər həmişə qinagüstəranədir.

Bilməm bu da bir üqdəsidirmi təbiətin:
Hüsn əhlinin xəsaili həp sərkəşanədir?!

Məftunuyam onun, o cəmali-həqiqətin,
Təb’im kimi lətafəti pək nazikanədir.

Mən istərəm də, istəməz ülfət mənimlə o,
Müşkilpəsəndmi, məşrəbi, ya aliyanədir?

Min-min füsun ilə məni iğfalınız nədən?
Məqsəd fərar, üzrlərin həp bəhanədir.

Nifrətlə baxsalar mənə xəffaşdidəgan,
Layiqmi heyrətə? Günəşim lamianədir.

Ahim cəhim olaydı, səni yandıraydı, ah!
Onda bilərdin eşqi cəhənnəmzəbanədir.

Mən istərəm çıxarmağa könlümdən eşqini,
Qılmaz itaət əmrimə, pək amiranədir!

Könlüm nə rütbə olsa da bir qəhrəmani-əzm,
Ahu baxışların necə şirəfkənanədir!

Dildadeyi-məhəbbətəm, aləmdə sözlərim –
Hübbülbəşər təranəsidir, sadiqanədir.

Mən istərəm səadəti-əbnayi-növ'imi,
Əfkarıma baxılsa bəşərpərvəranədir.

Eşqü məhəbbəti niyə təhqir edir bəşər?
Xislətləri bütün-bütünə düşmənanədir.

Bilməm vəfadən nə fənalıq görüb bəşər?
Yox sidqdən əsər, əməli xainanədir.

Ümmani-pürtəlatümi-xilqətlə uğradım –
Bu sahili-həyatə kim, tufannişanədir.

Məhdi-vücudə düşdüyümə nadim olmuşam,
Bu səhvə söylərəm: qələti-alihanədir*.

Seyr eylədim həqiqəti, gördüm xəyal imiş,
Əlfazi-aləmi oxudum, biməal imiş!

## MƏN BİR KİTABƏM

Mən bir kitab, hər vərəqim min kitabdır,
Ayati-məhkəmati bütün inqilabdır.

Qılsın mütaliə məni ərbabi-inqilab,
Görsün bu ayələrlə nasıl feyziyabdır!

Sönmüş həvasə şö'lə verir nuri-fikrətim,
Ruhum füyuzvərvər olan afitabdır.

Olmuş vətən qünudə ləyali-cəhalətə,
Zülmatə qarşı mə'rifətim mahtabdır.

Hürriyət ilə etməli mə'mur milləti,
Yarim, əsarət ilə vətən pək xərabdır!

Tiği-məzalim ilə əvalim cərihədar,
Ey ədl, sür’ət eylə, zəmani-şitabdır!

Əshabi-zülm ziynətidir təxti-rahətin,
Məzlumlər dilim kimi püriztirabdır.

Bax, bax, şu hurə, qoynuna girmiş səfalərin!
Dildadeyi-cəmali düçari-əzabdır.

Ağuşuma atılma, a zalim, dayan, dayan!
Son xabgahin iştə kənari-türabdır.

Aldanma rəngü buyinə gülbərgi-hüsnünün,
Beş gün sürər də, sonrası bibuyi-tabdır.

Çox süzdü gözlərim bu riyazi-təbiəti,
Hər qönçənin təravəti mərrüssəhabdır.

Gəl müstəfid olaq, məlakim, gəl, həyatdən,
Hər dəmdən istifadə edən kamiyabdır.

Şeyxuxətin şitasi gəlir, qafil olma kim,
Fürsət zəmani iştə bəhari-şəbabdır!

Yoxsa başında kövsərü huri həvası var?
Olsun nəticəbəxş, nə ləzzətli xabdır!

Tihi-xəyal içində şitaban olan səfil!
Yortma! O parlayan su deyildir, sərabdır.

Sun badeyi-məhəbbəti hürriyyət eşqinə,
İnsanə intibah verən bu şərabdır.

Çıx, çıx məzardən, ərəsati-həyatə gəl!
“İqrə kitabəkə”*... bu ki yövmül-hesabdır.

Zülmətpəsəndlər giriyorlar cəhənnəmə,
Rövşəndilani-elm behiştiməabdır.

Əsfəllərə tənəzzülü şayistə görməyən –
İnsanə afərin, necə alicənabdır!

Elm əhlidir cahanda səzavari-iltifat,
Cahil həmişə məzhəri-qəhrü itabdır.

Cahil sənə edərsə cəhulanə bir xitab,
Mə'nalı bir sükut ona ə'la cavabdır!

Şeytani-cəhli yaxmağa əflaki-elmdən –
Bu xaki-tirənakə yağanlar şəhabdır.

İnsanları birər ediyor əsr imtahan,
Bu dövri-irtiqa, məhəki-intixabdır.

Çıxdı niqabdən o həqiqət çiçəkləri,
Millət xəyalət ilə hələ dərhicabdır.

## ƏŞ'ARİ-PƏRİŞAN, YAXUD SOLĞUN ÇİÇƏKLƏR

Dəryadə kəfü mövceyi-cuşan pərişan,
Qə'rindəki əsdafi-dürəfşan pərişan.
Səhradə axan seyli-xüruşan pərişan,
Əflakdəki əncümi-rəxşan pərişan,
Gülşəndə açan qönçeyi-xəndan pərişan,
Eşqi-gül ilə şairi-mürğan* pərişan.
Ağzından uçan nəğməvü əlhan pərişan,

Şövqi-vətən ilə ürəyim qan, pərişan,
Ol əhdşikən dilbəri-vicdan pərişan,

* * *

Zərrati-ləvame' ki, yağar cürmi-zəkadən,
Bax, bax, şu səhaib ki, uçar ruyi-fəzadən,
Şəbnəm ki, düşər qönçələrə çeşmi-səmadən,

Yaşlar ki, təqəttür edər ənzari-bükadən,
Seyr eylə riyahi ki, əsər bağì-fənadən,
Quşlar ki, qatar ilə gedər vəchi-həvadən,
Naliş ediyorlar yədi-səyyadi-cəfadən,
E'lani-qəm eylər həpsi zülmü bəladən,

Göydən eniyor təqreyi-baran pərişan,
Yerdən göyə çıxmaqdadır əfğan pərişan.

* * *

Fərz eylə bir ormandasan, ey sahibi-im'an,
Bülbüldə nəğəm, güldə qina, şəmsdə taban,
Bir səmtdə qəhqəh vuruyor kəbki-xüraman,
Bir nəfheyi-dilpərvər edir onları lərzan,
Gül, bülbül, dil nəşveyi-əzvaqlə şadan,
Birdən-birə bir əbri-siyəh oldu nümayan.

Qopdu o gözəl məşcərədə qəhrli tufan,
Kəklik nerədə, gül nerədə, nerdə həzaran?
Oldu deməк artıq o gülüstan pərişan,
Ol qəhqəhəzən kəbki-xuraman pərişan.

* * *

Al çeşminə bir məzrəeyi-feyznümayi,
Sünbülləri bəxş etmədədir ruha səfayi,
Gəlmiş biçilən vəqti, hülul eyləmiş ayi,
Dehqan bu il əldə edəcək çoxlu qidayi,
Ümmidlə imrar ediyor sübhü məsayi,
Birdə-ikidə fırlatıyor işbu sədayi:
Qoy bircə satım yaxşı fiətlə bu qidayi,
Oğlum! Qızım! Allam sizə gül-güllü xarayi.

Ləzzətli əməllərlə bu tiflan pərişan;
Əfkari-fiətlə dili-dehqan pərişan.

* * *

Bu rəncbərin iştə budur nöqteyi-rə’yi:
Sən saydığını say, fələki gör ki, nə sayi!
Birdən-birə bir əbri-siyəh tutdu həvayi,
Rə’din səsi sarsıtmadadır ərzü səmayi,
Şaşqın nəzəri seyr edir afati-qəzayi,
Bədbəxt, zavallı açaraq dəsti-duayi,
Yalvarmada, imdada çağırmaqda xudayi,
Olsun ki, dua rədd edəcəkdir bu bəlayi,
Heyhat ki, nuş etdi əkin cami-fənayi,

İştə əli qoynunda o dehqan pərişan,
Gül-güllü xara gəlmədi, tiflan pərişan!

* * *

Hər kəs bir əməlçin çalışır ruzü ləyali,
Gözlər kimi ümmid ilə əyyami-vüsali,
Cəhd ilə edər bə’zisi təhsili-kəmali,
İstər ola bilsin şərəfənduzi-məali,
Bə’zi dilər ehraz qıla izzü cəlali,
Ürfandən artıq biliyor bə’zi mənali,
Tərcih ediyor bə’zisi ənvarə zilali,
Bir firqə hüda anlamış, eyvah, zəlali,
Bə’zi üzüyor mən kimi ümmani-xəyali,

Ol üzdüyüm ümmani-xüruşan pərişan,
Könlüm kimi ol dilbəri-vicdan pərişan.

## MİLLİ NƏĞMƏLƏR

Ey bağı-vətəndə açılan tazə nihalan!
Şamü səhər olmaq gərək ürfanə şitaban.
Adab ilədir tərbiyeyi-cənnəti-vicdan,
Elm ilə edər kəsbi-şərəf zadeyi-insan.
Firdovsi-maarif biləlim məktəbi-“Nur”i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Ey tazə çiçəklər! Sizə olsun bu vəsiyyət:
Düşməz ələ, ey qönçələrim, dövri-səbavət!
Təhsili-kəmalə ediniz eşqü məhəbbət,
Bir gün vətən eylər sizi gördükcə fəxarət.
Firdovsi-maarif biləlim məktəbi – "Nur"i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Məktəb nə deməк? Zinətidir zatü sifatın,
Məşşatəsidir huri-dilarami-həyatın,
Xurşidi-ziyadarıdır afaqi-nicatın,
Mə'nasına tə'zim edək işbu nəğəmatın:
Firdovsi-maarif biləlim məktəbi-"Nur"i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Əqvam bütün elmlə kəsb etdi kəmali,
Qonşularımız məktəb ilə qıldı təali,
İstərsək əgər biz dəxi ən şanlı cəlali,
Tənvir edəlim nuri-təməddünlə xəyali,
Firdovsi-maarif biləlim məktəbi-"Nur"i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Vardırmı cəhalət kimi dəhşətli fəlakət?
Cahillər olur dəhrdə məhkumi-səfalət,
Hürriyyət ilə etmək üçün kəsbi-səadət,
Ürfanə, kəmalə edəlim kuşişü qeyrət,
Firdovsi-maarif biləlim məktəbi-"Nur"i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Təhsil ediniz keçməsin övqat fəsanə!
Tənbəllik üçün düşməmişiz məhdi-cahanə,
E'dam ediyor cəhlpərəstani zəmanə,
Biz də olalım şöylə həmahəngi-təranə:
Firdovsi-maarif biləlim məktəbi-"Nur"i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Məktəb nə demək? Şə'şə'əbəxşayi-cəhandır,
Miftahi-dəri-gəncü künuzati-nihandır,
Ülviyyəti calib, səbəbi-izzətü şandır,
Zülmətdə yatan dillərə ənvarfəşandır,

Firdovsi-maarif biləlim məktəbi-“Nur”i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Yetməklik üçün gülşəni-ümmidü merama,
Biz də gələlim şövqü şətarətlə xüramə,
Pərvaz edəlim, xüldbərindir, bu məqamə,
Payan verəlim qəflətə, övhamə, zülamə,
Firdovsi-maarif biləlim məktəbi-“Nur”i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Bu göydə təlalö’ ediyor nəyyiri-hikmət,
Bu yerdə təfəyyüz qılıyor toxmi-həqiqət,
Bu bağdə xəndan oluyor qönçeyi-fikrət,
Məktəb nə demək? Üssi-əsasi-mədəniyyət,
Firdovsi-maarif biləlim məktəbi-“Nur”i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Şərq üzrə salır sayəsini şəhpəri-amal,
Müzlim vətəni parlatıyor pərtövi-iqbal,
Parlaq olacaqdır gələcək, şahididir hal,
Ey didəsi məhrumi-ziya! Al sənə timsal:
Firdovsi-maarif biləlim məktəbi-“Nur”i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Hala yazılıbdır, oxu, ülviyyəti-ati!
Bu güzgüdə seyr eylə şu lahuti sifati!
Parlaqdır, əzizim, gələcək, gör ləmə’ati!
Öyrənmək üçün, bilmək üçün dərsi-həyati
Firdovsi-maarif biləlim məktəbi-“Nur”i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

Ey baği-vətən gülləri, ey tazə çiçəklər!
Ey cənnəti-elm içrəki nasuti mələklər!
Balaləri pərvazə qılın sə’yü əməklər,
Sizdən vətənin gözləri hürriyyəti bəklər,
Firdovsi-maarif biləlim məktəbi-“Nur”i,
Alqışlayalım xidməti-əşxasi-qəyuri!

## RƏHGÜZARİ-MƏTBUATDA LÖVHEYİ-ŞƏFQƏT, YAXUD ÜÇ ZAVALLI

Nədir bu lövheyi-şəfqət ki, rəhguzardədir?
Nədir o xətti-mihən səfheyi-üzardədir?

Nədir o mənzəreyi-qəm, süruru ağladıyor?
İki sevimli şükufə düşüb qübardədir?

İki çocuq – iki güldür, türabə düşmüş, ah!
Zavallı başları, seyr eylə kim, kənardədir.

Sükutə dalmış o qızlar türabi-zillətdə,
Keçənlərə baxıyor, madər ixtirardədir.

Pədərləri nerədə? Başqa bir diyardəmi,
Şərabi-mövtü içib yoxsa ki, məzardədir?

Nədir şu yə's, təbəssümnümayi-simadır,
Nədir şu qəmli baxış, çeşmi-hüzndardədir?

Üzündəki ələmi tərcümani-möhnətidir,
Nədir o leyli-siyəh çöhreyi-nəhardədir?

Könül sərairinin əksgahidir rüxsar,
Çıxar üzə qəmi kim, qəlbi-qüssədardədir.

Mənim də ruyum, əvət, tərcümani-qəlbimdir,
Gəl anla ol qəmi Hadiyyi-dilfikardədir.

## ƏDVARİ-TƏCƏDDÜD, ƏS'ARİ-İNQİLAB

Tutmuş bütün əvalimi tufani-inqilab,
Dəhhətnümuni-hövldür ümmani-inqilab.

Həp qəzteyi kəşideyi-ənzari-diqqət et,
Gör kim nə söyləyir sənə tibyani-inqilab.

Baxsan cidalgahi-həyatə görər gözün –
Başdan-başa kəsilmədə meydani-inqilab.

Xilqət təcəddüd istəyir, istərsən istəmə,
Təsdiq edir bu fikrimi vicdani-inqilab.

Bu bəzmgahi-fitrətə ətf eylə guşini,
Hər bir dəhəndən uçmada əlhani-inqilab.

Gördükcə xəndədar bəhari-təcüddüdü,
Əşki-sürur tökmədə mürğani-inqilab.

Asayişin behişti açılmaz şu yerdə kim,
Ta yağmasa o gülşənə barani-inqilab.

Ruhunda bir sükun əcəba mündəmicmidir?
Təşrih edilsə tiğ ilə əbdani-inqilab.

Əmniyyəti-rəiyyəti təkmil üçün bu gün –
Açılmış livayi-sətvəti sultani-inqilab.

Minbərnişin millətə lay-lay çalır hənuz,
Bolğar elində yüksəlir azani-inqilab*.

Yat-yat, balam! – deyir, – hələ rahət zəmanidir,
Amma doğub şümusi- dirəxşani-inqilab.

Baxdıqca ümmətin bu sükutu sümutuna
Vallahi ağlayır bizə çeşmani-inqilab.

Bilməm ki, müstəid deyilizmi təcəddüdə,
Yoxsa düşünmürüzmü nədir şani-inqilab?

Bizlər hələ qunudeyi-ağuşi-xəndəyiz,
Bu hala qarşı olmada giryan inqilab.

Hər qövmdə bulunmasa əfkari-növzühur,
E'dam edər şu milləti divani-inqilab.

Ey Nuh! Açıb da çeşmini pak et qübardən,
Sən qoyduğun kimi dururuz, bax, məzardən!

## HƏQİQƏT ACIMI, DADLIMI?

1

Derlər ki həqiqət acıdır, dadlıdır, amma,
Vardır bu böyük sözdə həlavətli bir iyma.

Bittəb deyildir acı şəhdabi-həqiqət,
Ləzzətlidir ərbabı üçün abi-həqiqət.

Əzvaqımıza nisbətən ol abi-müsəffa –
Can yandırıcı zəhrdir, əslən özü əhla.

Bir çeşmeyi-fəyyazdır, ayrılmış əzəldən,
Çirkabi-xürafatı yusun lövheyi-dildən.

Hər dil olamaz, olmadı məcrayi-həqiqət,
Ən ali gönüllərdir olan cayi-həqiqət.

Hər fikr olamaz, olmadı övrəngi-cəlali,
Hər ruh olamaz, olmadı mir'ati-cəmalı.

Hər hüsn olamaz, olmadı tabişgəhi-ani,
Hər ləfzə hülul eyləyəməz ruhi-məani.

Hər cism deyil layiqi-ərvahi-lətifə,
Hər ləfz deyil zərfi-məaniyi-zərifə.

Var isə nəsibin azacıq nuri-zəkadən,
Dinlə bu sözü xameyi-ərbabi-dühadən:

Naz eyləyir ən ali xəyalətə bu afət,
Əfkari-səfilə nerədə, nerdə həqiqət?"

İştə bu sözü etməliyiz hafizəpira,
Mə'nayi-həqiqət nə böyükmüş, nə müəlla!

İndi sürəlim xaməni meydani-məramə,
İfraq edəlim fikrimizi şəkli-kəlamə.

Əshabi-ədəb başlayıb etdikdə hekayət –
Zərbülməsəl ilə edər ifhamına qeyrət.

Anlatmaq üçün biz dəxi məzmuni-dərunu,
İrad edəlim bir məsəli-fikrnümunu:

Getdikdə şita canlanıyor feyzi-təbii,
Xaki-siyəhi parladıyor nuri-rəbii.

Gül qönçədə xəndə, dönür afaq cinanə,
Sərbəst dodaqlar kimi quşlarda təranə.

Güllər salıyor pərdəni rüxsarlarından,
Göz nur alıyor çöhreyi-nəvvarlarından.

Azad dəhənlər kimi arayişi-gülşən,
Yə’ni ki çiçəklər açılıb, bağçə rövşən.

Göydən tökülür feyzli fəvvareyi-ənvar,
Yerdən duyulur nəfxeyi-canpərvəri-əzhar.

Oyanar günəşin şə’şə’əsi məşcərələrlə,
Zərrin kəpənəklər necə kim məzhərələrlə.

Qayətdə xəfifanə əsən badi-baharı,
Təhziz edər, oxşar, öpüyor məzhərəzarı.

Quşlar, kəpənəklər ediyor şövq ilə pərvaz,
Bülbül oluyor eşq ilə, sevda ilə dəmsaz,

Sevdayi-vətənlə nasıl amalpərəstan –
Hər sübhü məsa çəkmədədir ah ilə əfğan.

2

Bir sövqi-təbiilə o mürğani-xoşəlhan
Ümmidi olan güllərə qarşı atıyor can.

Güldən gülə pək nəş'əli pərvaz ediyorlar,
Müzmər bulunan sözləri ibraz ediyorlar.

Bir gizli məkanda iki sevdazideyi-eşq,
Yekdigərinə sanki açır xatireyi-eşq.

Mə'şuquna aşiq edir e'lani-məhəbbət,
Yox hail olan, yar açıq, aşiq dəxi sərbəst.

İnsanları bədbəxt edən, ey pərdeyi-övham,
Odlara tutmuş, səhnəyə çıxsın o dilaram.

Madam ki, varsan, o həqiqət görünürmü?
Sən yanmasan, əndami-lətafət görünürmü?

Madam asılmış duruyor sitrəyi-əlfaz,
Əndami-məani olamaz şə'şə'əndaz.

Ol pərdə deyildirmi qılıb milləti ə'ma?
Rəqqaseyi-hürriyyətə olmaz gözü bina.

Hürriyyət olan bağdə gül, bülbül – iki yar
Biz anlamayan ləhcəni onlar edir izhar.

Hər canlının öz növ'ünə məxsus lisanı –
Vardır ki, onunla açıyor razi-nihanı.

Əfkarını bildirməyə qadir olamaz lal,
Lal olmayalım, dillənəlim biz də bəhərhal.

Mürğan belə hifz etmədədir kəndi lisanın,
Məxsus dililə deyir əfkari-cənanın.

Yoxdur dilimiz fikrimizi etsin ifadə,
Quşdan geriyiz, vaəsəfa, baği-fənadə!

Sərbəst qələmlər kimi övraqi-ədəbdə,
Pərvaz ediyor cümləsi əlhani-tərəb də.

Bir mürğ qədər, ey vətənim, olmadın abad,
Bir quş qədər, ey xaməciyim, olmadın azad.

Bir gül qədər olsun, dodağın olmadı xəndan,
Ey qönçeyi-xoşbuyü səfapərvəri-vicdan.

Zülmün küləyi əsdi də, soldurdu yanağın,
Ey vah ki, pamali-xəzan oldu da bağın!

Şəhbaz kimi, söyləməm, ülviyyətimiz yox,
Kuçik kəpənəkcə belə hürriyyətimiz yox.

Məhcub olacaq baxsa bizə ruyi-həqiqət,
Bu hali-rəzilanəyə heyrət, yenə heyrət!

Bu cəhlə, bu nadanlığa payan olamazmı?
Bu qövm, əcəba, haizi-ürfan olamazmı?

İnsanlığa bir ləkkeyi-ar olduq, a millət,
Eylərsə əcəbmi, Qladston* bizə nifrət?

Ar eyləyirəm söyləməyə kəndimə insan,
İnsan sifətində görünür çünki müsəlman.

Zahirdə bu söz pək acıdır, təlxdir, amma –
Bu zəhrin içində duruyor bal kimi mə'na.

Dərman nə qədər təlx ola ol rütbə şəfadır,
İç, qorxma, o zəhri ki, verənlər hükəmadır.

İslahi-vücud etməyə iç zəhri-həqiqət,
Mə'nada odur şəhdi-şəfapərvəri-səhhət.

Derlər ki, həqiqət acıdır, məğzini dərk et,
İnsanlığa gəl, təb'i-bəhimanəni tərk et.

Mən eyləyirəm bir, üç bu sözü təkrar:
Rüxsari-əfifi-bəşəriyyətdə biziz ar.

İffətli olan çöhrədə ar olmayalım gəl,
Fikri yuyalım nur ilə, tar olmayalım gəl!

Ziruh olalım, əhli-məzar olmayalım gəl,
Diz-diz sürünən şil kimi zar olmayalım gəl!

Bisayə çocuqlar kimi xar olmayalım gəl,
İzzətlənəlim, zillşüar olmayalım gəl!

Həmnöv'imizin duşuna bar olmayalım gəl,
Bu rəhgüzəri-ömrdə mar olmayalım gəl!

Şəkli-bəşəriyyətdə himar olmayalım gəl!
Payi-bəşərə batmağa car olmayalım gəl!
İnsanları yandırmağa nar olmayalım gəl!

İrşad edəriz millət insanlığa daim,
Bəsdir, yetər artıq, ayılıb dursana, naim!

## ZÜMZÜMATİ-TƏHƏSSÜRAT, YAXUD QARIŞIQ XƏYALLAR

Fikrim yaşayır mə'niyi-rə'nalər içində,
Ruhum uçuyor cənnəti-ülyalər içində,

"Lal ol, demə, qanma, gözünü kur elə" derlər,
Gözlü nasıl ömr eyləsin ə'malər içində?!

Mən bir əsərəm, anlamadım kimdi müəssir,
Bir şe'ri-bəliğəm bu müəmmalər içində.

Girsinmi tənimlə bu həqaiq də məzarə,
Kəşf eyləyəyimmi bu həyulalər içində?

Xaki-siyəhi-parladacaq nuri-xəyalım,
Qalmış vətənim leyleyi-zülmalər içində.

Zənn eyləmə şəbtəb şu məxluqi-müziyyi,
Parlar gecələr nur kimi səhralər içində.

Azadələrin ruhi-münəvvərləridir kim, –
Şol cism ilə parlar şəbi-yəldalər içində.

Nifrət edərik canlı gəzən bu şəhəratə,
İmrari-həyat etmədə tənhalar içində.

Hürriyyəti-vicdan ki, deyirlər adı vardır,
Ol huri dərağuş elə rö'yalar içində.

Ərz etmədədir kəndini ifriteyi-övham,
Dildari-həqiqət hələ xülyalər içində.

Sərbəst bu gün zülmünü icradə məzalim,
Ərbabi-ədalət hanı? Mənfalər içində!

Övladi-zəman fikrcə səhdud bu gündə,
Mən istəyən əhbab isə fərdalər içində!

Təşrih edirəm dillərini çox rüfəqamın,
Bir əhli-səfa yox bu əhibbalər içində.

Mən bir diriyəm, etdi məni dəfn təsadüf –
Zində görünən bir sürü mövtalər içində!

Bilməm ki, nolurdu məni-bədbəxt doğulaydım –
Mehdi-mədəniyyətdəki danələr içində.

Hər kəs sanıyor kəndini pərvərdeyi-daniş,
Ləzzətli ədəb yox bu mürrəbalər içində.

Turşdur deyəməz hiç kəs ayranına, əmma
Dadsa, der acı şəhdi-müsəffalər içində.

İkmali-kəmal etmədə əqvam, biz, əfsus,
Təzyi' ediriz ömrü əlifbalər içində.

Fitrətmi, bəşərmi törədir cəngü cidali?
Dünya yaşayır hərb ilə qövğalər içində.

Meydani-vəqa səhni-püraşubi-təbiət,
Ərbabi-zəfər taqi-müəllalər içində.

Dərdəst edib amalını ərbabi-həqiqət,
Zahid, yaşa övham ilə xülyalər içində!

Ey qəlbiqara, sən oxu əlfazü səvadi,
Nur əhli bu gün lübb ilə mə'nalər içində.

İmzasını qoymuş miləl övraqi-həyatə,
Yox millətimin xətti bu imzalər içində!

"Qumu..."* səsi iqaz edir əbnayi-cəhani,
Millət hələ cabidə bu zövzalər içində.

Bir nəcm deyildirmi cahani-bəşəriyyət –
Bunca kürəviyyat ilə dünyalər içində?

Bir zərrə deyildirmi bu səyyareyi-aləm –
Şu cəvvi-vələhzadəki şəmsalər içində?

Milyonla kəvakib gəzir e'maqi-fəzadə,
Milyard cahan var bu müsəmmalər içində.

Xilqət doğuyor, leyk durur hüsn əzəldə,
Varmı belə bir xariqə hüsnalər içində?

Ey madəri-aləm, bu nə heyrətli sərair,
Sən şadmısan bir belə hüblalər* içində?

Aya, nədir ol cazibeyi-hüsnü məlahət,
Qaynar, daşıyor dideyi-şəhlalər içində?

Şol yar, quçağında yaşar zövqü səfanın,
Könlüm yanıyor eşq ilə sevdalər içində!

Zülm eyləmədən xoşlanıyorsanmı, ey afət?
Yox sən kimi qəddar dilaralər içində.

İç, iç nə qədər istərisən qanımı, zalim,
Bir gün görərəm qanını səhbalər içində!

Gülçöhrələrin ləbləri, rüxsarıdır ol kim, –
Şimdi içilir sağəri-minalər içində.

Məhzun təbəssümlər edir nərgizi-məxmur,
Cəzzab nigəhlərdir o mər'alər içində.

Qəbrimdə açan gülləri seyr et, a şükufəm!
Könlüm dağıdır laleyi-həmralər içində.

Qəlbimdən uçar qəlbinə bir buyi-təhəssür,
Etmə məni məhcub şu mövtalər içində.

Bir fatiheyi-nazini fırlat da, güzar et
Ehya elə, ruhum, məni həmtalər içində.

Vardır şu yatan kimsələrin fatihəxani,
Mən kimsəsizəm xaki-siyəhzalər içində.

## ƏKSİ-ƏNİNİ-VƏTƏN

Bu gündə ağladır afaqı ahü vayi-vətən,
Cahanı titrədiyor növhənövü nəvayi-vətən.
Vətən səfinəsini çalxalandırır əmvac,
Olubmu yoxsa xudasız şu naxudayi-vətən?
Həzin-həzin baxır ətrafə, söyləyir: övlad!
Deyilmi sizlərə lazım məgər rəhayi-vətən?
Kəfənbəduş olaraq qəbrdən çıxın, əcdad!

Görün ki, məhşəri-qəmdir fərəhfəzayi-vətən.
Sevimli oğlunu qeyb eyləmiş zavallı ana,
Nasıl yanarsa, yanır qəlbi-cunnümayi-vətən.
Cəhalət ilə mükəddər səfali mir’ati,
Maarif olmasa, qabilmi incilayi-vətən?
Vətən çiçəklərini xəndədar qılmaq üçün –
Hənuz doğmadımı bizdə də fədayi-vətən?
Səfalət ilə bugün ağlayır, yanır, yaxılır,
Qinalər içrə gülün siz, ey əğniyayi-vətən!
Əri məzarə girən bir xanım kimi ağla,
Yetim uşaqlarını oxşa, ey sədayi-vətən!
Döşündə əmmək üçün yox südün ki, əmsinlər,
Çocuqların oluyor, validəm, cilayi-vətən.
Təbəssüm istəməm artıq, bükayə şövqüm var,
Bərabər ağlayaq, ey çeşmi-giryəzayi-vətən!
Gəl, ey “təbibi-zəmanəm” – deyən gəzafpəsənd,
Tutub da nəbzini anlat nədir nidayi-vətən?
Qoyub qulağini dinlə şu xəstə sinəsinə,
Bəyan qıl ki, nə əczaydır dəvayi-vətən.
O vəqt son sözün aya deyilmidir “heyhat”?
Əlaci məhz ölümdür, sönür ziyayi-vətən.
Vərəmli qız kimi parlar gözündə nuri-əcəl,
Gəl, ey müvəkkili-mövt, iştə yox şəfayi-vətən!
Qünut, yə’s, fütur etməyin, ey əhli-vətən,
Fəqət əməllə olur şanü e’tilayi-vətən.
“Biri” demişdi ki: “Lağlağ ümidi-istiqbal”*,
Əməl deyilmi, quzum, qiymətü bəhayi-vətən?
Nə səmtə ətfi-nigah eyləriz qaranlıqdır,
Çıx, ey səbahi-səadət, doğ, ey zəkayi-vətən!
Fəraq uzandı, gəl imdadə, ey səbahi-vüsal!
Unut keçənləri, gul, gul, a dilrübayi-vətən!
Həqiqət əhlini, Hadi, xəyalə döndərdi –
Könüldə bəslənən ümmidi-irtiqayi-vətən.
Qələm, şu vəhynəvimi-kitabi-hürriyyət –
Bədiələr yaradır, görməyir əmayi-vətən.
Qırılma, ey qələmim, vase’ eylə meydanın,
Nə rütbə olsa da, əhrarə təngnay vətən!

## MİZANİ-ƏQVAM

Bir ləhzə açıb dideyi-insafü mürüvvət,
Qıl aləmi səncideyi-mizani-həqiqət.

Vasil olayım dersən əgər fövzü nicatə,
Ətfi-nəzər et saheyi-qövğayi-həyatə.

Dünya denilən iştə bu meydani-rəqabət,
Oldu üməmi-sairəyə baği-səadət.

Məğribdə bu gün şəmsi-hünər olmada şariq,
Məsturi-səhaib hələ afaqi-Məşariq.

Bir xətvə belə atmayırız rahi-fəlahə,
Xəffaş kimi düşməniz, eyvah, səbahə.

Qat-qat bürüyüb fikrimizi sətreyi-övham,
Bir fərd belə yox edə əndişeyi-əncam.

Kəşf eylədi ərbabi-hünər "qüvveyi-bərqi",
Bizlər edəriz vadiyi-zülmətdə tərəqqi.

İcad elədi əqli-bəşər "xaneyi-səyyar",
Böylə oluyor zadeyi-nazəndeyi-əfkar.

İbda elədi dəsti-düha "hafizi-əsvat",
Bizlər hələ xabideyi-ağuşi-xürafat.

İnşa elədi əhli-xirəd "durnəvisi",
Bizlər oxuruz qisseyi-Leyla ilə Qeysi.

Əqvama bəhaim kimi ram oldu təbiət,
Bizlərsə bəhaim kimi məhkumi-əsarət.

Mə'dənləri, məxzənləri, əbharı, cibalı
Növ'i-bəşərin kəşf elədi fikrü xəyalı.

Miftahi-maariflə açıldı dəri-imkan,
Bizlər dururuz əskicə halətdə kəma-kan.

Meydanə qoyuldu neçə əsrarı cahanın,
Hala da açılmaqda dəri gənci-nihanın.

Bunlar həpsi meyveyi-əfkari-dühadır,
Zülmətkadeyi-dəhrə düha əhli zəkadır.

Əfkari-düha, xeyməgəhi-huriyi-hikmət,
Bunlardır olan rəhbəri-şəhri-mədəniyyət.

Dünya cəsəd, ərbabi-dühaət ona candır,
Azadədilan şö'leyi-mişkati-cahandır.

Təslim olunub bunlara ra'yati-fütuhat,
Bunlardır olan fatehi-iqlimi-künuzat.

## FƏDAKARLIQ-MƏRDANƏLİK

Pay dər qeydi-əsarət yaşamaqdansa əgər,
Hürr ölmək belə min vüsləti-dildarə dəyər.

Səlli-seyf eyləyərək şanlı atıl meydanə,
Mərdlik dəhrdə yüz min düri-şəhvarə dəyər.

Eylə izhari-həqiqət, nə təbəsbüs yeridir?
Çün "ənəlhəq" deyənin başı səri-darə dəyər.

Hümmətin süst qılıb kardan əl çəkmə, səbəb?
Xəlqə xidmət nə qədər məxzəni-dinarə dəyər!

Qiymətin etməsə təqdir vətən əhli, nə qəm,
Bu açıqdır ki, məlamət oxu əhrarə dəyər.

Sal nəzər nəf'i-ümumiyə, ey ərbabi-səbat!
Olma rəncidə bu yolda ayağın xarə dəyər.

Lövheyi-fikrinə yaz: "hübbi-vətən" ünvanın,
Vətənin xaki-siyahi zəri-nəvvarə dəyər.

Hübbi-Leylayi-əməldə bu yəqindir, Hadi:
Səngi-kudəkmənişan Qeysi-fədakarə dəyər.

Xəlqdən kəs təmə'i eylə də ibrazi-hünər,
Nuri-həq çöhrəsinə azü təmə pərdə çəkər.

## YAZIQ MİLLƏT!

Səfalət bizdə, zillət bizdə, hər dürlü bəla bizdə,
Əcanib pazpərvərdi-ğina, rəncü əna bizdə.

Sənaye sayəsində kəsbi-şövkət qıldı qərbiyyuh,
Baxın biz əhli-Şərqə, məskənət, nəğmət, cəfa bizdə.

Maarif yox, sənaye yox, ticarət yox, ziraət yox,
Dəruni-qəflət içrə qalmışıq, yoxdur ziya bizdə.

Qılır gündən-günə kəsbi-təali qövmlər, qaldıq –
Tədənni guşəsində xar, yoxdur e'tila bizdə.

Bu ibrətgahdən bir dərsi-ibrət almırız, bilməm, –
Həqiqət, yoxmu iste'dadü asari-zəka bizdə?!

Təməddün elmi-əbdan ilə olmuşkən təcəllisaz,
Bu elmi-məs'ədətbəxşə neçin yox e'tina bizdə?!

Niyə biz qılmırız təqdir qədrin elmi-əbdanın,
Kor olmuş yoxsa, Hadi, dideyi-qiymətnüma bizdə?!

Təcəddüdbəxş ikən ədvari-növayəndeyi-aləm.
Həzar əfsus, kim var, köhnə fikr, əski qafa bizdə.

Bu məşhur məsəldir: "kor əlindən tutduğun qoymaz",
Biz iştə tutmuşuz cəhli, səbəb: çün var əma bizdə.

Tədənnipərvəranız, düşməni-ənvari-ülviyyət,
Onunçün sim-siyahız, zərrə çox nuri-əla bizdə.

## DUŞİZEYİ-HÜRRİYYƏTƏ

Düxtəri-napakdamən sanmayın hürriyyəti,
Hərkəs olmaz rahyabi-həcləgahi-vüsləti.

Öylə bir huriyi-ismətdir bu yari-işvədar,
Şövqməndani-vüsalə böylə istiğna satar.

Ey behişti-e'tilanın huriyi-canpərvəri,
Zinəti-dar oldu eşqin ilə əhrarın səri.

Pərdədə saxlanma, çıx, ey sevgili dildarımız,
Xəndəzari-bəhcət olsun könlümüz, rüxsarımız.

Zəxmdari-hüzndür dil tiri-istibdaddən,
Sənsən, ey hürriyyət, ancaq bizləri azad edən!

Nüxbeyi-amal insaniyyətin iqbalıdır,
Cümlə qövmü millətin əmniyyəti-əhvalıdır.

Cami-pürzəhri-əcəl Hadini bihuş etmədən,
Sineyi-leyli-ədəm cismani dərağuş etmədən.

Girməz idi həsrət ilə mədfənə görsəydi, ah,
Milləti-məzlumədə asari-feyzü intibah!

## BİR MÜTƏƏLLİM RƏFİQİMİN FOTOQRAFINA QARŞI SÖYLƏNMİŞDİR

[Rəşad]! Ey mayeyi-arami-canım!
Sənə ayinədar olmuş cinanım.

Bu rəsmin düşdü dəsti-ehtiramə,
Gətirdi ruhumu şövqü qəramə.

Olub rəsmin mənə pirayeyi-dəst,
Vüsalın nəş'əsilə ruh sərməst.

Nə amalın ki, könlündə nihandır,
Onu təfsirə çeşmin tərcümandır.

Nədir, yarəb, bu mə'nidar gözlər!
Nə canpərvər bu əfsunkar gözlər!

Nə lahuti-nigahi-dilrübadır!
O məs'umanə gözlər şövqzadır.

Cəbinində mücəssəm nuri-hikmət,
Səni əhsən yaratmış dəsti-qüdrət.

Fəqət aldanma yalnız hüsni-anə,
Çalış tənviri-əfkarü cənanə.

Oxu, təhsil qıl adabü irfan –
Ki, ta olsun münəvvər fikrü vicdan.

Oxu, ehraz qıl adabü irfan –
Ki, ta olsun münəvvər fikrü vicdan.

Oxu, ehraz qıl elmü kəmalət,
Ələ düşməz, quzum, dövri-səbavət.

Rəşadın elmdir axır muradi,
Bu amalında məsləkdaşı Hadi.

Əgər tabe isən fikri-rəşadə,
Qədəmran ol da minhaci-sədadə.

Camalındır nəzərpirayi-vicdan,
Nigahında nümayan feyzü ürfan.

Əgər könlüm ola bir an sənsiz,
Həzari-dil qalar, san kim, çəmənsiz.

Qalırsa dil əgər biganə səndən,
Yəqin bil ayrılır xülqi-həsəndən.

Neçin qəmli baxırsan kainatə,
Mükəddərsənmi, bilməm ki, həyatə?

Həyat insan üçün bari-girandır,
Bunu anlar o dil kim, nüktədandır.

Bunu şe'rindən aldım, yavrum, mən,
O şe'ri-dilbərində söyləyirsən:

"Nişatım naqis, eyşim bisəmərdir,
Mənimçün bir böyük, artıq kədərdir.

Yazıb qıldım bu məktubu rəvanə –
Ki, hissiyyatımı çəksin bəyanə".

## QƏLƏM

Qələm, ey baisi-imrani-aləm,
Kəramətbəxşi-növ'i-ibni-Adəm!
Səninlə kəsb edib adəm şərafət,
Görüldü layiqi-təxti-xilafət.
Qələm! Ey rəhbəri-elmü sənaye –
Ki, sənsən kaşifi-sirri-təbaye.
Səninlə fəxr edər əhli-həqaiq,
Vücudunla olur həlli-dəqaiq.
Qələm, ey bülbüli-bağİ-məani,
Əzəl əsrarının sən tərcümani.
Riyazi-kainatın əndəlibi,
Bedayegahi-sün'in sən ədibi.
Cahan darülfünundur, sən müəllim,
Bəni-növ'i-bəşər ətfali-tə'lim.
Bizi tə'limü tə'dib eylə, ustad!
Həyatə eyləyər ustad irşad.
Deyil vəqti-sükunət, nəğməsaz ol,
Təninəndazi-guşi-əhli-raz ol.
Sükutu tərk edib, eylə təranə,

Ola nəğmən maarifpərvəranə.
Dayanma, çal o canbəxşayi-suru,
Həyatə də’vət et əhli-qüburu,
Gələndə surin əlhan ilə zarə,
Gəlir bir tazə can əhli-məzarə.
Fəraşi-qəflət içrə biz səqimiz,
Məzari-cəhldə əzmi-rəmimiz.
Çal İsrafilvəş suri-zühuru,
Nüşurə sövq et əshabi-qüburu.
Gərəkdir “huri-məqsurat”i*-əfkar –
Xiyami-dildən etsin ərzi-didar.
Olub xurşidi-hürriyyət nümayan,
Yetər artıq nə qalsın hur pünhan?
Çağır islamı şəhrahi-vifaqə,
İnani-milləti çək ittifaqə!

## QƏLƏM NƏ SÖYLƏYİR?

Eşit, millət, qələmdən bir hekayət,
Cidalıqdan qılır çox-çox şikayət*.

Oxur lə’nət şiqaqü iftiraqə,
Edir nifrin ərbabi-nifaqə.

Gəlin tövhidə, ey millət, amandır,
Nifaq isə böyük bir xəsmi-candır.

Olaq hər bir xeyirli işdə sai,
Tərəqqiyçin qılaq sərfi-məsai.

Edib qeyrət açaq ali məkatib,
Edək bu yolda ehrazi-məratib.

Mükəmməl mədrəsə, şanlı vəsail
Qılıb tə’sis edək kəsbi-fəzail.

Mənafebəxş əsbabi-təali,
Olur bunlarla qədri-millət ali.

Mükəmməl məktəbə hər kəssə malik,
Səadət rahinə olmuş o salik.

Bu iş vabəstədir həp ittihadə,
Deyil vabəstə əğrazü inadə.

Olur tövhid ilə hər müşkül asan,
Bulur vəhdətlə rövnəq baği-imkan.

Açılmışdır səbahi-elmü hikmət,
Usan, bəsdir, yetər xabi-kəsalət!

Açın bir çeşm, ey zülmətpəsəndan!
Məgər bir zərrə yoxdur sizdə iz'an?

Doğubdur afitabi-sübhi-vəhdət,
Cahanə nəşr edir feyzi-hidayət

Usanınz! Tabəkey bu lə'bbazi?
Səmərbəxşa deyil elmi-məcazi.

Nəticə verməz əşkalın əqimdir,
Səhih zənn etmə, bürhanın səqimdir.

Fəqih oldun, hanı irşadın, ustad?
Həkim oldun, nə alat etdin icad?

Kimə bəxş eylədin bir həbbə irfan,
Acıqlanma, əlində varmı bürhan?

Nə səmtə milləti irşad qıldın?
Bölüb min parçaya bərbad qıldın.

Hərənin var əlində bir "atistad",
Əlindən bunların min dadü fəryad!

Bunlar qüttai-mə’nəvidir,
Bütün amali-nəfsin peyrəvidir.

Əfəndim, bəs deyilmi xabi-qəflət?
Əcanibdən alın bir dərsi-ibrət.

Eşitmirsizmi əhrarın sədasın?
Nidayi-dilrubayi-xoşədasın?

Səbahi-intibahü mə’rifətdir,
Ayılmaq, millət, eyni-məsləhətdir.

Gərək kəsb eyləyək elmi-lədünni,
Bizə lazım deyil elmi-tədənni.

Gərəkdir əldə olsun toxmü danə,
Saçılsın toxmi-danə toxmdanə.

Bədən elmilə təhsil et hübubat,
Əkingahi-cəhanə sonra toxm at.

Gər əldə olmaz isə toxmü danə,
Nə saçmaqlıq dilərsin toxmdanə?

Toxumsuz, danəsiz bitməz sənabil,
Vəsailsiz deyil qabil fəzail.

Çalış dərdəst et əsbabü vəsail,
Səbəblə şəxs olur amalə nail.

Tənakühsüz olarmı ya tənasül,
Maarifsiz nə mümkündür təkamül?

Məkatib olmasa olmaz maarif,
Maarif görməyən kəs olmaz arif.

Maarifsiz deyil mümkün məişət,
Səfalətlə yaşar əhli-cəhalət.

Olub yekdil, qılaq bəzli-həmiyyət,
Bu yolda göstərək hər dürlü qeyrət.

Cahanı titrədər tövhidi-millət,
Qoparmazmı dağı olduqda himmət?

Yaşa, ey ittifaqi-millətəfruz!
Yerə bat, ey nifaqi-xanimansuz!

Nə sünni-şiə var Quranımızda,
Üxüvvət ləfzi var fürqanımızda.

Təsadüm eylədikcə əqlü fikrət,
Təzahür eylər ənvari-həqiqət.

Olanda cift arayü xəyalat,
Doğar bunlardan övladi-kəmalat.

Edib təşkil ali əncümənlər,
Qonulsun saheyi-zikrə müxənlər.

Rücu etmək gərək əqli-səlimə,
Olaq ləbbeykzən fikri-həkimə.

Edək hər bir sözü təslimi-vicdan,
Məsalehmiz deyilmi, böylə ixvan!

Kənarə taşlayaq fikri-səqimi,
Edək dərpiş rahi-müstəqimi.

Əmanət namı vermiş əqlə mövla,
Buna bürhandır "inna qərəzna"*... ilax.

Əgər insan isən, etmə xəyanət,
Gözəl saxla, əmanətdir, əmanət.

## GÜLBƏRGİ-PƏRİŞAN

Həsəd ol millətə kim, aşiqi-həqiqətdir,
Xəyalı, fikri-məsaisi kəsbi-izzətdir.
Bilib ki, elmlədir şani-növ'i-insani,
Cəhalət isə bəşərçin böyük fəlakətdir.

Durbinan calisi-övrəngi-istiqlaldır,
Kutəhəndişan nişani-tiri-izmihlaldır.

## MƏ'ŞUQƏMƏ

Vəhşi baxışın göstəriyor qaçmağı, amma
Bu vəhşəti tərk eylə, rəfiqin mədənidir.

Rövzati-cinanimdə açan qönçeyi-məxmur,
Al qoxla, məhəbbət gülüdür, yasəmənidir.

İlhami-sünuhat axıyor şe'ri-tərimdən,
Mən naşiri-vəhyəm, bu Məhəmməd dəhənidir.

## TƏAVÜN

Naili-bər olmaz insan qılmayınca bəzli-mal,
Siz təavün eyləyin, biz də qılaq kəsbi-kəmal.

Nəf verməz şəxsə istiqbalda övladi-vəsim,
Mənfəətbəxşaydır insanə bir qəlbi-səlim.

Calisi-təxti-maarif olmağa himmət gərək,
Pərvərişyabi-fünun olmaqlığa cövdət gərək.

Pərgüşayi-e'tila olmaqçın övladi-vətən,
Şəhpəri-himmət gərəkdir olsun, ey əhli-fətən.

Şurəzarə saçmayın toxmi-əməl, verməz səmər,
Kəştzarə danə saç, vaxtında bəxş etsin bəhər.

## CƏHALƏTİMDƏN ŞİKAYƏT

Varmı bundan yuxarı uçmağa iste'dadım?
Qabiliyyət pərimə zəxm vurub ustadım.

Oxumaqçın nə qədər dadü fəğan etdimsə,
Olmadı zərrə əsərbəxş şu istimdadım.

Dağa dersən eşidər, sonra verir əksi-səda,
Daşa dönmüşlərə əks eyləmədi fəryadım.

Olmadan naili-didari-əməl qəbrə girər –
Eşqi-Şirini-ülum ilə yazıq Fərhadım!

Acizəm tərcümeyi-halimi təhrirə, səbəb?
Doludur təlx həqaiqlə dili-naşadım.

Ey Hadiyi-qəmdidə! De şu bülbüli-zarə:
Cəh-cəh deyib axır düşər ağuşi-məzarə.

## BU DA BİR HƏQİQƏT

Aşiqi-sadiqləriz, pünhan deyil bürhanımız,
Kizbdən varəstə qalmış, şükr olsun, canımız.

İstəriz doğsun həqiqət, sədmeyi-əfkardən,
Bizcə məslək bu, bilinsin şöhreyi-ürfanımız!

Gecmi-tezmi, bilməm, amma haqq edər bir gün zühur,
Kəsbi-itmi'nan qılmışdır buna vicdanımız.

## ŞEYXLƏRƏ-İŞANLARA

Afərin olsun sənə, ey "filusuf"i-zifünun!
Pərvərişyabi-fününun zümreyi-layə qilun*.

Gəlsə ərbabi-zəka tə'lim üçün dərgahına,
Lövhi-idrakı olur qəlbin kimi zülmətnümun.

Rahbərmi, rahzənmi olduğun mə’lum ya,
Peyrəvani-məsləkindir firqeyi-layüflihun*.

Pək böyük sərvətlilər e’lani-iflas eylədi,
Layiqi-heyrət budur hala “və hüm layəş’ ürun”*.

Bunca aldandıq yetər, ey sevgili ixvanımız!
İştə ədvari-təyəqqüzdür “məta ma tərqüdun”*.

## SOFİYƏ-ZAHİDƏ

Sofi! Gəl öyrən həyatın tərzini heyvandən,
Dersən insanəm, fəqət bibəhrəsən ürfandən.

İştə, heyvan eyləyir tə’min istiqbalını,
Böylə heyvan məncə əbzəldir səbükməğzandən.

Adəmizadə mükərrəmdir fəqət idrak ilə,
Əfzəl olmazmı bəhaim dərksiz insandən?

Ey bəradər, aç gözün, qorxunc bir səhradəsən,
Hifz qıl əmvalını bu yol kəsən düzdandən.

Madəri-müşfiqmi sandın bu qənəm surətləri?
Ey quzum, şəfqət umulmaz gürgi-mərdümxardən.

Elmü ədəbdir şu zikrdən murad,
Səbheyi-səddanə çevirmək deyil.

Mə’niyi-Qur’ani düşünmək gərək,
Boş-boşuna ləfzini bilmək deyil.

## GÜL, SEVDİCİYİM, GÜL!

*Huri-hürriyyətə*

Dil istər ibtisamını, gül, ey nigar, gül!
Tərk eylə iğbirarını, ey işvəkar, gül!
Bir tərzi-dilrüba ilə, ey dilşikar, gül!

Üşşaqın intizardadır, nazlı yar, gül!
Qaldır hicabı, ey mələki-xüldzar, gül!

Etmə bu rütbə sətri-rüx, ey huriyi-cinan,
Sənsiz bu gün ağlayır ənzari-xakidan.
Bir gülməyinlə girყə cahandan olur nihan,
Ol ləbgüşayi-xəndə ki, gülsün zəmin, zaman.

Hər gülməyin min gül açar, ey bahar, gül!
Hər mənzərən min dil açar, ey nigar, gül!

Bilməm nədir üzündəki asari-iğbirar?
Ey qönçeyi-səbahət, açıl, olma pərdədar.
Çeşmi rəində, bağı-təmənnadədir həzar,
Bir bunca etmə qəlbi-həzari cərihədar.

Bülbül gözü yolundadır, ey gül'üzar, gül!
Güllər açar da, sən açıl, ey növbəhar, gül!

Aləm görürsə məst olacaqdır xuramını,
Həsrətkəşani-eşqinə sun vəsl camını,
Doldur bu cama badeyi-şövqü qəramını,
Çək tiği-intiqamını, al sonra kamını,

Ey afəti-zəmanə olan kamkar, gül!
Ləbriz oldu sağəri-səbr, ey nigar, gül!

Ərbabi-eşqə bunca sitəmlər rəvamıdır?
Hər dəmdə min cəfa çəkilir, ibtilamıdır?
Könlüm Hüseyn, ərzi-dilim Kərbəlamıdır?
Səncə cəfa, yoxsa ki, eyni-vəfamıdır?

Azadələr dimaninə ləbtəşnə yar, gül!
Ey hökmdari-təxti-cəfa, zülmkar, gül!

Çox dəymə, sevdiyim, dili-möhnətmədarıma,
Rəhm eylə kimsəsiz yaşayan qəlbi-zarıma,
Bir gün gəlir də zair olursan məzarıma,
Ağlarsan onda qəmli bu cismi-nəzarıma,

İndi inayət eylə mənə, ey nigar, gül!
Tərk eylə iğbirarını, ey işvəkar, gül!

Qəlbin nədir? Ahənü ya səngxarəmi?
Lütf eyləməzmisən bu dili-dabdarəmi?
Etmə xəraş dəsti-qürurunla yarəmi,
Bilməm bu həsrəti-dil aparsın məzarəmi?

Ey qönçeyi-əməl, fəmin aç, pürməsar gül!
Hürriyyətin baharıdır, ey növbahar, gül!

Tutmuş səhabələr üzünü nuri-mahımın,
Məndənmi münfəil dili ismətpənahımın?
Əvf istərəm də, nadimi oldum günahımın,
Bicamıdırmı hikməti fəryadü ahımın?

Əfv eylə cürmümü, ey inabətşüar, gül!
Ey könlümə mədari-təsəlli nigar, gül!

Rö'yada görsəm ər o behişti cəmalını,
Vermən həqiqətə bu vüsali-xəyalını,
Əlfazə sığmayır deyim ülvi məalını,
Gəl xəndəzarə, tərk elə bu infialını,

Ey fatehi-mülukəti-dil, şəhriyar, gül!
Üftadənə tərəhhüm et, ey şəhsüvar, gül!

Yoxdur təhəmmülü dili-zarın bu nazə, ah!
Oldu yolunda ömri-giranmayəmiz təbah,
Təqib edər şamı, təbii ki, bir səbah,
Ərzi-cəmali-xəndə qıl, ey nuri-intibah.

Gül, gül, a sevdiyim, yenə gül, pürməsar gül!
Tərk eylə iğbirarını, ey gül'üzar, gül!

## MƏHƏMMƏDƏLİ ŞAHIN QULAĞINA AZANİ-İNTİBAH

Səhneyi-İranı döndərdin bəla səhrasına,
Əzmü qəsd etdinmi "şahim!" mülkünün ifnasına?
Xanimanlar söndü, canlar yandı, viran oldu mülk,
Tiği-zülmü çəkmisən məzlumlar imhasına.
Gül, bu gün zülmünlə ənzari-ədalət ağlasın!
Müntəzir ol intiqamın rə'dvər fərdasına.
Fışqıran xuni-xuruşani-şəhidandır bu gün,
Sən də Dəqyanussan* hürriyyətin Yəhyasına.
Qafil olma, millətin nahəq qanından qıl həzər!
Tacü təxtin qərq olur axırda qan dəryasına.
Milləti bir seyli-izmehlal istiqbal edir,
Rəhm qıl İranzəminin cənnəti-rə'nasına.
Aləti-atəşfəşanla məclisi qıldın xərab!*
Böyləmi qeyrət edərlər millətin ehyasına?
Dövri-bidadi-Yezidi dərk qılsaydın əgər,
Ən böyük sərdar olardın Kərbəla davasına.
Eylədin ehraq nazəndə vətən gülzarını,
Çıxdın, ey qəddar, zülmün payeyi-balasına.
Ədli-İbrahimini, "şahim!", yaxırsan odlara,
Kibr sövq etmiş səni Nəmrudluq sövdasına.

## HÜBBİ-VƏTƏN

Xoşca tənzir etməyə övladi-millət halını,
Lövheyi-vicdanə təhrir et vətən amalını.
Mə'rifətpərvərlik olsa milləti-məzlumədə,
Qəbri-cəhl içrə qoyarmı millətin övladını?

## RÜFƏQADAN BİRİNİN MƏKTUBUNA YAZILAN MƏHƏBBƏTNAMƏDİR

Ey namə, sən ol kuyi-vəfadənmi gəlirsən?
Ey peyki-bəşarət, o səmadənmi gəlirsən?

Könlüm açılır namənə baxdıqca, a yarım,
Ləbrizi-sürur olmadadır qəlbi-figarım.

Məktubmudur, qönçəmidir bağí-vəfadən?
Güldür qoparılmış o çəmənzari-səfadən.

Əhsən, nə çiçək, nikhəti canbəxşi-rəvandır,
Övraqi-lətifanəsi vəcdavəri-candır.

Namən mənə təbşir ediyor sübhi-vüsalı,
Məs'ud olaram, ah, görərsəm şu cəmalı!

İştə sənə bir qönçeyi-naçizi cinanın,
Al, qoxla, təsəlli tapa qəmdidə rəvanın.

## HALIMIZ

Olsa dəryalar mürəkkəb, səfheyi-aləm kitab,
Xakdan əhli mühərrir, xamə olsa hər şəcər,
Hali-bədbəxtanəmiz şərhində acizdir qələm,
Bizdə yox elmü sənaye, mə'rifət, feyzü hünər.

## ƏQL

Cahanda əql misli varmı rəhbər?
Bəşər danişlə oldu kampərvər.

Edək dərpiş ənvari-hüdayi,
Bu mişkati-bəvariqintimayi.

Bəni-adəm bu feyzə oldu malik,
Odur ki, oldu məscudi-məlaik.

Təcəlla eylədi adəmdə fərhəng,
Odur ki, oldu zinətbəxşi-övrəng.

Nədir bu nur, nə bu feyzi-səmavi –
Ki, həstigahi olmuş cümlə havi?

## ŞÜUR

Kurluqdan nə yetər, aşiqi-nur olmalıyız,
Tərk edib səfsətəni, əhli-şüur olmalıyız.
Açaraq can gözünü eylə təmaşayi-cahan,
Laşüuranə yaşarsaq, bizə əfsus, ixvan!

## ZAVALLI KÖNLÜM

Xərababadi-qəmdir eşq ilə e’mar olan könlüm,
Yanır sevdayi-canan ilə atəşzar olan könlüm.

Duyurkən suzişin hərdəm bəlavü afəti-eşqin,
Yenə məftuni-sevdadır, yenə biar olan könlüm.

Nasıl tərk eyləsin sevdayı, səhhətyabi-sevdadır,
Həqiqət eşqi ilə daima bimar olan könlüm.

Sən uçduqca uç, ey dilbər, şu istiğna fəzasında!
Niyaz eylər sənə hər an nəvazişkar olan könlüm.

Səni dildən çıxarmam, məqbərəndir qəlbi-qəmnakim
Girər xakə səninlə mədfəni-əsrar olan könlüm!

Gəh ağlar, gəh gülər, gah oynayar əksi-cəmalinlə,
Tühəf bir tifldir, bax, mə’kəsi-rüxsar olan könlüm.

Çıxarmaq hiç qabilmi səni ayineyi-dildən?
Səfasi həp səninlə lövheyi-əkdar olan könlüm.

Səni gördükcə iqrar eyləyir xəllaqi-afaqə,
Sənə məczub olan ol ənfüsi-inkar olan könlüm.

Verər mərdanə can, bir zərrə atmaz izzəti-nəfsin,
Sənin çeşmində, ey hürum, həqirü xar olan könlüm.

# 1909

## TƏRANEYİ-ƏHRARANƏ

Cahan yeksər münəvvər oldu nuri-ədlü ra'fətdən,
Bizik məhrum olan yalnız bu feyzi-adəmiyyətdən,
Diriğa, müstəbidlər çəkməz əl hübbi-riyasətdən,
Cinayətdən, şəqavətdən, dənaətdən, zəlalətdən,
Usan, zalim, usan, əl çək qəsavətdən, ləcacətdən!
Qutar bu milləti-məzluməni qeydi-əsarətdən!

Əlindən və'deyi-ne'mətlə xəlqin alma vicdanın,
Xəzani-vəhşətə daldırma ünsiyyət gülüstanın,
Riyasətdən ötər tökdürmə məxluqi-xuda qanın,
Eşitməzsənmi, zalim, bivələr ahü əfğanın?!
Usan, zalim, usan, əl çək qəsavətdən, ləcacətdən!
Qutar bu milləti-məzluməni qeydi-əsarətdən!

Dili-əhrari sən sındırdığın peymanə döndərdin,
Ədalət və'dəsin qəlbindəki vicdanə döndərdin,
Vətən gülşənsərasin bir müğilistanə döndərdin,
Yetər, məzlumlar qəlbin cəfadən qanə döndərdin,
Usan, zalim, usan, əl çək qəsavətdən, ləcacətdən!
Qutar bu milləti-məzluməni qeydi-əsarətdən!

Xəyalın hübbi-cahü şanü şövkətdir əgər, bəsdir!
Muradın binəva məxluqə sətvətdir əgər, bəsdir!
Sənə mətlubi-mütləq mütləqiyyətdir əgər, bəsdir!
Qəsavətdir əgər bəsdir, ləcacətdir əgər, bəsdir!
Usan, zalim, usan, əl çək qəsavətdən, ləcacətdən!
Qutar bu milləti-məzluməni qeydi-əsarətdən!

Daş olmuşmu məgər qəlbin, yetər, bu zülmdən ar et!
Yetər məxluqə bunca e'tisafü zülmü azar et!
Qazandın nifrəti-aləm, utan, təğyiri-ətvar et,
Vətən viranəsin minbə'd gili-ədl ilə e'mar et!
Usan, zalim, usan, əl çək qəsavətdən, ləcacətdən!
Qutar bu millətі-məzluməni qeydi-əsarətdən!

Xəyal et, müstəbida! Öldürən millət, ölən millət!
Vətən viran, cəhalət xəsmi-can, məfqud əmniyyət,
Rəiyyət binəva, gün-gündən artar qətlü həm qarət,
Cəmi'-əhli-vicdan böylə halətdən edər nifrət.
Usan, zalim, usan, əl çək qəsavətdən, ləcacətdən!
Qutar bu millətі-məzluməni qeydi-əsarətdən!

Nədir dövlət, onun hifzində millət etməsə şirkət?
Nədir millət, himayə qılmasa hərgah ona dövlət?
Qalır zülmətdə hərgah olmasa ənvari-hürriyyət,
Nə hürriyyət? Siratül-müstəqimi-hifzi-milliyyət
Usan zalim, usan, əl çək qəsavətdən, ləcacətdən!
Qutar bu millətі-məzluməni qeydi-əsarətdən!

* * *

Biz vətən viranəsin ədl ilə abad istərik,
Seyli-ədl ilə binayi-zülmü bərbad istərik,
Millətin qəlbi-həzinin xürrəmü şad istərik,
Sevmərik qeydi-əsarət, xəlqi azad istərik,
Xəlqi azad istərik, qanunə münqad istərik.

Etmərik qanuni-şər'i-Əhmədidən inhiraf,
Vurmarıq biz yavəgulər tək əbəs lafü kəzaf,
Çünki var jəngi-qərəzdən qəlbimiz mir'ati-saf,
Ayrı bir məqsudəmiz yoxdur, ey əhli-e'tisaf,
Zülmə var ikrahımız, dad istərik, dad istərik.

Zülfi-xubantək əcəb olmuş pərişan halımız,
Vay əgər kim, halımız tək ola istiqbalımız,
Getdi əldən qəflət ilə şani-qaləl'alımız
Bu əsarətdir bizim əsbabi-izmehlalımız,
Saliki-gümgəştəyik biz, əhli-irşad istərik.

Ey qərəz əhli, usan əhrari təkfir etmədən,
Kelmeyi-hürriyyəti-əlhadi təfsir etmədən,
Ar qıl həqguləri tə'kidlə təkdir etmədən,
Məqsədin şəxsi qərəzdir bunca təzvir etmədən,
Biz qərəz əhlin onunçün tərdü ib'ad istərik.

Zülmdən gər əhli-istibdada sətvətdir qərəz,
Hübbü cahü həşmətü iqbalü şövkətdir qərəz,
Leyk biz əhrarə aləmdə ədalətdir qərəz,
Həm ədalət, həm müsavatü üxüvvətdir qərəz,
İnqiyadi-ədlə biz məxluqi mö'tad istərik.

Huri-hürriyyət, əya, məhbubi-şuxü dilşikar!
Bəsdürür qıldın niqabi-zülm içində istitar,
Yandı nari-hicrin ilə aşiqi-məftunü zar.
Aşiqin mə'şuq edərmi bunca əğyar içrə xar?
Canü dildən vəslini, ey şux, şəyyad istərik.

## ƏFKARİ-PƏRİŞAN, YA Kİ TƏRANEYİ-TƏHƏYYÜRANƏ

Bu dəhrdə ismi-bimüsəmma –
Hürriyyətü ədldir, müsavat.
Tə'mimine sə'y edər xəlaiq,
Aləmdə vücudu varmı? Heyhat!
Çox fərzi-məhaldır vücudi,
Sə'y ilə olurmu nəfyi isbat?
Madam zəmanədə qərəz var,

Mərdüm qərəzi edər müraat.
Əlbəttə məhalü mümtəne'dir –
İmkani-ədalətü müsavat.
Dünyanı qərəz verir fənayə,
Məxluqi qərəz salır bəlayə.

* * *

Madam qərəzə olur müraat,
Məxluqdə eyşü rahət olmaz.
Əhli-qərəzin şəqavətindən –
Övladi-vətən səlamət olmaz.
Əhli-qərəz olsa xəlqə rai,
Mər'ilər üçün rəfahət olmaz.
Gər əhli-qərəz kənarə olsa,
Bidadü cəfavü möhnət olmaz.
Hürriyyət olar o dəm nümayan,
Nə zülmü nə bir əsarət olmaz.
Azad olar xəlq dərdü qəmdən,
Təzyiqi-əsarətü sitəmdən.

* * *

Ey əhli-qərəz, utan, həya qıl!
Əl çək bu dəni ləcacətindən!
Bu milləti xarü zar qılma –
Qəlbində olan qəsavətindən!
Tökdürmə əbəs dimai-xəlqi –
Zatında olan şəqavətindən!
Bu milləti vermə gəl fənayə –
Bir hübbi-cəlalü şövkətindən!
Ey heykəli-şumü şülmü bidad!
Yoxmu xəbərin qəbahətindən?!
Sən afəti-mülkü millət oldun,
Müstövcibi-lə'nü nifrət oldun!

* * *

Hər mülkdə ədl ömr qılsa,
Məxrubə olur o yerdə tə’mir.
Gər sən kimi zalim olsa...
Mə’murə olur orada tədmir.
Vəhm eylə çəkib qılanda məzlum
Ahi-səhəri duayi-şəbgir;
Məzlum qədi-xəmidəsilə –
Hərgiz edəməz xəta atan tir.
Ə’malın edib təcəssüm axır –
Eylər səni şiri-qəhrə nəxcir!
Sən afətü fitneyi-cahansan,
Məxluqə bəlayi-nagəhansan!

* * *

Zülmü sitəmin salıbdı xəlqi –
Bir hali-təəssüf iştimalə –
Kim, xəlq, donar damarda qanı,
Salcaq qəmi-millətı xəyalə.
Vadar qılan deyilmisən sən!
Qardaş ilə qardaşı qitalə?
Sən hamiyi-mülkü millət olsan,
Uğrarmı vətən bu ixtilalə?
Sən peyrəvi-şəriət olsan,
İslam düşərmi böylə halə?
Məxluqi, – yetər bu zülmü bidad, –
Azad elə, ol özün də azad!

* * *

Bu ahü fəğanü dadü fəryad –
Daş qəlbinə eyləməzmi tə’sir?
Xoşdurmu sənə bu qətlü qarət,
Əşrar eləyən bu darü bu gir?
Zülmündən olur əzizlər xar,
Bilcümlə günahü cürmü təqsir

Məzlum qılanda şikvə ağaz,
Xəlqin də olur sözü girəhgir.
Ey hiylə ilə qəsavətində,
Həm gürgi-cavanü rubəhi-pir,
Ə'malın edər səni giriftar –
Axir qəmü dərdə, ey cəfakar!

* * *

İstərsən əgər bəqayi-mülkün,
Bu kibrü məniyyətindən əl çək!
Hürriyyəti bəxş edib ənamə,
Təzyiqi-əsarətindən əl çək!
Bir kimsə deməz sənə ki...
Gəl sən bu riyasətindən əl çək!

Qanun üzərinə qıl riyasət,
Dəhşətli siyasətindən əl çək,
Şurayə işin mühəvvəl eylə,
Əhrarə ədavətindən əl çək!
Ədl ilə ənamı dəstgir et,
Azad elə doğrudan əsir et.

* * *

İnsan nədi? Yə'ni qabili-üns.
Gər böylə isə nədir bu vəhşət?
Vəhşət nədi? Yə'ni zülmü icbar.
İcbar nə? Suyi-istifadət,
Məxluq ki, hürr xəlq olunmuş,
Etmək onu bəsteyi-əsarət,
Təhdid ilə etmək həqqi təhdid*,
Qoymaq sitəm adına ədalət,
Mə'sumlər üstə amir olmaq –
Hər zalümi dunü bikifayət.
Qıldıqca nəzər bu faciatə,
Nifrət eləyir könül həyatə.

## MƏŞRİQDƏN BİR SƏDA

Qaranlıqdan çəkək əl, gər ziyayi-nur lazımsa,
Edək dəryad əsayi-ictihadı Tur lazımsa.

Cəlali-elmi gör heybətnümadır ərzi-Məğribdə,
Cəmali-fənnə bax, bir çöhreyi-məftur lazımsa.

Qopur hürriyyət avazı bu gün vicdani-Məğribdən,
Ayıl, ey Şərq, dinlə, zümzümati-sur lazımsa!

Doğrudur afitabi-mə'rifət afaqi-Məğribdən,
Cahani-Şərqi seyr eylə şəbi-diycur lazımsa.

Nə yerdə bir xərabə varsa olmuş məskən islamə,
Edək kəsbi-məali laneyi-mə'mur lazımsa.

Fədakaranə iqdam etməli abadiyi-mülkə,
Əgər Avropaasa sizlərə "kultur" lazımsa.

Görək birlikdə iş tənviri-istiqbali-millətçin,
Nifaqı tərk edək şanü şükuhü zur lazımsa.

Nəzər qıl, diqqət et, öyrən həyatın əsl mə'nasın,
Həyatından sənin bir mətləbü mənzur lazımsa.

Xəyalından keçən "hur"i burax, xülyapərəst olma,
Həyatın cənnətdən al həqiqət hur lazımsa.

Həqiqətpərvəranə ərzi-rüxsar eylədi dildar,
Soyun, yax kisveyi-övhamı dil pürnur lazımsa.

Bütün əqvam üçün firdovsi-aləm surgah oldu,
Burax bu matəmi, gül, gül, sənə gər sur lazımsa!

Bu vəhşətlə sizi bərbad edər axırda istibdad,
Olun məftuni-hürriyyət, əgər cümhur lazımsa.

Əcanib mülki-nasutə kəsildi hakimi-qahir,
Bu gün islamı seyr et, xadimi-məqhur lazımsa.

Bu gün islamı görməkçin dur, ey Adəm, məzarından,
Qucaqla, bağrına bas, naxələf bir pur lazımsa!

Təcəssüm eyləsəydi maziyi-müzlim bu halətdə,
Görərdi Şərqi zülmət, halımız binur, lazımsa.

Qaranlıqdır vətən, bir gül, açıl, ey fəcri-hürriyyət,
Zəmini-Məşriqə nəşri-ziya qıl nur lazımsa!

* * *

Dalıb cəmiyyəti-xatirlə bu ümmani-imkanə,
Çıxar, qə'rində çoxdur lö'löyi-mənsur lazımsa.

Bişir, hazırlanır əqvatımız dəsti-təbiətlə,
Qida tənnuridir dünya, bizə tənnur lazımsa.

Gözəl bir istifadə etməli gəncinədir aləm,
Ədibi-əqldən dərs al, əgər düstur lazımsa.

## EYDİYANƏ

Gəl, ey bəhari-təcəddüd, güzər qıl İranə,
Nigahi-həsrəti fırlat da bu gülüstanə.

Sənə nə hacəti var, ey bahar, İranın,
Şükufələr bitirir qanları şəhidanın.

Get özgə yerlərə ağla, bura nə lazım ab,
Yetimlər gözü bu gülşənə tökür xunab.

Get özgə bağlara ağla, sən ey səhabi-bahar,
Burada şiyvən üçün dul qalan qadınlar var.

Bu göydə bərqini parlatma, ey səhabi-səma,
Bu yerdə parlayır atəşli ahü vaveyla.

Əbəs-əbəs bu cahanlarda nə’rə vurma, səma!
Mücahidini-həqiqət onu edirlər əda.

## BARİQEYİ-ZƏFƏR PARLAYIR, İSTİQBAL BİZİMDİR

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət,
Mücahidlər, vətəndə eyləyin tənşiri-hürriyyət,
Gəlir ol gün ki, etsin sizləri təbşir hürriyyət,
O dəm yaxlaşdı qılsın milləti tənvir hürriyyət.

Girizandır vətəndən iştə leyla-leyli-istibdad,
Ədalət qəhqəhəəfşan, məsərrət ağlayır bidad.
Livaülhəmd nüsrətdir sizinçün rəhbəri-irşad,
Nümayan üfqi-istiqbaldən ümmid, olun dilşad,
Dilim sevdayi-hürriyyətlə eylər nəğmələr inşad.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Bu gün tiği-rəşadət xiyrəsazi-çeşmi-imkandır,
Bu gün əqvami-Qərbiyyə nigəhəndazi-İrandır.
Bu gün Məşriq-zəmində şəmsi-hürriyyət dirəxşandır,
Bu heyrətbəxş qeyrət calibi-ülviyyətü şandır,
O Fir’oni-zəmanın son məkanı Nili-xüsrandır.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Mücahidlər, sizi alqışlar ərvahi şəhidanın,
Mübarizlər, sizə dai lasanı əhli-vicdanın,
Həqiqət etdiniz bala şükuhun mülki-İranın,
Qülubu lərzədari-xövfdür vicdansız ə’danın,
Düçari-yə’sdir ləşkərkeşi-Şəddadı Tehranın*.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Bu gün səhrayi-İran sanki bir atəşli meydandır,
Deyil atəşli meydan, bəlkə xunəfşan vulkandır,
Dönüb bir məhşəri-əcsadə, səhralər bütün qandır,
Tərəfdarani-hürriyyət şəhidi-rahi-canandır,
Kəsilmiş yer-yer, iştə Kə'beyi-millətdə qurbandır.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Nə mümkün kəsmək olsun rahını seyli-xüruşanın,
Nə qabil pərdələndirmək üzün xurşidi-rəxşanın?
O kim, pozmaq dilər ehkamını qanuni-dövranın,
Atar xilqət onu ə'maqına ümmani-nisyanın,
Gül iqbal, gül, gül rəğminə mazipərəstanın!
Təlalö' eylə, kur olsun gözü zülmətpəsəndanın!

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Nə Eynüddövlə, min-min böylə nurüleyni-istibdad,
Buyursun gəlsin, istər kəndi gəlsin ol böyük bidad,
Tamaşa eyləsin, görsün də ə'vanın bütün bərbad,
Gəlir bir gün ki, cəlladın olur şəmşirin, ey cəllad!
Gəl ey fərdayi-hürriyyət, bizi mənfadən et azad!

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Bir istiqbalə bax, "şahim" gələn var, intiqamındır,
Batır "xurşidi-şiranə"n*, çıxan zülmətli şamındır,
Öləndən son yerində lə'nlər qaimməqamındır,
Gözəl xeyrülxələf qoydun, yaşa, şayani-namındır,
"Şəha!" Lə'nətlə yad olmaq sənin ən son məramındır.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Cəmali-həqqə, ey qatil, nasıl səlli-hücam etdin,
Ərusi-ədli nakam eylədin, zülmü bəkam etdin,
Ədalətdən əlavə hər nə iş varsa təmam etdin,
O pak insanlığı sən ləkkədari-ittiham etdin,
"Zülami-zülmü parlatdım" – dedin də, fikri-xam etdin,
Ziyayi-həqq sönməz, kəndini mənfuri-amm etdin.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Əvət, misbahi-hürriyyət deyildir qabili-itfa,
Yazıq, çox püflədin sən, püflədikcə oldu pərtövza,
Dirəxti-zəhməti-sə'yin səmərbəxş olmadı heyfa,
Bu sə'yi-bisəmərdan bir səmər qaldı sənə, "şaha":
O da bir nifrəti-millətdi qaldı "kaffətən tərra",
Budur məhsulu ərzi-fitrətin, əkl et, sitəmkara!

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Ağarmaqda, "şəha", dan, mətlə'i-amal tabandır,
Doğur ümmid nuru, zilli-məmdudun girizandır,
Mükafati-əməl Düldülsəvar olmuş şitabandır,
Həvariyyuni*-istibdadın, ey bidad, lərzandır,
Qaranlıq niyyətin mədfuni-hiçistani-hirmandır.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

"Şəha", bərqi-zəfər parlar, fəzayi-ədl olur bərraq.
Düşər qə'ri-zülamə mazi, istiqbal olur parlaq,
Niqabın qaldırır tale, təcəlliza olur afaq,
Səvadülvəchlik qaldı sənə, rüxsari-millət ağ,
Silib ənzarını tabişgəhi-hürriyyətə bax, bax!

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Gəlir mə'şuqeyi-millət, "şəha", bir bax, nə xəndandır!
Gül, ey dildar! Müştaqi-cəmalın giryəəfşandır,
Səni candan sevənlər küşteyi-şəmşiri-üdvandır,
Yolunda şanlı can vermək, ey afət, ən böyük şandır,
Nəzər qıl məqtələ, yer-yer kəsilmiş nazlı qurbandır,
Bir az damənkeş ol, üstün batar, yollar bütün qandır.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Bu qanlar kim, tökülmüş, ey sənəm, zənn etmə bicadır –
Ki, hər bir damcısından mahəsəl min vərdi-rə'nadır,
O güllər kim, çıxar yerdən, neçin övraqı həmradır?
Birər tarixi-xunini-vətəndir, hörmətəfzadır,
Çiçəklər ləfzi-atəşrəng, ruhu qanlı mə'nadır.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

O quşlar kim, vətəndə eyləyirlər atəşin fəryad,
Nədir ol naleyi-möhriq, nədir bu ahü istimdad?
Təzəllümlər, təəllümlərdir onlar, dinlə, ey bidad!
Birər fəryad şəklində edirlər lə'nlər inşad,
Qırılsın pənceyi-zülmün sənin, ey qırmızı cəllad!
Əsir etsin səni Səttar, qılsın bizləri azad.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Utan alçaq, utan alçaq, utan bir Babi-alidən,
Utan, bir dərsi-ibrət al da ərbabi-məalidən,
Neçin bipayə qalsın şəmsiyan qövmi-hilalidən.
Nə nöqsan var sənə, "şaha", kəmalati-əhalidən?
Sən əl çək, millət əl çəkməz füyuzati-təalidən!

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Bir az əvvəl təşəbbüs et bu cövri-xanimansuzə,
Qaranlıq tab qılmaz aftabi-aləməfruzə,
Nasıl kim, əski gün məğlub olur novruzi-firuzə,
Yazılmış dəsti-xilqətlə bu sözlər lövhi-məhfuzə:
Qiyas olmaz keçən il tazələnmiş sali-novruzə,
Alınmaz dəsti-mazidən yəqin əyyami-məqbuzə,
Bir az da diqqət et, "şahim", bu əş'ari-diləfruzə:

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Cəfa tiğilə kəsdin başları, öldürdün əhrarı,
Qaranlıq torpağa gömdün işıqlı, parlaq əxyarı,
Xəyal etdin ki, söndürdün yanan atəşli əfkarı,
Nə mümkündür ki, zülmün söndürə ərvahi-nəvvarı?
Tutar bir gün yaxandan, qafil olma, qəhri-Səttari!

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Qırılsın dəsti-xunkarın, vətənpərvərləri qırdın,
Behişti-mülkdə növxiz olan əzharı soldurdun,
Vücudi-milləti örtən libasi-irzi soydurdun,
Boşaltdın ölkəni, yer altını canlarla doldurdun,
Yazıqlar, kimsəsizlər qaldı ac, əşrarı doydurdun,
Yəmin etdin yalandan, ey yalançı, sonra sındırdın,
Nasıl qıydın, a zalım, cilvəgahi-ədli yaxdırdın?

Bəhəqq, şad qıldın ruhunu həccacü Çingizin.
Qazıldı lövheyi-afaqə nami-lə'nətəngizin,
Yazıldı ənfüsə çirkin adın, əsri-qəmamizin,
Yayıldı aləmə, cani, sənin ünvani-xunrizin,
İgidliklə nasıl kim, adları şirani-Təbrizin.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Kəfənbərduş olub çıxsa, məzarə gömdüyün əfrad,
Yalandırmı desəm, İran olurdu məhşəri-əcsad!
O dil ki, səndə var, “şaha”, bu görnüşdən olurdun şad,
Nə səngin qəlbdir, keçməz ona can yandıran fəryad?!
Nə cövhərdən yaranmışsan, səni bilsəydim, ey bidad!
Ürəklər ağladıqca könlün olmaqda sürurabad.
Nə bir məxluqi-vəhşisən ki, hər dəm vəhşətin müzdad?!
Cahanın qanın içdin, doymadın, ey divi-istibdad!

Səni məhv eyləməzmi aqibət bir şiri-hürriyyət?
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Əcəb dünyada ad qoydun! Nə ad, şayani-zatındır,
Qoyaq ədli kənarə, hər nə qaldısa sifatındır,
Sitəm bir meyveyi-zəqqum, məhsuli-həyatındır,
Həyati-mülkü millət bəsteyi-ruzi-məmatındır,
Səni iğfal edən ancaq həyati-bisəbatındır.

Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət.

Silinməz silmək ilə ruhdən ayati-hürriyyət,
Təbiətlə yaşar, ölməz lədünniyyati-hürriyyət,
Nə rütbə püfləsən sönməz, yanar mişkati-hürriyyət,
Qırılmaz səngi-istibdad ilə mir’ati-hürriyyət,
Yıxılmaz tişeyi-zülm ilə tə’mirati-hürriyyət.
Təravətyab olur, rövnəqlənir cənnati-hürriyyət,
O gün yaxlaşdı çıxsın pərdədən hurati-hürriyyət.

Nasıl çıxmış qanından parlayır şəmşiri-hürriyyət,
Qılıncınla yaşa, minlər yaşa, ey şiri-hürriyyət!

Çox “insanlar” nuru söndürüm derkən özü söndü,
O “Yıldız köşgü”* sabit durdu, durdu, sonra tərpəndi,

Düşündü, batilül-məsləkliyin fəhm etdi, öyrəndi,
Bax ol Əbdülhəmidə, şahrahi-Ənvərə döndü,
Niyazidən riza aldı, cəmaati sevindirdi,
Çoxu zatin kimi tacü səririə baxdı yelləndi,
Fəqət çox çəkmədi bədbəxt təxtindən diyirləndi.
Ədalət tiğinə tabavər olmaz qəlbi-istibdad,
Xəbərdar ol ki, sarsılmaqdadır bünyadın, ey bidad.

Onu bir bilsə idim zülmdən ləzzət nədir, zalım?!
Rəiyyət zillətindən baş verən izzət nədir, zalım?!
Vətən bərbad olandan son nədir dövlət, zalım?!
Pərişan oldu millət, söylə cəmiyyət nədir, zalım?!
Neçin bir qanmayırsan isməti-millət nədir, zalım?!
Vətən ismətsiz oldu, səncə bir qeyrət nədir, zalım?!
Bir az da anlasaydın ruhi-hürriyyət nədir, zalım?!

Sən istər anlama, millətdə vardır ruhi-hürriyyət,
Batan zülmün, çıxar xurşid elində yuhi-hürriyyət.

Nə xunaşamsan, qatil, nə xunaşamsan, cani?!
Cihadə sövq qıldın axır asayişpərəstani.
Xəyalın bəhri-xun yapmaqmıdır səhrayi-İrani?
Açıl, ey intiqamın fəcri-xuninü dirəxşani!
Bunu mə'yus qıl, güldür dili-ümmidvarani,
Bunu qəhr eylə, şad et yarələnmiş zəxmdarani,
Cəsarətləndi tülkü – şirdən boş gördü meydani.

Odur ki, nə'rələr yağdırmada mərdani-hürriyyət,
Hücumavər bu gün rubəhlərə şirani-hürriyyət.

## İŞIQ VƏ TƏZƏ ALƏM

Bağı-vətənə axmada mizabi-təcəddüd,
Canbəxş oluyor qönçələrə abi-təcəddüd.
Bir başqa gözəllik duyulur əski cahanda,
Vicdan çiçəyin güldürüyor tabi-təcəddüd

Bu gülləri təhqir qılan xar olacaqdır,
Ehraz edəcək izzəti ərbabi-təcəddüd.
Parlatmadı sağlıqda dili-əhli-ləyali,
Öldükdə qonar qəbrinə şəbtabi-təcəddüd.
Bir bakirə qızdır, qocalan ərlərə varmaz,
Kəndisi kimi gənc arayar şabi-təcəddüd.
Maziyi-mücəssəmlərə verməkdə cəfayi,
Hal əhlini etməkdə səfayib təcəddüd.
Qayətdə məhabətli gəlir, qərq edəcəkdir –
Qə'ri-ədəmə xəsləri seylabi-təcəddüd.
Qəvvaslığı bilməyəni qərqə mühəyya,
Pərvasız uçar səthdə mürğabi-təcəddüd.
Əmvaci-ziyadır, udur əfvaci-zülami,
Etməkdə bunu əhlinə işrab təcəddüd.
Tə'til qılıb çərxini gərduneyi-təcəddüd
İrca'i-nəzər eylə, olub maziyi-müzlim,
Gördünmü onu, eylədi bitab təcəddüd?
Mərhumə birər fatihə göndərməli artıq,
Ölmüş o, yaşa sən də, ey əhbabi-təcəddüd!
Hal əhli biziz, zadeyi-müstəqbələ qibtə,
Gündən-günə parlaq doğar ənsabi-təcəddüd.
Tə'tili-vəzaif edir irqi-mütfəsad,
Təhriki-qüva etmədə ə'sabi-təcəddüd.
Mazi ki, cəhənnəm idi, bağlandı qapısı,
Cənnətlər açılmış, bax, odur babi-təcəddüd.
Ey gülşəni-hürriyyətə müştaq olan insan,
Mazini itir, istəmə, dəryab təcəddüd.
Dur, müştəri ol gövhərrəxşani-nəvinə,
Aya nədir o?! Gövəri-nayabi-təcəddüd.
Hər millətə bu Şövkəti bəxş etdi şəci'an,
Ənvərdir olan millətə vəhhabi-təcəddüd.
Naqis dilədi söndürə müşkati-Kəmali*,
Yandırdı, kül etdi onu ilhabi-təcəddüd.
Son damla qanın tökdürəcək, verməyəcəkdi –
Bu dilbəri-gülçöhrəni əhzabi-təcəddüd.
Tərzi-kühən ilə nəyə lazım bu oyaqlıq,
İzzətlə uyub görməlidir xabi-təcəddüd.

Məşhərlərə zinət veriyor əksi-Niyazi*,
Nə çöhreyi-Ənvər yağıyor abi-təcəddüd.
Rüxsarına düşmüş dilinin əksi-ziyasi,
Cəzzabi-nəzərdir üluləlbabi-təcəddüd.
Nazəndə ziyalar uçuyor nasiyəsindən,
Nurlandırıyor gözləri mehtabi-təcəddüd.
Ənzarə ziya sərpiyor ol nuri-mücəssəm,
Oxşar ürəyi lövheyi-cəzzabi-təcəddüd.
Səndən də gözəldir, səhərim, ruyi-həqiqət.
Şahidmi? Şu simayi-cahantabi-təcəddüd.
Səndən də işıqdır, qəmərim, şəmsi-məhəbbət,
Minlər yaşa, ey ədl, müsavat, üxüvvət!

*16 may*

## ƏZİZ DOSTUM!

İki şey yarı yardan ayırar:
Birisi mövtdür, biri hicran.
Məni səndən ayırsa da dövran,
Əsərim səndə yadigar qalar.

Ətfi-çeşm eylədikcə surətimə,
Duyacaqsan dilində zövqü əza,
İstərəm mən də ki, xəyali-Riza –
Mədfən olsun mənim həqiqətimə.

*29 may*

## DİLƏNÇİ

Götürüm bir səfili-cadənişin,
Bürümüş çöhrəsin zilali-məlal,
Yazılıb çeşminə məali-süal,
Bu da bir şeirdir müfadi həzin.

* * *

Sürünür şil ayaq ilə bazarı,
Nə rəzil ömr, nə həyati-səfil!
Yaşayır cism əlil,.. ruh zəlil,
Yaşamaqdır bunun da azarı.

* * *

İstəyir kəndini keçindirsin,
Hər keçən daşürəklərə baxıyor,
Büzüyor vəchini və yalvarıyor,
Bəlkə onlar bunu sevindirsin.

* * *

Bu da bir qəmli şe’ri-xilqətdir,
Şairi boylə eyləmiş inşad,
Bə’zi şe’ri-həzin, bə’zisi şad,
İştə qabliyyəti-təbiətdir.

* * *

Gər bu isə həyat, ölmək xoş!
Şanlı ölmək gözəl deyilmi? Bəli.
Vardır amma bunun da bir əməli,
Yaşasın kiseyi-süal bəduş.

* * *

Nə şirinsən!.. Nə dadlısan, a həyat!
Kimsə əl çəkmək istəmir səndən,
Qorxuyor zihəyat mədfəndən.
Nə acı, təlxsən, a cami-məmat!

## ƏMƏLİ-MÜXƏYYƏL

Ey bağı-əməl, açıl, bahar ol,
Ey sevgili qönçə, xəndədar ol!
Çıx pərdədən ərz qıl cəmalın,
Gülsün bizə cöhreyi-kəmalın.
Şəhbali-xəyal uçur fəzani,
Ta seyd eləsin o dilfəzani.

* * *

Nədir şu və'di-əkazib ki, aldadır bəşəri?
Nədir bu leyli-əməl, parlamaz bunun səhəri?
Əməl, o və'di-müxəyyəl, ənisi-fikrətdir,
Xəyal zənn ediyor kim, o bir həqiqətdir.
Əməl, əməl, a müdeyyir bədiəgahi-cahan –
Ki, sənsən iştə təsəllikünəndeyi-insan.
Sən olmasan nəyə lazım həyati-bimə'na?
Səninlə görmədəyiz həp şirin-şirin rö'ya.
Sən olmasan, bu əvalim məzardır bəşərə –
Ki, sənsən iştə vəsait bütün bu xeyrü şərə.
Ümid olmasa, insan yaşarmı dünyada?
Gəzər ümidi-məali səmayi-xülyada.
Misali-kövkəbi-rəxşan bədi'eyi-amal,
Həqiqəti-bəşəriyyətdə nurbəxş xəyal.
Bu hay-huyi-rəqabət, bu mövci-cuşacuş,
Cahani-xilqəti sarsır, əməl baxar xamuş.
Deyilmi qönçeyi-ümmid gördüyün güllər?!
Ümidə qarşı nəğəmsazdır o bülbüllər.
Deyilmi meyveyi-ümmid ənfəsi-asar?
Cahani-Qərbdə işraq edib nasıl parlar!
Səninlə dillər olur daima təsəllisaz,
Nə dilfiribsən, ey dilbəri-xəyalnəvaz!

## ALİHEYİ-HÜRRİYYƏTƏ!

Bir qaranlıq gecəydi, tutmuş idi –
Vətənin, millətin səhərlərini,
Qoymayırdı görünsün əxtərini,
O qaranlıq ziyani udmuş idi.

* * *

Göz-gözü görməyirdi, müzlim idi,
Vətənin sübhə bənzər əndami,
Solğun idi cəmali-gülfami,
Qucağı növhəzari-matəm idi.

* * *

Birdən əsdi nəsimi-canbəxşa,
Tarümar eylədi səhabləri,
Şö'ləlləndirdi afitabləri,
İnqilab, təcəddüdünlə yaşa!

* * *

Üfüqi-haldən təbəssüm edən –
Nədir o şə'şə'ati-hürriyyət?
Parla, ey bariqati-hürriyyət,
Parlasın zülmətə qünudə vətən!

* * *

Gözümüz ağlayırdı sən güləsən!
Nə qədər göstərirdin istiğna!
Füqərani bəyənməz əhli-qina,
Sən də məğrureyi-qinami, nəsən?

* * *

Əcəba ağlamazmıdın, gözəlim,
Görmüş olsaydın ol şəhidanı,
Uğurunda axan qızıl qanı,
Bir qızarmazdımı üzün, a gülüm?

* * *

Ən böyük müstəbiddsən cana,
Qırdırırsan günahsız əhrarı,
Əşkbar eyləyirsən ənzarı,
Rəhminə afərin, həzar səna!

* * *

Bu qədər matəm eylədi millət,
Şimdi də gülmək istəyir könli,
Var vüsali-həqiqətə meyli,
Olma bais fəraqə, ey afət!

* * *

Əsiyor dillərə nəsimi-həyat,
Bağizari-xəyali güldürüyor,
Fikrinə tazə ruhlər veriyor,
Dirilir kainati-hissiyyat.

* * *

Gülüşünlə gülür əməl çiçəyi,
Millətin çöhrəsi olur xəndan,
Yolunu gözləyirdi müştaqan,
Göydə idinmi, ey yerin mələyi?

* * *

Yüksəlir fikirlər "hilal" kimi,
"Şirü xurşid" şö'lədari-zəfər,
Millət olduqca nurinə məzhər,
Müstəbiddan qaçır zilal kimi.

* * *

Sənə qarşı əgərçi çox hürüyor,
Mahparəm, kilabi-istibdad,
Onlar etdikcə hürməyin müzdad –
Milləti nuri-təl'ətin bürüyor.

* * *

Sən qədəm qoyduğun xərabə zəmin.
Mədəniyyətlə şən olur, abad,
O zəminlər, o mülklər, o bilad –
Oluyor feyzin ilə xüldi-bərin.

* * *

Rəhgüzarında parlayır imran,
Şəhpərindən həyatlər süzülür.
Nəğəmatınla mürdələr dirilir,
Bir mücəssəm həyat olur o cahan.

* * *

Hanki Tur olsa mə'kəsi-nurun,
Dəlinir pərtövünlə sinələri,
Çıxıyor ortaya xəzinələri,
Kaşifisən künuzi-məsturun.

* * *

Səsinə səs verən dirilmişdir,
Nəğməzadır lisani-hürriyyət,
Pürsədadır cahani-hürriyyət,
Qulağa almayanlar ölmüşdür.

## MƏHBUBEYİ-RUH – MƏNFUREYİ-RUH VƏ MÜKALİMƏLƏRİ

M ə h b u b e y i - r u h

Fitrətən mən sevimli bir gözələm,
Baxışım ruhu cilvədar ediyor,
Gülüşüm qəlbi xəndəbar ediyor,
Ruh üçün iştə qayeyi-əməl əm.

M ə n f u r e y i - r u h

Fitrətən gərçi mən də mənfurəm,
Süslərəm kəndimi, bəzəndirərəm,
Məğzsizlərə çox bəyəndirərəm –
Özümü, söylərəm ki, mən hurəm.

M ə h b u b e y i - r u h

(Məsxərəamiz bir təbəssümlə)
Ah, bədbəxt məxluq!
Arizi rənglər müvəqqətidir,
Rəng odur bəxşişi-təbiət ola,
Cövhəri-abdari-qüdrət ola.
Bu gühər calibi-məhəbbətdir.

M ə n f u r e y i-r u h

(Əsafili-nisvanə məxsus iyrənc, dadsız
və qeyri-təbii bir qəhqəhə ilə)
Sənə məyyal olan beş-onsa belə –
Bu zəmini-zülampərvərdə,
Gəl təmaşayə, gör də hər yerdə –
Mənə aşiqlər iştə minlər ilə.

M ə h b u b e y i-r u h

Yəqin bil və inan!
Sürəməz çox bu şanü daratın,
Hali-hazır olur düçari-zəval,
Parlayar vəchi-paki-istiqbal,
Kəfənindir sonunda zülmatın.

M ə n f u r e y i-r u h

Hali-hazırda hökmdar mənəm,
Mənə lazım deyildir istiqbal,
Edəməm mən səbahi böylə xəyal,
İşbu günlərdə kamkar mənəm.

M ə h b u b e y i-r u h

Ey qaranlıqdan istifadə edən,
Çıxacaq sübhlər, nəhar olacaq,
Lə'nlərdən sənə məzar olacaq,
Ey olan ləkkeyi-cəmali-vətən.

M ə n f u r e y i-r u h

Ən qaranlıq könüllər iştə mənə –
Şimdilik bir məzari-rəhmətdir,
O könül kim, ziyali türbətdir,
Olsun o qəlblər məzar sənə!

M ə h b u b e y i-r u h

Lə'nətin caygiri-vicdandır,
Kəsb qıldın böyük-böyük nifrət,
Lə'nlərdən alırmısan ləzzət?!
İştə al, lə'nlər həzarandır!

L i s a n i-i l h a m

Həqqə tabavər olmadı batil,
Olamaz ta ki var cahani-vücud
Həqq olur calisi-səriri-xülud,
Batil eylər həyatini tə'til.
Ey müariz, nəzər qıl əfaqə!
Səfhəsində şu söz mühərrərdir:
Əbədiyyən ziya müəmmərdir!
Ey siyəh, bax şu lövhi-bərraqə.

## SƏHNEYİ-MÜBARİZEYİ-HƏYATDA ŞANLI İNSANLAR

Girdbadi-həyat önündə bəşər,
Müttəsil, mütəssil digirləniyor,
Düşüyor, qalxıyor, sürükləniyor...
Fitrətin qüvvətilə pəncələşər.

* * *

Atılıbdır, zavallı tək duruyor
Duşi-ömründə bari-qəhri-həyat,
Var məişət yolunda min əqəbat,
Qoşuyor, atlayor, yuvarlanıyor.

* * *

Çıxıyor rahi-əzminə dağlar,
Gah coşqun, məxof bir dərya.
Qə'ri müzlim, kənarı-napeyda,
Sərbəduşi-xəyal olur, ağlar.

* * *

Qoşuyordu bu bir həqiqət üçün,
Yə'ni bir arizuyi dərdəstə –
Uçuyordu peyində peyvəstə.
Şu məvane' kəsir yolun nə üçün?

* * *

Yari-amal üçün gedirdi, vəli
Kəsiyor yə'slər bunun yolunu,
Qırıyorlar ümidinin qolunu.
Tərk qılsınmı şanlı bir əməli?

* * *

Ağlayır, ağlayır, cihata baxar –
Görmək üçün məşaili-irşad,
Guşi mövquf seyheyi-imdad.
Ah! Yer-göy bütün sükunətzar.

* * *

Zəhrəçak etməsinmi insani
Bu sükuti-əmiqeyi-fitrət?
Məşrəbi-laübaliyi-xilqət
Böylədir, yox lisani-ə'lani.

* * *

Qət'i-ümmid edəndə hər yerdən –
Başqa imdadə e'timad edəməz,
Fikri-mövhumə istinad edəməz,
İstər irşadi əqli-ənvərdən.

* * *

İştə əzmində qəhrəman insan –
Anlar övhamdan səmər yoxdur,
Əqldən başqa rahbər yoxdur,
Rahi-amalına olur puyan.

* * *

Daha çıxsın dilərsə min əqəbat, –
Aldırırmı? Uçar xəyal kimi.
Önündə əməl,
Yə'si dalda qoyar zilal kimi,
Böylə millət olur səzayi-həyat.

## QANUNİ-TƏKAMÜL

*Pillə-pillə rəftə bayəd suyi-bam,*
*Həst cəbr budən inca təb'i-xam*.*

***Mollayi-Rumi****

Xilqətin ənfüsi-ləyalından –
Açılır sübhrəng nikafaq,
Çöhrəsində kəvakibi-bərraq,
Süzülür nurlar hilalından.

* * *

Kainat kəmalə doğru rəvan,
Bugünündən sabahı kamildir.
Pilleyi-e'tilaya maildir,
Xətveyi-latənahiyi-imkan.

* * *

Yürüyor, daima yürür iləri,
Xarü xəslər zəbuni-sətvətdir,
Qərqi-seylabeyi-məhabətdir.
Seyli-cuşan dönərmi hiç geri?!

* * *

Maziyü hal, bir də istiqbal –
Nə qədər fərq var? Cahan-cahan!
Bu həqiqət durur nəzərdə əyan, –
Edilirsə mühəqqiqanə xəyal.

* * *

Ruzlər, ruznameyi-əxbar,
Bir vərəqdir şüuni-dünyadən,
Yoxdur əxbar hali-fərdadən,
Gör müxabir yarın nə der əş'ar!

Əzəliyyətdən ayrılıb qoşuyor,
Əbədiyyət tərəf həyat seli,
Cərəyandır təbiətin əməli,
Axıyor, sakin olmuyor, coşuyor.

* * *

Cərəyani-təbiətə qoşulan –
İrişir sahili-nicatə, əvət!
Yolunu kəsmək istəyən bədbəxt –
Oluyor məhv, iştə: məşriqiyan!

* * *

Ayılıb çıx məzari-qəflətdən,
Məhşəri-kainatı seyr eylə,
Nəəmati-həyati seyr eylə,
Hissədar ol behişti-fitrətdən!

* * *

İxtiyar olmuyor, cavanlanıyor –
Madəri-saldideyi-əzəli,
Yaşamaqdır iləlәbəd əməli,
Hər zaman arizusu canlanıyor.

*12 sentyabr*

## YA LEYL!

Ziynət verir əndamına min nəcmü qəmərlər,
Tənvir edir afaqını tabəndə səhərlər,

Ağuşi-siyahında yürür bədri-münəvvər,
Ətrafına səf-səf düzülüb nəcmi-müzəhhər,

Rüxsarını kövkəblər edirlər necə tənvir,
Məs'udların taleyini qılmada təsvir.

Nazəndəvü bazəndəvü lərzəndə ziyalər,
Tabəndə, dirəxşəndə, füruzəndə sühalər.

Doğmazsa günəş, ay, doğüyor nurlu kövkəb,
Ey lövheyi-ülviyyə və ey səhni-mükövkəb,

Tutmuş bu qədər pərtövü ağuşi-siyahın,
Bərqin, günəşin, sübhlərin, əncümü mahın,

Məşriqlilərin qoynu dolu doğmada ənvar,
Məğriblilərin qoynu dolu şəmsi-ziyadar.

Sən leyl deyil, cilvəgəhi-nurü ziyasən,
Leylayi-həqiqət kimi sən didərübasən.

Sevdazədə dilbər sənə məftun deyilmi?
Leyla arayanlar sənə Məcnun Deyilmi?

Müzlim denilirmi sənə, ey valideyi-nur?
Kövkəblərinin hər biri bir tərzdə məftur.

Məhrumi-ziya olmaz isə dideyi-idrak,
Övraqi-fünundur bu kütübxaneyi-əflak.

Hər səfhəsi bir lövhi-füyuzatnümadır,
Bizlərdə fəqət dideyi-idrak əmadır.

Əcrami-səmaviyyə, o əlvahi-ziyadar, –
Ya leyl, edirlər səni tabişgəhi-ənvar.

Məşşatələrindir sənin ayati-təbiət,
Pirayələrindir o füyuzati-həqiqət.

Zülmətləri ehraq edən ənvarlərin var,
Qəlbində müəlləq duran əqmarlərin var.

Zülmətli könüllər kimi binur deyilsən,
Bədbəxt Qəmərlər kimi məstur deyilsən.

Var ləm'ələrin, müzlimü diycur deyilsən,
Zülmətgədeyi-cəhldə məqhur deyilsən.

Ey leyleyi-qəmranə, dilarə dürərin var,
Mehpareyi-hürriyyətə bənzər qəmərin var!

Mən neyləyim, eyvah, ziyalı pədərim yox,
Əfkarımı parlatdıracaq bir Qəmərim yox.

Təhsili-füyuz etmədim əfkari-pədərdən,
Düşdüm bu qaranlıqlara rüxsari-Qəmərdən.

Ey leyl, xəyal etmə ki, bir səndə Qəmər var,
Dillərdə Qəmər var, daha lame', daha nəvvar...

Könlümdən asılmışdı dirəxşəndə Qəmərlər,
Əfsus, onu söndürdü anam misli Qəmərlər.

Tə'min olaydı əgər ağuşi-Qəmərdən,
Tabəndə olurdu ürəyim nuri-hünərdən.

Tənvir edərək vəchi-səmavati-həyatı,
Gündən-günə ehraz edəcəkdim dərəcatı.

Mən parlayacaqdım da səmavati-vətəndə,
Nəşr eyləyəcəkdim də füyuzati vətəndə.

Müzdad olacaqdı ülüviyyat, kəmalat,
Onda olacaqdı vətənim səhneyi-cənnat.

Pərvərdeyi-ağuşum olur idi, həqiqət,
İnsanlığa xidmət edəcək zadeyi-qeyrət.

Hübbül-vətəni, mə'niyi-hürriyyəti hər an
Kəhvarədə ikən edəcəkdim ona e'lan.

İnsanlığa xadim olacaq nəsli-əxiri,
Mən bəsləyəcəkdim o ədibani-kəbiri.

Ya leyl! Bu idi mənə ən zübdeyi-amal,
Amalıma erməkliyə yar olmadı iqbal.

Eyvah ki, məhv oldu bu ümmidi-məali!
Əsfəllərə düşdüm edəcək yerdə təali.

Ey madəri-cahil, bumudur qiyməti-gövhər,
Can parəsini madər edərmi belə kəmtər?

Əks eylədi avazi-təməddün qitaətə,
Də'vət edir insanları növzadə həyatə.

Başqa miləlin qızları kəsb etdi kəmali.
Oldu həpsi ziynəti-övrəngi-təali.

Onlar erişib cənnətə, biz Veyldə qaldıq,
Sübhi-mədəniyyətdə də "vəlleyl"də qaldıq*.

Ağuşları məktəbi-hürriyyəti-ətfal,
Pərvərdələri açmada balalərə şəhbal.

Doğduqları ev şəndil olan arifü kamil,
Bunlardan olan hər biri bir fəxri-əfazil,

Şiller*, Gete*, Viktor Hüqo*, Volter* ilə Jan-Jak*,
Ol dahiyələr etdi bu afaqdan işraq.

Herbert Spenser*, Büxner*, Sülli*, Lamartin*,
Alfred Müsse*, Müller*, Şekspir* ilə Darvin*,

İştə Edisondur* bu qucaqdan mütəvəllid,
İcadi ilə məhdi-təməddündə müfərrid.

Həp mətləi-ağuşi-ədəbdəndi nümayan,
Bunlar ki, olub hər biri bir dahiyi-imkan.

Ağuşi-maarifdə doğanlar füzəladır.
Cəhlin qucağında böyüyənlər cühəladır.

Əfradi-üməm buldu füyuzati-səadət,
Bizlərdə nə ərdə, nə nisadə bu fəzilət.

Məhkumlarız pənceyi-övhamdə hala,
Ey nuri-həqiqət, üzün aç, eylə təcəlla!

Biz də bəşəriz, bizlərə də mehrnişan ol!
Ey nuri-həqiqət, ləbin aç, xəndəfəşan ol!

Gözlər, mələkim, cümləsi müştaqi-cəmalın,
Gül, gül ki, həqiqət ola ümmidi-vüsalın!

## BİR ZÖHREYİ-HƏYATIN ÜFULU

Aldım xəbəri-mövtünü, ey cövhəri-yekta,
Əş'arımı, əşkabım ilə eylədim inşa!
Eyvah, üful eylədin, ey kövkəbi-bariq,
Gündüz nəzərimdə görünür leyliyi-zülma.
Etdinmi vida'i-əbədi mülki-vücuda,
Sən də əzəliyyət kimi oldun ədəmara?

Tərk eyləyərək vəchi-səmavati-həyati,
Etdin qara yer sinəsini kəndinə məlca!
Gör kim sənə dəfn olmuş, əya xaki-siyahrəng,
Bir nurdur ol kim, oluyorsan ona mə'va.
Son ənfüsünü fırladıb afaqi-həyata,–
Oldun, mələkim, sən dəxi həmxaneyi-mövta.
Ol dadlı nigahı niyə yumdurdu təbiət,
Varmı bu açıq işdə də əsrari-xəfaya?!
Bir həşri-ələmdir mənə fərdayi-məmatın,
Matəm kəsilib gözlərimə saheyi-dünya.
Etdikcə təxəyyül səni, ey nuri-məhəbbət,
Zülmət görünür iştə mənə tudeyi-qübra!
Qıldıqca təsəvvür o haləvətli nigahi –
Təlxabi-təhəssürlə gözüm olmada dərya.
Etdikcə təxəttür şu açıq vəchi-bəşuşi,
Həsrət yaşı olmaqdadır arayişi-sima.
Mən ağlayıram, şe'r oluyor əşki-rəvanım,
Hər qətreyi-dürdanəsi bir şe'ri-müsəffa.
Mən də yaparaq əşkimi güldəsteyi-əş'ar,
İthaf edirəm ruhuna əş'ari-mütərra.
Məhzun dururam, hüznlərim şe'ri-sükundar,
Fəryad edər olsam, oluyor cümləsi guya.
Ahim kəsilir can yaxan əş'ari-şərərbar,
Yanmış dilimin dudu olur növheyi-sevda.
Göz yaşlarımı, ahımı, fəryadımı daim,
Səssiz o həzin məqbərənə eylərəm ehda,
Şe'rim olacaq fatiheyi-səngi-məzarın,
Ey xatiməsi baisi-əş'ari-qəməfza.
Könlüm yanıyor həsrət ilə olduğu dəmlər –
Ol dadlı, təbəssümlü baxış xatirəpira.
Gah diksinirəm uyquda, guya ki, dodağın –
Bir buseyi-şəfqət ediyor çöhrəmə i'ta.
Gah səs gəliyor guşuma, guya ki, səsindir,
Zənn eyləyirəm xabdə oxşar məni hura.
Gah pişgəhimdə duruyor vəchi-bəsimin,
Sanki oluyor cənnət özü çeşmimə peyda.
Bir nuri-həqiqət kimi gəh zilli-xəyalın –

Tutğun nəzərimdə oluyor iştə hüveyda.
Cənnət quşu idin qəfəsi-dəhrdən uçdun,
Əlbət yaxışırdı sənə bir rövzeyi-rə'na.
İnsan sifətində görünən bir mələk idin,
Ən ali cahanlarda üç, ey ruhi-müəlla!
Namın əbədiyyətlə yaşar, ey əzəli ruh,
Əş'ari-rəvanbəxşim edər namını ehya.
Sən bir gül idin badi-əcəl saldı türabə,
Fəryad qıl, ey könlü sınan bülbüli-şeyda!

## BİR İŞSİZİN QIŞ DÜŞÜNCƏLƏRİ

"Ana dili gərəkdir" deyənlərə
İştə bir yoxsul... oyləcə düşünür:
Gəliyor qış, əlimdə yoxdur iş...
Kimə "iş ver" desəm, deyir ki, "sürüş"!
Bu soyuq sözlə cəmdəyim üşünür...

* * *

Çıxdı yay, getdi isti, girdi payız,
Qış gəlir... şimdidən əsir ürəyim,
Geyəcək yox, nə evdə var çörəyim...
Yaşamaq istəriz... nə yapmalıyız?

* * *

Gəliyor qış... çocuqlarım nə yesin?
"Pul"lulardan bizə kömək olamaz,
Uzadırsam əlim, ətək bulamaz...
Acların dinləyən olurmu səsin?

* * *

Yeyəcək yox, uşaqlar ağlayacaq,
Qadının gözləri üzümdə gəzir,
O baxış şimdidən ürəymi əzir,
Yavrucuqlar könülmü dağlayacaq.

* * *

Yuvasız quşlarız, nə yem, nə su var,
Bu böyük yerdə yoxmu bir sığınaq,
Deyilizmi bu torpağa ortaq?
Qardaşız, qardaşız, ey “insan”lar!

* * *

Qar yağıb torpağı kəfənləyəcək,
Qalacaqdır açıqda yoxsul olan.
Bu zavallı, bu bəxtsiz “insan”,
Ac, susuz küçələrdə inləyəcək.

* * *

İşlərindən “sual” yoxmu sənin?
Edilərsə verilməyir ki, “cavab”!
Biri örtüb durur ikən “əsvab”,
Yoxsula, yoxmu verməyə “kəfən”in!?

* * *

Varlığın yox içində bir vicdan,
Boylə ikən “xəbər” al “insan”dan,
Sənə açsın “hekayə” “vicdan”dan,
Doğru sanma, yalançıdır “insan”!

* * *

“Əsl”siz sözləri “lüğət”də yazar,
Der ki: “səbr” “əhl “i arzu”ya yetər,
Öz-özün aldadır yazıqca “bəşər”.
Yalanı doğru anlayan uduzar.

* * *

Düzlük olmuş olaydı “xilqət”də,
“Ədl”sizlər olarmıdı “sultan”?
Yer olarmıydı “zülm” ilə “viran”?
Anla, yox “mərhəmət” “təbiət”də!

Birinin “süfrə”sində dadlı “xuruş”,
“İştəha”lar açan yemək duruyor,
Biri qarnın doyurmağa arayor,
Tapmıyor “kisə”sində bircə quruş.

* * *

Çatlıyor “dövlət əhl”i toxluqdan,
“Mə’də”si yırtılır, gözü yenə ac,
Kimi günlərlə ac, “bədən” yalavac,
Yox olur, yox zavallı yoxluqdan.

* * *

Budur “insan”ların bu gün “hal”ı,
Gələcək pək işıqlıdır və gözəl,
Hələ gizlindədir “cəmali-əməl”,
Görmədik biz o “şan”lı “iqbal”ı.

* * *

Quru boylə düşüncələr nedəcək?
İşsizin qarnı doymadı, doyamaz,
İlan vurmuş uyuyar, ac uyumaz,
Yavrular evdə istəyir yeyəcək.

* * *

(Bir “pul”luya yalvarıyormuş kimi)
Acıyın bir sürü “əyal”ıma siz,
Mənə bir iş verin də işləyəlim,
Bu dar “ömr”ü bir az genişləyəlim.
Yazığam, baxsanız bu “hal”ıma siz.

* * *

Duraraq “pul”lunun önündə yazıq,
Yerə dikmiş, baxar, iki gözünü,
Utanır söyləsin ürək sözünü –
Qaragünlü, zavallı, könlü sınıq!

* * *

Nə sevimli, gözəlsən, ey “ismət”!
Hansı üzdə gülüşlərin parlar,
Söyləməz kimsəyə sözün, ağlar.
Sənin ilə nə “xoş”dur ölmək, əvət!!!
Yüz min əvət!
“Ey ismət!”

* * *

Səni “əvvəl”, “həyat”ı son sevərəm,
Ey gözəllik “behişt”inin “mələy”i!
Ey sevimli baxışların bəzəyi!
Ey könül ovlayanların çiçəyi!
Öpərəm sən öpən üzü, öpərəm!

* * *

Ey utanmaq, səni sevən atamaz,
Sən yox olduqda, ölmək ən dadlı,
“Canlı” “gülşən”lərin a “naz”lı “gül”ü,
Səni üzdən atan, daha tutamaz.

* * *

Hər nə əldən gedərsə var “bədəl”i,
Vardır ondan daha gözəlləri, al!
İki “şey” var ki, bulmaq “əmri-məhal”:
Bir “həyat”ı və bir də sən gözəli,
“Ey ismət!”.

* * *

Keçəlim, yoxsulu buraxmayalım,
Yolumuzdan azıb da, sapmayalım!
Duraraq “pul”lunun önündə yazıq,
Dağınıq bir “sifət”də, boynuburuq,
Birdən ağzın açar o “canlı” ölü,
(Əvət, o canlı ölü!)

* * *

Titrəyən bir səs ilə “bəxt”i qara,
Dirilik xəncərilə könlü yara...
Dilsiz imiş, açıldı sanki dili:
Dolanım başına, ağa! Mənə iş!..
İşləyim, toplayım bir azca para,
“Abadanlıq” alım şu yavrulara.
Onları kəsməsin qılınc kimi qış!
Doğruluqla qapında iş görərəm,
Bir adım doğruluqdan ayrılmam,
Nə desən eylərəm, inan, ay ağam.
“İt kimi hür!” deyəndə də hürərəm!
(Of, nə acı “həqiqət”!)
Aclıqdan qarardı gözlərimiz,
Ağlayırsam da, gülməyir diləyim,
“Rəhm” qıl, “rəhm” qıl, verimli bəyim!
Dinləməz kimsə, boş gedir sözümüz!

* * *

Əliboş getməyə üzüm yoxdur,
Məni görcək uşaqlar ağlaşıyor.
“Dədə, əkmək!..” deyib civildəşiyor,
Onları aldadan sözüm yoxdur!!!

* * *

Düzlüyün var bu yerdə ancaq adı,
Əyrilik “aləm”in “təbiət”idir.
Bu sözüm sözlərin “həqiqət”idir,
“Can”lı bir “zülm”dür yer “övlad”ı!

* * *

Can yaxan bir “teatro”dur “dünya”,
Bir-birindən oyunları “müdhiş”,
Ağladır gözləri bu pis görünüş...
Yaşlı gözlər gülərmi bir “əcəba”?!

Nə olurdu yaranmasa “adəm”?
Sonu yox boşluğun içində gəzər,
“Qəm” nədir anlamazdı “qəm”li “bəşər”,
Pək “xoş” idi “qərargahi-ədəm”.

## ƏNDİŞEYİ-HƏYAT

Vardırmı bir insan bu şüunzari-ələmdə –
Pabəndi-bəla olmaya sərpənceyi-qəmdə?!
Buldunmu bir adəm ola azadeyi-mütləq?
Olmaz, olamaz kimsə bu tövfiqə müvəffəq.
Alami-məişət ediyor aləmi imla,
Sərbəstliyi umma bu zəncirdən əsla.
Qat-qat vurulubdur sənə zənciri-məişət,
Azadəsər olmaqmı dilərsən? Buna heyrət!
Aldıqca nəzərgahinə fərdayi-həyati,
Dəhşət veriyor adəmə əndişeyi-ati.
Hər ləmhədə bir tazə əməl olmada tale,
Əfkari-bəşər ləm’eyi-amala mətale.
Hər dəmdə doğar fikrə min ümmid səbahi,
Amal da ə’sar kimi layətənahi.
Bir silsileyi-zilli-əməldir bütün aləm,
Bu silsilələrlə sərinib fitrəti-adəm.
Bir sayeyi-ziruh kimi müttəsil insan –
Ümmidini tutmaqlığa ümmid ilə puyan.
İstər tuta bilsin onu, ətrafa şitaban,
Eyvah ki, ümmid isə bir zilli-girizan!
Tutdu tutalım ki, o girizəndə zilali,
Fərda yenə tə'qib edəcək başqa xəyali.
Eylərmi bəşər bulduğuna kəsbi-qənaət?
Bürhanı əyandır, bunu isbatə nə hacət?
Məhsuli-əməldir bu tərəqqi, bu təali,
Dünyalə bərabər yaşar amali-məali.
Nə aləmi-əkbərsən, əya adəmi-mövcud!
Nə layətənahisən, əya heykəli-məhdud!
Bir zərrəsən! Afaqi-xəyalında həzaran –

Xurşidi-həqiqət oluyor şə’şə’əəfşan.
Əndişən olur aləmi-ülviyyəti sair,
Təslim olunur fikrinə miftahi-sərair.
Zülmətdə qalan babi-künuzu açıyorsan.
Süfliyyətə ən ülvi füyuzu saçıyorsan.
Sən də düşünən vəqtdə fərdayi-həyati,
Tədhiş ediyor halını əndişeyi-ati.
Ta qədrə gedincə bu qüyudati-ələmza
Pabəndi-qəm eylər səni, əndişeyi-fərda.
Ey silsiləcünbani-məişət olan insan,
Olduqca həyatın sana zindandır imkan.
Ol gün ki, sönər şə’şə’eyi-sübhi-həyatın, –
Azad edəcək onda səni şami-məmatın.

## AŞİYANİ-VİRAN

Soyuğun, atəşin əlində qalan,
Calibi-mərhəmət, gözəl bir quş
Sərilib torpaq üstünə mədhuş,
Açıyor ağzını, yumur hər an.

* * *

Yetməmiş arzuya biçarə
Yaxanı verdi dəsti-bidadə.
Yoxmu bir əl uzansın imdadə,
Eyləsin bu səfilə bir çarə?!

* * *

Aşiyanın içində övladı –
Gözünü dikmiş intizardadır.
Validə hali-ehtizardadır,
Dağılır aşiyani-abadı.

* * *

Çırpınır, çırpınır da, son nəfəsi –
İstəyir cismdən ola pərran,
Bir sürü yavru madərə nigəran.
Uçdu ruhu quşun, kəsildi səsi.

* * *

Rəhguzari-cahanda sair idi,
Gündüzü asimani-qeyrətdə,
Gecəsi aşiyani-rahətdə.
Bu da bir zihəyat tair idi.

* * *

İştə bu xanimancida məxluq –
Əməli-danə ilə çıxmış idi,
Yuvada yavrular acıxmış idi,
Payimali-məmat qıldı soyuq.

* * *

Bu gözəl tairi-səmapeyma –
Danə üçün riyazfitrət idi.
Bu da zəhmətkeşi-məişət idi,
Sə'yü qeyrət yolunda oldu fəda.

* * *

Nə gözəldir həyati-fə'alə,
Düşkün olmaq yaxışmaz insanə,
Açma əl, düşmə payi-dunanə,
Çalışan namizəddir iqbalə.

**Yavrular!**

Ananız, yavrular, əsiri-türab –
Olaraq eylədi vida'i-həyat.
Ediniz siz də atəşin nəvəhat,
Aşiyani-məsərrət oldu xərab!

* * *

Əsdi şiddətlə tündbadi-əcəl,
Bəxtiniz gülləri xəzan oldu.
Yavrular, mövsümi-fəğan oldu,
Saralıb soldu növbəhari-əməl!

* * *

Ey səfalətpənah olan mürğan!
Madər arayişi-məzar oldu,
Lanəniz də xərabəzar oldu,
Dinləməz kimsə etsəniz də fəğan!

* * *

Açamaz kimsə zilli-şəfqətini –
Üstünüzdə himayədar olsun,
Sizi kim bəsləsin də yar olsun,
Bəxş qılsın səxa vücudətini?!

* * *

Vətənim lanənizlə yeksandır,
Ölmüş, ölmüş pədərlə madərimiz,
Bağlanıbdır güşad olan dərimiz,
Bu iki aşiyanə virandır!

## TƏKAMÜLİ-MƏ'KUS VƏ ÜMMİDİ-PƏRİŞAN

*Bir gözələ*

Şəbrəng saçların nə pərişandır, ey pəri,
Oxşar siyah əlilə o rüxsari-ənvəri.

Bənzər o tellərin əməli-nazikanəyə,
Qəlbim içindədir, onu qapdırma şanəyə.

Əhli-səfalətin dağınıq bir məkanıdır,
Qəlbi-səfilimin də saçın aşiyanıdır!

Qalsın dağıntı, toplama giysuyi-müzləmi,
Tənzir edir dilimdəki əsrari-mübhəmi!

Gönlüm kimi saçın da pərakəndə olmalı,
Fikrim qədər rüxün dəxi tabəndə olmalı!

Mən, tellərin və bir də vətən – bəxtiqarəyiz
Mə'nən biriz, əgərçi müğayir ibarəyiz.

Bizdən də, sevgilim, vətən aşüftəhaldır!..
Ümmidimiz nihalı dəfini-ləyaldır!..

Afaq açılmaz isə zilali-hicabdən, –
Bakir şükufələr çıxamazlar niqabdən.

Göstərməz isə kəndini dildari-gül'üzar, –
Vüslət məhal, qovrul, əya qəlbi-naləkar!

Hail nədir ki, görməyə qoymaz nigarımı?
Yoxdur açan sərairi-qəlbi-fikarımı!

Könlümdə var künuzi-sərair cahan-cahan,
Razaşina ki olmadı, qalsın nihan-nihan.

Əlbət, səza idi yaşamaq məhrəmanə biz,
Əfsus! Olmuşuz niyə naməhrəmanə biz?!

Eşqü məhəbbət isə həyatın məalıdır.
Bunlarsız ömrü bilmə həqiqət, xəyaldır.

Ləfzi-həyat içində qonulmuş məali-eşq,
Məcmueyi-həqiqətə candır xəyali-eşq.

Məhsuli-eşqdir bu əvalim, bu kainat,
Biganeyi-məhəbbəti zənn etmə zihəyat.

Könlümdə nuri-eşq olurkən əşi'ədar,
Haildurur zühuruna əğyari-nabəkar.

Hər kəs dilində dadlı bir ümmid bəsləyir,
Bir dudi-şəbnümud o işıq hissi hisləyir.

Ey mane'i-əməl, çəkil, artıq usan, usan!
Bizar etdin aləmi candan, utan, utan!

Ey pərdədar, pərdəni aç ruyi-yardən,
Ey şəb, çəkil də sübhi-səbahətnisardən!

Ey tale! Uyma, şəfqətü riqqət zamanıdır,
Qalma xəyal içində, həqiqət cahanıdır!

Rüxsarına dağılmış o şəbrəng tellərə –
Olsun həsəd ki, düşmüş o vəchi-münəvvərə.

Mane'si yox ki, busərübayi-cəmaldır,
Firqətkeş aşiqin nigərani-vüsaldır!

Ümmidvari-vəsl ikən ismətli ruyuna,
Ol çöhreyi-behiştivü ümmidi-buyuna,

Layiqmidir, cəhənnəmi-hicranda sızlasın,
Yad eyləsin vüsalını, həsrətlə ağlasın?

Azad könlüm olmuş əsiri-məhəbbətin,
Hürriyyətə mübadilə etməm əsarətin!

Azadəlik məhəbbətə xidmət deyilmidir?
Söylə, məhəbbət eyni-əsarət deyilmidir!

Səndə əməl, məndə məhəbbət əyan ikən –
Ol güllərin miyanına kimdir tikan dikən?

Xari-məvane' ilə dolub rəhgüzarımız,
Ümmidimiz kəfən, vətən olmuş məzarımız.

E'lani-eşqə yox bu vətəndə müsaidə,
Bir böylə ömrdən, mələkim, umma faidə!

Kətmi-həqiqət iştə mühitin nizamıdır,
Aşüftəlik bu məmləkətin intizamıdır.

Bir qəbri-yə'sdir, gözəlim, kainatımız,
Ümmidimizlə məhv olacaqdır həyatımız!

Dəsti-təsadüf atdı bizi böylə bir yerə,
Ziruh idik biz, eylədi pirayə məqbərə.

İmdad üçün nə mərtəbə olsaq da naləzən,
Bihudədir, sədamızı olmaz ki, dinləyən.

Mövta içindəyiz, eşidilməz nəfirimiz,
Tə'zib edir bizləri münkər-nəkirimiz.

Münkər-nəkir kim?! Bu əhaliyi-pür'itab,
Mə'nisi yox suallara bizdən dilər cavab.

Övladına məzar olan, ey qəbri-zindəgan!
Ey xak, ey cənazeyi-amal olan məkan!

Tövhiş edir xəyalımı övza'i-vəhşətin,
Tədhiş edir cünanımı əhvali-dəhşətin.

Hala təkamülündə nümayandır inhitat,
Zülmətlər ilə oldu mühitin neçin mühat?!

Hər gün tənaqüsündə təkamül nə haldır?!
Dəsturi-fəlsəfidə bu qanun məhaldır.

Bir baxsana, təkamüli-mə'kusən, ey vətən,
Qanuni-hikmətə nasıl oldu cərihəzən!

Şirazeyi-təbiəti qırdı bu halətin,
Həp yarələndi dilləri ərbabi-hikmətin.

Hikmət hənuz bu nəzəriyyatı bilməmiş,
Pək az bilir, çox hikəmiyyatı bilməmiş.

# 1910

## OXU, BİL, ÖYRƏN!

*Övladi-vətənə*

Ey cavan, öyrən: cəhalət ən böyük bir ardır,
Elmsiz adəm bəhaimdən də bimiqdardır!
Yük çəkən heyvan görülməz nifrətə layiq, vəleyk –
Layiqi-nifrət o cahildir ki, xəlqazardır!
Hər fənalıq, hər yamanlıq elmsizlikdən törər,
Anlamazdan yer, göy, insanlar bütün bizardır.
Anlamazlar anlayanlar üçün olmuş yükçəkən,
Yük çəkərmi, söyləyin, ol kimsə kim, huşyardır?!
Sən də elmin təxti üzrə əyləş ariflər kimi,
Elmsizlər yer üzündə bəxtsizdir, xardır!
Çox deyilmişdir bu söz, təkrarı da ləzzətlidir:
Kurdur cahillər, alimlər ülul’əbsardır!
Arifin xabı gözəldir taətindən cahilin,
“Növmi-alim...”* rəmzini bil, gör nə mə’nidardır!
Şahidi-hürriyyətə yar oldu ərbabi-ülum,
Elmsizlər, tərbiyətsizlər ona əğyardır!
Şərqdə batmış maarif, Qərbdə çıxmış fünun,
Mə’rifətlə, elm ilə Məğribzəmin nəvvardır.
Ey yatan zülmət qucağında, yetər, sübh oldu, dur!
Aləmə bir yaxşı göz gəzdir, təcəllizardır!
Elm əlilə ortaya çıxdı yerin könlündəki,
Göylərin də qəlbinə atmış əlin... əsrardır!
Dideyi-elmə açılmış ramizati-kainat,
Cəhlə hər şey örtülü, çeşmi-cəhalət tardır!
Lövheyi-ibrət deyildirmi sərasər kainat?
Çeşmi-im’anə alır hər kəs zəvil-əfkardır.
Alimin sərvətlə malamaldır mahiyyəti.

Fənn ilə dartar, alır ol kəs ki, təhsildardır.
Xilqətin bitməz-tükənməz varlığından əhli-elm –
Çəkdi, aldı dövləti, bax, şimdi sərvətdardır.
Qardaşım, işsiz oturma karigahi-dəhrdə,
Qul olur kar əhlinə ol kimsə kim, bikardır.
İştə amal, iştə iqbal, iştə istiqbal həp –
Əhli-elmindir, bizə üz göstərən idbardır!
Səlsəbili-elmdən boşdur qafamız kasəsi,
Başqa əqvamın başı bu feyz ilə sərşardır.
Zəhrlənmiş fikrimiz zəhrabi-mövhumat ilə,
Ey həqiqət! Parla, parlat Şərqi, zülmətzardır!

*12 yanvar*

## FƏXAMƏTLİ ƏFƏNDİM, PARDON!

*Hörmətli əfəndim Molla Nəsrəddinə*

Son nüsxəni aldıq, oxuyub, bildik, a Molla,
Gördük bütün övraqını tənqid ilə imla!
Hər bir sözü tədqiqə nə kəskin nəzərin var!
Təsvirdə bundan daha artıq hünərin var.
Safi, çürüyü seçməyə parlaq məhəkin var,
"Fazil" mütəhərrirlərə döymək kötəyin var!
Olmuşmu qəhət yazmağa qəztəndə məqalə,
Şimdi sataşırsan, a balam, "əhli-kəmal"ə?
Aya sənə nə bir mütəhərrir belə banlar:
"Osmanlılar öz işlərini pək gözəl anlar!
Amma nə ərəbcə biliyormuş, pah atonnan!"
Göz dəyməmək üçün bunu hifz eyləyə rəhman.
Bilməm dəli oldunmu, uduzdunmu xəyali,
Tənqid ediyorsan o "qələmpani-kəmal"i!
Gah nala və gah mıxa döyürsən, dəlisan ya!
Tənqid edilirmi o "fəxamətli", a Molla?
Daim belə əlqabə gərəkdir ola hörmət,
"Şövkətli"lərə etməli hər dəmdə ibadət.
Rahət otur, Allahi sevərsən, kişi, rahət,

Hörmətli əfəndim, sənə nə yazdı "fəxamət".
Yetdin yetənə, yetməyənə daş atıyorsan,
Bozbaşa aşı, aşa da bozbaş qatıyorsan.
Dostum! Çatanı sən ki, edirsən belə tənqid,
Qorxum bu ki, sözsüz qala axırda cəraid.
Hörmətlini öyrətmə, "fəxamətli" gözəldir,
Yersiz danışıqlar bizə əqsayi-əməldir.
Nə gəlsə onu yazmalı, fikr etmək əbəsdir,
Qare'lərimiz ruhdən azadə qəfəsdir.
Biz də verəriz iştə bu ölmüşlərə təlqin.
Ay Molla, nə təlqin qanır ölmüş, nə də məlqin
Biz bayquşuyuz, Molla, bu viranə məzarın,
Viranlıq içində nə gəzər sövtü həzarın?
Mən şair olanda, üdəbamız nasıl olsun?
Allah eləsin qarein idrakı açılsın!
Bir pərdeyi-müzlim asılıb didələrindən,
Can tairi uçmuş da dili-mürdələrindən.
Pis-yaxşını bilsəydi əgər milləti-bədbəxt,
Hər mən kimidə yazmağa olmazdı cəsarət.
Qarelərimizdə məhək olsaydı, a Molla, –
Xalislə dəğəl onda olurlardı hüveyda.
Xərmöhrəni yaqut adına sat, keçəcəkdir,
Bal namına ver bəkməzi, əbləh içəcəkdir.
Sən kaseyi-çini deyə sat, leyk xəzəfdir,
Rəhmətliyin oğlu alacaq ki, xoş ələfdir.
Sən istədiyin nəğməni çal, ziri bəm eylə,
Ey çalğıçı, qorxma, bilən olmaz, kərəm eylə!
Çal zurnanı, vur dünbəyi, ol məsxərəpərdaz,
And olsun o Molla Babaya*, anlayan olmaz.
Olsun qəsəm ol "Şeyxi-Qobustani"yə*, sən çal, –
Tənqid edən olmaz: hamı kardır, hamı kordur, hamısı lal!
Ey xameyi-əfsanənəvisəndə, qırılma!
Meydani-cəraid gen ikən heç də yorulma.
Molla əmiyə vermə qulaq, sən yazını yaz,
Qarğa kimi "qa-qa"lara qıl tazədən ağaz.
Ey xameyi-əfsanənəvisani-"fəxamət",
Divanələşib Molla əmi, etmə məlamət!

"Şafi" qələminlə onu qurtar dəlilikdən;
Qurtar bizi də "canlı söz"ünlə ölülükdən!
Ey, sən də pozulma, yazı yaz, eylə inayət,
Ol səhni-cəraiddə "qələmrani-bəlağət"!
Söylə bizə osmanlılar aya nə deyorlar,
"Osmanlılar öz işlərin ə'la biliyorlar".
Qurban belə idrakə, belə fikri-"əmin"ə,
"Pəh-pəh nə deyim, şükr xudanın kəramınə"!

*14 yanvar*

## GƏRƏKMƏZ!

Nazəndə nəvazişlərin eylər dili lərzan.
Möhriq baxışın etmədədir ruhumu suzan.
Müztər oluyor, titrəyorum, olsa bədidar –
Mir'ati-xəyalımda o simayi-füsunkar.
Mən tazə mübariz olaraq səhni-fənadə,
Qövğadayım ömrümlə bu meydani-vəcadə.
Meydani-həyat içrə mənəm şanlı fədakar,
Bu keşməkeşi-dəhr ediyor ömrümü bizar.
Əkdarımı təxfifə mədar olmağa hər bar –
Əfkarımı tövcih edərəm səmtinə təkrar.
Bir hatifi-qeybi mənə söylər ki: "gərəkməz!"
. . . . . . . . . . . . . . . .. . . . . . . . . . . . . . . . . . .

* * *

Yorğun düşərək, xəstəyəm, alamlə məsmum,
Şad etsələr, olmaqdayam artıq daha məğmum.
Mazi imiş ancaq mənə əyyami-məsərrət,
Halım məni tə'zib ediyor, iştə həqiqət.
Mən dinləyorum sövtünü, ey sevgili dilbər:
"Gəl, gəl də, təsəlli edərəm, olma mükəddər",
Derkən yenə can guşuna bir nətmeyi-ilham –
Söylər ki: "Gərəkməz, geriyə eyləmə iqdam".

# ŞAİR, HÜCREYİ-İŞTİĞALI VƏ DÜŞÜNCƏLƏRİ

Kiçikcə bir oda içrə zavallı bir məxluq –
Yaşar... və çox gecələr olduğu otağı soyuq.

Soyuq ləyalı yaşar atəşin xəyalilə,
Düşünmədə gecələr qəlbi-pürməlalilə.

O guşədə qonulan çarpayədir yatağı,
Deyil də nəfsinə aid, kirayədir otağı.

Asılmış əlbisəsi bir tərəfdə divarə,
Şu əskilər yaxışar böylə əski divarə.

O yanda bir çamadan keçmişin nəzirəsidir,
Zavallının bu oda hücreyi-fəqirəsidir.

**Yazı stolunun başında**

Önündə bir-iki qəztə və yığın övraq,
Nücumi-zahireyi-şe'rə fikridir afaq...

Qələm əlində, önündə bəyaz övraqi,
Xəyali-tairi sair riyazi-afaqi.

Əli mülasiqi-pişani, kəndi fikrətdə,
Stol başında durur vəz'i-şairiyyətdə.

Şikar edən kimi zərrin qanadlı əş'arı,–
Dönər geriyə haman dəm xəyali-təyyarı.

Əsir edən kimi əş'arı dami-övraqə–
Uçar, gedər yenə fəshətsərayi-afaqə.

Gedər, gəzər yenə tutsun tüyuri-əş'arı,
Uçar, uçar da fəzayə xəyali-səyyarı.

Neçin? Yarın onu qoysun nigahi-ixvanə,
Ədəb ziyafəti versin ədəbpəsəndanə.

Aşar üfüqlərini kainati-nasutun,
Girər şəfəqlərinə şe'rgahi-lahutun.

Dilər ki, anlaya bilsin sərari-əzəli –
Və bəlkə bir gör bilsin cəmali-ləmyəzəli.

Bilirsə mənşəi-imkanı dincələrmi xəyal?!
Hüdudi-fikri-bəşər yox, budur həqiqəti-hal!

Şu kainatı gəzər kim, həyatpərvərdir,
Görər o qızları kim, sanihatmənzərdir.

O kainat ki, ənvarlə donanmışdır,
O düxtəran ki, əş'ardan yaranmışdır.

O kainat ki, şe'rafərin lövheyi-bal,
O düxtəran ki, fikrim qədər güşadəcəmal.

O kainat ki, hər qönçəsi birər əş'ar,
O düxtəran ki, çeşmində şe'rlər qaynar.

Bu kainat nədir? Kainati-xülyadır,
Bu qızlar isə təcəllinümuni-rö'yadır.

Zavallı şairə bax! Uğraşır xəyal ilə,
Həqiqəti buraxıb, oynayır zilal ilə.

Cahan həqiqətə aşiq, bu da xəyalnəvərd,
Zavallı! Ah, zavallı! Nasıl böyük bir dərd!

Həqiqətən payı yoxkən məta'i-dünyadən,
Götürməyir yenə əl bəxtsiz bu xülyadən.

Nə qəmlidir, nə ələmli, həyatın, ey şair!
Edərmi şad səni sanihatın, ey şair?

Xəyalini bürüyübdür zilali-ilhamın?
Bir az düşün də, ziyasız deyilmi əncamın?

Təxəyyülata qapılma, bir az da kəndinə bax,
Fərağət olmağa hala əlində yox bir otaq.

Cahanə öyrədiyorsan ticarəti-sövda,
Bir az da öyrən özün, ey qünudeyi-xülya!

Bu kargaha müdir olmağın deyil caiz–
Ki, kəndini oluyorkən idarədən aciz!

Özün gəzib duruyorkən bir özgəyə möhtac,
İdareyi-bəşəriyyət sənə deyil möhtac.

Dolaşmağın nə gərək şe'rgahi-lahuti,
Dolaş iş istər isən kargahi-nasuti.

O boşluğu dolaşınca, dolu cahanı dolaş,
Həyat bunda, əməl bunda, bunda kəsbi-məaş!

O boşluğu nə qədər gəz, həqiqəti-əş'ar –
Sənin xəyalın əlində olarmı hiç şikar?

Bu şe'rlər həpsi sayeyi-xəyalətdir,
Həqiqi şe'r nədir? Kəsbi-karə qeyrətdir!

*1911*

## BİR İŞTİKAYİ-MÖHRİQ...
## ÇEŞMİ-ƏDƏB BU GÜN ƏDƏBİYYATA AĞLAYIR

*Tofiq Fikrət bəyə*

Şe'rin üfüqlərində bu gün bir sədayi-lal,
Fikrin səmalarında birər zilli-infial,
Bəzmi-ədib təhi nəğəmi-dilnəvazdən,
Afaq oylə boş ki, əvət, suzi-sazdən,

Bir məqbərin sükutuna bənzər zəmini-şe’r,
Bilməm nə oldu, ah, təningüzini-şe’r?!
Dilsiz durur rübabi təningahi-Fikrətin,
Tarı qırıldımı o Rübabi-xəyalətin.
Zənn etmə sən şikəstə fəqət bir rübabdır,
Fikrət, bu gün şikəstə qülubi-şəbabdır.
Müxbir nigahlərlə şəbabi-münəvvərə–
Baxmaqdadır sənə, nə həzin, qəmli mənzərə!..
Şe’rin səmayi-safını bir Sis tutub ki, ah,
Məstureyi-zülamdurur nuri-intibah.
Dil pürsukun, fikr pərişan, ədəb xərab,
Küskün bu gün sənə dili-ərbabi-inqilab.
Çünki həqiqəti dolaşırkən xəyalınız,
İlhamzari-şe’rü ədəbkən kəmalınız,
Kəskin düşüncələrlə dələrkən sərairi.
Feyfayi-sanihatın, əya şanlı sairi,
Sən söylə ey! Nədir bu dərin əbkəmiyyətin –
Əsbabı, ey yeganə dühası bu ümmətin?!
Bilsəm neçin qırıldı şu əfkari-nurbal,
Ey xəndəzar şahidi-əş’ar olan xəyal!
Ey bir xəyal mədfəni parlaq həqiqətin,
Ey zinəti-məziyyəti afaqi-sən’ətin,
Afaqi-sən’ətindəki bir qətrə əşki-tər –
Məmzucdur şe’rlərin atəşlə abdən,
Fikrin təkəvvün etdi sənin inqilabdən!
Maziyə, zülmə, zülmətə üsyan edən qələm –
Xamən deyilmidir sənin, ey nami möhtərəm?
Al dəstinə o xameyi-səmsamvarını,
Saç aləmə bədayei-sən’ətşüarını.
Bir ruhi-tazə bəxş edib əndami-sən’ətə,
Aç e’tila səması yenə fikri-millətə.
Bir çox kəfənli fikr məqabirgüzindir,
Parlaq bir əsr içində bu qayət həzindir!
Öksüz fikirlərin pədəri-sayədarısan,
Aqil böyüklüyün bizə bir yadigarısan.
Biz də həyat istəriz, ey xaliqül-ədəb,
Parla ziyalarınla, əya bariqül-ədəb!

## SABİRİN YADİGARINA İTHAM

*Şairi-zindəruh*

Bir taqım cahilanü naəhlan –
Düşməni-fikri-feyzbarın idi.
Həmzəbanilərindi biməğzan,
Vətənin duzəxi diyarın idi.
Sən yaşarkən də xütteyi-Şirvan –
Dirilərlə dolu məzarın idi.

İstirahətgəhi-ədəmdə bu gün,
Uyu, əmma ki, millətə küskün.

Qaçdı yarani-şe'rü təhririn,
Səndin amacı tiri-təkfirin.
Səni də bilmədi o mülki-xərab,
Ey olan ziynəti-dəruni-türab.
Oluyorkən nəşidəxani-həyat,
Səni də ovladı üqabi-məmat.
Edərək əlvida Şirvanə,–
Azim oldun cəhani-nisyanə.

İstirahətgəhi-ədəmdə bu gün,
Uyu, əmma ki, millətə küskün.

*İstanbul*

## TƏBRİK

Baxmasanz yaxşı cigərparələrə,
Yazıq olmazmı bu biçarələrə?
Tifl bir ayinədir əksnüma,
İncə baxsan, olacaq çöhrənüma.
Biədəb bəsləməyək tiflanı,
Mə'rifətpərvər edək sibyanı.
Nə zaman kəsbi-ülum etsə nisa,
Cismi-millət tapacaq onda şəfa.
Elm ilə ruh müdavat olunur,
Elm ilə kəsbi-kəmalat olunur.

# 1913

## CİNSİ-LƏTİFƏ

Bəxti-siyahi-millətə bənzər niqabınız,
Şərqin mühitimi o qaranlıq siyabınız?

Zalımların əlində birər canlı bihəyat,
Divani-ədl yox ki, sorulsun hesabınız.

Bəxşayişi-təbiət ilə həqqiniz bu gün –
Zülmətnümundur, buna şahid hicabınız.

Əlbət, gələr bahar, yağar abi-inqilab,
Parlar sizin camali-lətafətməabınız.

Bir gün gələr çiçəkləriniz feyzbar olur.
Hala dəruni-şişədə qalmış gülabınız.

Olduqca siz əsiri bu müzlim qəfəslərin –
Qabil deyil təzahürü tabəndə hisslərin.

## TOFİQ FİKRƏTƏ

Şe’rin, ədibin nasiyeyi-şə’şə’ədari,
Dilsiz vətənin bir fəmi-ilhamnisari.
Bir heyrəti-fəyyaz, füruzəndeyi-ürfan,
Afaqi-mühitatımıza nəcmi-dirəxşan.
Fikrət – o böyük şairü nəvvar, füsunkar,
Hər tari-“Rübab”ından uçar nəğmeyi-səhhar.
Əcfani-vətəndən tökülən qətreyi-abi
Şe’r inciləri yapmada əngüşti-rübabi.
Bir nalə, bir eyvah, bir əfğani-cigərsuz
Dəsti-hünərində oluyor şe’ri-qəməfruz.
Ey dəsti-ədəb, dəsti-hünər, dəsti-rəhasaz,
Alqışlayan əllər səni, əlbəttə, qırılmaz!

*İstanbul*

# 1914

## AĞLAYAN ŞE'RLƏR

*Ustad Əkrəmə*

Ey millətin ədibi-bəlağətpənahi, ah,
Ey xameyi-fəsahəti gülbangi-intibah!
Kilkində vardı nəğmeyi-tabani-inşirah,
Qəbrin necəysə, cismin ona oldu bir sabah.
Söndün əgərçi, sönməyəcək nuri-fikrətin,
Ey şairi-yeganəsi biçarə millətin.

Zülmətli bir mühitdə parlaq ziya idin,
Şərq aləmində məş'ələdari-rəha idin.
Məğribdə olmasan da, Şərqdə sən bir düha idin,
Bir şairi-bülənd idin, aləmbahar idin.
Şimdi bəyaz kəfənlə türabi-siyahdə,
Yatmaqdasan müəbbəd olan xabgahdə...

Sonra qovuşdun iştə sevimli Nijadına*,
Əkrəm, yetişdi cismi-zəifin Fuadına*.
Rahət uyu, çünki erişdin muradına,
Öldünsə də, bu qədri-ölüm canlı adına.
Ərbabi-fəzli öldürəməz mövti-biaman,
Namın əbədhəyatdır, ustad, hər zaman!

Sən ağladın Nijadına hər şam, hər səhər,
Göz yaşların ki, oldu birər şe'ri-şö'ləvər.
Ol şe'rlərlə parladı zülmətli fikrlər,
Ey rəhnümayi-mə'rifət, ey mə'nəvi pədər!
Övladi-mə'nəvilərin də bu gün giryəbardır,
Hər zində cəlbi-namin üçün bir məzardır.

Heykəl tigərmi namına, bilməm ki, millətin,
Parlaq bir abidəylə parıldarmı türbətin?
Ey şairi-Nijadı cahani-bəlağətin.
Susdu əcəl əliylə dili şairiyyətin.
Madam afitab ziyabəxşi-xakdır,
Sönməz o nami-Əkrəmin, ədəbi tabnakdır.

Olduqca qönçələr çəmənaravü bufəşan –
Əş'arının çiçəkləri olmaz xəzannişan.
Hərdəm bahardır bu gülüstani-dilsitan,
Baqi çiçəklərin var, əya fani bağiban!
Torpaqlar içrə olsa da cismin ədəmgüzin,
Şe'rin həyat içindədir, ey şairi-həzin!

*Bakı, 15 fevral*

## NİSVİYYƏT TƏRANƏLƏRİ

Çöhreyi-dilbərani-fəttanı –
Baxışımla öpən zamanda dерəm:
Rəngi-alı onun üçün sevərəm –
Öpüyor qızların dodaqlarını.

Bir çiçək var ki, gülşənaradır,
Bir çiçək var ki, ruhi-cəmiyyət;
Qönçeyi-buydari-nisviyyət,–
Bu çiçək də cahanpiradır.

Nə deməkdir qadın? İlahi-həyat,
Ruhbəxşayi-adəmiyyətdir,
Afərinəndeyi-səadətdir.
Qadını pərdəpuş olan, yerə bat!

Mələki-ərzdir nisayi-cahan,
Buyü rəngi-həyatü hürriyyət,
Madəri-feyzkari-nisviyyət,
Yaşa, ey aləmə həyat saçan!

Ey qadın, ey qaranlıq içrə sabah!
Ey həyatın lətif bir səhəri,
Ey cahanın işıqlı bir gühəri,
Örtülü olduğun yer iştə siyah.

Qərbi parlatdıran camalındır,
Çarşafın Şərqi pərdədar etmiş,
Sübhü yox şəbliqa diyar etmiş.
Sübhi-sadiq sənin məalındır.

Açıl, ey sübhi-sadiqi-millət,
Gecə geymiş həyatımızsa yetər!
Parla, ey canlı nur, canlı səhər,
Ərisin bizləri udan zülmət!

## ƏZHARİ-ƏFKAR

Həqiqət, ey bəşərin sərmədi ilahəsi, çıx!
Görün qaranlığa batmışlara cəmalın açıq!

Görün ki, gündüzü gülsün bu leyli-dicurun,
Neçin bu Şərqimizə yağmayır gözəl nurun?

Nə yerdə yağdın–o yerlərdə rayihati-həyat,
Bunu bahari-təməddündən etdim istinbat;

Bütün çiçəkləri məhsulun-afitabından,
Bütün əsərləri bürhani-inqilabındır.

O Qərbdir ki, bu gün mə'kəsi-cəmalındır,
O ehtişami-həqiqət sənin cəlalındır.

Şekspirin* qələmi bariqati-əfkarı,–
Qucaq-qucaq atıyordu cahana ənvarı.

O yanda bir qoca Şitler, fəqir bir dahi,
Açar dururdu qələmlə həyatə şəhrahi.

Həqiqət, ey mədəniyyətfüruzi əqvamın, –
Gözü yolunda durur kainati-islamın.

Bax, iştə matəmə girmiş bu kainatımıza,
Bu ağlayışsa yetər, xəndə saç həyatımıza.

Bu ağlayışlı baxışlar da parlasın, gülsün,
Ölüm liqalı həyatı bu məşriqin ölsün.

Həqiqət, iştə oxu Şərqə tazə, tazə həyat,
Bu qövmi-müzlüm üçün bir işıqlı ruh yarat.

Qəmü ələmdə başım zibi-duşi-fikrü xəyal,
Öpərdi kirpiyimi yaş, dilimdə zilli-məlal.

Və qaşlarım aşağı, tutğun idi ənzarım,
Həzin hilal kimi nəydi, nəydi əfkarım?
Düşüncəm bu!

Libası həp gecələrdən, xürafədən hörülən –
Mühitimizdə işıqdır sönən, ölən, gömülən.

Həqiqətin günəşi söndürülmədə, bu nədən?
Yumulmada gözümüz yol açan o şə’şə’ədən.

Açılmadan soluyor bağımızdakı əzhar,
Behişti-Qərbdə parlar qadınlar ilə bahar.

Rical bizdə təhəkkümlə sərfərazəndə,
Neçin qəfəslər içində o cinsi-nazəndə?

Bizim çəməndə uçan fikri öldürür səyyad,
Fikir ölən günü xortlar kömülmüş istibdad.

Bu xortlaq iştə yenə qorxudur həyatımızı,
Məzarə bənzədiyor səhni-kainatımızı.

Neçin ki, yüksəliş ədasıyız, nədir səbəbi?
Həp alçalışmı bu Şərqin mətai-müntəxəbi?

Cahan ucaldı, ucalmaqda, daima ucalır,
Nə oldu Şərqə, nə oldu, nə oldu dalda qalır?

Bu canlı əs’ilə cür’ətli bir cavabə baxar,
Bu cür’əti-mədəniyyət bu yerdə yox, bizə ar!

## PƏYAMİ-DİLARAM

*Nisaiyyuna işarət*

*İstanbulda cinsi-lətif*
*darülfünuna qəbul edilir.*

Açıldı bağı-maarif o cinsi-nazanə,
Açılmadısa da hala o sitreyi-məl’un,
Sonunda nuri-həqiqət edər zülami zəbun,
Zavallı biz erəriz bir həyati-rəxşanə.

Səma günəşsiz olanda gecə cahanı qucar,
Bu yer günəşlərinə leylpuş olan yerlər.
Zülam içində yaşar, parlamaz nə gün, nə səhər,
Qadın ziyası göründükdə zülmət isə qaçar!

Həyatı bizlərə dadlandıran ki, nisvandır,
Bu cinsi həzrəti-fitrət həyata zad etmiş,
Bununla adəmi dilşadü bərmurad etmiş,
Pərəstiş etməli, nisvan mübəccəl ünvandır.

*Bakı, 22 fevral*

## BAHARİ-ƏFKAR

Qəlbimdə sənə bir əzəli eşqü məhəbbət –
Vardır, gözəlim, bəxş qılıb həzrəti-fitrət.
Qaynar, daşıyor ruhuma bu dadlı hərarət.
Hər yerdə adın gəlsə, o yerdir mənə cənnət.
Ey yer mələki, qaçma ki, sənsiz olan aləm –
Qəmlərlə, ələmlərlə dolu saheyi-matəm.

Bir saheyi-matəm ki, qaranlıqdır həyati,
Ağlar kimdir ərzi, göyü, altı cəhati.
Ruyunda duran kölgəyə bənzər zülümati,
Vəchin kimi məsturə durur çöhreyi-ati,
Ey yer mələki, qaçma ki, fəyyazeyi-cansan,
Fəyyazeyi-can, ani-cahan, huri-cinansan.

Ati güləcək açsa səhərparə cəmalın,
Şəblər yanacaq, qaçdığı günlərdə zilalın,
Məğribdəki şövkət, günəşim, əksi-cəlalın,
Sən aç qaşını, parlasın ənvari-hilalın,
Ey Şərq günəşi, çıx bulut altından, əyan ol,
Zülmati-mühitatımıza sübhfəşan ol!

Sənsiz yaşayan aləmə mən fatihəxanəm,
Bu məqbərəyə fatihəxan, naləkünanəm.
Sən solduğun üçün, a gülüm, mən də xəzanəm,
"Hər ruzü şəb əz-fikri-to dər ahü fəğanəm!".
Ey can çiçəyi, açmadı hala da baharın.
Əzhari-baharın və üzarın –
Əzhari-bahar, iştə, o məsturə üzarın.

Hər yerdə ki hüsnün doğuyor, şə'şə'əzadır,
Rüxsari-füruzanın ilə ruhfəzadır.
Qərb aləmini şanladan, əlbət ki, nisadır,
Məğribdə tülu etdin, o yer bəzmi-səfadır,
Ey yer günəşi, söndüyün aləmlərə zülmət –
Sərmiş qanadın, örtülüdür rahi-səlamət!

Azmış yolunu qafiləmiz, doğru yol istər,
Ey şəmsi-hidayət, çıxaraq sən yolu göstər.
Rəhbər deyirəm mən sənə, ey nuri-müsəttər!
Ey hadiyə, qaçma, açıl, et Şərqi münəvvər!
Ey yer günəşi, parla bu yer sübhə bürünsün,
Yırtsın şu qaranlıqları ki, yol da görünsün.

Hala mədəniyyət denilən çöhreyi-rəxşan,
Şərq aləmini etmədi tabanü dirəxşan.
Zülfün kimi müzlüm yaşayır Şərqi-pərişan,

Göstər üzünü Şərqə, a mə'budeyi-zişan!
At üzdən, əya aliheyi-ərz, niqabı!
Şənlət, işıq et şəb yaradan Şərqi-xərabı!

Ey hakimə, ey hakimeyi-ruhu həyatın!
Zülmət əriyor nerdə əyansa ləməatın.
Sən çıxmayan aləmdə durur zilli mənatın,
Parlar o cahan ki, ola mir'ati-sifatın.
Aç sətrəni ayineyi-ruyun da açılsın,
Bu Məşriqi-şəbrəngə səhər, sübh saçılsın.
Ey malikə, ey malikeyi-şəhri-lətafət,
Ey mülhəmə, ey mülhəmeyi-fikrü xəyalət,
Hər bir gülüşüne xəndəli bir şe'ri-nəzarət,
Hər bir baxışından uçar ənvari-məhəbbət.
Sən gülmədiyin yerdə yanar məş'əli-matəm.
Sənsən, gözəlim, sən mələkim, xəndeyi-aləm.

## DÜN AXŞAMIN İLHAMİ-YETİMANƏSİ

Dün axşam idi, mən gəziyordum yetim-yetim,
Bir yoldaşım var idi ki: hüzn ilə möhnətim...
Bir hüzndür ki, ayrılamaz kölgədir mənə,
Parlar bu kölgədə səhəri-şairiyyətim.
Məhzun gecən qucağa alır parlaq ayları.
Qəm torpağından oldumu aya şu fitrətim?..
Ləzzət duyar qəmlər, ələmlərlə varlığım,
Şad olduğum zaman mənə qəmdir məsərrətim.
Qaçsın yanımdan istəsə yarani-bivəfa, –
Qəm yardır mənə, bunu sevmiş təbiətim!
Yaşlar gözümdə inci kimi parlayırdılar,
Girmişdi şəkli-abə şu atəşli sərvətim.
Çeşmim səması parladıyordu o yaşları,
Çox yüksək idi şəhri-qəmə hakimiyyətim!
Qəmdir ki, ağlasam yaşımı şe'rə döndərir,
Qəmlər libas geysə, olurdu hüviyyətim.
Kəndim vətəndəyəmsə də, qürbət elindəyəm,

Ey hikmətaşina, bunu anlat ki, qürbətim –
Kəndi elim, kəndi yerimdir bu gün mənə,
Qürbətdəyəm, vətəndə dururkən həqiqətim.
Hər bir baxış ki, görmədəyəm, bir ilan qədər –
Ağu saçar, mənim yaşayırkən həlavətim.
Üzlər soyuq, qəbr daşı sanki çöhrələr,
Ey bivəfalər!.. Ölmədi hala hərarətim!..
Ən sevdiyim rəfiqəmə baxsam, gözündə var –
Bir kölgə, kibr kölgəsi. Amma ki, tinətim –
Almaqda intiqamını xəndan bir əfv ilə,
İstər fəna, istər eyi-iştə xilqətim!..
Olsun dilərsə öz vətənim dari-qürbətim,
Ölməz, ilahidir vətəni bir məhabbətim.
Əhli-vətən unutsa məni, mən unutmaram,
Bu millətə həp vəqf edilibdir məvaddətim.
İstərsə görməsin məni hüssad, qəm yeməm,
Parlar, durur gözlər önündə hidayətim.
Yüksək səs ilə söylərəm evladi-millətə:
Gündən-günə işıqlanacaq qalibiyyətim!
Bir qayeyi-əməl mənə caani-candır:
Yüksəlsin iştə payeyi-balayə millətim!

## ASİ ŞE'RLƏR

Ey üqdəsi açılmayan əsrari-kainat,
Ey anlaşılmayan əzəli validi-həyat!
Qayən nədir, anlamadım kainatdən,
Qəsdin nədir bu gözləri ölmüş həyatdən?!
Lazımsa gər həyat bu "canlı zülam" üçün,
Bir "cüft işıq" gərək ki, bu dünyaməqam üçün,
Ta görsün onlar ilə təriqi-məişəti,
Qərq eyləsin nəzərləri nur ilə zülməti.
Ə'malərə yer üstü də müzlim məzardır,
Vəchi-zəmin, ruyi-səma pərdədardır.
Kor xəlqi, kor həyatı yaşatmaq!.. Mən anlamam?!
Gözsüzlərə yer altıdır ən yaxşı bir məqam!
Göz olmaz isə, çöhreyi-aləm siyahdır,
Bilməz zavallı leylmi, ya ki səbahdır...

## QÜVVƏT, HƏYAT, ÜMİD...

*Yaşamağı sevirəm...*

*Manafzadə Sabit* yoldaşıma*

Mən bir əzəli aşiqiyəm rəngi-baharın,
Rüxsari-bahar açmada əzhari-həyatı.

Məftunəm, əvət, ruyi-dilarami-həyatə,
Var çünki həyatın dodağında nəğəmatı.

Ciddən yaşamaq qayeyi-amalım, a Sabit,
İçmək diləməm eyni-həyat olsa məmatı.

Gördüm ölümü xahiş edənlər züəfadır,
Qüvvətlilər istər yaşamaq min sənəvatı.

Gördükcə gözüm yerləri qarlarla kəfənpuş,
Çeşmimdə əyan olmada qəbrin zülümatı.

Zə'f əhli dilər mövti ki, şayani-ədəmdir,
Bilmiş ki, tükənmişdir onun qüvvəti-zatı.

Fəryadü fəğan, ahu ənin, naleyi-cansuz –
Düşkünlərin aləmdə budur həp nəqəratı.

Eşq əhlinə bax, boynu bükük, bağrı yanıqlı,
Avarə yetimlər kimi bitməz nəvəhatı.

Aşiq özü də dünkünüdür sərvəti-hüsnün,
Düşkünlərin əcfanı qucaqlar qətəratı.

Lakin gülüyor gözləri məğrureyi-hüsnün,
Parlaq üzünü öpmədə kibrin ləməatı.

Nəxvət sizə layiq, sizə bir həqqi-təbii,
Vermiş sizə hüsn alihəsi kibr bəratı.

Dildadeyi-azadəsiyəm fəsli-rəbiin,
Bənzər qadına incə, müzəhhər vərəqatı.

Mə'yus olamam haldən, əlbət rüxi-fərda–
Məşriqdə də parlar, gözəlim, çöhreyi-ati.

Ati əməlilə yaşayır dəhrdə əqvam,
Mə'yusların bağlı qalır rahi-nicatı.

Bir qövm ki, donmuş hərəkətgahi-cahanda,
Durmuş demək, iştə, o həyatın hərəkatı.

Donmaq da ölüm, hər hərəkət bir dirilikdir*,
Ərbabi-məmatın donar, əlbət, mələkatı.

Sabitqədəm olmaz bu cədəlgahdə, Hadi,
Bir qövm ki, yoxdur rəhi-əzmində səbatı.

*6 iyun*

## MÜƏMMAYİ-KAİNAT

Dəhrdə, bilməm nədir, qanla içənlər şanlıdır?
Caniyə imdad edən sərvətlidir, samanlıdır!
Şan-şərəf vicdanı azlarda, həqiqət boylədir!
Hümmət ərbabi şu insandır ki, çox vicdanlıdır!
Parlayan evlərdə can bəslər səadətpərvəran,
Atəşi-fəqrə yanan da, ey xuda, bir canlıdır.
Ağlayır, sızlar biri, min dərd, min alam ilə
Başqa bir şəxsin dodağı, üzləri xəndanlıdır.
İştə qanuni-təbiət: həq zəbuni qüvvətin,
Ovçu haqsızkən belə şəmşiri, tiri qanlıdır.
Haqqını talib olanlar bir takım biçarələr,
Həqqi inkar eyləyənlər oxludur, qalxanlıdır!
Həqq deyən, həqq söyləyən, həqq istəyənlər həqsiz,
Qüvvətə malik olanlar hər zaman yaranlıdır!..

Daima məğlub olan həqdir əlində qüvvətin,
Sanki “qüvvət” ingilisli, “həq” də bir iranlıdır.
“Həq qəvinin”dir– deמək, yə’ni şəririndir –demək,
Söyləyən bu hikməti qiymətli bir osmanlıdır.
Anladınmı xilqəti? Aləm zəbunküşdür, əvət,
İştə qanuni-təbiət boyləcə divanlıdır...

*15 iyun*

## ZAMANIN MƏZHƏKƏLƏRİNDƏN

*Şairlərə ithaf*

Qəlp pula döndü həp ilhamımız,
Qaldı kitab, qalmadı bir müştəri!
Hər kəsə versək də, deyir al geri!
Qaldı zavallı şüəra sərsəri.
Satılmayır zadeyi-ilhamımız,
“Çox yazıq olduq” deyirəm hamımız!

* * *

Boynu buruq, kisəsi boş, könlü qan,
Bir sürü əshabi-qələm hər zaman –
Kitab satanın üzünə baxmada,
Kitabçı söylər: “şe’rə yox baxan!”
Satılmayır zadeyi-ilhamımız,
“Çox yazıq olduq” deyirəm hamımız.

## XƏLUQUN PƏDƏRİ

*S.Səbur* bəradərimə*

Şe’rin, ədəbin nasiyeyi-şə’şə’ədari,
Dilsiz vətənin bir dəhəni-feyznisari.
Əcfani-bəşərdən tökülən atəşi-nabi
Şe’r inciləri yapmada əngüşti-rübabi.
Almas kimi göz yaşını kəskin nəzərinlə –

Görməkdə və şe'r etmədə dəsti-hünərinlə.
Bədbəxtlərə ağlayır avazi-rübabi,
Həp zalimədir, zülmətə tövciyi-xitabi.
Hər şe'ri birər naləsidir əhli-həyatın.
Fikrət, yaşasın varlığın ilə nəğəmatın.
Parlaq əməlin dəhrdə tənviri-həqiqət,
Ciddən də böyüksən sən, əya həzrəti-Fikrət!
Doğsaydı əgər Qərb cahanında o zatın,
Şayisteyi-təqdis olurdu şu dühatın.
Əfsus! Səni görmədə bu Məşriqi-naşad,
Ey hər sözü insanlıq üçün nəğmeyi-irşad!
Bir Şərq ki, möhtaci-ziya səhni-zülami,
Bir Şərq ki, acdır işığa xassü əvami.
Ey nasiyeyi-asiyə, ey zülmətə asi.
Ey fikri-nəcibanənin ən ülvi dühası.
Ey ruhi-ədəb, ruhi-füsunsazi-məali,
Ey aləmi-baladə uçan şairi-ali!
Şe'rin əbədi bakirədir, bivə olurmu?
Bir boylə gözəllik yaradan işvə olurmu?
Ey bakirə əş'ar doğan şe'r Məsihi,
Ey türklərin şairi-fəyyazü fəsihi*.
Küsmə, yenə ol samei-ruhi-ədəbiyyat,
Həp mürdədimağız, bizi canlat, bizi parlat.
. . . . . . . . . . . . . . . . . . . . . . . . .
Fikrinlə yaşa, elmü kəmalatı yaşat sən.
Meydanda durur iştə o "Tarixi-qədim"in*,
Məhsuli deyildirmi şu bir fikri-səlimin?

## XƏNDEYİ-ZƏFƏR

Mat olan məhcub olur baziçeyi-şətrəncdə,
Qalibiyyət kimdə qalsa, nəş'əyab olmaşqdadır.
Kim udarsa, dəhrdə rahətnisab olmaqdadır.
İştə dünya böylədir: məğlub olanlar rəncdə.

Səfheyi-şətrəncə bənzər bu cidalgahi-həyat,
Adəm övladi üzündə oynanan alatdır.
Kim ki mat oldu, nəsibi ahdır heyhatdır,
Kim ki mat etdi, nigahi xəndərizi-inbisat.

Eyləyən şətrənci icad arifi-hikmətnümun,
Göstərir ərzin kitabından gözəl bir yarpağı;
Qalibin yüksəklənir hər gün səmayə bayrağı,
Kim ki məğlub oldu, rayati-həyatı sərnigun.

## TİMSALİ-MƏLAL, HÜSNİ-MƏHZUN

Dün gedirkən yolumda gördüm ki, –
Bir gözəl hüzndari-möhnət idi.
Hüsni zəngin, fəqiri-sərvət idi,
Cazib idi o çöhreyi-mübki.

Atəşin hüsnü, parlayan ruyu –
Könlümə gözlərilə ot atdı.
Ruhi-məcruhumu alovlatdı,
Oldu zənciri-qəlb hər muyu.

Telləri sanki damgahi-siyah,
Baxışı dilfiribü dilbər idi.
Yerə enmiş səmavi düxtər idi,
Gönlümü ovladı o xüldpənah.

Öylə bir can ki, can alan afət,
Həm də canbəxş bir Məsihə idi.
Dili sözsüz, gözü fəsihə idi,
Gözləri, sözləri gözəldi, əvət.

Göz ki, bir çeşmeyi-baləğətdir,
Pək hərarətli söz axar ondan.
Arif anlar bunu, deyil nadan,
Göz sözü haizi-fəsahətdir.

Hüsnü məhzun bu dilrüba düxtər,
Məni də hüznünə şərik etdi.
Parladı, parladı, uçub getdi,
Zənn qıldım ki, söndü bir əxtər.

Yerlərin ulduzu, göyün huru,
Könlümü ovladı, qürub etdi.
Səhəri bad idi, hübub etdi,
Mən o hurun bu gün də məshuru.

## QANLI SƏTİRLƏR VƏ QAİLEYİ-HƏYAT

*Hüseyn Rza* barədərimə*

Hərbin yenə bir əjdəri-xunxarı dirildi,
Qanlı baxışı sahili-qovğadə görüldü.
Bir sahə ki, eylər baxan ənzari hərasan,
Bir sahə ki, başdan-başa bir məqtəli-insan.
Atəşlə dəmir yağmuru yağmaqda səmadən,
Sirab oluyur yer tökülən qırmızı ma'dən.
"Mey sun bana, ey saqiyi-gülçöhrə, səmadən
Səkran oluyor gavi-zəmin səfki-dimadən"*.
Bir səhneyi-xun, ərzi-ğünün, saheyi-vəhşət
İlqa ediyor göylərə min lərzeyi-dəhşət.
Başlar kəsilir, qan tökülür, can yanıyor, vah!
Musiqilərin nəğmələri söyləyir: ey vah!
"Ey vah! Bəşər məhv edərək məhv olacaqdır.
Hər ləhzə bu vadiyi-bəla qan dolacaqdır"*.
Mövtai dişilə baxıyor əhli-həyatə,
Də'vət ediyor canlıları iştə məmatə.

* * *

"Tarixə"ə baxın, diqqət edin doğru deyir ya:
Milyardlar ilə qanlar içibdir qoca dünya.
Hala da susuzdur bəşərin qanına zalim,
Yoxluqda qalardın sən, əya qanlı əvalim!

Təqsir təbiətdəmi? Ya bizdəmi? Diqqət!
Naqabili-idrakdurur işbu həqiqət!
Bir öylə həqiqət ki, nə xəndanü nə giryan,
Bədbəxt bəşər! İstərisən sən nə qədər yan!
Yan, yan nə qədər istərisən, yan ki, həqiqət,–
Zənn eyləmə eylər sənə bir zərrəcə şəfqət.
Meydani-dəğa səhni-qitali-bəşəriyyət,
Ən çox qan içənlər sayılır əhli-həmiyyət.

## HƏRBİ-MÜSƏLLƏS, YAXUD CƏNGİ-SEAHƏNG

Dəryadə hərb, yerdə də hərb, asimanda hərb,
Ey aləmin ilahi, nədir bunca hərbü zərb?
Dünyada hərb al yazılı bir kitabdır,
Son bayrağında son sözü: hökmü “limən ğələb”*.

Həp dalğalı dənizlərə bənzər həyatımız,
Başdan-ayağə qan yeridir kainatımız.
Kəşf etməyir bu hikməti-xunini fəlsəfə,
Həll etməli bu üqdəni kilki-dühatımız.

Əhli-düha da açmadı əsrari-aləmi,
Tənvir qılmadı bu şəbi-tuli-müzləmi.
Bu qırmızı qaranlıq olan ərzi-matəmi,
Gör, ağ günə çıxarmadı övladi-Adəmi.

Həll olmayır sərairi-məchuleyi-cahan,
Ruzi-əzəl kimi əbədiyyət qalır nihan.
Nəymiş bilinmədi bu cidalgahi-imtahan,
Ey ruhi-ə’zəm, iştə nə yapsın bu gümrəhan?

Yağmırmıdır? Xeyr! Göyün odlar saçır yerə,
Mövtün üqabı balü pər açmış səmalərə.
Buldum bir ad bu torpağa –səyyarə məqbərə,
Səyyarə məqbərən dönüyor indi məhşərə.

Təyyarələr ki, hakimeyi-asiman, əyan.
Bəhrü səfinə hərb hökümdari-şan, əyan,
Projektor isə pərtövi-xəşyətfəşan, əyan,
Alati-atəşin də cəhənnəmnişan, əyan.

Ətraf boş ki, yox bəşərə təkyəgah... ah!
Tutmuş rəhi-həyatımızı bir siyah, ay!
Şəb çox uzandı, yoxmu həqiqət səbah, ah!
Naafəridəmi səhəri-intibah, ah?

## FƏZİLƏT SAHİBLƏRİ

*Mustafa Sübhi* bəradərimə*

1

İlk əvvəl olurlar hədəfi tiği-bəlanın,
Ən son bilinir qiyməti cümlə füzəlanın.
Duşizə əməl qisməti olmuş budalanın*,
"Bədbəxt ona derlər ki, əlində cühəlanın –
Qəhr olmaq üçün kəsbi-kəmalü hünər eylər".

2

Nami dirilir, ölsə özü əhli-"rəha"nın,
Parlar sözü, söndükdə lisanı füsəhanın,
Ən sonda gəlir müştərisi "dürr"i-dəhanın,
Bəxt isə, həmaqət kimi: yarı büləhanın.
"Bədbəxt ona derlər ki, əlində cühəlanın –
Qəhr olmaq üçün kəsbi-kəmalü hünər eylər".

3

Əyriyi tutar, rastı atar dəsti zamanın,
Hər atdığı düz tir deyilmi şu kəmanın?
Ayinə tutur çöhrəsinə əhli-əmanın,
Ülviyyəti yerdən seçilirmi o səmanın?

Yüksəkliyini bilmədi, bilməz hükəmanın.
“Bədbəxt ona derlər ki, əlində cühəlanın –
Qəhr olmaq üçün kəsbi-kəmalü hünər eylər”.

4

Daim içiyor abının əshabi-həyanın,
Artırmadadır əkməyini əhli-riyanın,
Zülmətlə boğur bəxtini ərbabi-ziyanın.
Ey dəhri-səfil, arifəmi xas ziyanın?
“Bədbəxt ona derlər ki, əlində cühəlanın –
Qəhr olmaq üçün kəsbi-kəmalü hünər eylər”.

5

Xülyayə gömülmüş qalıyor adı vəfanın,
Amma ki, həqiqətdir özü zülmü cəfanın,
Cahillərədir meyli səadətlə səfanın,
Daim də gürizandır ümidi ürəfanın,
“Bədbəxt ona derlər ki, əlində cühəlanın –
Qəhr olmaq üçün kəsbi-kəmalü hünər eylər”.

6

Ağuşi-əsafil yeridir sanki ğinanın,
Vicdani-əalidə yeri rəncü inanın,
Peymanələri dopdolu peymanşikənanın,
Əhli-dilə bax! Yoxsulu bir lövməcə nanın!
“Bədbəxt ona derlər ki, əlində cühəlanın –
Qəhr olmaq üçün kəsbi-kəmalü hünər eylər”.

7

Qəmlər özü sərmayəsidir həp füqəranın,
Xuni-cigəri badəsi olmuş şüəranın.
Gündüz kimidir talei də “şəbgüzəranın”*,
Pabəndi-bəladır dili azadəsəranın,
“Bədbəxt ona derlər ki, əlində cühəlanın –
Qəhr olmaq üçün kəsbi-kəmalü hünər eylər”.

*15 avqust*

## ŞƏRAREYİ-ƏFKAR

Həqiqət təlxdir, amma müşabehdir o dərmanə,
İçəndə yandırır, sonra həyatə bəxş edir səhhət.
Cəsarətlə içənlər kəsb edərlər dadlı bir rahət,
Təbibin verdiyi zəhr olsa da bir xəstə insanə.

Şəfabəxşa dəvalər, şübhə yox, dadlı içilməz ya!
Mərizin könlü daim turşu istər, buzlu ab istər.
Bu cəmiyyət həqiqətdən ziyadə istəyir xülya,
Hilali qaşın, ey dilbər, günəşli inqilab istər.

## XABGAHİ-MÖVTA, İLHAMATİ-ƏMVAT...

*S.İbrahimov* qardaşıma*

Yol yapılmaq məqsədilə böyük kəlisanın ətrafı qazılır. Qazılan və təsviyeyi-türabiyəsi icra olunan yerlərdən isə, əbədiyyətə qarışmış olan fani insanların gəmikləri və yazılı daşları çıxır. Dünkü gün bu məzaristani-pərişandan keçdiyim zaman ənqazi-əmvat olan "ə'zayi-rəmimə" (çürük gəmiklər), bilxassə açıq qalan dişlər mənə sanki əzəməti-əbədiyyəni, ehtişami-fənanı oxuyub dururlardı. Bu əsnada bu həqiqəti-zəhrin müxəyyələmdə aşağıdakı şe'rləri yaratmışdı.

Keçərkən dün təsadüf eylədim: köhnə məzar üzrə –
Təhəccür eyləmiş tarixi gördüm rəhgüzar üzrə.
Şu daşlar kim, yazılmış hər biri tarixi-ibrətdir,
O məqbər daşları həp tərcümani-hali türbətdir.
Mürurilə dühurun cismlər olmuşsa da fani, –
Yazılmış sənglər baqi, birər tarixi-insani.
Əvət: baqi qalan daşlardı, fanidi bütün başlar,
Bütün dillər, bütün üzlər, bütün gözlər, bütün qaşlar
Bəşər tarixini dilsiz duran daşlar deyirlərdi,
Bəlağətkar səssizliklə parlaq söyləyirlərdi.
İşıqlı gözlərə mövtün əli torpaqlar atmışdı,
Bu ol gözlərdi ki, xilqət əzəl parlaq yaratmışdı!
Bütün gözlər işıqsızdı, baxışsızdı, süxənsizdi,

Cahandan bir kəfən geymiş bəşər şimdi kəfənsizdi!
Dodaqsız dişlər üstündə dururdu bir bəyaz xəndə,
Nə müstəhzi gülüşlərdi həyata qarşı mədfəndə!
Bütün gözlər türabalud ikən də xakizarında,
Təbəssümdari-istehza idi dişlər məzarında!
Bu matəmgahi-dünyayə gülürdü sanki ölmüşlər,
Yer üstündə bəşər ağlar, gülər xakə gömülmüşlər.
O ləhzə vəqfəgiri-heyrət oldum qəbrgah üzrə,
Qaranlıq çökdü gördüm ki, güzərgahi-nigah üzrə –
Bütün dünya qaranlıqlaşdı, fikrim parladı, lakin –
Durub baxdım yer ilə göylərə məbhutü pək sakin:
Yenə yerlər o yerlərdi, yenə göylər o göylərdi,
Yenə bağlar yerindəydi, solan ancaq çiçəklərdi.
Zəmin eyni zəmindi, sərsəri gəzməkdə, dönməkdə,
Gəhi rəngin baharara, gəhi solğun görünməkdə.
Gəhi bakir çiçəklər anladır gülüzlü əbkarı,
Dönər bir tairi-ilhamkarə şair əfkarı.
Gəhi bir inqilabi-qönçəsuz ilə səma ağlar,
Ölür çünki yer üstündə bu parlaq canlı yarpaqlar!
Bəşər də bir müvəqqət gül, cahanda bir zaman parlar,
Sönər bir gün baharı, son iqamətgahı torpaqlar!
Günəş o, ulduz o, ay və o yenə boşluqda sairdir,
Zəmin məqbər, səma qübbə, şu ulduzlar da zairdir!
Və ya ki, şəm'dir onlar, asılmış qəlbi-əflakə,
Saçırlar matəmi-şö'lə bu qəbristan olan xakə.

## ŞEYTANİ-RƏCİBİN CƏNAB RƏHİMƏ XİTABƏLƏRİ

Mən söylədim əvvəl sənə, ey xaliqi-adəm,
Xəlq eyləmə bu adəmi, bərbad olur aləm.
Qanlar tökəcəkdir, verəcək xaki fəsadə,
Ləzzət duyacaqdır, bilirəm, səfki-dimadə.
Əkdikləri xeyr olmayacaq, cümləsi şərdir,
Bir "bey"i"- "şər"ə təzyid edəm, bax ki, "bəşər"dir.
İlk hərfini tənqis edəlim "adəm" olur "dəm",

Xunriz olacaq, ey mənim Allahım, o adəm.
Məscudi-məlaik ediyorsan, bu bəşərdir,
Mahiyyətini mən bilirəm sacidi-şərdir.
Şayani-pərəstiş olamaz adəm, ilahi,
Mahiyyətini anlayıram mən ki, kəmahi.
Xəlq etmə bunu, xəlq edilir şeymidir insan?
Bir dinləmədin fikrimi, ey xaliqi-imkan.
Ustadı idim mən ki, cahani-mələkutun,
Ey hakimi əflak ilə xakin, cəbərutun!
Mətrudi-behişti olanın nəsli-kərimi (!)
İştə unudub sən kimi bir rəbbi-rəhimi.
Mən söylədim əvvəl sənə xəlq etmə, tökər qan,
Bax adəmə, təsdiq elə şeytani-rəcimi.
Duzəxlərə şayistə olan mənmi, ya adəm?
İnsaf üzündən buyur, ey adili-ə’zəm?!
Minlərlə sənə keçdi, yenə adəm o adəm,
Sən duzəxi söndür, bu cahan oldu cəhənnəm.
Hala deməyir adəmin övladi: "zələmna!"
Lakin demiş idi bu sözü adəmi-mətrud.
Neymiş bu bəşər zadəsi, mövcudi-"şəbalud"?
Mən nolduğunu söyləmiş idim sənə rə’na.

## AŞİQİ-GİRYAN, CANANİ-XƏNDAN

*A.Səhhət* qardaşıma ithaf*

1

Hala yaşayır həyati-şəbrəng –
Altında nücumi-zahiratın,
Həp qəmli təranə, qəmli ahəng –
Üstündə şu əsgi kainatın.

2

Sərməstiyi-nab içində dilbər,
Ərbabi-niyaz giryəpərvər,

Məğrureyi-hüsndür gözəllər,
Sövdazadələr nəsibi qəmlər!..

3

Hala niyə dilbərani-fəttan –
Üşşaqdən olmada gürizan?
Aşiq nəzərində parlayır yaş,
Xəndidə yenə nigahi-canan.

4

Busəşgəhi-xəndədir fəmi-yar.
Bir xəndə olaydım, ah, mən də,
Parlaq yaşayardım o dəhəndə –
İştə nə gözəl xəyali-didar!

5

Ya bir gül olaydım, ey baharım,
Ənbər saçına qonub öpərdim,
Bə'zən əlin ilə əylənərdim,
Ey zülfü gecə, üzü baharım.

6

Bax, bax da: nə bəxtiyar güllər,
Sinəndə durur o bəxtəvərlər.
Bə'zən də o dəsti-nazikinlə –
Güllər oluyor saçında zivər.

7

Ey zülfi siyah, nuri şəbfam,
Ey qönçələb, ey yanağı gülşən!
Sənsiz bu cahan olurmu rövşən?
Bu şe'rləri sən etdin ilham.

*Bakı, 29 avqust*

## AÇIQ VƏ AYDIN DÜŞÜNCƏLƏR

*"Parlaq yaz!" deyənlərə*

Deyirsiniz mənə: "əş'arı gəl açıq söylə,
İşıq düşüncə yarat, doğrudan da çox sevilə.
Dərin düşüncələri bilməyir cəmaətimiz".
Bizim də var bu gözəl sözlərə qənaətimiz.
Dərin düşüncə nədir, söz gərək dayaz olsun,
Bulut geyinməyərək, söz üzü əyaz olsun!
Qadın deyil ki, düşüncə üzündə örtü tuta!
Qaranlıq iştə o parlaq, gözəl cəmali uda.
Gecə içində neçin gündüz olmalı gizlin?!
Sözün üzü açıq olsun, deyil ki, söz də gəlin!
Göyün üzü açıq olsa, işıqları parlar,
Nədir sözün yanağında duran qaranlıqlar?!
Sözün canilə dirilsin həyatı ölmüşlər,
Diri-diri gəziyorkən məzarı dönmüşlər.
Deyirsiniz: "işıq olsun, parıldasın sözlər –
Ki, doğru yolları görsün bu əqli gözsüzlər.
İşıq düşüncələr ilə işıqlanır millət".
Ana dili! Buna lazım həqiqətən hörmət!
Gözəl deyirsiniz, amma qolaymı hər əsəri –
Açıqca, sadəcə yazmaq? Pək incə şe'rləri –
Libasi-ləfz ilə parlatmaq, eyləmək ziba –
Həqiqətən də çətindir. Bu nazənin zira –
O rütbə nazlı, o rütbə nəzih dilbərdir –
Ki, incə kiseveyi-əlfazə meylpərvərdir.
Lətif əlbisə istər məlaiki-əş'ar,
Gözəl olanlara nazik libaslar yaqışar.
Nədir, bilirmisiniz, şe'r? Nurdən məstur –
Xəyal gülşəninin nurudur bu zadeyi-nur!
İşıqlı fikrlər iştə bunun di, dayəsidir,
Rüxi-səhifəyə qonmuş o nur sayəsidir!
Olurmu kölgəsi nurun? Əvət! Qadındır nur,
Onun da kölgəsi vardır: yerin üzündə zükur!
Qadınla şe'r iki həmşireyi-lətafətdir,
Qadın təməssul edən ruhi-zizərafətdir.

## TAMAŞAYİ-RİQQƏTƏNGİZ

Dün bir kişi, varlı bir adəm, qürurkar;
Vəchində kibrlər oluyordu şərərnisar...
Əllər cibində, kibr gözündə əyan idi,
Gücsüzlərə həqarət edən (!) idi.
Duzəxliqa, cəhimtəbiət nigahı var,
Əxlaqının dənaəti alnında zillvar.
Bənzərdi gözləri ilana: odlu, çox acı.
Ruhi-xəbisinin də şu siması–dilmacı!
Qırmaclayırdı çeşmimi, baxsam şu surətə,
Ayinədir cəbini-bəşər şəkli-sirətə.
Bir güzgüdür ki, nasiyəsi adəmiyyətin,
Eylər iraə yaxşı-yaman, nəysə xislətin!

* * *

Hammal, dalında bari-giran, binəva, fəqir,
Yoxsulluğun zəbunu olan bir zavallı pir,
Bir tifli-saldidə ki, yetmiş yaşındadır,
Solmuş bahari-ömrü şitalər başındadır,
Qarlar geyibdi bəxtiqaranın bütün tükü,
Gəldi, dayandı, qoydu yerə arxadan yükü.
Donmuş həyatı, tər töküyordu, dedim ki ya –
Həp ziddlərdə cəm olur, ey hikmətaşina.
Alnında danə-danə düzülmüş tərləri,
Tərdir həmişə rəncbəranın gühərləri.
Köksündə də həp incilər idi parıldayan,
Alnıyla ruyunu tər idi həp qucaqlayan.
Qoydu yerə dalındakı dükançı malını,
Tər silməyə çıxarmış idi dəstmalını.
Bir kirli yaylıq idi fəqirin əlindəki,
Ondan da kirli idi şu pirin tənindəki,
Yə'ni libası da pis idi, çirkdar idi,
Bəxti-səfili-şəxsi kimi ixtiyar idi.
Yaylıqla toplayırdı üzündən o tərləri
Atəşli sə'ydən doğan abi-gühərləri.
Odlu günəş də axşamadək başda tacıdır,
Netsin zavallı, ab ilə nan ehtiyacıdır.

* * *

Birdən-birə nə olduğunu bilmədim, vəli –
Gördüm üzünə sillə vuran güclü bir əli.
Baş ağ ikən, beli bükük ikən, bədən zəif –
Piri-fəqiri vurdu o zəngin, dəni hərif.
Tab etmədi bu zərbəyə həmmal olan fəqir,
Düşdü yerin qucağına bidəstgir pir.
Düşdü, yıxıldı, ağladı üstündə yerlərin,
Bilməm neçin qızarmadı rüxsarı göylərin?!
Əkmək deyil yedikləri, silləydi şartaşart,
Müzlim göründü çeşmimə afaq, kainat.
Sökdü tökürdü nur kimi rişbəyazinə,
Baxdım zavallının nigəhi-giryəsazinə.
Mə’tufi-asiman nəzəri-əşkpərvəri,
Göydən təsə’üli-mədəd eylərdi gözləri.
Yer dilsiz idi, göy də qulaqsız, bəşər əma,
Yer əbkəmiyyətində, guşsuz idi yenə səma.
Yoxdu mədətçi, çoxdu tamaşaçı didələr,
Pir ağlayırdı, başqa nəzərlərdə xəndələr.
Daşdan yapılma dillərə sahib olan bəşər,
Məxluqlər içində təməssülnümayi-şər.

* * *

Tədqiq üçün dayanmış idim hali-aləmi,
Gördüm himayədari-zülm imiş övladi-adəmi.
Qaşla, göz ilə, sözlə deyirdi o: “pah, pah!
Çox yaxşı döydü ha! Qocadaydı tamam günah!”.
Hər dil açıldı, söylədi, diqqətlə dinlədim,
Bir dil olur, fəqirə tərəf söyləyər, dedim.
Hər dil danışdı xeyrinə işdə o zalimin,
Gördüm müinidir bəşəriyyət məzalimin!..
Hər bir baxış fəqirə gülürdü həyat boyu,
Bir rəhm edən yox idi, əvət, kainat boyu.
Hər bir baxan nəzərdə şu mə’na parıldadı.
Mə’nanı anladım, o zaman könlüm ağladı.

Gözlər deyirdi çox gözəl oldu döyülməmək!
Əlbət təbiidir bu cahanda söyülməmək!
Yoxdur sənin hüququn, əvət, yox ki, qüvvətin,
Zurun ki yox, təbiidir, əlbət, həqarətin.
"Həqqü hüquq"– bunları qüvvət tanırmı? Heç!
"Qüvvət" hüquq nədir anlayarmı? Heç!
Baxdım da "nasə" həqq görüyordu həqarəti,
Alqışlayırdı gözləri bazuyi-qüvvəti.
Bir kimsə çıxmadı görəyim həqpərəst imiş,
Alqışlanan hüquq deyil iştə zurdur,
Güc kimdə isə, dəhrdə əhli-hüzurdur.
Hər bir baxışda zaribə qarşı sücudkar,
Qalmışdı ortada unudulmuş bir ixtiyar,
Mən anladım ki, fəqr böyük bir günah imiş,
Əshabi-fəqrə hər sitəm etsən, mübah imiş.
Dünyadəki cəlali-münəvvər də qüvvətin,
Məhkumudur ya aciz olan hakimiyyətin!

*Bakı, 14 sentyabr*

## LİVAYİ-ZƏFƏRİN TAMAŞASI

Çıxanda göylərə şəhbali-e'tilayi-zəfər,
Qanadlanır daha balalarə səmayi-zəfər.
Sürurdən gözüm ağlar, dil açsa nayi-zəfər,
Siyasət aləminin ruhudur: qüvayi-zəfər.
Hilalə yüksəlirəm, dinləsəm həvayi-zəfər,
Ziyafüruzi-nigahsən sən, ey livayi-zəfər!

Xərabələr yaradırsan, sonunda imran var,
Vücudlər qanadırsan, yanında dərman var.
Dumanların dalı qatda şümusi-rəxşan var,
O tövr zişərəfində səmavi bir şan var.
Hilalə yüksəlirəm, dinləsəm həvayi-zəfər,
Ziyafüruzi-nigəhsən sən, ey livayi-zəfər!

Sən öndə sərbesəma, fahehanə ənvarın,
Vüquri-qamətin ilə qüruri-rüxsarın –
Oxur mənaqibi-tarixi fəthi-didarın,
Zəfər səhifəsidir çöhrəsi ələmdarın.
Hilalə yüksəlirəm, dinləsəm həvayi-zəfər,
Ziyafüruzi-nigəhsən sən, ey livayi-zəfər!

Tökülmüş arxana millət, bütün nəzər səndə,
İşıq alır kimi hər çeşmi-xəndəvər səndə.
Bunun həqiqəti şu: ləm'eyi-zəfər səndə,
Ziya mümıəssilisən, şübhə yox ki, fər səndə.
Hilalə yüksəlirəm, dinləsəm həvayi-zəfər,
Ziyafüruzi-nigəhsən sən, ey livayi-zəfər!

Sən öndə, arxada musiqilər tərənnümsaz,
Öpər qulaqları, oxşar o dilnəvaz avaz.
Yerin üzündəki canlar olur səmapərvaz,
Nə xoş bu nəğmeyi-canpərvərü zəfəravaz.
Hilalə yüksəlirəm, dinləsəm həvayi-zəfər.
Ziyafüruzi-nigəhsən sən, ey livayi-zəfər!

Qadın, çocuq kimi canlı süyuli-cuşavər
Zəfər livasinə baxmaqla gözləri ənvər.
Livayi-həmd ucalmış nümuneyi-məhşər,
Demək ki, nəş'əti-üxra imiş cahanda zəfər.
Hilalə yüksəlirəm, dinləsəm həvayi-zəfər.
Ziyafüruzi-nigəhsən sən, ey livayi-zəfər!

*Bakı, 6 oktyabr*

## ÜMİD SƏHNEYİ-TAMAŞAYİ-HƏYATIN RUHUDUR

Mən bir günəşəm, yerdə əyandır ləməatım,
Şe'rimdə parıldar duruyor çöhreyi-zatım.
Yoxdur zərəri, keçsə də fəqr ilə həyatım,
Kim olduğumu bildirəcək bil ki, məmatım.
Fərdayi-üfulumda bu qövm ağlayacaqdır,
Lakin gözümü dəsti-əcəl bağlayacaqdır.

Mən solmalıyam ta ki açılsın da baharım,
Mən sönməliyəm şə’şə’ələnsin də naharım.
Mən ölmədən əvvəl vətənim oldu məzarım,
Ərbabi-zəka düşmənidir indi diyarım.
Söndükdə zəka əhli-vətən ağlayacaqdır,
Göz incisi-yaşlar o zaman parlayacaqdır.

Ən son diləyim: məqbərim olsun vətənimdə,
Təndir vətənim, olmalı canım da tənimdə,
Ruhum ki mənim qalmayacaq bu bədənimdə,
Quş şəklinə girsin, qanad açsın çəmənimdə.
Əndamımı ağuşi-ədəm saxlayacaqdır,
Fərdayi-məmatımda adım parlayacaqdır.

Bəxtim kimi olsun kəfənim, yə’ni siyəhnak,
Heykəl dilməm, heykəli-qəbrimdir o əflak.
Millət işıq olsun, məni udsun bu siyəh xak,
Ancaq dilərəm qövmim ola sahibi-idrak.
İdrakı olanlar məni sonra qanacaqdır,
Bir qövmi dirildən də cahanda qanacaqdır.

Mən ölmədən əvvəl vətənimdir mənə məqbər,
Çünki vətənimdir, buna olmam ki, mükəddər!
Yurdum da anamdır, bütün övladı bəradər,
Mən istəyirəm: olmalıdır həpsi münəvvər.

Qaldıqca qara əhl, ziyanı qovacaqdır,
Bir gün gələcək səhvini də anlayacaqdır.
Ulduzlar əməl, leyli-həyatımda dirəxşan.
Dilbər kimidir xəndeyi-məcrur ilə xənda.
Gəh-gəh açılır, gəh oluyor pərdədə pünhan,
Bir işvə verir, can alıyor, sonra gürizan,
Ol afəti-can bir gün olur ram olacaqdır,
Dil bülbülü həmbəzmi-güləndam olacaqdır.

## PARLAQ GÜNƏŞ ALTINDA İŞIQSIZ GÖZLƏR

Görməyir gözləri, özü möhtac,
Gediyor, rəhnümasıdır bir ağac.

Gözü sönmüş zavallı bir adəm,
Nəzərində bütün cahan matəm.

Parlayır göydəki günəş par-par,
Şəbliqadır korun gözündə səhar.

Yerin üstündəki bu canlı xəyal –
Uyuyordu dəhəngüşayi-süal.

İki çeşmi ziyayə həsrət idi,
İşıq aləm gözündə zülmət idi.

Gediyor yolda, örtülü nəzəri –
Nədədir? Görməyir ki, rəhgüzəri?

Günəş iştə cahanə nurəfşan,
Yerin üstündə bir işıqsız can.

Dəyənək əldə rəhnüması, gəzər,
Canlıya cansız olmadı rəhbər.

Qorxuyor getdiyi yolu itirə,
Taq, taq, taq... vurur ağacı yerə.

Gəh durar qarşısında dükkanın,
Əl açar, yalvarar, Bu ə'manın –

Qəmli idi həyati-müzliməsi,
Sönük idi gözü misilli səsi.

Duruyor sərbəduş biçarə,
Bənzəyirdi işıqsız əş'arə.

## [NİSVANI SANMA YALNIZ, SƏRDARİ-ZİHƏŞƏMDİR]

Nisvanı sanma yalnız, sərdari-zihəşəmdir,
Hüsnilə zizəfərdir, anilə möhtəşəmdir.
Qaşı, gözü, cəmalı – qüvvətli üç hökumət,
Birdən hücum edərsə, gülməzmi qalibiyyət?!
Ahu baxışlarilə məğlub olur qəzənfər,
Məğlubu gör – qəzənfər!.. Ahuya bax – müzəffər!
Daratü ehtişamın bir xəndeyi-ləbindir,
Qaşın zəfər hilalı, çeşmin də kövkəbindir.

## ÜMMƏHATİ-HƏYAT, YAXUD CİNSİ-LƏTİFƏ BİR BAXIŞ

1

Ana bir bağ, çiçək açar qucağı,
Canlı güllər yaşar o cənnətdə.
Ananın qucağı cənnətdir,
Bir mələkdir cahani-xilqətdə,
Şəkli-insandadır o can yatağı...

2

Ana gülşən... çocuq onun çiçəyi,
Parlaq əzhar açar gülüstanı.
İki çeşmə: iki bu püstanı,
Gül böyütmək bu çeşmənin əməyi.

3

Sənə hörmətlər, ey behişti-həyat!
Ey qadın!
Olmasaydın, yeri qucardı məmat,

Varlığındır bunu edən isbat,
Varlığın varlıq eyləyir inbat.
Ey müqəddəs ana!

4

Ey sevimli ana, bu ağuşun –
Yavrunun ilk bəslənən yeridir.
Çocuğun bağının güli-təridir.
Ləbimizdir sənin ləbənnuşun.

5

Doğdu səndən həyati-cəm'iyyat,
Doğduğundan da doğdu müxtəreat
İştə, ey mənbəi-məaliyyat,
Ümməhati-həyati-ülviyyat!

6

Vaxt olurdu,
Vaxt olurdu beşik qucağında –
Uyuyurkən mışıl-mışıl bizlər
Bəlkə ağlar – deyə – çocuq, bəklər,
Duruyordun yataq qırağında.

7

Baxıyordun, öpərdi didələrin
İsti-isti çocuq cəmalımızı,
İstəməzdin, ana, məlalımızı,
Çünki ruhundur afəridələrin:
Yə'ni övladın.

8

Mehriban gözlərin, sıcaq baxışın
Yaşadırdı bizi hərarət ilə,
Qadına bənzəyən nəzakət ilə
Dadlı idi, gözəldi yalvarışın,
Pək də ahəngdar bu oxşayışın.

9

İncəlikdən yaranmış iştə tənin,
Ey qadın, mənbəi-nəzakətsən,
Sən təcəssüm edən lətafətsən.
Hörmətin göüləri sənin vətənin.

10

Yatmış ikən duranda növzadın,
Gecələr ağlayanda qalxar idin –
Yatağında, a möhtərəm məxluq!
Səni gördükdə can atardı çocuq,
Göksün ilə onu qucaqlar idin –
O zaman.

11

Yaşayırdı məmən dodağında,
Oxşayırdın ki, ağzı gül açsın;
Gülərək ruhuna çiçək saçsın,
Xəndələr doğsun, ağlayış qaçsın,
Xəndələr doğurmaq üçün –

12

Səslənirdi ləbin yanağında,
Sanki bülbül yaşardı bağında,
Çocuq iştə gülün budağında.
Gülüyordu sənin quğacında –
Qönçeyi-zində, ballı bir xəndə.

13

Çocuğun çöhrəsində rəngi-bahar,
Ləbi gülzari-xəndeyi-əzhar...
Olmuş idi gecə çiçəkli nəhar,
Bunu gündüz yapan nəvazişi-harr,
Yə’ni madər oxşayışı.

14

O sıcaq oxşayış ki, madərinin –
Uçuyordu ləbü dəhanından,
O gülüşlər ana cahanından –
Doğuyordu,
Öpüyordu fəmin güli-tərinin.

15

Bus edərdi bu tifli-xəndanı –
O gülüşlər içində xabi-lətif,
Uyudurdu onu xəfif-xəfif,
Əmiyorkən çocuq da püstanı.

16

O sıcaq madəranə ətvarı
Uyudurdu bizi hərarət ilə:
Mehriban, lütfkar ənzarı
Öpüyordu bizi məhəbbət ilə.

17

Çocuq ağuşi-xabə düşmüş ikən –
Məmə hala dodaqdan ayrılmaz,
Ana da çəkməyə onu qıymaz,
Uyqudan tifl ayılmasın, uyusun.
Ananı anla, ey hüquqşikən!*

18

Həqqi-madər bülənd payəlidir,
Həqşünasan edər bunu iqrar,
Hiç yüksəlməz eyləyən inkar.
Gün tutulsa, zəmin də sayəlidir.

19

Bir günəş var, yerin üzündə doğar,
Parlan ismi: qadın! Bu canlı günəş –
Qərbə ruyilə oldu şə’şə’əbəxş,
Şərq eli bu cəmalə pərdə tutar.

20

Böyüdür, parladır bu növzadı,
Məməsilə, o süd bulağilə,
Dirilik bəsləyən qucağilə.
Sonra gör ki, bu zalım övladı:
Hiç utanmaz və hiç qızarmaz ki!

21

Ana! Eylər hüquqini pamal,
Üzünə, həqqinə çəkər pərdə,
Olmuş ikən südünlə pərvərdə,
O səbəbdən ki, çöhreyi-amal
Bu mühit içrə sayəpuşi-cəmal!

22

Günəşi, gündüzü, hilalı bu gün –
Məşriqin kölgələr geyinmişdir.
Dirilik nuru sanki sönmüşdür,
Hər duruş qəmli, hər baxış küskün.

23

Sən bizi canlandırdın, ey madər,
Ey qaranlıqların içində qalan!
Parlayan Qərbdən biziz qovulan,
Tərdə şayistədir əşərr bəşər!

24

Şərqin amalı, fəcri-iqbalı
Öprtülü... Qərb açıldı, oldu sabah.
Olduğuyçün qadınlarında cinah –
Açdı Məğrib səmayə şəhbalı.
Əlbət, səfil olursa qadın,
Alçalır bəşər!

25

Uzünü örtmədə zülami-niqab,
Onun üçün də kölgələr geydi –
Millətin kainati-ümmidi!
Çıx ki, yansın işıqlarınla səhab!

26

Mədənilər yanında yox ki, yeri
Fikri, idrakı vəhşi əqvamın.
Nerdə açdı rüxi-şəfəqfamın,
O yerin doğdu çöhreyi-səhəri.

27

Mədəniyyət biz ilə istehza –
Ediyor, əylənir, nədən əcəba?
Çünki baziçə oldu, bizcə, nisa,
Bizə ancaq budur cəzayi-səza.

28

Çeynəyənlər hüquqi-nisvanı –
Çeynənirlər, bu bir həqiqətdir
Buna fərman verən təbiətdir,
Çeynəyən, çeynənir, bu fərmanı...

29

Biz də qurbanıyız bu fərmanın,
Əzəli hökmdür... Nə yapmalıyız?
Bu siyəhru niqabı yırtmalıyız.
Parlasın həqqi, ruyu nisvanın.

30

İşıq olsun onunla rahi-həyat,
Qoşalım parlayan yol ilə gəlin!
Pək də sür’ətlə qayeyi-əməlin –
Arxasında və öndə şəhri-nicat.

31

Xaliqati-həyat madərdir,
Anaya olmalı pərəstişkar,
Həqqi-qüdsiyyətin edən inkar
Mədəni çeşmələrdə əhqərdir.

32

Gözəl düşününüz!..
Dəli, Avropamı və ya ki, biziz?
Bu sual istəyir ağıllı cavab.
Söyləyin, anladın nədir əsbab,
Nədən olduq zəlilü xanəxərab?
Əməl üfqündəki nədir o səhab?
Bir günəşdir qadın, üzündə niqab,
Günəş olmazsa, parlamaz gündüz.

33

"Təl'ətüşşəms min məğaribiha"*.
O səmapayə ruyu nisvanın,
Ey qadın, çöhreyi-dirəxşanın –
Və həyatın, həyati-rəxşaın –
Açdı Məğribdə şahrahi-rəha.
Doğdu səndən cahan bəhalı düha.

34

Dəli Avropamı? Biziz məcnun!
Öylə hümmalıdır* ki, cinnətimiz,
Həzəyanlar saçar təbiətimiz,
Yenə müşkül deyil ki, səhhətimiz.
Ölməli mütləqa cəhalətimiz,
Analar olmalı həyatnümun.

35

Qadın ismi gələndə daş düşüyor
Sanki başımıza həp!

Bu ədavət nə əcinsi-nazanə,
Cinsi-nazəndəvü füruzanə?
Zülm edənlər hüquqi-nisvanə –
Zülmətə doğru bilməyir qoşuyor.

36

Ölmədən də qaranlıq içrəyiz, a –
Bu işıq yer üzündə bizlər ya!
Mədəni qövmə cilvəgahi-ziya –
Kainati-həyat olan dünya
Duruyor qarşımızda qəbrliqa!

37

Ölüdür Şərqdə həyati-nisa!
Onun üçün buna məzar derəm!
Qəri gördüm, bu ərzi-imranı,
Çiçək açmış həyati-nisvanı.
Şərqi gəzdim, bu xaki-viranı,
Bu pərişan cahani-xüsranı
Matəməfza məzarə bənzədirəm.

38

Ey gülü solğun, ey riyazı xərab!
Noldu buyun, o rəngi-rüxsarın?
Niyə böylə saraldı əzharın?
Neçin uçdu o parlaq ənvarın?
Ağlayır bülbüli-nəğəmdarın...
Görəcəkmi bu bağ rövnəqü tab?

# ƏLVAHİ-NƏFASƏT

*Şairi-nəzahətpərvər*
*Hüseyn Cavid* bəradərimə*

1

Bir ildırım olsam da, əritsəm gecələrdən –
Bir parça olan örtüyü gülüzlü səhərdən.

Gülüzlü səhər, iştə, qadındır bu firiştə,
Yolgöstəri versin, girəlim biz də behiştə.

Mən Şərqə cəhənnəm deyirəm, Qərbdə də cənnət,
Parlar, duruyor Qərbdə əlvahi-lətafət.

Tə'rif edəcək kəlməsini yox, aradım çox –
Qamusu təmamən, a xudavəndiyi-məxluq!

"Xurşid" desəm, gün də sönükdür nəzərimdə,
Sən kölgəlisən, ey günəşim, rəhgüzərimdə.

Sən kölgəli oldun ki, işıqlar da büründü –
Bir kölgə kimi Şərqdə, yerlərdə süründü.

Təyyarəyə mindi, göyə uçdu doğuran, sən –
Övladın, əya madəri-ali, görüyorsan.

Məşriqdəki oğlun deyir: örtün və bürün sən*.
Bu möhtərəm övladına aya nə deyirsən?

Ziynət sənə zindan, sənə pirayə əsarət –
Olduqca yaşar xaki-səfalətdə bu millət.

Sən açmaz isən, bizlərə ümmidi-rəha yox.
Hürriyyətə həsrət qalacaq, bil ki, bu məxluq.

Mərdanı doğan, bəsləyən, iştə böyüdən sən,
Gündüzləri, axşamları daim də güdən sən.

Ey qönçə açan, qönçə saçan gülşəni-məstur!
Ey zülmət içində boğulan xaliqeyi-nur!

Bax, boğmadadır bizləri də dudi-xürafat,
Sən parlamasan, yanmayacaq, bil ki, bu afat.

Əfkarımıza hakimə Əhriməni-övham*,
Yəzdani-nicat ol bizə, ey huri-ilham!

Ey huriyi-ilhamı, xudavəndi bu xakın,
Artıq yetişər, açmalıdır çöhreyi-pakın.

Bədbəxtləriz, bəxti açan sənsən, a nisvan!
İmdadə yetiş, kafi deyildirmi bu xüsran?

Yüksək yaşayan qövmləri sən ki, yucaltdın,
Məğribdəki parlaq günəşi sən ki, yaratdın,
Ey madəri-fəyyaz!

2

## ÇÖHREYİ-FƏRDA BU GÜN AÇSIN...

Mən istərəm bu ruzu ki, fəryadə bənzəsin,
Deyilmi məhal?
Huri-zəmin də açsın, əməllər gülümsəsin,
Nə dadlı xəyal!
Örsün ləbi-şükufəni al xəndə, al həyat
Gülşən də parlasın.
Etsin məşami-ruhumu sərməst rayihat.
Könlümü dilbər qucaqlasın.
Dönsün qadınla mən yaşayan yer məzahirə,
Açılsın təbiətim.
Gül dəstə-dəstə, istə, al əş’ari-zahirə,
Versin də cənnətim.
Mən istəməm də öpsün o cinsi-lətifi, ah,
O məl’un niqablər,
Nurdan hörülsə də üzü tutmuş olan siyah,

Yerə keçsin hicablər!
Göydən də ensə yırtılı versin ki, pərdədir.
Söyləyim ki, səbəb nədir?
Məğribdə öldü, Şərqdə şəbafəridədir,
Ə'malı burda, Qərbdə çoxdan dəridədir.

3

## "ÖRTÜN" DEYİRSƏN?..*

Mən istəməm bu örtüyü, ey şair, istəməm!
Neçinmi ya?
"Örtü!" Bunu yaqdı ki, Qərb oldu möhtəşəm,
Pürfeyzü pürziya!
Lazımsa örtü, biz nədən aya güşadəyiz?
Mə'qul bir cavab:
Xilqətdən anlaşıldı ki, azadəzadəyiz,
Doğulduq ki, biniqab!
Mən pənbə çarşabın da ədüvvi-həyatıyam,
Ölsün niqablər!
Hürriyyətin də canlı olan bir bəratıyam,
Yaşasın aftablər!*
Məğrurü möhtəriz baxış yaxışar cinsi-ənfəsə,
Bu qaranlıq nə? Parladın!
Çarşaf yaxışmayır o sabahi-müqəddəsə.
Yaxışırsa, siz anladın?!
"Çarşaf!" Bunu qovmalıyız həp lüğatdan,
Yaşasın ləfzi-inkişaf!
Dərmək dilərsinizsə çiçəklər həyatdan,
Açsın bu ruyi-saf!
Açsın o ruyi-pak, o rüxsari-tabnak,
Gülsün bu qəm yeri!
Olsun tərəbfüruz bu matəmliqalı xak,
Olsun nəğəm yeri!
Bizlər də anlasaq yaşamaqdan nədir murad?
Varlıq yerində ya!
Ruyi-əməl açılmalı, yox olsun insidad!

Parlasın ziya!
Doğmaz zəmini-Şərqdə ruhi-tərəqqiyyat,
Doğmazsa inqilab!
Böylə gedişlə gec gələcəkdir təkamülat,
Ey Məşriqi-xərab!
Gəzdim cahani-Qərbi, gözəl gördüm, anladım:
Yüksək, işıq həyat!
Şərqin sönüklüyün düşünüb, parlaq ağladım,
Şərqə dedim: lövheyi-məmat!
Nisfi ölən bu millətin əncamı? Söyləsəm:
Nabudü bivücud!
Məhkumluq da yoxluğa bənzər desəm, desəm,
Dəli söylər mənə ənud!
Ruhi-həyatı anlamayan qövm mürdədir,
Zahirdədir diri.
Ciddən cahanı anlayan əqvam zindədir,
Kəmalat məzhəri!
Əndami-tam, nisfi-bədən birmi? Söyləyin,
Ey möhtərəm zəvat!
Bu, yüksəliş yerində bir isə deyin, deyin!
İsbata bəyyinat –
Vardırmı? Yoxdu qane edən bəyyinatınız!
Çox yaxşı bilmişəm.
Bürhanınız var isə – bugünkü həyatınız!..
Nə gözəl də düşünmüşəm.
Əndami-tam Qərbdə qüvvətnümundur,
Hökm isə qüvvətin!*
İştə yarım bədənli bu millət zəbundur.
Məhkumu zillətin.
Qərb aləmi çalışmada əndami-tam ilə.
Məşriqdə natəmam!
Əndami-tam bir olamaz natəmam ilə,
Ey şairi-bənam!
Məhbubeyi-əməl nədi cahil qalanlara?
Buna bir qayə izlərəm.
Ey canlı kölgələr, baxın ülvi cahanlara!
Sizi yüksəlmiş istərəm.

Mən ölmədən siz dirilin, kamyab olun!
Görsün bu gözlərim.
Yüksəklənin, işıq yaradan afitab olun!
Parlaqmı sözlərim?
Parlaq düşüncə istər işıqla qaranlığı –
Ayırsın və anlasın!
Lazım təbib kim, bilə bilsin də sağlığı,
Həyatı qucaqlasın!

## MÜLHİMEYİ-ƏŞ'AR

Hüsnü anın o dahiyəsi,
Çiçək müvəzziəsi!
Sevgili gözəl güldü, diri gül idi.

Oturdum, yeridi aləmi-ab,
Qapıdan girdi bir behiştməab.

Canlı bir gül əlində gül gəldi.
Düşünən alnıma baxıb güldü.

Əlinin gülşənində parlar idi –
Bir çiçək... gül gülü qucaqlar idi.

Baxışı işvələr atırdı mənə.
Gülüşü ox kimi batırdı mənə.

Gülü yox, yox, gülüş satırdı mənə,
Gülüşü ox kimi batırdı mənə.

Gülü yox, yox, gülüş satırdı mənə,
Şe'ri-nagöftə anladırdı mənə.

Əlinin bağçasın uzatdı mənə,
Gözləri qönçəli söz atdı mənə.

Verdiyi bir şükufeyi-tər idi,
Saçı güldən də çox müəttər idi.

Gülüyordu dodaqlarında da gül,
Könlümə söylədim ki, ağlama, gül!

Yaradırdı üzü, gözü xəndə,
Qaşlarıydı hilali-fərxəndə.

Qaş qara, üz işıq, dodaq gülrəng,
Oldu könlüm o dilbərə övrəng.

Qaş gülür, üz gülür, özü huri,
Öpdü rüxsarımı yerin huri.

Gülü aldım o canlı güldən mən,
Varlığım oldu sanki bir gülbən.

O cahanın pərisinə baxdım,
Gülü öpdüm də, köksümə taxdım.

Verdi gül, aldı könlümü o bahar,
Oldu təb'im hədiqeyi-əzhar.

Baxıryordu üzü mənim sarı,
Öpüyordu gözüm o rüxsarı.

Canlı cənnət yerin üzündə idi,
Atəşin hüsnü də gözündə idi.

Baxışında gülərdi hürriyyət,
Duruşunda yaşardı ülviyyət.

Qadın iştə bülənd xilqətdir,
Bu xəyalım da bir həqiqətdir.

Ona baxdım, həzin-həzin güldüm.
Şu çiçək qarşısında bülbüldüm.

Söyləyirdi sözü fəsihanə,
Yaşadırdı məni Məsihanə.

Bu Məsiha o rütbə canbəxşa –
İdi ki, söylədim: a hüsn, yaşa!

Baxışı könlümü işıqlatdı,
Gülüşü təndə ruhu şıqlatdı.

Cismlənmiş gözəl bir afət idi,
Ciddən ənmuzəci-lətafət idi.

Əbədi səfhə idi gül ruyu,
Ona təhrir edilmiş əbruyu.

Oxuduqca verirdi qəlbə həyat,
Buna derlər, dedim: şəhi-əbyat.

Hansı rəssam, şair iştə yazan
Oxuyor, duymayor nigəhbazan!..

Qalibiyyət üzündə parlar idi,
Nerəyə göz atarsa, ovlar idi.

Öpüyordu hilalı, gördüm fər.
Qaməti sanki bir livayi-zəfər!..

Fatihanə hilalını görərək,
Yenə bir başqa hüznlə daldı ürək.

Yenə daldım mühiti-alamə,
Varmı hacət bu fikri e’lamə?..

Azacıq şad ikən yazıq qəlbim,
Yenə küsdü, büküldü, durdu ləbim.

Ey qadın! Ey şükufeyi-ziruh,
Məndə var bir könül, o da məcruh.

Sizə təqdim üçün o layiqdir,
Olsa da qəmli, pürhəqaiqdir.

Güli-hürriyyətə hədaiqdir!
“Ma təkəlləmü şe’rdən... əntə tühaki”*
Mən də oldum bu vəhyi bir haki...

Ey qadın, mən derim ki lövlaki,
Boş dönərdi bu xakin əflakı,

Torpaq üstündə olmaz idi diri,
Boş qalırdı təbiətin bu yeri.

Mülki-islamə bax, qaranlıqdır.
Qərbə bax gör ki, hökmranlıqdır.

Səbəbi? Çün qadın o yerdə açıq!
Ey bürünmüş günəş, bu yerdə də çıx!

Çıxmasan, yox bu qövmə istiqbal,
Çox əminən ki, yox bizə iqbal.

Yaradan sən, yapan sən iqbalı,
Bir adın da təali şəhbalı.

Digər ismin tərəqqiyyat anası,
Bunu söylər dühatü danası –

Hər yerin, hər cahani-rəxşanın...
Ey qadın, pək bülənddir şanın!

Çıxmadı çöhreyi-dirəxşanın,
Halı cəm’iyyəti-pərişanın –

Bənzəyir, bax, hilalına hala,
Ati böylə olursa, vaveyla!

Şəb-bərüxsardır mətaleimiz!
– Əməl mətaleimiz,
Səndə bir örtü ya ki taleimiz –

Min niqabın içində pinhandır,
Buna hər halımız da bürhandır!

Gördü ki, manei-təalidir,
Örtüyü atdı, şimdi alidir.

Yazaraq doğruyu, qovulduq biz*
Söylədik, söylədik, yorulduq biz.

Yenə əski düşüncə, köhnə həyat,
Qövmlər növhəyat, biz də boyat.

Xaliqati-həyati anlamadıq.
Onun üçün cahanda parlamadıq.

Parladan parlayar günəş kimi ya,
Əridər zülməti yağanda ziya!

Göy guruldarsa parlayar ənvar,
Doğru söz: inqilaba hacət var.

Bilməyir inqilabı bu millət,
Budur iştə vəxim bir illət.

İştə Fikrət, o dahiyi-fəyyaz,
Aləmi-fikri-inqilaba riyaz,

Nə gözəl söyləyirdi, son susdu,
O böyük şair aqibət küsdü.

Olmadı zülmətin ki məddahı,
Küsdürüldü o parlayan dahi.

O böyük Fikrət, dəha'-nisar,
Göstərirdi cahanda gər asar.

Fikri daim bahar bir Fikrət,
Zibəha-zirəha və züqüdrət.

Və deyirdi o şairi-ə'zəm,
Qadının açmağı, əvət, əlzəm.

Qadın alçaq qalırsa, yüksəlməz –
Bəşəriyyət, səfalət əksilməz.

Yüksəliş şahbalı: nisviyyət,
Onsuz olmaz bu yerdə ülviyyət.

Qadın iştə pəriyi-adəmzad.
Onsuz olmaz əsirlər azad.

O, bizi saldı bu "Dönən beşiyə",
Biz onu evdə qoymuşuz keşiyə.

O keşikçi, biz isə sərbəstiz,
Ucalanlar içində çox pəstiz.

Mən inandım ki, parlamazsansa,
Qalarız yer üzündə zillasa.

Ayaq altında çeynənər dururuz,
Baxsan a, Qərb oldu nurəfruz.

Qərbə bayram, əvət, tamam əyyam,
Bizə bax ki, tamamımız səyyam.

Yoxmu bir bayramı bu əyyamın?
Yoxsa şəvvalı yox, bu səyyamın?

Rəməzandırmı cümlə sal bizə?
Yox derəm dəhrdə misal bizə.

İstəriz biz də bu cahanda məram,
Olalım biz də xüldzararam.

İydi-hürriyyəti kim etdi haram?
Biz də bir bayram istəriz, bayram!

Edəlim biz də bir həyata xüram,
O zaman söylə, millətim, yaşaram!

Canlı cənnət yerin üzündə əyan,
Ey bunu görməyən, sən odlara yan!

Yaşamaz canlı olmayan əqvam,
Can qadındır bilin, a qövmi-əvam!

Daşmı, ya başmı sizdəki, bu nədir?
Misliniz yer üzündə bir dənədir.

Ayeyi-nurdur hilali-nisa,
Oxuyardıq əgər baxış olsa.

Qadının qaməti livayfütuh,
Bütün aləm onunladır məftuh.

İki qaş sanki bir hilali-zəfər,
Nerəyə üz çevirdi, parladı fər.

Ey iki qaş, mənim hilalımsan,
Sən mənim baisi-məlalımsan.

Səni gördükcə sanma şadəm mən.
Kişvəri-qəlbimə rəşadəm mən.

Səni gördükcə məndə qəm doğuyor,
Qələmim növhəli nəğəm doğuyor.

Səni gördükcə məndə qəm parlar,
Qaşına bənzəyən hilal ağlar.

Ey qadın! Ey cəmali-hürriyyət!
Ey qadın! Ey kəmali-ülviyyət!

Səni tə’rif məncə qabilmi?
Bu qələm hüsnünə müqabilmi?

Ey qadın, ey məlikeyi-dünya,
Madəri-feyz, validati-ziya!

Siz olan məclisə həya axıyor,
Hər sözə hər ağız gözəl baxıyor.

Siz olan məclisə həya yağıyor,
Ədəbamuz bir ziya doğuyor.

Gülüyor siz doğan cahanda həyat,
Sizsiniz, siz zəfər üçün rayat.

Anladım, anladım bu dəhri, əvət,
Sizsiniz aləmi tutan qüvvət.

Parlayan bir günəşsiniz sizlər,
Görəməz afitabı gözsüzlər.

Günəşi görməyənlər ə'madır,
Qövmi-islam bir müəmmadır:

Tutmuş iştə əlində bir pərdə,
Harda varsa işıq, əl ol yerdə –

Qoymayır parlasın hilali-cəmal,
Dəhrdə bizlərə nədir amal?

Qadının qaşların görəndə nəzər,
Yenə fikrim zəmini-qəmdə gəzər.

Dalıram kainati-əhzanə,
Anlasın hüznlərmi fərzanə.

Nə qədər nəğmə eyləsən inşad,
Güli-ümmid olmayır ki, küşad.

## LAYƏMUT ŞE'RLƏR

*Füzuliyi-nalanın əş'arını təsdis*

1

Heyrətəfzadır, həqiqət, kainati-pürşüun,
Olmada danişvəran hər əsrdə zillətnümun.
Sərfəraz əshabi-cəhl, ərbabi-ürfan sərnigun,
Anlaşılmaz oldu qanunun, əya gərduni-dun!
"Dəhr bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun".

2

Söyləyirsən söz olur, gər söyləməzsən dildə qəm,
Musiqidən anlamazlar guşunu oxşar nəğəm,
Ya nədən boş qalmış olsun dəsti-ərbabi-kərəm?
Bəxtsiz bir şairin cansuz şe'rin söylərəm:
"Dəhr bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun".

3

Ağlayırkən xameyi-arif ki, gülsün milləti,
Söyləyir hər dəmdə ta ki dillər açsın hey'əti,
Arif olmuşkən pərişan, gəlmədə cəm'iyyəti,
Səndən öyrənmiş, əya gərdun, bu laqeydiyyəti,
"Dəhr bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd dər yox, düşmən qəvi, tale zəbun".

4

Nur saçmaq, yollar açmaq, arifə bir qayədir,
Arif iştə bir pədərdir, qövmü üzrə sayədir,
Ya nədəndir ki, oğullar şad, ata bivayədir?
Baxma, yüksək olsa da, gərdun özü pəspayədir,
"Dəhr bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun".

## BARİQEYİ-İNQİLAB

1

Hala qırılmadı səsi tari-rübabımın,
Bitməz künuzu, bil ki, bu qəlbi-xərabımın.
Hər dəmdə canlanır nəğəmi inqilabımın,
Tə'siri yox deyil, bilirəm ki, xitabımın,
Parlaq baxışla nurunu gör afitabımın,
Kəskin nəzərlə öp üzünü hər kitabımın.

2

Hər misrə'ində şe'rimin avazi-intibah,
Hər nəğməsində xəndəfəşandır birər sabah,
Xaməm həmişə söyləyir, ey qövmi-şəbpənah,
Açdı təməddünün səhəri, iştə şahrah,
İdrakını qarartdı xürafat, ah, ah!..
İdrakını qarartdı xürafat, ah, ah!..
Ey sübh, çıx! Və bat yerə, ey siteyi-siyah!

3

Ey sitreyi-siyəh, çəkil, ümmid parlasın,
Seylabi-nur dadlı sədasilə çağlasın,
Ənzarımız həqiqəti görsün, qucaqlasın,
Ə'dayi-elm aləmi-ürfanı anlasın,
Nazəndeyi-məaliyi millət nişanlasın,
Gülsün rüxi-təməddünümüz, vəhşət ağlasın.

4

Ağuşumuz açılmalı huri-həqiqətə,
Əfkarımız güşadə gərək nuri-hikmətə,
Ənzarımız da baxmalı atiyi-millətə,
Var ehtiyac bizdə də ehrazi-şövkətə,
Bu ehtiyacı soxmalı əfkari-ümmətə,
Ta kəstiyi-həyatı erişsin səlamətə.

## ALİHATİ-İLHAMAT VƏ HƏYAT PƏRƏSTİDƏLƏRİ

*Kimdir onlar?*
*Cinsi-lətif qadınlar!..*

Qaçma, qaçma, qaçma kim, bu qaçmağın dilsuzdur,
Nerdə sən məkşufəsən, hər gün o yer novruzdur.

Nerdə ki, məsturədir ruyi-səbahətpərvərin,
Bir qaranlıqdır, əya nurum, nəsibi ol yerin.

Bax dağılmış Şərqimiz, muyi-pərişanın kimi,
Parlayır Qərbin üzü, ruyi-dirəxşanın kimi.

Ey sənəm, şəhbalı oldun kainati-Məğribin,
Bir mücəssəm ruhu oldun sən həyati-Məğribin.

İrtiqa etməkliyə verdin bərati-Məğribə,
Gözlərin göstərdi ancaq parlaq ati Məğribə.

Hansı qövm etdisə səcdə adı "qaş" mehrabına,
Oldu rəhbin, ey sənəm, qurban rüxi-məhtabına.

Sacidi-əsnam olan məncə böyük insandır,
Ey sənəm, əsnam mir'ati rüxi-nisvandır.

Əksini gördü sənəmdə, səcid oldu, ey sənəm, –
Büt, lisani-hal ilə der ki, a nisvan, mən sənəm.

Ey sənəmpərvərləri təkfir edən, dur, dur, dayan!
Nuri-nisviyyətdir, anla, büt üzündə parlayan.

Kə'bəyə getmək nə hacət, Kə'beyi-hürriyyəti –
Məqsədin görməkmidir? Gör qaməti-nisviyyəti.

Bir baxış ətf et ona, gör çöhreyi-amalını,
Çünki ol ayinə təsvir eylər istiqbalını.

Çöhreyi-ati parıldar ruyi-nisviyyətdə, ah!
Əksi göstərməz ki, güzgü tutsa rubəndi-siyah.

Güzgüdən qaldırmalı rubəndi, göstərsin səni,
Parlaq anlatsın sənə çirkin üz ilə əhsəni.

Ol zaman səndə gözəlləşməklik amalı doğar,
Millətin məstur olan rüxsari-iqbalı doğar.

Ey oğlan arayişü pirayişi zülmətlərin,
Çıx dəruni-pərdədən, yəzdanı hürriyyətlərin!

*15 iyun*

## NÖVXƏNDƏ ÇİÇƏKLƏR

*Mələküs-sibyanə növşüküftə*
*şe'rlər ithaf edirəm*

Simaxi-Məğribə xəndan ikən rübabi-nəğəm,
Yanaqlarında neçin ağlayır bu çeşmeyi-qəm?

Sənin, a cinsi-lətifim, ey ümməhati-həyat,
Nəsibin iştə mühitatımızda həp nəvəhat.

Şükufə misli gülüşlər açılsa ruyunda,
Olurdu bülbüli-dil bənd o tari-muyunda.

Əsirin, ey mələkim, bax nasıl da azadə!
Bu Qərb elində üzün rəhnümadı irşadə.

Rüxündəki o niqabə baxanda qəmli gözüm,
Mühiti-müzlimi seyr eyləyər bu nəmli gözüm.

Üzündə pərdeyi-şəbrəng, bizdə fikri-siyah,
Qaranlığın üzü ükşadə, örtülənsə – sabah.

Əvət, üzündə bulut var səmayi-rəxşanın,
Saçın həyatımıdır Məşriqi-pərişanın?

* * *

Libasi həp gecələrdən, xürafədən hörülən –
Mühitimizdə işıqdır sönən, ölən, gömülən.

Nədən ki, yüksəliş ə'dasıyız, nədir səbəbi?
Həp alçalışmı bu Şərqin mətai-müntəxəbi?

Nədən ibadi-zülamız, neçin də düşməni-nur?
Açıl, görün bu mühitə, a çöhreyi-məstur!

Açıl, səhərləri boğsun bu leyli-dicurun,
Rəhi-nicatı görünsün bu qövmi-məqhurun.

Cəmali-şə'şə'əbarın ziyafəşən olsun.
Bu afitabü hilalın zəfərnişan olsun.

Qaşın hilal, üzün afitabi-aləmtab,
Sənin camalını bəklər bu iki ərzi-xərab.

Günəşlə ay ala bilsin ziyanı ruyundan,
Bu Məşriq olmalı hüşyar buyi-muyundan.

Əsarət istəməm, əmma o zülfi-səyyadi –
Görər, olar da əsirin bu hürr olan Hadi.

*4 iyun*

## YADİ-VƏTƏN...

*Şirvanda "Nicat"*

*Hacı İbrahim* qardaşıma ithaf*

Ey səhnəsi başdan-başa bir mə'kəsi-övham,
Keçmişdə, əya cənnəti-hürriyyəti-ilham!

Afaqın idi sanihənin çöhrənüması,
Ey aləmi-şe'rü ədəbin şanlı səması!

Şairlərin eylərdi fəsahətlə təranə,
Ey məhdi-müqəddəs olan azadəsəranə.

Mazidə adın əncüməni-nur ikən, ey şəhr,
Bilməm nədən oldun sonu zülmətlərə məşhər?

Soldu, vərəm oldu, vətənim, xüldi-üzarın,
Ahənglərin, rənglərin, rayihəzarın.

Ey kişvəri-şan, şe'rnişan, mehri-dirəxşan,
Könlüm kimi oldun niyə bir beylə pərişan?

Səndin, sən idin, sən ki süxənsazi-fəsahət,
Ey səhni-zəka, səhni-ziya, səhni-səbahət!

Ey məhdi-ədəb, madəri-Xaqanivü* Sabir,
Ey Seyyidi*-zişanımıza qəmli məqabir.

Səndən yaradan, bəsləyən əhrari-zəmanı,
Ey ruhu ilə canladan əfkari-cahanı!

Ey məhdi-ədəb, məhdi-hünər, məhdi-zəkavət,
Xaqaniyi-mülki-süxənə təxti-bəlağət.

Ey mə'rifətin madəri-fəyyazı olan xak,
Yerdə Fələkilər* yaradan, parladan əflak.

Ey canlı Baharı* doğuran gülşəni-taban,
Ey bağı-kərəm, bağı-İrəm*, cənnəti-büldan.

Seyyidlərə, Bixudlara* ey qəbri-məali,
Ey çeşmeyi-nurundan axan abi-Zülali*.

Derlər açılır babi-füyuzatı Nicatın,
Rövnəqlənəcəkmiş kimi cənnati-həyatın.

Küskün vətənim, gözlərin aydınlanacaqdır.
Aydınlanacaq, parlayacaq, canlanacaqdır.

## HÜSNİ-QALİB VƏ HÜZNİ-CAZİB

*Hüznafərin şairimiz A.Şaiq* bəradərimə*

Keçən gün idi gəzirdim, sataşdı gözlərim, ah, –
Bir afətə... Necə afət? İşıqlı, canlı sabah...

Yox idi örtüsü, vardı üzündə sayeyi-qəm,
Dodaqlarımda dil açdı nəşideyi-matəm.

O göy baxışlı gözəl hüzn ilə bəzənmiş idi.
Qaşında nuri-təfəkkür, süruru sönmüş idi.

Yerin hilali-həzini mənə görünmüş idi,
Gözəl qadın sönük idi, hilalə dönmüş idi,

O canlı yer günəşi matəmə bürünmüş idi.
Sönük günəş, sönük ay didəmə görünmüş idi.

Günəş cəmali sönükdü, hilali qaşları da,
Gözəldi matəmə batmış gözəl baxışları da.

Nə dadlı idi gözündə o qəmli cazibəsi!
Dedim ki, bəxti ilə var, demək, müharibəsi.

Baxardı göy baxışıyla yerə çü ruyi-həsən,
Toxundu könlümə halı... Dedim ki boşluğa: sən, –

Sən ey səmayi-tühi! Ey cahani-biidrak,
Həmişə tərs, müdam əksinə dönən əflak!

Bu göz ki gülməyə layiq, nədəndi qəmli gəzər?
Bu böylə-olmaz idi, olsa idi səndə nəzər.

Zavallıcıq baxıyordu, baxışlarında zilal,
Baxıb da qaşlarına söylədim: zavallı hilal!

Günəş üzündə bulutlar hilalı sayənüma?!
Qaranlıq oldu gözümdə o dəm zəminü səma.

Hilalına yaxışırkən gülüş, o nə qəm idi?
Günəş cahanına baxdım ki, ərzi-matəm idi.

Hilal yüksəliş istər, günəş də nurü həyat,
Nədir, dedim, bu işıqlar üzündəki zülmat?..

Günəş cəmalı, hilal qaşları hilal misal,
Sabahı qəmlə bürünmüşdü misli-şəmsü hilal.

Toxundu könlümə halı o qəmli dilbərin, ah!
Bütün bu varlığım oldu kəbidi-atəşgah...

Gözümdə çöhreyi-aləm ki pərdədar oldu,
Səhabi-hüznlə çeşmim də giryəbar oldu.

Bu göy baxışlı gözəldən gəlirdi yaş gözümə –
Və damlayırdı o yaşlar yağış kimi üzümə.

Səmavi bir mələk idi, məlikeyi-xaki,
Yer üstü olsa da cayi, ucaydı əflaki.

O hüzni-dilbərə baxdım, baxışlarım yaşdı,
Həzin baxışlarım ol ruy ilə qucaqlaşdı.

Onun üzündə həzin kölgə vardı nur kimi,
Gəzər, dururdu bu yerdə səmavi hur kimi.

Gələn-keçən də var idi birər zilal misal,
Mənim də çeşmimi parlatdı ol pəriyi-məlal.

Gözüm o hüznlə əyləndi, doğdu fikrimə nur,
Bu qəmlər ilə bərabər üzündə vardı qürur.

Qururu mən sevəməm erkəyin üzündə... əvət,
Qürur üçün yaranıbdır cəmali-nisviyyət.

Qürur od kimidir erkəyin üzündə, vəli –
Sevimlidir o təkəbbür öpərsə bir gözəli.

Görüb də qaşları qəmli günəş cəmalında,
İki məluli düşündüm onun məlalında.

## ULDUZLARA DOĞRU

Dəsti-təsxirində tutmuşkən bəşər dünyaları,
Yerləri, mə'dənləri, heyrətfəza dəryaları,
Durmadı, çarpışdı, əlləşdi təbiiyyat ilə,
Asimanpərvaz olub fəth eylədi balaları.

* * *

Yol bulur, bir gün uçar, ulduzları təsxir edər,
Ən qaranlıq sirri anlar, aləmə təşhir edər,
İndi odlar yağdıran təyyareyi-xakinijad –
Parlayan bir gün gələr çox göyləri tənvir edər.

* * *

Nücumi-zahirəyə hakimiyyət etmək üçün –
Baxın bu zadeyi-ərzə səmayə pərrandır.
Şimal qütbünə fəthə sürür səfineyi-fəth,
Cəhanpəsənd bu əzmafərinə şayandır.

## NASIL YÜKSƏLMƏLİ?

(*Böyük Tofiq Fikrətə kiçik töhfə*)
*Yüsəlməli, toxunmalı alnın səmalərə,*
*Doymaz bəşər dedikləri qış e'tilalərə.*
***Tofiq Fikrət***

Yüksəlməli! Fəqət nə ilə, ey böyük ədib?
Ey bağını xəzan görərək susmuş əndəlib!

Hürriyyətin qanadları lazımdır uçmağa,
Yüksəkdən enməyən mədəni yarı qucmağa.

Yüksəlməyə təməddünün əflaki-pakinə,
Ermək gərək isə səhəri-tabnakinə.

Sərbəst pərlər istəyir ol aləmi-bülənd,
Bizlərsə hər cəhətdən, əvət, bəndi-dərkəmənd.

Əfkarımız əsiri-xürafati-əvvəlin,
Azadədir də cəhlimiz, ey şairi-güzin!

Övham hürr, hakimi-mütləq bu millətə,
Ey nəbzaşina, nə dəva var bu illətə?

Nəbzaşina təbibi də sevməz əcəl-qərin,
Gəlməkdədir məşamına pis buyi-ənbərin.

Çünki məşamı dust deyil buyi-ənbərə,
Korkən belə uzatmayır əl gözlü rəhbərə.

Kor rəhbər istəyir gözükor, ah, ah, ah!
Bədbəxt bilməyir ki, yolunda dəhani-çah.

Yol göstərənləri qovuyor gümrəhi-səfil
Səbəb?
Çox əsrlər qaranlıq olubdur buna dəlil.

Çox əsrdir ki, gözləri olmuş şəbaşina,
İndi qaranlığı sanıyor sübhi-rövşəna.

Hansı əlacdır ki, kor etdi bu milləti?
Hala bilən də olmadımı bu həqiqəti?

Bilməm nə gündə bir anamız böylə bir həyat –
Doğsun ki, ölsün iştə bu Şərqi udan məmat,

Yə'ni ki, bir dühayi-xüruşanü atəşin,
Yumşalsın odlarilə bu cəm'iyyəti-xəşin.

Artıq yetər, yetər, yetər oldu bu halımız,
Xurşid pək sönük, sönük iştə hilalımız.

Alçalmağa bizdə var ikən bu ibtila –
Bilməm, nasıl müyəssər olur Şərqə e'tila?!

Alçalmağa rəhbər olanlar səmaməqam,
İrşadkar bu qövmcə şayani-intiqam.

Fikrət, əya Şərqdə yekta doğan düha!
İdealı yox bu millətə varmı rəhi-rəha?

Əfkarı sırf əzməyə ərbabi-fikrəti,
Hala zavallı bilmədi qanuni-fitrəti.

E’lani-hərb edən bu qəvanini-aləmə,
Də’vətlidir bu ağladıcı bəzmi-matəmə.

Gəlsin əzayə milləti-mərhumə, ağlasın,
Heç gülməsin də, ayları matəmli saxlasın.

Zatən da matəmə bürünübdür həyatımız,
Göz yaşlarilə həp sulanır kainatımız.

Qərbin üzündə xəndə, bizim çeşmimizdə ab,
Qərbin həyatı şən də, bizimki yazıq, xərab!

## CƏHALƏT ZƏNCİRİ
## VƏ KOR GÖZLÜ RƏHBƏR

Zənciri-cəhl, məhbəsi-övham içində, ah, –
Qalmışlara nasıl görünər fəcri-intibah?

Mə’budəsi zülam, pərəstidəsi xəyal,
Ən çox pərəstiş etdiyi övhamdır, ləyal.

Əsgi libası, kirli həyatı buraxmayır, –
Nuri-təcəddüdə yumuyor didə, baxmayır.

Kor rəhbəran əlində zimami-həyatə bax.
Yüz min quyu üzrə, əməl şəhri çox uzaq.

## FİKRƏT!

Ey inqilab şairi, tari-rübabının,
Tə’siri olmadı nəğəmi-inqilabının –
Pənbəbəguşi-fikr olan ərbabi-qəflətə!
Fəryadi-intibah isə “lay-lay” bu millətə
Ə’sardən bəri öpən ağuşi-qəfləti –
Əlbət qolay ayrılmayacaq, çünki türbəti –
Çox-çox dərin, çox da qaranlıq məzardır,
“Qalxın!” sədası yetməyəcək bir diyardır!..
Ey inqilab şairi, nəğmənlə inlədin!
Dünya dəyişdi, əski dimağı atın–dedin!
Əski təxəyyülatı, xürafatı gömməli,
Növnəsc olan qumaşi-həyatə bürünməli!
Əski düşüncə, əski həyatı atın – dedin!
Zülmət, ölüm doğan bu yeri parladın – dedin!
Üfqi-həyatınızda doğub növrüx aftab,
hürriyyətin günəşi.
Əfkarınızda gülməli əzhari-inqilab!
Yırtılmalı niqabi-xürafat kim, həyat–
azad bir həyat –
Gülsün! Və toyla, nur ilə dolsun bu kainat –
kainatı islamın!
Yırtılmalı səhabə, açılsın sabahınız,
Dolsun açıq günəşlər ilə şahrahınız!
“Əsrin, unutma, bariqələr əsri-feyzidir,
Hər ildırımda bir gecə, bir kölgə devrilir!
Bir üfqi-e’tila açılır, yüksəlir həyat,
Yüksəlməyən düşər, ya tərəqqi, ya inhitat!..”*
Həp döndü, düşdü nəğmeyi-fikrin bütün yerə,
Yox ki, qulaq çevrilə gülbangi-rəhbərə!
Ey nuri-eyni kor yaşayan əhli-zülmətin!
Tari-rübabın ağladı! Fəyyaz fikrətin –
Həp saçdı, tökdü ruhü rəvayih həyatinə,
Bir xəndə gəlmədi şu rüxi-kainatinə!
Hala dodaqlarında nə bir xəndə parlayır,
Bax, bax, yenə zavallı bir millət qan ağlayır!

Üzlərdə kölgəsi yenə maziyi-müzləmin,
Gözlərdə zilli var ələmin, matəmin, qəmin.
Aləm geyindi kisveyi-eydi-təbəssümi,
Bizlər çıxarmadıq şu əlaməti-matəmi!..

## [ŞƏRQ İLƏ QƏRBİ MÜQAYİSƏ]

Məğribdə hikmət əhli izhari-sən’ət eylər,
Şəhbali-mə’rifətlə ehrazi-rüf’ət eylər,
Elmin səsi uxalmış, e’lani-sətvət eylər,
Fənnin rüudu yerdə e’lami-qüvvət eylər,
Yerdən göyə uçan səs ifhami-qüdrət eylər,
Parlar bu ildırımlar, ehraqi-zülmət eylər,
Hər gündə top dəhani ərzi-həqiqət eylər,
Məşriqdə qəflət əhli hala xəyalət eylər,
Zahid deyir ki, Məğrib icadi-bid’ət eylər,
Keçmişdə çox eşitdim bir boylə söhbət eylər:
Mö’min odur ki, daim izhari-zillət eylər.
Biruh ikən də durmuş xəlqə xitabət eylər:
“Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə”.

* * *

Məğribdə cayi-bala ərbabi-hikmətindir,
Yüksək olan məvaqe əshabi-fikrətindir,
Tə’zimlər o yerdə əhli-fəzilətindir,
Qiymətli rütbələr həp əşxasi-sən’ətindir,
Ən parlaq ehtiramat cinsi-lətafətindir,
Hürriyyəti-nəcibə xəlqin, cəmaətindir.
Məşriqdə sədri-məclis timsali-qəflətindir,
Şərq aləmində hörmət əhli-cəhalətindin,
Ən parlaq ehtiramat ərbabi-zülmətindir.
Sözlər də altun olmuş, ərkani-dövlətindir.
Bir irsdir xürafat, əhli-fəqahətindir,
Vaiz deyir ki, dünya əhli-zəlalətindir,
“Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə”.

* * *

Məşriqdə söndürən çox, parlarsa bir ziyakar,
Məşriqdə öldürən çox, canlansa bir dühakar,
Məşriqdə susduran çox, dil açsa bir rəhakar,
Çoxdur qanad qıranlar, pərlənsə bir zəkakar,
Məşriqdə xoş görünməz, kim olsa çox fədakar,
Əşxasi-namizacə xoş gəlməyir dəvakar,
Məşriqdə möhtərəmdir, – əfv eyləyin! – riyakar.
Olmuş düçari-təkdir Məşriqdə hər səfakar,
Məşriqdə azmı çıxmış ruhaşina, şəfakar?
Hala da Şərqin əhli nur əhlinə cəfakar,
Ciddən gözəl buyurmuş bir arifi-vəfakar:
"Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə".

* * *

Məğribdə var maarif, Məşriqdə var cəhalət,
Məğribdə hürrdür xəlq, Məşriqdə var əsarət,
Şərq əhli çox donuqdur, Məğribdə var hərarət,
Məğrib işıqlı yerdir, Məşriq zəmini-zülmət,
Bizlər dəfini-zülmət.
Məğrib cahani-cuşan, Məğrib cahani-himmət,
Məğribdə var çalışmaq, Məşriqdə var ətalət.
Məşriqdə çox sönükdür idrakü əqlü fikrət,
Məğribdə əhli-fikrə qiymət qoyur cəmaət.
Qərbin gözü açıqdır, Məğribdə var bəsirət,
Kordur desəm əhali Məşriqdə, etmə heyrət!
Bax, cameə ləbaləb xabidəgani-qəflət,
Vaiz xürafələrdən etməkdədir hekayət,
"Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə".

* * *

Balanişini-Məşriq, yainki canlı sayə*,
Gahi deyir öküzdən, gahi qoşar əsayə*,
Şərh eyləyir cəhimi çox odlu, ayə-ayə,
Şeytan və cinnlərdən eylər uzun hekayə,

Döndərdi xəlqi “cinnə”, çıxmaz “mələk” arayə,
Atidən əl götürmüş, dönmüş də “həl’əta”yə*.
Yox iqtidarı ciddən təfsiri-“vəzzüha”yə*.
Şəmsi-fünun doğmuş Məğribdəki səmayə,
Yoxmu əlaci-şafi zahiddəki əmayə?!
Baxdım gözü ağarmış Məşriqdə rəhnümayə,
Əqvami-Qərb şariq hakim ikən fəzayə,
“Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər.
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə”.

* * *

Şərqin zülam içində mədfunədir bənatı,
Şərqin bulutludur həp simayi-kainatı,
İştə bunun üçündür göz yaşlıdır həyatı,
Qərbin bu gündə parlar göylərdə şə’şəatı,
Avropa anlamışdır əlbət rəhi-nicatı,
Var çünki əhli-Qərbin yol göstərən dühatı,
Qərbin əlində vardır ati üçün bəratı.
Məşriqdə rəhnümamız əzbərləmiş siratı*,
Yox hissəsi zəkadən, vird eyləmiş zəkatı,
Xəlqi cənazə sanmış, daim qılar səlatı,
Elmi-həyatı bilməz, tə’lim edər məmatı,
Puşidəgani-qəflət tutmuş bütün cihatı,
“Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə”.

* * *

Məğribdə çox işıq var, Şərqin ziyası nerdə?!
Yüksəlmiş əhli-Məğrib, bax, minbəri-hünərdə,
Şərq əhli pərdə yapmış, Qərb əhli yapdı “pər” də,
Hala küsuf vardır “Xurşid”i-ləm’əvərdə,
Hala xüsuf vardır rüxsareyi-“Qəmər”də,
Yoxdur rüxi-“Diləfruz” “Firuzə”də, “Gövhər”də,
“Tuti” qəfəs içində, “Ceyran” da damlərdə,
“Leyla” ləyal içində, həmşirəsi “Səhər”də,
Artıq yetər, deyilmi, rubəndlər “Yetər”də?
Dünya behiştə dönsə, same’ləri füsürdə,

Ey xəlqi-zirpayə, bir bax nə var zəbərdə:
“Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə”.

* * *

Məşriqdə həbs edilmiş Yusif deyil, Züleyxa,
Məhbəsdədir “Pəri”lər, “Hurilər” ilə “Tuba”,
Solmuş əsarət ilə “Cənnət” ilə “Gülara”,
Dönmüş xəzanə “Gülrux”, solmuş “Baharü” “Ziba”,
“Gülgəz” həmişə ağlar, gülməz cəmali – “Səlma”,
“Səyyarə” dam içində, ən canlı bir müəmma?!”
Qalmış behiştə həsrət, adəm deyilmi “Həvva”?!
Yox asimani-rüf’ət, düşmüş yerə “Sürəyya”,
Ey zahid, ey mübarək! Yek ləhzə didə begüşa!*
Bengər beçəşmi-insaf, kon Qərbra təmaşa!
Qəd əşrəqət minəl-Qərb, əşşəmsü vəzzühaha*.
Ey rəhnümayi-Məşriq! Ma dər ləyali-zülma!
Şərqin nəcib ədibi Yusif gözəl deyir ya:
“Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə”.

* * *

“Səyyarə” durdurulmuş, ziddi-təbiət iştə,
“Ülkər”, “Sitarə”, “Zöhrə”, “Zəhra”la “Zinət” iştə,
Səyyarə sabit olmaz, afaqi-xilqət iştə,
Qanuni-layəzali fəyyazi-fitrət iştə,
Qərb əhli Şərqə söylər: xəsmi-həqiqət iştə,
Bizdə hanı “Nəzakət”? Küskün “Nəcabət” iştə,
Yüksəkmi atiyi-Şərq? Əhvali-“Rüf’ət” iştə,
Parlaq yanaqlı “Göyçək” şayani-zülmət iştə,
Var ahı, yox günahı, “Mə’sumə”, “İsmət” iştə,
Biz söyləriz: “Əzizə” bir canlı zillət iştə,
Bizlərdə çox bol ikən möhnətlə zəhmət iştə
Cənnətfürüşi-bihuş söylər ki, rəhmət iştə,
Gir cameə, gözəl bax, əshabi-cənnət iştə:
“Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə”.

* * *

Kərbi-bəladı Məşriq, "Zeynəb", "Səkinə" nalan,
Matəmli "Şahcahan"lar, həp "Səltənət" pərişan,
Duzəx içində qalmış "Huri", "Nəimə Sultan".
"Şirin"ə təlxdir həp abi-həyati-dövran,
"Güllər" də xakə düşmüş, bərbaddır "Gülüstan",
Solğun yanaqlı durmuş, bax, "Gülüzar"ü "Reyhan",
"Azadə"lər əsirə, "Şayistə" zülmə şayan,
"Dilşad" hüznpərvər, qəmlər içində "Şadan",
Bədbəxtdir "Səadət", titrər bu halə vicdan,
Qalmış "Maral" vəhşi, "Nazəndə"lər girizan,
Məşriq "Sitarə"sizdir, sönmüşmü "Xavər"istan?!
Təqvanümayi-ə'ma əfsanəguyi-tufan,
"Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,
Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə".

# 1915

## MEYDANİ-HƏRB XATİRƏLƏRİMDƏN

Tutmuşdu topun səsləri afaqü səmayı,
Enməkdə idi yerlərə əhzari-şitayi.

Bir yanda od ilə dəmirin yağmuru vardı,
Göydən yerə su, qarlara dönmüşdü, yağardı.

Dağlar, təpələr örtülü durmuşdu kəfəndə,
Matəm səsi uçmaqda idi Karpat elində.

Top səsləri eylər kimi matəmləri e'lan,
Atəşlə ölümdür bu yerə sahibi-fərman.

Bir məqbəri-barid kimi durmuşdu mühitat,
Puşidə kəfənlər ediyordu bunu isbat.

Guya ki, soyuq məqbər içindəydi həyatım,
Lakin yaşayırdı qələmimdə nəğəmatım.

Qanuni-mübinində yenə dəhri-kühənsal,
Qış gəldiyiçün etmədədir qarını irsal.

Fərdayi-şitadə güləcəkdir yenə gülşən,
Torpaq qucağı olsa da insanlara mədfən.

Qış, yay və bahar həm gedəcək, həm gələcəkdir,
Güllər yenə əhmər dodağilə güləcəkdir.

Bülbül ötəcək, gül güləcək, parlayacaqdır,
Ənhar axacaq, səslənəcək, çağlayacaqdır.

Ulduzla günəş, ay yenə arayişi-əflak,
Əvvəlki yerində yenə də xaki-siyəhnak.

Göylər yenə üslubi-qədimində dirəxşan,
Ulduzları həp şəm'eyi-ülviyyəti-taban.

Yoxluqdakılar göz yumulu xakın içində,
Rüxsarı-kəvakib açıq əflakın içində.

*Qaliça*

## ULDUZLU BİR GECƏDƏ MÜHARİBƏ TAMAŞASI VƏ "ŞAHNAMƏ" ŞAİRİ-ZİİQTİDARINI XATIRLAMAQ

*Müharibə mənzərələrindən*

Uxalmış göyə yerdən ahəngi-cəng,
Səmavatə bəxş eyləyir rəng cəng.

Raket pərtövəndazi-afaq olur,
Parıldar, ziyasazi-afaq olur.

Göyün ulduzundan daha şəbfüruz,
Atıldıqca olmaqdadır leyl ruz.

Onun arxasınca qiyamətnümun
Cəhənnəm saçar əjdərani-fünun.

Bu toplar atıldıqca fövqəttürab,
Hava atəşə eyləyir inqilab.

Sütunlar nümayan olur od kimi,
Deşirlərdi, guya ki, qəlbi-şəbi.

Gəhi od, alovlar nümudar olur,
Gəhi üfq mir'ati-ənvar olur.

Nə hikmətli şeydir bu atəşfəşan,
Gecə gündüz olmuş günəş doğmadan.

Bu bir cəngdir cəngi-fövqəlxəyal,
Top atəşzəbandır, təbiət də lal.

Əgər varsa göylərdə müdrik diri,
Təmaşayə çıxmış deməkdir yeri.

Fəsahət bugün top sədasındadır,
Zəfər elmü fənnin ziyasındadır.

Bəlağət qılınclarda, xəncərdədir,
Təlaqət ləbi-tiği...

Dələn sözdür, iştə, tüfəngin sözü,
Nasıl odludur, bax da, cəngin sözü!

Kəsən söz süyufun dəhanındadır,
Miləl sanki son imtahanındadır.

Əvət, odlu topdur ki, ahənvücud,
Bu atəş hüzurunda haq zisücud.

Demək, haqdır atəşpərəstan rəhi,
Pərəstişgəh etmiş də atəşgəhi.

Cəhənnəm bu gün hakimi-xakdan,
Yarın bəlkə cənnət olur hökmran.

Zəfər, qalibiyyət bu gündə tamam
Odur qüvvətindədürür, vəssalam!

Deyildir bu qövğayi-Turanzəmin,
Bu cəngi-fünundur, cəhimafərin.

Deyildir bu qövğayi-Əfrasiyab*,
Bu bir cəngdir, cəngi-aləmxərab.

Bunu görməmiş Rüstəmi-filtən.
Bu bir cəngdir, meyveyi-elmü fən.

Deyildir bu qövğayi-divi-səfid,
Topun səsləri der ki, "həl min məzid"*.

Xəyalatdır əjdəri-həftsər,
Həqiqət odur tupi-dəhşətəsər.

Yaxar varlığı, yoxluq icad edər,
Həyatı yıxar, mövti abad edər.

Məzarın səsi yoxmudur? Dinlə, var.
Topun səsləri həp sədayi-məzar.

Nə səslərdir, o, mövti-əhmərmidir –
Və ya inki avazi-məqbərmidir?

Ləhim düzəxəfşanıdır topların
Səsi matəm e'lan edər topların.

Yenə əski tərzindədir kainat,
Yenə köhnə xislətdədir zihəyat.

Təbii, demək, hərbü zəri-bəşər.
Bəşər, yə'ni dünyadə xəllaqi-şər.

Təbii deməkdir vuruş xakdə,
Dənizdə, həvalərdə, əflakdə.

Nə yerdə yeri varsa, vardır cidal,
Cahanlar bütün səhneyi-ixtilal.

Deyil ixtilal aləmi bir türab,
Əvalim bütün saheyi-inqilab.

Qəvi acizi eyləyir payimal,
Həqiqət budur, başqa sözlər xəyal.

Zəfəryab olan ali, məğlub dun,
Gülər qalibin çeşmi, ağlar zəbun.

Yıxılmışda qəm var, yıxanda sürur,
Yaşar vəchi-aləmdə zilli-qürur.

# 1916

## DİLƏK ÖLMƏZ

Yüksək dilək, ay dilək,
Aydın dilək “ay” dilək,
Yolçuyuz, yol üstünə, –
İşığını yay, dilək.

* * *

Parlaq dilək, ay dilək,
Gözlərdən də bay dilək.
Sansız işıqlarından
Millət alır pay, dilək.

* * *

Səninlə gözlər gülər,
Alınlar, üzlər gülər.
Hansı dodağa qonsan,
Ağızda sözlər gülər.

* * *

Bir külfətin içində,
Sənsən işıqlı xəndə.
Adın “təbəssüm” olmuş,
Xoşbəxt olan dəhəndə.

* * *

Xəstələrə səhhətsən,
Gücsüzlərə qüvvətsən.
Dünya cəhənnəm olsa,
Sən özün də cənnətsən.

* * *

Dirilik zəhmətlidir,
Çox da mərarətlidir.
Həqiqət aləmində
Xəyalın ləzzətlidir.

* * *

Bu ağır yük çəkilməz,
Şu acılar içilməz.
Sənsiz, a parlaq dilək,
Qaranlıqlar keçilməz.

* * *

Yol göstərən ay dilək,
Nicatın özü sənsən.
Yaşamağı sevdirən –
Sözümün düzü sənsən.

* * *

Dirilik qararanda,
Onun gündüzü sənsən.
Biz ağlardıq həmişə,
Güldürən bizi sənsən.

* * *

Qaranlıqların iştə –
İşıq ulduzu sənsən.
Yerdə səadət varsa,
Şəksiz ki, izi sənsən.

* * *

Mə’yus olma, amandır,
Mə’yus olmaq yamandır.
Qorxaq diləksiz yaşar,
Millətim qəhrəmandır.

*Qorodinka, 14 iyul*

# 1917

## QIŞ GÜNLƏRİNDƏ ODLU FƏĞANLAR

Həmişə yaxşılıq baş verməli insan olanlardan,
Yamanlıq sadir olmaz rəhbəri vicdan olanlardan.
“Cahanda ölməyən bir yaxşılıqdır!” Çox gözəl bir söz
Gələnlər həp gedərlər aləmə mehman olanlardan.
Eşitməklik gərəkdir söhbəti-yarani-ürfanı,
Ziyan gəlməz ki, pəndhayizi-ürfan olanlardan.
Zügürdün halına rəhm eyləmək çox yaxşı xislətdir,
Qənilik aləmində zati-alişan olanlardan.
Həmiyyət lafını vurmaq qolay, icrası müşküldür,
Həmiyyət baş verər vicdanları rəxşan olanlardan.
Bir əldən yaxşı iş gəlmək ki mümkündür, gərək silsin –
Axan göz yaşların öz bəxtinə giryan olanlardan.
Geyim verməkliyə varkən gücü dövlətli bir şəxsin –
Gərək dəf’ eyləsin çılpaqlığı üryan olanlardan.
Çörək verməkliyə imkanı varkən əhli-iqbalın –
Neçin dəf’ etməyir cu’u o bəddövran olanlardan?!
Məişət aləmində alihimmətlər uzaq durmaz –
Səfalət odlarilə qovrulub suzan olanlardan.
Sıcaq evlər içində bəslənənlər olmasın qafil –
Soyuq torpaqlar üstündə təni lərzan olanlardan.
İşıqlı ömr edən xoşbəxtlər də agah olsunlar –
Qaranlıq guşələrdə başları rizan olanlardan.
Şu məğrur əhli-sərvətlər bir az barı qızarsınlar –
O matəm ellərində dilləri al-qan olanlardan.
İmarətlər içində əyləşənlər bir utansınlar –
Yeri, yurdu, yuvası xak ilə yeksan olanlardan.
Yatanlar varsa, dursunlar, göz açsınlar, oyansınlar,
Fəğanü əl’əmanü kütleyi-hirman olanlardan.

Gülən üzlər, dodaqlar gülməsinlər, bir dayansınlar,
Utanmaqlıq gərəkdir ruyu naxəndan olanlardan.
Bu gündə duyğusuz canlar gərəkdir duyğulansınlar,
Uzaqda durmasınlar halına nalan olanlardan.
Bu gündə əhli-qeyrətlər gərəkdir dalğalansınlar,
Girizan olmasınlar qəmləriümman olanlardan!..
Bu gündə canlı məqsədlə gərəkdir ruhlansınlar,
Eşitsinlər fəğanı yurdu qəbristan olanlardan!..
Nədir milli məhəbbət qanmayanlarmız da qansınlar,
Səxanı kəsməsinlər bir sürü binan olanlardan.
Gərəkdir sinələr milli həmiyyətlə qabarsınlar,
Gərəkdir sinələr milli həmiyyətlə qabarsınlar,
Çalışsınlar xilasə qərğeyi-tufan olanlardan.
Əgər zənginlər istərlərsə parlaq ad qazansınlar,
Yapışsınlar yədi pabəsteyi-xüsran olanlardan.
Bu gündə xaneyi-iqbalı abadan olanlar həp –
Nəzər döndərməsinlər taleyi viran olanlardan.
Bu gündə qafil olmaq çox böyük milli cinayətdir –
Müsibət çöllərində aclığa qurban olanlardan!
Sən, ey qeyrətli türk oğlu! Sən, ey nəsli-kərəmpərvər!
Driği-himmət etmə şəfqətə şayan olanlardan!!!

*Proskurov, 16 yanvar*

## ACI HƏQİQƏTLƏR QARŞISINDA DADLI XATİRƏLƏR

Çox bağırdıq ki*, nisanın da böyük xidməti var,
Rolu var, qulluğu var, güclü əhəmiyyəti var.
Çox bağırdıq ki, qadınlar da işıqlansınlar,
Dirilik aləmini anlayaraq qansınlar.
Çox bağırdıq ki, qaranlıqda qalırsa nisvan, –
Gələcək aləmimiz olmayacaqdır taban.
Bir işıqlı dirilik sizlər üçün lazım isə, –
Salmayın cinsi-lətifi o qaranlıq qəfəsə.
Çox bağırdıq ki, xanımlarda da ürfan olsun,
Mə’rifət nuri ilə canları rəxşan olsun.
Dirilik aləminə ər kimi çıxsın nisvan,

Bunu fəhm etməmişik, sonrası qayətdə yaman.
Çıxıb onlar da bu dünya işığın görsünlər,
Aləmi anlayaraq yaxşı ömür sürsünlər.
Çox bağırdıq qadının qiymətini anlayalım,
Hörmət istərsək əgər, hörmətini anlayalım.
Qadın alçaqda yaşarsa kişi ali olmaz,
Şübhə yoxdur ki, qadınsız da təali olmaz.
Çox bağırdıq ki, gəlin düşməni-nur olmayalım,
Dirilik yollarını görməli, kur olmayalım.
Erkəyin xidməti varsa, qadının da işi var,
Yurdumuzda bunu qanmış əcəba qaç kişi var?
Çox bağırdıq ki, qadın validеyi-millətdir,
Ana bədbəxtliyi oğlu üçün zillətdir.
Necə razı olur övlad ananın zillətinə,
Ya nasıl əngəl olur da ana hürriyyətinə?
Daima zülmətə məhkum isə madərlərimiz, –
Pərtəvəfruzi-təkamül ola bilməz fərimiz.
Çox bağırdıq, az idi dinləyən avazımızı,
Susduran pək çox idi nəğmeyi-iqazımızı.
Çox bağırdıq tələbi-vəqtə itaət edəlim,
Qəflətə batmayalım, dərki-həqiqət edəlim.
Anlamış olduğumuz hikməti təkrar etdik,
Əlimizdən gələni millətə iş’ar etdik.
Anlamışdıq gələcəkdə qadının xidmətini,
Biaman vəqt də anlatdı əhəmiyyətini.
Fikrimiz doğru imiş ki, onu canlatdı zaman,
Çox acı təcrübələr bizlərə anlatdı zaman.
Şimdi vəqt anladıyor ki, qadının xidmətini,
Bu vəzaifini, dünyadə əhəmiyyətini.
Çox çətinləşdi bu günlər yaşamaq dünyadə,
Daha müşkülləşəcək bilməliyiz fərdadə.
Dirilik şeyləri gündən-günə olmaqda baha,
Neyləsinlər bu zamanlar qadınlar əcəba?
Ya nə yapsın bu gün evlərdə qalan örtülülər,
Başqa tə’bir ilə yə’ni ki, o canlı ölülər?
Təninin nisfi məəttəl yaşayanlar, heyhat,
Görəməzlər yerin üstündə ki bir dadlı həyat!..

*Proskurov, 21 yanvar*

## ƏMƏL

Əməl bir nurdur, yə’s isə bənzər tibq zülmatə,
Bu oylə bir həqiqətdir ki, hacət yoxdur isbatə.

Əməl bir şö’lədir, parlar həyatın rəhgüzarında,
Ölənlər beylə ümmid ilə yatmışdır məzarında.

Əvət, mövtada vardır arizuyi-nəş’ətül-üxra,
Dilək ölməz deməkdir, ölməyən bir ruhdur zira.

Dirilik arizusilə ölür öldükdə millətlər,
İnanmışdır buna dünyadakı əhli-həqiqətlər.

Ölənlər, öldürənlər həp bu məqsədlə mübarizdir,
Bu qanuni-təbiətdir, bütün aləmdə barizdir.

Bütün meydani-hərbü zərbdir yerlər, sular, göylər,
Bu qövğayi-təbiidə müzəffərdir əməlpərvər.

Zəfəryab olmaq üçün saheyi-qövğayi-fitrətdə,
Əməllərlə müsəlləh olmalı ərzi-həqiqətdə.

Həyatı anladan, aydınladan bir mə’nəvi kövkəb.
Cahanı şənlədən, rövşənlədən nəcmi-əməldir həp.

* * *

Əməlsiz bənzəyir bədbəxt olan biçarə ə’mayə,
Yaşar, dərk eyləməz neyçün də gəlmişdir bu dünyayə.

Günəşdən bir sıcaqlıq hiss edər əndamı ə’manın –
Və lakin nurunu görməz o, şəmsi-aləmaranın.

Həyatın rəngini, ahəngini bilməz ki, nabina,
Onun indində zülmətdir bütün dünya, bütün əşya.

İşıqlar parladan yer, göy onun hissincə həp şəbdir,
O bilməz eylə bir göy var ki, aydındır, mükövkəbdir.

Qəmərlərdən, səhərlərdən, bütün fərdən əbəd məhrum,
Təbiət aləmində çox həqiqət onca namə’lum.

Mələklərdən, çiçəklərdən, diləklərdən xəbərsizdir,
Sözün ən doğrusu, kor ömr sürməklik səmərsizdir.

Korun pişində çirkinlik, gözəllik həp bərabərdir,
Demək, məfkurəsiz millətlə gözsüzlər bərabərdir.

Korun sönmüş gözü varsa, onun da sönmüş amalı,
Diləksiz millətin yoxdur, əmin ol, parlaq iqbalı.

Həyatı anladan, aydınladan bir mə’nəvi kövkəb,
Cahanı şənlədən, rövşənlədən nəcmi-əməldir həp.

* * *

Dilək nurani bir candır, həyatəfruzi-millətdir,
Onun ziddi olan yə’s, iştə, ruhani bir illətdir.

Əməl ölməz, əməl bir ruhdur ki, hər zaman zində,
O bir parlaq işıqdır asimani-canda tabəndə.

Əməl ölməz, əməl sönməz, əməl fəyyazi-aləmdir,
Əməl bir rəhbəri-xoşbəxtiyi-övladi-adəmdir.

Əməl ruhani cənnətdir, onun ziddi cəhənnəmdir,
Əməlsizlər üçün dünya qaranlıq saheyi-qəmdir.

Həyati-kainatın rəhnümayi-feyzi-imranı,
Qaranlıq bir biyabanın əməldir nəcmi-rəxşanı.

Yolun azmışlara yol göstərən bir nəcmi-tabandır,
O ulduz yox olursa, yer qaranlıq bir biyabandır.

* * *

Qaranlıq bir ova təsvir edin, səssiz, sədasızdır,
Bulutlanmış üfüqlər, göy üzü fərsiz, ziyasızdır.

Gecə bəsti-cinahi zülmət etmişdir tamamilə,
Qüluba qorxular salmaqdadır müdhiş zülamilə.

Bürünmüş hər tərəf vəhşilərə, xəşyətli zülmatə,
Dumanlar hakim olmuşlar tamamilə mühitatə.

Zəmin səssiz, səma fərsiz, gecə həp lali-mütləqdir,
Təbii, boylə çöldən qorxu tapmaqlıq mühəqqəqdir.

Qaranlıq çox dərindir, qorxular sərpəkdədir balə,
Bulut, sis çox qalındır, baxdınızmı bu şəbi-lalə?

Xəyalən seyr edin, bu çöldə yol azmış bir insan var,
Gözilə cüstcü etməkdədir ətrafdan ənvar.

Deyirlər: göz gözü görməz, bu çöl eynən o halətdə,
Zavallı yolçu azmış, qalmış avarə bu zülmətdə.

Qaranlıq hər tərəfdən könlünü etməkdədir təhdid,
Nə bir səs var bu səhradə, nə də bir şö'leyi-ümmid.

Bütün övhamı canlanmış birər əsrar şəklində.
Hücum etməkdədirlər yolçuya xunxar şəklində.

Zavallı yolçu netsin, neyləsin, zülmətdə qalmışdır,
Mədədrəs yox, işıq yox, vadiyi-xəşyətdə qalmışdır.

Əgər mə'yus olursa, qurtuluş yoxdur həlakətdən,
Əməldir qurtaran hər şəxsi səhrayi-fəlakətdən.

Həyatı anladan, aydınladan bir mə'nəvi kövkəb,
Cahanı şənlədən, rövşənlədən nəcmi-əməldir həp.

* * *

Əməl ulduz kimi parlarsa gümrahın nigahında,
İşıqlı yol açılmışdır o dəmdə pişgahında.

Əməl zülmət içində bir işıqdır, qəlbə qüvvətdir,
Bunu fəhm eyləyən, şəksiz ki, rəhyabi-səlamətdir.

Əvət, millət də eynən şəxsə bənzər rəhgüzarında,
Gərək olsun həmişə bir ziyanın intizarında.

Əvət, millət bu gündə bilgi şəhrahında azimdir –
Və lakin məqsədə ermək üçün çox sə'y lazımdır.

Əməl yol göstərən parlaq işıqdır, yolçudur millət,
Onu qorxutmaz, əlbət, yolları tutmuş olan zülmət.

Qovar zülmətləri, əngəlləri sə'y ilə rahından,
Dönər zənn etməyin millət təriqi-intibahından.

Əməlsiz fərd ya əfrad üçün yoxdur ki, istiqbal,
Əməldir yapdıran atiləri görmək üçün şəhbal.

Əvət, məfkurəli millət ucalmış səmti-əflakə,
Səmavi bir baxışla baxmaqda əflakdən xakə.

Cahanda olmasaydı əhli-ərzin yüksək amalı,
Ucalmazdı göyə yer oğlunun şəhbali-iqbalı.

Əməl məhsuludur pərvaz edən təyyarə şəklində,
Ucalmışdır göyə yerdən uçan səyyarə şəklində.

Evin başlanması başdan deyil, əvvəl təməldəndir,
Göyə uçmaq da oylə, ən təməlli bir əməldəndir.

Həyatı anladan, aydınladan bir mə'nəvi kövkəb,
Cahanı şənlədən, rövşənlədən nəcmi-əməldir həp.

*Proskurov*

## BƏŞƏR

Bəşər! Ey canlı bir hikmət, böyük qüdrətlərin vardır,
Böyük əqlin, böyük fikrin, böyük qüvvətlərin vardır.

Dimağın bir xəzinə, yə'ni bir gəncineyi-əfkar,
Tükənməz, bitməz, iştə bitsə də, bitməz olan əbhar!

Sənin sən'ətlərin ciddən tənahinapəziradır,
Sənin nami-büləndin, ey bəşər, ülviyyətaradır.

Kiçik bir varlığın vardır, böyükdür lakin idrakın,
O göylərdən də yüksəkdir sənin ruhani əflakın.

Dənizdə torpağı minqadi-fərman eylədin, indi –
O yüksək göylərə açmaqdasan şəhbali-ümmidi.

Sənin məfkurən, ey insan, demək ki, sığmayır xakə,
Onun üçün də çıxmışsan şücaət ilə əflakə.

Yeri, dəryanı, təsxir eyləmişdin, indi var balın,
Əvət, bundan da yüksəkdir sənin şəhbali-iqbalın.

Təkamülyabi-fikr olduqca, ey səyyari-cür'ətkar,
Təbiət sinəsində indilik məstur olan əsrar –

Birər ərzi-cəmal eylər, çıxarlar səhni-dünyayə
Olursan hakimi-mütləq təmamən ruhi-əşyayə.

*Proskurov*

# 1918

## VAXTIN SƏSİ VƏ HƏYATIN SÖZÜ

Elmin, hünərin, mə'rifətin varsa, buyur gəl,
Yoxsa, bu həyat aləmində olma bir əngəl!
Ərbabi-kəmalın yeridir, bil ki, bu meydan,
Bədbəxt yaşar torpağın üstündəki nadan.
Sahib olacaq yerlərə qüvvətli, əmin ol,
Ey gücsüz olan, sən dəxi mədfuni-zəmin ol!
Laf ilə tərəqqi olamaz, sözlə də sərvət,
Bilgiylə olur, bilməlidir, sərvətü qüvvət.
Ehrazi-məratib olamaz cəhl ilə, bir qan,
"Həlyəstəvi" e'lan ediyor həzrəti-"fürqan"*.
Nur ilə qaranlıq ola bilməz ki, bərabər,
Əlbət, olacaq gözlü olan korlara rəhbər.
Kor olma, cahan zülmət olur ki, nəzərində,
Çahi görəməzsən, a yazıq, rəhgüzərində.
Şəksiz, düşəcəksən quyuya, ey gözü ə'ma,
Möhtaci-tədavisən, əya milləti-zülma.
Möhtaci-təbabətsən, inan, ey gözü fərsiz,
Ömrün keçəcək boylə nəzərlərlə zəfərsiz.
Əlbət ki, həyatın keçəcək həpsi bəhərsiz,
Ey zülmət içində qalan, ey ömrü səhərsiz!
Şəmsin, qəmərin nolduğunu bilməyəcəksən,
Güllər güləcək, ah ki, sən gülməyəcəksən!
Dərk etməyəcəksən şu işıq üzlü nəhari,
Sən görməyəcəksən, a yazıq, rəngi-bahari.
Sən görməyəcəksən yerin üstündə nədir hur,
Bir nimnigəhlə ediyor dilləri məshur.
Bir hur ki, can bəxş ediyor mürdədilanə,
Tabi-rüxü fər vermədə əfsürdədilanə.

Sən görməyəcəksən yerin üstündə "mələk" var,
Yox səndə onu görmək üçün dideyi-nəvvar.
İstərsən əgər görməyə cənnati-həyati,
Korluqla keçirmək neçin anati-həyati?
İştə yaşamaq haqqına haizdir o kütlə –
Bir hərbi-münəvvərlə çıxıb cəbheyi-cəhlə.
Bundan belə dünya böyük ürfanlı ər istər,
Sən də yaşamaq istər isən, bilgini göstər!

*Bakı, 9 kanuni-sani* (*noyabr*)

## AYRILIQ DƏQİQƏLƏRİ

*Əsgərlər hərbə gedərkən*

Ağlayan gözlər, ağlanan sima,
Doludur rəhgüzari-qövğadə.
Ağlayırmış kimi üyuni-səma,
Qətrələr var vücuhi-səhradə.

Yaşlı gözlərdə var məlali-kəbut,
Nə həzin ləm'eyi-lətafətdir!
Gözlərim eyləyir şu hüznə sücud,
Hüzn şayisteyi-ibadətdir.

Qəmli bir izdiham cuşacuş,
Oxunur çöhrələrdə ayeyi-hüzn.
Dilləri nalədar, dil xamuş,
Parlayır gözlərində sayeyi-hüzn.

Çoxunun gözlərində əşki-fəraq,
Der idim: iştə şe'ri-mə'nidar...
Əbri-puş idi çöhreyi-afaq,
Matəmə batmış idi sanki nəhar!.

Bir qadın durmuş idi bir yanda,
Canlı bir lövheyi-lətafət idi.

Qaldı çeşmim o hüzni-tabanda,
Doğrudan çox gözəl bir afət idi...

Gözlərində dururdu: giryeyi-lal,
Yanağı kölgəliydi, qəmli idi.
Üzünü öpmədə zilali-məlal,
Könlü atəşli, çeşmi nəmli idi.

Mən də bir qəm oleydim iştə dedim,
Bus edəydim o ruyi-dilbərdən.
Bəxtli qəm qonub behiştə dedim,
Öpüyor ruhi-hurmənzərdən.

*Bakı*

## BƏDBƏXT KOR ÇOCUQ

*Karpat xatirələrindən*

Dünya üzünə gəldiyi hala iki ildir,
Yer, göy nasıl imiş buna agah deyildir.
Parlaq günəşindən deyil agah səmanın,
Gündüzləri də həp gecədir tifli-əmanın.
Göylərdə qəmər, yerdə səhərlər yaşar, əmma –
Ənvar nədir anlamayır kudəki-ə’ma.
Bir cift işıqdan belə məhrum o bədbəxt,
Dünya ona başdan-başa bir lövheyi-zülmət.
Cismi diridir, gözləri ölmüş də, ağarmış,
Çeşmanı bəyazdır, ona aləm də qararmış.
Dərpərdədir onca bütün aləmdəki əşya,
Görməz ki, nədir şamü səhər, pəst ilə bala.
Çünki iki çeşmi duruyor zülməti havi,
Hər şey ona müzlim, ona hər şey də müsavi.
Bilməz necədir ruyi-pədər, çöhreyi-xahər.
Bədbəxt çocuq həsrəti-rüxsareyi-madər,
Birdir nəzərində bütün afaqü səmavat.
Bir rəngi-siyəh anlayır, iştə o da zülmat.

Gözsüzlər ilə gözlülər olmaz ki, bərabər.
Zindəylə bərabər ola bilməz ki, ölənlər!..
Şəhrahi-həyati görəməz kur olan insan,
Kur olmayalım, istər isək ömri-dirəxşan...

## QÜRBƏT ELLƏRDƏ YADİ-VƏTƏN

*Karpatda ikən*

Karpatın dağları nigahımda –
Dursa dursun da pişgahımda –
Könlümün gözləri sənə baxıyor,
Dodağım mədhini sənə oxuyor.
Karpat üstündəyəm, fəqət üzümü,
Könlümü, ruhumu, iki gözümü
Daima döndərib də səmtinə mən,
Oluram sacidin, a şanlı vətən!
Qibləgahi-rəhi-nigahimsən,
Ey vətən, ülvi səcdəgahimsən.
Sənə bir xidmət eyləsəm, a vətən,
Şu həyatımda bəxtiyarəm mən.
Ey vətən, sən özün də madəri-can,
Sənə layiq pərəstişi-vicdan.
O beşlik ki, bizi qucaqlardı,
Səndə nabit olan ağacdan idi.
Yaşa, ey şanlı yurdumuz, əbədi!
Məhdimiz, ləhdimiz, qəzamizsən,
Xüldzari-fərəhfəzamizsən.
Pərvərişyabi-ne'mətin oluruz,
Sonda mədfuni-türbətin oluruz.
Tənim olsun dəfin xakında,
O gözəl xaki-tabnakında,
Race' olsun sənə bu qəlb, bu tən,
Mətlə'i-şəms olan ziyalı vətən.
Ünsürün ünsüri-şücaətdir,
Bu sözüm doğrudur, həqiqətdir.
İştə tarixlər də anlatıyor,

Ya nasıl Qafqaz irqi şanlatıyor:
Ey bizə saheyi-həyat vətən,
Səndə doğmuş bu qəlbü can, bu bədən.
Sənsən iştə bu cismə nəş'ətgah.
Sənə mə'tufdur həmişə nigah.
Cənnət olsa bütün yer üstü yenə,
Bizə lazım o səndəki sinə.
Çünki aşiq sənə təbiətimiz,
Sənsən aramgahi-xilqətimiz.
Ən gözəl cənnətim mənim vətənim,
Mayeyi-ruhü mayeyi-bədənim.
Karpat üstündəyəm, könül səndə,
Sevdiyim qönçə səndə, gül səndə,
Ən gözəl çöhrələr qucağında,
Canlı güllər yaşar o bağında.
Xaki-pakında hurlər yaşayır,
Şəkli-insanda hurlər yaşayır.
Cismlənmiş gözəl-gözəl ərvah,
Səndədir həp bədayei-əlvah
Kuhi-Qaf iştə Qafqazın dağıdır,
Cənnət iştə bu Qafqazın bağıdır,
Anladım doğrudan nədir huri:
Qafqazın düxtərani-məsturi.
Şübhə yoxdur, şu örtü də yanacaq.
Onu yaxmaqlığa gərək qanacaq.
Cəhl əliylə urulmuş o rubənd,
Bilgi hazır edər o cəhlə kəmənd.

* * *

Qafqaz, ey sevgili, gözəl madər!
Fitrətən çox dəyərli, çox dilbər!
Ey vətən, ey zəmini-pürqiymət,
Qucağındır həqiqətən cənnət.
Dağların sərbülənd, sərbəsəma,
Pək gözəldir o səndəki sima.
Ey zəmini-behişt olan Qafqaz,

Yer üzündə yeganə bir almaz.
Mə'dənin, mənbəin, füyuzun var,
Hələ bakir qalan künuzun var*.
Göylərin pak, yerlərin fəyyaz.
Mö'tədildir həvaların qış-yaz.
Xameyi-qüdrətin gözəl əsəri,
Məxzəni-fitrətin işıq gühəri.
Axıyor hər yerində abi-həyat.
Nurlu Qafqaz! Nə yerdədir zülmat?!
Dağlarındır mənabei-ənhzar,
Bağlarındır səhaifi-əzhar!
Ərimiş bir gümüş kimi abın,
Şe'rzadır ləyali-məhtabın!
Lövheyi-dilfüruzi-dünyasan,
Sən təbiət yerində hüsnasan!
Sən ki, ənmuzici-lətafətsən,
Mənbei-rövnəqü təravətsən!
Çox gözəldir baharın, əzharın!
Səni dərk etməyir sənin yarın.
Ey olan həmvisalı əğyarın!
Sübhi vardır bu leyleyi-tarın.
Səni bir gün çocuqların biləcək –
İştə bir söz ki, doğrudur, gərçək.
Hələ cahildir, ah, evladın,
Çox da ənvərdir əhli-irşadın.
Səni görməkliyə nəzər lazım,
Səni idrak üçün də sər lazım.
Hələ bizlərdə yox o sər, o nəzər,
Bizə sən küskün olma, ey madər!
Ey vətən, ey beşik həyatım üçün,
Yenə sən aç qucaq məmatım üçün!
Mədfənim səndə, məqbərim səndə,
Öləyim səndə, son yerim səndə –
Olsun, ey mədəri-müqəddəsü pak,
Qucağında qucaqlasın məni xak.
Tənimi bəslədin, böyütdün sən,
Qucağında gözəl isitdin sən.

Əmdiyim südlə, içdiyim suyu mən –
Borcluyam həp sənə, sevimli vətən!
Olmuşam ne'mətinlə pərvərdə,
Unudulmaz hüquqi-madər də.
Qucağın bəsləyən şu evdalın –
İstəyir parlasın gözəl adın.
Səni parlatmağın təriqini mən –
Anlayıb bilmişəm, zavallı vətən!
Ən böyük xidmət istəyirsən, ana,
Bunu çoxdan düşünmüşəm rə'na.
İştə sinən məadini-sərvət,
Səndə çoxdur xəzaini-ne'mət.
Örtü altındadır xəzinələrin,
Həp qaranlıqdadır dəfinələrin.
Səndə pək çox təbii sərvət var.
Bizdə də bilgi yox, cəhalət var.
Cəhlimiz çox, kəmalımız yoxdur.
Uçmağa şahbalımız yoxdur.
Seyr üçün asimani-ürfani,
Görməyə kainati-rəxşani –
Pərü bali-kəmal lazım, ana,
Anlamışdır bunu əazim, ana!
Ey vətən! Səndəki füyuzatı,
Səndə mövcud olan künuzatı –
Əldə etməkliyə kəmal gərək,
Yüksəlişçin də pərrü bal gərək.
Ey vətən, ey zəminlərin gözəli,
Mislini görmədim cahan gözəli!
Yerlərin cənnəti mənim vətənim,
Fərzdir xidmətin ölüncə tənim.
Səni sevmək təbii imanım,
Ey mənim qibləgahi-vicdanım!

* * *

Qürbət ellər əgərçi oldu yerim,
Sənə aid bütün düşüncələrim,
Ey məni bəsləyən çəmənzarım,
Ey xəyali-rəfiqi-əfkarım.

Karpat üstündəyəm, könül səndə,
Tairi-dil o gülşən üstündə.
Sən yuvam, laneyi-həyatımsan,
Bağizari-tərənnümatımsan.
Məni şair doğan anam səndə,
Əbədiyyət məzarı sinəndə.
Çox uzaq olsa da, bu tən səndən,
Könlüm ayrılmayır, vətən, səndən.
Dustlər səndə, səndə yaranım,
Ey mənim aşiyani-zişanım!
Sənsən öz oğlunu qucaqda tutan,
Bəsləmək üçün əkməyin yaradan –
Və açan süfrəni həyatı üçün,
Qucağın son yeri məmatı üçün.
Ey xəzanı gözümdə fəsli-bahar,
Ey gözəl torpaq, ey sevimli diyar!
Sən kitabi-türab içində nəsən,
Ey gözəl parça, qit’eyi-əhsən!
Hüsnlər qaynayır zəminindən,
Mənbei-hüsnsən, a şanlı vətən!
Dağların ziqürurü pürəzəmət,
Eyləyir ərz çöhrəyü qamət.
Yüksələnlərdə var qüruri-vücuh,
İstəyir adəm olsun, istəsə kuh.
Gözəlin, yüksəyin təbiətidir –
Kibr satmaq həmişə adətidir.
Sən də, ey kuhi-zişükuhi-vətən,
Həm gözəlsən və həm də yüksəksən.
Yakışır cisminə böyük əzəmət,
Ey uca boylu, heykəli-qüdrət.
Çünki var səndə qaməti-bala,
Ziqürur olmağın deyil bica.
Ey vətən, ey zəmini-müstəsna,
Sən gözəlsən, fəqət ki, biz ə’ma,
Açılanda üyuni-əhli-vətən,
Görəcəklər ki, sən nə dilbərsən.

*Şəhri-Ensteri*

## AYDINLIQ BİR GECƏDƏ TƏFƏKKÜR DƏQİQƏLƏRİ

Bir sür'əti-bərqiyyə ilə xaneyi-səyyar –
Getməkdə idi... mən dəxi müstəğrəqi-əfkar,
Müstəğrəqi-əfkar olaraq səmti-şimalə –
Sür'ətlə rəvan, Şərqdə də qibleyi-dildar.
Yoldaşları dərk etmiş idim dərkdən azad,
Öz fikrim idi kəndimə bu yolda fəqət yar.
Dirsək verərək pəncərəyə, fikrə cünudə,
Ən yüksək əvalimdə idi fikrəti-təyyar.
Çılpaqdı bulutdan, üzü parlaqdı səmanın,
Ay doğmuş idi, yerləri etmişdi ziyadar.
Hüsni-əzəlisində parıldardı kəvakib,
Hala da cavan qız kimi bu biveyi-qəddar.
Ay çıxmış, o hüsn ilə mükövkəbdi səmavat,
Göy dilbəri, yə'ni o qəmər cazibül-ənzar.
Titrər kimi idi o səmalarda ziyalar,
Gövhərdir o ulduzlar, əvət, göy dəxi əbhar.
Göz doymayır idi şu işıq üzlü qəmərdən,
Yerlərdə də vardır nigəhara olan əqmar.
Bus eyləyir idi baxışım ruyi-qəmərdən,
Ulduzlar idi pişi-nigahımda həp əş'ar.
Məcmueyi-əş'ar idi əlvahi səmanın,
Rəngin idi, zəngin idi, fəyyaz idi, nəvvar.
Bir mə'bədi-ə'zəm kimi durmuşdu şu gərdun,
Ulduzları qəndil idi guya ki, pürənvar.
Bir mə'bədi-ə'zəm ki, səzavari-tamaşa,
Bir mə'bədi-ülvi ki, təcəlligəhi-əsrar.
Bir xeyli zaman dadlı tamaşaya nigahım,
Ciddən vələhəfzayi-xəyal idi bu asar.
Bir leyli-müqəmmərdi ki, ilhamlarından –
Rizan oluyordu dilə əş'ari-füsünkar.

Əlvahi-səmaviyyəyə heyran oluyordum,
Heyrət bəşərin iczini etməkdədir izhar.
Heyrətlə baxardım o ziyagahi-büləndə,
Aydınlıq olan leyl təmaşayə səzavar.

Göy parlaq ikən, torpağın övladı qaranlıq,
Güllər gülüyorkən, bəşərin gözləri ağlar.
Baxdım qəmərə, ulduza, baxdım mələkuta,
Qərq oldu bütün varlığım e'maqi-sükuta.

Birdən-birə bir dadlı səda duydu qulağım,
Guya uyumuşdum, o səs etdi məni bidar.
Dərhal çevirdim üzümü səmti-sədayə,
Gördüm duruyor bir qadın, ənzarı füsunbar.
Bir hakimeyi-qəlb idi ol hüsni-müsəxxir,
Pək cazibəli gözlərə malikdi o rüxsar.
Zülfi-siyəhi bəxtimi tənzir ediyordu,
Şəmsi-rüxü də atiyi-millət kimi nəvvar.
Nəvvar idi, taban idi, rəxşan idi ruyu,
Bir heykəli-amal idi, guya ki, o didar.
Baxdım o gözəl çöhrəyə, baxdım mələkutə,
Qərq oldu bütün varlığım e'mali-sükutə.

## HƏYATİ-HAZİRƏMİZİN İLHAMLARI

Başdan-başa bir kölgə bürünmüş kimi aləm,
Üzlərdə nümayan oluyor sayeyi-matəm.
Bir məqbəri-barid kimi durmuş bu mühitat,
Əhvali-həyatiyyə bunu eyləyir isbat.
Əğyar həzin, yar həzin, hal qəmavər,
Hər yerdə görünməkdə qəmaludə nəzərlər.
Bir parlaq olan atiyə mə'tufdur ənzar,
Ati isə ərz eyləmir arayişi-əflak,
Həp qanlar içində yenə də xaki-siyəhnak.
Göylər yenə üslubi-qədimində dirəxşan,
Ulduzları həp şəm'eyi-ülviyyəti-taban.
Yoxluqda gəlir gözyumulu xakin içində,
Ənzari-kəvakib açıq əflakın içində.
Xurşid isə bir ayeyi-nəvvareyi-aləm,
Məzlum bəşəriyyət yenə avareyi-aləm,
Avareyi-aləm, əvət, avareyi-mütləq,
Olmaz bu təbiətlə kəmalata müvəffəq!

## ŞE'R İNCİLƏRİ

*Firişteyi-ilhamə*

Gözəlliyin sənə bəxş eyləmişdir istiğna,
O çöhrənə yaxışır, şübhəsiz, nürurü ğina.

Bu nazənin duruşun bənzəyir o tairə kim,
Bir əl uzansa ona, eyləyər fərari-səma.

O sayğısız baxışında nədir bu cazibələr,
Qapıb da könlümü aldı misali-kahrüba.

Bu hüsnü anına məğrursan, bunu bilirəm,
Zəkati-hüsn verilməzmi, ey behiştliqa?

İtab etsə də çeşmin, həqiqətən yeri var,
Kitabi-ruyunu öpməkdədir gözüm zira.

Əgərçi dəhrdə vardır cahan-cahan asar,
Fəqət üzündür, a dilbər, mütaliatə səza.

Nəcib ülvi bir eşqin dilim səhifəsidir,
İnan bu sözlərimə, ey vücudi-müstəsna!

Kitabələr əsəri-xamədir, fəqət sən bir –
Səhifəsən ki, onu qüdrət eyləmiş təhrir.

Kitab sözləri gözlərlə, ey qadın, oxunar,
Sənin də səfheyi-rüxsarını dodaq anlar.

Nasıl, bu rəmzimi fəhm eylədinmi, sevdiciyim?
Mənim behiştirüxüm, ey mənim gözəl çiçəyim!

*Qaliça, şəhəri-Lemberq, 24 noyabr*

# 1919

## BAHARIN İLHAMLARI VƏ İCTİMAİ RƏMZLƏR

Tə'siri əyan olmadadır fəsli-baharın,
Şad eyləyəcək dilləri əlhani həzarın*.
Cəh-cəh edəcək şairi-mürğani-xoşəlhan,
Bu nəğməyə qarşı rüxi-gül olmada xəndan.
Çünki gəliyor ərzimizə eydi-təbii,
Dünya geyəcək kisveyi-səbzini-rəbii.
Canlandıracaq torpağı ərvahi-bahari,
Ciddən nigəhəfruzdur əlvahi-bahari.
Aləmdə zühur etmədədir nəş'əti-üxra,
Bir nəş'əti-üxra ki, səzavari-təmaşa.
Bir nəş'əti-üxra ki, təbiətdə əyandır,
Gülzardə, əzhardə, fitrətdə əyandır.
Simayi-dirəxşəndeyi-xurşidi-səmadən –
Nur əmdiyi üçün doğacaq dilbəri-gülşən.
Əş'ar oxuyur pişgəhi-qönçədə bülbül,
Guya ki, deyir qönçəyə: ey qönçə, açıl, gül!
Gül, gül, mənə ilham qıl əş'areyi-rəngin,
Dərpərdə neçin qalmalı rüxsareyi-rəngin?!
Güllər açılır səhneyi-səbzin çəmənində,
Parlar o çiçəklərdə birər xəndeyi-zində,
Rüxsari-güli bus ediyor xəndeyi-əhmər,
Ey güldəhənim, sən nə üçün böylə mükəddər?!
Hala da tülu' etmədimi fəsli-baharın?!
Ey canlı çiçək, örtülü qalsınmı üzarın?!
Aç çöhrəni, ey çöhreyi-məsturi-füsunkar,
Ey qönçədəhən, açmağa layiqdir o rüxsar.
Hər şeydə əyan nəş'əti-üxrayi-təbii,
Bürhanı bunun: fəsli-dilarayi-təbii.
Ya səndə neçin yox belə bir nəş'əti-üxra?
Ey "Gülruxum", ey "Cənnət"im, ey ruyi-"Gülara"!

Şair də sənin bülbülün, amma ki, sükundar,
Göstər üzünü, xəm edəyim mən dəxi əş'ar.
"Güllər" açacaq olmaz isə bülbül önündə,
Bülbül yaradar zənn edəməm nəğmeyi-zində.
Ey şe'r pərisi, yetər artıq o niqabın,
İştə o niqabın, bu hicabın, şu səhabın!

*Bakı, 6 aprel*

* * *

Ey pərdeyi-mənhusdə qalmış güli-zində!
Ey dəfn edilən canlı ikən örtü içində!
Söylənsə səzadır sənə "mədfuneyi-ziruh",
Daim sənə mail, sənə mail dili-məcruh.
Bir atəş olaydım da, yaxaydım o niqabi,
İştə şu niqabi, şu hicabi, şu səhabi!
Parlardı o gün gülşəni-rüxsareyi-alın,
Qərq eylər idi yurdumuzu nurə cəmalın!
Sənsiz olamaz nəş'əti-üxra bu vətəndə,
Sənsiz olamaz tairi-xanəndə çəməndə!
Ey canlı çiçək, örtüyü at, ruyunu göstər!
Bir cənnəti-hürriyyətə dönsün də bu yerlər!
Biz də olalım əhli-behişt, ey üzü cənnət,
Artıq yetər, artıq yetər artıq bu əziyyət!
Şərq aləmi sənsiz əbədiyyən görəməz nur,
Ey çöhreyi-fəyyaz olan, ey dilbəri-məstur!
Ey canlı işıq, canlı günəş, tərki-səhab et!
Artıq yetər, ey "Nuri-cəhan", tərki-niqab et!
Sən çöhrəni aç, mən olayım bülbülün, ey gül!
Sənsiz açamaz millətimin, bil ki, bahari,
Gizlətmə, "Səmənrüx", o behiştanə üzari!
Güllər açılır – iştə bu qanuni-təbiət,
Ya sən nə üçün pərdədə, ey qönçeyi-cənnət?!
Ey qönçeyi-cənnət, açıl, ey huriyi-səhhar,
Olsun vətənim çöhrən ilə qərqeyi-ənvar.
Sənsiz bu vətən görməyəcək nəş'əti-üxra,
Ey pərdeyi-müzlimdə qalan "Zəhreyi-Zəhra"!

*Bakı*

## KOR SOQQUR

Dünya üzünə gəldiyi hala neçə ildir,
Yer, göy nasıl imiş, buna agah deyildir.

Parlaq günəşindən deyil agah səmanın,
Gündüzləri də həp gecədir tifli-əmanın.

Bir cift işıqdan belə məhum bir bədbəxt,
Dünya ona başdan-başa bir aləmi-zülmət.

Görməz ki, nədir şəm'i-ziyapərvəri-dünya,
Dərpərdədir onca bütün aləmdəki əşya.

Görməz bu təravətli, lətafətli baharı,
Fəhm eyləyəməz məzhəreyi-rəngnisarı.

Təmyiz edəməz hüsn ilə çirkinliyi əsla,
Yoxdur gözü görsün ki, nədir ruyi-dilara.

Bilməz necədir ruhi-pədər, çöhreyi-xahər,
Bədbəxt çocuq həsrəti-rüxsareyi-madər.

Bir milləti-ə'ma da haman kudəkə bənzər,
Görməz ki, nədir ərz həyatındakı fərlər.

Fəhm eyləyəməz çöhreyi-gülrəngi-həyatı,
Bilməz ki, nədir rəng ilə ahəngi-həyatı.

Bu parlaq əvalimdə yaşar zülmətə məhkum,
Görmək özü bir ne'mət ikən, ne'mətə məhrum.

Şəmsin, qəmərin nolduğunu bilməyəcəksən,
Güllər güləcək, ah ki, sən gəlməyəcəksən!

Dərk etməyəcəksən şu işıq üzlü nəharı,
Sən görməyəcəksən, a yazıq, rəngi-baharı.

Sən görməyəcəksən yerin üstündə nədir hur,
Bir nimnigəhlə ediyor dilləri məshur.

Bir hur ki, can bəxş ediyor mürdədilanə,
Tabi-rüxü fər verмədə əfsürdədilanə.

Sən görməyəcəksən yerin üstündə mələk var,
Yox səndə onu görmək üçün dideyi-nəvvar.

İstərsən əgər görməyə cənnati-həyatı,
Korluqda keçirmək neçin anati-həyatı?

İştə yaşamaq haqqına haizdir o kütlə –
Bir hərbi-münəvvərlə çıxıb cəbheyi-cəhlə.

Bundan belə dünya böyük ürfanlı ər istər,
Sən də yaşamaq istər isən, bilgini göstər!

*Bakı*

## QƏMƏRƏ

Ey səmanın qədim olan qəməri,
Saneyi-aləmin münir əsəri.

Köhnə bir aşinayi-aləmsən,
Kövkəbi-rövşənayi-aləmsən.

Sərsəri bir həyatə sahibsən,
Gah açıq, gah zisəhaibsən.

Yürüyürsən içində əflakın.
Olmuş olsaydı nitqü idrakın,

Canlı tarix olardın aləm üçün.
Bu cədəlgahi-ərzi matəm üçün –

Adəmin xilqətin bilərdin sən,
Xəbər aldıqda söyləyərdin sən.

İlk Adəm nə cür dirildi, qəmər?
Dilin olsa, verərdin iştə xəbər.

Niyə qan tökdü Adəm övladı?
Qabil imiş o qatilin adı,

İlk qatildə qabiliyyəti-qətl,
Əzəlidir əvət, bəliyyəti-qətl.

Ölmək, öldürmək iştə kari-bəşər,
Bəşər olmaqdadır "şikari"-bəşər.

Ey əzəl sərsərisi nuri-ləyal.
Maziyü hal, bir də istiqbal,

Gələcəklərlə həp güzəştə sənin
Nəzərində bərabər iştə sənin.

Hələ çox-çox yaşar tüluatın,
Ey işıq ulduzu səmavatın!

Ey qəmər, ey həyatdan azad,
Səncə birdir sürur ilə fəryad.

Xaki matəmdəmi, sürurdəmi,
Səncə bir qəm dəmi, sürur dəmi.

Ruhsuz, duyğusuz həyatın var,
Bişüuranə kainatın var.

Nəğmeyi-sur ya ki, nə'reyi-çəng.
Səncə yekrəngdir və yekahəng.

Toyla matəm yanında birdir, bir,
Ey qəmər, ey cavanliqa, özü pir!

Səd həzaran həyatlər sönüyor,
Sırf hiçiyü torpağa dönüyor.

Sönəcəkdir hələ gözəl gözlər,
Onları zülməti-ədəm gizlər.

Çox diləffuz çöhrələr sönəcək,
Əbədi pərdələrlə örtüləcək.

Sən yenə mehvərində səyyarə,
Yenə sən sərsəriyü avarə,

Yenə sən gün içində ruynüma,
Yenə parlar kəvakib ilə səma.

Yenə şəbtab olan şu məhtabın –
Parladar səthini yerin, abın.

İşığın yerlərə saçar ənvar,
Bir daha parlamaz şu əhli-məzar.

*Bakı, 2 may*

## EY ZAVALLI BƏŞƏR

Əlinlə təng qıldın başına bu enli dünyanı,
Yaxıb yandırdın, ey bədbəxt, bu gülşənli dünyanı.

Bəşər, ciddən siyəhiqbalsən ruzi-əzəldən sən,
Qaranlıq eyləmişsən kəndinə rövşənli dünyanı.

Dəmirlərdən yaratdın duzəxəndam aləti-cəngi,
Məzaristanə döndərdin neçin bu şənli dünyanı?

Dolu olsaydı, ey insan, künuzi-əqlü idrakın,
Qanardın çox gözəl surətdə bu məxzənli dünyanı.

Sənə çox-çox yazıqlar olsun, ey xunxar olan insan,
İşıqlı günlərə həsrət, səfilü xar olan insan.

Neçün guş etməyirsən, ey bəşər, fərmani-vicdanı,
Nasıl ləzzətlənirsən, söylə, qan tökməkdən, ey fani?

Bu xislətlə, əmin ol, dilbəri-amalı görməzsən.
Keçər ömrün qaranlıq, pərtövi-iqbalı görməzsən.

Nəsibi-həsrəti-ömrün müsibətdən ibarətmi?
İrindən, çirkdən, qandan, fəlakətdən ibarətmi?

## HƏRARƏTLİ ŞE'R VƏ YAXUD QIZDIRMALI HALIMDA SAÇMALARIM

*Səməd Mənsur* qardaşıma*

Gözüm bir gülməyir bu ərzi-fəryadı görən gündən,
Könül şad olmayır bu səhni-naşadı görən gündən.

Ürək atəşli, göz pürab, yə'ni giryəpərvərdir,
Pərişanəm bu xakistani-bərbadı görən gündən.

Bəşər gözyaşlıdır matəmgəhi-dünyayə gəldikdən,
Bunu tədqiq qıldım hali-novzadı görən gündən.

Nolaydi payı-bəndi-cəhl olaydım, qanmayaydım, ah!
Əsiri-dəsti-hüznəm fikri-azadı görən gündən.

Həyatım təlxdir, ey dilbəri-Şirini-hürriyyət,
Qəmim dağlar qədərdir eşqi-Fərhadı görən gündən.

Zəlalət zülmətindən rahiyab olmuşmu insanlar?
Xeyr, bil'əks yatmış rəhbərü hadi görən gündən.

Əvət, tövhidə qail olmadı əqvami-bədbəxti,
Buna tarixlər şahid bu ahadı görən gündən.

Həmişə qanlı keçmişdir güruhi-ictimaiyyə,
Bəşər tarixi xunindir bu əfradı görən gündən.

Xəyalat olduğun hiss eyləmişdim ədl ilə dadın,
Bu meydani-fəğanda ah ilə dadı görən gündən.

Bu zülmi-latənahidən xilas olmazmı millətlər?
Qolaydır zənn qılmam elmi-ə'dadı görən gündən.

Xilas olmaq çətindir bəhri-cuşani-məsaibdən,
İnandım mən buna əshabi-imdadı görən gündən.

İnandım xərsüvar olmuş olan Dəccəli-yekçeşmə,
Bəsirət çeşmi nabina bu zühhadı görən gündən.

Cahan əhli uzaqlaşmış ümumi bir üxüvvətdən,
Siyasiyyun əlqabında fəssadı görən gündən.

Yaxından hiss qıldım ki, uzaqdır kövkəbi-ümmid,
Nücumun kəşfinə məxsus mirsadı görən gündən.

Hələ rubahlər meydanıdır bu bişeyi-dünya,
Bunu duymuş idim məhzun asadı görən gündən.

Bəşər rəhyab olurmu leyli-xüsrani-zəlalətdən?
Buna mən münkirəm ərbabi-irşadı görən gündən.

Behişti göylərə uçdu deyirlər ruhu Şəddadın,
Bu rəmzi anladım hükkami-Şəddadı görən gündən.

Deyirlər zövci-Həvvayə ki, məscudi-məlaikdir,
Dedim şeytanə rəhmət Adəm övladı görən gündən.

Behişti bir təməddün kəsb edərmi aləmin əhli?
Buna heyrətdəyəm bu vəhşətabadı görən gündən.

Bu yer qansız olurmu? Əqldən sordum, cavab iştə:
Bunu dərk etmədinmi tiği-cəlladı görən gündən?

Yer oğlu xəstədir qandım, qan almaq lazım olmuşdur –
Qədimi adət ilə, hali-fəssadı görən gündən.

Bəşər səhhət bulurmu, yoxsa əmrazında baqidir?
İnanmaq çox çətindir xuni-müzdadı görən gündən.

Pərəstişkari-ruhumdur ümumi səhhəti-əqvam,
Bu xəstə adəmi, bu xaki-bidadı görən gündən.

Bu vəhşitəb' olan ətfalı tə'lim eyləmək gücdür,
Bunu dərk eylədim ürfani-ustadı görən gündən.

Hələ noqsandır insanlardakı əhvali-ruhiyyə,
Bunu fəhm eylədim əfkari-əzdadı görən gündən.

Dedim qabil deyildir qardaş etmək cümlə əqvamı,
İvanla Arşaqı, sofi Xudadadı görən gündən.

Üxüvvət altunu işlərmi bazarında dünyanın,
Əqidəm çox sönük idrakı-həddadı görən gündən.

Üxüvvət zər misalı, netməli, yoxdur xiridarı,
Bunu qanmışdım iste'dadi-həddadı görən gündən.

Dəmirçi altunu qanmaz, bəşərdir cümlə ahəngər,
Bunu dərk eyləmiş məhzun olan Hadi görən gündən.

Nasıl adəm imiş Adəm, buna çox canlı bürhan var:
Onu bilmək deyil müşkül bu əhfadı görən gündən.

# Poemalar

# 1908

## BEŞİKDƏN MƏZARA QƏDƏR BƏŞƏRİN ƏHVALI

Bir xeyli zaman tifl yatar həbsi-şikəmdə,
Ordan atılır dəhrə xilas olduğu dəmdə.

Bir gün şikəmi-müzlimi tərk eyləyor adəm,
Sonra oluyor məskəni bu aləmi-müzləm.

Ol gün ki çıxar pərdeyi-məsturi-şikəmdən,
Hürr oldu sanır kəndisini dərdü ələmdən.

Rəhyabi-nicat oldumu, eyvah, şu bədbəxt –
Tifl ilə bərabər doğuyor qeydi-əsarət.

Divanə kimi sürkələyir qeydi özilə,
Cinnət götürərdi bunu görsəydi gözilə.

Bilsəydi cahanə gəliyor silsiləcünban,
Razımı olurdu gələ dünyayə bir insan?

Bir qanlı şikəmdən düşər ağuşi-fənayə,
Bundan nerəyə? Lücceyi-xunini-bəlayə.

Aya bunu kim atdı, yuvarlatdı cahanə?
Yol tapmadın, ey əql, bu əsrari-nihanə!

Qanmış kimi bu aləmi, mənfayi-həyatı,
Biçarə çocuq doğdumu, başlar nəvahatı.

Guya ki, demək istəyir ol küdəki-nalan
Oldum bu doğulmaqlığıma şimdi peşiman.

Hürriyyəti mən istər idim dəhrdə, heyfa, –
Olmuş bu cahan cümlə yaranmışlara mənfa!

Zənn eylər idim aləmi rəxşəndə cahandır...
Madar şikəmindən daha zülmətli məkandır!

Fikr eylər idim cənnəti-ülviyyətə düşdüm,
Nirani-ələmdir bura, süfliyyətə düşdüm.

Başlar nəvəhatə, nəvəhatə, nəvəhatə;
Bir növhəsi min nifrət edər sanki həyatə.

Sanki çocuğun ruhu duyub qəhri-həyati,
İyham ediyor dərdini xunin qətərati.

Hər qətreyi-suzəndəsi bir atəşi-qəmdir.
İnsan nə deməк? Abideyi-dərdü ələmir.

Tökməkdə çocuq çöhrəsinə gireyi-həsrət,
Eylər kimi tövlidinə izhari-nədamət.

Biçarəni qoymaz anası olmağa giryan,
Püstanın ucilə tıqayır ağzını hər an,

Püstanın ucilə çocuğun ağzı qapandı,
Məcbur olaraq ağlamadı tifl, dayandı.

Sərbəstcə qoymaz ki, bir az ağlasın övlad,
Bir möhri-əsarət vuruyor ağzına bidad.

Möhr ilə neçin ağzını tikdin şu səğirin?
Aya eşidilməzmi şikayəti fəqirin?

Azadəlisan dəhrə gəlir zadeyi-insan,
Həngami-təvəllüddə bunu tifl edir e'lan.

Dilli ikən ol tifli nasıl lal ediyorlar,
Əxlaqi-təbiiyyəni ixlal ediyorlar.
Mahiyyəti-hürriyyəti pamal ediyorlar!

İnsan ki, mücərrəd doğuyor doğduğu dəmdə,
Guya yenə üryan yatacaq məhdi-ədəmdə.

Vəqta ki, düşər aləmə növzadi-lətafət,
Birlikdə doğar tifl ilə zənciri-əsarət.

Ol silsileyi-fitrəti qət’ eylədi mama,
Tədqiq edilən nöqtə budur, sırf müəmma!

Zənciri-təbiisi kəsildi, bələyorlar,
Bir iplə dəxi qundağı qat-qat sarıyorlar.

Zəncirə çəkirlər çocuğu doğduğu saət,
Aya nə günah etdi bu növbareyi-ismət?!

Mə’sum ikən bəs niyə zəncirə sarılsın?
Ey zalım, o dəsti-sitəmin bircə qırılsın!

Canimi, nəmi, söylə, edirsən onu məhbus?
Ey dəsti-sitəmkar, əya pənceyi-mənhus!

Ərbabi-cinayət görülür layiqi-zindan,
Şayistəmi dustaq ola qundaqlara sibyan?

Varmı günəhi? Yox! O ki, ismətli mələkdir.
Ol zadeyi-azadəyə layiqmi bələkdir?

İnsaf elə, yahu, belə bir işmi olur ya,
Bir kudəki-mə’sumə səzadırmı bu, mama?!

Həp əskiləyorlar, bələyorlar, səriyorlar,
Bir xaneyi-pürzəlzələdə* ninniləyorlar.

Duyduqda bu zəncirləri etmədə fəryad,
Guya ki, apar kəndinə ətrafdən imdad.

Əfğanına, fəryadına imdad edən olmaz,
Bu dilsiz əsiri gəlib azad edən olmaz.

Mə’yus olaraq sanki der: “İmdadrəsim yox,
Əfkarımı izharə dilim yox, nəfəsim yox”.

Baxdıqca zavallı bu qüyudati-həyatə,
Bilməz ki, nə yapsın, veriyor güc nəvəhatə.

Bir qundağa razi olamaz cahilə madər,
Nənniyə salır tifli, daha, bax, nələr eylər:

Bir iplə dəxi nənniyə bağlar şu səğiri,
Seyr eylə cinayətsiz olan tifli-əsiri!

Dünyayə qədəm qoyduğumu oldu cinayət?
Bundan ötürü tiflə verirlərmiş əziyyət!

Bir əl ilə təhrik edilir nənnidə hərdən,
Başı dönüyor, həp qusuyor südləri birdən.

Böylə böyüyor, bəsləniyor zadeyi-millət,
Ey madəri-cahil, bumu qanuni-təbiət?

Bu tərz ilə bəslənmiş olan zadeyi-insan
Bazari-rəqabətdə olur sahibi-xüsran.

Bu qaideyi-tərbiyyətindən səmər olmaz.
Bundan sənə bir faidəpərvər pəsər olmaz.

Növzad ikən övlad ona, ey lövhi-cəhalət,
"Tə'lim" ediyor, öyrədiyorsan da əsarət!

## ANALARA VƏSİYYƏT

Canpareyi-hürriyyətə hürriyyəti qandır,
Hürriyyət ilə tərbiyət et, ruhun oyandır.

Hürriyyətə bənzər çocuğa vurma qüyudat,
Anlat ona, bilsin ki, nədir ədlü müsavat.

Əvvəl nəyi təlqin edəcəksən, onu sibyan –
Əlbəttə, edər nəqşi-kütübxaneyi-vicdan.

Ətfal nədir? Ayineyi-pakü müsəffa,
Eylər, nəyi göstərsən, o mə'kəsdə təcəlla.

Aylarla ki, bu "tərbiyət" ilə yaşar ətfal,
Böylə böyüyor, bəsləniyor, uf, nə əhval!..

Bir gün atılır guşeyi-nisyanə bələklər,
Sərbəstliyi daddımı, ahəstə iməklər.

Azadə çocuq anlamaz azadiyi-rəftar,
Gah yumbalanır, gah düşüyor, gahi də qalxar.

Ol rütbədə tə'sir qılıb tiflə əsarət,
Müxtəll olub ondakı hürriyyəti-fitrət.

Bir canlı həqiqət demək ol tifli-növazad,
Oynar, düşüyor, yumbalanır sevgili övlad.

Çeşmində təbəssümlər uçar, ləbləri xəndan,
İsmət kimi göyçək bu çocuq calibi-vicdan.

Bir mə'niyi-iffətmi girib ləfzi-vücuda,
Gəlməzmi məlaik bunu gördükdə sücuda?!

Hər vəz'i-lətifi nigəharayi-məhəbbət,
Bir ruhi-mücəssəm kimi cəzzab təbiət,

Hər nə veriyorsan onun ilə gülər, oynar,
Ətfal qədər sevgili dünyadə nə şey var?

Könlüm kimi lö'bətlərə məyyaldır ətfal,
Fikrim kimi birdən-birə, yerdən-yerə cəvval.

Oynar, atılır, yumbalanır başibəlali,
Gör şəkli-həqiqətdə gəzən canlı xəyali.

Laqeyd sanır kəndini, məhkumdur amma,
Bir şe'rdir insan, həm açıq, həm də müəmma.

Nə lövheyi-riqqət, nə bədianə tamaşa!..
Bir canlı teatro, bunu kim eylədi inşa?

Ülviyyəti müş'ir, bütün əş'ardır imkan,
Kim oldu bunun şairi? Dərk etməyir insan.

Ey şairi-xilqət! Bu nə əş'ari-bədaye,
Bir hərfini inşad edəməz əhli-sənaye.

Əbkəm qalıyor şe'rinə baxdıqca ədiban,
Valeh oluyuor sirrinə əfkari-həkiman.

Əş'arın önündə qızarır ruyi-fəsahət,
Əsrarın önündə qararır nuri-zəkavət.

Bilməm ki, nəsən? Hər nəsən, ey şairi-fitrət,
Nə fəlsəfə bildi səni, nə fənn, nə hikmət.

Diqqətli baxılsa vələhəfzaydır aləm,
Sətrindəki ərvah bütün lövhi-mücəssəm.

Dağlar, təpələr, məşcərələr cümlə şüunat,
Başdan-başa aləm hikəmiyyat, ədəbiyyat.

Bir üqdədir "imkan" denilən səhneyi-fitrət,
Açdıqca düyün düşmədədir rişteyi-xilqət.

Məqsəd nerədə, biz nerədə, fikr nə yerdə?!
Yorma özünü, kəşf olunur sanma bu pərdə.

İstər nə qədər nurlu olsun da xəyalət,
Naqabili-idrakdır artıq bu həqiqət.

Çocuq yavaş-yavaş gəzməyə öyrənir. Üç-dörd yaşında olduğu əsnada oyuncaqlarla məşğul bulunur. Baxalım bu dövreyi-həyatında nə yapır?

Bir gün ayağı yer tutaraq gəzməyə başlar,
Baziçəsi saxsı sınığı, rəngli daşlar.

Yalınca ayaqlarla və bir kirli təsəklə
Məşğul oluryor oynamağa daşla, kəsəklə.

Baziçəyə mə'tuf bütün fikrü xəyalı,
Yox başqa düşünməkləri, yox özgə məalı.

Dünya nəzərində bir oyuncaqdan ibarət,
Bilmir ki, nədir keşməkeşi-kəsbi-məişət.

Mövqufi-səfadır bütün övqati-həyatı,
Bu rəhgüzəri-ömrdə bilməz üqəbatı.

Həp ləhvüləəbdir çocuğa qayeyi-amal,
Yox fikri-məişət ki, qıla keyfini ixlal.

Sərbəst gəziyor, əyləniyor, məşğələsi xak,
Qandıqda əsir eyləyəcəkdir onu idrak.

Ey tifl, o sərbəstliyi bil də qənimət!
Bir seyli-xüruşan kimi gəlməkdə əsarət!

Bir gün səni qərq eyləyəcək seyli-qüyudat,
Bir də görəcəksənmi bu hürriyyəti? Heyhat!

Hürriyyəti-nazəndə bu gün olsa əsirin,
Qandınmı, bu səhhar olacaq onda əmirin.

Hürriyyət, o şahin deyil a hər kəsə mail,
Seyd etdiyi ərbabi-fəzaildir, əfazil.

Alçaqları seyd etməyə amadə deyildir,
Ülviyyətə məftundur, üftadə deyildir.

Hər fikrə tənəzzül edəcək nur deyildir,
Napak qucaqlarda yatan hur deyildir.

Ən şanlı xəyal ovlamaq istər bu həqiqət,
Kəndi kimi dilbər dil arar seydə bu afət.

Hər güzgüdə məşhud olamaz hüsnü cəmalı,
Mir'at dəxi olmalıdır pakü ziyalı.

* * *

Qurbani-xilasın olaq, ey dilbəri-lahut!
Qaç danə doğub sən bəyənən ərləri nasut?

Könlüm kimi dünyadə nə müşkül bəyənənsən?
Mən olmalıyam istədiyin, sən də mənimsən.

Gəl sevdiciyim, çək məni ağuşi-vüsalə,
Ey huri-həqiqət, bədənim döndü xəyalə.

Yandırdı məni, yaxdı məni narın, a qəddar!
Tə’sir edəməzmi sənə bu ahi-şərərbar?

Bilməm kimə mənkuhəsən, ey bakiri-ismət?
Ey aliheyi-ərşi-müəllayi-vəcahət!

Çıx, çıx, səhərim, mərhəmət et Hadiyi-zarə,
Qoyma düşə həsrətlə şəbistani-məzarə!

* * *

Sərbəst yaşar tifl beş-on sal bu minval,
Gündən-günə bir rəngə girir, başqalaşır hal.

Bu vəqtdə baziçələrin şəkli dəyişdi,
İndi aşığa, şişməyə, top-topa girişdi.

Artıq daha beşdaş oyunun vaxtı gedib ya,
Bir özgə oyuncaqlar olub şimdi mühəyya.

Bunlarla da övqatgüzar oldu, yoruldu,
Bir başqa oyuncaq yeni meydana qoyuldu.

Gəl, gəl də təmaşayə bu tiflanə büsati,
Seyr eylə çocuqlardakı əzvaqü nişati.

Təşrihi-həyat eyləyərək anla, gözəl qan,
Hər dəmdə təbəddüldə, təcəddüddədir insan.

Bir hal ilə durmaz bu cahan, tazəlik istər,
Sən köhnəpəsənd ol, dur inadında, a bisər!

Ey zülmətə aludə olan mazipərəstan!
Bir ləhzeyi-ibrətdir o baziçeyi-tiflan.

Hər günlərinin, aylarının, illərinin var –
Bir başqa oyuncaqları, həp böylədir ə’sar.

Dolmuş bu həqaiqlə cahanın səfəhatı,
Məhkumi-ədəmdir pozan ayati-həyatı.

Bir vəqt hülul eyləyir əyyami-qiraət,
Lazım gəliyor tərbiyeyi-fikrü xəyalət.

Məktəblərə arayiş olur tifli-səbəqxan, –
Ta kim, terişə elm ilə qayati-məramə.

Olmaqda müdavim gecə-gündüz bu məqamə, –
Ta kim, erişə elm ilə qayati-məramə.

Məktəb nə deмək? Tiflə görə həbsü əziyyət,
Hürriyyətə erməkliyə lazımdır əsarət.

Ta şişənişin olmasa güldən çəkilən su,
Bir qiyməti haiz olamaz, nəşr edəməz bu.

Rə'na çiçəyin gərçi solur rəngi-cəmalı,
Seyr eylə su şəklində o qiymətli məalı.

Əfkarı bütün mün'ətifi-ruyi-kəmalat,
İstər ki, ola haizi-övrəngi-füyuzat.

Hər gündə olur məktəbi-ürfanə şitaban.
Məktəb nə demək? Məşriqi-tabəndeyi-ürfan.

Məktəbdə keçər qaç sənə saati-həyati,
Zəhmət çəkiyor kəsb edə asayişi-ati.

Günlər oluyor dərsini bilməz mütəəllim,
Görməkdə onu layiqi-təkdir müəllim.

Təkdirlənir, incidilir, həm döyülür də,
Ustaddə gər tərbiyə yoxsa, söyülür də*.

Şagirdlərin böyləcə təhsil zəmani
İmrar ediyor iştə bu məktəb güzərani –

Təkdir ilə, tə'zib ilə, min dürlü əməklə,
Bə'zən də döyülməklə, söyülməklə, kötəklə.

Bə'zi gecə ac yatmaq ilə ev bucağında,
Biçarə uyur sübhə qədər qəm qucağında.

Açmış qanadın üstünə kabusi-xəyalət,
Ruhu, beyini, fikri bütün qərqeyi-fikrət.

Şəb ta bəsəhər xabgəhi məhbəsi-əkdar,
Atəş saçıyor məğzinə əfkari-şərərbar.

Alamü mihən olmadı mehmani-xəyalı,
Bax, gör nə cəfalar çəkiyor başıbəlalı!

Təhsil yolunda bu cəfa eyni-səfadır,
Arayışı-ərbabi-ədəb dərdü bəladır.

Xilqətdə bu bir sirdir: ərbabi-zəkavət –
Daim oluyor qəhrkeşi-fəqrü səfalət.

Gah parəsi olmaz ala lazımlı kitabi,
Gör kim, nə məşəqqətlə oxur xanəxərabi.

Xamə pulu, xanə pulu, camə pulu məfqud,
Guya ki, məişət qapısı ruyuna məsdud.

Ən əngəli bu: ücrəti-tə'lim verilsin,
Verməzsə əgər, məktəbi tərk etməli olsun.

Ən doğrusu, məktəb pulunu verməsə şagird,
Əlbət edəcəklər onu ixrac və təb'id.

Təhsilini ikmal edəcək yerdə bir insan,
İnsaf edəlim bir, necə qoysun onu nöqsan?!

İxrac edilirsə yazığın zəhməti nolsun?
Ümmidləri canlanacaq yerdə boğulsun?

Göz nuru töküb, can çürüdüb, qəlbi püramal,
İstər ki, ola naili-işrətgəhi-iqbal.

Çox sə'y eləyir ücrəti-tə'limini tapsın.
Siz söyləyiniz çarə nə, biçarə nə yapsın?

Tabavər olur günlər ilə rəncü inayə,
Netsin, qoşar axır dəri-ərbabi-qinayə.

Ərbabi-qina məstimeyü dövlətü sərvət,
Könlündə nə şəfqət, nə tərəhhüm, nə mürüvvət!

Ümmani-təkəbbür duruyor sanki sərində,
Əmzaci-təməsxür coşuyor didələrində.

Zəhrabi-həqarət tökəcək, açsa dəhanın,
Ehraq edəcək əhli-süalın dilü canın.

Təlxab ilə məmzuc sözü cümlə kinayət,
Ümmidinə nail edəcək bu səni? Heyhat!

Sanki dili bir müz'ic olan canlı ilandır,
Bir parə ət, amma necə gör zəhrfəşandır!

Etsəydi təcəssüm dəhənindən tökülən söz,
Şəksiz ki, olurdu o sözün hər biri bir köz.

Acı, yaxıcı məsxərə oynar nigəhində,
Səxriyyədir insan balası pişgəhində*.

Şagirdə əta eyləmək istərsə kifafi,
Şərtdir ki, gərək çak qıla cibi-ifafi.

Ol rütbə sıxıb tərlədəcək heykəli-qismət,
Ruyunda gərək qalmaya dürhaneyi-iffət.

İnci kimi çıxmış üzünə abi-həyasi,
Üz suyu satır ta ala nanparə bəhasi.

Əsbabi-sitəm, əldə qəni, istmətə ə'da,
Ariflərə canilər ədu, pərtövə – zülma.

Bir parəyə min parə edər cibi-həyanı,
Xilqət belə xəlq eyləmiş ərbabi-qinanı,

Hər fərd birər şeydən alır dəhrdə ləzzət,
Ərbabi-qina: yırtmaq ilə daməni-ismət.

Fəqir və biçarə şagirdin ərbabi-qinanın məhzəri-kibriyapərvərində aldığı vəziyyəti-miskinanənin lövheyi-təsviridir*

Şagird hüzurunda durur dəstbəsinə,
Amir qabağında necə mə'mur kəminə.

Can samiəsi əmri-qəniyə nigərandır,
Gizlin əməli və'zi-həzinində əyandır.

Bükmüş boyunun, gözləri mə'tuf zəminə,
Ey çeşmi-fərəh, ağla bu simayi-həzinə!

Bir oğru baxış da arabir nəsbi-qənidir,
Amma nə qəni, təb'də qayət də dənidir!

Şagirdin o qəmli nigəhi mə'kəsi-amal,
Vəchi, nəzəri, mənzərəsi mül'ini-filbal.

Ümmidlər ayinəsidir nəzreyi-insan,
Dildə nə olursa, olacaq gözdə nümayan.

İstərsə ki, bilsin mərəzi əhli-təbabət,
Əlbəttə, mərizin edəcək çeşminə diqqət.

Amillərin amalın oxu didələrində,
Hər bir kəsin ümmidi əyandır nəzərində.

Bu görnüşü gördün, keçəlim əhli-qinayə,
Gör kim, nə sitəmlər edəcəkdir füqərayə.

Sərvətli iki müskərəpərvər nəzər ilə,
Suraki-simət ol mütəkəbbir bəsərilə*,

Məğrur gözilə süzür ərbabi-süali,
San kim, baxışından duyulur kibr məali.

Qəsvətli dili sayə salıb nasiyəsində,
Təhrir olunub "yə's" alını haşiyəsində.

Bu vəz'də durmuş görəcək olsa qənini,
Fikr et mütəəlimdə olan hali-həzini.

Şagirdə xitabən der o timsali-xüşunət:
"Bildim ki, sənə lazım imiş etmək ianət.

Hə, yaxşı, görüm... İndi mənim özgə işim var,
Söz söyləmə artıq, min işim, keşməkeşim var.

Sən get, baxaram, söyləməyə qalmadı hacət,
Lazımsa, sənə eyləyərəm mən də ianət.

Amma ki, deyir, eşidərəm cümlə xəlaiq
Əsla oxumursan və deyilsən işə layiq.

Gəh sirkə, kluba və teatroya gedirsən,
Hər nə biliyorsan, onu sərbəst edirsən".

Vay, vay, nə qədər yandırıcı, qəlbşikən söz!
Ağla, bu acı sözləri tənzir eləyən göz!

Bu sözləri söylər, yönəlir başqa otağə,
Dalsın bu otaqda gözəl ağuşi-fərağə.

Ləzzətli yeməklər yeyərək işrətə dalsın,
Ərbabi-səfalət dilər isə yerə batsın.

Şagird, o qəmdidə, bu möhtaci-ianət –
Yə's ilə dönər. Of, zavallı!.. Bu nə halət!

Könlündəki ümmidlərin öldümü, övlad?
Yoxdurmu vətəndə sənə bir can edə imdad?

Sındırdımı yə'sin daşı şəhbalını? Bilməm –
Yoxmu elə doktor ki, qoya zəxminə məlhəm?

Balalərə pərvaz edəcək yerdə, qəzadən, –
Yə's oxları salıd səni torpağa fəzadən.

Tifli-əməlin səhdi-xəyalında boğuldu,
Ümmidin ölüb, yə'slərin şidi doğuldu.

Səndən vətənin gözlər ikən şö'leyi-xidmət,
Söndün niyə birdən-birə, ey şəm'i-zəkavət?

Sən sübh olacaqdın bu şəbistani-vətəndə,
Ey ruhi-münəvvər, gəzəcəkdin bu bədəndə.

Kəştisi sınan millətə imdad edəcəkdin,
Girdabi-fənadən onu azad edəcəkdin.

Yol göstərəcəkdin, onu irşad edəcəkdin,
Sən millətini güldürəcək, şad edəcəkdin.

Heyfa ki, qırıldı pəri-nazəndeyi-şövqün,
Artıq sənə bir ləzzəti yox aləmi-zövqün.

Çox şəxslərin yə'sqırıb eşq qanadın,
Könlündə qoyub istədiyi cümlə muradın.

## ALƏMİ-MÜSAVATDAN

*Ruhülqüds təbiətimə*

Ey təb'i-vəsi'im, səni sığdırmayır aləm,
San kim, qəfəs olmuş sənə bu aləmi-müzləm.

Ey ruhi-büləndim, sənə məhduddur əkvan,
Əndamına naqis biçilib kisveyi-imkan.

Hərdəm gəliyor guşuma möhriq nəvahatın,
Artıq sənə bir bari-girandırmı həyatın?

Billəm ki, vəfa misli cahandan qaçacaqsan,
Ə'maqi-fəzayə axıb, onda uçacaqsan.

Çıx, tariki-zülmətkədeyi-təngi-cahan ol,
Əsfəlləri boşla, ülüviyyatə rəvan ol!

Çıx, çıx, səyəran et, dəvəran et, cəvəlan et!
Vüs'ətli bir aləm bulub onda təyəran et!

Pərvazgəh olsun sənə mafövqi-səmavat,
Gəhvareyi-aramını qıl ərşi-füyuzat.

Balaları gəz, dövr elə, lahutnişan ol,
Ey müxbiri-azadəlisan, feyzfəşan ol!

Gəz, gör də nasıldır şu əvalim, şu səmalər.
Şayani-tənəffüsmü o göylərdə həvalər?

Yoxsa tökülən qanlar olubdur mütəsaid,
Olmuş o gözəl, saf havalar da mı fasid?

Aya, o cahanlar da mı matəmgəhi-qəmdir?
Bu ərz kimi saheyi-qəm, səhni-ələmdir?

Varmı o zəminlərdə də adati-müadat?
Yoxsa qoyulub ortaya mizani-müvaxat?

Ol yerdə hüquqi-bəşərə varmı riayət?
Məzlumu edirlərmi o yerlərdə himayət?

Azadəmidir zülmünü icradə məzalim,
Varmı o cahanlarda da insan kimi zalim?

Hər kəs nə bilirsə eləyir, yoxmu nizamat?
Onlar da mı həsrətkeşi-rüxsari-müsavat?

Hürriyyət o ayinədə etmişmi təcəlli?
Yoxsa yaşadır onları bir təlx təsəlli?

Onlar da mı təkfir edir ərbabi-kəmali?
İrsali-şüunat qıl, ey müxbiri-ali!

"Övraqi-həvadis" səni min çeşm ilə gözlər,
Əxbarını istər, nigərandır bu nəzərlər.

Peymanını göndər, edəlim nəşr cahanə,
İnsanları vaqif qılaq əsrari-nihanə.

Mədəniyyəti-həqiqiyyə şəhərində seyrü səyahət edən müxabiri-məxsusimizdən gələn "Cahani-müsavat məktubları".

## BİRİNCİ MƏKTUB

Ol gün ki, minib xaneyi-təyyarə, əfəndim,
Uçduq səfəri-aləmi-ənvarə, əfəndim.

Düşdü yolumuz şəhri-müsavatnümunə,
Baxdıqca nəzərlər qamaşır şəmsi-fünunə.

Gəldik də yetişdik bu gözəl şəhri-nəimə,
Bənzər buna nisbət küreyi-ərz cərimə.

Aləm nasıl aləm, nasıl aləm, nasıl aləm!
Tə'rifini qabilmi ki, təsvir edə xaməm?

Əhsən, nə cahan! Cənnəti-qüdsiyyətə bənzər,
Şol rütbə lətafətli ki, hürriyyətə bənzər!

Əsnayi-şəb idi ki, yetişdik bu diyarə,
Afaqı münəvvər gecə bənzərdi nəharə.

Gərdunənişini-fərəh olmaqla gedirdik,
Əsvaqını, bazarını tədqiq edirdik.

Hər xanəsi bir laneyi-şəfqət kimi mə'mur,
Görnüşləri cəzzab nəzərlər kimi məxmur.

Kaşanələri eşqü məhəbbət qədər ali,
Əsvaqı dili-dahiyə əmsalı ziyalı.

Hər caddədə min şö'leyi-bərqiyyə dirəxşan,
Oynardı zəminə saçılan nuri-pərişan.

Gülşənlər olurdu nigəharayi-təravət,
Məmnun könüllər kimi hər yerdə məsərrət.

Məs'sud dodaqlar kimi güllərdə təbəssüm,
Derdim: "əməl etmiş bu çəmənlərdə təcəssüm".

Gərdunə gedir, mən dəxi ləbrizi-sünuhat,
Derdim: "nə gözəl aləm imiş şəhri-müsavat"!

Çıxdı yolumuz şə'şə'əli caddəyə birdən,
Ənvar axıyor zənn elədim sanki bu yerdən.

Parlardı həqiqət kimi mişkati-bəvariq*,
Xurşidi-ümidə bu yer olmuşdu məşariq.

Birdən gözümə dəydi müəlla bir imarət,
Şayani-tamaşa idi, həm calibi-heyrət.

Bir ləm'ə parıldardı bu kaşanə önündən,
San kim, günəş olmuşdu nümayan üfüqündən.

Gərdunə edib çərxini tə'til bu saət,
İştə burası mənzili-ərbabi-səyahət.

Gərdunəçi hörmətlə:– "Əfəndim, düşəcək yer,
Pakizə, gözəl, qonmalı bir beyti-müsafir.

Hörmətli əfəndim, eniniz, seyr ediniz, ya,
Rahət ediniz, xahişiniz cümlə mühəyya".

Gərdunəçisi böylə mülayim olan aləm, –
Əlbəttə, edər dilləri, vicdanları xürrəm.

Xidmətçi olursa bu qədər fikri ziyali,
Orda nə məratibdə olur sair əhali?

Mən ücrəti-cərdunəni verdim, dedim: – "Övlad!
Qıldın məni son rütbədə məsrur və dilşad.

Gərdunəçisi böylə olan şəhri-müsavat,
Etməzmi əhalisini sərşari-məsərrat?!"

Bir tərzi-nəzakətlə dedi: – "Zeyfi-mükərrəm,
Ol kəs ki, qəvaninə olub vaqifü məhrəm, –

Onlar biliyor bizlərə məmnu'dur ücrət,
Mən də edərəm qaideyi-şəhrə riayət.

(Gərdunədə bir dəxli mənə qıldı işarə),
Hər kəs nə verirsə, atılır kassaya parə.

Ol parə məsarif edilir nəf'i-ümuma,
Bikəsləri tə'lim edəcək dari-üluma.

Həp bizləri tə'min edən övladi-vətəndir,
Ədl ilə, müsavat ilə abad vətəndir".

Mühərrir əfəndi! Nisfini arabada, nisfini də mehmanxananın qabağında yazıb poçtası ilə göndərdim. Müşahidatımı gördükcə, yazıb göndərməyə qeyrət edərəm. İndi nömrədə istirahətə məşğul oluram. Xudahafiz, Ruhülqüds.

Mədəniyyəti-həqiqiyyə şəhərində seyrü səyahət edən Ruhülqüds müxabiri-məhsusimizdən gələn "Cahani-müsavat məktubları" "Beyti-məsərrət" mehmanxanasında yazılmışdır.

## İKİNCİ MƏKTUB

Düşdük bu gözəl, pak, lətafətli məqamə,
Mənzərləri ruhu gətirir rəqsə, qəramə.

Namı bu məqamın qoyulub "Beyti-məsərrət",
Həqqa ki, məsərrət ki, məsərrət ki, məsərrət!

Ləzzati-həyati bu məsərrət evi havi,
Derlərsə səzadır buna firdovsi-səmavi.

Səhhət yağıyor, feyz axıyor mənzərəsindən,
Bir buyi-məhəbbət duyulur məzhərəsindən.

Təb'im kimi səhnində çiçəklər gülüşürlər,
Fikrim kimi quşlar uçuşurlar, ötüşürlər...

Hər lanədə gülməklər uçar, gör necə şənlik!
Bu cənnətin arayişi-əndamı gözəllik.

Bir qəhqəhə, bir zülmümə, əlhani-xüruşan,
Əmvaci-məsərrat oluyor ruhda cuşan.

Küsmüşdü bu yerdən əcəba dideyi-nəmnak?
Üzlərdə səadət gülüyor, qəlb fərəhnak.

Abad olasan, ay belə gülzari-müsavat,
Haqdır denilirsə sənə cənnati-hüzuzat!

Rahət edib ol leyli, erişdikdə səbahə,
Erdi şəbi-asayişimiz sübhi-fəlahə.

Xidmətçi gəlib söylədi: “– Səhhətlər, əfəndim!
Ömründə nəsibin ola ləzzətlər, əfəndim!

Məs’ud olasan cismi-səlamətlə, əfəndim,
Mövcud olasan ruhi-həqiqətlə, əfəndim!”.

Xidmətçiləri əlbiseyi-pak içində,
Əncüm kimi səyyar idi əflak içində.

Söhbətləridir çöhrənüma huri-məhəbbət,
Simaları üzrə uçuyor nuri-məhəbbət.

Mən də buna qarşı dedim: – “Ey zadeyi-ürfan!
Bir böylə həyatı görünüz layiqi-şükran.

Bu aləmə gülmüş, deyirəm, ruyi-səadət,
Olmuş bu çəmənzarə vəzan buyi-səadət.

Zatən bu gecə cənnət içində yaşayırdım,
Ağuşi-ümidə atılıb uyqurlayırdım”.

Bir də sözümə etdim əlavə şu kəlamı;
“– Anlat mənə, bilmək dilərəm işbu məramı:

Ey sevgili adəm! Bunu qıl bəndənə zahir:
Kimdir bu müsafir evinin üstünə nazir?

Saxlar belə pakizə, fərəhza bu sarayı,
Məmnun ediyor dideyi-ərbabi-səfayı”.

Xidmətçi təbəssüm edərək gəldi kəlamə,
Bir şiveyi-naziklə ifadati-məramə:

"– İzzətli bəradər, sənə bu iş ola mə'lum:
Yox burda hökumət, nə də hakim, nə də məhkum.

Bu üç sözü məhz eyləmişiz cümlə lüğətdən,
Azadəsəriz indi bu üç danə sifətdən".

Mühərrir əfəndi!

Xidmətçi bildiyim bu möhtərəm adamla müsahibəyə məşğul olduğumuz əsnada nömrəmizdəki zəng çaldı. Elektrik qüvvəsi ilə vücuda gətirilmiş calibi-diqqət bir qələmlə divara bu cümlənin yazıldığını tamaşa etdim:

"Möhtərəm müsafirlərimiz! Poçta qatarının hərəkət vaxtı yaxınlaşmışdır; vaxtı qaçırmamaq üçün məktub yazanlar yazsınlar".

Bu vəzifəşünas adam məktub yazacağımı gözlərimdən mütaliə etmiş olmalıdır ki, "Şimdilik səadətə əmanət olunuz" cümləsi ilə dışarıya çıxdı. Mən də kitabətə məşğul oldum. Yarım saata yazımı bitirdim. Mehmanxana məktublarını poçtaya verməyə məxsus bir adam nömrələri gəzir, məktubları toplayırdı; mən də məktubu ona verdim.

Xidmətçi tanıdığım bu adamla edilən söhbətimizin mabə'dini irsali-hüzur elərəm; əlinizi sıxıram, səlamət olunuz! Ruhülqüds.

Mədəniyyəti-həqiqiyyə şəhərində seyrü səyahət edən müxbiri-məxsusimiz Ruhülqüdsdən gələn 13 avqust tarixli "Cahani-müsavat məktubları" "Beyti-məsərrət" mehmanxanası ə'zasından bir zat ilə edilən söhbətin tətimməsidir.

Mən məktubumu ikmal etdikdən sonra ikinci dəfə olaraq bu zat nömrəmə gəldi, aşağıdakı söhbətləri, o ləzzətli söhbətləri, bir şiveyi-ədibanə ilə nəql etməyə başladı:

## ÜÇÜNCÜ MƏKTUB

Ehraz üçün övrəngi-müəllayi-həyatı
Məhv eylədik atidəki nifrətli lüğatı:

Biz bilmiyoruz hakimü məhkumü hökumət,
İlqa edilibdir bu məmalikdə imarət.

Hürriyyəti-şəxsiyyəvü azadiyi-vicdan –
Çoxdan qılınıbdır bu gözəl şəhrdə e'lan.

Hürriyyəti-cəm'iyyətü sərbəstiyi-əfkar –
Aşiqlərinə eylədi rüxsarını izhar.

İcra edilir qaideyi-ədlü müsavat,
Olmuş dilimiz dəftəri-ayati-müvaxat.

"İnsanə məhəbbət" sözü var məzhəbimizdə,
Həp sureyi-insan oxunur məktəbimizdə.

Təkfiri-ümməm, büğzi-miləl, nifrəti-əqvam –
Əql eylədi bu sözlərin e'damını e'lam.

Ol dəm ki, təcəlla elədi fikrə həqiqət,
Mazisinə hər kəs baxaraq çəkdi xəcalət.

Həp anladı məxluq ki, övhamü xürafat –
Növ'i-bəşər üçün bu imiş ən böyük afat.

İnsanları yek-digərinə düşmən edən bu,
Gülşənləri, gülbünləri həp külxən edən bu!

Nerdən gəliyormuş bu vəbayi-bəşəriyyət?
Dinmə, sənə "Bir alim" edər qəztədə lə'nət*.

Əmmaməlilər yaxdı çəmənzari-cahanı,
Əmmaməlilər zəhrlədi fikri-cinanı".

. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Bu zat əlavə edərək söylədi zahir:
"– Yox kimsə ki, olsun bu evin üstünə nazir.

Bu ev dəxi əmlaki-cəmahiri-rəiyyət,
Cümhur adına eyləyoruz bizi dəxi xidmət.

Biz üzvləriz, işləriz əndami-vətəndə,
Təndir vətən, ə'sabü üruquz o bədəndə.

Hər bir damarın cismdə bir xidməti vardır,
İbqayi-həyat etməyə bir qeyrəti vardır.

Tə'tili-vəzaif edəcək olsa gər ə'za,
Ol cism, təbiidir, olur mövtə mühəyya.

Övladi-vətən eyləsə tə'tili-məşağil,
Oldu, deməк, artıq vətənin varlığı zail.

Həp işləyoruz, ruh alırız cismi-vətəndən,
Zənbur nasıl şəhd alır əzhari-çəməndən.

Asayişi-xəlqə edirik can ilə xidmət,
Biz də sürəriz xəlq ilə ləzzətli məişət.

Ə'zayə nasıl cism ediyor qanını qismət,
Sərmayə də bizlərdə ələlvəchi-şərakət.

Bu mülkə deyorlar nəəmarayi-müsavat,
Övladi-vətən cümlə səfayabi-hüzuzat.

İştə gəziniz, seyr ediniz hali-biladı,
Məs'ud görər gözləriniz cümlə ibadı.

Səfər yorğunluğum zail olduğundan, sabahdan e'tibarən şəhərin şayani-tamaşa olan təfərrücgahlarını ziyarət etmək xəyalındayam. Ruhülqüds.

## DÖRDÜNCÜ MƏKTUB

Bu zat ilə söhbət ediyorduq, danışırdıq,
Zövq ilə, səfa ilə gözəlcə qonuşurduq

Hər söhbətimiz tərcümeyi-şəhri-müsavat,
Bu söhbət edirdi dili sövqi-ülüviyyat.

Bir süfrə dərunində həlavətli yeməklər,
Pakizə zürufə qonulub şirü şəkərlər.

Ehzar edilib bizlər üçün sübh təamı,
İtmam elədik ət'iməni, həm də kəlamı.

Mən söylədim: “– İstər ürəyim şəhri səyahət,
Həm də edəlim “Məclisi-şura”nı ziyarət”.

“– Pək xub! Bəradər, görünüz, görməyə ehza,
Əndami-dilaramı fərəhbəxş, tərəbza”.

Sıxdım əlini: “– Şimdi səlamət qal, əzizim,
Gülsün üzünə dilbəri-amal, əzizim!”.

Əlfazi-vidaiyyə ilə ayrılıb ondan,
Çıxdım ki, xəbərdar olayım şanlı cahandan.

Gərdunəçi amadə evin pişgəhində,
Bir xəndeyi-iffət uçuyordu nigəhində.

Gərdunəsüvar oldum o dəm söylədim: “– Övlad!
Qıl “Məclisi-şura” yoluna zeyfini irşad”.

Gərdunələri qüvveyi-bərq ilə şitaban,
Bir sür’əti-bərqiyyə kimi olmada puyan.

Tədvir elədi çərxini bu xareyi-dəvvar,
Gərduneyi-dəvvardə mən kövkəbi-səyyar.

Gərdunə gedir, mən dəxi tənzir ediyordum,
Bu lövheyi-imranı görüb söyləniyordum:

Bunlar nə vəsaitlə erib övci-kəmalə,
Bu sərvətə, bu şövkətə, bu izzü cəlalə?

Hər xitvə başında gözə çarpardı məkatib,
Bildim ki, budur baisi-ehrazı-məratib.

Əlvah yazılmış qapıya xətti-cəlilə,
Sankim, yazılıb hər biri bir qüdrət əlilə.

Məktəbləri gör, seyr elə həmduşi-səhaib,
Bu məktəb edib bunları ülviyyətə sahib.

Mə'bədləri, məscidləri* təxrib edərək həp,
Tə'mir edilib yerlərinə məktəb, məktəb*...

Mədəniyyəti-həqiqiyyə şəhərində seyrü səyahət edən müxbiri-məxsusimiz Ruhülqüdsdən gələn 20 avqust tarixli "Cahani-müsavat məktubları" aləmi-müsavatın "parlament"i – "Məclisi-məb'usan"ına aiddir.

## BEŞİNCİ MƏKTUB

Zənn etmiş idim varlığımı cənnət içində,
Seyr eylədim əfkarımı hürriyyət içində.

Bir ev ki, nə ev, taqi-müəllayi-zəfərdir,
Lahutnüma mənzəri cəzzabi-nəzərdir.

Bir ev ki, dərununda həqiqətlər üşürlər,
Bir bağ ki, əzhari-maarif gülüşürlər.

Səf-səf düzülüb üzvlər övrəngi-kəmalə,
Valeh oluyordum bu şükuhə, bu cəlalə...

Bu bəzmi-mütəntən, fərəhəfzadı cinanə,
Hər kəs çəkilib kəndinə məxsus məkanə.

Bir dahiyə ol dəmdə olub haizi-rüxsət,
Oldu bu zaman ziynəti-kürsiyyi-xitabət.

Bir lövheyi-ilhamdı kürsi üzərində,
Parlardı düha şö'ləsi kəskin nəzərində.

Səyyal zəkalar tökülürdü nigəhindən,
Açdı fəmi-vəhyavərini xütbəgəhindən.

Qeyrət edərək vəcdlə izahi-məramə,
Bir nitqi-bəliğanə ilə gəldi kəlamə:

"– Ey niyyəti-qüdsiyyə malik olan əhrar!
Bu cümlələri görməli isğayə səzavar:

Elm ilə vətən hər nə qədər olsa da ali,
Pərvazını tövfiq edəməz fikri-məali.

Bir yerdə dayanmaz, uçar ənqayi-xəyalət,
Seyrangəhi feyfayi-xəfayayi-təbiət.

Əfkari-bəşər seyrinə dardır bu fəzalər,
Daim arayır uçmaq üçün başqa səmalər.

Uçduqca uçar aşiqi-sirri-əzəliyyət,
İstər bilə bilsin ki, nədir şiveyi-fitrət.

Əfkardə minlərcə cahan durmada, amma –
Sərpənceyi-himmətlə olur kəşfi-müəmma.

Himmətdir edən daxili-imkan məhalı,
Bazuyi-hüməm dəldi ciyərgahi-cibalı.

Qəsvətli ürəklər dəlinir dəsti-hüməmlə,
Boş dəmlə deyil, iş görülür zuri-qədəmlə.

Əqlami-hüməm nəşr qılır fikri-cədidi,
Davudi-hüməm mum ediyor qəlbi-hədidi.

Tilsimgəhi-dəhrin açarı–dəsti-məsa'i,
Miftahi-məsa'ilə olaq biz dəxi sa'i.

Minlərcə dəfain hələ ağuşi-xəfadə.
Bir xəndeyi-müzlim saçıyor ruyi-ibadə.

Dəryayi-xüruşani-sərairdə nələr var,
Sahilrəs edər onları mövc ursa gər əfkar.

Pirayeyi-ərşi xitabət olan bu dahiyeyi-ə'zəmin meydana qoyduğu həqiqətlərin kaffəsini təhrirə vaxt müsaid olmadığından naşi mabə'dini sonrakı məktubumla irsal edərəm. Ruhülqüds.

## İRANLI QARDAŞLARIMA

İran! O bizim Şərqimizin məhdi-kəmalı,
Ərbabi-ədəb bəsləyən ağuşi-cəlalı.
Təl’ətgəhi-ürfan idi afaqı sərasər,
Parlardı zəminində, səmasında səhərlər.
Denilsə səza ərzinə səhni-ədəbiyyat,
Bu səhndə rəqs eylər idi huri-kəmalat.
Bazəndeyi-nazəndələri tərbiyətamuz,
Vicdanə ziyabəxş idi bu səhni-diləfruz.
Sə’diləri, Hafizləri, Beyzavi*, Bəhası* –
Bunlardı o pakizə yerin əhli-dühası!
Firdovsi, cahanın o böyük şairi, hala –
Mir’ati-cahanda ediyor namı təcəlla.
Tabişgəhi-ənzar idi bu səhneyi-beyza,
Təsviri-qülub eylər idi əhli-tamaşa!
Hər pərdə açıldıqca ədiban görünürdü,
Fikri açacaq şö’leyi-ürfan görünürdü.
Qərb əhli belə bunları təqdir ediyorlar,
Asarların şövq ilə təşhir ediyorlar.

* * *

Ölmüşdü o mə’mureyi-ürfan olan İran,
Əshabi-sitəm könlü kimi laneyi-viran.
Başdan-başa bir məqbərə təşkil ediyordu,
Ruh əhli olan “fatihə” tərtil ediyordu.
Cövlangəhi-bidad idi, səhrayi-fəlakət,
Övladı bütün olmuş idi əhli-səfalət.
Əfvahi-məzalimlə qararmışdı ziyası,
Bir dudə bürünmüşdü onun ərzü səması.
Sönmüşdü, əvət, şə’şə’əsi, nuri-həyatı,
Zülmat idi başdan-başa parlaq səfəhatı.
Bir vadiyi-zifər’ ikən ol xaki-səməndar,
Zülmün nəfəsi etmiş idi bağını bibar.
Həp məzrəəsi, məşcərəsi bisəmər idi,
Möhtac əhalisi dəxi dərbədər idi.
Məzlumların göllərə çıxmaqda fəğanı,
Lərzan ediyordu o fəğanlar da cahanı.
Məhv eyləmiş idi gözəl İranı cəhalət,

Nə elmü ədəb vardı, nə asari-sənaət.
Məxrubeyi-zülm idi o mə'mureyi-ürfan,
Məzlumların gözləri giryan idi hər an.
Səyyad oxu qırmışdı pərü bali-həzarı,
Pamal ediyormuşdu da amali-həzarı.
Bayquşlara olmuşdu vətən nazlı çəmənlər,
Sərbəst uçuşurdu o çəmənlərdə zəğənlər.
Cövlangəhi-div idi yazıq cilvəgəhi-hur,
Rüxsareyi-şəmsi bürümüşdü şəbi-dicur.
Qat-qat yığılıb durmuş idi kütleyi-zülmət,
Rubənd içərisində idi ruyi-ədalət.
Rubənd dururkən rüxi-dildar görünməz,
Məsturi-səhaib olan ənvar görünməz.
Kəşf olmaz isə pərdə təşə'şö' edəməz nur,
Rubənd açılırsa, görünür çöhreyi-məstur.
Madam ki, var çöhreyi-mə'nadə hicabat.
Parlarmı o sən istədiyin sevgili? Heyhat!

* * *

Nagah əsərək badi-əməl sübhi-səfadən,
Həp qıldı pərişan gecəyi vəchi-fəzadən.
Afaq həqiqət kimi ərz etdi ziyasın,
Göstərdi baxan gözlərə nazəndə liqasın.
Azadeyi-zülmət olaraq vəchi-səmavat –
Eylər o qaranlıq yeri bir ərzi-füyuzat.
Hürriyyət edir cənnəti-İranda təcəssüm,
Bir-bir əməlin gülləri etməkdə təbəssüm.
Mürğani-xoşəlhan ediyor nəğmələr inşad,
Matəmzadəganı qılıyor xürrəmü dilşad.
Təbdili-məsərrat oluyor matəmi-İran,
Məxrubə könüllər kəsilir lövheyi-imran.

* * *

Zülmati-cəhalət olacaq yerdə girizan –
Misbahi-maarif olar, əlbəttə, füruzan.
Xurşid, hilal – ol iki fəvvareyi-ənvar*–
Yek-digərinə eyləyəcək nurunu isar.
Xurşidə ziyalar verəcək qövmi-hilali,

Gündən-günə xurşid olacaq nurlu, ziyali.
Gərduni-fünunda gəzəcək bu iki ayə.
İştə Günəşə nur veriyor baxsana Ayə.
Vardır bu səmanın iki fəyyazi-həyatı,
Dilsiri-füyuz etmədə ərzi ləməatı.
Millət göyünə iştə gərəkdir iki əxtər,
Bir danə Qəmər, bir dəxi Xurşidi-münəvvər.
İstər bu iki ayəni gərduni-məali,
Qəlbən sevirəm bunları: xurşidü hilali!

* * *

Ərz etmədədir kəndini hürriyyət, o canan,
Naz eylə, sən ey səhneyi-ürfan olan İran.
Mərkuz edilir səhninə mizani-ədalət,
Bir-bir çıxıyor ortaya yarani-həqiqət.
Qəsb etməyəcək əhli-sitəm həqqi-ibadi,
Qüttai-təriqin kəsəməz rahi-vidadi.
Hər kəs olacaq sahibi-heysiyyətü hörmət,
Kimsə edəməz kimsəyə bir zərrə əziyyət.
Əlbir olaraq xitteyi-İranda əhali,
Ehraz edəcək cümləsi övrəngi-kəmalı.

* * *

Ey sinəsi gəncineyi-sərvət olan İran!
Ey ərzi-dəfain olan, ey kənzi-firavan!
Minbə'd o sinəndəki məhsuli-təbiət,
Ol layətənahi bulunan dövlətü sərvət –
Zənn eyləmə sinəndə o sərvət yatacaqdır,
Bu milləti-bidar o künuzu tapacaqdır.
Parlandıracaq simü zərin mülkü sərasər,
İran o zamanda olacaq kişvəri-ənvər.
Şayistə deyildir qucağında yata altun,
Biməğzlərin cisminə layiqdir o altun.
Al bunları, ver saxladığın kənzi ibadə,
Xidmət edəcək sərvətin e'mari-biladə.
Ağuşi-zülamında yatan kənzi-münəvvər –
Bir məmləkəti-nur edər İranı sərasər.
Parlaq qızılın, haizi-qiymət gühərin var,

Firuzə və almasların var, dürərin var.
Bir məqbərəsən, məqbəreyi-cismi dəfain,
Ə'maqi-dilində duruyor iştə xəzain.
Ərbabi-xəsasət kimisən, vermə dilərsən,
Sərpənceyi-kuşiş alacaq, onda görərsən.
Altunların ilə tikilir məktəbi-ürfan,
Darüləcəzə, darüşəfa, darüyetiman.
Çöhrən kimi parlar vətənin ruyi-zülamı,
Gündüz kəsilər məmləkətin mənzəri-şamı,
Məs'ud cahanlar kimi xəndan olur İran,
Əmniyyət içində yaşar irannişinan.
Minbə'd olamaz, ey vətən, övladların xar,
Gəhvareyi-izzətdə edər ömrünü imrar.
Onlar da bilər mə'niyi-ayati-həyatı,
İstəbrəqi-elm ilə bəzər zatü sifatı.
Nanparə qazanmaqlıq üçün dərbədər olmaz,
Minbə'd behiştin, çəmənin bisəmər olmaz.
Vəqta ki, olur bəhrəvər əşcarü nihalın,
Bağında təcəmmö' edər övladü əyalın.
Danən bol olur, lanələrin cümləsi abad,
Üzlər gülərək qəmzədə dillər olacaq şad.
İqlimin olur ədlü müsavat ilə imran,
Övladi-biladın da olur haizi-rüchan.
Saillər olur cümləsi əshabi-sənaye,
Sən'ət edəcəkdir səni bir lövhi-bədaye.
Bir məşhəri-sən'ət olacaqsan da, həqiqət,
Sən'ət qılacaqdır səni firdovsi-səadət.

* * *

Ey məhdi-maarif, bu gün ərvahi-ədiban –
Səhrayi-əbəddən çeviribdir sənə çeşman,
Çünki əzəli şə'nini ibraz ediyorsan,
Kürsiyi-fünunu bu gün ehraz ediyorsan.
Dörd gözlə sənin şə'ninə millət nigəhəndaz,
Ehraz elə hürriyyəti, ehraz elə, ehraz!
Minlər yaşa, minlər yaşa, ey məhdi-məali,
Ey Şərqimizin cənnəti, ey baği-kəmali!

# İNSANLARIN TARİXİ FACİƏLƏRİ, YAXUD ƏLVAHİ-İNTİBAH

1

Həyatın səsləri guşumda həp fəryad şəklində*,
Bu insanlar ki qardaşdır və lakin yad şəklində.
Bu torpaq qanlı ovlaqdır, bəşər səyyal şəklində,
Ədavət daima vardır, məhəbbət ad şəklində,
Bu dünya əskidəndir səhneyi-bidad şəklində,
Cahan başdan-başa meydani-matəmzad şəklində,
Fərəhlər həbs olunmuş, hüznlər azad şəklində,
Müsibətlər, bəlalər, qüssələr abad şəklində,
Ürəklər qəm odilə hər zaman bərbad şəklində,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

2

Səadət bir əməl, amma şəqavətlər həqiqətdir,
Məsərrət ani bir şeydir, məlalətlər həqiqətdir,
Məhəbbətlər müvəqqətdir, ədavətlər həqiqətdir,
Ədalət nerdə, lakin zülmü vəhşətlər həqiqətdir,
Hanı hürriyyət aləmdə, əsarətlər həqiqətdir,
Qaçan bir kölgədir rahət, məşəqqətlər həqiqətdir,
Bəlalər, dərdlər çoxdur, fəlakətlər həqiqətdir,
Bütün ə’sarımız qanlı, cinayətlər həqiqətdir!
Budur, tarix meydanda, hekayətlər həqiqətdir!
Bəniadəmdə hər gündə şərarətlər həqiqətdir,
Cahan bir ərzi-matəmdir, müsibətlər həqiqətdir,
Cəhənnəm var bu dünyada, əziyyətlər həqiqətdir,
Məişət aləmində rəncü zəhmətlər həqiqətdir,
Bəşər şakidir ömründən, şikayətlər həqiqətdir,
Nə yapsın bəxtsiz insan ki, möhnətlər həqiqətdir?!
Kədərlər, qüssələr, qəmlər, səfalətlər həqiqətdir.
Bəniadəmdə hər gündə bu surətlər həqiqətdir:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

3

Gülüşlər həp binasızdır, fəqət, qəmlər təbiidir.
Fərəhlərdə təməl yoxdur, o matəmlər təbiidir,
Könüldə hüzn odu, gözlərdəki nəmlər təbiidir,
Həmişə qəlbi məhzun eyləyən dəmlər, təbiidir,
Yerin üstündə hər gündə axan dəmlər[1] təbiidir,
Demək, islahı müşkül qanlı adəmlər təbiidir,
Demək, pak olmayan bu kirli aləmlər təbiidir,
Demək, dünyadə məzlum ilə əzləmlər təbiidir,
Təbiət aləmində qəmli görkəmli təbiidir.

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

4

Bu adəm oğlu çoxdandır mübarizdir təbiətlə,
Çox əski bir mübarizdir tükənməz dərdü afətlə,
Mübərizdir mərəzlə, mikrob ilə, cümlə illətlə,
Mübarizdir yer ilə, vəhşi dəryalarla, zülmətlə,
Bütün dünyanı parlatmaq dilər ənvari-hikmətlə,
Bütün torpağı abad etmək istər dəsti-sən'ətlə,
Yeri çox şənlik etmişdir çalışmaqlıqla, qeyrətlə,
Yolu üstündəki əngəlləri yıxmaqda hikmətlə,
Həmişə ömrü keçmişdir məşəqqətlərlə, zəhmətlə.
Neçə min il də keçdi keçməyir bir vaxtı rahətlə,
O hala müztəribdir ömri-bədbəxti fəlakətlə,
Bəşər dincəlməyir, bir gülməyir, ağlar müsibətlə.

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

5

Soyuqda titrər, işlər, isti günlərdə qərarmaqda,
Sudan, oddan, dəmirdən, daşdan əkməklər çıxarmaqda,

Qovuşdurmaq üçün dəryaları torpağı yarmaqda,
Tunellər yapmaq üçün ən böyük dağı qoparmaqda,
Tükənməz güc var imiş ol biləkdə, qolda, barmaqda,

Bütün əllər, ayaqlar həp çalışmaqdan qabarmaqda,
Fəqət məcruhdur ömrü, yazıq hər gün saralmaqda,
Üzündə bir bulut var, gözləri gülməz, yaşarmaqda.

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

6

Bəniadəm çalışmışdır həmişə, sanma yatmışdır,
Yeri elm ilə, sən'ət ilə parlatmış, donatmışdır,
Əsir etmiş yeri, zəncirə çəkmişdir, qoşatmışdır,
Dəmirdən yol qayırmışdır, gəzən evlər yaratmışdır,
Dərin dəryaları baziçə etmiş, torlar atmışdır,
Dağı, daşı qoparmış, bir-birinə bəhri qatmışdır,
Yerin altındakı mə'dənlərə əllər uzatmışdır,
Bu zəhmətlərlə böylə hər zamanda qanə batmışdır,
Bu onu, o bunu hər gündə vurmuşdur, qanatmışdır,
Həyatın aləmində ta əzəldən ağu dadmışdır,
Həmişə aldığı qəmdir, süruru, suru satmışdır.

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

7

Gələn gündən bəri ərzi-vücuda Adəm övladı –
Əsir etməkdə tədricən yeri, suyu, odu, badı,
Bu gün də ildırım yer oğlunun bir əbdi-münqadı,
Göyə yüksəlmiş Adəm oğlunun məhsulu-icadı,
Nücumu bilmək üçün eyləmiş icad mirsadı,
Demək ki, sahibi-dünyadır insanın böyük adı,
Nə varsa torpağın üstündə, olmuş iştə səyyadı,
Bununla böylə qardaş qardaşın olmaqda cəlladı,
Həmişə böylədir insanların simayi-naşadı:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

8

Tükənməzdir bu insanın künuzi-əqlü ürfanı,
Bəşər bir canlı mə'dəndir, bəşər bir mə'rifət kanı,
Qul etmişdir tamamilə bu sərvətgahi-imkanı,
Dağın qəlbindəki əşya bütün münqadi-fərmanı,
Yerin altında altunlar əsiri-dəsti-insani,
Göyün, dəryaların, torpaqların ciddən hökümranı,
Böyükdür, çox böyükdür, çox da yüksək adəmin şanı,
Bütün zülmətləri tənvir edərkən fikri-rəxşanı,
Deyildir müntəzəm hala da əhvali-pərişanı,
Ürəklər odlu, gözlər yaş, gülüşsüz cümlə pişanı,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

9

Yerin üstündə insan oğlu insan çox çalışqandır,
Əzəl gündən bəri zəhmətlərə pək çox alışqandır,
Yeri çox şənlik etmişdir, fəqət, öz halı virandır,
Hələ zənn etmə insanlar işıqdır, əhli-ürfandır,
Böyük bir qismi əqvamın qaranlıqlarda puyandır,
Çox azdır anlayan, adəmlərin çox qismi nadandır,
O hala bilgisizdir, nursuzdur, beyni nöqsandır,
Bunun üçün də xoş gün görməyir, hər gündə giryandır.
Hanı xoşbəxt cəm'iyyət, bütün aləm pərişandır,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

10

İşıqlı göylər altında qaranlıq canlı insanlar,
Çiçəkli yerlər üstündə xəzan vicdanlı insanlar,
Baharı parlaq aləmdə gözü baranlı insanlar,
Həyati-Nuhə bənzər ömrünüz tufanlı insanlar,
Bu dəryayi-bəlada bimədəd, əfğanlı insanlar,
Ticarətgahi-dünyadə böyük xüsranlı insanlar,

Gəhi atəşli, toplu, gəh qılınc-qalxanlı insanlar,
Müdam olsunmu torpağın qucağı qanlı, insanlar?

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

11

Bəşər! Bədbəxtsən, giryan, pərişan bir həyatın var,
Müsibət torpağından yoğrulan bədbəxt zatın var,
Əziyyətdən yapılmış bir həyati-bisəbatın var,
Təvarixin içində qanlı-qanlı faciatın var,
Qaranlıq günlərin, matəmlə dolmuş kainatın var,
Həyati-müzlimindən sonra barid bir məmatın var,
Yerin altında böylə keşməkeşlə irtibatın var:
Deyirlər, həşrü nəşrin var, deyirlər ki, siratın var,
Ölümlə qurtuluş yoxsa təriqi-nanicatın var?
Demək ki, keşməkeşlərlə təbii ixtilatın var,
Demək, yox olmayırsan, gərçi zahirdə vəfatın var,
Həyatın aləmində mən görən böylə sifatın var;

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

12

Həyatında sirati-müstəqimi görməyirsən sən,
Hidayət rəhbəri əqli-həkimi görməyirsən sən,
Yazıq insan! Neçin qəlbi-səlimi görməyirsən sən?
Ədavət narını gördün, nəimi görməyirsən sən,
Məhəbbət aləmindən bircə mimi görməyirsən sən.
Neçin fərmani-vicdani-rəhimi görməyirsən sən?
Həyatın ağlayır, ruyi-bəsimi görməyirsən sən,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

13

Gələn gündən bəri qandır işin həp aləmi-duna,
Tökərsən qan, bu xislətlə əgər çıxsan da gərduna,

Təvarixində şahid vaqeatın xaki-pürxuna,
Tükənməzmi, ey insan, səndəki amali-məcnuna?
Sitəmlər daima vardır, ədalət nerdə mədfuna?
Fərəhnak olmayır dünyadakı əqvami-məhzuna,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

14

Gələn gündən bəri, ey Adəm oğlu, ərzi-imkanə,
Daş atmaq vacib ikən səndəki cəhl adlı şeytanə,
Tüpürmək fərz ikən ol rəhbəri-zülmatü xüsranə,
Fəqət sən daşlar atdın çöhreyi-ərbabi-vicdanə,
Tüpürdün ruyi-həqqə, yə'ni ruyi-əhli-ürfanə,
Bu gün qoşmaqdasan atəşli, qanlı bir biyabanə,
Gözəl bax səndəki çirkinliyə, hali-pərişanə,
Bulaşmışsan bu gün başdan-ayağə qıpqırmızı qanə,
Yerin üstü dönübdür öz əlinlə qanlı meydanə,
Baxanda gözlərim ağlar bu insan oğlu insanə,
Baxın diqqətlə millətlərdəki simayi-giryanə:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

15

Bəşər! Dad gördüyün yox, yoxsa səmdənmi yapılmışsan?
Ədalətlə aran yoxdur, sitəmdənmi yapılmışsan?
Sükundar olmayırsan, mövci-yəmdənmi yapılmışsan,
Həyatın bir cəhənnəmdir, ələmdənmi yapılmışsan?
Günün, ayın, ilin matəmmi, qəmdənmi yapılmışsan?
Təvarixin təmamən qanlı, dəmdənmi yapılmışsan?
Həmişə ağlayırsan, dəm'i-nəmdənmi yapılmışsan?
Sonunda yoxluğun vardır, ədəmdənmi yapılmışsan?

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

16

Anandan doğduğun gündən işin fəryadü əfğandır,
O gündən e'tibarən gözlərin hər gündə giryandır,
Çocuqkən əmdiyin süddür və ya inki bəyaz qandır,
Demək, xunxar vəhşisən, adın hərçənd insandır!
Nasıl, bədbəxtsən ki, aləmin bir beytüləhzandır?!
Əzəldən ağlayırsan, son həyatın çox pərişandır,
Əvət, sən canlı bir qəmsən, bu halın iştə bürhandır:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

17

Qaranlıq əsrlər keçdi, fəqət yox nuri-tabəndə,
Məhəbət nuru parlarmı, buna heyrətdəyəm mən də,
Nasıl bir gündə ərzi-təl'ət eylər sübhi-rəxşəndə?
Neçə min il də getdi, gəlmədi bir ruzi-fərxəndə,
Yazıq, ey Adəmin oğlu, sənə hər gündə, hər dəmdə!
Həyatın giryədir, qəmdir, haram olmuş sənə xəndə,
Təbəssüm etsə də güllər, üzün gülməz bu gülşəndə,
Dodaqsız qaldığın gündə gülərsən, yə'ni mədfəndə,
Demək ki, çöhreyi-tale əbədgiryandır səndə.
O keçmiş qəmli halın bəlli, qəmsizmi bu ayəndə –
Və yaxud nəsli-ati də bütün giryanü giryəndə?
Bu gün könlün pərişandır, bir gün halın pərakəndə,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

18

Bəşər! Alçaq həyatın var, əgərçi şahbalın var,
Tədəvinapəzira xəstə əqlin, xəstə balın var,
Təbii vəhşətin durmuş, ələzzahir kəmalın var,
Təkəllüm eyləsən də, ixtilali-nazəvalın var,
Əzəldəndir ki, müdhiş inqilabın, ixtilalın var,
Nasıl dəhhaş, atəşpaş cəngin var, cidalın var,

Əvət, çox günlərin vardır qara, məhzun ləyalın var,
Əvət, pək çox qəmin vardır, əvət, pək çox məlalın var,
Həyati-maziyən göz yaşlıdır, çox odlu halın var,
Bu atidən də səs yox, çünki istiqbali-lalın var,
Keçən keçmiş, yarın məchul, bir mə'lum halın var:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

19

Göyə yüksəlmiş, ey insan, sənin əsmari-əfkarın,
Sənə seyrəngəh olmuş altı, üstü cümlə əbharın,
Sənə təslimi-nəfs etmiş dibi dəryayi-zəxxarın.
Suyun altındakı əşya əsiri-dəsti-səhharın,
Yol açdın qəlbgahından yədi-sən'ətlə kuhsarın,
Dəniz, yer, göy bütün məhkum dəsti-səltənətdarın,
Bu gün varkən əlində, ey bəşər, miftahı ənvarın,
Mübarizkən qaranlıqla həmişə əqli-nəvvarın,
Fəqət hala qaranlıqdır bütün əxlaqü mişvarın,
Fəcaye'dən ibarətdir bütün ə'sarü ədvarın,
Bu atilərdə də yoxmu sənin hali-ziyadarın?
Bu hal ilə davam eylərmi yoxsa aləmi-tarın?

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

20

Ucalmışsan göyə, amma hələ süflitəbiətsən,
Gözəl yollar qayırmışsan və lakin bitəriqətsən,
İşıqlı şəhrlər yapdın, özün məğlubi-zülmətsən,
Deyirsən mə'rifət lazım, özün timsali-vəhşətsən,
Sədaqətdən vurursan dəm, yalançı, bisədaqətsən,
Dilindən düşməyirkən həqq, pərəstişkari-qüvvətsən,
Bu xasiyyət ki var səndə, inan ki, nasəadətsən.

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

21

Təsəvvür eylədikcə cəngi-atəşrəngü dəhhaşi,
Düşür kirpiklərimdən səfheyi-rüxsarə göz yaşi,
Bəşərdə qəlb var, derlər, görəydim mən də ol daşi,
Yerin üstündə öldürməkdədir qardaş-qardaşi,
Dilim vird eyləmiş atidəki əş'ari-qardaşi,
Dilim vird eyləmiş atidəki əş'ari-qəmpaşi:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

22

Təfəkkür eylədikcə faciati-səfheyi-xaki,
Gözüm görməkdədir zülmət bütün xak ilə əflaki,
Üzümdə bir bulut vardır, gözüm olmaqdadır baki,
Mənə kim verdi, vermiş olmayaydı məğzi-dərraki,
Bu idrakım ki vardır, olmuşam ondan böyük şaki.
Əgər xahanı varsa, bəxşiş alsın məndən idraki,
Bəşər şəklində gördüm heykəli-bəxti-siyəhnaki.

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

23

Günah etmiş, deməк, dünyada evlənmişdir insanlar,
O toylardan da doğmuşdur yerin üstündə əfğanlar,
Əzəldən partlamış aləmdə qövğa adlı vulkanlar,
Əvət, çox əski canilər bu naməs'ud olan canlar,
Həmişə bir-birin kəsmiş bu əhvali pərişanlar,
Əsərbəxş olmayır insanlara ruhani dərmanlar,
Əsərsiz qalmış, iştə, söylənən nurani fərmanlar,
Hanı adəmdə insanlıq, hanı adəmdə vicdanlar?
Nədir bir bunca vəhşətlər, nədir bir bunca xüsranlar?
Nasıl bir yarədir bu, durmayır ondan axan qanlar?
Bəşər alamını bildirməyə vardır ki, bürhanlar:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

24

Cinayət işləmişdir izdivac etməklə ilk insan,
Əvət, çox çəkmədi naqabil oğlu eylədi bir qan,
Əvət, öldürdü öz qardaşını, tariximiz bürhan,
O dəmdən çeşmlər olmuş təmamən çeşmeyi-giryan,
O matəmdən bəri canlar, cigərlər odlara suzan,
O gündən e'tibarən dildə[1] qəm var, dildə də əfğan,
Bu dünya məzbəhində Adəm oğlu hər zaman qurban –
Olub, olmaqdadır hala! Bu torpaq qanlı bir meydan,
Yazıq övladi-Adəm ta əzəldən olmamış xəndan,
Bəşər alnında vardır hər zamanda ayeyi-əhzan:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

25

Nasıl, gördünmü tarixi-bəşər qanlarla başlanmış,
Əvət, qanlarla, əfğanlarla, xüsranlarla başlanmış,
O qan tarixi də naqabil insanlarla başlanmış,
Həyatın ilk dövrü iştə üsyanlarla başlanmış,
Əvət, qan tökmək ilə, həm də tüğyanlarla başlanmış,
Yerin də öz həyatı odla, vulkanlarla başlanmış,
Həyatı əhli-ərzin ahü əfğanlarla başlanmış.

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

26

Bəşər hər gündə matəmli, bəşər hər gündə giryandır,
Bəşər hər gündə məhzundur, cahan bir darüləhzandır,
Bəşər əhli-cəhənnəmdir, həyatı çünki niyrandır,
Dili abad olan yoxdur, könüllər həpsi virandır,
Əzəldən Adəmin oğlu bu torpaqda pərişandır,
Əzəldən qəm cahanında bu insan könlü suzandır,
Nədir bu aləmi-möhnət ki, odlu, qanlı meydandır?
Nə simadır bu sima, iştə bu simayi-insandır:

---

[1] Ürəkdə

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

27

Bu torpaqda olan gündən bəri övladi-Adəm həm,
Əkiz qardaşdır Adəm oğlu ilə yövmi-matəm həm,
Gözü bir qəm bulağı, ayrı olmaz çeşmədən nəm həm*,
Əzəldən yarıdır, ayrılmaz ondan nəmli görkəm həm,
Zavallı, bəxtsiz insan, həyatın cümlə bərhəm həm,
Yaran çox qorxulu, tə'sirsiz qalmaqda mərhəm həm,
Deмək, a hərfi zairdir, adındır qaliba dəm həm*,
Və ya son hərf ikən səhvi-qələm yazmışdır əqdəm həm,
Neçin səfki-dimadən çəkməyirsən dəst bir dəm həm,
O xuni-ictimai durmayır, olsan da ə'ləm həm,
Sənin haqqında söylənmiş düşün bir nəssi-"kərrəm" həm,
Səadət cənnətin yoxmu? Həyatındır cəhənnəm həm,
Gözümdə qanlı dünya səhni-matəmdir, ələm, qəm həm,
Güzərgəhi-siyahi-ömrdə hər şəxsi görsəm həm:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

28

Edildi nurdan qayrılma söz irsal insanə,
İşıqlı yol açılmış olmadı ənsali-insanə,
Qaranlıqlar görünmüş çöhreyi-iqbali-insanə,
Qalın şəblər çəkilmiş sübhi-istiqbali-insanə,
Hələ süflidir insan, baxmayın şəhbali-insanə,
Hələ ülvi məhəbbət girməmişdir bali-insanə,
O nəfsi-atəşindir rəhnüma izlali-insanə,
Ədalət hökmfərmadır, yazıq əhvali-insanə!
Gözüm gahi baxar maziyə, gahi hali-insanə:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

29

Gözəl söz, canlı söz, parlaq söz ilə olmayır bidar,
Bu çirkinlikdən əl çəkməz neçin bu qan tökən qəddar?

Demək, kamil deyil beyni olurkən də təkamüldar,
Bir az bax kəndinə, insan, nədir ömründəki əkdar?
Nə rütbə olsan imrani*, sən ey xasiyyəti xunxar,
Bu əxlaqın ki virandır, gülərmi səndəki ənzar?
Bu vəhşət baqi qaldıqca, həyatın daima ağlar,
Müsibətlərlə malidir təvarixindəki ə'sar,
Həmişə qəmli olmuş səndəki ənzar ilə əbsar,
Əvət, keçmişlərin, halın bunu etməkdədir izhar:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

30

Bu insan oğluna məqsəd nədir qəm intixabından?
Açılsa mehr babı, göz yumar vicdan kitabından,
Demək, nur içməmişdir beyni ürfan afitabından,
Dili donmuş, hərarət almayır nurun xitabından,
İşıq pək çox yağırdı, olmayır bidar xabından,
Yanar atəşlərə ənzarı, qurtarmaz qəm abından,
Həyatı sanki yoğrulmuş müsibətlər türabından,
Pərişandır cinahın tündbadi-inqilabından,
Bir öylə səs gəlir, matəm səsi dəhrin rübabından,
Bəşər bədbəxtdir tarixə yovmi-intisabından,
Fəlakətlər ədədsizdir təvarixin hesabından,
Əzəldən sızlayır insan bu dünyanın əzabından,
Yetimə bənzəyir, insanə bax, hali-xərabından,
Kimi görsəm də pirü yaxud ərbabi-şəbabından:
Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

31

Bəşər tarixi xunin sərgüzəşti-adəmiyyətdir,
Bəşər tarixi matəmdir, bəşər tarixi möhnətdir,
Yazılmış qissələr başdan-ayağə həp müsibətdir,
Bizə nəql etdiyi keçmiş zamanlar həp fəlakətdir,
Bü gün mazi xəyal olmuş, hekayətlər həqiqətdir,
Bu torpaq qanlıdır, vulkanlıdır, cayi-ədavətdir,
Bu bədbəxt ərzimiz ciddən də bir meydani-vəhşətdir,

Nəsibi-əhli-dünya dərddir, qəmdir, məlalətdir,
Bəşər simasına hər gün qonan zilli-səfalətdir,
Bəniadəmdən ayrılmaz olan surət bu surətdir:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

32

Təvarixi-həyati-maziyə qandır, fəğandır həp,
Bu Adəm oğlu qatildir, işi hərb ilə qandır həp,
Əzəl gündən bəri torpaq pərişan bir cahandır həp,
Cahan bir olsa da, bədbəxtliyi-adəm cavandır həp*,
Əvət, övladi-adəm qəmnişan, matəmnişandır həp,
Əzəldəndir ki, dünya bir cahani-imtahandır həp,
Sitəmlər, qəhrlər zahir, ədalətlər nihandır həp,
Ədavət, doğrudur, vardır, məhəbbətlər yalandır həp,
Qədimi vəhşəti-fitriyyə insanda əyandır həp,
Ölənlər, öldürənlər daş deyildir, həpsi candır həp,
Ürəklər odludur, hala bu gözlər əşkdandır həp.

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

33

Cahan tarixi xunin macərayi-əhli-aləmdir,
Mənim indimdə hər sətri birər şəhnameyi-qəmdir,
Bütün yarpaqları hakimi-bədbəxtliyi-adəmdir,
Yazılmış qissələr qəmdir, ələmdir, matəmü dəmdir,
Bəşər məzlumdur, amma ki, çox artıq da əzləmdir,
Əzəldəndir ki, mazisi həzindir, halı bərhəmdir,
Göy altında, yer üstündə bəşər bir canlı matəmdir,
Bu bədbəxt adəmin vəziyyəti pək qəmli görkəmdir:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

34

Dərin bir gözlə bax, tədqiq qıl tarixi-ədvari,
O tarix iştə hakidir həyati-aləmi-tari.
Hekayət eyləyir əfsaneyi-xunini-ə’sarı,

O mazi indi keçmişdir, fəqət vardır ki, asarı,
Bəşər tarixi əldə keçmişin mir ati-əxbarı,
Bizə göstərmədə tarixlər maziyi-qəmzarı,
Həmişə qanlıdır qanlarla torpağın bu rüxsarı,
Tamaşa qıl bu gündə də Adəmin oğlunda ənzarı:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

35

Əvət, tarixin övraqı təmamın hakiyi-xundur,
Zamanlar keçsə də, hali-bəşər tarixə mədfundur*,
Bu yer çox əski məqtəldir, o göy çox köhnə gərdundur,
Bəşər fənnən ucalmış, lakin insaniyyəti dundur,
Əzəl gündən bu bədbəxt Adəmin övladı məhzundur,
Qısa bir ömrü var, amma bəşər alamı əfzundur,
Gözü hər gündə yağmurlu, fəqət siması solğundur,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

36

Qüruni-maziyə ciddi müsibətlərlə keçmişdir,
Müsibətlərlə, möhnətlərlə, zillətlərlə keçmişdir,
Yalan olmaz desəm: hər gün fəlakətlərlə keçmişdir,
Məhəbbət görməmiş mazi, ədavətlərlə keçmişdir,
Bu əqvamın həyatı qanlı vəhşətlərlə keçmişdir,
Həyati-əhli-dünya həp cərahətlərlə keçmişdir,
Bəşər ömrü tamamilə məlalətlərlə keçmişdir,
Keçən insanların halı bu halətlərlə keçmişdir:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

37

Gecəydi, qonşular yatmış, fəqət mən ol gecə bidar,
Odamda yalqız idim, yalnız olmaq məncə qiymətdar,
O tənha şəblərə ruhumda çox eşqü məhəbbət var,
O şəblərdir mənə bəxş eyləyirlər ən işıq əshar,
O şəblərdə pəriyi-şe’rü ilhamım açar rüxsar,

O şəblərdə tülu' eylər şu ulduzlar kimi əş'ar,
O şəblərdə xəyalatım olur balaləri səyyar,
O şəblərdir isalə eyləyirlər ruhuma ənvar,
O şəblərdə səmayi-şairiyyətdən doğar əqmar,
Əvət, bir böylə şəbdi, yalnız idim, ya ülüləbsar!
Durardı pişgahımda həyatı anladan asar,
Yazı şəklində durmuşdu hekayatı qalan ə'sar,
Böyük tarix idi qarşımdakı məcmueyi-əxbar,
Əhatə etmiş idi hər tərəfdən beynimi əfkar –
Və gahi canlanırdı məqbəri-mazidəki ədvar,
Görürdüm nəsli-mazini: bütün əşxas matəmkar,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

38

Əvət, ənsali-mədfunə önümdə canlı durmuşdu,
Böyük bir qismi məcruh idi, cismi qanlı durmuşdu,
Deməк, məqtul imiş onlar, qızıl bürhanlı durmuşdu,
Qadınlar ağlayırdı, dilləri əfğanlı durmuşdu,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

39

Görürdü gözlərim: qanlar içində canlı mövtayı,
Çoxu mə'lul* idi, yə'ni: kəsilmiş dəst ilə payı,
Zamani-hərbdə qeyb etmiş onlar bə'zi ə'zayı,
Bu mə'lulin də həp bədbəxt görmüşdür bu dünyayı –
Və görmüşlər həmişə torpağın üstündə qövğayı,
Tamaşa eylədim onlardakı ənzarü simayı:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

40

Geyimlər cümləsi xunin idi əndami-mövtadə,
Dururdu həp qızıl qanlar bütün gözlərlə simadə,
Şu naməs'udlar da yaralanmışlardı qövğadə,
Demək ki, ruyi-rahət görməm iş onlar da dünyadə,

Cərayihdardır insan o keçmişlərdə, haladə,
O mazi qanlı; hal iştə... səadət varmı fərdadə?
Və yaxud nəsli-ati də yaşar eynən bu mə’nadə:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

41

Xəyalım qarşısında firqə-firqə keçdi maziyyun,
Bütün gözlər, baxışlar, çöhrələr qayətdə naməmnun,
Əvət, bir qismi-ə’zəm yarəliydi üzləri məhzun,
Əzəldən bir müsibətgahdır bu vadiyi-pürxun,
Bəşər ömrü çox az bir şey və lakin dərdlər əfzun,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

42

Bu maziyyunə baxdım, həpsini matəmdə gördüm mən,
Bu haliyyuna baxdım, ağlayırlar, qəmdə gördüm mən,
Bu atiyyuna baxdım örtülü aləmdə gördüm mən –
Ki, yə’ni onları mübhəm olan görkəmdə gördüm mən,
Yenə əhvalə baxdım, halı da bərhəmdə gördüm mən,
Təməssül etdi matəm surəti-adəmdə gördüm mən:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

43

O maziyyun son ev adlı bir dünyayə dalmışdır,
Bu haliyyun odlu, qanlı bir qövğayə dalmışdır,
Bu atiyyun dəxi bir örtülü fərdayə dalmışdır,
Səadət də lüğət yarpağına bir sayə salmışdır,
Bu, ilk adəmdən öz övladına bir mayə qalmışdır:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?
Bu maziyyun sönmüşdür, fəqət qövqa dirəxşandır,
Bu haliyyun çox bədbəxtdir, pək çox pərişandır,

Bu atiyyunda səs yoxdur, onlar həp xəmuşandır,
Qəmin dəryası dünyamızda cuşandır, xüruşandır,
Bu dəryalar qədər qəm var, acı yaşlar ki, bürhandır –
Və hala cəngi-atəşrəng yer üstündə tənnandır,
Nəsibi-həstiyi-adəm bu aləmlərdə əfğandır,
Bu naməs'ud insanın həyatı daima qandır,
Onun bədbəxtliyinə gözləri bürhani-guyandır,

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

45

İ n t a q i - m a z i

Xəyalən seyr edirkən qəlbi-şəbdə hali-dünyayı,
Vücudi-mazini gördüm, o dəhşətli həyulayı.
Bir az tədqiq qıldım ondakı matəmli simayı,
"Mənə anlat, – dedim, – ey pir, bu dünyayi-ədnayi –
Ki, sən pək pirsən, çox gördün aləmlərdə qövqayı,
Yəqinən ki, sayılmaz gördüyün qövğaların sayı,
Əvət, çox gördün, iştə, göydəki aydın olan ayı,
Fəqət heç dinc gördünmü bu darülhərb zülmayı?
Gülən gördünsə söylə, çeşmi ruyi-əhli-qəbrayı?
Nasıl adəmdir anlat, iştə, bu əbnayi-həvvayı,
Biz isək daima gördük həyati-matəməfzayı:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

46

Təməssül eyləmiş mazi, fəqət ətsizdir əndamı,
Mən ondan qorxmadım, tərd etmişəm iblisi-övhamı,
Dayandırdım önümdə, sordum ondan keçmiş əyyamı,
Çox aydın sözlər ilə sönmüş ə'sari-siyəhfamı,
Mənə kəşf eylədi, ağlar kimiydi lakin ifhamı,
Dedi: "– Mən keçmiş ə'sarəm ki, böylə görmüşəm, hamı:
Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

47

Qarşımda təməssül etmiş olan mazi insanların tarixi faciələrini bu yolda hekayə etməyə başladı:

Əbül-insandan əvvəldi bəşər heyvan halında,
Təkamül etməmişdi, cümləsi nöqsan halında,
Bəhaim ilə insan adətən yeksan halında,
Bu adəm əsrində həp oldular şeytan halında,
Cahanı görmədim mən bir behiştistan halında,
Zəmini görmədim mən cənnəti-huran halında,
Bu xakı görmədim mən rövzeyi-rizvan halında,
Yeri gördüm həmişə qan ilə əlvan halında,
O Habil-Qabili* gördüm, fəqət, xəsman halında,
İki qardaşdılar daşqəlbli insan halında,
Həyati-Adəmi bir görmədim şadan halında,
O Həvvanı görərdim daima giryan halında,

Qarşımda təməssül edən mazinin sözünü kəsərək dedim ki:

O Həvva qızları hala da pürəhzan halında,
Zəmini-Şərqdə bədbəxtü bəddövran halında,
Yaşar həm şərəfsiz, bəxtsiz, bişan halında,
Bu Məşriq aləmi nisvan üçün zindan halında.

Susdum, mazi mabə’di-macəraya davam etdi:

O Nuhun vaxtı növhə, həm də bir tufan halında,
Onun da qövmü batdı, ne’mətə küfran halında.
Özü bir yaxşı adəm, oğlu da Kən’an* halında,
O Lutun* qövmi batdı, yerləri viran halında,
O Yə’qubləri gördüm bütün əmyan halında,
O Yusif vaxtı keçdi çah ilə zindan halında,
Həsədələr canlı əcsam oldular ixvan halında,
Ürəkdən Yusifə kinli, fəqət yaran halında,
Əvət, Yə’qubu gördüm çeşmsiz piran halında,
Ağarmış saqqalilə gözləri hicran halında,
O Musa əsri Misri görmüş idim qan halında,
Çocuqlar həp quzuykən oldular qurban halında*.

O fir'oniləri gördüm bütün gürgan halında,
Mədədrəs olmadı bir kimsə də çoban halında.
Yəhudi milləti bədbəxtü məzluman halında –
Əsir idi təmamən bəndeyi-fərman halında.
O Fir'on, iştə, ən zalım hökmdarın halında,
O Misri görmüşəm çox qanlı bir meydan halında,
O Fir'onun zamanı keçdi həp tüğyan halında,
O fir'onilər olmuşdu bütün haman halında,
Əvət, gördüm o dövrü dövreyi-xüsran halında.
Bu İbrahimin əsri atəşi-suzan halında,
Oda atmışdılar biçarəni üryan halında,
Demişdi haq sözü haq söyləyən mərdan halında,
Deyirdi xalqa doğru sözləri şəc'an halında,
Deyirdi: "–Tapmayın əsnamə mə'budan halında".
Neron* yandırmış idi Rumu bir niyran halında,
Cəmaət ağlayırdı, kəndisi xəndan halında,
Acı tarix içində: möhriqül-büldan halında.
O Sokrat əsri: dillər xəstə, bidərman halında,
Həkimi dinləyən yox, xalq həp nadan halında,
Deyirdi: "Doğru yol bu!.." Xalq gümrahan halında,
Cəmaət aləmi-qəflətdə həp puyan halında,
O Məryəm oğlunun da əsri qəbristan halında,
Təmamən meyyit idi canlılar bican halında.
Məsihə zülm ediş guya ki, bir iman halında,
Onu öldürməyi zənn etdilər vicdan halında,
Gözəl bir zatə qarşı çıxdılar üdvan halında.
Cənabi-Əhməd əsri: xalq biürfan halında,
Cəhalət cismlənmişdi əbucəhlan halında.
Həmişə qətlü qarət, adətən bir şan halında.
Əvət, gördüm o dövrü dövri-xunxaran halında.
İşıqlı yol da gəldi həzrəti-Qur'an halında.
O Zərdüşt* əsri insanlar bütün sindan halında.
Əvət, Hind ilə İran oldu atəşdan halında,
Sitəm sahibləri hökm etmədə bəy, xan halında,
Bütün məsnədnişinan zülm edən şahan halında,
Bu İran torpağı cayi-sitəmkaran halında,
Zavallı əhli-İran cümləsi nalan halında,
Bütün zəhmətkeş idi tibqi hammalan halında.
Əvət, xanlardı ancaq müstəbid sultan halında,

Cəfapərvərlər, iştə, dövlətə ərkan halında.
Əhali ağlayırdı kimsəsiz sibyan halında –
Və yaxud Şərqdə bədbəxt olan nisvan halında.
Xülasə, xaki-İran səhneyi-əfğan halında.
Xülasə, xaki-İran səhneyi-əfğan halında.
Dedim: hali, buyur. Susdu, Dedim vulkan halında:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

48

O mazi susdu, bir əfsus çəkdi, bir də vaveyla,
Dedim: “Neyçün bu əfsusun, bu vaveyla, bu vaheyfa?”.
Dedi: “Ciddən də şayani-təəssüf sözəri var ya –
Xilas etmişmi zillət günlərindən qövmünü Musa?
“Diri meyyitlər”i, aya, diriltmiş oldumu İsa?
Məhəbbət ruhu ilə etdimi ölmüşləri ehya?”.

M ə n:

Məhəmməd ümməti yatmış məzari-cəhldə hala,
Qaranlıq, çox qaranlıqdır, zavallı ümməti-taha.
Bütün atəşpərəstan ruhu donmuş bir sürü mövta,
Bəhaüllahın əfkarı çiçəkli, dadlı bir rö’ya,
Xəyalə bənzəməz, çox odludur, çox qanlıdır dünya.
Həmişə ağlayan gördüm bu Adəm oğlunu, zira –
Ədavətlərlə qardaşdır, məhəbbətlərlə çox ə’da.
Əvət, mən maziyəm, gördüm bütün ə’sarı matəmza.

M a z i l ə b i r a ğ ı z d a n:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

49

M a z i:

Yədi-beyzayi-Musa açdımı bir yol ki, çox rəxşan,
Məsihin fikri Adəm oğluna bəxş etdimi bir can?
Cənabi-Əhmədin peyrəvləri bielmü naürfan.
Pərəstişkari-narın nuru sönmüş, həpsi şəbgərdan,
Bəhailər də xülyalar yolunda olmada puyan.

M ə n:

Həqiqət iştə meydanda, bəşər məhzun, bəşər giryan!
Ziyabəxş olmadı insanlara Tövrat ilə Qur’an,
Ziyadar etmədi millətləri İncil ilə İyqan,
Ümumi bir məhəbbət olmayır ki, qabili-imkan,
Ədavət odlarında yanmada qardaş olan insan,
Cahan ərzi-ədavətdir əzəl gündən bəri hər an,
Yer üstü daima qanlı, bəşər qanlı, ürəklər qan.

B i r a ğ ı z d a n:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

50

M ə n:

Çobansızdır bu gündə “raiyi-əqnam”ın əqvamı,
Məsihin ümməti yapmış dəmirdən duzəxəndamı,
Əvət, icad qılmış aləti-qətl ilə e’damı,
Məhəmməd ümməti tutmuş rəhi-zülmatü övhamı,
Sönüb atəşpərəstanın da pərtövgahi-ilhamı.
Bəha qardaşlığından bir əsər yox, var fəqət namı,
Bütün qalmışdır avarə cahanın püxtəsi, xamı,
Tamaşa eylə insanın üzündə zilli-alamı:

M a z i i l ə b i r a ğ ı z d a n:

Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?

# *İqtibas və tərcümələr*

## ƏDL-ZÜLM, YAXUD BİR XƏRABƏZARIN MƏNZƏRƏSİ

Hər kişi İsa kimi bəxş etsə can,
Aləmə ədl ilə olur hökmran.
Zülm ilə qabilmi cahanbanlıq?..
Bulmaq olar ədl ilə sultanlıq.
Ədli-rəsul ilə dili şad qıl,
Ölkəni insaf ilə abad qıl.
Məmləkət ədl ilə olur paydar,
Hər əməl ədl ilə qalır bərqərar.
Ovlayaraq həzrəti-Nuşirəvan, –
Düşdü uzaq kövkəbəsindən haman.
Munisi-şahanəsi ancaq vəzir,
Başqası yox, xah cavan, xah pir.
Rast gəlib bunlara bir nahiyə,
Bənzər idi məzbəli-viranəyə.
Oldu musadif nəzəri-şəhriyar –
Nahiyədə qəryeyi-viranəzar.
Qəlbi-ədu misli pərişan idi,
Fikri-səfihan kimi viran idi.
Gördü iki bayquşu ol lanədə,
Ötüşürlər idi şu viranədə.
Gördü onu, söylədi Nuşirəvan:
"– Eylə bunu şərh, əya nüktədan.
Bu iki quşcuqda nədir nalələr?
Şərhü bəyan eylə, mənə ver xəbər..."

V ə z i r:

Zati-vəziraneyi-rövşənxəyal
Əmri-şəhənşahə edib imtisal, –
Söylədi düsturi-maarifşüar:
“– Müntəbeh ol, ey məliki-ruzgar,
Same’eyi-ibrətini aç, şəha!
Sanma ki, bihudə edirlər nəva!
Quşcuğazın biri tələbkardır,
Digəri bir madəri-dildardır.
Madəri-düxtər deyir: Ey xoşnəva!
Çənd xərabə olacaq südbəha?
Xahiş edirsən düri-yekdanəmi,
Şirbəha bircə bu viranəmi?
Talibi-düxtər deyir: Ey xeyrəsər!
Qəm yemə, zülmi-şəhə qıl bir nəzər.
Çox çəkəməz sayeyi-şahanədə –
Bəxş edərəm min belə viranə də!..”
Oldu bu sözdən mütəəssir məlik,
Ah çəkib, tökdü gözündən sirişk.
Vurdu əlin başına Nuşirəvan.
İştə budur meyveyi-zülm, ey cavan!..”
Dişlədi həsrətlə əlin padşah,
Bax sitəmə, quşlara çatmışdır, ah!
Bu işi gördükdə Ənuşirəvan –
Tərki-şikar etdi o rövşənrəvan.
Şəhrə gəlib, başladı dad etməyə,
Qəlbi-rəayasını şad etməyə.
Bəst qılıb süfreyi-ədlü aman,
Məmləkəti eylədi bağı-cinan.
Məhv eləyib zülm binasın o zat,
Aləmə bəxş etdi gözəl bir həyat.
Vasili-rəhmət o şəhi-ərcumənd –
Oldu. Olarmı o ədalətpəsənd?
Ədlü müsavatla sultandır,
“Adil” ünvanına şayandır.

## [CÖVLANGƏHİ-FİKR OLURSA VASE’]

Cövlangəhi-fikr olursa vase’,
Keyfincə qoşar xəyali-səyyar.
Meydani-süxən geniş gərəkdir,
Cövlan edə ta ki əsbi-əfkar.

## CAVANMƏRDLİK

Əgər aqilsən, et kəsbi-həqiqət,
Həqiqətdir qalan, ey əhli-fitnət!
Çalış təhsil qıl elmü məani,
Olur bu şəklü surət məhvü fani.
Kimin olmazsa təqva, elm, cudu,
Həqiqətdən onun boşdur vücudu.
Məzarında yatar ol kimsə rahət –
Ki, ondan yetməmişdir xəlqə zəhmət.
Nə qədər sağsən, qıl cudü ehsan,
Öləndə varisindən umma ehsan.
Dilərsən olmaya könlün pərişan,
Yıxılmış dilləri qıl şadü imran.
Bu gün simü zəri et bəzlü isar,
Sabah ol dövlətə sahibdir əğyar.
Apar kəndinlə qəbrə zadi-miad,
Sənə əhlü əyalından yox imdad.
Şu adəm etdi təhsili-səadət,
Apardı tuşeyi-ruzi-qiyamət.
Mənə məndən gözəl qəmxar olurmu,
Ölürsəm, yad edən bir yar olurmu?
Bu gün göstər kərəmkaranə himmət,
Sabah dişlərsən əngüşti-nədamət.
Libası olmayan biçarəganə,
Çırıl-çılpaq gəzən əfsürdəganə –
Mürüvvətpərvər ol, bəxş eylə xəl'ət,
Sənin də sirrin örtsün rəbbi-izzət.
Yola boş salma, gəlsə qapına ac,
Gəlir bir gün olursa sən də möhtac.
Həmiyyətmənd edər şəfqət fəqirə –
Ki, qorxar kim, ola möhtac qeyrə.
İanət eylə görsən acü möhtac,
Gəlir bir gün olursan qeyrə möhtac,
Səfalətpərvəranın könlün et şad,

Məzəllət günlərin yad eylə, ustad!
Deyilsən zillətü möhnət əsiri,
Buna şükr eyləyib bəslə fəqiri.
Yetimin üzrə sal zilli-himayət,
Ona hər barədə göstər inayət.
Görəndə başının çiynində qəmdən –
O vəqt övladının öpmə üzündən.
Çəkən yox nazını, eylərsə fəryad,
Acıqlansa, kim eylər onu dilşad?
Xəbərdar ol: yetimi etmə giryan,
Əgər ağlarsa, titrər ərşi-rəhman.
Gözündən sil yaşın, ey əhli-himmət,
Üzündən torpağı saç, eylə şəfqət.
Qalıbdır sayəsiz bivayə, bədbəxt,
Sən öz sayəndə bəslə, qıl mürüvvət.
Əzəl məs'ud idim mən, nazpərvər,
Qoyardım valideyn ağuşuna sər,
Çibinlər qonsa idi ruya ondan,
Neçə kəslər olurdu dilpərişan.
Olursam şimdi pabəndi-əsarət,
Mənə əhbabdən yoxdur inayət!.

## ŞAMDA QƏHƏTLİK

Böyük bir qəhətlik tutdu Diməşqi,
Unutdu yarlər əzvaqi-eşqi.
Paxıl oldu səmalar xakdanə,
Bütün məhsul qaldı yanə-yanə.
Səmadən düşmədi bir qətrə baran –
Ki, məzruat ola diliri-ehsan.
Bulaqlardan kəsildi mayi-cari,
Susuz qaldı yənabiyü məcari.
Vəli qanlı bulaqlar baqi qaldı –
Ki, yə'ni didələrdən qan axardı.
Yetimin gözləriydi əşkrizan,
Qəvi qullar acından öldü lərzan.

Hərarət yaxdı bağü səbzəzari,
Səfillər kimi əşcar oldu ari.
Yaşıllıqdan təcərrüd etdi səhra,
Çəməndə yox idi əşcari-xəzra.
Çəkirgə həp yedi rizqi-ibadi,
Acından xəlq əkl etdi cəradi.
Şu od kim, xanələrdən şö'ləzəndi,
Deyildi atəş, ahi bivəzəndi.
Hüzura gəldi şol əsnada bir dsst,
Kimin üstündə qalmışdı fəqət pust.
Rəfiqin vardı pək şanlı cəlali,
Böyük bir sərvəti, mali, mənali.

S ə' d i

Dedim: "Ey dusti-pakəxlaq, nolmuş?
Neçin gülbərgi-rüxsarın pozulmuş?
Nə fəqrü miskinət üz verdi, ey yar?
Mənə aç dərdi-pinhanın, qıl izhar".

R ə f i q

Mənə səsləndi: "Sə'di, yoxmu huşun?..
Eşitməzmi sədayi-qəhti guşun?
Bilib də söyləmək pək nabəcadır,
Sualın əfv olunmaz bir xətadır.
Səmadən düşməyir bir qətrə baran,
Nə də çıxmaz göyə ahi-fəqiran".

S ə' d i

Dedim: "Dostum, sənə bir bak yoxdur,
Zəhərdən qorx, əgər tiyrak yoxdur.
Müqərrərdirmi sakinin həlaki,
Qazın tufandan olmaz zərrə baki".
Acıqlı baxdı dostum mən fəqirə,
Nasıl arif baxar ruyi-şərirə.

R ə f i q

Dedi: "Ey Sə'di, çoxdur mülki malım:
Füzundur sərvətim, cahim, cəlalım,

Şu malın zərrəcə yoxdur lüzumi,
Əritdi cismimi hüzni-ümumi!
Qəmi-məxluqdan döndüm hilalə,
Vücudum bənzəyir indi xəyalə.
Əhalinin qəmindən ruyi-zərdəm.
Düçari-möhnətü alamü dərdəm.
Mərəzdən gərçi salimdir vücudim,
Görəndə xəstəni titrər vücudim.
Dilərmi hiç görsün əhli-şəfqət –
Vücudi-xəlqdə dərdü müsibət?

M ü t ə r c i m

Xoş ol insana kim, rahətrəsandır,
Nə alçaqdır o kim, əhli-ziyandır.
Səadət olsun ol zata ki, daim –
Şu kəs sərdəftəri-rövşəndilandır,
Mənafebəxşi-əbnayi-zamandır,
Güşadə eyləyib həmyani-cudi –
Ki, bəslər qönçeyi-bağı-vücudi.
Odur şəmsi-süpehri-adəmiyyət –
Ki, olmuş naşiri-əfkari-millət.
Edib təşvir saqi-ictihadi,
İbadə göstərir rahi-rəşadi.
Cərəsasa dəmadəm naləzəndir,
Təyəqqüzbəxşi-övladi-vətəndir.
Urar hər an bangi-intibahi,
Deyilmi bunlar islamın pənahı?

## HEKAYEYİ-EŞQ

Eşitdim mən ki, Məcnuni-diləfkar –
Olunca mövti-Leyladən xəbərdar,
Qalıb mədhuş, oldu zarü giryan –
Civari-qəbri-Leylayə şitaban.
Göründü bir çocuq, durmuşdu hasir,

Nigahi-həsrəti ətrafə sair,
Dedi: “Ey tifl, nerdə qəbri-Leyla?”.
Çocuq güldü... dedi: “Ey piri-dana!
Cahani-eşqə sultanlıq qurarsan,
Nə qəflət, qəbri-Leylanı sorarsan?
Məzaristanə get, hər qədri yoxla –
Və hər bir qəbrdən xak al da, qoxla.
O yerdən ki, duyarsan buyi-sevda,
Şu yerdir istirahətgahi-Leyla”.

## [ƏGƏR İNSAF İLƏ SORSAN, HƏQİQƏT]

Əgər insaf ilə sorsan, həqiqət, –
Deyil bu hal şayani-ədalət.
Nasıl razı olur, bilməm ki, vicdan, –
Pişik kürk içrə, insan qalsın üryan?!

## MÜTALİƏYƏ DAİR

Kəndində yar et, əfəndim, dəftəri-canpərvəri,
Ruhbəxşi-mürdəgandır elmü hikmət dəftəri,
Tərbiyətamuzi-candır, həm də tək qaldıqda sən –
Xoş müsahibdir ki, vəhşətdən səni eylər bəri.

## MƏHƏMMƏDƏLİ MİRZƏNİN NƏZƏRİ-DİQQƏTİNƏ ƏDALƏTLİ BİR VƏSİYYƏT

Eşitdim ölən vəqt Nuşirəvan –
Öz övladına böylə qıldı bəyan:
Oğul, mən ölür, eylərəm irtihal,
Edər təxt, dövlət sənə intiqal.
Bu gün eylərəm mən məzarə xüram,
Mənə sənsən, övlad, qaimməqam!

Oğul, olma işrətgüzari-həyat,
Əsiri-hüzuzat, keyfü nişat.
Oğul, olma dildadeyi-xahişin,
Fəqət istəmə bir az asayişin.
Sən asudəliklə yaşarsan əgər,
Əhali yanar zülmə, qan-yaş tökər.
Əgər məqsədin olsa zövqü səfa,
Rəaya olur mübtəlayi-cəfa.
Sən olduqda amali-nəfsə qərin,
Yaşarmı camaat vətəndə əmin?!
Bəyənməz bu tədbiri danişvəran:
Sürü içəri qurd varkən uysun çoban.
Sənə olmasın adət öz rahətin,
Müraat qıl könlümü millətin.
Sən övrəngi-ləzzətdə tutsan məqər.
Qalır bağizari-vətən bisəmər.
Qulaq as elin dadü fəryadına,
Yüyür zülm görmüşlər imdadına!
Xəbərdar ol, ey xadimi-məmləkət,
Qıl üç ulduzu zinəti-səltənət:
Müsavat hürriyyətü mə’dələt.
Bu üç nurdur calibi-məs’ədət.
Bu aləmdə parlarsa, abad olur,
Bu əncüm sönən mülk bərbad olur.
Rəiyyət kötükdür, hökumət şəcər,
Kötüklə olur bərk ağac, ey pəsər.
Cəfalarla sızlatma bir qəlbi sən,
Əgər sızlasa, bixini kəsmisən.
Sənə lazım isə əgər doğru yol,
Ögüdlərmi lazımdır etmək qəbul.
Kamal əhlinin var iki xisləti.
Bu əxlaq edər cəlb ülviyyəti.
Nədir bu iki xülq? Xövfü əməl.
Əməl, xövf? Zatən gözəldir, gözəl –
Bulunsa bir insanda bu iki xu:
Biri xövfü vəhşət, biri arizu.
Bu qorxu nədir? Ehtiyatkarlıq,

Deyildir cəbunluqla biarlıq.
Mübariz olan düşməni qanmalı
Bu qorxu nədir? Şanlı davranmalı.
Bu qorxu nədir? Xülqi-namvəran,
Həmişə özün hifz edər qəhrəman.
Oğul, söylədim bu iki xisləti,
Bu əxlaq olur calib əmniyyəti.

* * *

Əgər istəsən olmağa kamiyab.
Fənalıqdan et daima ictinab.
Gözəl işlərə addım at dəmbədəm,
Edər yaxşılıq aləmi möhtərəm.
Hökumət ricalında vicdan gərək,
Mürüvvət gərək, əqlü ürfan gərək.
Hüquqi-cəmaatı qəsb eyləmə,
Səri-karə əşrarı nəsb eyləmə.
“Təvəddür əmanət ila əhliha”,
İş əhlində olmaq gərəkdir düha.
Hökumət odur mə’dələtxah ola,
Vücudi-vətən içrə ərvah ola.
Səzadırmı məxluqun incinməyi,
Rəvadırmı zalimlərin gülməyi?
Sitəm qəhqəhə ursun da xəlq ağlasın?
Ədaət odur zülmü qaynaqlasın.
Vətən ədlü dad ilə abad olar,
Dodaqlar gülər, qəlblər şad olar.
Dönər şəhrlər saheyi-cənnətə,
Vətən bənzər ağuşi-hürriyyətə.
Hökumət olursa ədalətşüar,
Əhali olar haizi-iqtidar.
Ricali-hökumət ki, qəddardır,
Səadət şu yerdən küsən yardır.
Cəmaət ki, incindi hükkamdən
Uç, ey mərdi-azad, ol dəmdən!
Genişlik umulmaz o zindandən,
Çıx, ey könlü mə’mur, o virandən!

* * *

Böyük pəhləvanlardan etmə həzər,
O kəsdən çəkin yox dilində xətər.
Camaatı bərbad edən səltənət –
Görər uyquda mülkün imran fəqət.
Xərabiyyəti-mülkə bais nə ya?
Cəfadır, cəfadır, cəfadır, cəfa!
Cəmaəti öldürmə, ey səltənət –
Ki, bunlardır arayişi-məmləkət!
Cəfa etmə, incitmə dehqanları,
Xərab eyləmə, yıxma vicdanları.
Kərəm eylə dehqanə, ver töxmü xiş,
Ədalət görənlər, görər yaxşı iş.
Gər istərsə olmaqlığa nəf'dar,
Oğul, mənfəət ver də, ol kamkar!
Bir insan sənə xeyir vermiş müdam,
Deyilmi o kəs layiqi-ehtiram?!
Ona zülm etmək mürüvvətmidir?
Yamanlıq da heç adəmiyyətmidir?!

## XOSROVUN ŞİRUYƏYƏ NƏSİHƏTİ

Gözün yumduğu dəmdə Xosrov, şu zat –
Ki, yə'ni edən gündə tərki-həyat –
Dedi: Ey mənim qönçeyi-cənnətim.
Qulaq as, budur iştə son söhbətim:
Nə bir əmrə iqdam qılsan əgər,
Səlahi-rəayanı qıl dərnəzər.
Boyun bükmə ədlü müsavatdən,
Cüda düşmə rahi-müvaxatdən.
Cəmaətə bəxş eylə hürriyyəti,
Əsir et bu əltaf ilə milləti.
Sitəmkardən xəlq eylər fərar,
O zalim tapar zülm ilə iştihar.
Şu insan ki, qoydu binayi-sitəm,
Olur kəndisi tez zaman mühədnəm.

* * *

Açar yaralər cismdə tiğzən,
Nə ol zəxmi kim, şivəni-pirzən.
Çox olmuş ki, bir ahi-atəşvəri –
Yaxıb-yandırıb ən böyük kişvəri.
Eşit, varmı ol kimsədən bəxtiyar,
Cahanda olub ədl ilə dəmgüzar?!
Öləndən son ol zati-şəfqətnihad –
Edər rəhmət ilə onu xəlq yad.
Deyirlər: sənə rəhmət, ey niknam,
Sənin ruhuna bizdən olsun salam!

* * *

Dilər yaxşı, istərsə olsun yaman,
Keçər cümləsi, sən gözəl ad qazan!
Qazan yaxşılıq, layiqi-rəhmət ol,
Nə pislik ki, şayisteyi-lə'nət ol.
O zatın ki, könlündə var mərhəmət,
Həmişə işi rəhmdir, mə'dələt.

* * *

Cəmaətə xadim qıl öylə kəsi,
Ola şəhrlər, mülklər banisi.
Sənin düşmənindir o kəs, ey pəsər:
Sənə nəf' üçün xəlqə versin zərər!
Xətadır böyük etmək ol ərzəli.
Göyə qalxmış ondan cəmaət əli
Şu alçaq qılar xəlqə azarü rəng,
Cəmaət nasıl olsa dolsun da gənc.
Sitəmkar qalmaz, olar nabəkar,
Yamanlıqla adı qalar yadigar.

## NƏSİMİ-SƏBAYƏ NİYAZ

Ey səba! Bir bu gətir xaki-rəhi dildardən,
Məhv edib könlüm qəmin, bəxş et bəşarət yardən.
Söylə ağzından nigarın ruhpərvər bir kəlam,
Bir məhəbbətnamə lütf et aləmi-əsrardən.
Sevgili yarın yolundan, ey nəsimi-sübhi-mehr, –
Tutiya göndər, fəqət gizlin ola əğyardən.
Can məşamın eyləyim tə’tir lütfündən sənin,
Ən gözəl iylər gətir canə dəhani-yardən.
Çox zamandır görməmiş dil çöhreyi-məqsudini,
Saqiya, son mey bizə ol cami-seyqəldardən.
Bu dili-divanəmiz gəlmir geri zəncir ilə,
Lütf qıl bir həlqə ol geysuyi-ənbərbardən.
Rahət olmaqlıq üçün bu çeşmi-xunəfşanımız –
Al gətir torpaq, səba, şol rəhgüzari-yardən.
Ey səba, sən tutiya bəxş eylə, kor olsun rəqib,
Qorxamaz əhrar, Hadi, tə’neyi-əğyardən.
Sadədillik, xamlıq adət deyil aşiqlərə,
Ver xəbər sən, ey səba, dildari-əfsunkardən.
Baği-hürriyyətdə, ey quş, şükr kim, azadəsən,
Bu əsarətpərvəranə müjdə ver gülzardən.
Yarsız ruhum dimağı səbrdəndir təlxkam,
Yarsız ruhum dimağı səbrdəndir təlxkam,
Bəxş qıl bir işvə ol ləbi-şəkkərbardən.
Hafizin ol xirqeyi-kəmqədrin et rəngin bəmey,
Son gətir məstü xərab iştə onu bazardən.

## ZÜMZÜMEYİ-AŞİQANƏ

Lütf et, geri gəl, dar-dilimə munisə-can ol!
Bu yanmışa sən məhrəmi-əsrari-nihan ol!

Şol badeyi kim, məcməi-eşq içrə satarlar,
Son bir neçə sağər bizə, söylə rəməzan ol.

Çün xirqəyə od vurdun, əya arifi-salik,
Qıl cəhd ki, sərhəlqeyi-rindani-cəhan ol.

Dildar demişdir: sənə qəlbim nigarandır,
Söylə: gəlirəm şimdi səlamət, nigaran ol.

Canbəxş ləbin həsrəti qıldı, ürəyim qan.
Ey dürci-məhəbbət, yenə sən möhrnişan ol.

Əyləşməmək üçün dilinə qüssə qübarı –
Sən də əqibi-namədən, ey əşk, rəvan ol.

Ol cami-cəhanbinə ki, Hafiz həvəs eylər,
De: pişgəhi-Asəfü* Cəmşid*-məkan ol.

İstərsən açılsın sənə əsrari-xəfaya,
Hadi kimi xaki-dəri-əhrari-zəman ol.

## DİNLƏ, GÖZƏLİM!

Alati-tərəb, dinlə, nə təqrir ediyorlar,
Gizlin içiniz badəni, təkfir ediyorlar.
Aşiqlərin, eşqin tökərək arini, eyvah!
Şəbani də, pirani də təkdir ediyorlar.
Qəlb oldu qara, ərzi-camal etmədi amal!
Hala bu xəyalətdə ki, iksir ediyorlar.
Derlər ki: "Demə, dinləmə eşqin nəğəmatın".
Bax, bax, nə çətin qissəni təfsir ediyorlar!
Təzyi' qılıb vəqtini meypərvəri-eşqin,
Saliklərə bax, pirinə tənfir ediyorlar!
Yüz kişvəri-dil nim baxışla alınırkən.
Bu işdə gözəllər niyə təqsir ediyorlar?
Bir firqə deyir: "Sə'y ilədir visləti-ümmid",
Bir başqası vabəstəni təqdir ediyorlar.
Sabit duracaq zənn ediyorsanmı cahanı?

Bu kargəhi-fitrəti təğyir ediyorlar.
İç badəni kim, möhtəsibü sufiyü müfti –
Diqqətlə baxarsan, hamı təzvir ediyorlar.

M ü t ə r c i m

Bir milləti-islam qalıb, cümlə təvaif –
Ürfan ilə vicdanları tənvir ediyorlar.
Meydani-rəqabər kəsilib məşhəri-aləm,
Bax, bax, nə gözəl əmtəə təşhir ediyorlar!
Biz yıxmadayız cəhl ilə bünyani-cahanı,
Sairləri viranəni tə'mir ediyorlar.
Biz yaxmadayız zülm ilə cənnati-həyati,
Ərbabi-xirəd gör necə dilsir ediyorlar.

## ÜMİDİ-VİSALİ-CANAN, YAXUD QƏM YEMƏ

Mahi-Kən'anın gəlir, ey piri-Kən'an, qəm yemə,
Beyti-əhzanın olur bir gün gülüstan, qəm yemə.
Ey dili-möhnətzədə, ol şadü ləbrizi-məsar,
Kəsbi-cəm'iyyət qılar dil, fikr, vicdan, qəm yemə.
Bir-iki gün dönmədisə çərx bərvəfqi-murad,
Daima qalmaz bərabər hali-dövran, qəm yemə.
Gər bahari-ömr ola, ey bülbüli-qüdsinəva,
Sahəzibi-feyz olur ya bülbülüstan, qəm yemə.
Olma hərgiz naümid agəh deyilsən qeybdən,
Pərdə içrə yox deyil əsrari-pünzan, qəm yemə.
Kə'bə şövqilə gər olsan xətvəəndazi-məram,
Sərzənişlər qılsa da xari-müğilan, qəm yemə.
Bir cəhətdən tə'ni-düşmən, bir tərəfdən hicri-dost,
Hali-qəmpərvərləri bilməzmi rəhman? Qəm yemə.
Titrədirsə kainatı sərbəst seyli-fəna,
Nuhdur çün kim, sənə məllahi-tufan, qəm yemə.
Şahidi-mətlub napeyda və mənzil hövlnak,
Hansı yoldur olmasın ol rahə payan? Qəm yemə.

Nurbəxşayi-cahandır “Babi-elmi-Mustafa”*,
Ey könül, oldun mühibbi-şahi-mərdan*, qəm yemə.
Xaneyi-fəqrü şəbi-müzlimdə xəlvət, Hafiza,
Ta sənə virdi-zəbandır dərsi-Qur’an, qəm yemə.

* * *

Hadiya, şe’ri – “Lisanül-qeyb”ə* oldun tərcüman,
Ruhi-Hafizdir sənə hər dəm sənaxan, qəm yemə.

## TƏRANEYİ-TÖVHİD

Əsarət bəndin aç, əhrarvəş bir qəsdi-bala qıl,
Fəzayi-feyzi gör, kami-dilincə xoş tamaşa qıl.
Dilərsən Yusifasa məhbəsi-qəmdən xilas olmaq,
Maarifpərvər ol, elm ilə kəşfi-sirri-rö'ya qıl.
İtirmə rahi, məğbun olma meydani-ticarətdən,
Çirağı-elmi tənvir eyləyib əfkari-sevda qıl.
Nə dəm pak olsa canın lövhi-meyliyyati-nəfsidən,
Rəhi-vəhdətdə hikmətdən nişanü rəsmi-beyza qıl.
Nə dəm kim, çeşmi-əqlin nuri-vəhdətlə ziyalandı,
Nüquşi-masəvadən qəlbü vicdanın müsəffa qıl.
Şəhadət kəlməsində hərfi "la"dan mə'na odur kim,
Dedikdə "laillah" ondan bə "illallah" məbdə qıl*.
Süleymanvar edib məhkum divi-nəfsini, ondan –
Otur təxti-siyasətdə nüfuzu hökmün icra qıl.
Əzəl səhraya sür Musa kimi sən də qoyunların,
Əsayi-qüdrət ilə sonra əzmi-Turi-Sina qıl.
Gər istərsən Məsihavəş kəlamın guşə alsınlar,
Həqiqi ruhi-qüds ol, sonra dəvayi-Məsiha qıl.
Nə dəm kim, pərdədə varsan, görünməz çöhreyi-idrak,
Əzəl bir pərdəbirun ol, nigahi-əqli-rə'na qıl.
Dilərsən misli-İsa baqi olsun namın aləmdə,
Məzari-cəhldə yatmışları feyzinlə əhya qıl.
Həmişə cavidan olmaq xəyalı varsa könlündə,
Küdurati-havadan qəlbi mir'atın mücəlla qıl.
Çalış kəsb eylə sərvət əzmü qəsdi-əsli-mə'va qıl.
Həvayi-nəfsi mə'bud ittixaz etmişsən, ey bədbəxt!
Uzaq ol nəfsi-şeytandan, ümidi-vəsli-hura qıl.
Huquqi-xəlqi ver, sonra hüququn istə millətdən,
Sikəndər-şövkət ol, son qəsdi-darülmülki-Dara* qıl.
Dilərsən Zöhrə tək zibi-sipehri-e'tila olmaq,
Ziyayi-mə'rifətlə cismü canın sən də nura qıl.
Əgər qurtarmaq istərsən bəhaim dəmgahından,
Bəhimi-xəlqi tərk et, sonra əzmi-çərxi-ə'la qıl.

Gər istərsən ki, ruhun bəzmi-vəhdət içrə şah olsun,
Sərayi-dini-islamı ədavətdən mübərra qıl.
Xilafi sözlər ilə cismü canın xəstələnmişdir,
Burax bu ixtilafı, cana elm ilə müdava qıl.
Əgər canından agəhsən, bu cismü canı pamal et –
Və gər "arif bənəfs" oldun, hədisi-nəfsi ziba qıl.
Əgər görməklik istərsən cəmali-paki-məhbubi,
Bu cismani gözü kor eylə, çeşmi-əqli bina qıl.
Həvayi-dilbər istərsən, şərabi-eşqini nuş et,
Vüsali-yari istərsən, təvafi-xani-bətha qıl.
Görərsən onda Qur'anı açıb rüxsareyi-pakın,
Üzün göstərdimi Qur'an, lisani-zikri guya qıl.
Açanda dideyi-batin görərsən gizlini zahir,
Lisani-zikri açsan, kəşfi-əsrari-xəfaya qıl.
Dili pür eylə Məcnun tək fəraqi-xari-Leyladən,
Dili Vamiq kimi ayineyi-didari-Əzra qıl*.
Həqiqi aşiq isən, bəzmi-əğyar içrə laf urma,
Fəraqi-Yusifə tabavər ol, fikri-Züleyxa qıl.
Qocaldın isə möhnətdən, nigarın şövqünü yad et,
O şövqi-yar ilə ruhun Züleyxa misli bürna qıl.
Olanda pakü saf alayişi-nəfsi-təbindən
Bu şe'ri-hikmətamizi xirədlə şərhi-mə'na qıl.
Görəndə böylə şe'ri, Hadiya, təb'i-Sənaidən –
Bilib mə'nasını canın maarif ilə dana qıl.

## BİR İRANLININ LİSANINDAN

Bu yük altındakı bir insandır,
Milləti-dağidari-İrandır.

Gərçi heyvan deyil, cəfalərdən –
Haləti tibq hali-heyvandır.

Kəsrəti-zülmdən xudaya yəmin,
Ömrdən sir, mərgi cuyandır.

Uzun illər vətəndən ayrılmış,
Sərsəridir, həzinü nalandır.

Mərgdən başqa tərki-aləm edib,
Xaliqindən məmatı xahandır.

Qəsəm olsun cahanda mən kimi həp –
Əhli-İran səd həzarandır.

Gecə-gündüz qərib yerlərdə –
Bir quru əkməyə şitabandır.

Bəsləyir zəhmətilə molla, qazı,
Bəyə əkmək verir, səgi-xandır.

Bu iki misraı edib təzkar,–
Nə qədər canı varsa guyandır:

Eylərəm dad, ta alınsın dad,
Mülk ola çarəyabi-istibdad!

## NİZAMİNİN ÖVLADINA NƏSİHƏTİ

Ey on dörd yaşa ermiş nuri-çeşman!
Oğul! Kəsb eylə elmi-dinü əbdan.
O gün ki, yeddi yaşındaydın, övlad,
Çəməndə gül kimi qönçəydin, övlad.
Yetişdi şimdi kim, on dördə yaşın,
Erişdi sərvvəş balayə başın.
Deyildir vəqti-bazi, olma qafil,
Hünər övqatıdır, kəsb et fəzail.
Üluma talib ol, öyrən maarif –
Ki, görsünlər səni gün-gündən arif.
Təfəyyüz göstər, ol amalə vasil,
Mənə övlad olmaqdan nə hasil?
Müzəffər ol, qıl ehrazi-bəsalət,
Xüluq ol, eylə ehrazi-səadət.
Dilərsən sərvət, əldə eylə alat,
İbadullaha qıl, oğlum, müraat!
Haçan dərpiş qılsan bir xəyalı,
Xudanın qorxusundan olma xali.
İşində eylə fövqəladə diqqət,
Sənə üz verməsin axır xəcalət.
Könül qoysan bu pəndi-sudməndə,
Olursan bəxtiyar, ey nuri-didə!"
Cəbinində füyuzi-qabiliyyət, –
Əyandır səndə ənvari-zəkavət.
Əvət, əş'ar ülvi mərtəbətdir,
Şu elmi kəsb qıl, pürmənfəətdir.
Buyurmuş "fəxri-aləm": elm elman.
Biri əbdan, digər elm elmi-ədyan.
Edər bunlarla millət kəsbi-qüvvət:
Fəqahətdir, sənaətdir, təbabət.
Əsasi-şə'rdir bunlarla qaim,
Səmayi-dindir bunlarla daim.
Fəqih ol, ittiqapərvər və dindar,
Fəqihi-pürdəsais olma zinhar.

Təbib ol, can bağışla mürdəganə,
Nəinki mövt bəxş et zindəganə.
Əgər kəsb etsən elmi-dinü əbdan,
Olursan hörmətü təqdirə şayan.
Ülumu eyləsən ehraz hərgah,
Olursan hər iki aləmdən agah.
Haçan bir elmü fənn etsən qiraət,
Mükəmməl bilməyə sərf eylə qeyrət.
Külahduzi-dəğəldən, ey diləfruz, –
Həqiqət, yaxşıdır qabil palanduz.
Əməl səndən, oğul, məndən nəsihət,
Edər bədbəxt insanı ətalət.
Su misli gərçi söz də basəfadır,
Söz ol sözdür ki, azdır, bixətadır.
Nə rütbə olsa da su pakü safi,
Çox içmək səhhətə oldu mənafi.

ŞEYX BƏHAİ

## ZAHİRPƏRƏST ALİMLƏRƏ

Sərf qıldıq ömrü əndər qilü qal,
Olmadı hasil bizə ondan kamal.

Ey olan pabəndi-künci-mədrəsə!
Hər nə təhsil etdinizsə, vəsvəsə!..

## TƏRANEYİ-ZƏFƏR

Milləti-Təbriz, xuda yarınız,
Həqq ola imdadrəsi-karınız!

Namınız, ey milləti-namuskar –
Oldu igidlikdə rəşadətşüar,
Lövheyi-zərrində qalır yadigar –
Şöhrətiniz, şanınız, asarınız,
Milləti-Təbriz, xuda yarınız!

Zülm kökün eylədiniz tar-mar,
Baği-vətən olmalıdır xüldzar,
Qaldı o şanlı adınız payidar,
Fəxri-cahan oldu nigəhdarınız,
Milləti-Təbriz, xuda yarınız!

Əhli-həsəd rəğminə ol ərcümənd –
Eylədi iranlıları sərbülənd*,
Pəşşə hücumu olamaz sudmənd,
Badi-zəfər oldu inandarınız,
Milləti-Təbriz, xuda yarınız!

Ey vətən, olsun sənə bizdən salam,
Ərzi-qəməfza, sənə olsun salam,
Qəbri-şəhidan, sənə olsun salam,
Şirfikəndir o ələmdarınız,
Milləti-Təbriz, xuda yarınız!

Şirpəsəndanə hünər etdiniz,
Sə'ylə ehrazi-zəfər etdiniz,
Xəl'əti-hürriyyəti xoş geydiniz,
Pəh... nə gözəl kisveyi-zərtarınız!
Milləti-Təbriz, xuda yarınız!

Sizsiniz İranda şəci'an bu gün,
Millət üçün olmada qurban bu gün,
Ədl sizinlə tapacaq can bu gün,
Min yaşasın Bağırü Səttarınız,
Milləti-Təbriz, xuda yarınız!

Bayrağınız lövheyi-fəthü zəfər,
Rəhbəri-hürriyyətinizdir hünər,
Bağі-həqiqətdə uçan ruhlər –
Nüsrəti-fəyyaz mədədkarınız,
Milləti-Təbriz, xuda yarınız!

Rəşt nasıldır sizə olsun əyan:
Rəşt ayıq, qanlar atəşfəşan,
Oldu Süpəhdar bizə pasiban,
Bəli, o da yarü həvadarınız*,
Milləti-Təbriz, xuda yarınız!

Rəşt behişt oldu o Salar ilə*,
Gözlərimiz aydın o rüxsar ilə,
Toəm ola hifz bu didar ilə,
Şad ediyor könlümü əxbarınız,
Milləti-Təbriz, xuda yarınız!

Eşq ilə can verməyə gilaniyan,
Durmadadır, durmada pirü cavan,
Cümlə müsəlləh durur, ey qəhrəman,
Gözləri cuyəndeyi-didarınız!
Milləti-Təbriz, xuda yarınız!

Cünbüşə amadə sifahaniyan,
Şurişə hazır həmə gilaniyan,
Bunlar ilə fəxr edir iraniyan,
Aydın ola çeşmi-əməlbarınız,
Milləti-Təbriz, xuda yarınız!

Vəqti-səfa, mövsimi-işrət deyil,

Hifz-vətəndən nə gözəldir? Deyil,
Əşrəfə vardırmı süxəndə ədil,
Gözləyirəm ta gələ əş'arınız,
Milləti-Təbriz, xuda yarınız!

## BİR SƏRGÜZƏŞTİ-XUNİN

Həmin sərlövhə ilə "Şurayi-ümmət"* qəzetində layiqi-mütaliə bir roman təfriqə surətində nəşr olunmaqdadır. Qəzetin haşiyəsində böyük hərflərlə: "Təfriqəsinə başladığımız "Bir sərgüzəşti-xunin" romanını qarelərimizə bilxassə tövsiyə eyləriz" cümləsi yazılmışdır.

Romanın müəllifi Katyul Mendes* namında bir ədib olub, mütərcimi osmanlı ərbabi-qələmindən Əli Nüsrət əfəndidir.

Ədibi-müşarileyhin qələmə aldığı bu lövheyi-xunin zahirən bir rus zabiti ilə dilbər, cavan və həsəna bir rusiyalı qızın müaşiqəsini təsvir edir. Batinən zülmü istibdadın vətəndə icra etdiyi təxribatı, üsuli-keyfi-mayəşanı qanlı və atəşli bir tərzdə göstərməyə çalışır. Müəllifin əsl muradı da bu olsa gərək.

İstibdad qılıncının sineyi-vətənə açdığı yaraların qanlı mənzərəsini canlandırıb meydana qoyan bu ədibin qələmindən fəvəran edən alovlar o qədər acı, o qədər yandırıcıdır ki, oxurkən insanın ə'maqi-ruhiyyəsini belə yaxır, yandırır.

İstər Rusiya, istər Rusiya əhalisinin tərcümani-səfaləti olan bu qara yazıları oxurkən ağlamışdım, pək də çox ağlamışdım. Gözlərimdən damlayan atəşin qətrələrin, qanlı yaşların hər qətrəsi bir şe'ri-atəşin oldu. İstəyənlər oxusun da ağlasın:

Bir sərgüzəşti-xunin,
Bir lövheyi-səfalət
Çeşmim önündə durmuş
Dilsuz bir hekayət.
Hər sətri hüzbəxşa
Bir dəftəri-bəladır,
Hər ləfzi-xunnüması
Bir məktəbi-fəlakət.

Bəxti-bəşərmidir ya –
Bu dastani-xüsran
Girmiş libasi-ləfzə
Bu sərgüzəşti-möhnət?
Qəlbi-cərihədarım
Atəşfəşani-qəmdir,
Didəmdə qanlı yaşlar
Suzişnümayi-həsrət.

Cavan rus qızı deyir ki, zabit Boris daima qəmli görünürdü. Heç gülməz, oyun oynamaz, rəqs etməzdi. Borisin nə üçün böylə mükəddər olduğunu ziyadəsilə anlamağı arzu edərdim. Bir axşam səbəbikədərini özündən suala cəsarət etdim (bir cavan qız nə qədər şəci' və bahadırdır, bax, görəcəksən). Böyük ziyafətdə idim. Bütün ömrümdə o qədər gözəl olmamışdım. Miralay R. gəlib məni rəqs etməyə də'vət etdi. Bu miralay pək şıq və dilpəsənd bir süvari olduğu kimi, bir rəqsihəsəni idarə etmək xüsusunda rus əsakirinin birinci zabitidir. Fəqət mən də'vətini qəbul etmədim. Çünki Borisin hər zamankından daha qəmnak bir çöhrə ilə ziyafət salonundan çıxıb bağçaya doğru getdiyini görmüşdüm.

Mən salondan çıxaraq bağçaya gəldim. Boris şəbəkələrin birinə söykənib qaranlıqda yalnızbaşına idi. Uzaqlarda gecənin ağuşi-tənhasındakı gizli bir xəyali-nihana rəkzi-nəzər etmiş kimi dururdu. Yanına yaxınlaşdım. O ağlayırdı. Mən titrədim.

Guya ki, qız Borisə demək istəyir, mə'şuqə aşiqindən pürsan olur, deyir ki:

Aya nədir gözündən
Cari şu əşki-həsrət,
Olmuş üzündə, eyvah,
Əhzan sayəəfkən?
Söylə, yaxıldı könlüm,
Ey şö'leyi-məhəbbət,
Qəlbindəki nədir ya –
Ol fikri-latənahi?
Varmı xəyalın içrə
Gizlin qalan həqiqət?

Hansı əməldir ol kim,
İzhar qılmayırsan?
Kitmani-raz qılma,
Qıl, qıl mənə inayət!
Agah qıl qəmindən
Dildadəni, a qəlbim!
Məftunəni gör olmuş –
Şayisteyi-mürüvvət!

Zabit qıza xitabən:

Bilməkmi istəyirsən
Aya nədir məlalım?
Qız: Bicamıdır sualım?
Zabit: Anlarsan, öyrənərsən,
Ətf eylə guşi-diqqət.

Qız deyir ki, zabit mənə nəmnak bir nəzər fırlatdı.

Əndişənak, giryan
Çeşmani-atəşini
Nəşr etdi çöhrəm üzrə
Ləzzətli bir hərarət.
Qaynar, məhic səslə
Yarım təkəllüm etdi.
Sanki duyurdu ruhum
Ol ləhcədən həlavət.
Zənn eylədim ki, şimdi
Ərzi-məhəbbət eylər,
Bir "sevgilim" deyərsə,
Məs'ud olur bu bədbəxt.
E'lani-eşq edərsə –
Yarım bu şəb, parıldar –
Ümmidimin kökündən
Səyyareyi-səadət.
İzhari-mehr edərsə,
Gülməzmi bəxti-giryan?
Bir "dilbərim" deyərsə –

Etməzmiyəm fəxarət?
Bənzər dili-həzinim
Bivayə bir yetimə,
Möhtaci-mərhəmətdir,
Al könlüm, et səxavət!
Könlüm sınıq qanadlı
Bilanə quşcuğazdır,
İstər sığınmaq üçün
Bir aşiyani-şəfqət.
Sevməzmisən, əfəndim,
Nazəndə bir güləm mən?
Sən gül, təbəssüm etsin –
Gülqönçeyi-səbahət.

Cavan zabitin halü ətvarından əlaimi-məhəbbət nümayan olmadığından qız mə'yus olur, özü-özünə:

Aldanmışam, təəssüf,
Batil bir e'tiqada,
Mən bildiyim həqiqət
Övham imiş, xəyalət!
Yox, yox, bu zabitin var, –
Bişübhə, özgə yarı,
Dildari-şivəkarı,
Artıq mənə nə hacət?
Ol şəb ki, ağlayırdı
Ol sevgili cavanım,
Nəydi o hali-pürqəm,
Ya ol şəbi-məlalət?
Dərxatir eylədikcə
Artar təhəssüratım,
Eylər məni müəzzəb –
Könlümdəki məhəbbət.

Zabit ehtişamnümun bir vəziyyət alaraq cavan və gözəl bir Məsih kimi, gözlərini səmaya qaldırmış, atəşin bir səda ilə natiqəpərdaz oldu. Qız bütün mövcudiyyəti ilə guş və huşunu o nitqi-atəşnaka vəqf etmiş durmuşdu. Zabit sevgilisinə xitabən:

Anla, göyərçinim bil –
Əsbabi-iztirabım:
Vardır dilimdə mühlik,
Dəhşətli bir cərahət.
Qəlbi-cərihədarın
Xunabıdır sirişkim,
Könlüm zəmini-qəmdir,
Beynim səmayi-möhnət.
Fikrim cahani-alam,
Zikrim vətən nəvası,
Başımda şö'ləzəndir –
İzharı güc həqiqət.
Dərdim, qəmim, məlalım
Məzlumeyi-vətəndir,
Azadədir məzalim,
Məhbusdur ədalət!
Hürriyyət istəyənlər
Pirayəbəxşi-zindan,
Alçaq, rəzil olanlar –
Olmuş vəliyyüne'mət.
Milyonlar ilə xəlqi
Pamal edir ərazil.
Bunlarda yoxmu vicdan?
Bunlarda yoxmu nisfət?
Ey madəri-vətən, bax,
Əsmari-bağzarın
Sərsərzədi-xəzandır,
Üftadeyi-səfalət!
Yoxdur məməndə süd kim,
Əmsin onu çocuqlar,
Yandı, yaxıldı güllər,
Soldu behişti-millət.
Acdıqları zamanda –
Aclıqların yeyirlər,
İçdikləri şərabı
Xunabeyi-həqarət
Mən eylərəm səninçün, –

Ey rus mülkü, şivən!
Məxrubədir biladın,
Mə’murə zülmü vəhşət!
Gülməkdədir məzalim,
Ərbabi-ədl giryan,
Hürriyyətü müsavat –
Mənfanişini-zülmət!
Parlar zülami-bidad,
Ədlin ziyası sönmüş,
Ey mətlə’i-vətən, gül,
Çıx, ey səbahi-rəhmət!

Eşit, göyərçinim, müəzzəz ruhum, şirin dilbərim!

Bax, bax şu əğniyayə,
Rövnəqfüruzi-iqbal.
İçmiş şərabi-zövqi,
Sərməsti-cami-sərvət!
Biar görməyir ki,
Zillətdədir xəlaiq,
Olmaqda öz kefində,
İşrətgüzari-ləzzət.
İstərsə varsın, ölsün,
Lazımmı əğniyayə?!
Yansın, yaxılsın aləm,
Batsın dilər cəmaət!
Yanmaqdadır ürəklər
Tənviri-zillət içrə,
Könlündə yoxmu insaf,
Ey heykəli-qəsavət?!
Bilməm nasıl yeyir heç –
Əhli-qina o nanı,
Can verməde yanında
Əshabi-fəqrü zillət!..
Eşit göyərçinim, eşit!
Tək bir ilin içində
Gördüm Petersburqda
Aclıqdan öldü beşyüz –

Əsvaqdə rəiyyət.
Ta key bu qəhti-vicdan?
Bu dərdə yoxmu payan,
Aləmə yoxmu qayət?
Kanuni-sinəm içrə
Paqqıldayır ələmlər,
Ta key bu dərdü qəmlər,
Görməzmiyiz məsərrət?

Zabit göy üzündən pərvaz edib keçən bir quşcuğazı pişgahi-xitabətində təmsil etdirərək deyir:

Ey səyyahi-biqərar, ey fəzapeyma, ey azadə məxluq!

Uç, get şu kəştizarə,
Bax, var orda bir adəm,
İştə əkinçidir o,
Zahirdə hürrü sərbəst*.
Mə'nənmi? Ləfzən azad –
Bir mərdi-kəştirandır.
Rusiyyədən deyirlər
Mətrud olub "əsarət".
Aydın görürmüsənmi,
Ey mürği-pərgüşadə?
Əymiş belin ki, guya –
Eylər yeri ziraət.
Ya töxm əkir sanırsan?
Heyhat, aldanırsan!
Diqqətli bax, gözəl bax,
Anla nədir hekayət!
Zər' etməyir türabı,
Torpaq yeyir acından;
Ot kökləri taparsa,
Məs'ud olur bu bədbəxt.
Bu xak kəndinindir,
Torpağı neyləsin bu?
Nə əldə danə vardır,
Nə aləti-ziraət.

Yer sürməyə vəsait
Lazım deyilmi, ey mürğ?
Xış yox, at yox, öküz yox,
Netsin zavallı? Heyhat, –
Yox iqtidarı alsın,
Məhrumi-simü zərdir,
Amma özü bəşərdir.
Ərbabi-zülmə lə’nət!
Sövqi-zərurət ilə –
Gəlmiş bu boş zəminə,
Ot kökləri yeyər kim,
Dəf’ eyləsin vəca’ət.
Bir parə kök bulursa,
Saxlar, yeməz zavallı,
Əhli-əyalı vardır,
Həsrətkeşani-ne’mət,
Bu mərdi-qüssədarı
Həsrətlə gözləyirlər.
Yarəb, hanı o səndə –
Övsafi-raziqiyyət?!

Eşit, ruhum, eşit!
Rusiyyə mülkü, ruhum,
Bir növhəzari-matəm,
Başdan-başa kəsilmiş –
Bir səhneyi-müsibət.
Bir kütleyi-fəqirə –
Möhtac nanü şamə,
Bir firqeyi-səfilə –
Aludeyi-səfahət.
Ey dilfirib vicdan,
Bu mənzəri-fəci’in
Atəşzəni-dilimdir,
Ruhum çəkir əziyyət.
Afaqi-giryəbarın
Ruhum kimi qəməndud,
Könlüm kimi pərişan –

Əhlin əsiri-üsrət.
Ayaqyalın, başaçıq –
Övladi-namuradın,
Səhranəvərdi-qəmdir,
Sərbərzəmini-xiclət.
Bax, ey göyərçinim, bax,
Zövcati-aliyatə,
Batmış mücövhəratə,
Ləbrizi-kibrü nəxvət.
Əngüştərində parlar
Qıpqırmızı yəvaqit,
Xuni-əhalidir o –
Barmaqlarında zinət.
Xuni-dili-əhali –
Donmuş, təhəccüm etmiş,
Görməzmisənmi ruhum,
Pərtövfürüzi-hümrət.
Almasparələr kim, –
Vardır üzük qaşında,
Hərdəm təlalö’ eylər,
Lərzişnümayi-səfvət.
Onlar nə olduğun bil:
Məzlumi-əşkrizin –
Göz yaşlarıdır axmış,
Ey lövheyi-məlahət.
Yaqutü dürrü almas –
Ruhum, a ruhi-həssas, –
Əmvalıdır fəqirin,
Qəsb eyləmiş hökumət*.
Zövcati-aliyatə
Məqsəd nədir bəzəkdən?
Getsin teatrə, etsin –
Cəlbi-nigahi-diqqət.
Gərdunələrlə sair –
Hər dəmdə bir məqamı,
Amadə bunlar üçün –
Hər gündə bir ziyafət.

Fikri, xəyalı işrət,
Dildadey-ləzaiz,
Övrəngi-bəxti haiz –
Məftuni-keyfü ləzzət.
Zövcati-aliyatın
Pək alidir həyatı,
Pərvərdeyi-hüzuzat,
Dəmsazi-nazü ne'mət.
Ey kimsəsiz vətən, uf,
Bu qəhrlər çəkilməz,
Bu zəhrlər içilməz,
Uf, yandı qəlbi-fikrət!
Bu dərdi çəkmək üçün
Artıq təhəmmülüm yox,
Gündən-günə ələmlər –
Rə'yətgüşayi-sətvət.
Qəm bir deyil, əzizim,
Alam həddən aşmış,
Dərdin əlində şaşmış
Əşdişəvü xəyalət.
Mehmani-qəm ziyadə,
Mehmanxanə kuçik,
Mehmannəvaz netsin,
Yox mənzilində vüs'ət...

Zabit sevgilisinin qabağında durub deyir:

Bədbəxtliyi-vətənçin –
Ruhaniyan, yə'ni
Bunlar böyük bəladır –
Xüddami-cəhlü zülmət.
Ruhani adlananlar
Zatən iki bölükdür:
Qismi-siyahpuşan.
Qismi səfidkisvət.
İştə siyahpuşan
Məhrumdur həyadən,

Ağ əlbisə geyənlər
Şayani-lə’nü nifrət.
Bunlar nə qism məxluq?
Nerdən təvəllüd etmiş?
Aya nasıl bəşərdir –
Bu firqeyi-dənaət?..*
Eşit, ey pəriyi-ilham!
Ruhanilik, papaslıq
Misri naxoşluq olmuş,
Övladə valideyndən
Etməkdədir sirayət
Ruhani bir mərəzdir
Ruhi-vətəndə sari,
Olmuş bu gün xələldar
Cismi-vətəndə “səhhət”.
Bu öylə xəstəlikdir –
Mabə’di var, kəsilməz,
Ölsə ata, yetişdi –
Övladə bilvərasət.
Bu yadigari-irsi
Ariz olur bu yolla,
Aç guşü huşu, dinlə,
Ey hurzadi-cənnət!
Ən canlı bir zamanda,
Yə’ni cavanlığında,
Mə’bədnişin olur, bax,
Növrəsteyi-şəbabət.
Bu fikri-pərdədarın
Var kəşfə ehtiyacı,
Aydınlıq olsun əfkar,
Kəsb eyləsin bədaət.
Övladını cəmaət
Təhsili mövsümündə
Xüddami-mə’bəd eylər
Qəflətgüzini-üzlət.
Ol gənclər ki, oldu –
Arayişi-kəlisa,

Onlardan ummaq olmaz
Parlaq xəyalü fikrət.
İnsanə mənfəətli
Tə'limi çıx, nə qalsa, –
Şəbanə eyləyirlər
Ruhaniyan dirasət.
Batil əqidələrlə
Əfkarı zəhrlərlər,
Olmazmı böylə övlad
Pərvərdeyi-zəlalət?
Övhami-zülmətəngiz –
Parlar xəyal içində,
Zülmətli göydə çıxmaz, –
Bil, nəyyiri-həqiqət.
Parlaq xəyal içində
Pərvaz edər ziyalar,
Zərrin qanadlı pərtöv –
Sərpər dilə təravət.
Əfsus kim, papaslar –
Ə'dasıdır ziyanın,
Ənvarə qarşı bəslər
Bunlar böyük ədavət.
Şəbanə kim, verirlər
Bunlar dürusi-övham,
Olmaqda bu təalim
Bax, mucibi-bəlahət.
Nabud olur həqaiq.
Peyda olur xürafat,
Məğlub olur şüaat,
Zülmətdə qalibiyyət.
Şayani-diqqət iştə
Bir nöqtə var, nəzər qıl,
Nə işlərə edirlər –
Ruhaniyan cəsarət.
Şagirdin, əchəl, adın –
Təbdil edir yerindən –
Ruhaniyan rəisi,

Əhsən sənə iyasət.
Der ki, adın gərəkdir –
Olsun Boqoslavski[1] –
Ya ki, Boqolyubov[2] olsun.
İşmi bu? Eylə diqqət!
Mə'bədnişin cavanlar
Azadəsər yaşarlar,
Hər sübhü şam içərlər
Ta kim, olunca sərməst.
Hər pisliyi edərlər,
Föhşayə meyl edərlər,
Murdar yerə gedərlər
Azadü hürrü sərbəst.
Bunlarmı pişvayan,
Bunlarmı rəhnümayan?
Ruhanidirmi bunlar,
Bunlarmı sədri-millət?!

## TÖVBƏ-İSTİĞFAR

*Məzhəkəli şe'rlər*

Nədir bu qövğa dünyadə, eyvah?!
Məşrutə verdi yoxsa şəhənşah?!
Biz piri-mərdik, nadanü gümrah,
Bir səmtimiz qəbr, bir səmtimiz çah,
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Xəlq oldu azad, getdi əsarət,
Övladi-millət tapdı şərafət,
Tiflanda vardır meyli-sənaət,

---

[1] *Boqoslavski* – yə'ni elmi-kəlam.
[2] *Boqolyubov* – hübbi-Allah deməkdir.

Parlar müsavat, doğmuş ədalət,
Hardan doğuldu bu bid'ət, eyvah!
Əttövbə, tövbə, əstağfürullah!

* * *

Zülmətpəsəndin yoxdur ziyası,
Dərki, kəmalı, əqli, zəkası,
Elmü ədəbdən boşdur qafası,
Alçaqdır, alçaq, yox e'tilası,
Axsaq eşşəkdir, heç getməyir rah,
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Yaran, nədir bu qövğayi-ətfal,
Olmuş gavurlar mollayi-ətfal,
Şapka qoyubdur, eyvay, ətfal,
Çəkmə-qaloşdur dərpayi-ətfal,
Getdi şəriət, vallah, billah,
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Biz ki, qocaldıq, dəndanımız yox,
Dişlərimiz olsa, yox nanımız, yox,
Şayəd verilsə nan, canımız yox,
Saqqal hənalı bir şanımız yox,
Gördükdə eylər ətfal qah-qah,
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Bir-bir gedirlər cindarü rəmmal,
Səxriyyə oldu əfsungərü fal,
Düşdü kəsadə bazari-naqqal,
İş görmür artıq əmmaməvü şal,
Avarə – dərviş, bədbəxt – molla,
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Olmuş çocuqlar babi-sərasər,
Kafər lisanın eylərlər əzbər,
Sevdikləri şey çernil və dəftər,
Elmi-hesabə dildadədirlər,
Hər dəm müəllim der: barəkallah!
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Mollanümalar məğmum olublar,
Şanü şərəfdən məhrum olublar,
Dünya gözündə pək şum olublar,
Ləzzətli günlər mə'dum olublar,
Əldən çıxıbdır əmvalü tənxah,
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Səf-səf düzülmüş tiflani-novxan –
Məktəblər içrə gül misli xəndan,
Canbəxş dildar, gülzari-irfan,
Mövhumlərdən qurtardı sibyan,
Biz də oxuyaq, gəl, "qülhüvəllah",
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Asari-piri bizdə əyandır,
Tövbə, inabə virdi-lisandır,
Bu tazə sözlər dinə ziyandır,
Bir firqə "əhmət" (!) məşrutiyandır.
Olmuş cavanlar mürtədü gümrah,
Əttövbə, tövbə, əstəğfürullah!

* * *

Açmış çiçəklər, ey kərbəlayı,
Saqqal, ət istər rəngi-hənayı,

Qayət gözəldir növkədxudayı,
Tutma nəzərdə fəqri, bəlayı,
Al bir gözəl qız, əlhökmülillah,
Əttövbə, tövbə, əstağfürüllah!

* * *

İstər ədalət ərbabi-vicdan,
Məşrutədir həp ən şanlı canan,
Bu yolda xidmət–əhrar üçün şan,
İştə Süpəhdar – bir mərdi-meydan,
Azadə oldu əqvami-İran,
Əlhəmdülillah, əlhəmdülillah!

*21 may*

## HƏR GÜLŞƏNDƏN BİR ÇİÇƏK

Nuhun nübüvvətin edər inkar əhli-cəhl,
Gavə sitayiş etməyi ürfan hesab edər.

*Həkim Sənai Qəznəvi*

Həqin xalis ibadı cərcəsindəndir ülum əhli,
Cahanda küfrpərvər, şübhəsiz, əhli-cəhalətdir.

*Həkim Xaqani Şirvani*

Bir tükənməz bəhrdir əqli-bəşər,
Buna bir üzgüçü lazım, ey pəsər!

*Mövlana Cəlaləddin Rumi*

Xatəmi-mülki-Süleyman elmdir,
Bu cahan surət, ona can elmdir.

*Mövlana Cəlaləddin Rumi*

Hər kəsin kim, olmadı ayineyi-vicdanı pak,
Qabil olmaz hikmətin etsin üzün zibi-nigah.

*Hafiz Şirazi*

Qaldı dilagah olanlar cilvəgahi-yardə,
Etməyən kəsbi-həqiqət qaldı ol inkardə.
Laf ilə əyləşmək olmaz məsnədi-ülviyyətə,
Hazır etməklik gərəksin alətü-ülviyyətə.

*Hafiz Şirazi*

Ləngdir hümmət ayağı, mənzil isə pək diraz,
Dəstimiz qayət gödək, xurma budağı sərfəraz.

*Sə'di Şirazi*

Bir könül asudə etmək ne'mətü ehsan ilə –
Yaxşıdır hər dəmdə min rük'ət namazından sənin.

*Sə'di Şirazi*

Varınsa gər hünər göstər, nə gövhər,
Tikandandır gülün əsli, bəradər!
Cənab İbrahimin qıl halın əzbər:*
Atası bütpərəst, oğlu pəyəmbər.
Hünərdən ari idi təb'i-Kən'an,
Pəyəmbər oğlu ikən oldu nadan.

*Sə'di Şirazi*

Nə qabil palçıq ilə örtə bilmək çöhreyi-huri,
Dəmadəm ən ziyadə parlayır rüxsari-pürnuri.

*Namə'lum*

İxtilafa üz qoyan millətləri mə'zur tut,
Görməyib həqqi, bütün uğraşdılar övham ilə.

*Hafiz Şirazi*

Saleh eylər söhbəti-kamil səni,
Fasiq eylər söhbəti-cahil səni.
Könlünü ehya qılar ərbabi-hal,
Mürdə eylər qəlbini əhli-zəlal.

*Mövlanə Cəlaləddin Rumi*

Xasslərdir vaqifi-sirri-xəfa,
Tazə bir xilqətdədir əhli-bəqa.
Var yağış bəslər gülü, gülşənləri,
Var yağış kim, soldurur gülbünləri.

Bəsləyir bağı təqazayi-bahar,
Əsdimi bari-xəzan, güllər solar.
Böyləcə qış fəsli, yay, əvvəl bahar,
Bax, təcəddüdbəxşdir həp ruzgar.

*Mövlana Cəlaləddin Rumi*

# İLHAMİ-XƏYYAM

Ömər Xəyyam ki, mədəni və dühaşünas olan millətlərin tarixində, tarixi-ədəbiyyatında xeyməzəni-əzəmət və ehtişam olmuşdur, Xəyyam zindənamdır, əbədhəyatdır, cavidani bir diriliyə malikdir...

Şirvanın, o şəhri-viranın, o xaki-xüsrannişanın laqeyd və laübalı şairi, şairi-əzimüşşə’ni deyir ki:

Mövti-cismanım ilə sanma mənim ölməyimi,
Seyyida, ölmərəm, aləmdə səsim var mənim.

Şirazın da şairi-fəyyaz və mümtazı bu şe’r ilə tərənnümsazi-həqiqət olmuşdur:

Hərgiz nəmirəd on ki, diləş zində şüd bəeşq,
Səbt əst bərcərideyi-aləm dəvam ma.

Şərq bunları və bunlar kimi pək az vücuda gələn dühati-əbədhəyatı görmədi. Çünki görmək üçün göz lazımdır!.. Fəqət kor olmayan Avropa, mə’rifətin o cahani-büləndi Sə’diləri, Hafizləri, Xəyyamları ədəbiyyatın ən yüksək və ən parlaq tarix yarpaqları ilə qucaqladı. Odur ki, Qərb denilən Avropa aləminə də səadəti-möhtəşəmə fəmgüşayi-ibtisam oldu. Qərbin dodaqlarını güldürdü və güldürür... Güldürəcək!.. Mühitindəki insanların “canlı cənazə” olduğunu pək gözəl anlayan o böyük və layəmut Hafiz deyirdi:

Qədəm driğ mədar əz cənazeyi-Hafiz
Əgərçi qərqi-günahəst mirəvəd bəbehişt.

Mən də Şirazın ədibi-fəyyazının bu günahsız şairi hüzurunda kəmali-hörmətlə əyilərək və diz çökərək deyirəm ki:

Sənin kim olduğunu bilmədi mühitin o gün,
Bu gün adın yaşayır asimani-ürfanda.
Nerdə?
Biladi-Qərb adı almış şu ərzi-rəxşanda,
O nami-möhtəşəmin parlayır o yerdə bu gün!..

Əgərçi Şərqdədir xabigahi-fəyyazın,
Günəşli qəlblər iştə sənin məzarındır,

Çiçəkli Qərb sənin parlayan diyarındır,
Durub da görsən, əya əndəlibi Şirazın!

Təbiətin əli ilə susan dəhanından
Çıxan təranələrin payəmutdur, Hafiz!

Bu daş ürəklərə olmazsa olmasın nafiz,
Gəlib də Məğribə sor şe'ri-dürfəşanından!

İştə səltənəti-hürriyyətin hökmdari-ziiqtidarı olan həzrəti-Xəyyamın əş'arı, əş'ari-hərdəmbaharı elmən, fikrən və ürfanən yüksəlmiş miləl və əqvamın dillərinə tərcümə edilmiş və ciddən də layiq olduğu məqami-büləndi ehraz eyləmişdir. Xəyyam Şərqdə binam olsa da, Qərbdə banamdır. Xəyyam Şərqi-qafildə üful etsə də, Qərbi-Şərqdə parıl-parıl parlayır və yaşayır. Mən nami-Xəyyamı yaşadan cahani-mədəniyyətə pərəstiş eylərəm...

Bu günlərdən e'tibarən o şairi-həkimin əzhari-əş'arını, əş'ari-hər an baharını tərcümə edirəm və bu gün pək xəzanzədə bir mənzərə göstərən gülşəni-ədəbiyyatımızı xəndədari-rövnəq və təravət etmək istəyirəm...

Xəyyam laqeyid və laübalıdır. O cahanbaha şe'rləri tərcümə edəcək bir cür'əti-küstaxanə göstərdiyimdən dolayı məni əfv edəcək də əminəm:

Sən içməsən, içənlərə də tə'n səndədir,
Mümkün olursa mən oluram sonra tövbəkar.
Ey içməməklə fəxr qılan şəxsi-huşyar (!)
Quldur şərab o işlərə nisbət ki, səndədir!

Alüftəyə demişdi ki, bir şeyx: məstsən,
Hər vaxt "başqa bir tor"un olursan əsiri sən!
Alüftə söylədi: nə desən mən o!... Ya ki sən?
Qəlbən də zahirin kimi təqvapərəstmisən?

Mə'rifət əhli olan kimsəyə canım qurban,
Qoyaram payina baş, gər ola bilsə imkan.
İstəyirsən biləsən ciddən əzab aləmini,
Cahilin söhbətidir iştə cahanda niran.

Keçmiş gününü heç düşünüb yad etmə,
Əndişeyi-fərda ilə fəryad etmə.
Nə maziyi xatırla, nə istiqbalı,
Halında xoş ol, ömrünü bərbad etmə.

Səndən biz, əya müfti ki, çox pərkarız,
Sərməstləriz, səndən, əvət, huşyarız.
Biz badeyi-nab içmədə, sən xuni-bəşər,
İnsaf ilə söylə: hankımız xunxarız?

Müshəf duruyor bir əldə, bir əldə də cam,
Gəh mərdi-həlaliz, gəhi mərdi-həram,
İştə şu göy altında biz ol kimsələriz:
Nə başqa yol əhliyiz, nə də müslimi-tam.

Dövründən, ey asiman ki, şadan deyiləm,
Hürrəm ki, əsir olmağa şayan deyiləm.
Biəql ilə naəhləsə şayəd meylim,
Mən də o qədər ağıllı insan deyiləm.

Ən yaxşısı, könlü mey ilə şad edəlim,
Mazi ilə atiyi də az yad edəlim.
Bu ariyət aləmində bir məhbusu –
Zənciri-xirəddən bir az azad edəlim.

Xəllaq kimi əlim irişsəydi əgər,
Bu qübbəni ortadan edərdim zail.
Bir başqa fələk bina edərdim yenidən,
İstəklərinə qolay olardı nail.

Olduqca əsirin, necə pərvaz edəyim,
Eşqinlə nasıl nəğməyə ağaz edəyim?
Bir ləhzə gözüm yaşları qoymaz gözümü –
Bir başqa üzü görmək üçün baz edəyim.

# İZAHLAR VƏ QEYDLƏR

Bu izah və qeydlərdə mətbu mətnlərin qəzet və jurnal variantı ilə kitab ("Firdovsi-ilhamat", "Eşqi-möhtəşəm"*, "Şükufeyi-hikmət", "İnsanların tarixi faciələri...", habelə "Seçilmiş əsərlər") variantının müqayisəsi zamanı meydana çıxan ideya-estetik cəhətdən ciddi fərqlər haqqında məlumat verilir.

Dövri mətbuat orqanlarında çap etdirdiyi şeirləri 1908-ci ildə özünün "Firdovsi-ilhamat" kitabına saldığı zaman Hadi onların bəzi söz və ifadələrini başqası ilə əvəz etmişdir. Bir tərəfdən "Firdovsi-ilhamat" bilavasitə şairin nəzarəti altında buraxıldığı, digər tərəfdən də şeirlərdən çoxunun oradakı redaksiyası daha yaxşı, daha kamil olduğu üçün bu nəşrdə mətnlər ona əsaslanır.

İzah və qeydlərdə əsərlərin adının qabağında onun hansı məxəzdən götürüldüyü qeyd edilir; əsərin iki ya daha artıq yerdə çap olunduğu müəyyən edilmişsə, bu nəşrlərin hamısı göstərilir. Şeirlərin yazılış tarixçəsi haqqında qəzet və jurnal səhifələrində ya hicri, ya da miladi tarixlə verilmiş bəzi əlavə məlumatlar, habelə tərcüməçi, Hadinin bu ya başqa mülahizəyə görə, mətnə daxil edilməyən qeydləri, izahları da vacib ədəbi-tarixi fakt kimi oxucunun nəzərinə çatdırılır.

Şeir məcmuələrinin, Hadinin nisbətən çox əsər çap etdirdiyi qəzetlərin və "Füyuzat" jurnalının adı bu şərti işarələrlə qeyd edilir:

"Firdovsi-ilhamat", Bakı, 1908, – "Fİ"
"Eşqi-möhtəşəm", Bakı, 1914, – "EM"
"Şükufeyi-hikmət", Bakı, 1914, – "ŞH"
"Seçilmiş əsərləri", Bakı, 1936, – "SƏ"
"Həyat" – "H"
"Füyuzat" – "F"
"Təzə həyat" – "TH"
"İqbal" – "İ"

*Səh. 19.* **Nəğmeyi-əhraranə** – "Fİ", 14-15.

1905-ci ilin dekabrındakı inqilabın təsiri ilə yazılmışdır.

*Ənəlhəq* – Mənəm Allah. Məşhur Azərbaycan mütəfəkkirləri Fəzlullah Nəimi (1340-1394) və İmadəddin Nəsiminin (1370-1417) başçılıq etdikləri hürufilik ədəbi-fəlsəfi və siyasi cərəyanının (XIII-XIV əsrlər) əsas devizi.

---

* "Eşqi-möhtəşəm" (1914) kitabının axırında Hadi yeni çapdan çıxmış şeir məcmuələrinin ("Şükufeyi-hikmət" və "Eşqi-möhtəşəm") Bakıda, Nikolayevski küçəsində Mirabbas Mirbağırovun kitab mağazasında satıldığını elan edəndən sonra "əlavə" qeydi ilə belə bir məlumat da verir: "Həyati-mətbuat səhnəsinə çıxan bu məcmueyi-əşarə əvvəlcə "Ana qucağı" ismini vermiş idik. Eyni əsərin namını dəyişərək "Eşqi-möhtəşəm" ismi ilə tövsim və nəşr etdiyimiz də əlavə ixtar olunur".

*Səh. 20. Namiq Kamal* (1840-1888) – türk ədəbiyyatı klassiki, Türkiyədə Sultan Əbdülhəmidin istibdadı əleyhinə mübarizə hərəkatının görkəmli xadimi, şair, dramaturq, publisist. "Vətən", "Röya" əsərləri, vətənpərvər ruhda lirik şeirləri XX əsrin əvvəlində Azərbaycanda çox yayılmışdır.

*Səh. 20.* **Məktəb** – "H", 11 yanvar 1906, №9; "Fİ", səh.132-133. "H"da sərlövhə: *"Məktəb nə demək? Məktəb – əxlaqü ədəbdir".*

"H"da bu şeir iki bənd çoxdur. Birinci bənddən sonra:

*Məktəb nə demək? Qafileyi-elmə cərəsdir,*
*Musalar üçün Turi-kəmalata "qəbəs"dir,*
*Fikr eyləmə avazi-həqi bir quru səsdir,*
*Aç samieyi-ruhunu, gülbangi-"ələst"dir,*
*Övladi-vətən, etmək üçün biz də təali –*
*Məktəblər açıb, kəsb edəlim elmü kəmali.*

Dördüncü bənddən sonra:

*Məktəb nə demək? Hadiyi-şahrahi-hidayət,*
*Məktəb nə demək? Cahidi-meydani-dəyanət,*
*Məktəb nə demək? Harisi-eyvani-şəriət,*
*Məktəbdir açan ümmətə bir babi-şəfaət.*
*Övladi-vətən, etmək üçün biz də təali –*
*Məktəblər açıb, kəsb edəlim elmü kəmali.*

Şerin axırında qəzetin redaksiyası "İdarədən" yarımsərlövhəsi ilə belə bir qeyd vermişdir:

*"Əfəndim! Bə'zi qit'ələrinizi təmtəraq və şəşə'eyi-əlfaziyə, qafiyə xatirəsi üçün söylənmiş olduğu üçün qəzetəyə dərc etməkdən sərfi-nəzər etdik. Eyni səbəbə mədnidir ki, axırıncı qit'ənizi külliyyən təbdil etdik və "Fikr eyləmə avazi-həqi bir quru səsdir" yerinə: "İsalar üçün meyyiti əhyayə nəfəsdir" – deməyi daha münasib gördük".*

*Səh. 21.* **Məktəb şərqisi** – "Dəbistan", 17 avqust 1906, №9; "Fİ", səh.10-12. "Dəbistan"da sərlövhə: *"Məktəb darül-ədəbdir".*

*"Dəbistan"* (1906-1908) – Bakıda iki həftədən bir çıxan şəkilli uşaq jurnalı. Naşir və redaktorları müəllimlər Məhəmmədhəsən Əfəndizadə və Əlisgəndər Cəfərzadə olmuşdur. Səhifələrində M.Ə.Sabir, A.Səhhət, H.Zərdabi, M.Hadi, F.Köçərli və başqa müəlliflərin əsərlərinə geniş yer vermişdir.

*Səh. 22.* **Birinci [Qosudarstvennaya] Dumanın in'iqadı münasibətilə söylənmişdir** – "Fİ", səh.119-121.

I Dövlət Duması 1906-cı il aprelin 27-də açıldığı üçün yazılış və ilk nəşr tarixi dəqiq məlum olmayan bu şeir 1906-cı il əsərləri daxil edildi.

*Səh. 23.* **İnsan nə ilə mükərrəm olur?** – "H", 30 avqust 1906, №91; "Fİ", səh.57.

“SƏ”də son beyt yoxdur.

*“Kərrəmna bəni-Adəm...”.* Ayədən parça. Tərcüməsi: Adəm övladını kəramətli etdik.

*Səh. 24.* **Biz nə haldayıq?** – “H”, 1 sentyabr 1906, №93; “Fİ”, səh.56-57

*Səh. 25.* **Lövheyi-təsviri-maarif** – “Dəbistan”, 2 avqust 1906, №8. Jurnalda qeyd: “Bürhani-tərəqqidən”.

*Beşikdən qəbrədək təhsil edək adabü irfani* – Quran ayəsinin sərbəst tərcüməsidir (Ütlübül elmü minəl-məhdi iləl-ləhdi). Hadidə bu ayəyə bir neçə dəfə müraciət edilir.

*Əgər Çin ölkəsində olsa cuyəndə olaq elmi* – Quran ayəsinin mənzum tərcüməsidir (Ütlübül elmə vəlov bis-Sin).

*Fəxri-aləm* – Məhəmməd. Şeirdə ona isnad verilən sözlər Qurandandır.

*“Əlfəqrü səvadül vəch”*– ərəb məsəli. Tərcüməsi: kasıblıq – üzüqaralıqdır.

*“İqrə bismi rəbbik”* – ayədən bir parça. Tərcüməsi: Allahın adı ilə oxu.

*Qövmi-nəsrani* – İsa dininə mənsub olan, xaçpərəst, isəvi, xristian.

*Bu yolda ittixaz et kəndinə rəhbər “Dəbistan”i.* “Dəbistan” sözü iki mənada işlənmişdir: a) məktəb; b) “Dəbistan” jurnalı.

*Səh. 27.* **Maarifə dair** – “Dəbistan”, 16 oktyabr 1906, №13; “Fİ”, səh.194-195.

“Fİ”də şerin son iki misrası yoxdur.

*Səh. 28.* **Qələmə** – “F”, 1 noyabr 1906, №1; “Fİ”, səh.42-43.

*“Füyuzat”* (1906-1907) – Bakıda ayda iki dəfə şəkilli nəşr olunan mətbuat orqanı. Jurnalın redaktoru Əli bəy Hüseynzadə (1864-1940), naşiri milyonçu H.Z.Tağıyev idi. Fəal əməkdaşlarından biri də M.Hadi idi.

*Səh. 29.* **Amali-tərəqqi** – “F”, 1 noyabr 1906, №1; “Fİ”, səh.44-46.

*Səh. 30.* **Qızlar bağçası** – “F”, 1 noyabr 1906, №1; “Fİ”, səh.68-69.

“F”da sərlövhə: *“Şükufəzari-bənat, yaxud qızlar bağçası”.*

Müəllif “F”dakı mətn üzərində üslub cəhətdən xeyli işləyib, şerin ahəngdarlığını artırmışdır.

*Nə gözəl söyləyib ol “məzhəri-elm”: Tərbiyətbəxşi-maarif “dəri-elm”* Bu barədə “F”da müəllifin qeydi: *“İnna mədinətül-elm və ila babha...” məfadına məzhər olan cənab Heydər Kərimullah vəch həzrətləridir.*

*Səh. 31.* **Amali-istiqbal** – “F”, 13 noyabr 1906, №2; “Fİ”, səh.76-77. “F”da sərlövhə: *“Amali-istiqbal, yaxud Ümid və əməllər”.*

Bu misra “Fİ”da yoxdur.

*Amali-təfəyyüzlə...* sözü ilə başlanan bu misra “Fİ”da yoxdur.

*Ümmidlə yazdım sizə atidəki “bənd”i* misrasından sonrakı şeir parçasının yerinə “F”da nəsrlə bu sonluq verilmişdir:

*“Ümid insan üçün pək böyük və pək müqəddəs olan bir istinad-gahi-mətindir. İnsan bir teyri-ülvipərvaz təqdir olunsa, ümid onun fəzayi-ülviyyətidir, insaniyyət o fəzada teyran edir.*

*Cəmiyyəti-bəşəriyyə bir seyli-xüruşan hesab olunsa, əməl, ümid onun məcrasıdır, seylabi-bəşəriyyət onda cərəyan edir.*

*Əhli-aləm bir küreyi-zatüləcza fərz olunsa, ümid onun xətti-hərəkətidir, insaniyyət küreyi-məfruzəsi onda dövran edir.*

*Fəzayi-layətənahi-aləmdə icrayi-dövrü hərəkət edən kürələrdən, əcramdan hansı olursa olsun, dairəsindən çıxacaq olursa, məhv olacağı nə qədər həqiqi, nə qədər təbii isə, bəşəriyyət də mərkəzi-əməl, məhvəri-ümiddən xaric olursa, məhv və bərbad olacağı o qədər təbii bir həqiqətdir.*

*Demək ki, ümid həyati-noi-bəşərdir. Mövcudiyyət fəqət ümidlə tə'min olunur.*

*Ümid nədir?*

*Fransa üdəbayi-məşhurəsindən Viktor Hüqonun atidəki kəlamını nəzəri-diqqətdən keçiriniz. İştə ədib deyir:*

*"Həyat həqiqətlə, mövcudiyyət də xəyal və ümidlə qaimdir. Həyatla mövcudiyyət arasındakı fərqimi soruşursunuz?*

Bəli, heyvanlar yaşar, insanlar isbati-vücud eylər.

*Mövcud olmaq anlamaqdır, mövcudiyyət zəmani-halə təbəssüm etmək, gələsiyə (oxu: gələcəyə – Ə.M.) ümid və intizarda bulunmaqdır. Mövcud olmaq pis və yaxşıyı müvazinə etmək, çəkmək üçün bir mizani-müstəqimə malik olmaqdır. Mövcud olmaq ədalət, həqiqət, əql və hikmət, əmniyyət, doğruluq, istiqamət, xülusi-qəlb, gözəl hissiyyat, hüquqpərvəri, vəzaifşünasi kimi xəsaisi-insaniyəyi bir mərkəzə, yə'ni qəlbə cəm edərək mıxlamaqdır. Mövcud olmaq insan öz qiymətini, dəyərini bilmək, iqtidarını tanımaq, vəzifəsində qüsur etməməkdir. Mövcudiyyət vicdandır, vicdan isə ümidlə, əməllə qaimdir...".*

*İşdə ədibi-müşarileyhin sözündən anlaşılan budur ki, mövcudiyyət ümidlə bəqapəzir olur. Nə müqəddəs kəlam, nə ali fikir!".*

*Bu sözlərdən sonra "Fİ"dakı dörd misralıq sonluq, daha sonra isə yuxarıdakı bəhsin davamı gəlir.*

*"Düşünəlim! Meydani-mübarizeyi-həyatda insanları yek-digərinə rəqabət edərcəsinə son dərəcə çalışmaya məcbur edən amali-tərəqqi-cuyanə deyilmidir, əcəba?*

*Bir fərdi, bir milləti, bütün aləmi-bəşəriyyəti ülviyyatın ən bala, ən vüs'ətli fəzasına fəshətcahi-cəbərutun namütənahi nöqtələrinə is'ad edən əməldən, ümiddən başqa bir şeymidir? Ümid bir vasiteyi-təali, bir rəhbəri-təkamüldür ki, noi-bəşər ondan heç bir zaman müstəğni olmuyub və hala olamayır və bundan sonra olamaz.*

*Mədəniyyət aləmində zibi-ənzari-hürriyyət olan bunca maarif, bədaye, sənaye, bütün asari-imranpərvəranə bariqeyi-ümidin şəşə'ələri, şəcəreyi-amalın, meyveyi-həlavətbəxşası deyilmidir?*

*Sineyi-ərzdə mədfun sərvəti-təbiiyyəyi meydana çıxaran, təbiətin ən dəqiq və müzlim əsrari-xəfayasını açan ənvari-ümiddən başqa nədir?*

*Üzərində yaşadığımız dünyanın əraziyi-məchuləsini kəşfə müvəffəq olan nuri-əməl, şövqi-arzu, sayiqeyi-ümid deyilmidir?*

*"Kəşf" sözü gələndə Amerika qit'əsinin kaşifi-həqiqisi bulunan Kristof Kolumbu dərxatir etməmək əldən gəlmir. Ümid və əməlin timsali-mücəssəmi olan şu dahi ürəyində bəslədiyi bir ümidi-cəhan-pəsəndanə ilə milyon sənələrdən bəri pərdeyi-xəfada qalmış bir qit'əyi kəşfə müvəffəq olaraq əski dünyamıza təzə bir dünya – "yeni dünya" bəxş və əlavə eylədi".*

Amerikanın kəşfi və Xristofor Kolumb haqqında bu sözlər o zamankı konsepsiya olub, artıq köhnəlmişdir. Ətraflı məlumat üçün bax: *Большая Советская Энциклопедия, т. 24, кн. 1, Москва, 1976, "США" sözü.*

*Səh. 32.* **Təraneyi-qəmpərvəranə** – "F", 13 noyabr 1906, №2; "Fİ", səh.34-35. "F"da sərlövhədən qabaq: *"Abdulla Cövdət həzrətlərinə peyrov ola bilərmiyəm?".* İmza: *Şirvanzadə.*

*Abdulla Cövdət* (1869-1932) – Türkiyə ictimai xadimi, həkim, yazıçı və jurnalisti. "İttihad və tərəqqi" firqəsinin təşkilatçılarından biri, İsveçrə, Qahirə və İstanbulda çıxan "İctihad" jurnalının redaktoru.

*Olurmu ədl ilə* sözləri ilə başlanan misradan sonrakı *bu beyti* "Fİ"df yoxdur. Çox güman ki, çar senzurası "sitəmpərvərlər"ə, yəni istismarçılara nifrət, məzlumlara rəğbət hissi ilə yazılmış bu beytin nəşrinə icazə verməmişdir.

*Səh. 34.* **Mənaziri-təbiət** – "F", 26 noyabr 1906, №3; "Fİ", səh.22-23. "F"da sərlövhə: "*Bədaye*".

Şerin "F"dakı mətnində olan *rəbbani, vəhdəti, mövladır, vəhdət, vəchullah, ilahi* kimi sırf dini məfhumların "Fİ"da müvafiq olaraq *ya Musa, xilqəti, mə'nadır, hikmət, hürriyyət, həqiqət* kimi əsasən fəlsəfi və siyasi məzmunlu sözlər və bədii surətlərlə əvəz edilməsi müəllifin dünyagörüşünün inkişaf istiqaməti, bəzi yeni, mütərəqqi cəhətləri haqqında təsəvvür yaradır. Şairin müəyyən dərəcədə dini dünyagörüşündən uzaqlaşmaq cəhdi diqqəti cəlb edir.

*Səh. 34.* **Kitabi-həyat** – "F", 26 noyabr 1906, №3; "Fİ", səh.23-26.

"Fİ"da şerin beş, səkkiz və onuncu bəndlərinin son misrasında müəllif qafiyə sistemində dəyişiklik yaratmışdır.

*"Məntiqüt-teyr"* – XIII əsr fars-tacik sufi şairi Şeyx Fərid əddin Əttarın məşhur əsəri.

*Səh. 36.* **Bədayeyi-təbiət** – "Dəbistan", 7 dekabr 1906, №16, səh.5; "Fİ", səh.193-194.

*Səh. 37.* **Hissiyati-madəranə** – "F", 8 dekabr 1906, №4; "Fİ", səh.85-86. "F"da sərlövhə: *"Hissiyyati-madəranə və yaxud Övlad bəsləmək hissləri".*

*Səh. 39.* **El fəryadı** – "Təkamül", 16 dekabr 1906, №1; "Fİ", səh.85-86. "Təkamül"də imza: *həqiqətpərvər.*

*Səh. 40.* **İsmət, yaxud Əfif olan zatların xəsaili** – "F", 18 dekabr 1906, №5; "Fİ", səh.38-39.

*Nəmrud* – qədim Babilistanın əfsanəvi hökmdarı. Üzügülməz, çox sərt, daşürəkli adam rəmzi kimi yad edilir.

*Ziya paşa* (1825-1880) – türk klassik şerində mütərəqqi ideyaların qüvvətlənməsində mühüm iş görən lirik şair.

*Səh. 42.* **Tövsiyyeyi-mürğ** – "F", 29 dekabr 1906, №6; "Fİ", səh.105-106. "F"da sərlövhədən qabaq: *"Dəli şairə, dəlilər mühübbü olan bir quşun köməyi".* İmza: *Dəlilər mühübbü.*

Bakıda çıxan "Təzə xəbər" qəzetinin 6 iyun 1912-ci il tarixli 17-ci nömrəsində bu şeir eyni adla "S.Nağızadə (Naseh)" imzası ilə dərc edilmişdir. Şerin altında redaksiya istehza ilə belə bir qeyd verib: "*İdarə* – Nağızadə (Naseh) cənablarının "Əş'ar"ını dərc elədik. Fəqət bu əş'arın eyni Qafqasiya şüərayi-hazirəsindən olan Məhəmməd Hadi Səlimzadənin "Firdovsi-ilhamat" nam əsərinin 105-106-cı səhifələrində bundan beş sənə əqdəm dərc edilmişdir. Fəqət biz bilməyoruz, əcəba, bu cənabların hankısı biri digərindən intihal eyləmiş və bunlardan hankısı "Sirqəti-şe'r edənə qət'i-zəbandır fətavayi-süxən" məzmunilə məhkumdurlar? Burasını qar'elərin mühakiməsinə tərk ediyoruz".

*Sirqəti-şe'r edənə qət'i zəban vacibdir* (Şeir oğurlayanın dilini kəsmək vacibdir) misrası məşhur türk şairi Nəfinindir.

*... nəssi – "təhkumu bilədl"* – ayədən parça tərcüməsi: [gərək] ədalətlə hökm edəsiniz.

*Səh. 43.* **Təbriki-eydi-əzha** – "F", 12 yanvar 1907, №7; "Fİ", səh.123-126. "Fİ"da sərlövhə: *"Eydi-əzhanın hülulu münasibətilə söylənmişdir".*

*Seyyidül-kövneyn* (hər iki dünyanın başçısı) – islam peyğəmbəri Məhəmməd peyğəmbərə (570-633) işarədir.

*Bu Əli* – məşhur tacik-İran alimi Əbu Əli Sina (980-1037). Fəlsəfə, təbabət, riyaziyyat, fizika və s. elmlərə dair klassik əsərlər ("Danişnamə", "Qanuni-tibb" və s.) müəllifi.

*Fəxr Razi* (h. 544-606) – orta əsrlərin bir çox başlıca elmlərinə (fiqh, kəlam, ədəbiyyat, tibb, riyaziyyat və s.) aid 85 cild əsər yazmış Fəxrəddin Razi.

*Mövlana Qəzali* (1530-1572) – Hindistanda yaşamış məşhur farsdilli şairlərdən biri. "Məşhədi-ənvar", "Nəqşi-bədi", "Qüdrəti-asar" kimi poemaların və bir neçə divanın müəllifi.

*Cəlaləddin Rumi* (1197-1273) – məşhur türk mütəfəkkir şairi. Yaxın və Orta Şərqdə geniş yayılmış sufi təriqəti "Movləvi"liyin banisi, Şərq panteizminin görkəmli nümayəndəsi.

*Sənai Əbülməcid Məcdud ibn Adəm Qəznəvi* (təxm. 1080/81 - 1140/41) – orta əsr fars-tacik poeziyasının klassiki, "Hədiqətül-həqaiq", "Eşqnamə", "Əqlnamə" və s. məşhur əsərlərin müəllifi.

*Sə'di Şirazi* (1184-1291) – fars-tacik ədəbiyyatının klassiki, məşhur "Gülüstan" və "Bustan" əsərlərinin müəllifi.

*Bəhai* – XIX əsrin ikinci yarısında İranda bəhailik təriqətini əsaslandıran Mirzə Hüseynəlinin (1817-1894) ləqəbi. Bu təriqətin əsasları Bəhaullanın "Kitabi-əqdəs" əsərində şərh olunmuşdur.

*Səh. 45.* **Təraneyi-milli** – "F", 12 yanvar 1907, №7; "Fİ", səh.49-51.

*Ricalın himməti-mərdanəsi qəl'i-cibal eylər* – məşhur atalar sözlərindən biridir. Mənası: kişilər əl-ələ versələr, dağı yerindən qopardarlar.

Bu atalar sözündən M.Ə.Sabir də istifadə etmişdir:

*Kişilər himməti dağı qopar,*
*Kişi ol, dağ qopar həmiyyət ilə!*

*M.Ə.Sabir. "Hophopnamə". Üç cilddə. 3-cü cild, Bakı, 1965, səh. 103.*

*...zəllə sə'yühüm.* Ayədən bir parça. Tərcüməsi: səyləri onları zəlalətə saldı.

Şerin yeddinci bəndindəki *Olur infaq...* misrası haqqında Hadinin qeydi: "Ən sevgili, ən məhəbbətli mal-mülkünüzdən bəxş və infaq qılmayınca ne'məti-ilahiyyə kəsbi-nailiyyət edəməzsiniz" ayəsinə işarətdir".

*Səh. 45.* **Bülbül** – "F", 25 yanvar 1907, №8; "Fİ", səh.83-84.

*Səh. 48.* **Vətənin nidası** – "Dəbistan", 26 yanvar 1907, №1; "Fİ", səh.62. Jurnalda sərlövhə: *"Ricayi-vətən".*

*Səh. 49.* **Fəzaili-insaniyyə** – "F", 7 fevral 1907, №9; "Fİ", səh.78-79. "F"da sərlövhədən qabaq: *"Bir müqəddimə".*

"Fİ"da müəllifin qeydi: *"Dövlət dumasında* (II Duma – *Ə.M.*) *cəm olan millət məb'uslarına xitabdır".*

Hadinin dumalara həsr olunmuş şeirləri onun hissə qapılıb bu siyasi təsisata həddindən artıq ümid bağladığını göstərir.

*Səh. 50.* **Saqiyə bir niyazi-ricaməndanə** – "F", 5 fevral 1907, №9; "Fİ", səh.35-36. "F"da sərlövhə: *"Saqiyə bir ricayi-niyazməndənə".*

*Səh. 50.* **Pəriyi-vicdan** – "F", 20 fevral 1907, №10.

"F"dakı başqa şeirlərdən fərqli olaraq, bu şeir "Fİ"a daxil edilməmişdir. Buradakı azadlıq həsrəti, azadlıqsevənlərin dara çəkilməsi (*Zinəti-dar oldu eşqin ilə əhrarın səri*), istibdad oxlarının ürəkləri qəmlə yaralaması (*Zəxmdari-hüzndür dil tiri-istibdaddən*) kimi motivləri nəzərə alaraq bu işdə senzuranın əli olduğunu güman etmək mümkündür.

*Səh. 51.* **Arzuyi-dil** – "Dəbistan", 21 fevral 1907, №3; "Fİ", səh.79-81.

İkinci Dövlət Duması deputatlarına müraciət şəklində yazılmış bu şeir bir gün əvvəl (20 fevral 1907) "F"ın 10-cu nömrəsində "Fəzaili-insaniyyə". "Məb'uslarımıza bir xitab" sərlövhəsi ilə çap olunmuşdur. Lakin orada şerin ilk səkkiz misrası və axırıncı beyti yoxdur.

*Yuh* – şair "F"da bu sözü belə izah edir: *Günəş isimlərindən bir isimdir.*

*Sanma şəxsiyyət-pərəstan* sözləri ilə başlanan beyt "F"da belədir:

*Zibi-ədlü dad ilə pirayədar olsun vətən,*
*Haizi-şə'nü şərəfbar, xüldzar olsun vətən.*

*Səh. 52.* **Sevgili şagirdlərimizə ərməğan** – "Dəbistan", 6 mart 1907, №4; "Fİ", səh.10. "Fİ"da sərlövhə: "Şagirdanə ərməğan".

*Səh. 53.* **Bir əməlim** – "F", 15 mart 1907, №12; "Fİ", səh.73-76. "F"da sərlövhənin altında: *Məni mükəddər edən var könüldə bir əməlim.*

*Riyazi-fikrimi yandırdı badi-istibdad* – misrasındakı badi-istibdad əvəzinə "Fİ"da: sərsəri-bidad.

*Səh. 55.* **Lövheyi-bahar** – "F", 24 mart 1907, №13; "Fİ", 111-113.

M.Ə.Sabir "Çığırma, yat!" satirasını bu şerə parodiya şəklində yazmışdır. "Hophopnamə", 1-ci cild, Bakı, 1962, səh. 89.

*Səh. 57.* **Şirvan xatiratı.** *Rövşəneyi-leyldə bir xərabəzarın mənzərəsi* – "F", 7 aprel 1907, №14; "Fİ", səh.94-96.

*Xaqani Əfzələddin* (1120-1199) – klassik Azərbaycan şairi, Nizami Gəncəvinin müasiri, məşhur "Mədain xərabələri", "Töhfətül-İraqeyn" ("İki İraqın töhfəsi") və "Həbsiyyə" poemalarının, fəlsəfi-ictimai motivlərlə zəngin olan qəsidə, qəzəl və s. əsərlərin müəllifi.

*Seyyid* – XIX əsr görkəmli Azərbaycan maarifçi şairi və satiriki, M.Ə.Sabirin müəllimi Seyid Əzim Şirvani (1844-1888).

*Bixud Mollağa* (1830-1892) – Azərbaycan şairi, S.Ə.Şirvaninin başçılıq etdiyi "Beytüs-Səfa" ədəbi məclisinin fəal iştirakçısı.

*Bahar Şirvani* (1835-1883) – ərəb, fars, türk, fransız dillərini öyrənmiş azad məsləkli Azərbaycan şairi Mirzə Nəsrullah Bahar Şirvani. İranda "Şairlər şahı" olmuşdur.

*Səh. 59.* **Facieyi-həyatımızdan bir pərdə** – "F", 29 aprel 1907, №16; "Fİ", səh.52-55.

Namiq Kamalın *Görüb ehkami-əsri münhərif sidqü səlamətdən, Çəkildik izzətü iqbal ilə babi-hökumətdən,* – mətləli məşhur "Qəsideyi-qərra"sına nəzirədir.

*Sədayi-"Ərrəhil" iyqaz qıldı cümlə əqvamı. Ərrəhil* – köçmək mənası daşıyan rehlət sözündəndir. Keçmişdə karvanın yola düşməsini xəbər verən nida.

Misranın mənası: Köçmək nidası bütün qövmləri (camaatı) oyandırdı.

*Musa* – Yəhudilərin peyğəmbəri (Bibliyada: Moisey). Bibliya (Tövrat və İncil) əfsanəsinə görə, Misir hökmdarı Fironla uzun mübarizədən sonra öz "möcüzələri" sayəsində peyğəmbərliyə yetişmişdir. Həmin "möcüzə"lər bunlar imiş: əlini qoltuğuna salıb çıxartdıqda işıq verərmiş, əsasını yerə atdıqda ilan (ya əjdaha) olarmış və s. Guya Allah Sina dağında güclü işıq halında görünüb Musa ilə söhbət etmiş və ona möcüzələr yaratmağı öyrətmişdir.

*Dirəxti-elmdən qıl iqtibasi-feyzi-hürriyyət* misrasının axırındakı *hürriyyət* sözünün "F"da *qüdsiyyət, Gəlib azad qıl əqvamı Fir'oni-əsarətdən* misra-

sının axırındakı *əsarətdən* sözünün isə *zülmətdən* olduğunu nəzərə alaraq müəllifin "Fİ"ı çapa hazırlarkən bu şerində siyasi məzmunu, azadlıq motivini qüvvətləndirməyə çalışdığı anlaşılır.

*Rəbb işrəh li sədri* – ayədir. Tərcüməsi: Pərvərdigara, mənim sinəmi (fəzilətlə) doldur.

*Açıb guşi-dəruni...* misrası ilə əlaqədar müəllif qeydi: "Bu fədakar islam fatehlərindən məşhur Musa ibn Tariq həzrətləridir. Bir vaxt mücahidəsi əsnasında sahili-bəhrə yetişərək demişdir ki, "ilahi, bu ümmani-bigiranın pişgahi-əzimətimə mane olmasaydı, ismi-cəlalını o biri tərəflərə qədər irsal edərdim".

*Səh. 61.* **Amali-vicdan** – "F", 16 may 1907, №17; "Fİ", səh.106-108.

*Səh. 62.* **Təxəttüri-mazi** – "F", 25 may 1907, №18; "Fİ", səh.102-103.

Məşhur fars-tacik klassik şairi Hafiz Şirazinin (1300-1389) şerinə nəzirədir.

*Səh. 63.* **Ulduzlara** – "F", 25 may 1907, №18; "Fİ", səh.103-104. "F"da sərlövhəsizdir. "Təxəttüri-mazi" şerinin ardınca verilmişdir.

*Səh. 65.* **Molla Nəsrəddinə** – "İrşad", 7 iyun 1907, №106.

*Nisviyyəti insanlığa şayanmı sanırsan?* – misrası ilə başlanan səkkizinci bənd vəzn və üslubca M.Ə.Sabirin bir az əvvəl (26 may 1907) "Molla Nəsrəddin" jurnalında çap etdirmiş olduğu məşhur "Fəhlə, özünü sən də bir insanmı sanırsan?" (*"Hophopnamə", 1-ci cild, Bakı, 1962, səh. 97*) satirasının təsiri ilə yazılmışdır.

Birinci rus inqilabı dövründə ortaya çıxan mühüm ictimai problemlərdən biri qadının cəmiyyətdə mövqeyi və rolu idi. Azərbaycan mətbuatı səhifələrində qadın hüququ, çadra örtmək ("hicab", "təsəttüri-nisvan"), qız təhsili və s. bu kimi məsələlər ətrafında gedən qızğın mübahisələrdə bir-birinə zidd iki cəbhə əmələ gəlmişdi: a) qadının kişi ilə hüquq bərabərliyi, çadranı atması, təhsil alması tərəfdarı olan tərəqqipərvər ictimai-ədəbi qüvvələr; b) qadın ləyaqətini inkar və təhqir edən, "hicab"ı müdafiə və tərif edən dini-feodal səciyyəli ictimai-ədəbi təmayül.

Birincilər cərgəsində olan M.Hadi bu mövzuda dönə-dönə məqalə və şeirlər yazmışdır. Onun "Eşqi-möhtəşəm" adlı şeirlər məcmuəsi isə tamamilə bu mövzuya həsr olunmuşdur.

*Səh. 67.* **Bükayi-təbiət** – "F", 12 iyun 1907, №19; "Fİ", səh.47-49.

Şerin ikinci bəndinin dördüncü, üçüncü bəndinin isə birinci misralarının yerinə həm "F", həm "Fİ"da nöqtələr düzülməsi belə bir ehtimal yaradır ki, yəqin senzura həmin misraları siyasi məzmununa görə qadağan etmişdir. *Qabili-ətfa deyilkən nuri islamiyyətin* misrası ilə başlanan altıncı bəndin "F"da olmaması da bu ehtimalı qüvvətləndirir.

*Müslihəddin* – Sədi Şirazi.

*"Dər təriqət dəm nəmibayəd qədəm bayəd qədər".* Tərcüməsi: təriqətdə söz yox, əməl (iş) lazımdır.

*Zülfiqar* – Şiələrin birinci imamı Əlinin ləqəbi.

*Səh. 68.* **Nəvayi-rindanə** – "F", 2 iyul 1907, №21; "Fİ", səh.43-44.

*Əgər mə'mulun isə...* sözləri ilə başlanan beyt "F"da yoxdur.

*Səh. 69.* **Axşam tənəzzöhləri** – "F", 23 iyun 1907, №20; "Fİ", səh.113-118.

*Çocuqlar olmada...* sözləri ilə başlanan və sonrakı bir neçə beytdə Hadi Azərbaycanda "ruznameyi-şam" (axşam qəzeti) çap olunmamasına təəssüf edir.

*Səh. 72.* **Dad istibdaddan!** – "Yoldaş" qəz., 2 avqust 1907, №1; "Fİ", səh.86-87. "Yoldaş"da sərlövhə: *"Camaata ithaf".*

Müəllif sərlövhə və mətndə əsərin ideya məzmununu xeyli kəskinləşdirən redaktə işi aparmışdır. Fərqlərdən ən əhəmiyyətliləri aşağıda göstərilir:

İkinci beytin ikinci misrasındakı *yoxdur* sözü "Yoldaş"da: *yoxmu.*

*"Layəs'əl"* – ayədən söz. Tərcüməsi: sual olunmaz.

*Keyfi idarə* – o zaman çar bürokratik üsuli-idarəsinə deyilirdi.

*Əshabi-fəqr olmada qurbanı zillətin* misrasındakı *fərq* "Yoldaş"da: *elm.*

*Səh. 73.* **Həsbhal, yaxud bizim Hadinin iztirabı** – "F", 15 avqust 1907, №25. İmza: Füyuzati.

Hələ 1905-1906-cı illərdən Azərbaycan oxucuları Hadinin öz əsərlərini çox ağır dildə yazmasından şikayətlənməyə başlamışdılar. Onlar bu barədə şairin özünə məktublar yazır, qəzetdə tənqidi qeydlər çap etdirirdilər. Bu şerin başlanğıcında Hadi həmin məsələdən danışır.

*Qaani* – XIX əsr fars şairi Mirzə Həbib Şirazi (Qaani) əsərlərini çox vaxt təmtəraqlı bir üslubda yazmışdır. M.F.Axundov onun yaradıcılığındakı formalizm təzahürlərini kəskin tənqid etmişdir.

*...Şuşada bir sərsəmin xurafati, Səhifələr ilə məşğul edər "Füyuzat"i!* – Şuşalı şair, vaxtilə X.Natəvanın başçılıq etdiyi "Məclisi-üns" şairlər məclisinin üzvü İbrahim Tahirin (1862-1943) "Füyuzat" səhifələrində çıxmış şeirlərinə işarədir. Hadinin bu ifrat subyektiv münasibəti eyni zamanda İ.Tahirin Azərbaycan ədəbi dilinin saflığı mövzusunda yazdığı məqalələrdən irəli gəlmişdi.

"Füyuzat", xüsusilə onun əməkdaşı, Bakıya Türkiyənin "İttihad və tərəqqi" firqəsi tərəfindən göndərilmiş Əhməd Kamal İ.Tahirin əleyhinə hücum kampaniyası açmışdı. Bax: "F", 12 iyun 1907, №19; 3 iyul 1907, №21.

*Bu yanda bir "dekadan" zülməti-xəyalilə...* – XX əsrin əvvəllərində Rusiya və Qərbi Avropa ədəbiyyatında çox yayılmışdır. Azərbaycanda da bəzi şairlərin yaradıcılığında özünü göstərən dekadentçilik tənqid olunmuşdur. Dekadentçilik realist ədəbiyyata, sənətdə xəlqiliyə zidd idi.

*O yanda bir dəli doktor vücudi-islami, mərizə bənzədir!..* – Əli bəy Hüseynzadənin "Füyuzat" jurnalının 1907-ci il 17, 18 və 20-ci nömrələrində çap olunmuş "Məcnun və Leylayi-islam" adlı bədii-publisist əsəri nəzərdə tutulur. Bu əsərdə müsəlman aləmi xəstə bir qıza bənzədilmişdir.

*Səh. 75.* **Gözlərin** – “F”, 8 sentyabr 1907, №26; “Fİ” səh.99-101.

“Vəscüd, vəqtərib – ayə. Tərcüməsi: səcdə elə və (Allaha) yaxın ol.

*Səh. 76.* **Bir aşiqi-hürriyyətin ehtisasati-ruhiyyəsini təsvir və iraə edən bir lövhədir** – “F”, 8 sentyabr 1907, №26; “Fİ”, səh.101-102. “Fİ”da sərlövhə: “Bir aşiqi-nazənini-vətənin ehtisasati-ruhiyyəsini təsvir və iraə edən bir lövheyi-ğiram”. Deməli, ilk sərlövhənin şeirdəki azadlıq ideyasına müvafiq olan “aşiqi-hürriyyət” surətini “Fİ”dakı sərlövhədə ancaq lirik-vətənpərvərlik səciyyəsi daşıyan “aşiqi-nazənini-vətən” surəti əvəz etmişdir.

*Səh. 77.* **Əlvida, yaxud acı bir iqrar** – “F”, 1 oktyabr 1907, №32; “Bürhani-tərəqqi” qəz., 18 noyabr 1907, №1.

Şeir “Füyuzat” jurnalının bağlanması münasibətilə yazılmışdır.

*Səh. 78.* **Nəyimiz var?** – “İrşad”, 17 noyabr 1907, №114.

*Səh. 79.* **Mücahidi-millət Həsənbəyin ruhuna ithaf** – “TH”, 17 dekabr 1907, №197; “Fİ”, səh.17-20.

Şeir məşhur Azərbaycan maarifçisi, alimi və ictimai xadimi Həsən bəy Zərdabinin (1844-1907) ölümü münasibətilə yazılmışdır.

*“Əkinçi”* – ilk Azərbaycan qəzeti. 1875-1877-ci illərdə Həsən bəy Zərdabinin redaktorluğu ilə nəşr olunmuşdur. Azərbaycan ictimai-fəlsəfi, elmi və bədii fikrinin inkişafında böyük rol oynamışdır.

*Səh. 81.* **Dünya saheyi-qəmdir** – “Dəbistan”, 1907, №4; “Fİ”, səh.33.

*Yusif* – kənanlı Yəqub peyğəmbərin oğlu. Atasını çox istədiyi üçün qardaşları paxıllıq edib onu quyuya atmışlar. Başı çox bəlalar çəkəndən sonra Misirin hakimi olmuş və vaxtilə onu həbs etdirən Züleyxa ilə evlənmişdir. Şərq ədəbiyyatında gözəllik və başıbəlalı aşiq rəmzi kimi işlənir.

*Yə’qub* – yəhudi peyğəmbərlərindən İbrahimin nəvəsi. İshaqın oğlu. Şərq ədəbiyyatında oğul fərağı görmüş dərdli ata rəmzi kimi işlənir.

*İbrahim* (İbrahim Xəlil) – dini əsatirə görə, yəhudi peyğəmbərlərindən biri. Bütpərəstlik əleyhinə təbliğat apardığı, bütxanalardakı bütləri vurub dağıtdığı və ədalət tərəfdarı olduğu üçün Babil hökmdarı I Nəmrud tərəfindən oda atılmış, lakin nəinki od onu yandırmış, əksinə, od qalağı çiçəkli bir bağa dönmüşdür.

*Yəhya* – İsadan qabaqkı peyğəmbər. Əsatirə görə, ədalətli və xeyirli sözlər dediyi üçün bəni-İsrail (yəhudi) padşahı tərəfindən öldürülmüşdür.

*Musa* – səh. 59-a aid izaha baxmalı.

*Fir’on* – qədim Misir hökmdarlarının adı.

*İsa* – din tarixinə görə, xristianlığın əsasını qoymuş peyğəmbər. Guya miladi tarixin ilk ilində Fələstində doğulmuş, yəhudilər tərəfindən “Musanın qanunlarını təhrif etməkdə” təqsirləndirilib dara çəkilmişdir. Xristian və islam dininə görə, İsa ölməmiş, göyün dərinliklərinə qalxmışdır. Onun bir sıra möcüzələr göstərdiyi rəvayət olunur (məsələn, o, nəfəsi ilə ölünü dirildirmiş, anadangəlmə korların gözünü açırmış).

*Əhməd* – islam peyğəmbəri Məhəmmədin ləqəblərindən biri.

*Sokrat* (e.ə. 469-399) – cahanşümul yunan filosofu, dövlət tərəfindən qəbul edilmiş dini inkar etməkdə təqsirləndirilib, bir kasa zəhər içməyə məhkum edilmiş və öldürülmüşdür.

*Mənsur Həllac* (?-918) – Məşhur sufilərdən biri. Şəriət əleyhinə çıxdığı üçün Bağdadda edam edilmişdir. Dara çəkiləndə "Ənəlhəqq!" (Mən Allaham!) demişdir. Şərq ədəbiyyatında fədakarlıq rəmzi kimi işlənir.

*Fərhad, Şirin* – Şərq ədəbiyyatında, Leyli və Məcnun, Vamiq və Əzra kimi məşhur aşiq və məşuqə surətləri.

*Səh. 83.* **Kimdən kimə şikayət edəlim?** – "TH", 9 yanvar 1908, №7; "Fİ", səh.27-28. "Fİ"da sərlövhədəki şikayət əvəzinə: şikva.

*Səh. 84.* **Ədibi-şəhir Həsən bəyin ruhuna ithaf** – "TH", 10 yanvar 1908, №8; "Fİ", səh.27.

*Səh. 85.* **Rəhgüzari-mətbuatda bir şükufeyi-məarif** – "TH", 10, 11 fevral 1908, №32, 33; "Fİ", səh.64-67.

M.Ə.Sabirin "Rəhgüzari-məxluqatda bir möhtaci-məsarif" adlı satirik şeri Hadinin bu şerinə parodiyadır. "Molla Nəsrəddin" jurnalının 9 mart 1908-ci il tarixli 10-cu nömrəsində çap olunmuş həmin satiranın ilk bəndi belədir:

*Ey dərbədər gəzib ürəyi qan olan çocuq!*
*Bir löqmə nan üçün gözü giryan olan çocuq!*
*Əşkilə abrusu da rizan olan çocuq!*
*Mətlubi nan, qazandığı hirman olan çocuq! və i.a.*

*M.Ə.Sabir. "Hophopnamə". 3-cü cild, Bakı, 1965, səh. 39-40.*

*Səh. 87.* **Təsviri-bədaye** – "TH", 27 aprel 1908, №94; "Fİ", səh.152-154.

*Səh. 89.* **Nəvəhati-həyat** – "TH", 30 aprel 1908, №97; "Fİ", səh.157-158.

Bu şerin bəzi motivlərini Hadi sonralar, 1918-1919-cu illərdə yazdığı əsərlərdə, xüsusilə "Əlvahi-intibah" poemasında yenidən işləyib, geniş surətdə inkişaf etdirmiş, dərinləşdirmişdir.

*Səh. 90.* **Şərareyi-ruh** – "TH", 17, 23 mart, 5 may 1908, №61, 65, 100; "Fİ", səh.141-146.

Qəzetdə şerin sərlövhəsindən əvvəl qeyd: *"Əş'ar. Vətəncida bir dağdarihəsrətin ə'maqi-ruhundan fəvəran edən atəşin təraneyi cigərsuzanələrinə nəzirə".*

*İmam Cümə* (*Hacı Mirzə Həsən*) – 1906-1911-ci illər İran inqilabı zamanı Təbrizin tanınmış ruhanilərindən biri. Əvvəlcə inqilabçılara yaxınlaşmış, sonra onlara xəyanət edib, irtica cəbhəsinə keçdiyinə görə xalqın tələbi ilə şəhərdən qovulmuşdur. "Molla Nəsrəddin" jurnalında kəskin satira atəşinə tutulmuşdur.

*Şeyx Fəzlullah* – XX əsrin əvvəlində İranda məşrutə hərəkatı əleyhinə mübarizə aparan qaragüruhçu müctəhidlərdən biri. Məşrutəni "xilafi-şəriət", inqilabçıları "kafir" adlandırırdı.

*Səh. 94.* **Mələkim, nədir o?** – “TH”, 8 may, 1908, №103; “Fİ”, səh.139-141.

Birinci misra haqqında “Fİ”da müəllif qeydi: *“Birinci şe’r ustad Əkrəmin “Feyzi-bahardır dəhanindən uçan ziya, bəklər çiçək açılmaq üçün ibtisamını”* şe’ri-ilhampərvəranəsindən iqtibas edilmişdir.

“TH”da son dörd misra yoxdur.

*Səh. 95.* **Təraneyi-vətənpərəstanə** – “TH”, 13 may 1908, №107. İmza: *Vətənpərvər.*

Şeir İran inqilabına həsr olunmuşdur.

*Mirhaşım* – İran inqilabı zamanı xalqa xəyanət edən din xadimi. 1908-ci ildə inqilabçılar tərəfindən edam edilmişdir.

*Haman* – rəvayətə görə, Misirdə Musa peyğəmbərin vaxtında Fironun vəziri olmuşdur. Şərq ədəbiyyatında qaniçən, zalım rəmzi kimi işlənir.

*Gavə, Zöhhak* – əsatirə görə, Zöhhak qədim İranın zalım padşahlarından biri, Firdovsinin “Şahnamə”sində mənfi surətdir. Belə bir mif var ki, Zöhhakın hər çiyninə bir ilan yapışmış imiş; öz qanını sormasınlar deyə o, ilanlara gündə iki uşağın beynini yedizdirərmiş. Dəmirçi Gavənin başçılığı ilə üsyankarlar onu taxtdan salıb Firidunu hökmdar seçmişlər.

*Firdovsi* (təxm. 940-1020, yaxud 1030) – klassik fars-tacik şairi. Məşhur “Şahnamə” epopeyasının müəllifi.

*Səh. 97.* **Ah, kimsəsiz vətən!** – “TH”, 15 iyul 1908, №161; “Fİ”, səh.146-148. “TH”da sərlövhədən sonra:

*“Şamaxıya daxil olduğum gündən bəri özümü şəhər deyil, adətən bir məzari-nisyanda hiss eləyirəm. Fikrim hərəkətdən, cismim fəaliyyətdən, təb’im qüdrətdən – əl hasil bütün məlakati-mənəviyyəm ifayi-vəzaifdən qalmışdır. Şükufəzari-təranəsini solmuş, vərəqrizi-xəzan olmuş, görən bülbül necə dağidari-əsər olursa, tairi-xəyalım da vətənini əhalisinin əfkarı kimi qaranlıq və xərabə vətənini pərvazə namüsaid gördüyündən şiddətli yağışa tutulub, qanadları qırılmış zavallı quşcuğaz kimi pərşikəstə olaraq xaki-səfalətə yıxılıb qalmışdır. Hansı tərəfə baxılırsa, insanı bir yas, bir məlal istiqbal eləyir, ruha şətarət, fikrə ilqayi-hikmət, təbiətə lətafət verəcək gözəlliklər sanki bu şəhərdən nifrət etmişdir.*

*Etməsinmi? Zatən dirilər qəbristan deyilməyə bəhaqq kəsbi-ləyaqət etmiş olan bu şəhri-fəlakətmədar tə’sisat və tə’mirati-mədəniyyətdən məhrum olduğu misilli vicdanları da asari-mədəniyyeyi-mə’nəviyyedən büsbütün ayrılıbdır. Caddə və bazarları ziyayi-bərqiyyə (elektrik)dən varəstə qaldığı kimi, bazari-əfkarları da bariqeyi-elmü ürfandan azadə qalmışdır.*

*Evləri zəlzəleyi-müdhişədən xərab olduğu kimi, qəlbləri də zəlzəleyi-xanimansuzi-cəhalətdən xərab və bərbad olmuşdur. Asari-mədəniyyətin naqiliyeganəsi olan dəmiryol, o zənciri-mədəniyyət, o silsileyi-hürriyyətdən azad qalmış bu zavallı, məmləkətin çərxi-tərəqqisi tə’tili-hərəkət edib dayanıbdır.*

*Yədi-qüdrətin insanlara ehsan etdiyi nuri-əqlü idrakları saiqeyi-cəhl və qəflətlə elə paslanmışdır ki, o ayineyi-səadətnüma istiqbali göstərmək iste'dadından məhrum qalmışdır. Ümumən şirvanlılar fikri-təcəddüdən azad olub, tərzi-qədim üzrə yaşayır. Səbəb? Çünki iyirminci əsrin ruhu hala buraya nəfh edilməmişdir. Elə bir yuxuya gediblər ki, topdan məvadiriri-ədiyyədən daha şiddətli olan xəvabirbai-mədəniyyətdən zərrə qədər olsun ayılmamışlardır.*

*Şamaxı xüsusunda verəcəyim mə'lumatı başqa bir vaxta həvalə eləyərək, indi bu sahibsiz, daha doğrusu məmləkəti bir az oxşayıb ağlayaq".*

İlk dəfə "TH"da çıxmış bu şerini Hadi "Fİ"a daxil etdiyi zaman onun mətnində məzmun və üslub cəhətindən redaktə işi aparmış, iki misranı ixtisara salmış, iki bəndin yerini dəyişdirmişdir. Bu dəyişikliklərdən ancaq atılmış misraları göstərmək məqsədəuyğun görüldü:

"TH"da *Baxdıqca əhlinə ürəyi qan olan vətən misrasından sonra: Gülqönçeyi-ümidi pərişan olan vətən!*

"TH"da *Ey məzhəri-vəqayeyü meydani-Kərbəla!* misrasından sonra: *Əndaminə biçildimi alamdən qəba?*

*Səh. 99.* **Ey mütribeyi-dövri-təməddün** – "TH", 25 iyun, 21 iyul, 1908, №166, 169; "Fİ", səh.159-161.

Şeir 1908-ci il Türkiyə inqilabına həsr olunmuşdur.

Yeddinci bənddəki tarixi adlar haqqında "Fİ"da müəllif qeydi: *"Hürriyyət və həqiqət fədakarları olan Midhət paşa, ədibi-ə'zəm Namiq Kamal, piri-canfədayi-hürriyyət Əli Süavi həzəratına işarətdir".*

*Midhət paşa* (1822-1883) – XIX əsrin 70-ci illərindən başlayaraq Türkiyədə məşrutə hərəkatına rəhbərlik edən tərəqqipərvər ictimai xadim. Sultan istibdadına qarşı mübarizəsinə görə təqib edilmiş, ağır cəzalara məhkum olunmuş və nəhayət, sultanın fitvası ilə qətl edilmişdir. Bax: *И.Е.Фадеева. Мидхатпаша. Жизнь и деятельность. М., 1977.*

*Əli Süavi* (1838-1878) – Türkiyədə sultan istibdadı əleyhinə, məşrutə uğrunda mübarizə hərəkatının fəal xadimlərindən biri, yazıçı və publisist. "Müxbir" qəzetinin redaktoru. İstanbul üsyanında həlak olmuşdur. M.F.Axundov onun əlifba haqqında fikirlərini dəfələrlə kəskin tənqid etmişdir. Bax: *M.F.Axundov. Əsərləri. Üç cilddə, III cild, Bakı, 1962, səh. 151, 153, 158* və s.

*Səh. 101.* **Şikvayi-aşiqanə, yaxud əlhani-pərişan** – "TH", 29, 30 iyul 1908, №173, 174; "Fİ", səh.162-165.

*Həllac "ənəlhəq" dedi, həq, həq dedi, əlhəq* – səh. 19-a aid izaha baxmalı.

*Nəfx olmadadır, dinləsəniz Suri-Sirafil* – dini rəvayətə görə, İsrafil Allaha ən yaxın olan mələkdir. Guya qiyamət günü o, ölüləri oyadıb haqq-hesab ayağına çağırmaq üçün tütək – sur çalacaqdır.

*"İdxülü finnar"* – ayədir. Tərcüməsi: od içinə girəcəksiniz.

Burada mövhumi cəhənnəmə və günahkarların guya orada od içində yanacaqlarına işarə edilir.

*Səh. 104.* **İstiqbalımız parlaqdır** – "TH", 4 avqust 1908, №178; "Fİ", səh.165-169.

M.Ə.Sabirin "İstiqbalımız lağlağdır" satirası Hadinin bu şerinə parodiyadır. "Molla Nəsrəddin" jurnalının 25 avqust 1908-ci il tarixli 34-cü nömrəsində çap olunmuş həmin satira belə başlanır:

*İnanmam, söyləmə artıq ki, feyzabad olur aləm,*
*Yağar imkani-rəhmət, baği-ədlü dad olur aləm,*
*Doğar xurşidi-hürriyyət, bütün azad olur aləm,*
*Xəyali-xamə düşmə, bilmə bir gün şad olur aləm!*
*Bu ikən vəz'imiz, çox çəkmədən bərbad olur aləm və i.a.*

*M.Ə.Sabir. "Hophopnamə", 1-ci cild, Bakı, 1962, səh. 177-178.*

*Dönər bir "bəzmi-feyzafeyzi-şura"yə bütün yerlər* – İstibdad üsulunun yıxılması və demokratik quruluşun yaranması haqqında obrazlı bir arzudur. Bəndin son iki misrasında bu arzu açıq ifadə olunur.

*Səh. 107.* **Həqiqi bir xəyal, yaxud bir lövheyi-cəmal** – "TH", 7 avqust 1908, №181.

*Səh. 108.* **Biz həqiqətə gülürük, həqiqət bizə ağlayır** – "TH", 11 avqust 1908, №184; "Fİ", səh.149-150.

*"Yəqulü qalə və qulə və fihi qövlanə"* – ərəb dilində "demək" mənasında işlənən "qalə" sözünün təsrifindən ibarət olan bu ifadə keçmişdə mollaxanalarda hökm sürən sxolastik təlim metoduna istehza məqsədilə işlənmişdir.

*Əngərül-əsvat* – ayədir. Tərcüməsi: səslərin ən pisi (uzunqulaq səsi nəzərdə tutulur – *Ə.M.*).

*Səh. 110.* **Ləyali-vüsal, yaxud keçən gecə** – "TH", 2 sentyabr 1908, №201; "Fİ", səh.190.

*Səh. 110.* **Ey pəriyi-istiğna!** – "TH", 2 sentyabr 1908, №201; "Fİ", səh.191-192.

*Səh. 112.* **İranın hürriyyət qəhrəmanlarına** – "TH", 4 sentyabr 1908, №203; "Fİ", səh.217-219.

"Fİ"da bəndlərin axırındakı *Arş, irəli...* nəqəratı haqqında müəllifin qeydi: *"Axırıncı şe'r şairi-atəşzəban Namiq Kamal həzrətlərinindir".*

*Abbas ağa* – İran inqilabının fəal iştirakçısı, "Mücahid" təşkilatının üzvü Abbas ağadan bəhs olunur. 1907-ci il avqustun 31-də İranın baş naziri, irticaçı Mirzə Ələsgərxan Atabəy Əzəmi öldürdüyünə görə şahın fərmanı ilə edam edilmişdir. XX əsr qabaqcıl Azərbaycan yazıçıları onun şücaəti haqqında mətbuatda bir neçə yazı çap etdirmişlər.

*Səh. 113.* **Təsviri-məhəbbət, yaxud vərəqi-eşqü məvəddət** – "TH", 5 sentyabr 1908, №204; "Fİ", səh.188-190.

*Bir aşiqəm, nəşidələrim aşiqanədir* – Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin (1494-1556) "Mən aşiqəm, həmişə sözüm aşiqanədir" misrasının təsiri ilə yazılmışdır.

*Ruhumda eşq güllərin oxşar təranədir* – misrası "TH" və "Fİ"da hər ikisində bu cür ləngdir: *Ruhimdə eşq güllərin açar, oxşar təranədir.*

*Məhdi-vücudə düşdüyümə nadim olmuşam, Bu səhvə söylərəm: qələti-alihanədir.* Buradakı *alihanədir* "Fİ"da *fatiranədir* getmişdir. Deməli, "Fİ" çapa hazırlanırkən naməlum bir şəxs (bəlkə də müəllif özü) Allaha üsyankar münasibəti pərdələyib, ona mücərrəd səciyyə vermək məqsədilə müstəqim *Allah* sözünü yaradan, xəlq edən mənası daşıyan *fatirlə* əvəz etmişdir. Hadinin öz dostu H.Məmmədbəyova (səh. 168-ə aid izaha baxmalı) nağıl etdiyinə görə, o, "Təzə həyat" redaktoru H.Vəzirovu müvəqqəti əvəz etdiyi zaman çapa verdiyi bu şerindəki həmin beytin mömin oxucuların kəskin etirazına səbəb olacağından qorxurmuş. Lakin qəzet çıxandan sonra heç bir narazılıq görməyən şair bu qənaətə gəlmişdir ki, oxuyanların bir qismi buradakı dini asiliyi başa düşməmiş, bir qismi də şairin fikrinə şərik olduqlarından buna etiraz eləməmişlər.

*Səh. 115.* **Mən bir kitabəm** – "TH", 7 sentyabr 1908, №205; "Fİ", səh.182-184.

*"İqrə kitabəkə"* – ayədən parça. Tərcüməsi: oxu öz kitabını.

*Səh. 117.* **Əşr'ari-pərişan, yaxud solğun çiçəklər** – "TH", 18 sentyabr 1908, №215; "Fİ", səh.184-187.

"Fİ"da birinci bəndin altıncı misrasındakı şairi-mürğan sözü haqqında müəllifin qeydi: *Şairi-mürğan bülbüli-xoşəlhandır.*

*Səh. 119.* **Milli nəğmələr** – "TH", 23 sentyabr 1908, №219; "Fİ", səh.195-199.

"Fİ"da şerin yazılış tarixçəsi haqqında müəllif qeydi: *Bakıda tə'sis edilən "Nur" məktəbi münasibətilə qələmə alınmışdır.*

"TH"da sərlövhədən əvvəl: *"Ədəbiyyat. Bakıda Hacı Zərbəli məhəlləsində həmiyyətli Kərbəlayı Abdulla Zərbəliyevin təşəbbüsati-maarifpərvəranəsi ilə "Nur" məktəbi-feyzi-mənsəbi tə'mir edilməkdə olduğu mə'lumdur.*

*Bu münasibətlə şagirdani-ürfanın pirayeyi-lisani-şükranı olmaq üçün bə'zi rüfəqayi-möhtərəmə tərəfindən, bir nəğmeyi-milliyyənin inşadı acizlərinə təklif edildi.*

*"Varın verən utanmaz" məsəli-məşhurunca, acizləri də məhsuli-qələmiqtidarı olan atidəki millət mahnılarını kəmalü iczü inkisarla təqdimə cəsarət eylərəm".*

*Səh. 122.* **Rəhgüzari-mətbuatda lövheyi-şəfqət, yaxud üç zavallı** – "TH", 25 sentyabr 1908, №221; "Fİ", səh.192-193.

*Səh. 122.* **Ədvari-təcəddüd, əsr'ari-inqilab** – "TH", 6 oktyabr 1908, №229; "Fİ", səh.181-182.

*Bolğar elində yüksəlir azani-inqilab* – bolqar xalqının Sultan Türkiyəsinə qarşı o zamankı milli-azadlıq hərəkatına işarədir.

*Səh. 124.* **Həqiqət acımı, dadlımı?** – "Səda" qəz., 12-14 oktyabr 1908, №1, 3.

*Qladston Uilyam Yuart* (1809-1898) – məşhur ingilis siyasi xadimi, liberalların lideri.

*Səh. 128.* **Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar** – "İttifaq" qəz., 1 dekabr 1908, №1; "Fİ", səh.169-172.

*"Qumu..."* – ehtimal ki, ayədən sözdür. Tərcüməsi: qalxın.

"Fİ"da *Sən şadmısan bir belə hüblalar içində* misrasındakı hübla sözü haqqında müəllif izahı: *hübla – hamilə qadındır.*

*Səh. 133.* **Əksi-ənini-vətən.** – "İttifaq" qəz., 2 dekabr 1908, №2.

*"Biri" demişdi ki, "Lağlağ ümidi-istiqbal"* misrası M.Ə.Sabirin "İstiqbalımız lağlağdır" satirasına işarədir. Bax: *M.Ə.Sabir. "Hophopnamə", 1-ci cild, səh. 177.*

Sabirin həmin əsəri Hadinin "İstiqbalımız parlaqdır" şerinə (bax: bu kitabın 104-107-ci səhifələri) parodiyadır. Hadi bu münasibətlə aldığı bir məktubda olan aşağıdakı mənzum parçanı "Köhnə dostum Hadi əfəndiyə" sərlövhəsi və "Rüfəqadan A.H. əfəndidən aldığım bir məhəbbətnamədən alınaraq buraya dərci münasib görüldü" qeydi ilə "Fİ"a daxil etmişdi:

*Ey şüəralar üzünü ağ edən,*
*Vislətinə cümləyi müştaq edən,*
*Dilbəri-hürriyyət üçün nəfsini –*
*Aşiqi-sadiq deyə müsdaq edən,*
*Bariqeyi-natiqeyi-şe'r ilə –*
*Dilləri, vicdanları bərraq edən,*
*Millətinin ruzi-novayəndəsin –*
*Pərtövi-əfkar ilə parlaq edən,*
*Zənnimcə bircə Şəmaxi olar –*
*Kəndinə müstəqbəli lağlağ edən.*
*Əfv elə təqsirim əgər var isə,*
*Ey məni öz vəslinə müştaq edən.* (*Bax: "Fİ", 97*)

*Səh. 133.* **Mizani-əqvam** – "TH", 21 dekabr 1908, №301; "Fİ", səh.16-17.

Bu şeirdəki bəzi sözlərə (terminlərə) "TH"da aşağıdakı şəkildə izahat verilmişdir:

*Qüvveyi-bərqi* – qüvveyi-elektrikdən ibarətdir.

*Xaneyi-səyyar* – vaqonlardan ibarətdir.

*Hafizi-əsvat* – fonoqrafdan ibarətdir.

*Durnəvis* – teleqrafdan ibarətdir.

*Səh. 134.* **Fədakarlıq-mərdanəlik** – "Fİ", səh.37.

*Səh. 135.* **Yazıq millət!** – "Fİ", səh.58-59.

*Səh. 136.* **Duşizeyi-hürriyyətə** – "Fİ", səh.81-82.

*Səh. 136.* **Bir mütəəllim rəfiqimin fotoqrafına qarşı söylənmişdir** – "Fİ", səh.96-98.

On birinci beytdəki *Rəşadın* sözünü nəzərə alaraq, güman etmək olar ki, şeir XX əsrin əvvəllərində gənc Azərbaycan ziyalılarından biri, sonralar görkəmli müəllim, coğrafiya alimi və yazıçı olan Qafur Rəşad Mirzəzadəyə həsr edilmişdir.

*Səh. 138.* **Qələm** – "Fİ", səh.127-128.

*Huri-məqsurat* – ayədən parça. Tərcüməsi: pərdə dalında oturan hurilər.

*Səh. 139.* **Qələm nə söyləyir?** – "Fİ", səh.128-132.

*Eşit, millət, qələmdən bir hekayət, – Cidalıqdan qılır çox-çox şikayət* beyti Cəlaləddin Ruminin *Bəşno əzney ki hekayət mikönəd, – Vəz cidaiha şikayət mikönəd* beytindən istifadə yolu ilə yazılmışdır.

*"İnna qərəzna"* – ayədən parça. Tərcüməsi: həqiqətən biz vacib etdik.

*Səh. 143.* **Gülbərgi-pərişan** – "Fİ", səh.133.

*Səh. 143.* **Mə'şuqəmə** – "Fİ", səh.133-134.

*Səh. 143.* **Təavün** – "Fİ", səh.134.

Bu və "Gülbərgi-pərişan", "Mə'şuqəmə", "Halımız", "Mütaliəyə dair", "Əql". "Şüur" kimi bir neçə başqa kiçik əsər 1908-ci ildə "Fİ"də çap olunduğu halda, "SƏ"də bunların yazılmış tarixi səhvən "1914" göstərilmişdir.

*Səh. 144.* **Cəhalətimdən şikayət** – "Fİ", səh.134-135.

*Səh. 144.* **Bu da bir həqiqət** – "Fİ", səh.135.

*Səh. 144.* **Şeyxlərə-işanlara** – "Fİ", səh.135.

Avtobioqrafik işarələrə malik olan bu şeirdə "filusuf"i-zifünun və s. motivlərlə müsəlman üləmasının sxolastik təlim-tərbiyə verməsi tənqid edilir. Belə motivlər şairin bir sıra başqa əsərlərində də vardır.

*"Layə'qilun"* – ayədən parça. Tərcüməsi: ağılları kəsməz. Zümreyi-layəqülun başa düşməyənlər zümrəsi.

*"Layüflihun"* – ayədən parça. Tərcüməsi: nicat tapmazlar.

*"Vəhüm layəş'ürun"* – ayədən parça. Tərcüməsi: onlar bilmirlər.

*"Məta ma tərqüdun"* – ayədən parça. Tərcüməsi: nə vaxta qədər yatacaqsınız?

*Səh. 145.* **Sofiyə-zahidə** – "Fİ", səh.136.

"Fİ"da səkkizinci misradakı büzdan (yolkəsənlər) sözü haqqında müəllif izahı: *Mütəşeyyixlər, işanlardan kinayətdir.*

*Səh. 145.* **Gül, sevdiciyim, gül!** – "Fİ", səh.155-157.

*Səh. 148.* **Məhəmmədəli şahın qulağına azani-intibah** – "Fİ", səh.180-181.

Şerin ilk və son beytindəki "şahim!" xitabını istehza ilə işlətdiyini bildirmək üçün müəllif bu sözün qabağında (?) işarəsi qoymuşdur.

*Dəqyanus* – dini rəvayətə görə, eramızdan əvvəl Misirdə zalım bir padşah, zülm etdiyi adamlardan biri guya ədalətli və xeyirli sözlər deyən Yəhya adlı peyğəmbər olmuşdur.

*Aləti-atəşfəşanla məclisi qıldın xərab* – ehtimal ki, Məhəmmədəli şahın 1908-ci il iyunun 23-də etdiyi əksinqilabi çevriliş, Milli məclisin dağıdılması nəzərdə tutulur.

*Səh. 148.* **Hübbi-vətən** – "Fİ", səh.202.

*Səh. 149.* **Rüfəqadan birinin məktubuna yazılan məhəbbətnamədir** – "Fİ", səh.200-201.

1908-ci ildə "Fİ"da çıxmış bu şerin tarixi "SƏ"də səhvən "1914" göstərilmişdir.

*Səh. 149.* **Halımız** – "Fİ", səh.202.

*Səh. 149.* **Əql** – "Fİ", səh.201.

*Səh. 150.* **Şüur** – "Fİ", səh.202.

*Səh. 150.* **Zavallı könlüm** – "Fİ", səh.203-204.

*Səh. 152.* **Təraneyi-əhraranə** – "İttifaq" qəz., 11, 18 yanvar 1909, №9, 15. İmza: *Bir nəfər vətənpərəst.*

*Səh. 154.* **Əfkari-pərişan, ya ki təraneyi-təhəyyüranə** – "İttifaq" qəz., 7, 9 fevral 1909, №28, 32. İmza: *Vətənpərəst.*

*Təhdid ilə etmək həqqi təhdid* misrasında birinci *təhdid* – "qorxutmaq", ikinci *təhdid* – "məhdud etmək" mənasındadır.

*Səh. 158.* **Məşriqdən bir səda** – "İttifaq" qəz., 11 fevral 1909, №34.

*Səh. 159.* **Eydiyanə** – "İttifaq" qəz., 8 mart 1909, №54.

*Səh. 160.* **Bariqeyi-zəfər parlayır, istiqbal bizimdir** – "İttifaq" qəz., 4, 6, 8, 13, 16 mart 1909, №51, 53, 54, 57, 59.

İranda 1909-cu ilin əvvəlindəki inqilabi yüksəlişi tərənnüm edib alqışlayan bu şeirdə, eyni zamanda, mücahidlərlə fitnəkarcasına rəftar edən, yalan vədlər verib, inqilabı qan içində boğmağa çalışan müstəbid Məhəmmədəli şah ifşa olunur. Buradakı "şahim", "şəha" kimi xitablarda acı bir kinayə vardır. Türkiyə inqilabına və onun başçılarına aid misralarda isə şair aşkar mübaliğəyə yol verir, müvəffəqiyyətsiz müqayisə və təşbehlərə müraciət edir.

*Düçari-yə'sdir ləşkərkeşi-Şəddadı Tehranın. Şəddad* – əsatirə görə, Yəmən ölkəsində (Ərəbistanda) yaşamış çox zalım bir hökmdar olmuşdur.

Bu misrada İran hökmdarı Məhəmmədəli şah Şəddada bənzədilir və inqilabçıların öz qəhrəmanlıqları ilə onu yasa batırdıqlarından danışılır.

*"Xurşidi-şiranə"* – İran dövlətinin gerbinə, oradakı "Şirü xurşid"ə ("Şir və günəş"ə) işarə.

*Həvariyyun* – dini əsatirə görə, İsanın şagirdləri və köməkçiləri.

*"Yıldız köşkü"* – sultan Əbdülhəmid II-nin sarayı.

*Səh. 166.* **İşıq və təzə aləm** – "Tərəqqi" qəz., 24 may 1909, №112. Qəzetdə sərlövhədən qabaq:

Tər güllər gülür. Təcəddüd bülbülləri ötür. Küskün dodaqlar yek-digərini öpür. Məhəbbəti qanmış, anlamış olan insanlar bir-birini sevir, ümid pərisini dərağuş edir. İşlər gözəl gedir. Qardaşlıq işığı parlayır, ayrılıq odu sönür.

Bunların səbəbi, səbəbi-yeganəsi ancaq hürriyyət, müsavat, ədalətdir.

Türkiyə inqilabının əsil mahiyyətini bilməyib, onu xalqa azadlıq verən, "təzə aləm" yaradan bir hadisə, Şövkət paşa, Ənvər paşa kimi başçılarını isə bir xilaskar kimi tərifləyib göyə qaldıran Hadi az sonra ciddi səhv etdiyini görüb, dərin peşmançılıq çəkmişdi.

Qəzetdə aşağıdakı sözlərin mənası izah edilmişdir:

17-ci misradakı *əfvaci-zülam: Qara dəstələr, zülmətli firqələrdir.*

38-ci misradakı *ilhab: "ləhib"in cəmidir; atəşli, alovlu deməkdir.*

43-cü misradakı *məşhər: sərgidir. Dilimizdə "göstəriş yeri" deyə biləriz.*

*Naqis dilədi söndürə müşkati-Kəmali* – Namiq Kamal nəzərdə tutulur.

*Niyazi* – millətcə alban olub, kiçik Resna şəhərinin komendantı sifətilə 1908-ci il Türkiyə inqilabında və Makedoniyadakı milli-azadlıq hərəkatında şücaət göstərən leytenant Əhməd Niyazi bəy.

*Səh. 168.* **Əziz dostum!** – Bu şerin belə bir tarixçəsi vardır: 1946-cı il avqustun 3-də Bakıda Azərbaycan ziyalılarından, jurnalist və tərcüməçi Hüseynağa Məmmədbəyovun (1887-1957) dilindən Məhəmməd Hadi haqqında yazdığımız xatirələrdən məlum olur ki, o, şairlə 1908-ci ilin ikinci yarısında "İrşad" qəzeti redaksiyasında tanış olmuşdur. Dostlarının məsləhəti və milyonçu H.Z.Tağıyevin maddi köməyi ilə həmin il özünün "Firdovsi-ilhamat" adlı şeirlər kitabçasını çap etdirən Hadi onun bir nüsxəsini də avtoqrafla H.Məmmədbəyova bağışlamışdır. *"Dostum Hüseyn Rza Hacı Məhəmmədmusazadə əfəndiyə yadigarım olsun"* qeydi və *"Əbdüssəlimzadə Məhəmməd Hadi qardaşın"* imzası ilə yazılmış "29 mayıs 1909" tarixli həmin mənzum avtoqrafı "Fİ"ın bu nüsxəsinin titul səhifəsindən götürmüşük.

*Səh. 168.* **Dilənçi** – "Tərəqqi" qəz., 27 may 1909, №115.

*Səh. 170.* **Əməli-müxəyyəl** – "Tərəqqi" qəz., 22 iyun 1909, №137.

*Səh. 171.* **Aliheyi-hürriyyətə!** – "Tərəqqi" qəz., 16 avqust 1909, №183.

Şeir İran və Türkiyə inqilablarına həsr olunmuşdur. Bu mövzuda yazdığı bir çox başqa əsərlərində olduğu kimi, burada da şair həmin inqilablar haqqında birtərəfli, mübaliğəli fikirlər irəli sürür.

*Səh. 173.* **Məhbubeyi-ruh – mənfureyi-ruh və mükalimələri** – "Tərəqqi" qəz., 6 sentyabr 1909, №201.

*Səh. 175.* **Səhneyi-mübarizeyi-həyatda şanlı insanlar** – "Tərəqqi" qəz., 9 sentyabr 1909, №204.

*Səh. 177.* **Qanuni-təkamül** – "Tərəqqi" qəz., 14 sentyabr 1909, №208.

*Pillə-pillə rəftə bayəd suyi-dam, Həst cəbr budən inca təb'i-xam* – Tərcüməsi: Dama (yüksəkliyə) pillə-pillə qalxarlar. Nadan adam bunu qana bilməz.

*Mollayi-Rumi* (1207-1272) – Şərqin ən böyük şairlərindən biri. 30 min beytlik divanın, 47 min beytlik "Məsnəvi"nin və s. bədii-fəlsəfi əsərlərin müəllifi. Türkcə bir neçə şeri istisna olmaqla əsərlərini fars dilində yazmışdır. M.Hadinin ən çox sevdiyi və əsərlərində ehtiramla yad etdiyi klassiklərdəndir.

*Səh. 179.* **Ya leyl!** – "SƏ", səh.141.

Şeirdə *qəmər* sözü çox vaxt iki mənada işlənmişdir: a) ulduz; b) qız adı.

Bəzi avtobioqrafik motivlər ifadə edən bu şeirdən belə məlum olur ki, Qəmər şairin cavanlıqda sevdiyi qızlardan biri olmuşdur.

*Onlar erişib cənnətə, biz Veyldə qaldıq, Sübhi-mədəniyyətdə də "vəlleyl"də qaldıq. Veyl* – dini əsatirə görə, cəhənnəmdə olub, "Vadiyi-veyl" adlanan bir dərə. "Vəlleyl" – Quranın ilk surələrindən birinin adı.

Bu misrada müsəlman Şərqinin mədəni geriliyi obrazlı şəkildə ifadə edilmişdir.

*Şiller Fridrix* (1759-1805) – məşhur alman şairi, dramaturqu, incəsənət nəzəriyyəçisi, tarixçisi; "Qaçaqlar", "Məkr və məhəbbət" kimi klassik əsərlərin müəllifi.

*Gete İohann Volfhanq* (1749-1832) – dahi alman yazıçısı, filosofu və təbiətşünas alimi, "Gənc Verterin iztirabları", "Faust", "Qərb-Şərq divanı" kimi cahanşümul əsərlərin müəllifi.

*Volter Fransua Mari Arue* (1694-1778) – klassik fransız nasiri, dramaturqu, filosofu, tarixçisi; Fransa maarifçilik hərəkatının rəhbərlərindən biri; "Fəlsəfi məktublar", "Kandid yaxud optimizm", "Metafizika haqqında traktat" və s. klassik əsərlərin müəllifi.

*Russo Jan-Jak* (1712-1778) – məşhur fransız yazıçısı, sosioloqu, filosofu, pedaqogika nəzəriyyəçisi, Fransa maarifçiliyinin rəhbərlərindən biri, "İctimai müqavilə", "Emil, yaxud Tərbiyə haqqında", "İnsanlar arasındakı bərabərsizliyin mənşəyi və kökləri haqqında mühakimələr" kimi məşhur əsərlərin müəllifi. Hadi əsərlərində Russonu və onun "İctimai müqavilə" əsərini bir neçə dəfə böyük rəğbətlə yad etmişdir.

*Spenser Herbert* (1820-1903) – ingilis sosioloqu və psixoloqu, pozitivizm fəlsəfi təliminin banilərindən biri, "Sintetik fəlsəfə sistemi" əsərinin müəllifi.

*Büxner* – çox güman ki, alman təbiətşünası və filosofu, vulqar materialist Lüdviq Büxner (1824-1899) nəzərdə tutulur.

*Sülli Prüdom* (1839-1907) – fransız mütəfəkkir şairi, Fransa akademiyasının üzvü, Nobel mükafatı laureatı.

*Lamartin Alfons Mari Lüi de* (1790-1869) – fransız romantik şairi, publisisti, siyasi xadimi; "Poetik düşüncələr", "Poetik və dini harmoniya", "Poe-

tik seyr" və s. şeir məcmuələrinin müəllifi. 1848-ci il Fransa inqilabından sonra irtica cəbhəsinə keçmişdir.

*Müsse Alfred* (1810-1857) – fransız romantik yazıçısı A.S.Puşkinin yüksək qiymətləndirdiyi "İspan və italyan povestləri" adlı şeir məcmuəsi məşhurdur.

*Molyer Jan Batist* (1622-1673) – fransız ədəbiyyatının klassiki, böyük komediyanəvis; "Tartüf", "Don Juan", "Xəsis", "Zorən təbib", "Mizantrop" və s. əsərləri məşhurdur.

*Edison Tomas Alva* (1847-1931) – məşhur Amerika elektrotexniki, ixtiraçısı, böyük elektrotexnik müəssisə və kompaniyaların banisi.

*Səh. 182.* **Bir zöhreyi-həyatın üfulu** – "Səda" qəz., 16 oktyabr 1909, №5.

*Səh. 184.* **Bir işsizin qış düşüncələri** – "Səda" qəz., 19, 21 oktyabr 1909, №7, 9.

Epiqrafından da göründüyü kimi, Hadi bu şeri dilinin çətin anlaşıldığını tənqid edib, onu sadə, aydın yazmağa çağıranlara cavab olaraq yazmışdır. Odur ki, şeirdə nəinki Hadinin dili üçün səciyyəvi olan ərəb-fars tərkibləri, təmtəraqlı söz və ifadələr işlənməmiş, hətta Azərbaycan dilinin "özününkü" hesab edilən "insan", "sual", "cavab", "şey", "xəbər", "hekayə" və s. sadə, anlaşıqlı sözlərin də başqa dillərdən alındığını göstərmək üçün onlar dırnaq işarəsi içərisində verilmişdir. Əhəmiyyətli məsələlərdən biri romantik Hadinin bu şerini realist üslubda yazmasıdır.

*Səh. 189.* **Əndişeyi-həyat** – "Səda" qəz., 27 dekabr 1909, №65.

*Səh. 190.* **Aşiyani-viran** – "Səda" qəz., 29 dekabr 1909, №67.

Bu şerin məzmun, kompozisiya, vəzn və s. cəhətdən üzvi tərkib hissəsi olan və "Yavrulara!" xitabı ilə başlanan ikinci hissəsi "SƏ"də müstəqil şeir kimi verilmişdir (səh.194).

*Səh. 192.* **Təkamüli-mə'kus və ümmidi-pərişan** – "Səda" qəz., 31 dekabr 1909, №69.

*Səh. 196.* **Oxu, bil, öyrən!** – "Səda" qəz., 14 yanvar 1910, №11.

Qəzetdə 14-cü misradakı *novmi-alim* ifadəsi haqqında qeyd: *"Cahilin ibadətindən əhli-elmin yatmağı əfzəldir"* kəlamına işarədir.

*Səh. 197.* **Fəxamətli əfəndim, pardon!** – "Səda" qəz., 17 yanvar 1910, №13.

*And olsun o Molla Babaya...* – öz yekəbaşlığı, mühafizəkarlığı ilə ad çıxarıb, "Molla Nəsrəddin" jurnalında dəfələrlə tənqid olunmuş qubalı Molla Babaya kinayədir.

*Olsun qəsəm ol "Şeyxi-Qobustani"yə...* Qobustanda tüfeyli həyat keçirən mülkədar-ruhani Şeyx Babaya işarədir. O, Hadinin "Füyuzat"da çap etdirdiyi "Qafqaza aid" ("F", 7 sentyabr 1907, №26) məqaləsində və "Molla Nəsrəddin" jurnalında da kəskin tənqid olunmuşdur. C.Məmmədquluzadənin "Cəfəngiyat" felyetonunda deyilirdi: "Füyuzat"da möhtərəm şairimiz M.Hadi

cənabları yazır ki, Şirvanda Qobustan "Şıx Babası" kimi lotular (yainki hamısı birdir, Həmid paşalar) allahlıq iddiası edirlər" ("Molla Nəsrəddin", 24 sentyabr 1907, №36). Deməli, bu mövzuya iki dəfə müraciət etməsi və "Qobustan lotusu"na münasibətdə C. Məmmədquluzadə ilə həmrəy olması Hadi şerinin "Molla Nəsrəddin"lə səsləşməsini göstərən faktlardan biridir.

*Səh. 199.* **Gərəkməz!** – "Səda" qəz., 22 yanvar 1910, №18.

*Səh. 200.* **Şair, hücreyi-iştiğalı və düşüncələri** – "Səda" qəz., 5 fevral, 1910, №30.

*Səh. 202.* **Bir iştikayi-möhriq**... çeşmi – ədəb bu gün ədəbiyyata ağlayır – "Səda" qəz., 18 mart 1911, №60. İmza: *"Tənin" qəzetəsi mühərrirlərindən Ə.M.Hadi.*

Şeir böyük türk şairi, "Sis", "Rübabi-şikəstə", "Tarixi-qədim", "95-ə doğru" kimi klassik əsərlər müəllifi Tofiq Fikrətə (1867-1915) həsr olunmuşdur.

Şerin altında: "Osmanlı aləmi-ədəbiyyatına bir səmayi-nəvin-etila açan və şəbabi-hazirəyə nəvvar və nazənin bir mənzumeyi-təfəkkür ehzar edən böyük şair Tofiq Fikrətə ithaf etdiyim şerin bir surətini də "Səda" qarelərinə təqdim ediyorum. İstanbul, 5 mart. M.Hadi".

*Səh. 204.* **Sabirin yadigarına ithaf** – "Yeni irşad" qəz., 28 avqust 1911, №1.

*Səh. 204.* **Təbrik** – "İşıq" jurn., 1911, №2. Şeirdən qabaq:

*"Bu yanvar ayının 22-ci günü bə'd əz-zöhr hava qaranlıqlaşana yavıq Bakı şəhərində nisvani-müslimə tərəfindən yeni tə'sis və intişara başlamış "İşıq" jurnalının birinci nömrəsini poçtdan aldım. Gözəl tərtibli, sadəcə, Azərbaycan şivəsində gözəl təb' olunmuş bir məcmuədir. Baxüsus qarelərə tərbiyeyi-ətfalı layiqilə tanımaq üçün müslimə övrətinin çocuğun əlindən yapışıb işığı göstərməyini gözdən keçirdim. Xeyirli olsun. Deyir ki:".*

*"İşıq"* – 1911-1912-ci illərdə Bakıda çıxan həftəlik qadın jurnalı. Redaktoru Xədicə xanım Əlibəyova, naşiri isə onun əri hüquqşünas Mustafa bəy Əlibəyov idi. Jurnalda qadın müəlliflərlə yanaşı M.Hadi, H.Cavid, Ə.Müznib, R.Əfəndiyev kimi şair və yazıçılar da iştirak etmişlər. Jurnal mollanəsrəddinçilər tərəfindən kəskin tənqid olunmuşdur.

*Səh. 205.* **Cinsi-lətifə** – "İ", 18 dekabr 1913, №532.

*Səh. 205.* **Tofiq Fikrətə** – "Rübab" jurn., 26 kanunisani 1330, №1.

*Səh. 206.* **Ağlayan şe'rlər** – "İ", 18 fevral 1914, №580.

Görkəmli türk şairi, nasiri və pedaqoqu Mahmud Əkrəm Rəcaizadənin (1846-1914) ölümü münasibətilə yazılmışdır.

*Nijad* (1884-1900) – Mahmud Əkrəmin oğlu. Şair məşhur şeir kitabı "Nijad Əkrəm"i onun ölümünə həsr etmişdir.

*Fuad* – Mahmud Əkrəmin Nijaddan əvvəl ölmüş oğlu.

Şerin bəzi misraları qəzetdə də vəzncə ağırdır.

*Səh. 207.* **Nisviyyət təranələri** – "İ", 17 fevral 1914, №586.

*Səh. 208.* **Əzhari-əfkar** – "İ", 24 fevral 1914, №586.

*Şekspir Vilyam* (1564-1616) – cahanşümul ingilis yazıçısı, dünya ədəbiyyatını "Hamlet", "Otello", "Romeo və Cülyetta", "Maqbet" kimi onlarca klassik faciə və komediya, poema və sonetlə zənginləşdirən humanist sənətkar.

*Səh. 210.* **Pəyami-dilaram** – "İ", 25 fevral 1914, №587.

*Səh. 210.* **Bahari-əfkar** – "İ", 28 fevral 1914, №590.

*"Hər ruzü şəb əz-fikri-to dər-ahü fəğanəm".* Tərcüməsi: gecə-gündüz sənin fikrini çəkib ah-fəğan eləyirəm.

*Səh. 212.* **Dün axşamın ilhami-yetimanəsi** – "İ", 1 aprel 1914, №615

*Səh. 213.* **Asi şe'rlər** – orada.

*Səh. 214.* **Qüvvət, həyat, ümid** (Yaşamağı sevirəm) – "İ", 7 iyun 1914, №671.

*Mirzə Hadi Manafzadə "Sabit"* – XX əsrin əvvəllərində yaşamış Azərbaycan şairi; M.Hadinin yoldaşı.

*Donmaq da ölüm, hər hərəkət bir dirilikdir misrası haqqında müəllif qeydi: "Həzrəti Fikrət deyir ki, həqq qəvinin, demək, şəririndir. Ən cəli hikmət: əzməyən əzilir".*

*Səh. 215.* **Müəmmayi-kainat** – "Sədayi-həqq" qəz., 1914, №163.

*Səh. 216.* **Zamanın məzhəkələrindən** – "Sədayi-həqq" qəz., 1914, №191.

Şeirdə bəzi vəzn uyğunsuzluğu vardır.

*Səh. 216.* **Xəluqun pədəri** – "İqbal" qəz., 20 iyul 1914, №691. Sərlövhədən qabaq: "Ədəbi ziyafət". Xəluq sözü haqqında müəllif qeydi: "Fikrət bəyin oğlu və zadeyi-əslisidir".

Yeni dövr türk ədəbiyyatı və ictimai-fəlsəfi fikrinin inkişafında mühüm xidmətləri olan mütəfəkkir-şair Tofiq Fikrətin mütərrəqqi ideyaları 1908-ci il Türkiyə inqilabından sonra istər vətənində, istərsə Azərbaycanda irticaçıların ona hücumlar etməsinə səbəb olmuşdu. Şairin əleyhdarları əsasən Türkiyədəki "İttihad və tərəqqi" partiyasının üzvləri, "Türk ocağı" dərnəyi və başqa siyasi və ədəbi təmayüllər idi. Azərbaycan mətbuatında Fikrət və onun həmməsləkləri əleyhinə çıxışlara səs verən müəlliflərdən biri milliyyətcə tatar olan publisist S.İbrahimov idi (bax: *"İqbal" qəz., 1912, №28*).

Türkiyənin qabaqcıl, demokrat ziyalıları kimi, M.Hadi də yüksək ideyalı sənətkar hesab etdiyi Fikrətin ən yaxşı yaradıcılıq ənənələrini öyrənir və təbliğ edirdi. Onun Fikrətə bir neçə səmimi şeir həsr etməsi də göstərilən səbəblərlə əlaqədar idi. Bax: *M.Cəfər. Azərbaycan ədəbiyyatında romantizm. Bakı, 1963, səh. 54-57; Л.О.Алькаева. Очерки по истории турецкой литературы. М., 1959, с. 89.*

*Əlipaşa Hüseynzadə "Səbur"* (1885-1934) – Azərbaycan romantik şairi, "Yeni füyuzat" jurnalının redaktoru.

*Ey bakirə əş'ar doğan şe'r Məsihi, Ey türklərin şairi-fəyyazü fəsihi.*
*Məsih* – İsa. Dini əfsanəyə görə, Məryəm onu bakirəlikdə doğmuşdur. Şərq poeziyasında "İsanın nəfəsi" obrazlı ifadəsi insana yeni ruh gətirən söz rəmzi kimi işlənir. T.Fikrətə müraciətlə yazılmış beytin mənası: Ey bakirə əsərlər yaradan şe'r İsası, ey gözəl, şirin danışığı ilə nur saçan türk şairi.

"Tarixi-qədim" haqqında müəllif qeydi: *"Fikrət bəyin cahandəyər bir əsəridir".*

*Səh. 217.* **Xəndeyi-zəfər** – "İ", 25 iyul 1914, №696.

Şeir I Dünya müharibəsinin başlanması münasibətilə yazılmışdır.

*Səh. 218.* **Timsali-məlal, hüsni-məhzun** – "İ", 29 iyul 1914, №700.

*Səh. 219.* **Qanlı sətirlər və qaileyi-həyat** – "Bəsirət" qəz., 1 avqust 1914, №14.

Şeir I Dünya müharibəsinə həsr olunmuşdur.

*Hüseyn Rza* – Hadinin dostlarından Hüseynağa Məmmədbəyov (səh. 168-ə aid izaha baxmalı).

*"Mey sun bana, ey saqiyi-gülçöhrə, səmadən, – Səkran oluyor gavizəmin səfki-dimadən".* Görkəmli türk şairi Əbdülhəqq Hamid Tarxanın (1852-1937) "Elxan" əsərindən bir beytdir. Mənası: Gavizəmin – yer öküzü. Mifologiyaya görə, Yer kürəsi öküzün, öküz balığın, balıq isə böyük bir dəryanın üstündə dayanmışdır. Şair demək istəyir ki, səmadan tökülən qanlardan yer öküzü (yəni bütün kainat) məst olur, ey gülüzlü saqi, mənə də şərab süz.

*"Ey vah! Bəşər..."* sözləri ilə başlanan beyt haqqında müəllif qeydi: *"Tofiq Fikrət. "Xəluqun dəftəri".*

*Səh. 220.* **Hərbi-müsəlləs, yaxud cəngi-seahəng** – "Bəsirət" qəz., 30 iyul 1914, №14.

*Limən ğələb* – ayədən parça. Tərcüməsi: qalib olan üçün.

*Səh. 221.* **Fəzilət sahibləri** – "İ", 20 iyun 1914, №691.

Sərlövhədən qabaq: *"Ədəbi ziyafət"* (*Türkiyənin ən məşhur şairlərindən Şünasinin bir şerini təsdis*).

*Mustafa Sübhi* (1883-1926) – Türkiyə sosialist partiyasının xadimlərindən, Türkiyə kommunist partiyasının banilərindən biri. Trabzonda 16 türk kommunisti ilə birlikdə qətlə yetirilmişdir. Bax: *А.Ф.Миллер. Краткая история Турции, М., 1948, с. 138, 188.*

Birinci və son bəndlərdəki bu sözlər haqqında müəllifin izahı:

*Budala* – şüursuz, ağılsız.

*Şəbgüzəran* – gecə quşları kimi qaranlıqda yaşayanlar ki, cahildir.

*Səh. 223.* **Şərareyi-əfkar** – "İ", 18 avqust 1914, №714.

*Səh. 223.* **Xabgahi-mövta, ilhamati-əmvat** – "İ", 28 avqust 1914, №723.

*Sənətulla İbrahimov* (*Eynullayev*) – "İqbal" qəzeti redaksiyasında işləyən və bu qəzetdə məqalələr çap etdirən tatar publisisti.

*Səh. 224.* **Şeytani-rəcimin cənab Rəhimə xitabələri** – avtoqraf əsasında çap olunur. B a x: RƏF M–221, 8822.

*Səh. 225.* **Aşiqi-giryan, canani-xəndan** – "Bəsirət" qəz., 5 sentyabr 1914, №19.

*Abbas Səhhət* (1874-1918) – görkəmli Azərbaycan şairi, mütərcimi və pedaqoqu, "Sınıq saz" kitabının, "Məğrib günəşləri" adlı tərcümə məcmuəsi və s. əsərlərin müəllifi; M.Ə.Sabir və M.Hadinin dostu.

*Səh. 227.* **Açıq və aydın düşüncələr** – "İ", 7 sentyabr 1914, №731.

*Səh. 228.* **Tamaşayi-riqqətəngiz** – "Bəsirət" qəz., 26 sentyabr 1914, №22. Sərlövhədən qabaq: *"Həyat səhifələrindən".*

*Səh. 230.* **Livayi-zəfərin tamaşası** – "İ", 1914, №784.

*Səh. 231.* **Ümid səhneyi-tamaşayi-həyatın ruhudur** – "İ", 25 sentyabr 1914, №747.

*Səh. 233.* **Parlaq günəş altında işıqsız gözlər** – "Bəsirət" qəz., 27 sentyabr 1914, №23. Sərlövhədən qabaq: *"Həyat səhifələrindən".*

*Səh. 234.* **[Nisvanı sanma yalnız sərdari-zihəşəmdir]** – "EM", səh.2. Şeir "EM"in başlanğıcında, sərlövhəsiz verilmişdir.

*Səh. 234.* **Ümməhati-həyat, yaxud cinsi-lətifə bir baxış** – "EM", səh.2-11.

On yeddinci bənddəki *hüquqşikən* sözü haqqında müəllif izahı: *Qədrnaşünas erkəklərə xitab və itabdır.*

Tofiq Fikrətin təsiri ilə yazılmış bu şerin 24-cü bəndində türk şairinin *"Əlbət səfil olursa qadın, alçalır bəşər!"* misrası sitat gətirilmiş və mətndə onun müəllifinin adı da göstərilmişdir.

*"Təl'ətüşşəms min məğaribiha".* Tərcüməsi: günəş öz məğriblərindən tülu etmişdir.

Bu misra haqqında müəllif qeydi: *"Mədəniyyət cahanlarından".*

Otuz dördüncü bəndin ikinci misrasındakı *hüma* sözü haqqında müəllif izahı: *"Qızdırma xəstəliyi".*

*Səh. 242.* **Əlvahi-nəfasət** – "EM", səh.14-23.

Bu şeir Hüseyn Cavidin "Pənbə çarşaf" şerinə cavab olaraq yazılmışdır.

*Hüseyn Cavid* (1882-1941) – məşhur Azərbaycan romantik şairi və dramaturqu, "Şeyx Sənan", "Şeyda", "Səyavuş", "Xəyyam", "Knyaz" kimi səhnə əsərlərinin və lirik şeirlərin müəllifi. Cavidin istedadına yüksək qiymət verən Hadi, eyni zamanda, onun "Bahar şəbnəmləri" kitabındakı bəzi fikirlərlə razılaşmamışdır.

Şerin *Məşriqdəki oğlun deyir: örtün və bürün sən,* habelə "Örtün" deyirsən və s. misralarında bilavasitə Cavid nəzərdə tutulur və onun çadranı müqəddəs bir örtü kimi tərənnüm etməsi tənqid olunur.

*Əfkarımıza hakimə Əhriməni-övham. Əhrimən* – qədim Zərdüşt dini-fəlsəfi təliminə görə, dünyada bir-birinə zidd olub mübarizə aparan iki qüvvə vardır: a) xeyir, işıq allahı – Hörmüzd; b) şər, zülmət allahı – Əhrimən.

M.Hadi müsəlman Şərqində Əhrimənlə əlaqədar mövhumatın hökm sürdüyünü iddia edir.

Şerin üçüncü hissəsinin on ikinci misrasındakı *aftablər* sözü haqqında müəllif izahı: *"Aftab günəşdir. Günəş də qadındır"*.

*Hökm isə qüvvətin* misrası haqqında müəllif izahı: *Əl hökmü limən ğələbə: söz qalib olanındır. Məğlub olanlar nə yapmalı?*

*Səh. 246.* **Mülhimeyi-əş'ar** – "EM", səh.23-33.

*"Ma təkəlləmü şe'rən... əntə tühaki..."* Tərcüməsi: sən şeir demədin, bəlkə də nağıl etdin.

*Yazaraq doğruyu, qovulduq biz.* Hadi İstanbulda qadın azadlığı mövzusunda çap etdirdiyi şeirlərinə görə Türkiyədən qovulmasına işarə edir.

*Səh. 254.* **Layəmut şe'rlər** – "EM", səh.35-36.

*Səh. 255.* **Bariqeyi-inqilab** – "M", səh.36-37.

*Səh. 256.* **Alihati-ilhamat və həyat pərəstidələri** – "EM", səh.38-39.

*Səh. 257.* **Növxəndə çiçəklər** – "İ", 9 iyun 1914, №673; "EM", səh.40-41.

*Səh. 258.* **Yadi-vətən** – "EM", səh.43-45.

*"Nicat"* – 1906-cı ildə Bakıda təşkil edilmiş xeyriyyə cəmiyyəti. Azərbaycanın bəzi başqa şəhərlərində də şöbələri vardı. Hadinin bu şeri "Nicat"ın Şamaxı şöbəsinin işə başlaması münasibətilə yazılmışdır.

*Hacı İbrahim Qasımov* (1886-1936) – tanınmış Azərbaycan publisistlərindən biri "Bəsirət" və s. mətbuat orqanlarının redaktoru; M. Hadinin dostu.

*Əfzələddin Xaqani* – səh. 57-yə aid izaha baxmalı.

*Fələki Şirvani* – XII əsr görkəmli Azərbaycan şairi.

*Bahar Şirvani* – səh. 57-yə aid izaha baxmalı.

*Baği-İrəm* – Klassik ədəbiyyatda behişt mənasında işlədilən məcazi ifadə. Əsatirə görə, guya Babil hökmdarlarından Şəddad saldırdığı bu gözəl bağı cənnətə oxşatmaq istəmiş, lakin bağı gəzməyə gələrkən özü də, bağ da yoxa çıxmışdır. Ədəbiyyatda "Gülüstani-İrəm" şəklində də işlənir.

*Mollağa Bixud* – səh. 57-yə aid izaha baxmalı.

*İbrahim Zülali* – XIX əsr Azərbaycan lirik şairi, 80-ci illərdə Bakıda təşkil olunmuş "Məcməüşşüəra" ədəbi məclisinin üzvü.

*Səh. 260.* **Hüsni-qalib və hüzni-cazib** – "EM", səh.20-23.

*Abdulla Şaiq* (1881-1959) – görkəmli Azərbaycan yazıçısı, pedaqoqu və ictimai xadimi; Hadinin dostu. Onların şəxsi və yaradıcılıq əlaqələri haqqında (bax: *A.Şaiq. "Məhəmməd Hadinin faciəsi". Xatirələrim, Bakı, 1973, səh. 246-254*).

*Səh. 262.* **Ulduzlara doğru** – "SƏ"də bu şerin yazılış tarixi 1914-cü il göstərilir. Lakin onun həmin ildə harada nəşr edildiyini müəyyənləşdirmək mümkün olmadı. 1923-cü ildə isə Bakıda "Maarif və mədəniyyət" jurnalının 3-cü nömrəsində dərc edilmişdir.

Bəşəriyyətin gələcəkdə ulduzlara, başqa planetlərə uçub, "ən qaranlıq sirri açacağı", habelə şimal qütbünü fəth edəcəyi barədə uzaqgörənliklə yazılmış bu şeir təkcə Hadi yaradıcılığı üçün deyil, bütün o zamankı Azərbaycan bədii və elmi-fəlsəfi fikri üçün diqqətəlayiq bir yenilik idi.

*Səh. 262.* **Nasıl yüksəlməli?** – "ŞH", səh.3-5.

Kitabçada qeyd: *"Böyük Tofiq Fikrətə kiçik töhfə".*

Şerin bəzi misralarından vəzn uyğunsuzluğu var.

"Eh"də bu şeirdən qabaq "İctimai, həyati və həkəmi şe'rlər. Bəqayiəlyəq" sərlövhəsi ilə belə bir giriş var:

*"Qırx illik sərmayeyi-həyatını heyvanları tətəbbö və tədqiq etməklə keçirən məşhur və hörmətə layiq bir simayi-hikmətin, ingilis filosofu Darvinin kəşfə müvəffəq olduğu bir həqiqət kitabi-həyatın hər yarpağında oxunur. Bu mə'ruf filosof meydana qoyduğu nəzəriyyəsində xülaseyi-əfkarını şoylə bəyan edir: "Təbiətin əzəli və layətəğəyyər qanunu mövcibincə bu həyat mübarizəsində acizlər, zəiflər özlərindən daha qüvvətli olanlar tərəfindən yeyilərək, əzilərək məhv və nabud olacaqlardır. Ta ki iste'fayi-təbii hasil ola bilsin!". Aşağıdakı dəyərsiz şe'rlərim o təbiətşünas həkimin bu nəzəriyyəsinin ilhamkərdəsidir. Görülən qüsurları cəhlimdəndir. Binaən əleyh əfvə şayandır".*

Bu sözlərdən də göründüyü kimi, 1910-cu illərdə, xüsusilə Birinci Dünya müharibəsi zamanı Hadi sosial-darvinizm təsiri altında olub, bir sıra əsərlərində yaşamaq uğrunda mübarizə və təbii seçmə haqqında təlimi cəmiyyət hadisələrinə tətbiq edir və "həyat mübarizə meydanıdır" ideyasını yayırdı. İdeya-fəlsəfi məhdudluğuna baxmayaraq, şairin bu əsərlərində kapital dünyasının, imperialist müharibəsini törətmiş işğalçıların ifşası çox qüvvətli idi. Bax: *M.Cəfər. Azərbaycan ədəbiyyatında romantizm, Bakı, 1963, səh. 148-167.*

*Səh. 264.* **Cəhalət zənciri və kor gözlü rəhbər** – "ŞH", səh.5.

*Səh. 265.* **Fikrət!** – "ŞH", səh.5-7.

*Ey inqilab şairi, tari-rübabının, Tə'siri olmadı nəğəmi-inqilabının...* Şerin bu və ya başqa misralarında Tofiq Fikrətin məşhur "Rübabi-şikəstə" adlı şeirlər məcmuəsi nəzərdə tutulur. Bu kitab o zaman Azərbaycanda çox oxunurdu. Abbas Səhhət "Sınıq saz" adlı şeirlər məcmuəsinin adını "Rübabi-şikəstə"yə oxşatmışdır. Kitabının müqəddiməsində Səhhət bunu belə etiraf edir: "Əsərlərim sınıq ürəkdən çıxan sızıltılar olduğu üçün fransızların şairi-əziminin "Zərfi-şikəstə" adlı əsərinə və türklərin böyük şairi Tofiq Fikrət bəyin "Rübabi-şikəstə"sinə təqlidən "Sınıq saz" – deyə adlandırdım". *Abbas Səhhət. Əsərləri. İki cilddə. 2-ci cild, Bakı, 1976, səh. 36.*

Yüksəlməyən düşər... misrası haqqında müəllif qeydi: *"Tofiq Fikrət. Xəluqun dəftəri. Bu münəvvər əsəri oxumalı".*

*Səh. 266.* **[Şərq ilə Qərbi müqayisə]** – bu şerini Hadi "Əlvahi-intibah" adı ilə xüsusi vərəqə halında çap etdirərək, Bakının küçələrində satmış və bir neçəsini də dostlarına vermişdir. "23 dekabr 1914" tarixli bu vərəqələrdən

biri Abdulla Şaiqdə qalmışdı. Şeir həmin nüsxə əsasında "Azərbaycan SSR EA Xəbərləri"ndə (1946, II hissə, №5) çap olunmuşdur (çapa hazırlayan və girişi yazan: Əziz Mirəhmədov).

Hadinin bir az yuxarıda təsvirini verdiyimiz "Əlvahi-intibah" adlı daha irihəcmli başqa bir əsəri – poeması da olduğu üçün bu şeri "Xəbərlər"də və indiki nəşrdə "Şərq ilə Qərbi müqayisə" sərlövhəsi ilə çap etmək məqsədəuyğun görüldü.

"Əlvahi-intibah" ilə bu şeir arasında bəzi müştərək motivlərin olmasına baxmayaraq, "Şərq ilə Qərbin müqayisəsi"ni həmin poemanın bir hissəsi hesab etmək doğru olmazdı; çünki bu iki əsər arasında ciddi ideya-məzmun və kompozisiya fərqləri vardır. Başlıca fərqlərdən biri bu əsərlərin hərəsinin özünəməxsus bəndlər sisteminin və nəqəratının olmasıdır.

"Şərq ilə Qərbi müqayisə" əsərində bəndlərin axırındakı *Məsciddə xəlq yatmış...* sözləri ilə başlanan beyt XIX əsrin axırı, XX əsrin əvvəlində yaşayıb-yaratmış bakılı şair Mirzə Əbdülxalıq Yusifin (1853-1924) şerindəndir.

*Balanişini-Məşriq, yainki canlı sayə, Gahi deyir öküzdən, gahi qoşar əsayə* – *Balanişin* – minbərdə oturan. *Canlı sayə* – canlı kölgə; hər iki təşbihdə minbərdən vəz söyləyən müsəlman ruhaniləri nəzərdə tutulur. Beytin ikinci misrası yerin guya öküzün buynuzu üstə dayanması və Musanın əsası haqqındakı əsatirə işarədir.

*"Həl'əta"* – Quranda surə adı.

*"Vəzzüha"* – Ayədən söz. Misranın mənası: vaiz o qədər savadsızdır ki, "Vəzzüha" ayəsini də təfsir edə bilmir.

*Məşriqdə rəhnümamız əzbərləmiş siratı* – Müsəlman ruhanilərinin öz moizələrində cəhənnəm üzərində guya qıl körpü ("sirat") olduğunu iddia etmələrinə işarədir.

*...Yek ləhzə didə begüşa! Bengər beçeşmi-insaf, kon Qərbra təmaşa!* Tərcüməsi: bir an gözünü aç! İnsaf gözü ilə bax, Qərbə tamaşa elə!

*Qəd əşrəqət minəl-Qərb, əşşəmsü vəzzühaha, Ey rəhnümayi-Məşriq! Ma dər ləyali-zülma!* Tərcüməsi: günəş Qərbdən çıxıb, işıq yayır. Ey Şərqin yolgöstərəni, biz zülmət gecədəyik.

*Səh. 271.* **Meydani-hərb xatirələrimdən** – "Övraqi-nəfisə", 27 aprel 1919, №2.

*Səh. 272.* **Ulduzlu bir gecədə müharibə tamaşası və "Şahnamə" şairi-ziiqtidarını xatırlamaq** – "İqdam" qəz., 1915, №10.

Şeir Firdovsinin "Şahnamə"si kimi əruzun təqarüb bəhrində yazılmışdır.

*Əfrasiyab* – əfsanəyə görə, qədim Turan və İran hökmdarları sülaləsinə daxildir. Dovtələbliyi və işğalçı müharibələri ilə məşhurdur.

*"Həl min məzid"* – ayədən parça. Tərcüməsi: yenə əlavə varmı?

*Səh. 275.* **Dilək ölməz** – “Doğru söz” qəz., 23 iyul 1916, №20. Sərlövhənin altında: *“Əməl” nam əsərindən bir yarpaq.*

Bu qeyddə adı çəkilən “Əməl” və ümumiyyətlə, o dövrün bəzi başqa irihəcmli əsərləri haqqında:

Hadi şair dostu Balaqardaş Səttar oğlu Mürşüdə 9 avqust 1916-cı il tarixli məktubunda özünün o zamankı yaradıcılıq fəaliyyəti haqqında məlumat verərək yazmışdır: “Dörd kitab vücuda gətirmişəm: 1. “Əlvahi-intibah”, 2. “Əməl”, 3. “Şərq ilə Qərbi müqayisə”, 4. “Hənuz ad bulamayıram” (Bu məktubun avtoqrafı 1950-ciilədək Azərbaycan Elmlər Akademiyasının Respublika Əlyazmaları fondunda idi: inv. №3620. İtmiş hesab olunur). Bu göstərilənlərdən əlavə, şair öz “sərgüzəştlərini” də qələmə almış və onun yazdığına görə, hələ 1915-ci ilin martında həmin əsərdən 80-90 səhifəlik böyük bir hissə artıq hazır olmuşdur. Hadi sərgüzəştinin “şayani-mütaliə bir kitab olacağını” da qeyd etmişdir.

“*Əlvahi-intibah*” (intibah lövhələri) – şairin çox xoşladığı məcazi ifadələrdəndir. Odur ki, o, “Sovqat”, “Bəsirət” və “Açıq söz” qəzetlərində çap etdirdiyi bir neçə müxtəlif əsərini bu adla adlandırmışdır. Bunların heç biri şairin məktubunda adı çəkilən “Əlvahi-intibah” olmayıb, tərəqqiyə, mədəniyyətə çağıran, cəhalətə, şər əməllərə qarşı üsyankar şeirlərdir. Həmin adla Hadi 1914-cü ildə bir vərəqə də çap etdirmişdir.

Məktubda adı çəkilən əsil “Əlvahi-intibah” – “İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah”[1] adı ilə tanınan fəlsəfi liro-epik poemadır. Əsər 1918-1919-cu illərdə Bakıda üç kitabça şəklində çap olunmuşdur (bu barədə “Bəsirət” və “Azərbaycan” qəzetlərində təmtəraqlı elanlar verilmişdir).

“Əlvahi-intibah” Hadinin həm həcmcə, həm ideya-fəlsəfi məzmun, həm də sənətkarlıq cəhətdən ən diqqətəlayiq əsərlərindəndir. Lakin bu əsərin həcmi haqqında elmi ədəbiyyatda müxtəlif fikirlər vardır. Mir Cəlal onun 18 qitədən (“XX əsr yazıçılarımız Vətən uğrunda”, “Azərbaycan Dövlət Universitetinin əsərləri”, 1945, V cild), Cəfər Xəndan isə 800 misradan (“Ədəbiyyat” dərsliyi, Bakı, 1938, səh. 126) ibarət olduğunu qeyd edir; poemanın bir parçasının nəşr edildiyi “Açıq söz”də (21 yanvar 1916, №91) bu əsərin 1500 beytdən ibarət olduğu göstərilir. Lazımi elmi tədqiqata əsaslanmayan ilk iki rəqəmin həqiqətə uyğun olmadığını söyləmək olar. “Açıq söz”ün məlumatının Hadi hələ cəbhədə olduğu zaman, yəni naməlum bir mənbəyə əsasən yazılması ona da şübhə oyadır. Əldə olan üç kitabçada 50 qitə, 656 misra vardır.

Üslub sadəliyi, ifadə aydınlığı ilə seçilən “Əməl” əsəri bütünlüklə çap olunmamış və avtoqrafı, yaxud əlyazma surəti qalmamışdır. Bu əsərin “Dilək ölməz!” sərlövhəsi və “Əməl” nam əsərimdən bir yarpaq” qeydi ilə çap

---

[1] Aşağıda “Əlvahi-intibah” şəklində yazılacaq.

olunmuş iki parçasına Bakıda çıxan “Doğru söz” qəzetində (23, 30 iyul 1916), yenə “Dilək ölməz!” sərlövhəsi ilə çap olunmuş üçüncü böyük parçasına “Sovqat” qəzeti səhifələrində (31 mart, 1, 2 aprel 1917) rast gəlirik. Hər üç parça bu nəşrdə verilir.

“Şərq ilə Qərbi müqayisə” əsərinə gəldikdə, yuxarıda qeyd edildiyi kimi, onun bir parçası 1914-cü ildə “Əlvahi-intibah” adı ilə, vərəqə halında çap olunmuşdur. Həmin əsərin ikinci parçası yenə “Əlvahi-intibah” sərlövhəsi ilə “Doğru söz”də çıxmışdır. Lakin bu parçanın yuxarıda təsvirini verdiyimiz “İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah”dan olmadığını həm onun məzmunundan, həm də forma xüsusiyyətlərindən görmək mümkündür. Düzdür, “Şərq ilə Qərbi müqayisə” poeması da qitələrdən ibarətdir; lakin bu qitələr “İnsanların tarixi faciələri...” əsərindəki *Baxışlar kölgəli, üzlər bütün naşad şəklində, Bu matəmgahı kim görmüş sürurabad şəklində* beyti ilə deyil, *Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər, Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə* beyti ilə bitir.

Nəhayət, məktubda qeyd olunan adsız əsər haqqında heç bir məlumat əldə edilməmişdir.

*Səh. 277.* **Qış günlərində odlu fəğanlar** – “Bəsirət” qəz., yanvar 1917, №137.

*Səh. 278.* **Acı həqiqətlər qarşısında dadlı xatirələr** – “Sovqat” qəz., 17 fevral 1917, №139.

Şeirdəki *çox bağırdıq ki* təkriri ilə Hadi 1905-ci il inqilabından sonra Azərbaycanda qadınların hüquq bərabərliyi, ictimai həyata cəlb olunmaları, çadranı atmaları və s. mövzuda yazılmış mütərəqqi məzmunlu əsərlərə və ümumiyyətlə, bu sahədəki qabaqcıl təşəbbüslərə işarə edir.

*Səh. 280.* **Əməl** – “Sovqat” qəz., 31 mart, 2, 3 aprel, 23 iyul 1917, №172, 173, 174, 175.

Bu kitabın 300-301-ci səhifələrindəki şeir kimi bu şeir də qəzetdə “Dilək ölməz” sərlövhəsi ilə çap olunmuşdur. Aralarındakı mövzu, məzmun, ideya yaxınlığına baxmayaraq, kompozisiya, üslub və vəzn cəhətindən bir-birindən xeyli fərqlənməsi bu iki şeri eyni əsərin hissələri kimi birləşdirməyə yol vermir. Odur ki, bu kitabda onlar ayrı-ayrı əsərlər kimi çap olunur və bir-birindən fərqləndirilmək üçün ikinci əsər məzmununa müvafiq olaraq şərti “Əməl” adlandırılır.

*Səh. 284.* **Bəşər** – “Sovqat” qəz., 10 fevral 1917, №133.

*Səh. 285.* **Vaxtın səsi və həyatın sözü** – “Bəsirət” qəz., 11 yanvar 1919, №205.

*“Həlyəstəvi” e’lan ediyor həzrəti-Fürqan. Fürqan* – Qurana verilmiş adlardan biri. *Həzrəti-Fürqan* – Məhəmməd. *“Həlyəstəvi”* – Quran ayəsi. Mənası: *bərabərdirmi*?

*Səh. 286.* **Ayrılıq dəqiqələri. Əsgərlər hərbə gedərkən** – “Bəsirət” qəz., 16 dekabr 1918, №200.

*Səh. 287.* **Bədbəxt kor çocuq** – orada.

*Səh. 288.* **Qürbət ellərdə yadi-vətən** – “Azərbaycan” qəz., 1918, №55; 1919, №167.

Üç hissədən ibarət olan bu şerin sərlövhəsi altındakı “Karpat xatirələrindən” qeydi ilə nəşr edilməsi belə bir fikir yarada bilər ki, Hadi bu əsərini dünya müharibəsindən Bakıya qayıdandan sonra, “xatirələri” əsasında yazmışdır. Bu fikri şerin ikinci hissəsinin məzmunu da xeyli qüvvətləndirir. Lakin üçüncü hissənin altındakı “Şəhri-Ensteri 1916” qeydi belə bir qənaət üçün əsas verir ki, əsər 1918-1919-cu illərdə çap olunsa da, onun hər üç hissəsi 1916-cı ildən gec olmayaraq cəbhədə, Karpat dağlarında qələmə alınmış, amma mətbuatda yalnız şair Bakıya qayıdandan sonra çıxmışdır. Şerin birinci və üçüncü hissələrində bir neçə dəfə, təkrar şəklində işlənən *“Karpat üstündəyəm”, “Karpatın dağları nigahımda”, “Çox uzaq olsa da bu tən səndən”* (şair öz vətənini nəzərdə tutur – *Ə.M.*) kimi ifadə və misralar bu son qənaəti daha da qüvvətləndirir.

*Mə’dənin, mənbəyin... sözləri ilə başlanan beyt haqqında müəllif qeydi: “Ustad Əkrəm Rəcaizadə mərhum “qafiyə basirəyə deyil, sameəyə aiddir” – demişdir. Binaənileyh füyuz ilə künuz qafiyə ola bilər”.*

*Səh. 293.* **Aydınlıq bir gecədə təfəkkür dəqiqələri** – “Azərbaycan” qəz., 9, 11 oktyabr 1918, №10, 11.

*Səh. 294.* **Həyati-hazirəmizin ilhamları** – “Azərbaycan” qəz., 19 noyabr 1918, №44.

*Səh. 295.* **Şe’r inciləri** – “Bəsirət” qəz., 26 aprel 1919, №225.

Qəzetdə şerin altındakı *“Qaliça”. Şəhri-Lemberq. 24 noyabr 1918”* qeydində texniki səhv var: *1918* əvəzinə *1917* olmalıdır. Çünki 18 noyabr 1918-ci ildə “Azərbaycan” qəzetində A.Səhhətin vəfatı münasibətilə yazmış olduğu “A.Səhhətin üfuli-əbədisi” məqaləsinin altındakı “Bakı” qeydindən məlum olur ki, o zaman Hadi Bakıda imiş.

*Səh. 296.* **Baharın ilhamları və ictimai rəmzlər** – “Azərbaycan” qəz., 1919, №152, 155.

Şerin ikinci misrasındakı həzarın sözü haqqında müəllif qeydi: *“həzar”, “həzaran”, “həzar dastan” əndəlibi-xoşəlhanın əsamisidir”.*

*Səh. 298.* **Kor soqqur** – “Azərbaycan” qəz., 2 aprel 1919, №170.

Bu şeir 314-cü səhifədəki “Bədbəxt kor çocuğ”un yenidən işlənib məzmunca genişləndirilmiş variantıdır.

*Səh. 299.* **Qəmərə** – “Bəsirət” qəz., 3 may 1919, №227.

*Səh. 301.* **Ey zavallı bəşər** – “Hərarətli şe’rlər” adlı vərəqədə çap olunmuşdur. Tarixi: 18 fevral 1337.

*Səh. 302.* **Hərarətli şe'r və yaxud qızdırmalı halımda saçmalarım** – Vərəqə halında çap olunmuşdur. Tarixi: 18 fevral 1837.

*Səməd Mənsur* (1880-1927) – Azərbaycan şairi və jurnalisti, M.Hadinin dostlarından biri.

## POEMALAR

*Səh. 307.* **Beşikdən məzara qədər bəşərin əhvalı** – "İttifaq" qəz., 13, 15, 16, 17 aprel 1908, №81, 83, 84, 85. Sərlövhədən qabaq: "Kiçik felyeton".

*Bir xaneyi-pürzəlzələdə* ifadəsi haqqında müəllif qeydi: *"Şu aləti-mütəhərrikədir ki, damın dirəklərinə bağlanıb, çocuğu onda yerlləndiriyorlar (yelləncək). Əksərən müsəlmanlarda bulunur".*

*Ustaddə gər tərbiyə yoxsa, söyülür də* misrası "SƏ"də: *Üstası dögər, tərbiyə yoxsa, söyülür də.*

*Acı, yaxıcı məsxərə...* sözləri ilə başlanan beyt "SƏ"də yoxdur.

*Fəqir və biçarə şagirdin...* sözləri ilə başlanan remarka səciyyəli qeyd "SƏ"də yoxdur.

*Sərvətli iki müskirəpərvər...* sözləri ilə başlanan beyt "SƏ"də yoxdur.

*Səh. 320.* **Aləmi-müsavatdan** – "TH", 12, 13, 18, 19, 22, 24 avqust 1908, №185, 186, 189, 190, 193, 194; "Fİ", səh.204-217.

Qəzetdə və "Fİ"da bu əsər "*Ruhülqüds* (dini etiqada görə: 1. müqəddəs ruh; 2. Allahın sözlərini peyğəmbərlərə yetirən Cəbrayılın ləqəblərindən biri – *Ə.M.*) *təbiətimə*" sərlövhəli 19 beytlik bir girişlə başlanır. Burada şair dünya poeziyasında çox təsadüf olunan öz "təb"inə müraciətdən ibarət bədii ifadə üsulundan istifadə edərək, təbini bütün kainatı gəzib dolaşmağa və gördüklərini yazıb mətbuata göndərməyə çağırır.

"Aləmi-müsavatdan" əsərinin bütün əvvəlki nəşrlərində bu giriş nəinki poemadan əvvəl, hətta müstəqil bir şeir şəklində (başqa sərlövhələr kimi iri şriftli sərlövhə ilə və şerin altında "1908" yazılış tarixini göstərmək şərti ilə) verilmişdir.

Bu nəşrdə həmin girişi onun əsil mahiyyətinə müvafiq olaraq poemanın üzvü tərkib hissəsi kimi, "Aləmi-müsavat"dan ümumi sərlövhəsi və "Ruhülqüds təbiətimə" qeydi ilə vermək məqsədəuyğun görüldü.

Qəzetdə müəllif süjetin inkişafı haqqında bir neçə qısa izahat vermişdir; bu bir tərəfdən poemanın yaxşı qavranılmasına kömək etmək məqsədi, digər tərəfdən isə onun qəzetdə təfriqə halında nəşri ilə əlaqədardır. "Fİ"da əsər bütöv halda dərc olunduğundan bu izahların bəzilərinə ehtiyac qalmamış və onlar ixtisar edilmişdir. Çox ola bilsin ki, nəsrlə yazılmış bu izahların ixtisarı şairin öz əsərini janr baxımından "saflaşdırmaq" niyyəti ilə də bağlı olmuşdur.

Poemanın hissələrinin bir-birinə bağlanmasına kömək edən, üslub və ifadəsinə görə onsuz da indi çətin anlaşılan məzmunun müasir oxucuya çatmasını nisbətən asanlaşdıran həmin izahlar, bəziləri istisna olmaqla, bu nəşrdə bərpa edilir.

Qəzetdə "Ruhülqüds təbiətimə" adlı girişin axırında: *"Mabə'di müxbirimizin "Cahani-müsavat məktubları" sərlövhəsi ilə yazdığı əş'ar olacaqdır. Əbdüssəlimzadə M.Hadi".*

Birinci məktubun *Parlardı həqiqət kimi mişkati-bəvariq* misrasındakı *bəvariq* sözü haqqında müəllif qeydi: *"Elektrik çıraqlarıdır".*

Üçüncü məktubdakı *Dinmə, sənə "Bir alim" edər qəzetədə lə'nət* misrası o zaman mətbuatda dini-mühafizəkar məzmunda məqalələr çap etdirən bir "əmmaməli" müəllifə kinayəli işarədir.

Dördüncü məktubun son beytindəki *məscidləri* sözünün yerinə "Fİ"da nöqtələr qoyulmuşdur.

"TH"da həmin məktubun axırında: *"Mühərrir əfəndi! Bu məktubu "Darülşura" otaqlarından birində yazdım. Beşinci məktubum "Parlamento"ya aid olacaqdır. Ruhülqüds".*

Beşinci məktubdan sonra əsərin ardı olacağının vəd edilməsinə (*"...mabə'-dini sonrakı məktubumla irsal edərəm"*) baxmayaraq, qəzetin sonrakı nömrələrində bu əsərin ardı deyil, şairin başqa, yeni şeirləri dərc edilmişdir.

*Səh. 332.* **İranlı qardaşlarıma** – "Tərəqqi" qəz., 17, 27, 28 iyul 1909, №159, 167, 168.

*Beyzavi* (*Qaziyi-Beyzavi*) – XIII əsrdə yaşamış məşhur Şərq üləmalarından biri. "Təfsiri-Beyzavi" əsərinin müəllifi. Qurana ərəbcə şərh yazmışdır.

*Bəhani* (?-1630) – İran alimi, filosofu, şairi və şiə ruhanisi, "Nanü həlva" ("Çörək və halva") əsərinin, "Kəşkül" məcmuəsinin, poetik divanın, habelə "Camei-Abbas", "Hədisi-ərbəin" kimi dini-sxolastik risalələrin müəllifi.

*Xurşid, hilal – ol iki fəvvareyi-ənvar.* Xurşid timsalında şair İranı, hilal timsalında isə Türkiyəni nəzərdə tuturdu.

*Səh. 336.* **İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah** – bu əsər Bakıda 1918-1919-cu illərdə üç kitabça ("cüz") halında çap olunmuşdur. Ətraflı məlumat üçün səh. 275-ə aid izaha baxmalı.

Poemanın birinci misrasına müəllif qeydi: *"Stanislav şəhərində məcruhların fəryad və əfğanını dinlərkən".*

İyirmi yeddinci bəndin üçüncü misrası haqqında müəllif qeydi: *"Belə də oxuna bilər: Gözü qəm çeşməsi, su əskik olmaz çeşməsindən, nəm həm".*

*Demək, a hərfi zaiddir, adındır qaliba dəm həm.* "Adəm" (adam) sözündəki "a" hərfinin artıq olduğunu söyləyən şair, insana əslində "dəm" (qan) adı vermək lazım gəldiyini iddia edir.

Həmin fikir bundan sonrakı misrada başqa şəkildə təkrar olunur.

İyirmi doqquzuncu bəndin beşinci misrasındakı *imrani* sözü haqqında müəllif izahı: *"Kulturni deməkdir"*.

Otuz beşinci bəndin ikinci misrası haqqında müəllif qeydi: *"Belə də oxuna bilər: Cahan çox pirdir, lakin müsibətlər cavandır həp"*.

Otuz beşinci bəndin ikinci misrası haqqında müəllif qeydi: *"Belə də oxuna bilər: Zamanlar ölsə də, hali-bəşər tarixə mədfundur"*.

Otuz doqquzuncu bəndin ikinci misrasındakı məlul sözü haqqında müəllif izahı: *"Bədənin ə'zasından bə'zisi əskik şəxsə "mə'lul" deyilir. "Mə'lulin"* (*Mə'lullar*) *– ə'zayi-bədəniyyəsindən bə'zi və yaxud bə'ziləri əskik olan şəxslər. Müharibə əsnasında ə'zasından bə'zisini qeyb etmiş olanlara "mə'lulin" deyilir; əsakiri-mə'lulə"*.

*Habil, Qabil* – dini əsatirə görə, bəşəriyyətin atası, dünyada ilk insan və ilk peyğəmbər hesab olunan Adəmin oğulları. Qabil guya paxıllıq və qısqanclıq nəticəsində öz qardaşı Habili öldürmüş, sonra peşman olmuşdur. Ədəbiyyatda Habilin bu hərəkəti adətən dünyada insanın ilk cinayəti sayılır.

*Kən'an* – Qədim Finikiya ölkəsi. Fələstin və Suriyanın bir hissəsindən ibarət idi. Guya Nuh peyğəmbərin nəvəsi Kənanın adı ilə adlandırılmışdır. Əsatirə görə, Yəqub və Yusif peyğəmbərlərin vətəni hesab olunur.

*O Lutun qövmü batdı, yerləri viran halında. Lut* – əsatirə görə, peyğəmbərlərdən biri; onun başçılıq etdiyi qövm məhv olmuşdur.

*Çocuqlar həp quzuykən oldular qurban halında* misrası haqqında müəllif qeydi: *"Belə də oxuna bilər: Çocuqlar körpə ikən oldular qurban halında"*.

*Neron Klavdi Sezar* (37-68) – öz siyasi əleyhdarları ilə son dərəcə amansız rəftar edən və ümumiyyətlə, qəddarlıqda ad çıxarmış Roma imperatoru.

*Zərdüşt* – Orta Asiya, Qafqaz və İranda atəşpərəstlərin peyğəmbəri və atəşpərəstlik məzhəbinin banisi; böyük alim, "Avesta" adlı məşhur əsərin müəllifi sayılır. Azərbaycanda doğulduğu və azərbaycanlı olduğu barədə rəvayət də var.

## TƏRCÜMƏLƏR

Məhəmməd Hadinin ərəb və farsdilli ədəbiyyatdan etdiyi tərcümələr müxtəlif vaxtlarda "Füyuzat" jurnalında, qəzetlərdə və "Firdovsi-ilhamat" kitabında çap olunmuşdur. "Seçilmiş əsərlər"ə onların ancaq az bir hissəsi düşmüşdür. Bu tərcümələr indiki nəşrdə nisbətən geniş əhatə olunur.

Əsərlərin bir qismi sərbəst, yaradıcı surətdə tərcümə olunduğuna, mətndə ixtisar və əlavələr edildiyinə görə onların orijinalını müəyyənləşdirmək çətindir (bəzi şeirlərin müəllifi Hadinin özünə də məlum olmamışdır; bax:

"Fİ", səh. 110, 138 və s.). Bu çətinliyin bir səbəbi də odur ki, Ə.Səidzadənin (*"Из истории изучения Низами и азербайджанской литературы", сб. "Низами", Баку, 1947*) və Ə.Mirəhmədovun ("Məhəmməd Hadinin Nizamidən tərcümələri", "Ədəbiyyat qəzeti", 30 iyun 1947, №18) məqalələri istisna olmaqla Hadinin tərcüməçilik fəaliyyəti, demək olar, öyrənilməmişdir.

*Səh. 359.* **Ədl-zülm, yaxud bir xərabəzarın mənzərəsi** – "Fİ", səh.88-90. Tərcüməçinin qeydi: *Gəncəvi həzrət Nizaminin "Xəmsə"sindən tərcümə".*

Bu şeir Nizaminin "Sirlər xəzinəsi" əsərindəndir.

*Səh. 361.* **[Cövlangəhi-fikr olursa vase]** – "Fİ", səh.202.

*Səh. 362.* **Cavanmərdlik** – "F", 13 aprel 1907, №15; "Fİ", səh.40-42. "F"da sərlövhə: *"Cavanmərdlik və yaxud Fəzaili-aliyyə"* və tərcüməçinin qeydi. *"Bustan"i-Sə'didən tərcümə".*

*Səh. 363.* **Şamda qəhətlik** – "F", 15 avqust 1907, №25; "Fİ", səh.90-93. Sərlövhə: *"Mə'rəzi-ibrət, yaxud Şamda qəhətlik".* Tərcüməçinin qeydi: *"Bustani-Sə'didən tərcümə".*

"F"da şerin axırında əlavə beyt:

*İlahi! Bizləri ibni-təriq et,*
*Bizə tövfiqini yar et, rəfiq et!*

*Səh. 365.* **Hekayeyi-eşq** – "F", 19 oktyabr 1907, №30; "Fİ", səh.110-111. "F"da mütərcim qeydi: *"Qailini məəttəəssüf bilmədiyimiz şu hekayeyi-mənzumeyi-lətifəyi tərcümə etmədən keçəmədik".* Jurnalda şerin farscası da verilmişdir. "Fİ"da qeyd: *"Əş'ari-farsiyyədən tərcümə".*

*Səh. 366.* **Məhəmmədəli mirzənin nəzəri-diqqətinə ədalətli bir vəsiyyət** – "İttifaq" qəz., 25, 30 mart, 3 may 1909, №66, 69, 98.

İki hissədən ibarət olan bu şerin "Ədalətli bir vəsiyyət" sərlövhəli birinci parçası Sədi Şirazidən iqtibasdır. Bu barədə qəzetdə belə bir qeyd var: *Ədibi-kamil Sə'dinin "Bustan"ından dərilmiş* və *bə'zi fikirlər dəxi əlavə edilmişdir"* ("İttifaq", 25 mart 1909, №66).

"Xosrovun Şiruyəyə nəsihəti", qəzetdəki qeyddən də məlum olduğu kimi, *"Sə'didən tərcümədir"* ("İttifaq", 30 may 1909, №98).

*Səh. 366.* **[Əgər insaf ilə sorsan, həqiqət]** – "Fİ", səh.203.

*Səh. 366.* **Mütaliəyə dair** – "Fİ", səh.203. "Ərəbcədən" qeydi ilə çap olunmuş bu tərcümənin müəllifi məlum deyil.

*Səh. 371.* **Nəsimi-səbayə niyaz** – "H", 4 aprel 1906, №73; "Fİ", səh.117-118. "X"da sərlövhə: *"Nəsimi-səbayə".* Qəzetdə və "Fİ"də qeyd: *"Hafizdən tərcümə".*

*Səh. 371.* **Zümzümeyi-aşiqanə** – "F", 23 iyun 1907, №20; "Fİ", səh.36-37.

*Asəf* – əsatirə görə, Süleyman peyğəmbərin çox ağıllı və tədbirli vəziri olmuşdur. Şərq poeziyasında ağıllı adam timsalı kimi yad edilir.

*Cəmşid* – İran əsatirində kef və şadlıq timsalı kimi yad edilən mövhum hökmdar. Poeziyada müxtəsər şəkildə Cəm adlanır. Şərqdə *Cami-Cəmşid* (Cəmşidin qədəhi) ifadəsinə də çox təsadüf olunur.

*Səh. 372.* **Dinlə, gözəlim!** – “TH”, 7 may 1908, №102; “Fİ”, səh.150-151. Qəzetdə və “Fİ”da qeyd: *“Hafizdən tərcümə”.*

*Səh. 373.* **Ümidi-visali-canan, yaxud qəm yemə** – “Fİ”, səh.118-118. Tərcüməçinin qeydi: *“Hafizdən tərcümə”.*

M.Ə.Sabirin “Mahi-Kənanın batıb, ey piri-Kənan, qəm yemə!” şeri bu tərcüməyə parodiyadır. “Molla Nəsrəddin” jurnalının 2 iyun 1906-cı il tarixli 9-cu nömrəsində çap olunmuş həmin şerin ilk bəndi Hafizin qəzəlinə nəinki məzmunca yaxındır, hətta Sabir bu bənddə Hadinin tərcüməsindəki bir sıra söz və ifadələri eynilə işlətmişdir.

*Mahi-Kən’anın batıb, ey piri-Kən’an, qəm yemə!*
*Ta gülüstanın olubdur beyti-əhzan, qəm yemə!*
*Ey dili-möhnətzadə, ol şad, ləbrizi-sürur,*
*Kəsbi-naməordi qılar əfkarü vicdan, qəm yemə!*

*M.Ə.Sabir. “Hophopnamə”. 1-ci cild, səh. 40.*

Əsərin sonrakı bəndlərində Sabir Hafizin aşiqi səbr etməyə çağıran dini-aşiqanə qəzəlindən fərqli olaraq, “rəiyyət”in, “fəqirü fəhlə”nin, “dehqan”ın istismar olunduğunu göstərib, əksmənalı xitablarla onların sinfi şüurunu və azadlıq meyllərini qüvvətləndirməyə çalışır. Əsərin son bəndində inqilabçı satirik yenə Hadinin tərcüməsindəki bəzi söz və ifadələrə müraciət edir.

*Mustafa* – Məhəmmədə verilmiş ləqəblərdən biri.

*Şahi-mərdan* – şiələrin imamı Əliyə verilmiş ləqəblərdən biri.

*“Lisanül-qeyb”* – lüğəti mənası: qeybdən xəbər verən. Məşhur Şərq klassiki Əbdürrəhman Caminin Hafiz Şiraziyə verdiyi ad.

*Səh. 375.* **Təraneyi-tövhid** – “F”, 16 iyul 1907, №22; “Fİ”, səh.108-110. “F”da sərlövhə: *“Tövhid”,* “Fİ”da Hadinin qeydi: *“Ədib-həkim Sənai Qəznəvidən tərcümə”.*

*Şəhadət kəlməsində hərfi “la”dan mə’na oldur kim, – dedikdə “lailah” ondan bə “illəllah” məbda qıl.* Burada “lailahə illəllah...” ifadəsi ilə başlanan kəlmeyi-şəhadətdən (Allahın birliyi haqqında mömin müsəlmanın şəhadəti, iqrarı) bəhs olunur. Şair demək istəyir ki, “lailah” (Allah yoxdur) söylərkən bə “iləllah” (Allahdan başqa) müddəasını birinci, baş mətləb hesab et.

*Dara* (birinci) – e.ə. 522-486-cı illərdə İran hökmdarı olmuşdur. İran quldarlıq dövlətini möhkəmlətmək məqsədilə bir sıra islahatlar aparmışdır.

*Dilin Vamiq kimi ayineyi-didari-Əzra qıl.* Orta əsrlər Yaxın və Orta Şərq poeziyasında “Vamiq və Əzra” süjeti çox yayılmışdır. “Leyli və Məcnun”,

“Xosrov və Şirin” kimi, bu süjetin də əsasını gənc sevgililərin məhəbbət macəraları təşkil edir. Misra Vamiqin öz məşuqəsi Əzraya sonsuz məhəbbətinə işarədir.

*Səh. 377.* **Bir iranlının lisanından** – “TH”, 7 sentyabr 1908, №205; “Fİ”, səh.179-180.

“TH”da şeirdən qabaq: *“İran ədəbiyyatı. Qulamhüseyn Hammal İrani arxasında böyük bir sandıq, sandığın üstündə dolu bir məfrəş hammal ipi ilə şələlənib, beli ikiqat əyilib, şələsini şələ sahibi xahiş edən yerə apara-apara belə tərənnüm eləyir”.* Bu qeyddən sonra şerin farsca mətni və Hadinin tərcüməsi verilir.

*Səh. 378.* **Nizaminin övladına nəsihəti** – “F”, 18 sentyabr 1907, №27; “Fİ”, səh.62-64. Tərcüməçinin qeydi: *Gəncəvi həkim Nizaminin “Xəmsə”sindən tərcümə edilmişdir”.*

*Səh. 379.* **Zahirpərəst alimlərə** – “Fİ”, səh.139.

*Səh. 380.* **Təraneyi-zəfər** – “İttifaq” qəz., 26 fevral 1909, №47; Qəzetdə qeyd: *“Nəsimi-şimal” cərideyi-farsiyyədən tərcümə”.*

*“Nəsimi-şimal”* – 1907-1912-ci illərdə tərəqqipərvər şair və jurnalist Seyid Əşrəf Gilaninin (1872-1934) redaktorluğu ilə çıxan qəzet; İran inqilabı ideyalarını yayır, irticanı ifşa edirdi. S.Ə.Gilani M.Ə.Sabirin təsiri ilə şeirlər yazmış, onun bir çox əsərini tərcümə edib “Nəsimi-şimal”da buraxmışdır. Bax: *Əziz Mirəhmədov. Sabir. Bakı, 1958, səh. 392-398.*

*Əhli-həsəd rəğminə ol ərcümənd, – Eylədi iranlıları sərbülənd* – Səttarxanın rəşadətinə işarədir.

*Oldu Süpəhdar bizə pasiban, Bəli, o da yarü həvadarınız.* İranın iri feodallarından Süpehdar inqilabın ilk mərhələsində Məhəmmədəlişaha düşmən olub, fədailərə kömək edirdi, lakin sonra irtica cəbhəsinə keçmişdi. Bax: *История Ирана, М., 1977, с. 284-285.*

*Rəşt behişt oldu o Salar ilə. “Salar”* (yaxud “Salari-milli”) – Səttarxanla birlikdə İran inqilabına rəhbərlik edən Bağır xana verilən ləqəbdir. 1909-cu ilin əvvəlində onun bilavasitə başçılığı ilə Rəştdə inqilabi çevriliş edilmişdi.

*Səh. 382.* **Bir sərgüzəşti-xunin** – “İttifaq” qəz., 13, 20 fevral, 2, 3, 8 mart 1909, №36, 42, 49, 50, 61.

*“Şurayi-ümmət”* (Milli məclis) – 1908-ci il Türkiyə inqilabına başçılıq edən “İttihad və tərəqqi” firqəsi rəhbərlərindən Əhməd Rzanın (1850-1930) Parisdə türk dilində nəşr etdirdiyi qəzet.

*Katyul Mendes* (1841-1909) – fransız yazıçısı, məşhur “Parnas” ədəbi qrupunun üzvü, “Revyü Fantasist” jurnalının banisi, novellalar, romanlar, mifoloji süjetli “Medeya” faciəsinin müəllifi.

*İştə əkinçidir o, Zahirdə hürrü sərbəst...* – Bu və bundan sonrakı bir neçə misrada çar Rusiyasında 1861-ci il kəndli islahatının yoxsul, təhkimli kənd-

liləri ancaq sözdə azad etdiyi, əslində isə, onların, əvvəlki kimi, yenə ehtiyac və məhrumiyyət içində yaşadıqları, "acından torpaq yedikləri" göstərilir.

*...Əmvalıdır fəqirin, Qəsb eyləmiş hökumət* misrasındakı *hökumət* sözü qəzetdə *...mət* şəklində getmişdir. Bu sözün kökünü kimin (mütərcim, redaksiya, yaxud çar senzurası?) atdığı barədə hələlik heç bir məlumat yoxdur.

*Aya nasıl bəşərdir – Bu firqeyi-dənaət?..* beyti ilə əlaqədar mütərcim qeydi: *"Bir sərgüzəşti-xunin"in bu yerlərində şayani-əhəmiyyət, bə'zi həqiqətlər vardı. Mühitimiz, millətimiz bu həqiqətləri həzmə qadir ola bilməyəcəyindən sərfi-nəzər edildi".*

*Səh. 394.* **Tövbə-istiğfar** (məzhəkəli şeirlər) – "İttifaq" qəz., 21, 22 may 1909, №114, 115. Tərcüməçinin qeydi: "Nəsimi-şimal"dan tərcümə.

Şerin ideya məzmunu və üslub xüsusiyyətləri onun Seyid Əşrəf Gilaninin əsəri olduğunu güman etməyə əsas verir.

*Səh. 398.* **Hər gülşəndən bir çiçək** – "Fİ", səh.136-139. Sərlövhə: *"Farscadan tərcümələr, yaxud hər gülşəndən bir çiçək".* Hadi fars dilindən bir sıra başqa tərcümələr də etdiyinə görə bu silsiləyə daxil olan şeirlər yalnız "Hər gülşəndən bir çiçək" kimi orijinal sərlövhə ilə verilir.

*Səh. 400.* **İlhami-Xəyyam** – "İqbal" qəz., 24 mart, 3, 7, 12, 25 avqust 1914, №608, 703, 706, 709, 715, 720. Sərlövhədən qabaq: *"Həzrət Xəyyamın şe'rlərini tərcüməyə cür'ət edirəm".*

RƏF-də Hadinin "Pəyami-Xəyyam" sərlövhəli naqis bir avtoqrafı vardır (M-210, 8822): başlanğıcda iki səhifə və ortada səkkizinci səhifə düşüb. Avtoqraf üzərində şair bir neçə düzəliş etmişdir. "İ"dakı birinci, ikinci və axırıncı rübailər avtoqrafda yoxdur.

Ömər Xəyyam ədəbi irsinin atribusiyası ətrafında uzun zamandan bəri gedən elmi mübahisə hələ də davam etdiyinə görə Hadinin 1914-cü ildə tərcümə etdiyi 11 rübaidən hamısının ya bir qisminin cahanşümul filosof-şairin qələmindən çıxdığını söyləmək imkan xaricindədir. Bu barədə bax: *Краткая Литературная Энциклопедия, cild 5, M., 1968.*

Qəzetdə rübailərin tərcüməsinə yazılmış müxtəsər girişdəki ilk şeir bəndi (*Mövti-cismani ilə...*) Seyid Əzim Şirvaninindir.

"İ"da ikinci rübainin altında tərcüməçinin qeydi: *Bakı, 23 mart 1914.*

Üçüncü və dördüncü rübailər qəzetdə *"Pəyami-Xəyyam. Layəmut şairin ölməz sözləri (tənqidiyyuna ithaf)"*, sonrakı rübailər isə qoşa-qoşa, sadəcə, *"Pəyami-Xəyyam"* sərlövhəsi ilə çap olunmuşdur.

# LÜĞƏT

## A

*Abid* – ibadət edən, dindar
*Adab* – adətlər, ənənələr; qaydalar
*Afaq* – üfüqlər; mənzərə, görünüş
*Aftab* – günəş
*Ağaz* – başlama, başlanğıc
*Ağuş* – qucaq
*Ahən* – dəmir
*Ahəngi*-lahud – ilahi səs; ilahi niyyət
*Ahənvücud* – dəmir gövdəli
*Ahuvəş* – ceyrana bənzər, ceyran kimi
*Axirüləmr* – işin axırında; nəticədə
*Alam* – ələmlər, qəmlər
*Aləmi-imkan* – varlıq aləmi, bütün dünya
*Aləmi-nasut* – insanlar aləmi, zahiri aləm
*Aləmpərvər* – insanları sevən, humanist
*Aləmtab* – aləmə, dünyaya işıq verən
*Alihimmət* – çox səy göstərən, uca himmətli
*Alimanə* – alim kimi, alimə layiiq bir tərzdə
*Alimənsəb* – yüksək vəzifə, ixtiyar sahibi
*Alimnüma* – özünü alim kimi göstərən
*Alimpəsənd* – bəyənilmiş, seçilmiş alimlər; ziyalılar
*Alül'alə* – ən yüksək dərəcə, ən ali
*Amac* – nişanə, hədəf
*Amadə* – hazır
*Ani-cahan* – dünyanın gözəlliyi
*Arayiş* – bəzək, zinət
*Arzumənd* – arzusu olan, arzulayan
*Aşiyan* – məskən, sığınacaq
*Aşüftə* – həyəcanlı, qarmaqarışıq, qarışmış
*Aşüftəhal* – həyəcanlı; halı pozğun, bikef
*Atəşbar* – od yağdıran, hərarətli
*Atəşfişan* – od yağdıran
*Ati* – gələcək, gələcək zaman
*Atiyun* – gələcək zamanın adamları
*Avər* – gətirən, gətirici
*Avilə* – tavandan aşılmış lampa; çılçıraq
*Ayat* – ayələr
*Ayəndə* – gələn və gedən; gələcək zaman
*Ayınəvəş* – güzgüyə bənzər; gözəl
*Azadədil* – qəlbi, könlü azad, sərbəst
*Azim* – qəti qərar verən; bir yerə hərəkət edən
*Azürdə* – əziyyət görmüş, qəmli

## B

*Bab* – qapı; məsələ, mövzu
*Bad* – külək
*Baqi* – daimi, əbədi
*Bala* – üst, yuxarı
*Baliğ* – yetkin; mənalı
*Balü pər* – qol-qanad
*Barid* – soyuq, buz qatı
*Bariqə* – işıltılı, parlaq; od-alov; ildırım
*Başitab* – tələsik, tez
*Bavər* – inam, etibar
*Bazəndə* – oynaq

*Baziçə* – oyuncaq
*Baziçəgah* – oyuncaq yeri, oynanılan yer
*Behcətabad* – sevinc və şadlıqla dolu olan yer
*Beyt* – ev
*Beytüləhzən* – matəmlər evi, qəmlər məhəlləsi
*Bədətvar* – hərəkətləri, xasiyyəti kobud olan
*Bədiə* – heyrət doğuran yenilik, ixtira
*Bəhanəhayət* – sonsuz, tükənməz
*Bəhayi* – bəhayilik məzhəbinə mənsub olanlar
*Bəhayim* – heyvanlar
*Bəhimanə* – heyvancasına
*Bəqa* – əbədi olan
*Bəladidə* – bədbəxtliyə düçar olmuş; bəla görmüş
*Bəlahət* – əbləhlik, axmaqlıq
*Bələdə* – kiçik şəhər, qəsəbə
*Bənan* – barmaq, barmağın ucu
*Bərdar* – xeyir verən
*Bərg* – yarpaq, varaq
*Bərq* – parıltı, parlama; ildırım, şimşək; işıq
*Bərraq* – çox parlaq, parıltılı
*Bəsa* – çox, xeyli
*Bəşarət* – igidlik, qəhrəmanlıq, qoçaqlıq
*Bəyyin* – aşkar, aydın
*Bəz'əks* – tərsinə, əksinə olaraq
*Bəzl* – bağışlama, səxavət
*Bəzm* – məclis, yığıncaq
*Bibəsər* – anlamaz; qəflətdə olan
*Bid'ət* – köhnə fikirli adamların bəyənmədiyi yenilik
*Bidar* – ayıq, xəbərdar
*Bimaəl* – mənasız, məqsədsiz
*Bimar* – xəstə, naxoş
*Bişümar* – çox, sayı bilinməyən
*Büğz* – ədavət, nifrət
*Büka* – ağlama
*Bül'əcəb* – qəribə, təəccüblü
*Bünyan* – bina, özül, təməl
*Bürhan* – dəlil, sübut

**C**

*Caddə* – geniş yol
*Cah* – məqam, rütbə; hörmət
*Cahantab* – dünyaya işıq salan, aləmi işıqlandıran
*Cahilanə* – anlamazcasına
*Caiz* – mümkün ola bilən; icrasına icazə verilmiş
*Cakgiriban* – yaxası yırtıq, yaxası açılmış
*Calib* – cəlb edən, cəzb edən
*Canbəxş* – canlandıran, can verən
*Cangüdaz* – kədər törədən, can yandıran
*Canpərvər* – həyatverici; canlandırıcı
*Cansuz* – can odlayan, ürək yandıran
*Carihədar* – yaralı
*Cavidanə* – əbədilik, daimilik
*Cayı-təəssüb* – heyrət, təəccüb yeri
*Cazib* – cazibəli, cəlbedici
*Ceyş* – qoşun, ordu
*Cəbəl* – dağ
*Cəbinsa* – təzim edən, alnını torpağa sürtən
*Cədəl* – qalmaqal, qovğa
*Cədəlgah* – döyüş meydanı, döyüş yeri
*Cədid* – yeni, təzə
*Cəfapişə* – zülmkar, zalım

*Cəhim* – cəhənnəm
*Cəhlpərvər* – cəhalət tərəfdarı; elm və mədəniyyət düşməni
*Cəlladi-səfagüştər* – əzab verən, incidən cəllad
*Cərahət* – yaralar
*Cərayid* – qəzetlər
*Cəridə* – qəzet
*Cərihə* – yara
*Cərihəzən* – yaralayan
*Cəzzab* – cəzb edən, özünə tərəf çəkən
*Cilvəpira* – cilvələnmə, nazlanma
*Cinan* – behiştlər, cənnətlər
*Cövdət* – üstünlük, qabiliyyət
*Cuşan* – qaynayan, coşan, dalğalanan
*Cuyan* – axtaran, araşdıran
*Cühəla* – cahillər, nadanlar
*Cünbüş* – zövq, əyləncə
*Cürm* – günah, cinayət, təqsir

**Ç**

*Çah* – quyu
*Çak* – yarıq, yırtıq
*Çarəsaz* – çarə görən, tədbir tökən
*Çarəyab* – çarə tapan; nicat tapma
*Çeşm* – göz
*Çəmənzar* – çəmənlik, yaşıllıq
*Çəmənzari-fəna* – yoxluq çəmənliyi; pislik çəmənliyi
*Çəragah* – otlaq
*Çöhrənüma* – çöhrəni göstərən; güzgü; aydınlaşan, zahir, aşkar

**D**

*Dad* – ədalət, bəxşiş; dad-fəryad
*Dam* – tələ, tor
*Damən* – ətək
*Dana* – bilici, alim
*Daniş* – bilik, elm
*Dar* – böyük ev, məskən
*Daraf* – dəbdəbə, cəlal
*Darül'elm* – elm evi, elm mərkəzi
*Darül'ədəb* – ədəb evi
*Darülqərari-hürriyyət* – hürriyyət məkanı, azadlıq qərar tutan yer
*Darülməlal* – qəm-qüssə evi
*Darülrəzalət* – alçaqlıq, rəzalət evi
*Davvar* – dövr edən, daima dolanan
*Dəbistan* – məktəb
*Dəhhaş* – dəhşətli
*Dəlail* – dəlillər, sübutlar
*Dənaət* – alçaqlıq, zəlillik
*Dənaətgüstəran* – alçaq, xəbis, murdarlar
*Dəni* – alçaq, rəzil
*Dərağuş* – qucaqlama, qucağına alma
*Dərdəst* – ələ keçirmə, tutub saxlama
*Dəsturüləməl* – təlimat
*Dildadeyi*-sərvət – sərvətə, var-dövlətə könül vermiş; sərvət aşiqi
*Diləfruz* – ürək işıqlandıran, könül açan
*Dilfikar* – ürəyi yaralı
*Dilfirib* – könül aldadan, cazibədar
*Dilsəyyad* – könül ovlayan, gözəl
*Dirəxşan* – parlaq, işıq saçan
*Dirəxti*-xüskü bibər – qurumuş bibər ağacı
*Dirəxti*-sayədar – kölgəli ağac
*Dud* – tüstü
*Dun* – alçaq, zəlil; aşağıda olan
*Duşizə* – cavan qız; bakirə
*Duzəx* – cəhənnəm

*Duzəxəndam* – cəhənnəm gövdəli
*Düxtər* – qız
*Dürc* – daş-qaş qutusu, mücrü
*Dürri-yekta* – nadir, misilsiz inci
*Düşvar* – çətin

## E

*E'cab* – təəccüblənmə, heyran olma
*E'mar* – abad etmək
*E'tila* – yüksək dərəcəyə nail olma
*Ehraq* – yandırma
*Ehraz* – qazanma, əldə etmə, nail olma
*Ehsas* – hiss etmə, sezmə
*Ehtizaz* – əsmə, vibrasiya, titrəmə
*Ehya* – bərpa etmə
*Ehzar* – hüzura gətirmə, çağırma
*Elmi-əbdan* – təbiət elmləri
*Elmüləbdan* – fiziologiya
*Eyd* – bayram
*Eydi-zişan* – şanlı bayram
*Eyn* – göz; gözə görünən varlıq
*Eyni-həqbin* – doğru görən göz; düz adam
*Ezaz* – əzizlər; əzizləmə

## Ə

*Ə'da* – düşmənlər
*Ə'ma* – kor, nadan
*Əbdan* – bədən
*Əbkəm* – dilsiz, lal
*Əbna* – oğullar
*Əbsar* – gözlər
*Əbyat* – beytlər
*Əcanib* – əcnəbilər, xaricilər
*Əcsam* – cisimlər
*Ədalətpərvər* – ədalətli, insaflı
*Ədlsənc* – ədalət ölçən; ədalət icra edən
*Ədu* – düşmən
*Ədvar* – dövrlər
*Ədyan* – dinlər
*Əfif* – namuslu, iffəfli; saf, təmiz
*Əfkar* – fikirlər
*Əfrad* – fərdlər
*Əfsürdə* – solmuş, saralmış
*Əğniya* – dövlətlilər
*Əhbab* – dostlar
*Əhrar* – azad adamlar
*Əhvahi*-intibah – intibah lövhələri
*Əhzan* – hüznlər, kədərlər
*Əxgər* – kül qarışıq qor, köz
*Əksəndaz* – əks etmə; şəkil salma
*Əqran* – tay-tuşlar; yoldaşlar
*Əqvam* – qövmlər, millətlər, tayfalar
*Əlehirrəhmə* – ona rəhmət olsun
*Ələddəvam* – daimi surətdə, ara kəsmədən
*Ələftəkrar* – təkrar olaraq
*Əlhan* – gözəl səslər, gözəl mahnılar
*Əlməktəbi* – məktəbə, məktəbə...
*Əlvah* – lövhə
*Əlvah* – lövhələr
*Əmvat* – meyidlər
*Əncüm* – ulduzlar
*Əncümən* – məslis, toplanış; məktəb
*Əndəlib* – bülbül
*Ənvar* – işıqlar, nurlar
*Ənzar* – nəzərlər, baxışlar
*Ərsə* – boş yer, meydan
*Ərvah* – ruhlar
*Əsəfbəxş* – qussə, kədər gətirən
*Əshab* – sahiblər, tərəfdarlar
*Əshar* – səhər
*Əsqam* – bədbəxtliklər

*Əsmar* – səmərələr, xeyir nəticələr
*Əsrar* – sirlər
*Əşcar* – ağaclar
*Əşxas* – şəxslər, adamlar
*Əşkbar* – göz yaşı axıdan
*Əşkvar* – göz yaşı axıdan
*Ətf* – dönmə, çevrilmə
*Əvail* – əvvəllər, bağlanğıclar
*Əvalim* – aləmlər
*Əvalim* – aləmlər, dünyalar
*Əyyuhəl*-ixvan – ey insan
*Əzha* – qurban
*Əzhar* – güllər, çiçəklər
*Əzhər* – aydın, aşkar, bəlli
*Əzzan* – ucuz

**F**

*Faciəza* – faciəli
*Faidəbəxş* – fayda verən, faydalı
*Fariq* – ayıran, ayırıcı, fərqləndirən
*Fariqülbal* – ürəyi asudə, dinc, qayğısız
*Fasid* – qarışıq, pozğun; fəzad törədən
*Fatir* – yaradan, xəlq edən
*Feyzabad* – feyz yurdu, bərəkət ölkəsi
*Feyzbəxş* – müvəffəqiyyətə səbəb olan
*Feyzrəsan* – həzz gətirən, sevinc artıran
*Feyzrəsən* – feyz yetirən
*Fədakaranə* – can-başla, fədakarcasına
*Fəhham* – anlayışlar
*Fəqahət* – fiqh elmindən əsaslı xəbərdarlıq
*Fəqih* – fiqh alimi
*Fəqiranə* – yazıqcasına
*Fəlah* – nicat, qurtuluş
*Fələkzadə* – bəxtsiz, dalesiz
*Fəmkuşa* – ağız açan, danışan
*Fəna* – pis
*Fəramuş* – unutma, xatirdən çıxma, yaddan çıxarma
*Fərda* – gələcək; ertəsi gün
*Fərəhabad* – fərəh yeri, sadlıq yeri
*Fərəhavər* – fərəh gətirən
*Fərəhbəxş* – fərəh verən
*Fərəhəfza* – fərəh ardıran
*Fərxəndəxisa*l – gözəl xasiyyətli
*Fərmayiş* – buyruq, əmr
*Fərsudə* – köhnəlmiş, solmuş
*Fəsahət* – asan və səlis danışma və ya yazma
*Fəttan* – fitnə və fəsad salan; məftun edən
*Fəvaid* – faydalar
*Fəzail* – fəzilətlər
*Fəzxəndəxisa*l – uğurlu, xoşbəxt xasiyyət
*Fikrət* – düşünmə, fikirləşmə
*Firdövs* – bağça, sənnət, behişt
*Fitnəəngiz* – fitnə törədən
*Fitrət* – yaradılmış, xəlq olunmuş
*Fövc* – dəstə; camaat
*Fövqəttürab* – torpağın üstü, yuxarı
*Fünun* – fənlər, elmlər
*Füruğ* – işıq, nur, ziya
*Füsəha* – gözəl danışanlar
*Füyuz* – bolluq, bərəkət
*Füyuzat* – feyzlər
*Füzəla* – ağıllı adamlar

**G**

*Gəhvarə* – beşik
*Gənc* – xəzinə
*Gərdun* – dönən, dövr edən

*Giran* – ağır, baha
*Giranbəha* – baha qiymətli
*Giriban* – yaxa
*Girizan* – qaçan, qaçmağa üz qoyan
*Giryan* – ağlayan, gözü yaşlı
*Giryə* – ağlama, zarıma
*Giryəfəşan* – göz yaşı tökən, ağlayan
*Giysu* – saç
*Gunagun* – cürbəcür, növbənöv
*Guşdar* – qulaq asan, dinləyən
*Gülbang* – bulbul nəğməsi, bülbül cəhcəhi
*Gülşənzar* – çiçəklik
*Gümrah* – yolunu azmış, doğru yoldan çıxmış
*Gürg* – canavar
*Güruh* – camaat, böyük dəstə
*Güşad* – açıq, aydın
*Güvah* – şahid
*Güyani*-raz – söylənən sirr
*Güzərgah* – keçiləcək yer, keçid

**H**

*Hacət* – ehtiyac, lüzum
*Hadi* – doğru yol göstərən, bələdçi
*Haliyun* – indiki zamanda yaşayanlar
*Haruf* – sehr yaradan mələk
*Hasid* – paxıllıq edən, qısqanan
*Hatif* – qeybdən gələn səs
*Havi* – əhatə, ehtiva edən
*Hayiz* – malik olan, sahib
*Heyrətbəxş* – heyrətə salan
*Heyrətəfza* – heyrət artıran
*Həbib* – sevgili, dost
*Həbl* – bənd, rabitə
*Həblülmətin* – möhkəm, davamlı ip, kəndir
*Hədid* – hiddətli; dəmir
*Hədiqə* – bağca, bağ
*Həqayiq* – həqiqətlər
*Həqiranə* – alçaqcasına, həqircəsinə
*Həqqaniyyət* – ədalət, insaf
*Həqqülyə'*qin – inkaredilməz həqiqət
*Həqnaşünas* – haqq-say itirən
*Hələvat* – dadlılıq, şirinlik
*Həmağuş* – bir-birini qucaqlama
*Həmidəxisal* – gözəl xasiyyətli
*Həmvar* – uyğun, münasib
*Həngam* – zaman, vaxt
*Həp* – bütün
*Hərbcü* – davakar, müharibə qızışdıran
*Hərəsan* – qorxaq, hürkək
*Həşr* – qiyamətdə ölülərin dirilib toplaşması
*Həvadis* – hadisələr
*Həyula* – eybəcər; qeyri-adi şəkildə olan bir şey
*Həyula* – xəyal, vahimə, xəyalət; qeyri-adi
*Həyy* – diri
*Həzizi*-məskənət – ən aşağı yer
*Həzyan* – mənasız sayıqlama
*Həzzyab* – həzz alan
*Hidayət* – yol göstərən, rəhbərlik
*Hikmətnümun* – hikmət yolu göstərən
*Hikmətpərvər* – hikmət sahibi
*Himar* – uzunqulaq
*Hirman* – məhrum olma; xaric olma
*Huşyar* – ayıq, ağıllı
*Hübb* – məhəbbət, sevgi
*Hübbülbəşər* – bəşər məhəbbəti
*Hübbülvətən* – vətən sevgisi
*Hücumavər* – hücum edən
*Hüda* – doğru yol, rəhbərlik

*Hümra* – qirmızı
*Hürr* – azad, azad adam
*Hüznavər* – hüzn gətirən
*Hüzni-ümumi* – ümumi kədər
*Hüzuz* – həzlər, ləzzətlər

**X**

*Xabalud* – yuxulu, yuxu basmış
*Xabgah* – yataq, yatacaq, yatmaq yeri
*Xah* – iştəyən, arzu edən
*Xahan* – istəyənlər, arzulayanlar
*Xakdan* – zibillik, küllük; dünya, aləm
*Xakistər* – kül
*Xaliqülbəşər* – insanları yaradan Allah
*Xameyi-möhnətnəvis* – möhnətləri yazan qələm
*Xamə* – qələm; üslub
*Xari-şəqavət* – zəlillik, bədbəxtlik, yaramazlıq
*Xarü xəs* – çör-çöp
*Xeyrülbəşər* – insanların ən yaxşısı
*Xədəng* – ox
*Xəfa* – gizli, məxfi
*Xəlayiq* – məxluqat, insanlar
*Xələcan* – təşviş, həyəcan
*Xəmidə* – əyilmiş, beli bükülmüş
*Xəndə* – gülmə, gülüş
*Xəndəfişan* – güldürən
*Xəndəriz* – güləyən
*Xərmöhrə* – dəyərsiz, qiymətsiz
*Xəsail* – xasiyyətlər
*Xəsm* – düşmən
*Xətm* – bitirmə, son
*Xətvəəndaz* – addım atan, addımlayan
*Xəvariq* – xariqələr
*Xisal* – xasiyyətlər
*Xizab* – tünd-qırmızı rəngli boyaq
*Xoşəlhan* – gözəl səslə oxuyan
*Xudabin* – Allahı tanıyan
*Xunalud* – qana boyanmış, qanlı
*Xunxar* – qaniçən, zülm edən
*Xunin* – qanlı; qana boyanmış
*Xunriz* – qan tökən
*Xup* – parlaq, işıqlı günəş
*Xüld* – daimi, əbədi
*Xülgzar* – bağ-bağçalı yer
*Xülq* – xasiyyət
*Xülusanə* – səmimiliklə
*Xünbar* – qanlı göz yaşı axıdan
*Xüram* – şadlıq, sevinc
*Xüsran* – ziyan, zərər; səhv
*Xüsuf* – ayın tutulması
*Xüşk* – quru
*Xüşunət* – sərtlik, kobudluq
*Xüttə* (*xittə*) – ölkə, qitə, yer, ərazi

**İ**

*İanət* – kömək, köməklik
*İba* – razı olmama, rədd etmə
*İbadullah* – Allah bəndələri
*İbda'* – ixtira, kəşf
*İbham* – şübhə, güman
*İbraz* – zahirə, aşkara çıxarma
*İbtihal* – istəmə, diləmə
*İbtisam* – gülümsəmə, təbəssüm
*İclal* – böyüklük, əzəmət, cəlal
*İctima* – bir yerə toplaşma
*İctinab* – çəkinmək
*İdamə* – davam
*İdrak* – anlayış, zəhm, dərk
*İxfa* – qizlətmə
*İxtilal* – qarışıqlıq
*İxtilat* – yaxın əlaqə

*İxvan* – qardaşlar
*İkmal* – kamala çatdırma
*İktifa* – kifayətlənmə
*İktisab* – qazanma, kəsb etmə; qazanc
*İqaz* – oyatma, ayıltma
*İqdam* – təşəbbüs etmə, başlama
*İqlal* – bəxt, tale
*İqtisab* – istifadə etmə, mənimsəmə
*İlfica* – sığınma, himayə istəmə
*İmfisal* – təqlid etmə; itaət etmə
*İmran* – mədəni
*İn'iqad* – bağlanma, qurulma
*İnbisat* – sevirmə; yayılma
*İngıraq* – ayırma, fərqlənmə
*İnkisar* – sınma, tabe olma
*İnqiraz* – sonu kəşilmə, məhv olma
*İnqisam* – bolünmə, hissələrə ayrılma
*İntaq* – dilləndirmə, söylətmə
*İntiba'* – nəşr etmə; təəssürat
*İntibah* – oyanma, renesans
*İntixab* – seçmə, ən yaxşını ayırma
*İntiqad* – tənqid; məzəmmət
*İntisab* – birləşdirmə
*İrfan* – bilmə, xəbərdar olma
*İrsal* – göndərmə, yola salma
*İrşad* – doğru yol göstərmə
*İrtibat* – münasibət, bağlılıq
*İrtifa* – yüksəklik
*İrtiqa* – yuxarı çıxma, ucalma
*İs'ad* – xoşbəxt, bəxtiyar etmə
*İsar* – bəxşiş, bağışlama
*İste'cab* – təəccüblənmək
*İstehqaq* – haqqı olma, zəhmət haqqı
*İstehzar* – hazır olmaq
*İstifaət* – bacarıq, iqtidar
*İstifham* – sorğu, sual
*İstiğniya* – qane olan; əlindəki ilə kifayətlənən: ehtiyacı olmayan
*İstikmal* – bitirmə, tamamlama
*İstinfax* – çoxaltma, yayma
*İstiva* – tarazlaşmaq
*İşkal* – müşküllük, çətinlik
*İştə* – budur, bax budur
*İştibah* – səhv; şəkk etmə
*İştiyaq* – qızğın zövq, şiddətli həvəs
*İtmam* – tamamlama, sona çatdırma
*İtminan* – arxayınçılıq, inam, etiqad
*İttixaz* – qəbul etmə, dərk etmə
*İzam* – böyüklər
*İzlal* – yolundan azdırma

**K**

*Kabus* – qarabasma, qorxulu yuxu
*Kafi* – kifayət edən; əlverişli
*Kahil* – tənbəl; key
*Kamil* – nöqsansız
*Kamkar* – kama çatan, xoşbəxt
*Kamran* – arzusuna çatan
*Kaşif* – kəşf edən
*Keyhan* – dünya, aləm, kainat
*Kəbir* – böyük, ulu
*Kəbutər* – göyərçin
*Kəm* – az, əskik
*Kəmbəha* – dəyəri az olan
*Kəminə* – kiçik, əhəmiyyətsiz
*Kəmşüuran* – şüuru, idrakı az olanlar
*Kəmtər* – lap az, azacıq; etibarsız
*Kəndi* – özü
*Kənz* – xəzinə, dəfinə
*Kərəz* – dəfə
*Kəsalət* – yorğunluq, süstlük
*Kəşşaf* – kəşf edən
*Kəşti* – gəmi

*Kəvakib* – ulduzlar
*Kəzzab* – yalançı
*Kibriya* – böyüklük, cəlal
*Kifaf* – kifayət edən
*Kilk* – qamış qələm
*Kinəvər* – gizli ədavəti olan
*Kizb* – yalan
*Köhl* – sürmə; göz dərmanı
*Kövkəb* – ulduz
*Kudək* – uşaq, tifil
*Küdəkmənişan* – uşaq təbiətlilər
*Küffar* – kafirlər
*Küfran* – yaxşılığı unutma; nankorluq
*Kühənsal* – qocalmış; köhnəlmiş
*Külbə* – koma, daxma
*Künuz* – xəzinə; yataq
*Küstax* – arsız, sırtıq
*Küsuf* – günəşin tutulması
*Kütah* – qısa, gödək
*Kütub* – kitablar

**Q**

*Qadir* – qüdrət və qüvvət sahibi
*Qafil* – qəflətdə olan, xəbərsiz
*Qaib* – hazır olmayan; hazırda məlum olmayan
*Qail* – inam, etiqad edən; deyən, söyləyən
*Qaim* – dayanan, ayaq üstə duran; mövcud olan
*Qamus* – lüğət kitabı
*Qate'* – kəsən
*Qayət* – son, nəhayət; hədd, dərəcə
*Qeyrətmənd* – qeyrətli, qeyrət çəkən
*Qəbail* – qəbilələr
*Qəbih* – çirkin, yaraşıqsız; pis, yaramaz
*Qədəhnuş* – qədəhdən şərab içən
*Qədəməndaz* – qədəm atan, ayaq basan
*Qədrşünas* – qədir-qiymət bilən
*Qəhhar* – qüdrətli, güclü
*Qəlbşikən* – ürək sındıran, könül qıran
*Qəlbzən* – yalancı, saxtakar
*Qələyan* – qaynama, coşma
*Qəmabad* – qəmli yer; qəm məhəlləsi
*Qəmavər* – qəm gətirən, cansıxıcı
*Qəmdidə* – qəm görmüş, qəm çəkmiş
*Qəməngiz* – qəm gətirən, qüssə doğuran
*Qəmküsar* – qəm dağıdan, qəmli zamanda təsəlli verən
*Qənayim* – qənimətlər
*Qəriq* – qərq olmuş, batmış
*Qərin* – yaxın, bir şayə nail olan
*Qərra* – parlaq, işıqlı, şöləli
*Qəsaid* – qəsidələr
*Qəsvət* (*qəsavət*) – sərtlik, rəhmsizlik
*Qət'a* – qətiyyən
*Qətlgah* – adam öldürülən yer
*Qəvi* – qüvvətli; varlı
*Qəviəndam* – bədəni qüvvətli, sağlam
*Qina* – kifayətlənmə; zənginlik
*Qina* – sevimə, sadlanma
*Qital* – qanlı müharibə, döyüş
*Qönçəzar* – güllük, çiçəklik
*Qövl* – söz, danışıq
*Qövm* – tayfa, nəsil
*Qövmi* – bir nəslə aid olan şey
*Qüddus* – çox əziz, müqəddəs
*Qüfran* – bağışlama, mərhəmət
*Qülub* – qəlb, ürək
*Qüyudat* – bağlama, bəndə vurma

**L**

*Lahut* – ilahiyyat
*Lahuti* – ilahiyyat elminə aid
*Laqeydanə* – laqeydcəsinə
*Lalәgun* – lalə kimi qırmızı, al
*Lame'* – parlaq, parıldayan
*Lamianə* – parlayaraq, parlaq halda
*Lanə* – yuva
*Lareyb* – şübhəsiz, yəqin
*Laşərik* – ortağı olmayan, şəriksiz
*Latəhani* – bitməz, tükənməz, sonsuz lövhələr
*Laübali* – özünə zəhmət vermək istəməyən; səhlənkar
*Layəzəl* – həmişəlik, əbədi
*Leyl* – gecə
*Leylı-zülmətnak* – zülmət kimi gecə qaranlığı
*Leylü* nəhar – gecə-gündüz
*Lə'n* – nifrin, qarğış
*Ləal* – dürlər, incilər
*Ləbxəndə* – gülümsəmə
*Ləbriz* – kənarlarından töküləcək qədər dolu
*Ləhn* – gözəl, axıcı səs
*Ləin* – məlun, lənətlənmiş
*Ləm'ə* – parıltı
*Ləm'əpaş* – parıltı saçan, parlayan
*Ləmyəzəl* – həmişəlik, əbədi
*Lərzan* – titrəyən
*Ləvame'* – parlayan şeylər
*Ləyamut* – ölməz, əbədi
*Lisanulqeyb* – qeybdən xəbər verən
*Livayi-nüsrət* – zəfər, qələbə bayrağı
*Lövhi-məhfuz* – əzbərlənən, hafizədən saxlanılan
*Lüccə* – dəniz, suyun çox dərin yeri

**M**

*Ma'* – saf, duru su
*Madər* – ana
*Madəranə* – anaya yaraşan tərzdə
*Mahvəş* – ay kimi, ay üzlü
*Malamal* – lap dolu, dopdolu
*Manənd* – bənzər, oxşar
*Masiva* – başqa, qeyri, müstəsna olaraq
*Matəmzədə* – matəmə batmış
*Mazi* – keçən, keçmiş zaman
*Mazipərəst* – mühafizəkar, köhnəlik tərəfdarı
*Mə'mur* – əmr alan
*Mə'va* – mənzil, yurd
*Mə'yub* – nöqsanlı, şikəst
*Mə'zur* – üzürlü
*Məal* – məfhum
*Məal* – məna, məfhum
*Məan* – mənalar
*Məbhut* – mat, heyran, döyükmüş
*Mədaris* – mədrəsələr
*Mədfən* – gor, qəbir
*Mədhuş* – qorxmuş; bihuş
*Məğfərət* – günahların bağışlanması
*Məğmun* – qəmli, qüssəli
*Məğzub* – qəzəbə tutulmuş
*Məhasin* – hüsnlər
*Məhfuz* – mühafizə edilmiş
*Məhqur* – təhqir, təhqir olunmuş
*Məkarim* – nəsib əməllər
*Məqal* – söyləmə, söz; mövzu
*Məqbər* – məzar, qəbir
*Məqtul* – öldürülmüş, qətl edilmiş
*Mələkut* – ruh aləmi
*Məmat* – ölüm
*Mənbəi-ümmid* – ümidin başlanğıcı
*Məs'ədətəfza* – xoşbəxtlik, səadət artıran

*Məsa* – axşam, gecə
*Məsaibgahi*-dəhr – müsibətlər dövrü, zamanı
*Məsərraf* – şadlıqlar
*Məshur* – yazılı, yazılmış
*Məsruf* – sərf olunmuş
*Məstur* – örtulu, gizli
*Məşru'* – qanuni, şəriətə uyğun
*Məvane'* – maneələr
*Məvəddət* – sevgi, məhəbbət
*Məzhər* – təzahür, nail olma
*Məzkur* – adı çəkilmiş, qeyd edilmiş
*Miftah* – açar
*Mirat* – güzgü, ayna
*Möfad* – adət edilmiş, vərdiş edilmiş
*Möhnətəfza* – dərd artıran
*Mövc* – dalğa, ləpə
*Mövf* – ölüm
*Mövzun* – yaraşıqlı
*Mucib* – lazım, zərurət
*Mur* – qarışqa
*Murğ* – quş
*Mübəddəl* – dəyişdirilmiş, əvəz edilmiş
*Mücəlla* – parlaq
*Mücəssəm* – xəyalən cism halına girmiş, canlanmış bir şey
*Müdavat* – müalicə, dərman vermə
*Müəzzəz* – əziz, şərəf göstərilən adam
*Mühübb* – dost
*Müin* – köməkçi, yardım edən
*Mükərrəm* – möhtərəm, hörmətli
*Müqərrər* – iqrar olunmuş, hazır
*Müqim* – daimi, həmişəlik; yaşayan, sakin
*Müləmmə'* – rəngbərəng, parlaq
*Mümtaz* – seçilən, imtiyazlı
*Münqad* – itaət edən
*Müntəha* – son, nəhayət, axır
*Mürdədilən* – qəlbi ölü, ruhsuz
*Mürəssə* – cavahirat ilə bəzənmiş
*Müsavat* – bərabərlik
*Müsəffa* – saf hala gətirilmiş
*Müsəxxər* – zəbt, işğal olunmuş
*Müsəvvir* – rəssam, təsvir edən
*Müstəfid* – faydalanan, iştifadə edən
*Müstəhəqq* – layiq olan
*Müzəyyən* – zinətlənmiş, bəzənmiş

**N**

*Nabına* – kor, gözü görməyən
*Naəhl* – yaramaz, tərbiyəsiz
*Nafilə* – boş yerə, hədər
*Nagah* – birdən, qəflətən
*Nahəmvar* – düz olmayan; kobud
*Naqabıl* – qabiliyyətsiz, ləyaqəti olmayan
*Naləzən* – ağlayan, nalə edən
*Namdar* – adlı-sanlı
*Namuskar* – namuslu, təmiz adam
*Napəzir* – qəbul edilməyən
*Nar* – od
*Nari*-cəhalət – cəhalət odu
*Nasut* – insanlıq, insaniyyət
*Navək* – ox
*Nəcat* – qurtulma, xilas olma
*Nəfasət* – zəriflik, incəlik
*Nəfhəbəxş* – mənfəət verən, faydalı
*Nəğməpərdaz* – nəğmə yazan
*Nəğmərizi* – nəğmə kimi ürəyə yatan
*Nəvahat* – növhələr
*Nəyyir* – nurlu, işıqlı
*Nəzərgah* – baxılan, nəzər salınan yer
*Niran* – odlar; cəhənnəm
*Nisar* – səpmə, dağıtma; qurban
*Nisvan* – qadınlar

*Novhəsaz* – oxşayıb ağlayan
*Novxəndə* – yeni açılmış (çiçək)
*Novzad* – yeni meydana gəlmiş, təzə doğulmuş
*Növxiz* – yeni cücərib qalxan, təzə cücərən toxum
*Növi*-bəzər – insan nəsli
*Növnihal* – cavan ağac, fidan
*Nücəba* – nəcib adamlar
*Nüktədan* – dərin mənalı sözlər bilən
*Nümadar* – görünən, zahir olan
*Nümayan* – görkəmli, görünən
*Nüsrət* – yardım; zəfər

**O**

*Ovham* – vahimələr, vəhmlər
*Ovraq* – vərəqələr
*Ovsaf* – vəsflər, keyfiyyət
*Ovza* – vəziyyətlər

**Ö**

*Övraq* – darmadağın edilmiş, sökülmüş
*Övrəng* – taxt

**P**

*Pa* (*pay*) – ayaq, addım
*Pabənd* – ayağıbağlı; əsir, dustaq
*Pasıban* – keşik çəkən, qoruyan
*Paydar* – daimi, həmişəlik, ədəbi
*Peydərpey* – bir-birinin ardınca, dalbadal
*Peyğam* – sifariş, xəbər
*Peykər* – surət, çöhrə, üz
*Pədidar* – aşkar, zahir
*Pədidə* – görünüş
*Pənd* – öyüd, nəsihət
*Pər* – qanad
*Pərdədar* – pərdəli, pərdəsi olan
*Pərəst* – sifariş edən; istəyən
*Pərəstar* – pərəstiş edən; aşiq
*Pərran* – uçan, uçucu
*Pərtovbar* – işıq saçan, parlayan
*Pərva* – rəğbət, meyl
*Pərvanəvar* – pərvanə kimi
*Pərvəriş* – tərbiyə; böyütmə
*Pəsənd* – bəyənmə, tərifləmə
*Pəsəndidə* – bəyənilmiş, xoşa gələn
*Pir* – qoca
*Pirahən* – köynək
*Pirayə* – zinət, bəzək
*Pirəzal* – qoca, yaşlı
*Puşidə* – örtülü, gizli
*Puyan* (*puyəndə*) – sürətlə gedən, yeriyən
*Pür* – dolu
*Püraşub* – fəsadla dolu, qarmaqarışıq
*Pürataş* – odlu, odla dolu; kədərli, qəmli
*Püravaz* – quruldayan, qurultulu
*Pürazar* – əziyyətlə dolu
*Pürbəla* – çox bəlalı
*Pürxətər* – çox təhlükəli, xatalı
*Pürsürur* – sevinclə dolu

**R**

*Rağib* – rəğbət göstərən; istəyən
*Rah* – yol
*Rahətəfza* – rahatlıq artıran, dinclik gətirən
*Rahiyədar* – gözəl qoxulu
*Rahnüma* – yol göstərən
*Rahyab* – yol tapan, fürsətdən istifadə edən
*Rai* – çoban; bir tayfanın rəisi

*Rə'd* – göy gurultusu
*Rə's* – baş, təpə
*Rəbb* – sahib, yiyə; Allah
*Rəbbani* – ilahi, Allaha mənsub
*Rəbi'* – ilk bahar
*Rəfaqət* – yoldaşlıq, şəriklik
*Rəha* – qurtuluş, xilas olma
*Rəhzən* – yol kəsən
*Rəxşan* – parlaq, işıqlı, şəfəqli
*Rəkz* – yerə sancma, uzun bir şeyi dikinə yerə başdırma; yüksəltmə
*Rəqsan* – rəqs edən, oynaya-oynaya
*Rənc* – zəhmət, narahatlıq
*Rəncidə* – incik, incimiş
*Rəsən* – ip, kəndir
*Rəzmgah* – döyüş meydanı
*Rəzzaq* – ruzi verən, bəsləyən
*Ricali-dövlət* – dövlət adamları
*Rizq* – azuqə; ruzi
*Rubah* – tülkü; ikiüzlü; qorxaq
*Ruhbəxş* – ruh verən, ruhlandıran
*Ruhülqüds* – müqəddəs rüh; İsa peyğəmbərin və Cəbrailin ləqəblərindən biri
*Rüfəqa* – rəfiqlər, yoldaşlar
*Rüku* – sütun, istinadgah
*Rümuz* – rəmzlər
*Rürbəha* – çox qiymətli

## S

*Sadir* – zahir olan, çıxan
*Sağər* – şərab piyaləsi, qədəh
*Sahibnəzər* – fərasətli, zəkalı, düşüncəli
*Saqıb* – dələn, deşən; çox parlaq
*Salim* – sağ, sağlam; eybsiz, nöqsansız
*Sayəzar* – kölgəlik
*Seyf* – qılınc
*Seyqəl* – sığal; cilalayıcı alət
*Səbt* – qeyd etmə, yazma
*Səbükməğzan* – yelbeyin, yüngülxasiyyətli
*Sədhəzaran* – yüzminlər
*Səfabəxş* – səfalı, əyləndirən
*Səfahat* – səhifələr, səhifənin cəmi
*Səfahət* – səfehlik, ağılsızlıq, giclik
*Səffak* – qantökən, qaniçən
*Səfki-dəma* – göz yaşı axıdan
*Səhaibparə* – bulud parçası
*Səhba* – şərab, badə
*Səhhar* – sehrçi, sehirbaz; fövqəladə bir qüvvə ilə cəzb edən
*Səhl* – asan, yüngül
*Səhli-mümtənə'* – asan olmayan, çox çətin
*Səhmnak* – qorxunc, dəhşətli
*Səxtdil* – daşürəkli
*Səlatin* – sultanlar
*Səm'* – eşitmə, qulaq asma
*Səmənrüxsar* – yasəmən üzlü; gözəl
*Səngi-xarə* – çaxmaqdaşı
*Sərməsti-istiğna* – etinasız, hər şeyə biganə; sərxoş
*Səyyad* – ovçu
*Səza* – layiq, münasib
*Sibyan* – oğlanlar, yeniyetmələr
*Sirri-xəfa* – gizli şey; məxfi sirr
*Suzan* – yandıran, yaxan
*Sübhan* – tərif, alqış; eşq olsun
*Süflanı* – həqarətli
*Süluk* – rəftar, hərəkət tərzi
*Sürud* – nəğmə, avaz
*Sürurabad* – şadlıq evi
*Syuf* – qılınclar

## Ş

*Şadan* – sevinən, şadlanan
*Şahbal* – uzun qanad; lələk

*Şahrahi-fünun* – elmin, mərifətin baş yolu, baş küçəsi
*Şaki* – şikayət edən, şikayətçi
*Şayistə* – yaraşan, layiq
*Şeyda* – dəlicəsinə vurğun
*Şə'şəat* – dəbdəbə, təmtəraq
*Şə'şəədar* – parıldayan, parıltısı olan
*Şə'şəfza* – dəbdəbə, parlaqlıq artıran
*Şəbab* – gənclik, cavanlıq
*Şəcər* – ağac
*Şəhamət* – nəciblik
*Şəkərbar* – çox şirin, ləzzətli
*Şəqavət* – bədbəxtlik, uğursuzluq
*Şərarə* – qığılcım, qor; müsibət, fəlakət
*Şərarət* – yamanlıq, pislik
*Şərir* – şər işlər görən; yaramaz adam
*Şihab* – şölə, od parçası
*Şihabi*-saqıb – axan ulduz, meteor
*Şikaf* – yaran, parçalayan
*Şikənc* – qıvrım, bükük
*Şirinməqal* – danışığı xoş olan
*Şita* – qış
*Şitab* – çeviklik
*Şitaban* – tələsən, yüyürən
*Şö'lədar* – alovlu, alovlanmış
*Şuridə* – qarışıq, dağınıq
*Şükufə* – gül, çiçək
*Şükufəzar* – çiçəklik, güllük

## T

*Taban* – parlaq, işıqlı
*Tabdari-mə'dalət* – ədalət, insaf işığı; parlaq ədalət
*Taəbəd* – həmişəlik, sonsuz olaraq
*Taət* – itaət, boyun əymə
*Taha* – Məhəmməd peyğəmbərin adlarından biri
*Teyr* – quş
*Teyy* – sarıma, bükmə; keçib başa çatdırma
*Təali* – yüksəlmə, ucalma
*Təavun* – bir-birinə yardım etmə, köməklik
*Təbah* – məhv olmuş, puç olmuş
*Təbəssümriz* – güləyən, gülümsəyən
*Təbiiyyun* – təbiət elmləri ilə məşğul olan, təbiyyat alimi
*Təcəddüd* – yeniləşmə, təzələnmə
*Təcəlla* – əyan olma, görünmə
*Təcəllabəxş* – təzahür edən, görünüş bəxş edən
*Tədavi* – müalicə etmə, müalicə
*Təfəyyüz* – feyz alma, feyzlənmə
*Təhəccür* – daşlaşma, daşa dönmə
*Təhərrüz* – qorunma
*Təhəyyür* – heyran olma, heyrətə düşmə
*Təhzir* – yavaşca əşmə, titrəmə
*Təxsis* – həsr etmə, ayırma, məxsus etmə
*Təkəllüm* – danışma, söyləmə
*Təqatür* – damcı-damcı axma
*Təqdis* – hörmət etmək, sitayiş
*Təqrir* – söyləyib anlatma; izhar etmə
*Təməddün* – mədəni olma, tərəqqi, mədəniyyət
*Təməllüq* – yaltaqlanma, yaltaqlıq
*Təməyyür* – fərqlənmə, seçilmə
*Təmyiz* – ayırma, seçmə, fərqləndirmə
*Tənəffür* – nifrət etmə, çəkinmə
*Tənəvvüz* – ziyalılaşma, bilik sahibi olma
*Tənnuri-qəm* – qəm ocağı, möhnət təndiri
*Tənvir* – aydınlaşdırma, işıqlandırma
*Tənzir* – bənzətmə; bir serə nəzirə yazma

*Tərcih* – daha artıq bəyənmə
*Tərəhhüm* – rəhm etmə, acıma
*Tərənnümsaz* – tərənnüm edən
*Tərğıb* – həvəsləndirmə, rəğbətin artırma
*Təriq* – yol, məslək
*Təsfiyə* – saflaşdırma, durulaşdırma
*Təsxir* – zəbt etmə, ələ keçirmə
*Təşxis* – fərqləndirmə; tanıma
*Təvaif* – tayfalar
*Təvarix* – tarixlər
*Təvəccöh* – rəğbət, meyl
*Təvəddüd* – sevmək, eşq yetirmək
*Tirəbəxt* – qaragün, qarabəxt
*Tiri-möhnətbar* – möhnət oxları
*Tühəf* – misli-bərabəri olmayan; əyləncəli
*Tünbadi-cəhl* – bədbəxtlik çölü, fəlakət səhrası

**Ü**

*Übudiyyət* – qulluq, köləlik; itaət, asılılıq
*Üdəba* – yazıçılar, ədiblər
*Üdvan* – düşmənçilik; zülm, haqsızlıq
*Üxüvvət* – qardaşlıq
*Üqba* – axirət, o biri dünya
*Üqubət* – əzab, əziyyət
*Üləma* – alimlər
*Ülüləbsar* – bəsirət sahibləri, uzaqgörənlər
*Ünas* – qadınlar, qızlar
*Ürəfa* – arıflər, arif adamlar
*Ürvətülvusqa* – möhtərəm əlaqə, rabitə
*Üsrət* – çətinlik, sıxıntı
*Üssi-əsasi* – sirlərin təməli, bünövrəsi
*Üşşaq* – aşiqlər
*Üzma* – çox böyük, ən böyük

**V**

*Vabəstə* – bağlı, asılı
*Vaəsfa* – təəssüf! ey vah!
*Vaqif* – xəbərdar, bilikli
*Validə* – ana
*Valiyi-ne'mət* – nemət sahibi
*Vase'* – geniş, enli
*Vazeh* – açıq, aşkar
*Və'z* – öyüd, nəsihət
*Vəcaət* – ağrı, sızıltı, sancı
*Vəcahət* – gözəllik; şan, şərəf
*Vəhdaniyyət* – birlik
*Vəhşətəngiz* – qorxu törədən
*Vəhşətgah* – qoxunc yer
*Vəxim* (*vəximə*) – ağır, xətərli
*Vəlleyl* – burada: gecədə
*Vəsail* – vəsilələr, vasitələr
*Vifaq* – uyğunluq; həmfikir olma
*Vird* – eyni sözü təkrar etmək
*Virdi-zəban* – dildə daim təkrarlanan
*Vükəla* – vəkillər, nümayəndələr
*Vüslət* – aşıqın məşuquna qovuşması, birləşmə

**Y**

*Yeksan* – düz, bərabər
*Yekta* – tayı-bərabəri olmayan; nadir
*Yekzəban* – dilbir, sözbir
*Yə's* – yas, matəm; məyusluq
*Yəd* – əl-qol; güc, zor
*Yəmin* – and, əhd-peyman
*Yəsavəranə* – ümidsizlik yaradan
*Yəzdan* – Allah
*Yövm* – gün

## Z

*Zadə* – doğulmuş; hasilə gəlmiş
*Zaid* – artıq, əlavə, artırılan
*Zaiq* – zövq alan
*Zail* – müvəqqəti; fanı
*Zalimanə* – zalımcasına
*Zehi* – nə gözəl, əcəb, nə yaxşı
*Zeyl* – aşağıda göstərilən
*Zəban* – dil
*Zəbanə* – alovun şöləsi, dili
*Zəbun* – qüvvətsiz, gücsüz
*Zəğən* – dolaşa
*Zəxmdar* – yaralı
*Zərq* – riya, ikiüzlülük
*Zib* – bəzək, zinət
*Zibi-zindani-səfalət* – səfalət zindanının bəzəyi
*Ziiqtidar* – qüdrətli, qüvvətli, qadir
*Zill* – kölgə, sayə
*Zində* – diri
*Ziruh* – canlı
*Zivəri*-ənzar – gözəl nəzərlər
*Ziyabəxş* – işıq saçan
*Ziyadar* – işıqlı, nurlu
*Zövqavəri-fikr* – zövqverici fikir
*Zülam* – zülmət, qaranlıq
*Zülcəlal* – cəlal sahibi
*Zülmabad* – zülm, haqsızlıq evi
*Zülmətgədeyi-yə's* – məyusluq evi
*Zülmətkədə* – zülmət bürümüş
*Zülmətpəsəndan* – tərəqqi və yenilik düşmənləri; qaranlıq sevənlər

# MÜNDƏRİCAT

*Ön söz* . . . . . . . . . . 4

LİRİKA

1906

Nəğmeyi-əhrarانə . . . . . . . . . . 19
Məktəb . . . . . . . . . . 20
Məktəb şərqisi . . . . . . . . . . 21
Birinci [Qosudarstvennaya] Dumanın in'iqadı münasibətilə söylənmişdir 22
İnsan nə ilə mükərrəm olur? . . . . . . . . . . 23
Biz nə haldayıq? . . . . . . . . . . 24
Lövheyi-təsviri-maarif . . . . . . . . . . 25
Maarifə dair . . . . . . . . . . 27
Qələmə . . . . . . . . . . 28
Amali-tərəqqi . . . . . . . . . . 29
Qızlar bağçası . . . . . . . . . . 30
Amali-istiqbal . . . . . . . . . . 31
Təraneyi-qəmpərvəranə . . . . . . . . . . 32
Mənaziri-təbiət . . . . . . . . . . 34
Kitabi-həyat . . . . . . . . . . 34
Bədayeyi-təbiət . . . . . . . . . . 36
Hissiyyati-madəranə . . . . . . . . . . 37
El fəryadı . . . . . . . . . . 39
İsmət, yaxud əfif olan zatların xəsaili . . . . . . . . . . 40
Tövsiyeyi-mürğ . . . . . . . . . . 42

1907

Təbriki-eydi-əzha . . . . . . . . . . 43
Təraneyi-milli . . . . . . . . . . 45
Bülbül . . . . . . . . . . 47
Vətənin nidası . . . . . . . . . . 48
Fəzaili-insaniyyə . . . . . . . . . . 49
Saqiyə bir niyazi-ricaməndanə . . . . . . . . . . 50
Pəriyi-vicdan . . . . . . . . . . 50
Arzuyi-dil . . . . . . . . . . 51
Sevgili şagirdlərimizə ərməğan . . . . . . . . . . 52
Bir əməlim . . . . . . . . . . 53
Lövheyi-bahar . . . . . . . . . . 55
Şirvan xatiratı Rövşənayi-Leyldə bir xərabazarın mənzərəsi . . . . . . . . . . 57

Facieyi-həyatımızdan bir pərdə . . . . 59
Amali-vicdan . . . . 61
Təxəttüri-mazi . . . . 62
Ulduzlara . . . . 63
Molla Nəsrəddinə . . . . 65
Bükayi-təbiət . . . . 67
Nəvayi-rindanə . . . . 68
Axşam tənəzzöhləri . . . . 69
Dad istibdaddan! . . . . 72
Həsbhal, yaxud bizim Hadinin iztirabı . . . . 73
Gözlərin . . . . 75
Bir aşiqi-hürriyyətin ehtisasati-ruhiyyəsini təsvir və iraə edən bir lövhədir . . . . 76
Əlvida, yaxud acı bir iqrar . . . . 77
Nəyimiz var? . . . . 78
Mücahidi-millət Həsənbəyin ruhuna ithaf . . . . 79
Dünya saheyi-qəmdir . . . . 81

1908

Kimdən kimə şikayət edəlim . . . . 83
Ədibi-şəhir Həsən bəyin ruhuna ithaf . . . . 84
Rəhgüzari-mətbuatda bir şükufeyi-məarif . . . . 85
Təsviri-bədaye . . . . 87
Nəvəhati-həyat . . . . 89
Şərareyi-ruh . . . . 90
Mələkim, nədir o? . . . . 94
Təraneyi-vətənpərəstanə . . . . 95
Ah, kimsəsiz vətən! . . . . 97
Ey mütribeyi-dövri-təməddün . . . . 99
Şikvayi-aşiqanə, yaxud əlhani-pərişan . . . . 101
İstiqbalımız parlaqdır . . . . 104
Həqiqi bir xəyal, yaxud bir lövheyi-cəmal . . . . 107
Biz həqiqətə gülürük, həqiqət bizə ağlayır . . . . 108
Ləyali-vüsal, yaxud keçən gecə . . . . 110
Ey pəriyi-istiğna! . . . . 110
İranın hürriyyət qəhrəmanlarına . . . . 112
Təsviri-məhəbbət, yaxud vərəqi-eşqü məvəddət . . . . 113
Mən bir kitabəm . . . . 115
Əş'ari-pərişan, yaxud solğun çiçəklər . . . . 117
Milli nəğmələr . . . . 119
Rəhgüzari-mətbuatda lövheyi-şəfqət, yaxud üç zavallı . . . . 122
Ədvari-təcəddüd, əs'ari-inqilab . . . . 122
Həqiqət acımı, dadlımı? . . . . 124

Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar .................... 128
Əksi-ənini-vətən .............................. 131
Mizani-əqvam .............................. 133
Fədakarlıq-mərdanəlik .............................. 134
Yazıq millət! .............................. 135
Duşizeyi-hürriyyətə .............................. 136
Bir mütəəllim rəfiqimin fotoqrafına qarşı söylənmişdir ............. 136
Qələm .............................. 138
Qələm nə söyləyir? .............................. 139
Gürbərgi-pərişan .............................. 143
Mə’şuqəmə .............................. 143
Təavün .............................. 143
Cəhalətimdən şikayət .............................. 144
Bu da bir həqiqət .............................. 144
Şeyxlərə-işanlara .............................. 144
Sofiyə-zahidə .............................. 145
Gül, sevdiciyim, gül! .............................. 145
Məhəmmədəli şahın qulağına azani-intibah ...................... 148
Hübbi-vətən .............................. 148
Rüfəqadan birinin məktubuna yazılan məhəbbətnamədir ............ 149
Halımız .............................. 149
Əql .............................. 149
Şüur .............................. 150
Zavallı könlüm .............................. 150

1909

Təraneyi-əhrarانə .............................. 152
Əfkari-pərişan, ya ki təraneyi-təhəyyüranə ........................ 154
Məşriqdən bir səda .............................. 158
Eydiyanə .............................. 159
Bariqeyi-zəfər parlayır, istiqbal bizimdir ......................... 160
İşıq və təzə aləm .............................. 166
Əziz dostum! .............................. 168
Dilənçi .............................. 168
Əməli-müxəyyəl .............................. 170
Aliheyi-hürriyyətə! .............................. 171
Məhbubeyi-ruh – mənfureyi-ruh və mükalimələri ................ 173
Səhneyi-mübarizeyi-həyatda şanlı insanlar ........................ 175
Qanuni-təkamül .............................. 177
Ya leyl! .............................. 179
Bir zöhreyi-həyatın üfulu .............................. 182
Bir işsizin qış düşüncələri .............................. 184
Əndişeyi-həyat .............................. 189

Aşiyani-viran! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 190
Təkamüli-mə'kus və ümmidi-pərişan . . . . . . . . . . . . . . . . . . . . . . 197

1910

Oxu, bil, öyrən! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 196
Fəxamətli əfəndim, pardon! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 197
Gərəkməz! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 199
Şair, hücreyi-iştiğali və düşüncələri . . . . . . . . . . . . . . . . . . . . . 200

1911

Bir iştikayi-möhriq... Çeşmi-ədəb bu gün ədəbiyyata ağlayır . . . . . . . . 202
Sabirin yadigarına ithaf . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 204
Təbrik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 204

1913

Cinsi-lətifə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 205
Tofiq Fikrətə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 205

1914

Ağlayan şe'rlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 206
Nisviyyət təranələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 207
Əzhari-əfkar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 208
Pəyami-dilaram . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 210
Bahari-əfkar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 210
Dün axşamın ilhami-yetimanəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . 212
Asi şe'rlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 213
Qüvvət, həyat, ümid . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 214
Müəmmayi-kainat . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 215
Zamanın məzhəkələrindən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 216
Xəluqun pədəri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 216
Xəndeyi-zəfər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 217
Timsali-məlal, hüsni-məhzun . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 218
Qanlı sətirlər və qaileyi-həyat . . . . . . . . . . . . . . . . . . . . . . . . . 219
Hərbi-müsəlləs, yaxud cəngi-seahəng . . . . . . . . . . . . . . . . . . . . 220
Fəzilət sahibləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 221
Şərareyi-əfkar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 223
Xabgahi-mövta, ilhamati-əmvat . . . . . . . . . . . . . . . . . . . . . . . . 223
Şeytani-rəcimin cənab Rəhimə xitabələri . . . . . . . . . . . . . . . . . . 224
Aşiqi-giryan, canani-xəndan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 225
Açıq və aydın düşüncələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 227
Tamaşayi-riqqətəngiz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 228
Livayi-zəfərin tamaşası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 230

Ümid səhneyi-tamaşayi-həyatın ruhudur . . . . . . . . . . . . . . . . . . . . . . . . 231
Parlaq günəş altında işıqsız gözlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 233
[Nisvanı sanma yalnız, sərdari-zihəşəmdir] . . . . . . . . . . . . . . . . . . . . . . . 234
Ümməhati-həyat, yaxud cinsi-lətifə bir baxış . . . . . . . . . . . . . . . . . . . . . 234
Əlvahi-nəfasət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 242
Çöhreyi-fərda bu gün açsın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 243
"Örtün" deyirsən?.. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 244
Mülhimeyi-əş'ar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 246
Layəmut şe'rlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 254
Bariqeyi-inqilab . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 255
Alihati-ilhamat və həyat pərəstidələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 256
Növxəndə çiçəklər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 257
Yadi-vətən... (Şirvanda "Nicat") . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 258
Hüsni-qalib və hüzni-cazib . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 260
Ulduzlara doğru . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 262
Nasıl yüksəlməli? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 262
Cəhalət zənciri və kor gözlü rəhbər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 264
Fikrət? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 265
[Şərq ilə Qərbin müqayisəsi] . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 266

1915

Meydani-hərb xatirələrimdən . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 271
Ulduzlu bir gecədə müharibə tamaşası və "Şahnamə"
şairi-ziiqtidarını xatırlamaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 272

1916

Dilək ölməz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 275

1917

Qış günlərində odlu fəğanlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 277
Acı həqiqətlər qarşısında dadlı xatirələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . 278
Əməl . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 280
Bəşər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 284

1918

Vaxtın səsi və həyatın sözü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 285
Ayrılıq dəqiqələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 286
Bədbəxt kor çocuq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 287
Qürbət ellərdə yadi-vətən (Karpatda ikən) . . . . . . . . . . . . . . . . . . . . . . . 288
Aydınlıq bir gecədə təfəkkür dəqiqələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . 293
Həyati-hazirəmizin ilhamları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 294
Şe'r inciləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 295

1919


Baharın ilhamları və ictimai rəmzlər . . . . . . . . . . . . . . . . . . . . . . . . 296
Kor soqqur . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 298
Qəmərə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 299
Ey zavallı bəşər! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 301
Hərarətli şe'r və yaxud qızdırmalı halımda saçmalarım . . . . . . . . . . . . . 302


POEMALAR

1908


Beşikdən məzara qədər bəşərin əhvalı . . . . . . . . . . . . . . . . . . . . . . . . 307
Aləmi-müsavatdan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 320
İranlı qardaşlarıma . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 332
İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah . . . . . . . . . . . . . . . . . . . 336


İQTİBAS VƏ TƏRCÜMƏLƏR


Ədl-zülm, yaxud bir xərabəzarın mənzərəsi . . . . . . . . . . . . . . . . . . . . 359
[Cövlangəhi-fikr olursa vase'] . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 361
Cavanmərdlik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 362
Şamda qəhətlik . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 363
Hekayeyi-eşq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 365
[Əgər insaf ilə sorsan, həqiqət] . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 366
Mütaliəyə dair . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 366
Məhəmmədəli Mirzənin nəzəri-diqqətinə ədalətli bir vəsiyyət . . . . . . . 366
Nəsimi-səbayə niyaz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 371
Zümzümeyi-aşiqanə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 371
Dinlə, gözəlim! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 372
Ümidi-visali-canan, yaxud qəm yemə . . . . . . . . . . . . . . . . . . . . . . . . 373
Təraneyi-tövhid . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 375
Bir iranlının lisanından . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 377
Nizaminin övladına nəsihəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 378
Zahirpərəst alimlərə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 379
Təraneyi-zəfər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 380
Bir sərgüzəşti-xunin . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 382
Tövbə-istiğfar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 394
Hər gülşəndən bir çiçək . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 398
İlhami-Xəyyam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 400

*İzahlar və qeydlər* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 403
*Lüğət* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .442

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Alianna Duxanina* |
| Korrektor: | *Ceyran Abbasova* |

Yığılmağa verilmişdir 04.11.2004. Çapa imzalanmışdır 05.05.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 29. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 111.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.